کوچورمك مسئله‌سینگ حلینی معارف قومیسارلغیناه‌حول ایتمك؛ محل‌لردن اولان معروضه‌لردن سوکرا اوچ معروضه دیکله‌نیلدی: نماینده قادین یغنجاقلارینك فعالیتی باره‌سنده؛ ایشچی قادین. فعله آروادلاری اولان ایو خوزیایقالاری و کندلی قادینلار آراسیندا آپاریلاجاق کیتله‌وی ایشلرك فورماسی؛ و برده شورالارك یگیدن سه‌چیلمه‌لری و بو قامپانیا مناسبتیله زحمتکش قادینلار آراسیندا آپاریلان ایشده فرقه‌نك مقصدلری مضمونلرینده معروضه‌لر دیکله‌نیلدی.

بو اوچ معروضه‌لر باره‌سنده مذاکرات باشلانوب آخردا مشاوره عضولری آراسیندا خصوصی قومسیه‌نرده انتخاب ایدیلدی.

شورالارك یگیدن سه‌چگیلری و اجتماعی ایشلرده چالیشان قادینلارك آراسیندا آپاریلان ایش.

شورالارك یگیدن سه‌چیلمه‌لری باره‌سنده اولان معروضه حقنده بو قامپانیا مناسبتیله زحمتکش قادینلار آراسیندا آپاریلان ایشده فرقه‌نگ مقصدلری گوستریلدی. آذه‌ربایجان قوممونیست (ب) فرقه‌سی مرکزی قومیته‌سینگ آخرکی پله‌نومیندا بیزیم قادینلاری شورالارا جلب ایتمك ایشینده کی نائیلیتلریمز قید ایدیلمشدی.

پله‌نوم قید ایتدی که «کیچن ییلکی قامپانیادا کندلی قادینلارك خصوصا تورك قادینلارینگ چیقیشی وسه‌چگیلرده گوستردیگلری آقتیولیگی بویوك سیاسی اهمیتی اولان بر ایشده فرقه‌مزك باشلیجا بیر نائیلیتی کیبی قیدایتمك لازمدر».

مشاوره قرار قویدی که: «فرقه رهبرلیگی ایله ایشچی و کندلی قادینلاری یگی سه‌چگیلره جلب ایتمك، او قادینلارك گیت ـ گیده آرتماقدا اولان آقتیولیگلرندن شورالارك ایشلرینه جلب ایتمك یولوندا استفاده ایتمك؛ و شورالاردا نفوذمزك یوکسلمه‌سی ـ فرقه‌نك کند ایشلرینده تعقیب ایتدیگی اك مهم مسئله‌لردن بریسی اولمالیدر. بو سبیدنده زحمتکش قادینگ سه‌چکی قامپانیاسینا جلب ایدیلمه‌سی ایشینده اك جدیتلی تشویقات ایشی آپاریلمالیدر. قاباقمزدا دورمش اولان تازه سه‌چگیلر عملی ایشلرده اوزجدیتلرینی گوسترمش ایشچی و کندلی قادینلاری شورالارا واجرائیه قومیته‌لرینه سه‌چمك ایشینگ قوتلنمه‌سینه واسطه اولمالیدر.

بوندان علاوه نامزدلری انتخاب ایتدیگده ایشه‌رسمیت نقطه نظریله یاناشمایوب، قادینلارك جدیتی و ایشه‌یارارلیغی و باشقا لیاقت‌لره استنادایده‌رك انتخاب ایتمك لازمدر. خصوصا کند شورالری صدری وظیفه‌سینه سه‌چیلمه‌جك قادینلارك نامزدلیگلرینه آرتیق دقتله یاناشماق لازمدر.

مشاوره قید ایتدی که «شورالارا جلب ایدیلمش قادینلارك چوغالماسی ایله برابر اونلارك شورالاردا کی عملی ایشلری کافی درجه‌ده ده گلدر»

کند شوراسینگ آقتیو ایشلرینه قادینی جلب ایتمك یولرلارینك بریسی اولاراق کند شورالری عضوی اولان قادین‌لار ایله کندك باشقا آقتیو (نماینده قادینلار. عملی ایشلرده چالیشانلار، کنده متقابل یاردیم قومیته‌سی عضوی اولان قادینلار قوئوپیراتیف وسائره‌ده چالیشان) قادینلارینك اشتراکیله مشاوره‌لر چاغیرماغی لازم بلدی. بو مشاوره کند شوراسینده مذاکره‌یه قویولاجاق مسئله‌لر ایله قاباقجادان تانیش اولوب اونلاری مذاکره‌یه قویاجاقلار. شورا عضو اولان کندلی قادینلار الده ایدیلمیش تجربه‌لری و دستورالعملری بیری او بیریسینه اوگرتمك ایچین مشاوره بو ایشلری لازم گورور:

آ) یلده ایکی دفعه‌دن آز اولمیاراق کند شوراسی عضوی اولان قادینلارك قضا و یاخود دائره مقیاسلارینداقونفرانسلارینی چاغیرماق؛ ویلده بر دفعه اولماق شرطیله‌ده کند شوراسی صدری وکاتبی اولان کندلی قادینلارك بتون آذه‌ربایجان مشاوره‌لرینی چاغیرماق.

ب) کندلی قادینلاری شورالارك ایشلرینه جلب ایتمك مسئله لرینه دائر قضا اجرائیه قومیته‌لری طرفندن کند شورالارینا متمادیا دستورالعمل ویریلمه‌سی. بونگله بیله محلی فرقه و شورا تشکیلاتلاری کندلرده شوراصدری اولارکندلی قادینلارك ایشلرینه آیریجا اولاراق دقت یترمه‌لیدر: چونکه بیزیم شرائطمزده او قادینلارك ایشلرینگ چوق بیوك همیتی واردر؛ و اونلارا فرقه‌نیگده تام کومگی لازمدر.

نماینده‌لر یغنجاقلارینك ایشی.

نماینده قادین یغنجاقلارنیگ ایشی باره‌سنده اولان معروضه خصوصنده مشاوره بونی قید ایتدی که باکو شهرینده و قضالرده‌ده نماینده‌یغنجاقلارنیگ فعالیتنده‌عمومی نائیلیت مشاهده اولنور. بو نائیلیتلرله برابر مشاوره بعضی نقصانلاریدا قید ایتدی: شهرده اولدیغی کیبی کندلرده‌ده نماینده قادین‌لار یغنجاقلارینداً درس اوقوماق ایشلرینه آرتیق میل واردر؛ حالبوکه اساس اعتباریله اوقوایشلری یالیگز ایشچی و کندلی قادینلاری شورا اجتماعی ایشلرینه

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0025

جلب ایتمك ایچین‌واسطه اولاراق آپاریلمالیدر؛ پروغرامك تدریسی نمایندەقادینلارك عملی ایشلریله رابطەسزاولمشدر؛ نماینده قادینلار شورا سەقسیالارینا آز جلب اولنورلار؛ نماینده قادینلارك آراسیندا عملی وظیفەلرك غیر مساوی اولاراق تقسیم ایدیلمەلری مشاهده اولنور؛ قاباقکی چا ـ غریشلاردا سەچیلمش نماینده قادینلار اجتماعی ایشلره آز جلب اولنورلار؛ شهرده کی نماینده قادینلارك فعالیتی کند ایله ضعیف رابطه باغلامشدر: نماینده قادین یغنجاقلارینك فعالیتی‌نك حسابه کوتوریلمەسی ایشی ضعیف تشکیل ایدیلمیشدر؛ معین سیستم اوزره نماینده قادینلارك احوال و ایستکاری تدقیق ایدیلمەبور. قضالرده نماینده قادین یغنجاقلارك ایشلرینه رهبرلیك ایدنلرك اختصاصلاری لازمی قدر یوکسك دەگلدر؛ هله ایمدی‌یه کیبی نماینده قادین یغنجاقلارینك اوزەرینده تبلیغات ـ تشویقات شعبەلرینك‌رهبر لیکلری ضعیف‌در. کندلرده یالیکز $\frac{25}{26}$ نجی یللرده‌تشکیلا تجا معین فورما شکلینه گیرمش و حتی بعضی قضالرده ایمدی‌یه قادار تشکیل ایدیلمەمش نماینده قادینلارینغنجاقلا رینگ ایشلری داها ضعیف قورولمشدر.

مشاوره قید ایتدی که «کندلرده کی نماینده قادینلار ایله ایش او درجەده ضعیف‌در که بریل تمام ایش‌پلانی کیچمش نماینده قادین ایله آقتیو کندلی قادینگ فرقی چوق آزدر»

«نماینده کندلی قادینگ عملی ایشی پروغرام اوزره کیچیلن مشغولیت ایله رابطەسزدر.

نماینده قادینگ تحکیم ایدیلدیکی موسسەنگ و حتی فرقه ئوزه گینگ و ایشجی کندلی قادینلارشعبەـ سکدده گوستریشلری اولمایور».

نماینده قادینلارك‌سوادسزلغی تسویه ایشاریده چوق ضعیف کیدیر؛ بعضی‌قضالرده اونلارك‌سوادسزلیغی تسویه اولونمایور. موزدور و یوقسول قادینلاردا نماینده قادینلار یغنجاقلارینا لازمی درجەده جلب اولونمامشلار.

کندده کی نماینده قادینلار یغنجاقلارینك ایشلرینه همیشەلت اولاراق فرقه ئوزه گی طرفندن رهبرلگیك یوکلیغی ایشه چوق‌فناتاثیر بیراقیر؛ ونماینده قادینلاریغنجاقلا رینگ کندك اجتماعی حیاتندان اوزاقلاشماسینا باعث اولوب اونگ‌فعالیتنه آیریجا بر فعالیت رنگی ویریر.

نماینده قادینلارك گلەجکده تعقیب ایدەجکلری مقصدلری و اونلارك اساسی مادەلری بونلاردر.

شهرلرده کی‌نماینده یغنجاقلارینگ داها آرتیق ایشجی قادین کیتلەسینی و کندلرده کی نماینده یغنجاقلارینگ‌دا کند یوقسول و موزدور قادینلارینی داها گنیش صورتده‌احاطه ایتمەلری؛ عملی ایشلرك معین بر نظام تحتینه سالنماسی و او ایشلرك نماینده‌لر یغنجاقلارینگ مشغله‌لرینگ پروغرامینا داخل ایدیلمەسی؛ بونیکله برابر عملی‌ایشلری تقسیم ایتدیکده لازم‌در که نماینده قادینلارك‌اوزخواهشلری و لیاقتلریده جدیا نظرده دوتولسون.

نماینده قادین یغنجاقلارینگ هیئتلرینی واونگ‌فعالیتی متمادیا حسابه (اوچوتا) گوتورمك؛ کوهنه چاغریشلاردا سەچیلمش نماینده قادینلارك اجتماعی ایشلره داها آرتیق جلب ایدیلمەلری، تبلیغات و تشویقات شعبەلریله فرقه اوزه گلرینگ‌طرفندن نماینده قادینلاریغنجاقلاری اوزەرینده کی رهبرلیکلری داهادا قوتلندیرمەلی.

کندلرده ایسه، یوقاریدا گوستریلن مادەلردن باشقا، نماینده قادین‌لارك سوادسزلیقلارینی تسویه ایشلرینەده‌باشلیجا دقت یترمك لازمدر.

ق. ایشقووا

بیتمەدی.

کیتلەیی سیاسته طوغرو چیکمك، قادینسز ممکن دەگلدر.

لەنین.

سیاسی معارف ایشلرینك اساسی - سوادسزلیغی لغو ایتمك ایشی‌در.

سیاسی معارف ایشلرینك الك اساسی سوادسیزلیغی لغو ایتمکدر، چونکه سوادسیز بر کتله آراسندا سیاسی معارف ایشلرینك باشقا حصه‌لری نتیجه‌سیز قالیر.

آذه‌ربایجاندا سوادسیزلیغی لغو ایشلری ضعیف گیتدیکنه گوره‌ده سیاسی معارف‌ایشلرینگ باشقا حصه‌لری‌دخی ضعیفدر.

آذه‌ربایجاندا سوادسیزلیغی‌لغوایتمك‌ایشی23-1922ینجی ایلده باشلامیشدر. او وقتدن ایمدی‌یه قدر 47،927 نفر اوز سوادسیزلیغنی‌لغو ایده بیلمشدر. اونلاردان 2626 سی قادین‌در.

شبهه‌سیز همین یوقاریدا گوسته‌ریلن رقملره دقت‌ایتیریلر ایسه اونلاریك بر چوغی گنه یگی‌دن سوادسیزلاشمشلار؛ و برده اونلارقورصلاری بتیروب بیراقیلیش زمانی امتحان قومیسیونلارینك سهلنکارلقلاری سایه‌سنده ضعیف اولاراق قورصلاردان بوراقیلمشلار.

عمومیتله سواد ایشاری نه قدر ضعیف گیتمشسه‌ده قادینلار آراسندا داها آرتیق ضعیف گیتمشدر.

بو ییل، 27 - 1926 نجی یه گلدیگده سوادسیزلیغی لغو ایدن قورصلاری آشاغیدا گوستریلن رقملر اوزره‌در:

قضالر	سوادسیزلیغی لغو ایدن ارککلر	قورصلار قادینلار	آز سوادسیزلیغی ارککلر	لغو ایدن‌قورصلار قادینلار
آغدام	31	2	12	4
گوگچای	66	4	12	4
گنجه	43	10	17	7
زاقاتالا	21	5	9	2
قازاخ	50	8	12	5
قوبا	28	8	12	2
لنکران	31	5	12	5
نوخا	45	6	17	7
نخچوان	34	7	12	4
داغلق‌قاراباغ	26	15	12	4
سالیان	31	5	12	5
شماخی	26	2	9	4
جبرائیل	22	6	10	3
کوردستان	28	4	9	2
علی‌بایراموف				
قلوبی	-	1	-	3

بو یلده آچیلان قورسلارك عمومیتله نتیجه‌لی قورتار ماسندان بحث ایتمك هله‌لیك تیز ایسه‌ده، فقط قادینلار ایچون آچیلمش قورصلار باره‌سنده قطعیاً دیمك اولار که ایشلر ضعیف گیدیر.

اولا مرکزی‌سیاسی معارف شعبه‌سینك‌سمه‌تاسیك‌چوق گیئج (نویابر آیندا) تصدیق ایدیلمه‌سیله. طبیعی ، ایشك بیرده تشکیلاتی‌ده بر آیاقدر وقت طلب‌ایدیر. و اوگ گوره‌ده بیز گوریریك که بعضی یئرلرده قادین‌لارا مخصوص تسویه منطقه‌لری هله ده‌قابر آخرینداد تمامله آچیلمامشدر.

ایکینجی برسببده اودر که یرلرده قادین‌لاری تسویه‌منطقه لرینه جلب ایتمك‌ایچون لازم اولان تبلیغات ایشلری‌سیاسی معارف شعبه‌لریله ایشجی کندلی قادینلار شعبه‌لری طرفندن آپاریلمامشدر.

اوچنجی سبب فرقه‌چی و قومسوللاریك آرواددر لارینك‌و باجی‌لارینك اکثریتله -بوقورصلارا گلمه‌مه‌سی‌در.

بو ییلده عموم‌اهالینك سیاهیسینی‌دوتماق‌ایچون معلملریك ایکی هفته‌لك سفربرلیگه آلینماسیدا سوادسیزلیغی لغو ایتمك ایشینه چوق ضرر ویرمشدر.

کیچن سهولری آرامقدانسا ایمدیدن، وقت‌وار ایکن بوقادین قورصلارینك نتیجه‌لی‌قورتارماسینا یوللار و واسطه لر آراماق لازمدر. بویوللاریك‌دا اساسی شرطلریندن‌بوتون نماینده قادینلاری، فرقه‌جی وقومسومولاریك آروادلاری و باجیلارینی بو قورصلارا جلب ایتمکدر. چونکه همین بونلار قورصلارا گلمه‌دیگده قادین کتله‌سینك یرده قالان حصه‌لرینی‌ده قورصلارا جلب ایتمك چوق چتیندر. خصوصاً سوادسیزلیغی لغو ایشینده آز سوادسیزلیغی لغو ایتمکه داها آرتیق دقت سوادسیزلغی لغو ایتمکدن صوگرا گنه‌تکرارسوادسیزلیقلاشماقلابوتون گورولمش ایشلرنتیجه سیز قالیر. یولداش **له‌نین** دیور که:«سوادسیز آدام‌سیاستدن کنارد‌ر؛ سوادسیز سوسیالیزما و قومونیزما یاراتماقدا ممکن دگلدر،

قادینلاریك سوادسیزلیغی لغو ایتمك ایشینه اهمیت ویرمه‌مکله قادینلارك‌سوسیالیزما قورولوشندا رولنی باشادوشمه مك‌در دیسه‌ك» سهو ایتمیریك ظن ایدیرم.

ش. م.

نماینده قادین یینجاقلارینك ایشی حقنده

(رهبرك ایشی).

نماینده قادین یینجاقلاری؛ تشکیلات جهتدن لازمی قاعده‌یه سالنمش ایسه بورادا آپاریلاجاق مشغولیتلرك موفقیتله گیتمه‌سی ایچون لازمی اساس حاضرلانمش اولیر. ایشك آغیرلغی ایسه یالکز نماینده قادین یینجاقلارینداً مشغولیت آپاراجاق و اورادا اشتراك ایده‌جك شخصلرك وتشکیلاتلارك اوزه‌رینه دوشیر. بونلار برطرفدن ایشچی- کندلی قادین شعبه‌لری، یرلی فرقه ئوزه گی ورهبرلردن عبارت اولوب، اوبری طرفدن ده بو یینجاقلاردا اشتراك ایده‌ن نماینده قادینلارك اوزلریندن عبارتدر.

بیز، بو مقاله‌ده یالکز بونلارك برینك ایشیندن، یعنی رهبرك فعالیتندن دانیشاجاغیز. نماینده قادین یینجاقلارینك رهبرلری دائمی اولاراق رهبر تعیین اولنوبسا یالکز نماینده قادین یینجاقلارینداً مشغولیت آپاروب، معین پروغرام اوزره مختلف مصاحبه دوزه‌لدیر و محاضره‌لر اوقویور. نماینده قادین یینجاقلارینك یئرده قالان ایشلری: عملی ایشلر، مصاحبه زمانی کیچیلن درسلرك نماینده قادینلار طرفندن تکرار اولونماسی. نماینده قادین‌لارك سواد منطقه‌لرینده اوقوماسی و برچوق بو کبی ایشلرده رهبرك یاردیمی اولمیر. بوقاعده ایله ده بو ایشلرك هیچ بیری نماینده قادین یینجاقلارینك پروغرامی اوزره آپاریلان ایشلری رابطه‌لشدیریلمیر. بونك نتیجه‌سنده ایسه نماینده قادین‌لار ئوز ایشلرینی بری برلری ایله رابطه‌لشدیره بیلمیرلر بونا گوره‌ده بر بیل مدتنده نماینده قادین یینجاقلارینداً چالیشدیقلاری حالدا **اجتماعی ایشلر حقنده** قیریق ورابطه‌سز معلومات توپلایبر.

لاکن نماینده قادین یینجاقلارنك ایشلریتی آرزواولوندیغی کبی آپارماق ایچون برنجی نوبه‌ده لازمدر که بو یینجاقلاردا پروغرام اوزره مشغولیت آپاران رهبرلر، نماینده قادینلارك بوتون ایشلرینه بلد اولوب، اونلارالازمی یاردیمد ابولونسین.

بو رهبرلر شورا مسئله‌سینی مذاکره ایده‌رکن ئوز نماینده قادینلارینك شورادا کی هانسی عملی ایشلرده چالیشدیغنی بیلمه‌لیدر. بویله‌لکله ئوز مصاحبه‌سنده، نماینده قادینلارك شورالاردا آپاردیقلاری بو عملی ایشلر باره‌سنده دانیشما لیدر. شورا پاره‌سنده کی مسئله‌نی بوقاعده اوزره مذاکره ایده‌رکن. رهبرلر مصاحبه‌ده اشتراك ایدن قادینلاری سوك دره‌جه مراقلاندیرماق ایله برابر شورا حکومتنك عمومی وظیفه‌لرینی‌ده اونلارا آیلاتماغی آسانلاشدیرار. بوجوره مسئله‌لری مذاکره ایدرکن «شورا، کندلرك باش حکومت اداره‌سی‌در» کبی یالکز نظری سوزلر ایله کفایتنمه‌مه‌لی‌در. کندلی قادین بو یول ایله هیچ بر شی قانماز. بورادا بر چوق مثال‌لار گتیریلمه‌لیدر. شورادا نماینده قادینك اشتراکیله برمسئله حل اولونوبسا، اومسئله‌نی آیدین سوزلر ایله بوتون قادین نماینده‌لرینه آنلاتماغا چالیشمالیدر. مثلا کیچیك یاشلی بر قیزا ئه‌ولەنمك ایسته‌ین بر قولچوغاما کند شوراسی مانع اولوب، بوایشی اونا یاساق ایتمشدر. بو نه دیمکدر؟ کند شوراسی بویله برایشی نیجه ایتمشدر؟ او، بو ایشی یاپارکن شورا حکومتنك قویدیغی قانونی ئوزکندینده حیاته کیچرتمشدر؛ چونکه او حکومتیك کندلرده کی نماینده‌سی‌در. بوندان آشکار اولیر که قادین یینجاقلارینداً چالیشان رهبرلر ئوز قادین نماینده‌لرینك هانسی تشکیلاته تحکیم اولوندیغنی یعنی نه ایشده چالیشدیغنی ئوگره‌نمه‌لیدر. بویله‌لکله هرزمان مشغولیتدن قاباق نماینده قادین‌لار ایله اونلارك گوردیکلری ایشلری حقنده مصاحبه آپاروب، مشغولیت زمانی اونلارك تجربه‌لریندن استفاده ایتمکه چالیشمالیدر.

لاکن نماینده قادین‌لارك تجربه‌لریندن لازمنجه استفاده ایتمك ایچون، نماینده قادین یینجاق‌لارینك رهبرلری بو یینجاقلاردا چالیشان قادین‌لارك یالکز عملی ایشلری ایله تانش اولماغا قانع اولمامالیدر؛ بلکه اونلارك قادین یینجاق لاری ایله دخی تانیش اولمالیدر؛ مثلا؛ 1) نماینده قادین‌لارك؛ ایشچی- کندلی قادین شعبه‌لریندن آلدیقلاری وظیفه‌لری (سه‌چکی قامپانیالارینداً اشتراك ایتمك، تدقیقات آپارماق و باشقا بو کبیی ایشلر)؛ 2) سواد منطقه‌لرینه دوام ایدن نماینده قادین‌لارك نه قاعده ایله چالیشمالاری ایله دخی تانیش اولمالیدر.

دوغرودر، رهبرلر هرگون سواد منطقه‌لرینه گیدوب، نماینده قادین‌لاری یوقلایا بیلمه‌دیکلری کبی ایشچی- کندلی قادین شعبه‌لریندن آلنان بوتون تعمیم‌لری دخی اوقوماجاقدر. بو کبی ایشلر اوندان طلب اولونمیر. لاکن رهبرلر بوخصوصدا معلومات آلماق ایچون قادین یینجاق‌لاریندان قاباق وباخود سوکرا کندلی قادین تشکیلاتچی‌لارینا مراجعت ایدوب قضا فرقه قومیته‌سندن نماینده قادین یینجاقلاری ایچون نه کبی تعمیملر آلندیغی، سواد منطقه‌لرینه دوام ایده‌ن قادین نماینده‌لرینك مقداری حقنده ایسته‌دیکی معلوماتی آلا بیلر. بوندان باشقا ئوزلریده آیدا بردفعه سواد منطقه‌لرینه گیدوب اورادا چالیشان قادینلاری یوقلایا بیلرلر.

رهبرلر؛ بوتون بو یوقاریدا سایبلان معلوماتی، نماینده قادین یغنجاقلاریندا کی مشغولیتلرینی یاقشی آپارماق ایچون ئوگره‌نیرلر. بونگله برابر اونوتمامالیدر که یالگز بومعلومات ایله‌ده کفایتلنمك اولماز.

رهبرلر؛ نماینده قادین یغنجاقلاریندا مذاکره اولونان بوتون مسئله‌لر ایله یاقشی تانیش اولماق ایچون چوقلی کتابدا اوقومالیدر. بومسئله‌لری کتابلاردان یاقشی‌ئوگره‌ن دیکدن سوکرا بونلاری نماینده قادین یغنجاقلاریندا نماینده‌لره ئوگره‌تمه‌لیدر.

چوق وقت رهبرلر اویله بیلیرلر که کندلی قادینلار شورا حکومتنك باشلیجا وظیفه‌لری وایشلری باره‌سنده ساده بیلگلری ده‌اولمادیغی ایچون اونلار ایله مشغولیت آپارماقدان اوتری حاضرلاماشماغا احتیاج یوقدر. بونا گوره‌ده بویله رهبرلر دائما برزمان الده ایتدیگلری معلومات‌لارینا آرخاین اولوب، ئوزلری ایچون مشغولیت پلانی حاضرلامیرلار؛ بوندان باشقا بو مشغولیتلرك اساس حاللارینی قید ایله‌میوب، لازمی ماته‌ریاللاری دخی اوقومبرلار. بو قاعده ایله‌حاضر لقسز مشغولیت آپاریلدیغی زمان همین رهبرلر بر چوق چتینلکلره راست گلیرو بر پارا مسئله‌لری آرزو اولوندیغی کبی آیدینلاشدیرا بیلمبرلر؛ چونکه اونلار مذاکره اولوناجاق مسئله‌نی قاباقجا دوشونمه‌میشلرو یاخود آنلاتیلماسندا چتینلك چیکدیگلری مسئله‌لری تامیله اونوتمش‌لار وتکرار یادلارینا سالماق ایچون خاطره دفترلری ده‌ساقلامامشلاردر.

حالبوکه آز حاضرلغی اولان شخصلر ایله مشغولیت آپاریلماسی ایچون اولدیقجا دقتلی و باجاریقلی اولماق لازمدر. بر رهبر ئوز سویله‌دیگنی یاقشی بیلمزسه ئوز مقصدینه چاتمایوب ایسته‌دیگنی نماینده قادین‌لارا ئوگره‌ده بیلمه‌ز؛ یونا گوره‌ده هر بر رهبر؛ نه قدر نظری حاضرلغا مالك اولورسا اولسین. هر دفعه مشغولیتدن قاباق نماینده قادین یغنجاقلاری حقنده لازمی کتابلار اوقومالیدر. بوندان باشقا کیچه‌جگی مشغولیتك اساس طرفلرینی دخی ئوزی ایچون قید ایتمه‌لیدر.

رهبرك بیلیکلی اولماسیله برابر اونك نه قاعده ایله چالیشماسی و مشغولیتنی نه‌اصولدا آپارماسی دخی اهمیتلی‌در. مشغولیتی معروضه صورتنده آپارماق یاقشی دگلدر؛ چونکه معروضه چتین آنلاشیلیر وچوق وقت قولاق آسانلاری‌دا یورير. مشغولیت، مصاحبه یولیله آپاریلمالیدر. بونك ایچون قادین‌لارا موضوع اطرافندا سوالار ویروب، لازمی جواب آلنمالیدر. لاکن بر مشغولیتی تامیله مصاحبه یولیله آپارماق ممکن اولمیرسه اوحالدا معروضه‌دن سوکرا دانیشیلان موضوعك اساس طرفلری باره‌سنده برنیچه‌سئوال ویرمکله مسئله‌نی تامیله آنلاتماغا چالیشمالیدر.

فه‌ریدا

بیز ده‌ییریك که ایشچی‌لرك آزادلیغی اونلارك اوز ایشلری اولمالیدر. بویله‌جه ایشچی قادینلارك‌دا آزادلیقلاری ایشچی قادینلارك اوز ایشلری‌اولمالیدر.

له‌نین.

شورالار سه‌چگیلرینده قادینلارڭ اشتراکی نیجه کیچدی.

قازاق قضاسنده:

هوانك سویوغی کسگینلیدرسه‌ده، لاکن گون ده چیقمشدر. بو یئرلرده هله قار دوشمه‌مش، بونا گوره‌ده قورولوقدر. کنده یاووقلاشیر کن بورادا مهم بیر وقوعات گوزله‌نیلدیگی حس ایدیلیر... سحر تیزدندر: لاکن او- طرف، بو طرفده دسته - دسته ییغیلمش کندلیلره راست گلیریك. هر دسته اوز آراسندا مصلحت ومشورت آپاریر. کنار بیر یاندا باشقا دسته یغیشمشدر. بونلار سه‌چگی حقوقندان محروم ایدیلمشلرڭ دسته‌سیدر. کندلیلر بودسته‌یه خور نظرله باقوب بو گونکی مجلسده اونلارڭ تمامیله آرتیق اولمالارینی اونلارا آڭدیریرلار. کنار بر دیوارڭ دیبینده، توپراق‌اوستنده اوتوروب آهسته‌جه سوز داتیشان باشقا بر دسته-تورك قادینلارینك دسته‌سیدر. سلاملاشوب، اونلارا یاوقلاشوب نه ایچون بورایا توپلانمالارینی سئوال ایدیرم :

- دعوتنامه‌لر آلدیق، کووخا سه‌چمه گه، شورا صدری سه‌چمه گه گلمشیك!.. دیدیلر.

بو کندڭ آروادلاری چارشافسیز گه‌زیرلر.

ساعت 11ڭ تمامنده اهالی ییغیشر. سه‌چگیلرده اشتراك ایتمك حقنه مالك اولان 800 کندلیلرڭ 627 سی سه‌چگی مجلسینه یغیشیرلار. بونلارڭ 103 نفری قادینلاردر. سه‌چگی باشلانیر.

اڭ اول کندلیلره باکو فعله‌لرینك سلامنی بتیریریك. سه‌چگی مجلسی موزدور و فقرا اهالینك نامندن آچیلیر. شورایه سه‌چیله‌جك نامزدلرڭ سیاهیسی تکلیف اولنور. بو کندده 40 عضو، 9 نامزد سه‌چمك لازمدر. لاکن 60 نفرڭ سیاهیسنی تکلیف ایدیرلر. عمومی اجلاس سیاهینی دوشونجه ایله، فکرله‌شه‌رك قبول ایدیر. لاکن هر بر نامزدی تك به تك سسه قویورلار. نامزدلری آیری-آیری استول‌قاباغینا چاغیروب اونك لهینه و علیهنه مذاکره آچدیقدان صوڭراسسه قویورلار. قادین نامزد لیگلرینه‌ده دوشونجه ایله، جدی صورتده یاناشیرلار. شورایه کیچن آنجاق 5 قادین اولدی.

بو کندده فرقه عضوی 13 نفردر؛ اوزلریده بویوك نفوذ صاحبی‌درلر. اونلارڭ نامزدلیگلری بیرسسله قبول ایدیلیرلر. بورادا سه‌چگی قاباغی قامپانیاسنیڭ آپاریلمش اولدیغی وفرقه‌نك خط حرکتی‌نڭ دوشونولمش اولدیغی حس ایدیلیر. موزدورلارڭ نامزدلیگلری اعتراض‌سیز قبول ایدیلیردی.

- موزدورمی، راضی ییق!.. او بیزدندر!..

فقرا ایله اورتابابلارڭ علاقه‌لری چوق یاقشیدر. هیچ بیرینڭ طرف مقابله ناراضی‌لیغی حس ایدیلمه‌یور.

سه‌چگی حقنده محروم ایدیلمشلرڭ دسته‌سی کناردا دوروب حسد ایله بودوستانه علاقه‌یه باقوب حسرت آپاریرلار.

***

بودا (داش سالاحلی) کندیدر،

بورادا داخی کندلیلرڭ سه‌چگیلره جدی و دوشونجه‌لی صورتده یاناشدیقلاری حس اولنور، بورادا قادینلارڭ داها آرتیق مقداردا اشتراك ایتدیگلری گورونور. 1400 سسه مالك اولانلاردان 989 ی سه‌چگی مجلسنده حاظردر. بونلارڭ 391ی قادین‌در.

فوتوغرافچی عمومی اجلاسڭ فوتوغرافنی آلدی.

بو کندڭده قادینلاری چارشافسیز گه‌زیرلر. سه‌چگیلر آرتیق روح یوکسگلیکی ایله کیچدیلر. موزدور و یوقسول‌لارڭ نامزدلیگلری عمومڭ سسی ایله کیچیر. سه‌چیلنلرڭ هیئتی بویله‌در:

شورایه سه‌چیلمش 40 عضو و 9 نفر نامزدلرڭ 10 نفری آذربایجان قوممونیست فرقه‌سی عضوی؛ 13ی یوقسول، 2سی موزدور، 10ی اورتاباب و یرده قالانلاری‌دا قامسا- مول‌لاردر. سه‌چیلمشلرڭ 5 ی قادیندر.

***

اوگونڭ صباحی اوزاق کندلردن بریسی (قمرلی) کندینه گیتدیك. بو دفعه هوا چوق بولانلیق ایدی؛ یاغیش و چوغون آرتیق اذیت ویریردی. کندلیلرڭ احوال لاریدا بر اوقدر پریشان گورونوردی. آیدینجا سینا آڭلاشیلیردی که بو کندڭ فرقه ئوزه‌گی ضعیف‌در. و بورادا کی قوممونیست‌لرڭده نفوذلری یوکسك دگلدر. بورادا اورتاباب‌لار ایله قولچوماقلارڭ دا اوزلرینه گوره دسته‌لری واردر. موزدورلار ایسه بو دسته‌لرڭ دالینجا سوروگله‌نیرلر. حاظرلق قامپانیاسیدا بورادا ضعیف آپاریلمشدر. مجلس آچیلاندان صوڭرا نامزدلر سیاهیسی اوقوندیغی زمان مجلسده کی یوقسول و موزدورلاردان بر پاراسی آیاغا دوروب اعتراض ایتدیلر که؛ او «سیاهینڭ

کیملر طرفندن یازیلدیغنی بیز بیلمیریك. اولجه اوسیاهیدا بر چوق آدامللرك آدلارینی یازمشدیق، اما او آدلار ایمدی اوقونمادی!..»

چوق دانشیقدان صوکرا سیاهی ده گیشیلوب اورایا بر چوق تازه نامزدلرك آدلاری علاوه ایدیلدی.

***

(بیرنجی شیخلی) کندینه گیتمه‌مشدن، قضا مرکزینده پیزه خبر ویرمشدیلر که بو کنده شورا سه‌چگیلری 3 نجی ییلدر که داوا- دوگوش‌سیز کیچمه‌یور. بو جهتدن قضا مرکزی بو کنده آرتیق اعتنا ویروب ایکی اوچ دفعه سه‌چگی قاباغی، حاظرلق یغنجاقلاری آپارمشدر.

یاغیش آراسی کسیلمگسیزین توکور. سویوقدان کندلیلرك بورون قولاقلاری قیزارمشدر. لاکن کندلیلر یغنجاغا شوق ایله یغیشیرلار. بورادا کی حاظرلق قامپانیاسنیك یاقشی نتیجه ویرمه‌سینی قاباقجادان گورمك اولور. کندلیلر بوراسنی دوشونمشلر که حقوق قازانماق ایچین داوا- دوگوش یوق، موزدور ویوقسول ایله اورتابابك بیرلشمه‌سی و فرقه ئوزه گینك رهبرلیگی آلتندا حرکت ایتمه‌لری لازمدر.

بو گنده قادینلار گدا اشتراکی چوق ضعیف‌در. اونلاردان آنجاق 8 نفر مجلسده حاظردر. بوراسینی قید ایتمه‌لی‌در که بوتون (صلاحلی) دائره‌سنده آروادلارك هاموسی یوزی آچیق گه‌زیرلر.

آروادلارك بو مجلسده آز اولمالارینا سبب بودر که بونلارك آراسیندا سه‌چگی حاظرلیغی قامپانیاسی آپاریلمشدر.

بورانك قادینلاری بوچاغاجان قادین شعبه‌سینك نه اولدیغنی ایشیدوب بیلمه‌مشلر.

بونیله بویله سه‌چگی مجلسی گنده یاقشی آپاریلدی؛ کندلیلر جدیتله اشتراك ایتدیلر و شورایادا 6 نفر قادین عضو سه‌چیلدی.

***

یانوارك 28 ینده (ایکنجی شیخلی) کندینه گلدیك. بورادا کی احوال بام باشقا ایدی. اك اول بونی گوردیك که کندك قاباقکی کندلردن فرقلی‌در. بورادا عاغیللی- باشلی ایولر، هایاتلار واردر. قاباقکی کندلرك اهالیسی قازما- لاردا، بالچیقدان قایریلمش کومالاردا یاشاییردیلار. بو- کندك اهالیسیده گوزه‌لجه گه‌ینمشدر.

بورانگ اهالیسی‌نگ وارلی اولدیغی آشکار گو- رونوردی. قاباقجادان منه خبر ویرمیشدیلر که بو کنده کندلی قادین بوجاغی، قادین نماینده‌لری یغنجاغی اولوب، کندلی قادینلارك اوزلریده فعال‌درلر.

لاکن بورانی گوزوملە گوره‌ندن صوکرا تامیله مایوس اولدوم. ایکی اوطاقدان عبارت کندلی قادین بوجاغی وار- سادا لاکن اورتادا کی استولگ اوستنده بر نیچه عدد وه‌رقلری جیریلمامش کتابچالار قویولمشدر. بورادا هیچ بر ایش آپاریلمایور.

بوراسی چوق مراقلی‌در که بوتون دائره‌ده بر دانه‌ده اولسون قادین‌لارا مخصوص سوادسزلغی تسویه منطقه‌سی یوقدر. حتی کندلی قادین بوجاغیندادا بو منطقه آچیلمامشدر.

بوجاغگ مدیره‌سی سوادسز بر قادیندر؛ بورادا هردنبر کند معلمی کندلی قادینلاری یینغوب اونلار ایله مصاحبه آپاریر.

لازم‌در که بو کنده کندلی قادین بوجاغنی روحلاندیروب اورادا سوادسیزلیغی تسویه منطقه‌سی آچیلسون؛ اوریا سوادلی قادین گونده‌ریلسون وچالشماق که اورایا گونده‌ریلمش کتابچالار ورقلری جیریلمامش استول اوستنده بیکار قالماسونلار.

بو کنده کی نماینده قادینلار یغنجاقنگ و کندلی قادین بوجاغنگ ضعیفلیگی قادینلارك سه‌چگی اجلاسیندا آز اشتراك ایتمه‌لرینden آگلاشیلدی. ایو به ایو گه‌زوب چاغیراندان صوکرا گوج- بلا ایله یغنجاغا 49 نفر قادین چاغیرا بیلدیك. لاکن کندلی قادین بوجاغی اولمایان یئرلرده یوزدن- دورت یوزه قدر آروادلار اجلاسه گلیردیلر.

ایشجی و کندلی قادینلار شعبه‌سی بو کندلی قادین بوجاغی باره‌سنده جدی صورتده فکرله‌شمه‌لیدر.

***

گیتدیگمز آخرینجی کند (قارایازی) کندیدر.

بو کندك قاباغیندا اوجا و قارلی داغلاریوقدر. کنددن بر قدر اوزاق کورچایی دورت- بش قولا آیریلوب گوز قاباغیندا گوزه‌ل بر (پانوراما) منظره آچیر. آتلارا مینوب کورچاینی کیچمك لازم‌ایدی. کیشیلر آتلانان کیبی آیاقلارینی آتگ یه‌هرینه قویوب چایدان قوپ- قوری کیچدیلر. لاکن من شهر آدامی اولوب، هیچ‌وقت بویله یئرلردن کیچمه‌دیگم ایچین آتدا ناراحت اوتوردیغمدان اوست- باشیمی تامیله ایسلاتدیم.

بورادان کیچوب میشه‌یه گیردیك. تخمیناً اون ویرست یول گیدندن صوکرا میشه ایچینده بو کندی تاپدیق. آخشام قارانلیقندا کنده چاتدیق. کندك دوز و ئه‌نلی کوچه‌لرینی

گورورم، لاکن یاپما پالچیقدان قایریلمش (چه‌ویرمه) کومالاردان باشقا هیچ بیر ایو گورمیرم.

ـ بس، بو کند اوزی هاردادر؟..

دییه سوال ایدیرم.

آ گلاشیلیر که بو کند تازه بنا اولنور. (شیخلی) کندیندن کوچه‌نلر بورایا گلوب بو کندی تازه‌جه بنا ایدیرلر. هله‌لك یاقشی ایولر تیکیلمه‌یوبدر. گله‌جگده بو کند معین پلان اوزره مهندسك گوسترمه‌سیله، تازه اصولدا تیکیله‌جکدر.

گیجه‌نی کیچرمك ایچون بر ایوه دوشوریك.

بودر ایو صاحبه‌سی؛ سلاملاشیریق. او ساعت بر نیچه آرواد اطرافمه یغیشوب باکودا آروادلارك نه طور یاشامالاریندان سواللار ویریرلر.

باکودا «علی بایراموف» آدیناقادین قلوبیندان، وصابونچیدا کی، بالاخانادا کی قادین قلوبلاریندان بونلارا معلومات ویریره‌م.

بو حالدا ایو خوزیایقاسی ده‌ییر:

ـ دوغرودر، هردنبر او قلوبلارك فعالیتی باره‌سنده منده غزته‌لرده احوالات اوقویورام!

آ گلاشیلیر که بو قادین سوادلی و همیشه غزته و ژورنال اوقویان بر کندلی قادیندر. بو کندده بوندان باشقا ایکی نفرده باشقا کندلی قادین واردر که اونلاردا سوادلیدرلر. کندده برتورك قادین معلمه‌دخی واردر. مکتبده چوجوقلارا درس ویریر.

بورادا البته سوادسزلغی تسویه منطقه‌سی آچماق و کندلی قادین بوجاغنی تشکیل ایتمك چوق فائده‌لی اولاردی. محلی قوه‌لردنده لازمنجه استفاده ایتمك اولار. بورادا، البته کتابچالارك ورقه‌لری جیریلمامش قالمازایدی.

حتی قضا قادینلار شعبه‌سیده بورادا کی ایشلری وقتلی وقتنده تفتیش ایده‌بیله‌ر ایدی. چونکه بو کند دمیریول موقفندن آنجاق ایکیجه‌ویرست کناردادر. لازم اولان محللرك بو باره‌ده دوشونمه‌لری فائده‌سز اولماز، ظن ایدیره‌م.

(قارایازی) آروادلارینك دردلریده آز ده گلدر.

اونلارك کندلرینده تازه‌جه مسری بر «آزار» باشلانوبدر. بو «آزار» ایکی آرواد آلماق آزاریدر. ایشه رسمی نظرله باقدیقدا البته ایکی آروادلیلیغی آشکارا گورمك اولمیور. لاکن بورانك آروادلاری بو آزار اوجباتندان قان آغلیورلار.

بیچاره‌لر نه ایله‌سونلر!.. دورت ـ بش اوشاق آناسیدرلر. کیشی‌ده جوانه آرواد آلماق ایسته‌یور. نه طور اولسادا گرك کیشنك ایسته‌دیگنه تابع اولاساك. اونلاردا ناچار قالوب زاقسدا طلاقلارینی آلیرلار وبونکله‌ده ارلرینه تازه آرواد آلماغا قانون اوزره‌یول ویریرلر.

لاکن قاباقکی آرواد گنه‌ده، گویا که کشینك رحمی گلدیگی ایچین اونك ایوینده قالیر.

کیچن ییل سه‌چگی زماننداآروادلار ایسته‌یوبلر که بو سیاق جوان آرواد آلماق عشقینه دوشمش بر کشینی سه‌چگی حقوقندن محروم ایتسونلر. لاکن قضامر کزیندن سه چگی یه گلمیش بر نفر نفوذلی آدام بو مطلبی ییلندن صوکرایغینجاق دابویله دییوب‌در.

ـ اصل مطلب، بودر که او آدام قولچوماق ویا که موللا اولماسین، اونك نیچه آروادی اولورسا ـ اولسون، اوندان اوتری کشینك سسینی آلماق اولماز. هیچ کس بو ایشه مداخله ایده‌بیلمز!..

بو سوزلری ایشیدن کشیلر ایچین داها نه لازم‌در؛..

«ایمدیکه حکومت آدامی اوزیده‌اذن ویریر، دوت گلسین!..»

بودر که آروادلار قان ـ یاش تو کمگده‌درلر.

بو مسری خسته‌لیگك کوکنی قازیماقدان اوتری نه لازم‌در؟ بیر ـ ایکی نفر بو کبی «هنرلی» کشیلری «محشر» آیاغینا چیکوب، یاقشیجا قولاق بورماسی ویرمك، اوزلرینه‌ده (قارایازی) کندینده آچیق محاکمه‌ده بیر نیچه ییل حبس خانه کسدیرمك؛ بروقت گوره‌رسن که «آزار» تمامیله بو کنددن رد اولوب گیتدی.

ایمدی بیلمك اولمور که بو ایشه کیم شروع ایده‌جگدر؟ بلکه‌ده قضا قادینلار شعبه‌سیله دائره اجرائیه قومیته‌سی بو ایشه قدم قویدیلار.

او گونك صباحی کندلیلرك جدیتلی اشتراکلری ایله کند شوراسینك سه‌چگیلری کیچریلدی.

بودر، عمومی اجلاسك قاباغیندا اورتایاشلی بر کندلی دوروبدر.

ـ یولداشلار بونی تانییرسکزمی! بونی شورایه سه‌چمك اولورمی!

ـ البته، البته... او که‌لوت‌در. (یعنی هیچ بر شیئی یوقدر.) سه‌چمك اولار. بر سسله سه‌چیرلر.

بودا برجوان اوغلاندر. اوزی اوز نامزلیکنی قویور. لاکن سه‌چگی‌ده هیچ بر دانه‌ده سس آلابیلمه‌یور.

بونك سببنی سوال ایدیرم. بیله جواب ویریرلر.

ـ بزه شورادا ایشله‌ین آدام لازم‌در. بوش دانیشانلار بیزه نه لازم. نوبه فرقه ئوزه گی کاتبنه چاتیر.

هامو بر سسله اونی انتخاب ایدیر. آروادلاردان سوال ایدیرم.

ـ سیز نه سببه اونك ایچین ال قالدیردیکز.

ـ بس نیجه؟.. او بیزیم باشیمزك ییه‌سیدر. بیز اونسیز یتیم قالاریق!..

آرتیق روح یوکسگلیگی ایله اجلاسی بتیروب، کندلیلری صمیم قلبدن تبریك ایدوب، قازاخ دائره‌سندن آرالانیرام.

له‌نین دائره‌سی ایشجی کندلی قادینلار

شعبه‌سینك تعلیماتچیسی: **بنیاداووا**

شماخی قضاسنده، باسقال دائره‌سنده:

عمومیتله دیمك اولار که بو ییلکی شورالار سه‌چگی لرینده وسه‌چگی قامپانیالاریندا قادینلار فعال‌صورتده‌اشتراك ایتدیلر. باسقال دائره‌سینك بعض کندلرینده قادین‌لارك‌اشترا کی‌یاقشی کیچر ایدی؛لا کن(تاقلابیان)، (موج)،(سولوت)، (پیرابوالقاسم)، (خینقار) و(نوگه‌دی) کندلرینده قادین‌لار سه‌چگی مجلسلرینه آغیر ییغیلردیلار. بو ایشده اك باش سبب قادین‌لارك اوزلرینك بو ایشه خور نظرله باقسالاری اولمایوب بلکه‌ده‌اونلارك أه‌رلرینك«آروادلاری کشی‌مجلیسینه بوراقماق» ایسته‌مه‌دیگلری اولمشدر. بو آدلاری‌چیکیلمش کندلردن باشقا باسقال دائره‌سینك یئرده قالان کندلرینك هاموسیندا آروادلاردا کشیلرله‌برابرسه‌چگیلرده‌اشتراك‌ایدوبلر.

اك مراقلی واقعه اولاراق بونی گوسترمك اولار که، سه‌چگی زمانی قادین نامزدلیگلرینی سسه قویدیقدا کشیلر آنجاق جوانه قادینلارك نامزدلیگلرینه سس ویریردیلر. مثال ایچین ارمنی کندی(خینقاری): تورك کندلری(قوران)، (قالوا)، (بیزلانی) گوسترمك اولار؛ بونك عکسینه‌ده بر پارا کندلرده آنجاق قوجا قادینلارك‌سه‌چیلمه‌لرینی تکلیف ایدیردیلر. مثال ایچین (سولوت)، (دیلمان)، (خاتمان)، (حاجیمان) وباشقالاری گوستره بیله‌ریك(زه‌رگه‌وه) کندینده سه‌چگی زمانی بر آروادك نامزدلیگی گوستریلدی؛بوحالدا بیر کشی قالقوب اجلاسه معلومات ویردی که او آروادی سه‌چمك یاراماز، چونکه او نامزد (آرواد) داواکار بر بر آرواددر، چوق وقت کشیلری بیله یوموروقلاییر...حتی بوگونلرده بولاغ باشیندا بر کشی ایله دالاشوب اونك اگنینده کی کومله گینك‌جیرماسنی‌دا شاهد گتیردی.

دانشیقدان معلوم اولدی که بو آروادك او کوزی‌باشقا بر کشینك او کوزیله داوالاشوب بونك اوستنده‌مباحثه‌لری قالقمش ایمش.

اعتراضچی کشینك سوزلرینه قولاغ ویره‌ن‌اولمادی؛ مجلس اهلی بر آز گولوشوب همان آروادی بر سس‌له شورایه عضو سه‌چدیلر.

(بیزلان) کندینده سه‌چگی قومسیونینك معروضه‌سی اثنا سینده کشیلر بری‌برلریله اوجادان صحبت ایدوب باشقالارینا قولاق آسماغا مانع اولوردیلار؛ بوحالدا نجابت آدینلی بر آرواد آیاغا قالقوب کشیلره بو سوزلری دیدی:

ـ یولداشلار، سیز گرك بونی باشا دوشه‌سیگز که بو یولداش مرکزدن گلوب سیزه گوزه‌ل ـ گوزه‌ل معلومات ویریر. سیز نیه بو سیاق شولوق سالوب همی اوزیگزه و همیده باشقالارینا مانع‌چیلیك ایدیرسیگز وقولاق آسماغا قویمیورسیگز!..

بو حالدا، بونك سوزینك قاباغینا برنفر آیدین آدینلی قولچوماقك آروادی قالقوب بیله دیدی:

ـ سن چارقادیگی گوتوروب شهردن گلن حکومت آداملارینا یوزیگی یاقشی گوسته‌ر؛ بلکه اونلار سنی شورایا سه‌چسونلر!

البته بو سیاق فتنه‌چیلر او ساعت سه‌چگی مجلسندن اوز أه‌ری ایله برابر قوولانوب بو حرکتلرینه گوره‌ده برات‌القول یازیلدی.

بیرده مراقلی ایش بو اولدی که سه‌چگی سسیندن محروم ایدیلمش ایکی.قادین قومسیونا عریضه ویروب سسلرینك قایتاریلماسنی خواهش ایتدیلر. بونلارك بریسی کندده بك آروادی اولوب، ایکنجی‌سیده قاباقکی کند سودیاسی‌نیك آروادی ایدی. بیرینجی آروادك بیراوغلی قامسامول‌در واوزیده قادینلار نماینده‌سیدر. البته قومسیون بونلارك سسلرینی قایتاردی.

(سولوت) کندینده(بورادابگلرچوقدر) آروادلارسه‌چگی مجلسلرینه آز گلمیشدیلر. سببنی کشیلر بیله آگلاتیردیلار که گویا آروادلار اوزلری گلمك ایسته‌میورلر؛اونلارك اختیارلاری اوز اللرینده‌در؛ ایسته‌دیگلری یئرلره گیده بیلرلر...لاکن آروادلار ایسه بو سوزلرك تماما یالان اولدیقلارینی آشکارا چیقارتدیلار. معلوم اولدی که کشیلر اوزلری آروادلاری‌سه‌چگیلره قویمیورلار.

بو کندده شورایا 30 عضو و 9 دا نامزد سه‌چمك لازم ایدی.

آروادلار ایسته‌دیلر که 10 عضو و 3 ده نامزدیئرینی اونلارا ویرسونلر.سسك چوقلیقی ایله بومسئله کیچریلدی.

هر حالدا دیمك اولار که کندلی قادینلارك‌دوشونجه لری آرتمش‌در، اوز حقوقلارینی مدافعه ایتمك یولوندا جدی مبارزه‌یه گیرمگدن داها گیئری چکیلمه‌یورلر.

بوحقیقتی‌بو ییلکی‌سه‌چگیلر بزه‌آیدین گوسترمش‌اولدی.

امین بگلی.

له‌نین ده‌ییردی که شورالار ـ ایشجی‌لرله کندلیلرك بیرلشمه‌لرینك اورغانیدر. شورالارا سه‌چیلمش ایشجی وکندلی قادینلارا تاپشیریگز که شورالاردا فعال صورتده چالشسونلار.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0033



یازانی: محمدسعیداوردوبادی.

بدعت حکمرانلغندا.

1

داڭ یئری آغاریر، روزگار ئەسیر؛
چیسگینلر یوکسەلیر، یاغیشلار کسیر؛
قایانڭ دالندان باش ویریر گونش؛
دومانلار چیرپیشیر، دوشور کشمکش؛
گونڭ ذرەلری اوقلاریڭ ساچیر؛
بولوتلار یرتیلیر، دومانلار قاچیر؛
چەنلر سورونیر کن تو کور شینمی؛
تارلالار روحلانیر، جانلانیر زەمی؛
ایشیقلانیر هوا گورونیر میشە؛
جوتچیلر ماللاریڭ چیقاریر ایشە؛
تپەنڭ باشندا اوتلایبر قوزی؛
چوبانڭ سوریسی بەزەدیر دوزی.
گورونیر قارشیدان تڭ تڭ اوبالار؛
آغ بیلە گللی گلین اینە گین ساغار؛
هر یان قادین ـ قیزدر بەزەنوب قایا؛
چیگینندە سهنگی سالانیر چایا؛
دوزلردە حرکت قایناشیر، جوشور؛
هر کس آتڭ چیکیر، اوکوزیڭ قوشور؛
ساچلاریڭ سالمشدر ساری بارداغا؛
مارال تڭ گەلینلر دیرمانیر داغا؛
اودونچی سالوبدر بالتاسیڭ ایشە؛
سسی داغا دوشیر، تیترەییر میشە؛

آروادلی، کیشیلی، ویروبەأل ـ الە؛
آرابالار دولور، باغلانیر شەلە؛
اوبالاردان کنار بر تڭ آلاچیق
داغیلمش حصیردن بان یورە آچیق.
طنطار قیریلمش، اگیلمش ستون؛
یاشایش حالندان چیقمش بوستون؛
ایچینده دوشەنمش اسگی بر یاتاق؛
چورە گسز بر طهنە، سولمش بر اوجاق؛
(شعلە) بر بوجاقدا ایڭلەیوب دورار؛
یانبندا چیرچیلپاق بر چوجوقدا وار.

2

(شعلە) صاف یورە گللی؛ بیر کویلی قیزی.
اختیار جونچینڭ پارلاق بیلدیزی.
تارلادا چالیشار، یورولماق بیلمز؛
خیرمندە، أەکینده، ایشدن چیکیلمز؛
میشەده چالیشار، چولده جوت سورەر؛
آقشاملار قایبدوب ئەو ایشین گورەر.
(شعلە) ڭ یوقایدی آدیڭ بیلمەین؛
یوز یئردن وارایدی ئەرە ایستەین.
چالیشقان (شعلەنی) هرگورەن سەوەر؛
جوتجی اوغلانلاری حسرتڭ چیکەر؛
دالینجا دوشەرلر گورەن تڭ باشین.
بیری گوزین سەوەر، اوبیری قاشین.

قوللاری چیمرالی، باشیندا چالما؛
گوزەل یاناقلاری، قیرمزی آلما؛
هر گورەن سەوەردی چالیشقان قیزی.
هر یره گیدیرسه دوتولور ایزی.
ئەره ایستەمشلر بر نیچه کره.
(شعله) جواب ویرمش: «گیتمەرم ئەره»!..
سەوگی حس ایتمەدن چالیشیر عوام!
ئوز دوتدیغی یولدا ایلەیور دوام!
آنجاق آز کیچمەدن ده گیشیر حیات.
قوجالمش آتاسی ایلەیور وفات؛
قالمایور بر کیمسه یاردیم ایتمگه؛
مجبور اولور (شعله) ئەره گیتمگه؛
ئەولندی بر فقیر جوتچی اوغلونا؛
بر آرقاداش دیبوب آلیشدی اوگا:
أل اله ویردیلر بیر آرواد، بر ئەر؛
گیجه گوندوز ایشلەر ایکی رنجبر.
عائله قورماغا ایتدیلر تلاش؛
چالیشوب قوردیلار بر گوزەل معاش؛
بو یاشایش آنجاق ایتمەمش دوام؛
ئەری وفات ایتمش برآیدر تمام.
زوالللی (شعله)نگ گولمەمش یوزی.
کومگسیز یاشایور چوجغی، اوزی.

3

(شعله) هیچ کیمسەدن تاپمایور کومگ؛
چالیشوب گتیریر اوغلونا یئمگ؛
خیالنه گلمەز یگیدن بر ئەر؛
اوغلوندان بر بویوگ أمل بسلەیر.
اسگی گوزەللیکدن قالمامش نشان؛
چیچه گین سولدیروب ظالم بر خزان؛
(کریم) آدیندا بر اخلاق دوشگونی؛
«سەویرەم!.» سویلیوب آلدادیر اونی؛
قولچوماق (کریمگ) آلداتان دیلی.
حل ایتمگه قادر بوتون مشگلی؛
محبت گوستەروب حیلەلر قورار.
قولچوماق (شعله)نی یولدان آزدیرار.
دیدی: «رحمگ گلسین، یازیق اوغلیگا:
رحم ایدەن قالمامش بر نفر اوگا!
سنگدە قوی اولسین واریگ، دولتگ!
هر گەلەن آدامگ چیکمەمنتگ؛
سهو ایتمه! قدرینی قان جوانلغگ!
ایستەرم دوزەلسین آوادانلغگ!
سنه باقان کیمی آلیشیر گوگل!
قوی ینه آچیلسین آلیاناقدا گل!
قاپیگدا هر زمان ساغیلسین اینهگ!
اوبانگ دالیندا دوزەلسون پەتەلگ!
سو یرینه آقسین قاتیغگ، سوتگ؛
قویونگ اوتلاسین قوشولسون جوتگ!..»
.... چوجغی آجلقدان قورتارماق ایچون؛
(کریم)ه آلداندی (شعله) بوسبوتون؛
بو ایشدن گیچیور آیلار، هفتەلر.
(شعله) آلداندیغگ قاندی مختصر.

4

...آز قالیردی دوغسون زوالللی قادین؛
قولچوماق چیکمەزدی ئەولنمگ آدین؛
بر داها (شعله)نگ سوزیگ دیگلەمز:
عشقدن سویلەمز، سەوگیدن دیمەز؛
آخر زامانلاردا گورمەیور یوزین؛
نامردی تاپمایور سویلەسین سوزین؛
کیچن «محبتگ» قالمامش ایزی،
سادەدل (شعله)نگ اولوب بر قیزی؛
خنگگ آراسینا یابیلوب خبر؛
بو ایش باغشلامش چوق فنا اثر؛
اوگا ممکن دە گل گیدوب ایشلەمگ؛
یئمگه تاپمایور یاوان بر چورەگ؛
کیمه یالواریرسا یوقدر ایش ویرەن؛
«حیاسزسگ!...» دیبوب قاوار هر گورەن؛
اوغلی یئمەمشدر ایکی گون تمام؛
کورپه سوت تاپمایور آغلایبر مدام؛
(شعله)یه مصاحت گوریر هر طرف؛
آتاسیز کورپەنی ایلەسین تلف؛
(شعله)نی تقصیرلی بیلیر هر گلن؛
ظالم قولچوماغگ یوق آدیگ چیکن!..

5

گیجه نگ یاریسی گورولدور هوا؛
داغلارا عکس ایدیر مدهش بر صدا؛
بیلدیریم ایلان تگ ساریلیر داشا؛
کوله گدن آغاجلار چالیر باش باشا؛
قارا گلق اورتو گلر چکیلمش آیا؛

بر قاپلان کسیلمش هر قیریق قایا؛
قارا بر چارشافا بورونمش فضا؛
بیلدیزلار قارالمش گورونمه‌ز سما؛
طبیعت بیراقیر قورقو هر یانا؛
بادامچالار قوپوب یاتیر یان‌یانا؛
آلاچیق یقیلیر، اوبالار اوچور؛
یووالاردا غیلیر، قوش‌سویادوشور؛
یاغمور شدتله‌تیر، ده‌ره‌لر داشیر؛
سولار چامورلانوب قایادان آشیر؛
دهشتلی برزمان، قورقولی بر آن؛
چایگ کنارندن گلیر بر فغان؛
قایانگ باشیندا بر قارالتی‌وار؛
ساچلاری داغینیق بر قادین‌دورار؛
روز گارده گدیگجه‌داغینق ساچا؛
سنبل تیللر یاتار آرقاچ-آرقاچا؛
اگنده‌پالتاریوق‌روز گارسویوق؛
شعله‌نگ، دوشینده‌اویویورچوجوق؛
یگی گیتمش‌ایدی‌چوجوق‌اویقویا
آناسی بیراقدی دوشیندن سویا؛
چوجغی قاپاندا اماسز سولار؛
(شعله)نگ قلبنده قالمادی قرار؛
ایشیدیلدی سودان چوجغگ سسی؛
زه‌مزه‌مار لایلایی داشلار نه‌نی‌سی.
آنا قوجاغندان قوپان بر چیجك؛
اوگا جامور به‌شیك، طالغالار به‌له‌ك؛
سویا دوشمش چیچك قیلمامش زوال؛
ایلردی آناسی بویله بر خیال:
«خیانت ایدرسه ظالم بر آنا،
هیچ یارامی آناچوجغگ آنا!..»
قلبینی سارسیتدی بونجا دویغولار؛
قویمادی چوجغگ آپارسین سولار؛
ئولومدن قورتاردی سود ئه‌مر قیزی؛
باسدی سینه‌سینه فقیر دیلسزی؛
قاپوب آلاچیغا گه‌تیردی اونی؛
بونگنه‌ده ایشین اولمایور صوگی.

6

عواملار (شعله)یه ایله‌یور هجوم؛
اوشاغگ ئولومین ایسته‌یور عموم؛
قونوم، قونشو اوگا ویرمه‌یور حیات؛
چوجغگ آتماقدان آرایور نجات؛
قونشولار سویله‌یور: «ویرمه‌ریز یئمك!..
اوغلگدا محو اولسا ایتمه‌ریز کومك!..



چیقدیگ شریعتدن قیلمادیگ حیا!
باشگا آچیلدی بویله ماجرا!
اگر ساغ قالیرسا آتاسز اوشاق!
یقین بیل اوبادان دوشه‌رسن قاچاق!
اوبادا بدعتلر اولماسین گرك!
ئوزیگی تهمتدن بر کناره چك!
که‌بین کسیلمه‌دن، دوغان بر قادین!
لکه‌له‌مش اولور ئوز گوزه‌ل آدین!
سگا که: بیر مولا کسمه‌مش که‌بیز؛
بوتون نقصانلاری بوندا مطلبین؛
مولا هر گون سنه لعنت ایلیور؛
بر طویدا سویلیوب، بر یاسدا دییور؛
دییور: «ساغ قویسالار آتاسز قیزی؛
اللهگ غضبی دوتاجاق بیزی؛
شریعت دوشرسه آیاق آلتینا؛
هر گلن قادینلار ایلسه زنا؛
قالماز بوندان صوگرا که‌بیس کسدیره‌ن؛
دینگ آدیگ چیکن شریعت دیه‌ن!»
(شعله) حیران قالوب تاپمایور علاج؛
پوزوق آلاچیقدا ایگله‌یرلر آج؛

سه‌وه‌ر بالاسینی آتماق ایسته‌مز؛
آنجاق آجلیغادا دوام ایلمز؛
آنا محبتی غالب اولسادا؛
احتیاج حکم ایدیر فقیر آروادا؛
حاضرلایور بینه آیری بر خطا؛
یه‌ده ایسته‌ردی چوجغگ آتا؛
نهایت بیر گیجه چکیلیر داغا؛
چوجغگ میشه‌ده گومور توپراغا؛

7

آوچیلار آشمشدی گیجه‌دن داغی؛
میشه‌نی گه‌زیردی سحریگ چاغی؛
یایلاوب میشه‌یه حریص آوچیلار؛
هر بری بر یاندان آختاریر شکار؛
آوچی انسانلاردان وحشیلر قاچیر؛
قورشونلار پارتلایور دهشتلر ساچیر؛
چینار بوداغندان قوشلار اوچوشور؛
تو کلری ساوریلمش بر قاناد دوشور؛
شنلك میشه‌لردن گلمیر سس، سه‌میر؛
آنجاق چوق اوزاقدان بر قوزو مه‌لیر؛
آوچیلار تازادان دوشور اورمانا؛
سه‌سین آرقاسینجا هره بر یانا؛
آرانیر میشه‌لر، تاپیلیر قوزو؛
نظردن سالنمش بر چوجقدر او؛
احتیاج ایچینده چرپینان آنا:
ممه‌دن آییروب ظلم ایدوب اوگا؛

(شعله) گیچن گیجه یاروب توپراغی؛
باسیرماق ایسته‌مش دیلسز اوشاغی؛
تمام باسیرماغا قیمامش یازیق؛
دوشیندن یوقاری بیراقمش آچیق؛
آغلایور، ایگله‌یور، یورولور یاتیر؛
تیز ـ تیز دیکسینه‌رك اللریگ آرتیر؛
.... آوچیلار سه‌وینجه‌ك آلدی کورپه‌نی؛
آختاروب تاپدیلار اوگون(شعله)نی؛
اوبالاردان گیتدی کنده بو خبر؛
شورا ملیسلری ایتدیلر سفر؛



اوبالاری گه‌زوب دوتدیلار سراق؛
قاچوب گیزلنمشدی (کریم) قولچوماق؛
دوتوب گتیردیلر کند شوراسینا؛
لایقنجه جزا ویردیلر اوگا:
قادینلار شعبه‌سی بیله‌ن تك ایشی؛
قولچوماغگ یاندی بوتون گیچمشی.



سوك

بیر بالاجا یاکلشلیق

(حکایه)

حاجی میزاعلی آغا وفات ایتمشدی. چون بیزیم ایو آدامینا بر نوع قوهوملیغی چاتیر، ـ مرحومك دفنینه تا قبر اوسته کیبی منده گیتمگه مجبور اولدوم، وحتی آقشام وقتی سرسلامتنه‌ده گیتدیم، من اوزومده گیتدیم و أیو آداممیزی‌دا آپاردیم:

کیشی‌لر قاباق اوتاغا یغیشمیشدیلار. أیو آداممیز حیاطه



گیره‌ن کیمی من‌دن آیریلدی و گیتدی ایچه‌ری ایوه. (قوهوملیغی جهتندن اورایا بلد ایدی).

من گیردیم کیشی‌لرك اوتاغینا، وسلام ویروب گیچدیم یوخاری و اگلشدیم. ایکی عمامه‌لی مولا یوخاری باشدا اگلشمیشدیلر، بر عمامه‌سیز مولاحق مجلسك اورتاسندا اگلشمیشدی. و کیشی‌لرده اطرافده دیوار دیبنده جرگه ایله اوتوروب باقیردیلار. من اوتوران کیمی مولالارك بیری اوجادان «فاتحه» دیدی و جماعت «فاتحه» لفظینی ایشیتجك بردن باشلادی: کیمی «بسم‌الله» و کیمی «الحمد لله» دیبوب وورد ایله‌مگه و بیر پاراسی‌دا سس‌سیز کوو سیز آنجاق دوداقلارینی ترپه‌دیردی. عمامه‌سیز مولاحیق اورتادا دیز اوسته ادبلی اگله‌شوب قاباقدا بردسته جلدلی کتابچه‌لرك بیرینی گوزونك. قاباغینا دوتوب مشغول ایدی. عمامه‌لی مولالارك‌ده و کیشی‌لرك‌ده بیر نیچه‌سی اللرینده بو کتابچه‌لاردان میرتدانا ـ میرتدانا آیچاقدان اوخویوردیلار. بو کتابچه‌لار قرآنك جزولری ایدی که عبارت اولاقرآنك اوتوز یره بولونمیش حصه‌لریندن.

مرحومك بویوك اوغلی کابلا تقی باشی آشاغا غمگین دورمشدی آیاق اوسته، قاپونك آغزیندا. هر بیر ایچه‌ری داخل اولان سلام ویروب اگلشندن سورا کابلا تقی‌ده یاواشجا دوردوغی یرده چوکوردی دیز اوسته یره، و بیریسی دوروب گیده‌نده کابلا تقی‌ده دیك قالخیردی آیاق اوسته، و گیده‌ن آدام یوزینی ایوك تازه صاحبنه دوتوب هره بیرجور تسلی ویریردی. بیری مختصرجه دییوردی:

ـ الله رحمت ایله‌سون!

اما بر آیری‌سی برآزدایانوب بیر ایکی سوزده آرتیق دییوردی:

ـ کابلایی، هیچ‌اوره گیکگی سیخما، بو دنیاده هیچ کس قالمیاجاق، بو دنیا نامرد دنیادر، هر یارانمیشك آخری اولمك‌در، بوبر الله مصلحتی‌در؛ بوایشلرك بزه‌ده‌خلی یوقدر، هیچ‌اوره گیکگی سیخما!..

من «حمد سورا»نی‌اوخویاندان سورا اوزاوزومه‌دیدیم:

ـ الله‌رحمت‌ایله‌سون. بر ایکی‌دقیقه‌مجلس ساکت اولدی، دانیشان اولمادی، آنجاق بیرآدام‌ده‌منم کیمی گیردی‌مجلسه و اگلشدی. بوناداه‌«فاتحه» دیئیلدی و گنه مجلس اهلی «حمد سوره» اوخودیلار و سورا گنه ساکت‌لك عمله گلدی. منم سول‌طرفمده اوتوران مشهدی ذوالفقار مولالارا طرف اوزینی دوتوب سوروشدی:

ـ آخوند مولااحمد، بو آی گرك کمیك اولا.

ملا احمد باشینی قرانك جزویندن قالخیزوب دیدی:

ـ بلی، گرك کمیك اولا.

ـ من‌ده مشهدی ذوالفقاره طرف چوندوم و دیدیم:

ـ بلی، گرك کمیك اولا.

ـ

قرآنك بر جزوینی‌من‌ده عمامه‌سیز مولاجیق‌دان ایسته دیم، آچدیم و باشلادیم اوخوماغا.

داخی بیلمیرم دنیانك هاراسندا ایدیم که بیرده گوردوم ایو صاحبی کابلا تقی گلوب چوکوب قاباغمدا و منی یوخی‌دان اویادیر.

معلوم اولدی که منی بورادا شیرین یوخی دوتوب و باخدیم جزوك «الف‌لام» سوره‌سینك آنجاق ایکی صحیفه سنی اوخوموشام.

اولوم ـ ظولوم‌جزوی قورتاردیم، اوز کوکلیمده‌فاتحه ویردیم. اوز کوکلیمده «حمد سوره»نی اوخودوم،

جزوی بوکدوم، اوپدوم، ویردیم مولاحیفا؛ و دوردوم آیاغا. مجلس‌دن چیخاندا کابلا تقی‌یه دیدیم:

– الله، اوزبیرلیگی خاطره‌سی ایچون مرحومه‌بهشتك الك اعلا درجه‌سینده یئر ویرسون. والله‌تعالی سنك وجودك ایله اونك اوجاغینی سوندورمه‌سون!...

چیخدیق دالانا وکابلاتقی اوجادان چاغیردی:

– آی اوشاق، بوالقیس باجی‌یا دییون گلسون؛ مولا عمی گیدیر، دورسون گلسون!..

(بوالقیس – بیزیم اوشاقلارك آناسی‌در)

فانوسمی یاندیردیلار، ویردیلرالیمه. اندیم حیاطه عورت ایوندن بر چارشافلی‌عورت دوشدی منیم دالیما وچیخدیق کوچه‌یه، هوا قارانلق ایدی، اوقدر قارانلیق ایدی که من فنارك‌یاووق‌اطرافیندان کنار برشی گوره بیلمه‌دیم. بوالقیسك باشماقلارینك‌تیقیلتی سندان‌دویوردوم که آروادداليمجا گلیر.

حاجی مرسل کوچه‌سینی کیچدیك، چاتدیق علی‌مردان کورپی‌سینه: من کورپونی کیچدیم و چوندیم ایویمزه طرف؛ اما دخی بوالقیسك آددیملاری قولاغیما چاتمادی گئیری چوندیم و گوردوم که بوالقیسك قارالتیسی بربرده



دوروب گلمیر. تعجب ایله‌دیم و بر آز آجیقلاندیم و آروادا طرف دیدیم:

– داخی نه استخاره ایله‌یورسك؟ گه‌ل گیده‌ك!..

آروادگنه دینمه‌دی. من تأکید ایله‌دیم و بو دفعه بر آزدا اوجادان بونی چاغیردیم بیلمیرم آغزیما گلن بر نیچه آجیقلی سوزده دیدیم.

آروادترپنمك ایسته‌میردی.

همی‌خیلی تعجب ایله‌دیم، همی‌نهایت‌غیظ‌لندیم وآروادا بیله سوگوش گونده‌ردیم:

– آی ملعونك قیزی، اگر من‌ایله ظرافتك‌وار،بورا ظرافت یئری ده‌گل، گه‌ل گیده‌ك:

با!.. بو حین‌ده منی حیرته گتورمن بو اولدی که گوردوم آروادقایدوب گیئری گیدیر.

ایسته‌دیم یردن بر داش گوتورم و آروادك دالیجا قاچام، ووارم باشی گوزی ازیلسون، اما بورادا دایاندیم و اوز اوزومه دیدیم:

– سبحان‌الله، بلکه بو بیر یوخی‌در که من گورورم.

آنجاق بورادا بیر سس ایشتدیم و یوخی‌دان آیلدیم: اوزاقدان بیر کیشی سسی «بوالقیس!..» دییوب هارایلیور دی. سس یاووقلاشدی وباخام که مشهدی جعفر عمواوغلی بیزیم ایو آداممیز بوالقیسی دالینا سالوب گتوریر. بورادا ایش آچیلدی:دیمه گینن، منم دالیما دوشوب گلن مشهدی جعفر عمو اوغلی‌نك عورتی ومنم خالامك گلینی بوالقیس ایمیش. و مشهدی جعفر عم‌اوغلی‌دا آروادلارك ایچینده اوز بوالقیسنی تاپمیوب، ایش‌دن حالی اولوب وبیزیم بوالقیسر گتوروب که اونی‌منه تاپشیرسون، واوزونگکینی آپارسون.

هیله‌ده ایله‌دی: عورتینی مذمت ایلیه–ایلیه سالدی دالینا آپاردی.

بزیم بوالقیس‌ده دوشدی دالیما: من‌ده‌بونی مذمت ایده – ایده؛ بلکه سوگه–سوگه آپاردیم‌ایویمزه.

اوشاقلار یاتمشدیلار، آنجاق بویوك قیزیم دیلرباشینی قووزییوب‌سوروشدی: ده‌ده ایندی‌یه کیمی هاراداید گز؟

من آجیقلی جواب ویردیم.

– جهنم‌ده، گوردا ایدیق.

اوشاق سسینی کسدی. یورقانی چکدی باشینا.

جلیل محمد قلی‌زاده (ملانصرالدین)

جەق لوندون.

شیناغو.

(آ-چو)، گونشەچیقمش اولدیغیندان دولایی سەوینیردی. قاطرلارلك(آتیمائونو) یاساری یوللاندیغنی گوردیکده داهادا آرتق فرحلندی. (شەممەر)ك اونی تازەدن ایشه گوندر- دیگی هیچ شبهەسزدر. چوق ایستی برگون ایدی. قاطر- لارترلەدی، (قریوشو)ترلەدی، (آ-چو)دا ترلەدی. آنجاق (آ-چو) ایستیيه دوزوملی ایدی: چونکه پامبوق زەمیسنده اوچ ایل متصل بویله ایستی گونش آلتندا چالیشمشدی. بشاشتندن پارلایردی؛ او درجەده پارلایردی که حتا سفیح (قریوشو)دا بیله حیرتلەنوب دیدی:

- چوق مەزەلی آدامسانك.

(آ-چو)، مثبت جواب اولماق اوزره باشنی ترپدوب داهادا آرتق پارلادی. (قریوشو)، سردیاکبی دگل،(آ- چو) ایله اونك آگلادیغی قاناق لحجەسیله دانیشیردی.

(قریوشو) میزیلد ایوب:

- چوق. چوق گولورسك ها، سنك بریگه کیم اولسا ایدی بو گونکی کبی گونده گوزینك یاشلاری دایانمازدی.

- دوستاقخانەدن چیقدیغیمیا سەوینیرم.

جاندارم، چیگنلرینی قیسوب:

- ایله بو؟

- مگر بو آزمیدر؟

- دیمەلی بوینیگنك وورولاجاغی می ایچون سەوینیرسك؟

(آ-چو)، گوزلنمز بر حیرتله اونا باقدی:

- نیچه؟(شەممەر)، ایشلەمك ایچون زەمیه قایتمیرامی؟

(قریوشو)، فکرلی-فکرلی اوزون بیغلارینی بوروردی. نهایت، قنوت ایله یان قاطری ووراراق سوردی:

- دیمەلی سنك هیچ برشیدن خبرك یوقمش،دگلمی،

- نەیی بیلمەلیيم که؟-دییوب یاواش-یاواش جانتا قورقو دوشدی: - (شەممەر) آرتق منه ایش ویرمیەجکمی؟

- یقین بو گوندن سوگرا آرتق سنه ایش ویر میەجکلر! - دییوب (قریوشو) قهقهه چکەرك گولدی، پیس ظرافت دگل. - بیلیرمیسك، بو گوندن سوگرا آرتق سنك ایشلەمك امکانك اولمیاجاقدر. باشسز آدام ایشله یه بیلمز.

(شیناغو) نك بوگرینی دومسوکه یوب گولومسوندی.

(آ-چو) ایسه اوزون برسکوته دالوب نهایت دیدی:

- (شەممەر) منم بوینمی می وورماق ایستەیر؟

(قریوشو)،قهقهه ایله گولدیگندن دولایی جواب ویرمك عوضنده باشی ایله اشاره ایلەدی.

(آ-چو) جدی بر طرزله.

- بوراسی یاگلشدر. من، بوینی وورولمالی اولان چینلی ده کلم. من (آ-چو)یام. محترم سودیا منم ایچون (یگی قاله دونیا)دا ایگیرمی ایللك کورك جزاسی کسمشدر. جاندارم گولوردی. پیس ظرافت ده کل! بو مەزەلی (شیناغو)، قیلیوتینی آلداتماق ایستەیر، (آ-چو). بر داها آغزینی آچوب سوزدینجه یه قدر قاطرلار، هندجوزی نخللکی کیچوب پارلاق گولك کناری ایله ده یاریم میل یول گیتمشدیلر.

- سنه دییرم که (آ-چوئو) من دکلم. محترم سودیا منم بوینمی وورماغی دیمەمشدر.

(قریوشو)، اسیره انسانپرورلك حسی ایله تسلی ویرمك فکریله دیدی!

- قورقما، بوجور ئولمك چیتن دگلدر. - بورادا بر چیرتق ووروب:-تیزجه یقوب گیدیر. بودا کندیردن آسیلوب آیاقلار کبی چاپالاداراق بش دقیقه ژیمناستیق یاپماق کبی دکل که. بو، جوجهنك بوینی ده هره ایله ووران کبی بر شیدر. برجه آن ایچرسینده: پوف! بیتدی گیتدی! سنی ده اویله ایده جکلر. هیچ دردینی چیکمه، اذیتلی دکلدر. باشیگی آتدیراجاقلار و آرتق هیچ دوشونمیه جکسك ده. بو چوق یاقشی ایشدر. ایله من ئوزیمده بویله ئولمك آرزوسندا یام. ماشین کبی اولدی- کیتدی. بویله ئولدیکك ایچون چوق خوشبخت بر آدامسانك. تیزجه ئوله جکسك. چیق! - بیتدی. باشك آتدیریلمش اولاجاق. هله بر قدر سنی قیدیقلایان کبی ده اولاجاقدر. بوایشك نیجه کیچدینگی دییه بیلر! بوجور ئولنلردن هیچ کس قایدوب گری گلمەمشدر.

ظرافتی ئوزینه خوش گلدیگندن گولمکدن تمام یاریم دقیقه سه یه له گلندی. چینلیيه یورمك-دیرمك ویرمه کی ئوزینه بورج حساب ایتدیگی ایچون ده شادلغی بر درجه یه قدرده صنعی بر شادلق ایدی.

او ایسه سوزلرینی تاکیدله:

- آنجاق من. (آ-چو) اولدیغمی دییرم، من بوینمك وورولماسنی ایستەمیرم.

(قریوشو)یوز گوزینی تورشالتدی:(شیناغو)چوق هدیانلایر.

(آ-چو) باشلادی؛

- من (آ-چوئو) دکلم..

- آرتق یته ر!-دییوب جاندارم اونك سوزینی کسدی.

اوردلارینی شیشیروب گورکمنی سرتلشدیرمگه چالیشیردی.

(آ-چو)، ینه‌ده باشلادی:

- آنجاق من دییرم که..

(قریوشو) باغیروب:

- کس! - دیدی.

دانشیق کسیلوب یوللاریندا سکوتلا دوام ایتدیلر. (پاپیت)دن(آتیمائونو)یا قدر هله ایگیرمی میل‌یول قالیردی و بونك‌دا یاریسنی کیچدیکده چینلی تازه‌دن سوز سالماغا چالیشیردی:

- محترم سودیا بیزیم تقیصرمزی‌یوزیمزه اوقویانداسنی محکمه زالندا گورمشدیم. بوینی وورولمالی اولان (آ-چوئو)نك اوزون بویلی بر آدام اولدیغی یاد گدادرمی. بر منه‌ده باق!

آیاغا قالقدی. (قریوشو) اونك‌یادینا دوشدی. جاندارمك گوزلرینده بوتون (شیناغو)لار بر ایدیسه‌ده، دوغرودان‌دا (آ-چوئو) یوجا بویلی بر آدام ایدی. باشلیجا اولاراق بوتون (شیناغو)لارك سور- صفتی‌بر ایدی، و جاندارم‌دا، یوجا بویلیلاری ایله آلچاق بویلیلارینی سه‌چه‌بیلیردی. اونا گوره‌ده اونگله یاناشی اوتوران بو آدامك، اوتورماسی لازم گلن(شیناغو)نك‌اولمادیغنی ایمدیجه آگلادی. قاطرلاری ئویله‌بر دنبره‌ساقلادی که،حتا آرابانك‌دیشلوسی‌یوقاری‌قالقدی.

(آ-چو)، لذتله گولومسونه‌رك دیدی:

- سهو اولدیغنی ایمدی گورورمیسك؟

لاکن(قریوشو)دوشونوب آرابانی‌دایاندیردیغناحیفسلندی. او، باش سودیانك سهو ایتمش اولدیغنی بیلمیردی. او، یالگز (آتیمائونو) یا آپاریلماق ایچون اونا بر (شیناغو) ویریلدیگنی و ئوزینك‌ده‌اونی آپارمالی اولدیغنی بیلیردی. آنجاق بلکه بو، او (شیناغو) اولمادی، و بونك بوینی وورولدی؟ نه‌اولاجاق که، (شیناغو) دکلمی؟ (شیناغو)نك‌دا نه اهمیتی اولاییلر؟ برده که بو، هیچ سهو اولمیادا بیلر. رئیسلرك باشلاریندا نه‌لر اولدیغنی او هارادان‌بیله‌بیلر؟ بوراسی اونلارك ئوز ایشلریدر. برده (پاپیت)ه قاییدار ایسه (آتیمائونو)دا بویون وورولماسنك دایاندیریلماسناسبب‌اولماقلا بیله ایمدی اسیری گوزله‌ین سه‌رژانتك تهمتنی‌ده قازانمش اولار. (پاپیت) ده‌ده اونا آجیقلانارلار.

ایلری سوردی. ساعته باقوب یاریم ساعت تأخیر ایده‌جکلرینی گوردی؛ سه‌رژانت‌دا آجقلاناجاقدر. قاطرلارا دکدی.(آ-چو)، سهواولدیغنی تاکید ایتدیکجه (قریوشو) عنادلانیردی. ئولومه باشقا بر آدامی آپاردیغنی اعتراف ایدیردیسه‌ده، تقصیر ئوزینده اولمادیغی ایچون‌ده گوردیگی ایشی دوغرو حساب ایدیردی. سه‌رژانتك اونا آجیقلانماسینا یول ویرمگدنسه، بر دوژون چینلینك بوینی وورولماسنا آرتق ممنونیتله کومك ایده‌ردی.

جاندارم قنوتنك دسته‌سی ایله (آ-چو) نك قاشندان ووروب ساکت دایانماغی اونا اوجادان امر ایتدیکدن سوگرا تابع اولماقدان باشقا (آ-چو)نك برچاره‌سی یوق ایدی.سکوته دالوب‌اوزون یوللارندا دوام ایتدیلر.(آ-چو) آغ شیطانلارك حیرت انگیز ایشلرینی دوشونوردی. بو ایشلری آگلاماق اولمیردی. بونگلادا هامو ایله اولدیغی کبی رفتار ایدیردیلر. اولجه بش نفر تقصیرسز آدامی اتهام ایتمشلر و سوگرادا ئوزلری ایگیرمی ایللك گورك جزاسی کسدیکلری آدامك بوینی وورورلار، و اونگ‌دا الندن هیچ بر شی گله‌بیلمیر؛ دینمزجه دایانوب او آغالارك بویوردقلارینی قبول ایتمه‌لیدر.

گلوب (آتیمائونو)یا چاتدیلار. قاطرلار گلوب ئه‌شافاندك*) یانندا دایاندیلار. سه‌رژانت، ئه‌شافانتك کولگه‌سنده دایانوب صبر سزلیکله گوزله‌یردی. (آ-چو)، ته‌له‌سیك ئه‌شافاندك پیلله‌لری ایله یوقاری چیقدی. آشاغی باقوب اکینلرده ایشله‌ین بوتون قوللاری بر طرفده گوردی. (شه‌ممه‌ر)، بوایشك قالان آداملارا عبرت اولماسی فکریله تماشا ایچون هامونی بورایا یغمشدی. قیلیوتینی‌ده ئوزی قورمشدی، چوق چابك بر آدام ایدی. عمرینده قیلیوتین گورمه‌دیکنه باقمیاراق فرانسزلارك گوستریشی ایله قیلیوتینی‌ده ئوزی قایرمشدی. بوتون قوللارك تماشا ایتمه‌سنك واجب اولدیغنی ثبوت ایده‌رك قتلك (پاپیت) ده دگل، (آتمیائونو)دا اولماسنی‌دا او تکلیف‌ایتمشدی، جلادلغی‌دا ئوز عهده‌سنه آلاجاغنی‌ئوزی دیمشدی. اونا گوره‌ده ایمدی ئه‌شافاندا چیقوب ئوزی‌حاضرلامش اولدیغی آلتلری امتحان ایدیردی. قیلیوتینك پیچاغی آلتندا آدام بوینی یوغونلغندا بر موز آغاجی قویولمشدی. (آ - چو)، حیرتله دایانوب اونی مشاهده ایدیردی. آلمانلی، قیلیوتینك دسته‌کنی هرله‌یوب‌تییه‌نی یوقاری قالدیردیقدان سوگرا یوغون کندیری چکدی. تییه، گونشك ایشیغندا پارلیاراق دوشدی و موز آغاجی ساقنی لازمنجه آتدیردی.

سه‌رژانت ئه‌شافاندا چیقوب سوردی:

- نیجه ایشله‌یر؟

- چوق گوزه‌ل- دییوب (شه‌ممه‌ر) بشاشتله جواب ویردی: - اجازه گزله گوستره‌یم. ینه‌ده‌دسته کی هرله‌یوب کندیری دارتدیقدا پیچاق شاققیلتی ایله یومشاق آغاجك اوسته‌دوشدی ایسه‌ده بودفعه آتدیرمایوب اوچده‌ایکی حصه‌سنه‌قدر ایشله‌دی.

*) ئه‌شافاند-دار آغاجنك یانندا قایریلمش کورسی.

سەرژانت، یوز گوزینی تورشالدوب دیدی:

– بویله یاراماز. – (شەممەر) آلننك ترینی سیلوب:

– آرتق پەرسنك*) لازمدر، – دییوب ئەشافاندك اوجینه گلوب دمیرچیدن یاریم پوتلق بردمیر پارچاسی ایستەدی. بو حالدا (آ – چو) سەرژانتا باقوب دانشماق ایچون النه گیرەوه دوشمش اولدیغنی آگلایاراق باشلادی:

– محترم سودیا (آ – چوئو) نك بوینی وورولاجاغنی دیمشدی.

سەرژانت صبرسزلکله باشنی ترپتدی. چوق کوله کلی بر یول ایله بوگون هله اون بش میل یولدا گیدەجگنی دوشونوب مروای آلویری ایدن (لافیەر)ك گوزەل قیزی (بەرتا)نك فکرینده ایدی.

– آنجاق من (آ – چوئو) دکلم، منم آدیم (آ – چو)در. یوجا بویلیدر: من ایسه، گورورسك، قیسایام.

سەرژانت تەلەسیك اونا باقوب سهو اولدیغنی اوساعت گوردی و امر ایدیجی بر طرزله چاغردی:

– (شەممەر)، بورایا گلگز!

آلمانلی، دونقولداندی و دمیر پارچاسنی قلیوتینه بر کیتمیەنجەیه قدر ال چکمەدی. قورتاروب سوردی:

– (شیناغو) گز حاضرمیدر!

– برباقگز بو، همان (شیناغو) درمی؟ – دییه جواب ویریلدی

(شەممەر) تعجبلندی. برنیجه ثانیه سوگه – سوگه ئوزی ئوز ألی ایله حاضرلایوب ایمدی امتحان ایتمك آرزوسنده بولوندیغی ماشینا باقوب نهایت دیدی:

– بورایا باقگز، بز بو ایشی ساقلیا بیلمەریك. بیش یوز نفر قول بورادا اوچ ساعت معطل اولوب ایشدن قالمشلار. بر داها وقت ایتیره بیلمەرم. نه فرقی وار، کیمك بوینی اولور اولسون. (شیناغو) ده کلمی.

«قادینلاری تمامیله آزاد ایتمك اونلاری ارککلر ایله برابرلشدیرمك ایچون یاپیلمزدا اجتماعیله‌شدیریلمش تصرفات اولمالی و قادین بوتون عمومی فائده‌لی ایشلرده اشتراك ایتمه‌لیدر. او وقت قادین ارکك کیبی بر یر، بر موقع دوتا بیلر.» صنایعمزده قادین‌امکنك آرتدیغی گورو نور، فقط بز هله‌لیك‌یالکزحربدن اولکی نورمایاچاتیریز.

شورالار اتفاقیندا بر ییل ایچه‌ریسنده یکرمی‌بشنجی ییل آپره‌ل آیندان یکرمی‌آلتنجی ییل آپره‌ل آینا قادار همکارلار اتفاقلارینداعضو اولان قادینلارك مقداری 1.735.725 نفردن 2.217.000 نفره چاتمشدر . بو مقدار بوتون همکارلار اتفاقلاری عضولرینك بیکر بش فائضی قادار در. بونلاردان بر یانوار بیکرمی‌بشینجی ییل ایچون بش‌یوز اوتوزبش بیك نفری؛ یعنی بیکرمی یدی فائضی استحصالاتدا اشتراك ایدیردی. بر یانوار بیکرمی آلتینجی ییل ایچون استحصالاتدا قادینلارك مقداری 708 بیك نفره چاتیر؛ یعنی بیکرمی‌یدی فائض تشکیل ایدیرلر. (اون‌اوچنجی‌ییلده روسیه‌ده بوتون‌استحصالاتدا چالیشانلارك اوتوز فائضی قادینلارایدی) آذربایجاندا ایسته‌ر محلی استحصالات و ایسته‌رسه‌ده یاشایش شرائطی نتیجه‌سینده استحصالاتدا چالیشان قادینلارك فائضی چوق آز ایدی. اون اوچنجی ییلده ایشچی و خدمتچیلر ایچه‌ریسینده قادینلار یالکز دورت فائض قادار تشکیل ایدیردیلر. یالکز شورا حکومتیندن سوکرا قادینلارك استحصالاته جلب‌ایدیلمه‌سنده‌موفقیت واردر. بر اوقتیابریبیکرمی آلتنجی ییل ایچون آذربایجاندا همکارلار اتفاقلارینا عضو اولان قادینلار 25.805 نفر؛یعنی‌بوتون‌همکارلار اتفاقلارینداعضو اولانلارك اون اوچ فائضی قادار در‌لار. تکجه باکودا ایسه همکارلار اتفاقلارینداً 21.099 قادین؛ یعنی اون‌آلتی فائض قادار قادین واردر. آذربایجان صنایعنده 5.825 قادین واردر که یدی فائض تشکیل ایدیر.



شورالار سه‌چکسینده اشتراك ایتمش قوبا داقوصار دائره‌سنده برموزدور قادین.

ئولکه‌مزك صنایعه‌شدیریلمه‌سی مسئله‌سی نتیجه‌سنده قادینلارك ایشده سیقیشدیریلماسی قورقوسی واردر. زیرا قادینلار صنایع ایچه‌ریسنده اختصاصجه ضعیفدرلر . بو ضربه‌یی آرادان قالدیرماق ایچون قادین امکی اختصاصنی یوکسلتمك اوغروندا چالیشماق لازم‌در. هله‌لیك قادینلارك فابریقا ـ زاوود شاکردلکی مکتبلرینه جلب ایدیلمه‌سی ایشی چوق ضعیف کیدیر. بوتون‌شورالار اتفاقیندا بیکرمی آلتینجی ییل ایچون فابریقا ـ زاوود شاکردلیکی‌مکتبلرینده اون‌یدی بیك ایشچی قادین قیز تحصیل ایدیر که بودا اوتوزآلتی فائض‌تشکیل ایدیر .



بویل نوخادا شهر شوراسینه

حالبوکه یکرمی بشنجی یلده یکرمی ایکی فائض ایدیردی. آذربایجاندا فابریقا، زاوود شاگردلیگی مکتب لرنده یوز آلتمش ایکی قیز تحصیل ایدیرکه. بودا سکز یاریم فائض قادار دیر. آذربایجان خلق امك قومیسارلیغی یانیندا قادین امکنی یاقشی لاشدیرماق ایچون خصوصی قومیسیون ایشله یر . بو قومسیون یکرمی آلتینجی یلك اوقتیابر آیندان اعتباراً قادینلارك بو مکتبلره قبول ایدیلمه سی ایچون فائض تعیین ایتمشدر. تیکیش ، توقویوجیلق و توتون صنایعی ایچون اللی بش فائض معین ایدیلمشدر . فابریقا ـ زاوود شاگردلیگی مکتبك کیمیا شعبه سی و تاختا آغاج صنایعی ایچون هرهسنه یکر بش فائض داغ ـ زاوود صنایعی ایچون ایسه اون فائض تعیین ایدیلمشدر. ایشك بوراسنه دخی دقت ویرمه لیدر که قزلارك بر چوقیسی مکتبی یاریمچق براقماغا مجبور اولور که بونك بر چوق سبب لری واردر. بو حالك ئوکینی آلمالی و قزلاری مکتبلرده ساقلامالیدر.

آذربایجاندا الخسته مسئله لردن بریسیده باکودا، قادینلار آراسندا ایشسزلکك آرتماسیدر. یکرمی آلتنجی یلك یانوار آیی ایچون 4،990 نفر ایشسز قادین وار ایکن یکرمی یدنجی یلك یانواری ایچون 7،275 نفره وار ـ مشدر. ایشسزلرك اکثریتی 5،447 نفری روسلاردر. ایشسز تورك قادینی یوز اللی یدی نفره قادار قید ایدیلمشدر. ایشسزلك ایله امك قوللهقتیفلری دوزه لتمك یولیله مبارزه آپاریلیر. هه لك اون بش قوللهقتیفده یوز هشتاد سکز قادینا ایش ویریلمشدر.

بو رقم آزدرسه ده، بوندان باشقا قادینلار مختلف ایشلره ده گونده ریلمشلردر. یکرمی آلتنجی یلك یانوارندا آلتی یوز اوتوز آلتی قادین ایشه گوندریلمشکن اون یدنجی یلك یانوارندا 1،148 قادین گوندریلمشدر. قادینلارك شورا قورو لوشی ایشلرینه جلب ایدیلمه سی استحصالاته آلینماسی مدنی وسیاسی سویه لرنك یوکسلمه سی ایشی موفقیتله گیتمك ایچون قادینلارك عائله وضعیتی یونگوللهشدیرمگه چالیشمالی، اونلارك یاشایش شرائطنی یاقشیلاشدیرمالیدر. له نین یولداش یازیر که: ئه و تصرفاتی چوق وقت قادینلارایچون الك لازمسز الك وحشی و الك سارسیدیجی برایشدر. بو ایش چوق خیرداا اولاراق قادینلارك ایله ریله مه سنه هیچ بر صورتله یاردیم ایتمه یبر. قادینلار شورالار، قوئوپه راسیا، هم کارلار اتفاقلاری و باشقا اجتماعی تشکیلات لاردا یاقیندان اشتراك ایتمه لیدرلر، قادین لاری حیات اسارتندن قورتارماق ایچون چوق ایش گورول مشدرسه ینه ده کافی دگلدر. یکرمی آلتنجی یلك یانوار آیی ایچون بوتون شورالار اتفاقیندا یدی یوز اوتوزبش کورپه چوجوق ئه وی، یدی یوز یکرمی سکز طبی چوجوق منطقه سی، اوچیوز هشتاد بر تولدخانه لر دورت بیك یوز بر یای چوجوق ئه وی، دورت یوز اوتوز آلتی کند طبی منطقه سی واردر.

آذربایجاندا سوك وقتلرده قادینلاری ایله ری سورمك ایشنده موفقیت واردر.

یکرمی ده ردنجی یلده اوچ چوجوق ئه وی وار ایکن یکرمی بشنجی یلده سکز، یکرمی آلتنجی یلده اون چوجوق ئه وی وبر یای چوجوق یاسلی سی واردر. یکرمی بشنجی یلده چوجوقلارا یاردیم منطقه سی بش ایدی. بوندان بریسی قضادا ایدی. یکرمی آلتنجی یلده ایسه دوقوزه چاتمشدر. بوندان دوردی قضالرده در. یکر می بشنجی یلده چوجوق میدانچاسی اللی اوچ ایدیکه

له نینچی قومسومول انقلاب قورولوشی یولندا چالیشان ایشچیلر



سه چیلمیش قادین لار غروپی.

بوندان دوردی قضالرده ایدی. بیکرمی آلتنجی یلده ایسه آلتمش چوجوق میدانچه سی واردر که بونلارك اونی قضالاردادر.

علاقه دار تشکیلاتلار مارتك سکزی ایچون قضالاردا چوجوق طبی منطقه لری، چوجوق میدانچه لری و یای میدانچه لرینی گه نیشلندیرمك فکرنده درلر. قناعت اصولی اولدیغنا گوره گله جك انشاآت ایشلری امکجی کتله لرینك شخصی فعالیتی ایله ایله ریله مه لیدر.

قضالرده آنالق و چوجوقلق محافظه سی تشکیلاتلاری دوزه لدیکده حال حاضردا اساس مانع طبی هیئتگ یوقلیغی در.

خصوصیله ماماوشفقت باجیلاری چاتشمایر. بو گا گوره ده خلق صحیه قومیسارلغی طرفندن بیکرمی یدی - بیکرمی سکزنجی یلده دولتی مامالق ته خیقومی آچیلاراق بورادا یالکز قضالاردان کلنلرك اوقودیلماسنی قراره آلمشدر.

بورانی بیتیره نلر مطلق قضالاردا چالشمالیدرلر. آذربایجان کندلرنده مختلف اجتماعی خسته لیقلار واردر. چوجوق ئولومی کسکین در. لازمی طبی یاردیم اولمادیغندان قادین لار شکست اولورلار. بو وقته قادار آذربایجان کندلری طبی قوه و مامالر عوضینه تورکه - چاره دن و آرالق هکیملرندن استفاده ایدیرلر.

کندلرده خلق معارفی مسئله سی دخی آز کسکین دکلدر. آذربایجاندا تورك قزلارینك معارف جهتجه موفقیتلری واردر. تورك قزلاریندان عالی مکتبلرده تحصیل ایده ناری واردر. باکو و قضالاردا تورك قزلاریندان معلمه لرحاضر لایان خصوصی مکتبلر واردر، بو وقته قادار آذربایجان کندلرنده معلمه یه تصادف ایتمك، طبیبه تصادف ایتمك قادار چتیندر. سوادسزلغی لغو ایتمك ایشی ایسه لنك اولاراق ایله ریله ین آذربایجاندا اوتوز قادین قولوبی واردر که، بوندان بیکرمی بشی قضالاردادر. بوندان باشقا بیکرمی بش قرائت کومالاری (قادینلارا مخصوص) واردر. فقط بو قولوبلاردا مدنی - معارف ایشی چوق فنا قورولمشدر. معلمه لر اولمادیغندان قرائت درس لری کچیلمه یر، سواد مکتبلری یوقدر.

معلمه ماما، طبیب - کندلره!

ایشته، بین الخلق قادینلار گونی ایچون طلبمز بودر؛ قوئوپه راتسیا اورغانلاری دخی قادینلارك اسارتدن قورتارماق ایشینه دقت ویرمه لی درلر. قوئوپه راسیا بو جهته ایمدییه قادار پك آز دقت ویرمشدر.

آذراتفاق و کوی برلگی، ئوز قوملی تشکیلاتلاری یانیندا سکز مارت گونی ایچون چوجوق ئه ولری میدانچه لری و سائره حاضرلامالیدرلر. مرکزی ایشچی قوئوپه را تیفنك موکللری اجلاسی بویوك مغازه لر یانیندا چوجوق شعبه لری آچیلماسنی چوجوق آشخانه لری تاسیس ایدیلمه سنی قراره آلمشدر. بو ایش، ایشچی و کندلی قادینلارك اولدیقجا چوق ایشه جلب ایدیلمه سینه یاردیم ایده جکدر. بو وقته قادار کندلی قادینلارك قوئوپه راسیایه جلب ایدیلمه سی ایشی چوق ضعیف گیتمشدر.

آذربایجان استهلاك قوئوپه راسیاسندا، قادینلارك آقتیفلکنی بر قادار یوکسه لتمك ممکن اولمشدر. باکو و دائره لرنده مرکزی ایشچی قوئوپه راتیف موکللری ودائره دکان قومیسیونلاری سه چیلیر کن بو تشکیلاتدا قادینلارك فائضی آرتمشدر:

کیچن ییل اون فائض قادین وار ایکن بو ییل اون دورت فائضدر. کیچن ییل دکان قومیسیونلارینداکی اوتوز فائض قادین وار ایکن بو ییل اللی فائضدر.

حاضرلایور. امکچی قز، سنك یرك اونلارك صیراسندادر.

کندلی قادینلارك قوئوپه‌راسیا قورولوشنا جلب ایدیلمه‌سی ایشی ضعیفدر، یکرمی آلتنجی ییلك یانوار آیی ایچون یکرمی آلتی بیك اوچیوز دوقسان بش نفر قوئوپه‌راتیف عضوندن یالکز اوچ یاریم فائض، 1،014 نفری قادیندر. سه‌چکی آپاراتیندا قادینلارك فائضی داها آزدر. قوئوپه‌را تیف اداره‌لرینده اوچ فائض تفتیش قومیسیونلارینداً یاریم فائض قادار قادین واردر.

تجارت موسسه‌لرینك موزد ایله ایشله‌ین آپاراتنداً اوچ فائض قادار قادین واردر.

شورالار اتفاقیندا کی قوئوپه‌راسیالاردا پایچی قادینلارك مقداری بر میلیون بشیوز آلتمش نفردر. (13_16 فائض)

آذراتفاق تورك ایشجی ـ کندلی قادینلارینك یونکول شرطلریله قوئوپه‌راسیادا عضو اولا بیلمه‌سی ایچون تعلیمات ترتیب ایتمشدر. کوی برلکی ئوزپلانی ایچه‌ریسنه قوشجی لق، ایپکجی‌لك کبی آرته‌للر دوزه‌لمه‌سی دخی لازم بیلمشدر. بورادا قادینلار چالیشاجاقلاردر.

بوتون گوسته‌ریلن آغیر ایشلر قادینلار ایچه‌ریسنده کی ایشلرك دوزگون و مقصده موافق برصورتده قورولماسی لازم اولدیغینی گوسته‌ریر. ایلك باشدا قادین اجلاسلاری ایشلرینه خصوصی اهمیت ویرمه‌لی، اونلارك نفوذینی یوکسه‌لتمه‌لی، سیاسی مکتبلره اهمیت ویرمه‌لیدر.

آذربایجانك امکجی قادینلاری آراسندا خصوصیله موسسه‌لرده چالیشان قادینلار و موزدور قادینلار آراسندا کنله‌وی ایشلری قوه‌تلندیرمه‌لیدر. الك چوق دقت یاشایش شرطلرینی یاقشیلاشدیرماق جهتلرینه ویرلمه‌لیدر.

آذربایجانك ایشجی و کندلی قادینلاری باشقا خارجی ئولکه‌لرده پرولەتار انقلابنك گیدیشینه و اورادا قادینلارك اشتراکینه بویوك دقت ویرلر.

آذربایجان امکجیلری چنده واقع اولان حادثه‌لره خصوصی بر دقت ویرلر. بین‌الخلق قادینلار گونی بوتون دنیانك قادینلاری بر سس ایله ـ «انقلابچی چین اوردوسنا واونا یاردیم گوسته‌رمن چینلی قادینلارا سلام» دییه باغیرمالیدرلار.

«شورالار اتفاقیندا کی سوسیالیزم قورولوشینی پوزماق ایسته‌ینلره عموم اتفاق قوممونیست فرقه‌سینك حربی قوه‌لرینی آرتیرماقلا جواب ویره‌رز.

ایشجی و کندلی قادین ئرز چوجوقلارینا ایلئیچك وصیتی ئوگرده‌جکدر.

« الده سلاح شورا ئولکه‌سی مدافعه‌سنه! »

«بین‌الخلق قادینلار قوممونیست گونی، آذربایجان امکجی قادینی شورالار اتفاقی خلقلارینك یاشایشنی محافظه ایده‌ن قزیل اوردویا سلاملار گونده‌ریر»

ق. ایشقووا

تلغرام

آبدالاردان :

مرکزی فرقه قومیته‌سینه و ایشچی کندلی قادینلار شعبه‌سینه

8 مارت، بین‌الخلق قادین گونتی بایرام دولاق ، عمومی اجلاس قاپیتالیست سیاستی اولاراق عصرلر اوزونی کشیلرك اسارتی آلتیندا أزیلمش بتون کوردستان امکچی قادینلارینگ تامندن سیزه آتشین سلاملار گونده‌ریر. بو گونکی طنطه‌لی بایرام کوردستان قادینلارینگ حبس‌خانه‌سی اولان چادرادان آزاد اولمش قادینلارك اسارت زنجیرلرندن خلاص اولمالارینی آیدینجاسینا ثبوت ایدیر.

بیز اینانیریق که بیزه بو آزادلیغی ویرمن قوممونیست فرقه‌سیدر.

یاشاسین کشیلرله سوسیالیزم قورماقدا اشتراك ایدن قادینلارا نام آزادلق ویرمن قوممونیست فرقه‌سی!..

هیئت ریاست

گنجه شهرینك آقتیو قادینلاری بویل 8 مارت شعارلاریندان بیرینی حیاته کیچرتدیلر.

گنجه‌ده شهر شوراسی سه‌چکیلری آرتیق روح یوکسکلیکی ایله کیچدی. 17 نفر آقتیو تورك قادینلاری شخصاً سه‌چکی دعوتنامه‌لرینی پایلایوب تك به تك تشویقاتدا بولوندیلار؛ نتیجه‌ده ایسه 6 سه‌چکی منطقه‌لرینده سه‌چکیه گه‌لنلرك اکثریتنی قادینلار تشکیل ایدیردیلر. خصوصاً قادین قلوبینا 1,700 نفردن آرتیق قادین یغیشمشدی. ارمنی حصه‌سنده‌ده 1.500 قادین گلمشدی . شهر شوراسینا 74 قادین نماینده‌سی کیچمشدر . کیچن ییله نسبت 50 فائضدن آرتیق سه‌چیلمشلر. سه‌چیله‌نلرك چوغی شهر موزدور قومیته‌سینگ، اتفاقلارك، شهر قادین قلوبینگ فعال عضولریدولر.

1926نجی ییلده آذه‌ربایجان قضالارینداً 8 مارت

بین‌الخلق قادینلار گونی نیجه کیچدی

8 مارت قامپانیاسی آذه‌ربایجان قضالارینداً عموم‌اعتباریله برشکلده گیچدیگی ایچین قامپانیانك آنجاق اك‌مراقلی آن‌لرینی تصویر ایدن ماته‌ریاللاری یازماغی لازم گوردیك. بوجهتدندر که بعضی قضالارك قامپانیالاری باره‌سنده بورادا معلومات یوقدر.

کوردستان. بورادا 8مارت قامپانیاسی حاضرلغی 2هفته چیکمشدر. قادینلارك قضاقونفرانسلارینداً 60 نفر کندلی قادینلار عریضه‌ویروب فرقه‌یه گیرمك آرزوسیندا بولوندیلار. اونلارك 18ی فرقه‌یه قبول ایدیلدیلر.

شرقك امگچی قادینی!
اونوتماکه، باشقا شرق ئولکه‌لرینك میلیونلارله اسارتده قالان قادینلاری، سنك ایشاریگدن مثال گوتورور.

شامخور قضاسی. 8مارت گونینه مارول قلوبی‌نك تعمیر ایدیلمه‌سی بیتمیشدی، اونا گوره‌ده بورادا بین‌الخلق قادین گونی‌نك نه‌دن عبارت اولماسی باره‌سنده اطرافلی معلومات ویریلدی. قضا قادین قونفرانسیندا اشتراك ایدن قادینلارا تیاترو نمایشی گوستریلوب و بو گونه مخصوص دیوار غزته‌سیده نشر ایدیلدی. قادین قرنفرانسی ایکی گون دوام ایتدی و نماینده قادینلارا ایشجی کندلی قادینلار شعبه‌سی طرفندن آنالیق و چوجوقلق محافظه‌سینه دائر مصور پوست قارتلاری هدیه ویریلدی.

گوگچای قضاسی. 8 مارت قامپانیاسی حاضرلیغی بر آی تمام دوام ایتدی. کورده‌میر و بیرده میجان دائره‌لرینده کندلی قادین گوشه‌لرینك آچیلماسینا حاضرلق ایشلری آپاریلیردی. خصوصاً میجان دائره‌سنده کی کندلی قادین گوشه‌سینك رسم کشادی چوق آرتیق طنطنه‌لی صورتده کیئچریلدی. رسم کشاد مجلسینده 90 نفره کبی کندلی قادینلاری حاضر ایدیلر. کند حیاتنده بویله بیر بویوك یغنجاق لایق اعتنا بر واقعه‌در.

شهرده، 8 مارت گونی بویوك قادین نمایشی وار ایدی. بو گونده هامو ایشجی قادینلار و اداره‌لرده کی قوللوقچی قادینلارایشدن آزاد ایدیلمشدیلر. قضاقادین‌قونفرانسی نماینده‌لرینه یئرلی قوئوپیراتیف طرفندن نهار ویریلمش ایدی.

قازاخ قضاسی. خصوصی قومسیون طرفندن اوشاق ایوی و بیرده خلق‌خسته خانه‌سی تفتیش ایدیلوب اونلارك فعالیتی یاقشیلاشدیرایله‌ن سرامجاملار گورولدی.

خلق محکمه‌لرینده قادین حقوقنه دائر اولان بتون ایشلر 8 مارت گونینه محاکمه ایدیلوب بتیریلدی.

عالی سیاسی معارف اداره‌سی طرفندن (آغ سوزلی) کندینده کندلی قادین گوشه‌سی تشکیل ایدیلدی.

بو گونده چاغریلمیش قضا قادین قونفرانسی آرتیق روح یوکسکلیگی ایله کیئچریلدی.

شماخی قضاسی. 8 مارت کونی‌نك قامپانیاسی آنجاق شهرده کیچمشدی. دیمك اولار که بین‌الخلق قادین گونینك اهمیتی کندلی قادینلار آراسیندا انتشار ایتمك ایشی هیچ آپاریلمامشدر. بویله‌لیگله قامپانیانك اك‌باش مقصدی اولان کندلی قادینلارك آقتیولیگنی قالدیروب اونلارك مراقلارینی یوکسلتمك ایشی اساس اعتباریله بورادا آپاریلمامشدر.

داغلق قارا باغدا. بو گونده (اوروتاق) کندینده آذه‌ربایجان‌دا بیرینجی اولاراق کند چوجوق قونسولتاسیاسی رسم کشادی اولدی. (هادروت) کندینده کندلی قادین گوشه‌سی آچیلدی، وبورادا تیکیش وبیچیم‌مکتبیده تشکیل ایدیلمشدر.

حاضرلق ایشی کندلی قادین کتله‌سینی گنیش صورتده احاطه ایتمیش ایدی. 43 کندلرده یغنجاقلار آپاریلوب 8 مارت بین‌الخلق قادین گونینك اهمیتی و تاریخی باره‌سنده معلومات ویریلدی. بو گونده عموم محال قونفرانسی چاغریلمامشدی. اونك عوضنده دائره‌لرده قونفرانسلار آپاریلدی؛ بو قونفرانسلاردا 1350 قادین اشتراك ایتمشدر. کند فرقه ئوزه گلری و کندلی قادین نماینده‌لری یغنجاقلاری طرفندن بو گونه اتحاف ایدیلمیش 10 دیوار غزته‌سی نشر ایدیلمشدر؛

بو محالدا، مارت گونینه 42 قادین فرقه‌یه کیئچریلمشدر و اونلارك 4 ی تورك قادینی‌در.

نخچوان ئولکه‌سی. 8 مارت گونینك اهمیتی نخچوان ئولکه‌سنده برچوق یرده قادین یاشایشنی یاخشیلاشدیران موسسه‌لرك آچیلماسیله قید ایدیلمشدر.

نخچوان و اوردوبادا کی خسته خانه‌لر یانیندادوغماق شعبه‌لری آچیلمشدر. بیئری بیش وایکینجی‌سی ایسه 4 چارپایی‌لق.

2 کنده کندلی قادین گوشه‌سی آچیلمشدر.

8 مارت قامپانیاسی اتاسنده عموماً گنیش صورتده کندلی قادین‌لار بو ایشه جلب ایدیلمش ایدیلر.

عموم ئولکه قونفرانسیندان باشقا 23 کنده 8مارت گونینه اتحاف ایدیلمیش خصوصی یغنجاقلار چاغریلمش ایدی.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0081

کند شوراسی عضوی- کندلی قادینلار آراسندکی ایشلر حقنده.

شورا سه‌چگیلرینڈن سوکرا قارشومزدا بویوك برمسئله دورمشدر: بو مسئله کندشوراسی عضوی - کندلی قادینی کند شوراسی ایشلرینده چالیشدیرماقدان عبارتدر. گرهك کندلی قادینا کومك ایتمك که کند شوراسی ایشلرینه فاریشوب اورادا چالیشسون.

بومسئله‌نی حیاته کیچیرمکدن اول بیزه لازمدر که کیچن ایل بوخصوصدا الده ایدیلمش تجربه‌لری گوزدن کیچیرهك. گرهك بیله‌ك که کند شورالارینك کیچن ایلکی چاغیریشیندا عضواولاراق چالیشمش کندلی قاینلارك اقتیولیکی نه‌دن عبارت اولمشدر؛ همچنین بو قادینلارك بوایشده ضعیف چالیشمالارینك سببی نه‌در؟ کیچن ایلکی تجربه‌لرمز گوسته‌ریر که کند شوراسی عضوی اولان قادینلار شورا ایشلرینده چالیشماق ایچون آرتیق هوس گوستارمشلردر. قادینلارك الك چوق مراقلاندیقلاری صحیه، انشاآت ومدنی بولمه ایشلری اولمشدرسه‌ده، لاکن محللرده قادینلارك بو مراقلارینڈان استفاده اولونمایوب، بوایشله مراقلانان کندلی قادینلاری شورا ایشلرینده چالیشدیرماملاردر. هله بر چوق قضالاردا کند شوراسی عضوی اولان قادینلار کند شوراسی بولمه‌لرینه تحکیم اولونمایوب، شورانك اجلاسلاری باره‌سنده اونلارا خبر ویریلمه‌یوب و شورانك حق حساب قامپانیاسندا داخی اشتراك ایتمك ایچین چاغیریلمامشلاردر.

ایمدی ایسه یکیدن کند شوراسی عضوی قادینلارك شوراسی ایشلرینده چالیشدیریلمالارینی گله‌جك وظیفه‌لریمزدن سایماقلا برابر قاباقجا بو ایلکی کند شورالارینا سه‌چیلمش قادینلارك ترکیبینی ئوگرهنمه‌لییك. بوایسه شورا عضوی اولان قادینلار آراسندا کی ایشلری قاعده‌یه سالماق مقصدی ایله یاپیلوب شورالارداچالیشان قادینلارا رهبرلك اولونماسی و همچنین اونلارك اجتماعی و مدنی دوشونجه‌لرینی آرتیرماق ایشلرینی یولونا قویماغا چالیشماقدان عبارت او لاجاقدر. بوناگوره بوتون قضالاردا کند شوراسی عضوی اولان کندلی قادینلارك یرلی مشاوره‌لری چاغیریلمالیدر. بو مشاوره‌لرده شورا عضوی اولان قادینلارك ترکیبی و آقتیولیکلری، نیچه فائض سوادلی اولدیقلاری، چالیشماق درجه‌لری و باشقا طرفلرینی ئوگرهنیلمه‌لیدر. بونگله برابر شورا عضوی اولان کندلی قادینلارا اونلارك کند شورالارینك گله‌جك ایشلرینده لازم اولان رهبرلك و گوسته‌ریشلرده ویریلمه‌لیدر.

کند شوراسی عضوی اولان کندلی قادینلار مشاوره‌لری بر قورص شکلی آلمالیدر.

بویله مشاوره‌لرده معروضه قویوب، مصاحبه‌لر آپارماق یوللا کندلی قادینلارا کند شورالارینك بو حالدا قارشوسیندا دوران وظیفه‌لر حقنده معلومات ویروب، اونلارك آیری - آیری بولمه‌لرینك ایشلری ایله تانیش ایتمه‌لیدر.

بوندان باشقا کندلی قادینلارك عموماً شورا ایشلرینده فعال صورتده چالیشمالارینك نه درجه‌ده اهمیتلی اولدیغی‌دا آکلاتیلوب، بو یولدا چالیشماق ایچین اونلارا لازمی گوسته‌ریشلر ویریلمه‌لیدر.

بویله‌لکله کند شوراسی عضوی اولان قادینلارك ترکیبینی اوگره‌نه‌رك، مرکزلرده یرلی تشکیلاتلار ایچن لازمی تعلیمات حاضرلانیر. بو تعلیمات‌لاردا کندلی قادینلارك شورا ایشلرینه جلب اولونمالاری و اونلارك ایشلری‌اوزه رینده رهبرلك اولونماسی یوللاری گوسته‌ریلمه‌لیدر.

بیرنجی نوبه‌ده هر یرده بوتون شورا عضوی اولان کندلی قادینلارك شوراابولمه‌لرینه تحکیم اولونوب، وقتلی وقتینده شورامشاوره‌لرینه چاغریلمالارینی عمومی بیر قاعده اولاراق قبول ایدیلمه‌سینه نائل اولماق لازمدر.

و بیرده کند شوراسی عضوی قادینلارا معین برایش تاپشیریلدیقدان سوکرا همین ایشلرك نه‌درجه‌ده حیاته کیچیریلدیکی یوقلانیلمالیدر. کند شوراسی‌عضوی اولان کندلی قادینلاری شورا بولمه‌لرینده و باشقا اجتماعی تشکیلاتلاردا آپاردیقلاری‌ایشلر حقنده‌حق حساب (آتچوت) ویرمه‌لیدرلر. بویله حق حسابلار کند شوراسینده ویریلدیکی کیبی بیر چوق اجتماعی تشکیلاتلاردا دخی ویریلمه‌لیدر.

بوایشلر کندلی‌قادینا امکان ویره‌جکدر که‌ئوزتجربه‌لرینی آرتیروب، کندلیلر آراسندا نفوذلرینی یوکسه‌لتسون. بونگله برابر مرکزی تشکیلاتلار، قادینلارك شورا و اجتماعی ایشلرده چالیشدیریلمالاری باره‌سند یرلی شورا و اجتماعی تشکیلاتلارا دخی آیریجا گوسته‌ریشلر ویر.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0082



1) لنكران قضاسى شوروك دائره‌سينده لويه‌سر كند شوراسنك پله‌نوم اجلاسى.

2) لويه‌سر كند شوراسى صدرى كبرا عسكروا. كبرا عسكراووا 1901ده شوروك دائره‌سنك لويه‌سر كندينده آنادان اولوبدور. آناسى يوقسول اكينچى اولوب آناسى موزدوردر. كبرا دول قالاندان سوكرا 1922دن 23ه قدر موزدورليق ايله دولانوبدر. 1923 ايلك آخرلرينده كبرانيك عموسى اوتى بو كندك موزدورلارندان فرقه عضوى عسكراوفا اره ويروبدر. ايمدى قيش فصلنده ايو ايشيله مشغول اولوب، يايوقتى ايكيسيده موزدورلق ايله دولانيرلار. 1926 نجى ييلدن قادينلار تشكيلاتنده نماينده سه‌چيلمشدر. ياردم قوميته‌سنده داخى عضودر.

مه‌ليدرلر؛ بويله اولورسا كندلى قادينلار بو تشكيلاتلارك ايشلرى ايله تانيش اولوب همين تشكيلاتلاردا داها فعال صورتده چاليشماغا باشلارلار ولازمى مسئله‌لرك مذاكره‌يه قويولماسينا چاليشارلار. كند شوراسى عضوى اولان يوقسول كندلى قادينلارى ايسه بو شورالارك يانيندا كى يوقسول غروپلارينه (دسته‌لرينه) جلب ايديلمه‌ليدرلر. بويله‌لكله يوقسول كندلى قادين‌لارى لازمى مسئله‌لرى بوقسول كندليلر ايله برلكده متشكل بر صورتده آپارماغا باشلارلار. يوقسول كندلى قادين‌لارى يوقسول يغنجاق‌لارينا دخى چاغيريلمالىدرلار.

كند شوراسى عضوى اولان كندلى قادين‌لارى عمومى كند يغنجاق‌لارينا جلب اولونوب، شورالارك حق حساب (آنچوت) قامپانيالارندا دخى اشتراك ايتمه‌ليدرلر.

كند شوراسى عضوى قادين‌لارك ايشلرى ايله بوتون كندلى قادين كتله‌سى آراسندا رابطه توره‌ديلمه‌سى ايچون، شورا بولمه‌لرينده چاليشان كندلى قادين‌لارك ايشلرينى نماينده كندلى قادين‌لارك ايشلريله رابطه‌لشديريلمه‌ليدر. بو كبى قادين‌لار شورا بولمه‌لرينده چاليشمافلا، بولمه‌لرك ايشلرينى جانلاندىروب شورا عضوى اولان كندلى قادين‌لارا دخى بويوك ياردىم ايده‌رلر.

بونا گوره‌ده كند شوراسى عضوى كندلى قادين‌لار معين وقتلرده، نماينده قادين‌لارك عمومى اجلاس‌لارينى ئوز ايشلرى باره‌سنده حق حساب (آنچوت) ويرمه‌ليدرلر. بوندان باشقا همين قادين‌لار نماينده قادين يغنجاقلارينك بوتون باشقا ايشلرينده چاليشديريلمالىدرلار. بوتون بو ايشلر ايله برابر كندشوراسى عضوى كندلى قادينلارينك مدنى دوشونجه‌لرينك يوكسه‌لديلمه‌سنه‌دخى آرتيق دقت اولونمالىدر.

بو مقصد ايله يرلى ايشچى كندلى قادين شعبه‌لرى و قضا سياسى معارف اداره‌لرى كند شورالارينك ياردىميله برابر شورا عضوى اولان كندلى قادينلارينى كندك سياسى معارف مركزى اولان سواد منطقه‌لرى، قرائت كومالارى، كندلى قادين گوشه‌لرى و باشقا بوكبى تشكيلاتلارا جلب ايتمگه سعى ايتمه‌ليدرلر. **آينه سلطانووا**

1927 نجی ایل سه‌چگیلرینده قادینلارك اشتراکی.

1927 نجی ایلك شورا سه‌چگیلری و سه‌چگی حاضرلغی قامپانیالاری‌نك مراقلی طرفی تورك قادینلارینك بو وقته کبی گورولمه‌مش فعالیتده بولونماسی‌در.

بو ایلکی سه‌چگی ایشلرینی کیچن ایلکی سه‌چگی ایشلری ایله دوتاشدیردیقدا گورورسك که بو ایل ایسته‌ر حق حساب یغنجاقلارینداو ایسته‌رسه سه‌چگی اجلاسلارینداتورك قادینلاری بویوك فعالیت گوسته‌رمشلردر.

کیچن ایلکی شورا سه‌چگیلری زمانی طبیعی اولاراق فعالیت گوسته‌رن‌تورك قادینلاری‌بو ایلکی‌سه‌چگی قامپانیالارینداو دوشونجه‌لی بر صورتده فعالیتده بولونوب سه‌چگیلرده اشتراك ایتمشدر.

بونك برینجی سببی قادینلارك حقیقی صورتده اولاراق‌اوز سیاسی حقوقلارینی طلب ایتمه‌لری و ثوزاری‌ایچون‌حقوقلی شخصار جرگه‌سنده بردوتماق آرزوسندان عبارتدر.



قوبا قضاسینده (دیگاه) کندینده شورالار سه‌چیگسنده اشتراك ایتمش قادینلاردان برغروپ

عصرلردن به‌ری اسارت آلتندا یاشایان تورك قادینی ایمدی داها کوهنه عادتلردن أمل جیکوب شورا قورولوشی ایشلرینده چالیشماق اختیارینی أله ایتمك یولوندا مبارزه آپارماق ایچون میدانه آتیلمشدر. حالبو که بووقته کبی تورك قادین‌لاری‌شرقك کوهنه‌عادتلری آلتندا ئه‌زیلمکده ایدی.

تورك قادینلارینك فعالیتلری بر طرفدن 1926 نجی ایل شورا سه‌چگیلرینده اولدیغنا نسبتاً بو ایلکی حق‌حساب قامپانیالارینداو نلارك چوقلی اشتراك ایتمه‌لریندن عبارتدر.

بویله که اجلاسلاردا اشتراك ایدن قادینلارك سایینی کیچن ایلده اولدیغنداکی ایله مقایسه ایتدیکده بز **جبرائیل قضاسی** باره‌سنده بو معلوماتی الده ایدیریك: 1926 نجی ایل‌ده 3،204 نفر قادین اشتراك ایتدیکی حالدا 1927 نجی ایلده آپاریلان حق حساب قامپانیالارینداو 6.100 نفره کیبی قادین اشتراك ایتمشدره.

بوندان آشکار اولیر که بو ییل اجلاسلاردا اشتراك ایدن قادین‌لارك سایی کیچن ایلده اولدیغنا نسبتاً 100 فائض آرتمشدر؛ بو مقدار بوتون قضاده کی سه‌چگی ایشلرینده اشتراك ایدن قادینلارك 40 فائضنی تشکیل‌ایدیر.

سالیان قضاسنده

سه‌چگی حاضرلغی قامپانیاسندا اشتراك ایدن قادینلارك سایی 60 فائض و **کوردستان قضاسنده** ایسه 75 فائضه کیبی آرتمشدر.

سه‌چگی ایشلرینده چالیشان قادین‌لارك آرتماسی باشقا قضالرده دخی گورونمه گده‌در.

لاکن بوایلکی سه‌چگیلرده اشتراك ایدن قادینلار یالکز سه‌چگیلره گلمك ایله قانع اولمامشلار؛ ارککلر ایله برابر حق حساب یغنجاقلارینداشتراك ایدن قادین لاردا، شورالارك ثوز ایللك فعالیتلری باره سنده کی معروضه‌لر یندن سوکراچیقیشدا بولونمش وبو اجلاسلارداباحثه تورده‌ره‌ك اونلارك جانلی بر صورتده آپاریلماسنا سبب اولمشلاردره.

شورالارك حق حساب معروضه‌لری اوزره چیقیشدا بولونمش قادینلارك سایی کشیلره نسبتاً 4 کره آزدا اولسا، آذه‌ربایجان یاشایشی شرائطنده بو ایشك آرتیق اهمیتی اولوب، بویوك سیاسی موفقیتلردن بری‌در.

شورالارك حق حساب معووضه‌لری اوزره مباحثه آجاراق چیقیشدا بولونان قادینلار ایله ارککلرك چیقیشلارینی آیری آیری تدقیق ایتدیکده قادینلارك دوشونجه‌لرینك آرتمش اولدیغنی گورورسك. شورالارك معروضه‌لری اطرافندا چیقیشدا بولونان ارککلرك چوقیسی شخصی غرض ایشلرینه کئیجوب و یاخود کند شوراسنك فعالیتنی تنقید ایتمگدن قورقدیقلاری حالدا قادینلارك چیقیشلاری تمامیله شورالارك اقتصادی و اجتماعی ایشلری اطرافنده

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0084

اولوب بو معروضه‌لر اطرافنده چوقلی مباحثه باشلانماسنا سبب اولمشدر. مثلا **قازاق قضاسندا** (موسی کوی) آدلانان بر کند شوراسنك حق حساب بیغنجاقندا بر قادین چیقیشدا بولونوب، کند شورا صدرینی چوق آروادلیغا قارشی لازمی تدبیر گورمه‌مگده‌متهم ایدیر.

بو قاعده ایله ارککلردن داها آرتیق جسارت ایله چیقیشدا بولونان قادینلار قولچوماق طرفداری اولان کند شورالارینك علیهنده چیقیشدا بولونوب اونلارك عیلرینی آچیردیلار. مثلا قوبا قضاسنده کی کندلرك بریسنده «هامودان گوجلی» سایلان شوراصدری علیهنده ارککلردن بر نفرده چیقیشدا بولونمادیغی حالدا گللی خانم آدلی برتورك قادینی سوز آلوب دانیشیر و اجلاسدا اشتراك ایدن ارککلری قورقاقلق و فعالیتسیزلکده تهمتلندیردیکدن سوکرا شورا صدری حقنده بویله دیمشدر: «سن قان ایچن سن، شورا صدری ده گلسن! سنك ئوز دکانك اولدیغی حالدا شورا صدری اولا بیلر سنمی؟ سنك گاموشلارك بزیم اوتلاقلاریمزی تاپدا لایوب، کورلادیغی حالدا بزیم مال قارامزی جریمه ایدوب دییرسن که سنك اوتلاغکا کیچمشدر! بزیم مکتبمز وار، اما اوشاقلار اورادا اوقومیرلار، بزیم اوشاقلار یمز نه ایچون اوقومیرلار؟ سن بس نه‌چی‌سن؟ سن بزیم شورایا نه‌ایچون قویولمیسان؟» قادین بو چیقیشی ایله ئوز مقصدینه چاتمشدر، قولچوماق طرفداری اولان کند شوراسی ایرتەسی گونی صدرلکدن چیقاریلمشدر.

قادینلار هریرده کند شوراصدرلرینی، قیزلارك مکتبه جلب ایدیلمه‌لری ایچون لازمی تدبیر گورولمه‌مه‌سنده تهمتلندیرمشلردر.

جبرائیل قضاسنده کی شورا سه‌چگیلری قامپانیاسندا چیقیشدا بولونان قادینلاردان بری بویله دانشمشدر!

«نه‌ایچون آغالی کندینه یالکز بیرجه نفر قیز اوقوبور؟ سن قیزلارك تمامیله مکتبه گلمه‌لری و اونلارك مکتبده



قوصارق دائره‌سنده خوره‌ل کند شورا سینك صدری سه‌چیلمش کندلی قادین.

سای‌لارینی آرتیریلمالاری ایچون هیچ برایش گورمه‌میسن!»

سه‌چگی حاضرلغی قامپانیاسندا فعال صورتده اشتراك ایدن قادینلار سه‌چگی ایشلرینه آرتیق دقت ایله باقاراق شورایه سه‌چیلمك ایچون گوستریلن هر نامزدی دقتلی صورتده مذاکره‌یه قویوب، چالیشمشلار که یکی شورایه اك چالیشقان و اوزلرینی ایشده گوسته‌رمش ارکك و قادینلار کیچریلسین.

کیچن ایل شورایه سه‌چیلدیکلری حالدا هیچ برایش گور مه‌ین قادینلارك نامزدلیکلری قادینلارك ئوز تاکیدلری اوزره بو ییل سیاهیدن قالدیریلمشدر.

مثلا: **گنجه قضاسنداکی** (زیادلی) کندینده آپاریلان سه‌چگی حاضرلغی قامپانیاسندا قادینلار، 1926 نجی ایلده هیچ بر ایش گورمه‌مش بر قادینك نامزدلیکنی سیاهیدن بوزمشلاردر.

* * *

آغداش دائره‌سنده قادینلار بر چوق ارککلرك نامزد لکلرینی رد ایدوب، گوسته‌ر مشلر که نامزدلکی کوسته‌ریلن فلان شخص آروادباز، قوماربار، اوغری وباشقابو کبی نقصانلارك صاحبی‌در. بونا گوره‌ده اونی شورایه سه‌چمك اولماز.

کیچن ایلکی شورا سه‌چگی لرینده آچیق آچیغنا فعالیت گوسته رن قادین‌لار بوایلکی شورا سه‌چگیلری زمانی داهادا آرتیق فعالیتده بولونمشلاردر. خصوصا بوایل آرتیق فعالیت گوسته‌رن قادینلار 1926 نجی ایل شورا عضوی اولمش وبوایل داها آرتیق هوسله‌ایشله‌مك ایسته‌ین قادینلار اولمشدر.

مثلا: (دادالی) کندینده کی سه‌چگی یغنجاقندا کچمیش شورا عضوی اولان ایکی نفر قادین بویله دیمشدر! «دوغرودر، بزی یکی شورایه سه‌چمه‌مشلر؛ لاکن بز سوز ویریریك که وار قوه ایله چالیشوب، یکی سه‌چیلن عضولره یاردیم ایده‌جکز.»

سه‌چگی حاضرلیغی اجلاسلاریندا فعال و دوشونجه‌لی

صورتده اشتراك ایتمگه برابر قادین‌لار سه‌چگی ایشلرینده دخی آز فعالیت گوسته‌رمه‌مشلردر. همین ایلك سه‌چگی قامپانیاسندا کندلی قادینی دوغروداندا اوزینی ارکگلره مساوی کیبی آپاروب، بو حقوقلارینی تمام 100 فائض ایله استفاده ایتمگه چالیشمشلاردر. سه‌چگی‌حاضرلغی قامپانیاسندا اولدیغی کبی شورا سه‌چگیلری زمانی دخی‌قادینلارك ظاهری فعالیتلری اجلاسه چوقلی گلمه‌لریله اولمشدر.

سه‌چگی اجلاسلارینداا اشتراك ایده‌ن 100،200 وحتی داها آرتیق قادین‌لار چوق یرده گورولمشدر.

مثلا **قازاق قضاسنك** آقستافا دائره‌سنده کی (قریقلی) کندینده آپاریلان سه‌چکی بیغنجاقندا 209 نفر قادین اشتراك ایتمشدر؛ بویله‌لگله بو بیغنجاقدا اشتراك ایتمش قادین‌لارك سایی همین بیغنجاقدا کی ارکك لرك سایندان بر آز اکسیك اول مشدر. (34 نفر آز اولمشدر). قضانك (ئه‌له‌ند روف) دائره‌سنده کی (**قراسنویه**) دنیلن کنده سه‌چگی بیغنجاقندا 300 قادین اشتراك ایتمشدر. بوزماندا ارکگلرایله برابر سه‌چگی بیغنجاقندا 200، 300 قادینك اشتراك ایتمه‌سی آذه‌ربایجان شرائطی ایچه‌ریسنده اهمیتلی بر حادثه‌در. قادینلارك فعالیتلرینden بری‌ده ارککلرك تعصبلرینه قارشی مبارزه آپارماقدان عبارت اولمشدر. چونکه بونلار شورالارا یالکز ارککلردن کیچرتمگه چالیشیرلارمش.



قوبا قضاسنده کند شورالاری صدرلیگینه سه‌چیلمش کندلی قادینلار.

مثلا **شماخی قضاسنداکی** (سولوت) کندینده قادین‌لار آچیق و قطعی صورتده طلب ایتمشلر که اونلارا شورا یا کیچمك ایچون یگی شوراده 10 نفر عضو و 3 نفر نامزد یری ویریلسین. قالان 20 یئر ایسه کشیلر آراسندا پایلانسین. قادین‌لارك بو تکلیفی حیاته کیچریلمشدر. ینه‌ده **شماخی قضاسنك** (قوروزمین) دائره‌سنده شورا سه‌چگیسی زمانی بیغنجاقدا اشتراك‌ایدن 95 نفر قادین گورورلر که ارککلر قطعیا قادین‌لارك نامزدلیگلرینه سس ویرمیرلر. بونا گوره‌ده ارککلرك چوقلقی نظره آلوب (ارککلر 105 نفر اولمشدر) اجلاسی یاریم ساعت دایاندیرمشلار و اوزلری ایچون کومگچی چاغیرمشلاردر. ارککلرده بویله یاپمشلاردر. یاریم ساعتدن سوکرا اجلاسدا 125 نفر قادین و 115 نفر ارکك اولمشدر؛ بویله‌لیگله قادین‌لار ارککلردن فعال چیقمشلاردر.

قادین‌لارك سایی مقدارجه چوق اولدیغی ایچون اونلار شورایه قادین نامزدلرینی کیچیره بیلمشلردر. (قارامالی) کند شوراسندا سه‌چگی‌یه گلن قادین‌لارك بر حصه‌سی ارککلره بویله دیمشدر! «سیز ئور آرواداللار یگزی ئه‌وده قویوب، بورادا بیزه باقماغا گلمیسگز؛ تیز گیدوب اونلاری دا گتیریگز!» قادین‌لار یالکز ئوز نامزدلیکلرینی شورایه کیچیرمگه کفایتلنمه مشلردر. قادین لارك بو یولدا کی فعالیتلری تعجبلی‌در. قادینلارك آرتیق فعالیت گوسته‌رمه‌لرینی تصویر ایدن بر مثال گوسته‌ره‌لم! **آغدام قضاسنداکی** (قوش تازالی) کند شوراسی سه‌چگیلرینه گلمش سه‌چگیچیلرك 76 فائضی قادین اولمشدر. فعال صورتده چیقمشدا بولونا‌راق قادینلار، بو کنده‌ده محکم اراده و تاکید ایله شورا یا 4 قادین کیچیرتمشلردر. بونا راضی اولمیاراق یگی شورانك برنجی تشکیلات اجلاسندا قادین‌لار قطعی‌صورتده مسئله قالدیروب، شورالارك دائره قورولتاینا بر نفر قادین سه‌چیلمه‌سنی طلب ایتمشلردر. بو خصوصدا هر نه بهانه گتیریلمش ایسه‌ده هیچ بر کومك ایتمه‌مشدر. یعنی ارکگلر یالواروب، قادین‌لاری اینانديرمشلار که نماینده‌لر چوقدان سه‌چیلمشدر، دائره شورا قورولتاینا گونده‌ریله‌جك نماینده‌لر دوستریان مقداردا سه‌چیلوب قورتارمشدر.

لاکن بو سوزلرك هیچ بری قادین‌لارا تاثیر ایتمه‌مشدر. قادینلار اوز تکلیفلرینده محکم دایانمشلار. نهایت دائره قورولتایا سه‌چیلمش ارکك نماینده‌لردن برینی یعنی کند تصرفات قره‌دی جمعیتنك صدرینی سباهیدن چیقاروب (اونك عوضنده بر نفر تورك قادینی سه‌چمگه موفق اولمشلاردر) بورادا قادین‌لار بو سوزلری علاوه‌ایتمشلاردر: «داها بسدر، سیز کشیلر قورولتایلاردا و باشقا شورا ایشلرینده تك چالیشدیکز، شورا حکومتی بزه‌ده بو اختیاری ویردیکی ایچون قوی ایمدی بزده بو ایشلرده چالیشاق گورمك دونیادا نه‌وار! قادینلارك بویله فعالیت گوسته‌رمه لری نتیجه سنده بر چوق باشقا مسئله‌لره‌ده دقت اولو نمشدر. مثلا قادین‌لار بعضی شورا صدرلرینك قادین‌لارك شورا ایشلرینده چالیشدیرمادیقلارینی و اونلارا امکان ویرمك ایسته‌مه‌دیکی گوسترمشدرلر. قادین‌لار بو ایشلره متشکل بر صورتده دقت ایتمشلردر. سه‌چگی قومسیونلارینداً بر چوق قادین یغنجاقلارینك برات‌القوللاری آلنمشدر بو برات‌القولدا قادینلارك شورا صدری سه‌چیلمه‌لری طلب اولونیر.

لەنین دیوردیکه، شورالار - ایشچی‌لرله کندلیلرك رابطه‌سی تشکیلاتیدر.

اوز نماینده‌لرکزه - ایشچی وکندلی قادینلارا تاپشیریق ویرکزکه، شورالاردا فعال صورتده ایشله‌سینلر.

قوبا قضاسنك (نیژنی لاگهر) آدلانان کندینده لزگی آروادلاری دائره اجرائیه قومیته‌سینه مشترك بر عرضحال ویروب، کندشوراسی صدرینك قادین اولماسنی طلب ایتمشلردر.

ینه‌ده همین قضاده (گیل) کندینده قادینلار کوهنه کند شوراسی صدرینی یاقشی ایشله‌مه‌دیکی ایچون چیقاروب، عوضنده لزگی قادینی سه‌چمشلر.

آغدام قضاسنداکی (خندیریستان) کند شوراصدرلگنه برسسله‌منور عبدالرحیم قیزی آدلی بر تورك کندلی قادینی سه‌چیلمشدر.

قادینلارك فعاللغی، کندك اجتماعی طبقه‌لشمه‌لرینه قارشی مبارزه آپارمالارینداً دخی آرتیق بللی اولیر.

1927 نجی ایلك سه‌چگی و سه‌چگی‌یه حاضرلق قامپانیالارینداً آذربایجان قادینی برنجی دفعه اولاراق کندك اجتماعی غروپلارایله حکومت اوغروندا مبارزه آپارماغا باشلامشدر. هله سه‌چگیه حاضرلیق قامپانیاسنك باشلانماسندان‌دا قاباق، کند اهالیسنك مختلف طبقه‌لره آیریلماسنی و بونکله علاقه‌دار اولاراق مختلف اجتماعی عنصرلرك چیقیشلارینی گوره‌ن کندلی قادینی بو ایشده اشتراکسز قالمامشدر. بونا گوره‌ده حکومت اوغروندا فعال صورتده چالیشاراق همین یاراماز عنصرلره قارشی مبارزه آپارماغا باشلامشدر.

مثلا **جبرائیل قضاسنك** (دولتلی) کندینده کوهنه‌شورا عضوی اولان بر تورك قادینی قولچوماق و وارلی لار علیهنده بویله تبلیغات آپارمشدر: «بزیم یولداشلاریمز، یوقسول و موزدورلاردر؛ بونا گوره‌ده بز قولچوماق و وارلیلارك شورالارا کیچمه‌لرینی قویمامالی‌یز.؟»

سالیان قضاسنك (خیللی) دائره‌سنده یاشایان اوساندیق سلطانووا آدلی بر قادین سه‌چگی یغنجاقلك باشلاندیغی گونی ئه‌رینه‌دن بوشان مشدر. ئه‌ری اونی شو را سه‌چگیسنده‌اشتراك ایتمگه قویمایرمش، لاکن قادین‌لارك بویله گورنمه‌مش‌و گنیش دائره‌ده اولان فعالیتلری ایله برابر بو یول بر چوق قضا لرده گوگچای‌دا، زاقاتالا ولنکران قضالرینده قادین‌لارك شورا سه‌چگیسی وسه‌چگی حاضرلغی قامپانیالارینداً ضعیف اشتراك ایتمه‌لری گورونیر.

بو قضالرك برچوق کندلرینده‌شورا سه‌چگیلری آپاریلدیغی وقت قطعیا قادین اشتراك ایتمه‌مشدر. سه‌چگیده اشتراك ایده‌ن قادین‌لارك چوقیسی ایسه دول و قاری آروادلاردان عبارت اولوب‌سه‌چگی‌زمانلاری تمامیله‌فعالیتسز اولمشلاردر. مثلا گوگچای قضاسی کورده‌میر دائره‌سنك 7 کندیندن یالکز ایکیسنده قادین‌لار ضعیف اشتراك ایتمشلردر. قالانلارینداً ایسه قطعیا قادین‌لارك اشتراکی اولامامشدر. (70 فائضی هیچ بر فعالیت گوسته‌رمه‌مشدر) لاکن سه‌چگی قامپانیالارینداً قادینلارك بولونماماسنا باقمیاراق شورالارا (صنعی) صورتده قادین‌لاردان سه‌چمشلردر.

قادینلارك بو یول‌ایله شورایه سه‌چیلمه‌سی، بو جوره کندلرده شورا حکومتنه قارشی بر بورج کیبی ساییلر. گوگچای، زاقاتالا ولنکران قضالرینده کی سه‌چگیلرده قادینلارك ضعیف چالیشمالاری و فعالیت گوسته‌رمه‌مه‌لرینه برنجی سبب یئرلی قادین شعبه‌لرینك ضعیف ایشله‌مه‌سی اوبری طرفدن‌ده الك بویوك سبب اودر که کیچن ایلك سه‌چگی تجربه‌لری حسابه آلنمایوب، بو ایشلرك یکیدن باشلاندیغی زمان لازمی تدبیرلر گورولمه‌مشدر.

سویریدوف

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0087

ایشچی کندلی قادینلار شعبه‌سی مدیره‌لری ایله دائره قادین تشکیلاتچیلارینك 8 ینجی آذه‌ربایجان

مشاوره‌لرینك یکونلاری.

(کیجن نمرونك آخری)

کتله‌وی تربیه ایشی.

آذه‌ربایجان مشاوره‌سنده کتله‌وی ایش باره‌سنده کی معروضه ایلك دفعه اولاراق قویولمشدی. مشاوره گوستردی که «آذه‌ربایجان‌دا امکچی قادینلار آراسیندا آپاریلان کتله‌وی ایش ایشچی کندلی قادینلاری اجتماعی قوروـ لوشا جلب ایتمك کیبی عمومی مقصددن باشقا بیرده دینی خرافات و کوهنه معیشت عادتلرینه قارشو جدی مبارزه یولوندادا آپاریلمالیدر» و «بوایشی ایشچی کندلی قادینلار شعبه‌لری تك‌لیگده آپارمایوب فرقه و شورا آپاراتلاری واسطه‌سیله تکجه قادینلار آراسیندا یوق، هابیله کشیلر و الك اول فرقه عضولری آراسیندا دخی آپارماق لازمدر»

مشاوره اعتراف ایتدی که «بو سوك دوره‌ده عموماً فعله صنفی‌نك وضعیتی‌نك یاقشیلاشماسی و کندلك‌ده مدنی و اقتصاد جهتجه یوکسه‌لمه‌سی نتیجه‌سنده قادینلار آراـ سیندا آپاریلان ایشده بعضی نائیلتلر گورونمکده‌در؛ او جمله‌دن فرقه قومیته سینك نفوذی ایشچی قادین و أیو خوزیاقالاری (فعله‌لرك آروادلاری) و کندلی قاـ دینلار آراسیندا یوکسلمشدر؛ اونلارك مدنی ـ سیاسی ساحه‌ده بیلیکلری آرتمش، و شورا قورولوشینا مراقلاری چوغالمشدر». لاکن، بو نائیلتلره برابر قادینلار آراسیندا آپاریلان کتله‌وی ایشده بر چوق نقصانلاریدا مشاوره قید ایتدی. اونلارك اساسلیلاری بونلاردر:

ایشچی قادینلار آراسیندا؛ خصوصاً او موسسه‌لرده که ایشچی قادینلار چوقدر (مثال ایچین، باکودا له‌نین نامنه توقویوجی فابریقادا؛ نوخادا ایپك فابریقاسیندا و سائره‌ده) کتله‌وی تربیه ایشلری لازمنجه انکشاف ایتمه‌یوب، اوز یولونا قویولمامشدر. کنده، بتون کتله‌وی ایشده موزدور، یوقسول قادینلاری تشکیلاتلاندیرماق ایشیده ضعیف‌در. ایشچی و کندلی قادینلار آراسیندا آپاریلاجاق تربیه‌وی ایشك فرقه، شورا همکارلار و قوئوپه‌راتیف تشکیلاتلا‌ـ رینك جاری ایشلریله لازمی درجه‌ده رابطه‌سی اولمادیغیندان کتله‌نك بو تشکیلاتلارا قارشو طلبلری نظرده دوتولمامشدر.

بتون کتله‌وی فعالیت زحمتکش قادینلارك مختلف طبقه‌لرینك ایسته‌کلرینه اویغونلاشدیریلمامشدر. کنده کندلی قادینلار آراسیندا قوئوپه‌راتیف اطرافنده، یاردیم قومیته‌سی و باشقا اجتماعی تشکیلاتلار اطرافندا کتله‌وی ایش لازمی درجه‌ده قورولمامشدر؛ حتی کند شوراسی عضوی اولان کندلی قادینلار، آبری ـ آبری اتفاقلار ا‌ـتشا اولاراق، دیمك اولار که اصلا شورالارك عملی ایشلرینه جلب ایدیلمه‌مشلر. بو سببدنده آقتیو حاضرلاماق ایشی، خصوصاً تورك قادینلاری آراسیندا چوق ضعیف‌حالدادر.

کتله‌وی تربیه ایشلرینده معیشت و حقوق مسئله‌لرینه‌ده آز اهمیت ویریلمشدر؛ بو دائره‌ده عدلیه تشکیلاتلاـ رینك آذه‌ربایجان زحمتکش قادینلار قومیته‌سینك ایشچی کندلی قادینلار شعبه‌لری ایله رابطه‌لری ضعیف اولمش؛ و بو تشکیلاتلار ایشچی کندلی قادینلار شعبه‌لرینك قادینلار آراسیندا آپاردیغی کتله‌وی ایشلردن معیشت و حقوق مسئله‌لری اطرافنده عمومی بولدا آز استفاده ایدیلمشدر. محلی مطبوعاتدا قادینلار آراسیندا آپاریلان ایشك کافی درجه‌ده آیدینلاشدیریلماماسی: ها بیله ایشچی و کندلی قادینلاری مخبرلر حرکاته جلب ایتمك ایشیده ضعیف گیتمشدر.

مشاوره اعتراف ایتدی که «قادینلار آراسیندا کتله‌وی ایشك ضعیف آپاپلمارسینك الك اساس سببارندن بریسیده فرقه، شورا و همکارلار تشکیلاتلارینك بو ایشده ضعیف رهبرلیگلرینی گوسترمك اولار؛ خصوصاً تبلیغات تشویقات شعبه‌لرینك، کند فرقه ئوزه گلرینك و قضا سیاسی معارف شعبه‌لرینك رهبرلیگلریده ضعیف اولمشدر؛ ها بیله قادین لاری اسارتدن خلاص ایتمگه چالیشان موسسه‌لریگده اوز ایشلرینده ضعیف انکشافنی گوسترمک‌اولار.

مشاوره امکچی قادینلار آراسیندا آپاریلاجاق اساسی فعالیتیده آیدینلاشدیردی.

ایشچی قادینلار آراسیندا کتله‌وی فعالیت.

صنایع مرکزی اولان شهرلر (باکو، گنجه، نوخا) داکی بتون فرقه، شورا، و همکارلار اتفاقلاری آپارا‌ـ تلارینك و ها بیله ایشچی کندلی قادینلار شعبه‌لرینك موسسه‌لرده چالیشان ایشچی قادینلار آراسیندا کی فعالیته نظر دقتلرینی‌جدیا جلب ایتمك لازم کورولمشدر: او‌ـ جمله‌دن اجتماعی قورولوش ترتیبنده فرقه‌نك بتون سر‌ـ انجاملارینداو برینجی قدمده ئولکه‌نی صنایعلشدیرمك

ایشینده، قناعت اصولنی گیچرمکده، بیوروکراتیزم ایله مبارزه‌ده ایشچی‌قادینلارك‌دا آقتیولیکنی‌یوکسه‌لتمك‌لازمدر.

ایشچی قادینلار آراسیندا آپاریلان ایشك اساسی‌شکللری بونلاردان عبارت اولمالیدر.

موسسه‌لرده تشکیل ایدیله‌جك نماینده‌لر یغنجاقلری؛ بو یغنجاقلارك باش مقصدی ایشچی قادینلاری شورالارك فعالیتنه جلب ایتمکدن عبارتدر؛ و بیرده ایشچی قادینلار آراسیندا ترتیب ویریله‌جك آشاغا درنگلر: بو درنگلرك‌ده اساسی مقصدلری ایشچی قادینلاری گنیش صورتده موسسه داخلنده آپاریلان بتون اجتماعی ایشلره جلب ایتمکدن عبارت اولمالیدر. ایشچی قادینلار آراسیندا کی کتله‌وی ایش فورمالاریندان بریسیده موسسه‌لرده چاغریلان ایشچی‌قادین قونفرانسلاری‌در. ایشچی‌قادینلارك‌خصوصی‌صورتده‌چاغریلمش بوکبی یغنجاقلاری غیر عادی بیر مسئله‌نی کتله آراسیندا درینلشدیرمك‌دن اوتری‌در.

ایشچی قادین ایچین خصوصی اهمیتی حائز اولان بر مسئله‌نی حل ایتمك و یا که ایشچی قادینلارك مدنی سویه‌سی فعله‌لردن آلچاق اولدیغی حالدا اونلار ایچین خصوصی یغنجاقلار چاغیرماق و برده فعله‌لرك عمومی یغنجاقلارینا ایشچی قادینلاریدا جلب ایتمك...

کتله‌وی ایشده منفرد (تك به تك) تشویقاتدن‌دا گنیش دائره‌ده استفاده ایتمك لازمدر. ایشچی قادینلاری آرتیق مقداردا فعله قلوبلارینا جلب ایتمك ایچین مشاوره لازم گوردی که قلوبلارك یانیندا اوشاق اوتاقلاری آچیلوب ایودارلیغا، تیکوب ـ پیچمکه؛ چوجوق تربیه‌سینه و باشقا بوکبیی ایشلره دائر درنگلر تشکیل ایدیلسین‌لر.

ایشچی قادین و ایو خوزیایقالاری (فعله آروادلاری) آراسیندان اجتماعی ایشلرده چالیشان آقتیولر حاضرلاماق ایچین قاباقکی ایللرده سه‌چیلمش نماینده قادینلاردان قوئوپیراتیف، اجتماعی تربیه و باشقا بوکبیی درنگلر تشکیل ایتمك لازمدر. مشاوره بونیدا قید ایتدی که ایشچی قادینلار طرفندن ایدیلن عملی تکلیفلره استحصالات مشاوره لریده آرتیق اعتنا ویرمه‌لیدرلر.

ایو خوزیایقالاری ـ فعله‌آروادلاری آراسیندا کتله‌وی ایش.

أیو خوزیایقالاری (فعله آروادلاری) آراسیندا آپاریلاجاق کتله‌وی تربیه ایشلری باشلیجا صورتده معیشت مسئله‌لری اوزه‌رینده اولوب ایو خوزیایقالارینك یاشایشنی یاقشیلاشدیران موسسه‌لر(قوئوپیراتیف، آنالق وچوجوقلیغی محافظه، اجتماعی تربیه، زحمتکش قادینلاری مدافعه ایدن قومیته و سائره) اطرافلرینده مرکزلندیرمه‌لیدر.

مشاوره لازم گوردی که فعله قلوب‌لاری و تورك قادین قلوبلاری واسطه‌لریله کوهنه معیشتك تورتوکوتوسی اولان خولیقاتلق، سرخوشلق، قادین و چوجوقلار ایله قابا رفتار ایتمك و سائره‌ایله آپاریلان‌مبارزه دوام ایتدیریلسین و بو مسئله‌لر ایچین اجتماعی محکمه‌لر قورولسین...

کندلی قادینلار آراسیندا کتله‌وی ایش.

کنده کتله‌وی تربیه ایشینك باشلیجا مقصدی، کندلی قادینلاری شورالارك، قوئوپیراتیفك، یاردیم قومیته‌لرینك ایشلرینده آقتیو صورتده اشتراك ایتمکه چاغیرماقدان عبارت اولمالیدر. کندلی قادینلار آراسیندا کی کتله‌وی ایشك اساس فورمالاری بونلاردان عبارت اولاجاقدر:

نماینده قادین یغنجاقلاری، کندلرده چاغریلاجاق عمومی یغنجاقلار، کندلی قادینلارك قضا و یاکه دائره مقیاسینده مشاوره‌لری، کندلی قادینلاری کندك عمومی یغنجاقلارینا جلب ایتمك، و هابیله فرقه‌نك یوقسول‌لار آراسیندا آپاریلان فعالیتنه جلب ایتمك. کتله‌وی ایش آپاریلدیغی زمان کندلی قادینلاردان کوچوك بر آقتیو تشکیل ایدیلمش یرلرده، لاکن محلی شرائط موجبنجه بو یرلرده نماینده‌لر یغنجاغی ترتیب ویرمك ممکن‌اولمادیغی حالدا مشاوره مصلحت گوردی که بورادا آقتیو کندلی قادینلاردان‌خیردا درنگلر ترتیب ویریلسین و بو درنگلرده نماینده‌لر یغنجاقلارینك پروغراملارینا اوقشایان اختصار ایدیلمش معین بر پروغرام اوزره مشغولیت آپاریلسین.

مشاوره قید ایتدی که کتله‌وی تربیه ایشلری کندلی قادینلارك مختلف طبقه‌لرینك (موزدور، یوقسول و قوستارقادین‌لارك) طلب وآرزولارینا موافق ترتیب ویریلمه لیدر؛ و هابیله هربر غروبك مشغولیتی ایچون معین پروغرام گوستردی.

کتله‌وی تربیه ایشلرینده موزدور و یوقسول قادینلارا آیریجا دقت یتیرمك لازمدر. بو مقصدله‌ده هر دفعه قامپانیالاردان قاباق شورالار سه‌چگیلرینده، قوئوپیراتیف؛ یاردیم قومیته‌سی و سائره سه‌چگیلرینده یوقسول قادینلارك یغنجاقلارینی آیریجا چاغیروب اونلاری یوقسول‌لارك عمومی اجلاسلارینا حاضرلاماق‌لازمدر.

مشاوره طرفندن کتله‌وی تربیه فعالیتی قارشوسیندا قویولمش اساسی مقصدلردن بیریده کنده‌ده کی حفظ‌الصحه

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0089

معارفی مسئله‌سی ایدی. (سابون گتیرتمك، حمام تیکدیرمك، تمیزلیك گوزله‌مك و سائره).

کندلی قادینلار کومالارینداء سوادسیزلیغی تسویه‌منطقه لرینده، مکتبلرده حفظ‌الصحه معارفی گوشه‌لری تشکیل ایتمك لازمدر. کندلی قادینلار آراسیندا کی کتله‌وی ایشك اساسی مسئله‌سی اونلارك سوادسزلیغنی لغو ایتمك‌دن عبارت اولمالیدر؛ بوجهته مشاوره‌قرار قویدیم، که قادین‌لار و کشیلر آراسیندا بو مسئله خصوصنده گنیش تشویقات ایشی آپارماق لازمدر.

مشاوره مطبوعاتك گنیش صورتده کنده یاییلماسی مسئله‌سینی‌ده لازم گوروب مطبوعاتك کندلی قادینلارك مراق و ایسته‌گلرینه اویغون بر شکلده نشر ایدیلمه‌سی ایچونده یول‌لار گوسته‌ردی.

یوقاریدا گوسته یلمش معرضه‌لردن باشقا قادین قلوبلاری مدیره‌لری ایله کندلی قادین کومالاری مدیره‌لرینك 2 ینجی زاقافقاسیا مشاوره‌لرینك یگونلاریدامشاوره‌ده دیکله‌نیلدی.

ایشجی کندلی قادینلار شعبه‌لری مدیره‌لری ایله دائره قادین تشکیلانچیلارینك بو دفعه کی مشاوره‌لری بویوك فعالیتله چالیشوب بورادا قضالردن گلن تورك ایشجی قادینلاری آرتیق جدیت گوسته‌ردیلر. و الده ایدیلمش موفقیتلرله برابر ایشك اساسی نقصانلاریدا آیدینجاسینا میدانه چیقدی. او نقصانلارك سببلری آیدینلاشدیریلوب گله‌جکده فرقه‌نك آذه‌ربایجانك امگچی قادینلاری آراسیندا کی فعالیتی‌نك انکشاف یوللارینی‌دا معین ایتمش اولدی.

ق. ایشقووا.

تلغراملار

گورجستان قوممونیست فرقه‌سی مرکزی قومیته‌سینك ایشچی کندلی قادینلار شعبه‌سی طرفندن

آذربایجان قوممونیست فرقه‌سی مرکزی قومیته‌سینك ایشچی ـ کندلی قادینلار شعبه‌سینه.

بین‌الخلق قوممونیست قادین گونده بیر چوق ملتلری حاوی شورالی گورجستانگ امگچی قادینلاری طرفندن اسارت زنجیریندن خلاص ایدیلمش آزاد تورك قادینینا انقلابی تبریکلر گونده‌ریریك.

یاشاسین زاقافقاسیا خلقلاری آراسندا کی بیرلیك!

یاشاسین شرق قادینلارینگ کتله‌وی انقلابلاشماسی!

یاشاسین انقلابگ رهبری اولان له‌نینك بویوك فرقه‌سی!

گوگچایدان :

آذه‌ربایجان فرقه قومیته‌سی مرکزی قادینلار شعبه‌سینه:

گوگچای قادینلار قونفرانسی 8مارت گونینی بایرام ایتدیگده‌سیزی، آذربایجان امگچی قادینلارینك رهبری اولماق مناسبتیله تبریك ایده‌رك، امید واردر که سیزك محکم اولان رهبرلیگگز آلتیندا شرق قادینی‌نیك آزادلیغینا نائل اولاجاییق.

یاشاسین بین‌الخلق امگچی قادین گونی! یاشاسین قادینا نجات ویره‌ن قوممونیست فرقه‌سی،

قونفرانس هیئت ریاستی.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0090

رمضان عادتلری

برچوقلاری بیله‌ده اویله بیلیرلر که، دوغریداندا اوروج دوتماق و نماز قیلماق یالیکز مسلمانلاریك حیاتنده‌در. آنجاق بو فکر تامیله یاکلشدر. بو کیبی عادتلر ابتدائی حیات کچیرمش و مدنی‌لشمه‌مش بوتون انسانلاریك تاریخنده کورولمشدر. انسانلار طبیعتله مبارزه یوللارینی دوشونمه‌دیکی وقت اوزینك عاجزلکی یوزیندن بو کبی عادتلریك تاثیرینه دوشمکه مجبور اولمشدر. طبیعتی تحلیل ایده بیلمه‌ین بابالارمز طبیعتك جریانندن دوغان قورقودیجی حادثه‌لردن سلامت قورتارماق ایچون هیچ قوته استناد ایده‌میه‌رك یالکز مجهول و نامعلوم بر قوته آرقالانماق ایسته‌مشدر. ابتدائی خلق مبارزه‌سی ممکن اولمایان هر بر قوته الله دییه‌رك اونك غضبنی سویوتماق، و کوکلنی اوقشایوب اوز مقصد و أملنه یاردیمدا بولوندیرماق ایچون اوکا قوربانلار کسمش، و اوروجلار دوتمشدر. بوکون مسلمانلارك بیلیکسیز، دراکه‌سز، بر قسمی آراسندا موجود اولان اوروج یوقاریدا کوسته‌ریله‌ن سببلردن دوغولمش‌سادا اونی اسلام‌دینك یاراتدیغی بر قانون حساب ایتمك دوغرو ده کلدر.

اوروج مسلمان دینینده اوژرینال بر قانون ده کلدر. بیری بیریندن سوکرا کلن دینلر تامیله قوراشدیرما شکلنده اولوب هر کس اوز دینینی اوزیندن اول کلمش دینلریك اساسی اوزرینده قورمشدر.

مسلمانلق‌دا بویله‌در. بت پرست‌لکك سیاسی و اقتصادی بر اهمیته مالك اولمادیغنی دوشونه‌ن عرب رهبرلری عربستانك خارجی دشمنلره قارشو ملی بیرلك وجوده کتیرمه‌سی ایچون بر دین تلقین ایتمکه مجبور ایدی. بونك ایچوندر خاچپرست، یهودی، و بت‌پرستلك دینلرینی آلنمش بر چوق قانونلاردان بر دین یاراتدیلار. بو دینك نمازی و مسجد عادتلری خاچپرست‌لکدن، مسجد خارجنده اولان بعضی عادتلری‌ده یهودیدن آلندی. اسلام دینی عرب خلقنك حیاتنه اویغون اولان بر چوق یکی قانونلار دوغماقلا برابر عرب‌لریك عادت ایتدیکلری بعض بت‌پرستلك عادتلرینی‌ده قبول ایتمکه مجبوریت کوردی.

اسلامیتك اولدرینده اسلام دینی عرب خلقنی بت‌پرست‌لکدن تامیله داشیندیرماغی باجارمادی. محمد مکه‌ده اولدیغی وقت قبول ایتمه‌دیکی قوربان و اوروج عادتلرینی بت‌پرست‌لکدن اوزاقلاشمامش عربلرك طلبی اوزره‌رینه قبول ایتمکه مجبور اولدی. بوراسینی قرآن دخی اثبات ایدیر. قرآنك 3 نجی سوره‌سی، 183 نجی آیه‌سنده اوروجك مسلمانلقدان اول دوغولدیغی اعلان ایدیلیر. آنجاق بو آیه‌نك هارادا اعلان اولوندیغنی تحقیق ایتدیکده کورولور که: بو آیه اعلان اولونمامشدان بیر چوق ییل اوللرده اسلام خلقنه اوروج واجب کورولمه‌مشدر. چونکه محمد اوروج سوره‌سنی مدینه‌یه هجرت ایتدیکدن سوکرا اعلان ایلمشدر. آنجاق یئه‌ده بو کونکی اوروج اولجه باشقا بر شکلده ایدی. محمد اونی اولجه اوچ آی اعلان ایتدیسه‌ده، محاربه ایده‌ن عربلریك اوزلری بیله بو آغیر یوکی داشیماقدان تنکه کلدی. بونك ایچوندر اوچ آی اعلان اولونمش اوروجی بر آیا قادار اختصار ایتدیلر. حتی بو آیی اوروج دوتماق ایچوندر بر چوق شرطلر و بویون قاچیراجاق یوللار کوسته‌ردیلر.

بوراسی آچیق کوسته‌ریر که حیاتك شرائطی ده کیشه‌دیکجه دینلریك‌ده شکلی ده کیشوب دین رهبرلری کذشته کیتمکه مجبور اولمشدر. بوکون بزیم حیاتمزله بیك اوچیوز ییل اولده موجود اولان حیاتك آراسندا هیچ بر مناسبت قالمامشدر. حیات بوسبتون ده کیشمشدر. تاسف ایدیله‌جك بر حالدر که: یئه‌ده بعض طبیعتی آکلامیان مسلمانلار اوروجك و اوروج کبی بر چوق ابتدائی عادتلریك تاثیرندن چیقا بیلمه‌مشدر.

بر چوق ابتدائی خلقلرده اولان اوروج عادتلری یالکز قورقو یوزیندن ده کل اقتصادی احتیاج و تاریخی خاطره‌لر نقطه نظرندن دوغولمشدر. اسکی مصرلیلر نیل چاینك داشمادیغی، مصر وادیلرینی سولامادیغندان حاصل اولان قوراقلق و قحط لك یوزیندن دوغمش حادثه‌لر زمانی اوروج دوتمش و آز یمکه عادت ایلمشدر.

مصردن فلسطینه مهاجرت ایده‌ن یهودیلر داخی قرخ ییل مدتی سوسز و اوتسز چوللرده دولاشوب نهایت یاشاماغا الویریشلی بر منطقه بولدیقلاری ایچون آج کونلرینی خاطرلاماق مقصدیله بیلده اوچ کون اوروج دوتمشدر.

لاکن اسلاملاردان چوق اول مدنی انکشافه باشلایان یهودیلر اوروج کیبی بر چوق حیاتی قورقودیجی عادتلری اوزه‌رلرینن آتا بیلمیشلردر. آنجاق بونیدا اونوتمامالیدر که: عربستاندا موجود بت پرستلك اوروجنی دینی بر عادت سیراسنا کچیره‌ن ینه‌ده اسکی یهودیلریك حجاز قطعه‌سنده کی نفوذلری اولمشدر. میلاددن اول صوك عصرلرده فلسطین رومالیلار طرفندن داغیلدیغی وقت یهودیلر مکه و مدینه

طرفلرینه هجرت ایدوب اسلامیت گلمه‌مشدن اول توحیدیك و الله‌چیلغك بناسنی قویمشلار ایدی. بونك ایچونده عربلرك بت‌پرست حیاتنده دوغولمش بو عادت اوزلرینك ترقی دورلرینده‌ده دینی بر قانون شکلینه گیره‌ره‌ك کوك سالوب قالمشدر.

اوروجك اساسا بر بت‌پرست عادتی اولدیغنی اثبات ایتمك ایچون حاضرده ساقیمونی (بوددا) دینینك اساسلارینی و اونك تك ـ تك دینی قانونلارینی اوگره‌نمه‌لییز. (بوددا) دینی تمامیله عبادت و بده‌نه اذیت ویریجی عادتلردن عبارتدر. (بوددا) دینینی داشیانلار عبادتك چوقلیغی و دینی قانونلاریك آغیرلغی تاثیرینده اولاراق حیاتك بوتون مدنی انکشافندن محروم اولمشلاردر. (بوددا) دینی زاهدلك و ریاضت‌لق اساسی ئوزه‌رینده قورولدیغندان زاهدلر دار بیر اوطاغا قاپانوب اورادا ئولینجه عبادت ایده‌ر، آجلغك و عبادتك تاثیری نتیجه‌سنده ئولوب محو اولار. (بوددا) دینینده بو کبی ئولیلریك روحی یوکسك عالمله صعود ایدوب اللهك روحنه قوشولار. ایندی بیز اوزینی اوروج دوتماقدان ئولوم حالنا قویان دراکه‌سزلردن سوروشوریز. اونلار اوزلرینی همان یوقاریدا کوسته‌ردیگمز بت‌پرست زاهدلردن فرقلی می‌حساب ایدیرلر؟ بیزجه بونلاریك آراسندا هیچ بر فرق یوقدر. چونکه مسلمان دینی بیك اوچیوز یيل بوندان اول اوروجی اوچ آیدان بر آیا اختصار ایندیکی وقت بعض شرطلر قویمشدر. او شرائط ده گوسته‌ریلدیگی اوزره «اوروج دوتان کیمسه اوزینده اوندان بر خسته‌لق و بر ضره‌ر حس ایدرسه او اوروجی دوتمامالیدر!» بو سوز نه وقت ده‌ییلمشدر؟ عربلر استحصالاتدا ایشله‌مه‌دیگی و انسان زحمتکشلرینك قیمت ابدیامه‌دیگی وقت. بوگون حیاتك هر بر دقیقه‌سی انسانلار ایچون قیمت ایدیلدیکی وصناعتده ایشله‌ین امکچیلریك آغیر بر زحمت شرائطی تاثیرندن اولدیغی بر زماندا اوروجك و حیاتی ئه‌زیجی آج قالماق عادتلرینك لزومی وارمیدر؟ البته یوقدر! وقتیله انسانلار طبیعتك اوز باشینا و زحمت طلب ایتمه‌دن گوگه‌رتدیکی بیتگیلریله یاشیردی. انسانلار اکین، بیچین ایشلرینه زحمت صرف ایتمه‌دن گوگه‌رمش بیتگیلری توپلیوب یه‌ییردی. اویله بر وقتده آج قالماق ایله توخ اولمانك آراسیندا اوزاق بر مسافه یوق ایدی. او وقتلك انسانلاری آج‌دا قالا بیله‌ردی. بویله بیر وقتلرده اوروج دوتماق چتین ده گل ایدی.

ایمدیسه انسانك طبیعی احتیاجلاری تامیله زحمتدن آسیلیدر. انسانلار زحمت صرف ایتمه‌دن هیچ بر شئی الده ایده‌مه‌یور. بر انسان نه قادار قوتلی و ساغلام اولورسا او قادارده زحمتده مهم بر وظیفه ایفا ایده‌رك اوز حیاتنی یاقشیلاشدیرماغا امکان الده ایده بیله‌ر. حاضر کی زماندا امگه آلیشمامش و زحمت چکمه‌ین انسانلار حیاتده هیچ بر رول ایفا ایده بیلمیه‌رك باشقالارینك زحمتی حسابنه یاشییرلار. بو کیبی طفیلی اولماق، و اوزگه سنك بوینینا دوشمك عادتلری هنوز لازمی قادار زحمت جیهه‌سنده انکشاف ایده‌میه‌ن شرق ئولکه‌لرینده موجود ایسه‌ده شورالی جمهوریتلرده بویله بیر پارازیت حیاته امکان بیراقیلمایور. عمومیتله ایشله‌میه‌نلر حیاتك لذتلرندن ایشله‌یه‌نلر قادار استفاده ایده بیلمه‌زلر. بونك ایچونده شورا امگچیلری و اکینچیلری زحمتده موفقیتلی رول اوینماق ایچون اوز ساغلاملغینا قورقو تشکیل‌ایده‌ن اوروج عادتلرینی ترك ایتمه‌لی‌در.

اوروجك انسانك صحتنده نه کبی ضررلر وجوده گتیره‌جگی حقنده دوقتورلاریك دره‌ین مطالعه‌لری واردر که: اوبی‌دا اکینجی و امکچیلر نظره آلمالیدرلر. اوروجك باشلیجا ضرری قادینلاردر.

قادینگ بدنجه قورولوشی کیشیلر قادار قوتلی و اذیتلره دواملی ده گلدر. اونلار حاضر کی زحمت دورینده کشیلرله برابر بر چوق وظیفه‌لر ایفا ایتدیگلرندن اوروج دوتماق اونلاریگ حیاتنده آغیر تهلکه‌لر توره‌ده بیله‌ر.

خصوصا سود ویره‌ن و چوجوق ئه‌میزدیره‌ن قادینلار یالگز اوزلرینی محو ایتمك ده گل، امیزدیردیگلری چوجوقلارینی‌دا محو ایدیرلر.

محمد سعید اوردوبادی

چین حادثه‌لری مناسبتیله

مرکزی چین حکومتی اولان (په کین) حکومتی حکمرانلغی‌نك حقیقی صورتده محو ایدیلمه‌سندن صوکرا چین ئولکه‌سی مختلف حربی قوه‌لرك بیری بیرلرینه قارشی آپاردیقلاری دائمی مبارزه میدانینا چه‌ویریلمشدر. بومبارزه دوام ایندیگجه بوقانلی‌غروبلار دائما ده‌گیشوب باشقالاری ایله عوض‌ایدیلمش ایسه‌ده، قانلی جنراللار بیری بیرلرینی قیرماقدا دوام‌ایتمشلردر؛ لاکن بو مبارزه زمانی خلق حکومتی‌اولان (قانتون)ك قوه‌سی آزالمامشدر. (بو خصوصدا «شرق‌قادینی» مجموعه‌سینك (139) نجی نومرو- سیندا کی مقاله‌لرمزه باقیگز.)

چین ئولکه‌سینك جنوب حصه‌سینده اولان قانتون-حکومتی گوجلندیگجه چینك شمال طرفنده کی (چان-زو-لین) اوردوسی دخی قوه‌تلنوب باشقا ضعیف جنراللاری ئوزینه تابع ایتمگده‌در.

جنرال (چان-زو-لین) یالگز چینده کی أسکی‌ملکدار و قاپیتالیستلرك طرفداری اولمایوب، بلکه بوتون چینده آغالق ایدن‌خارجی قاپیتالیستلرینك‌ده‌طرفداری وحقیقی‌نوکری‌در.

اولجه(چان-زو-لین)ك قوه‌سی‌یالگز مأنجوریادا اولدیغی ایچون او، ئوز ئولکه‌سنی اداره ایدرکن دائما یاپونیا حکومتنك منافعنه اویغون صورتده چالیشیردی. لاکن (چان-زو-لین)ك گوجی آرتوب، چوغالدیقجا او ئوزی ایچون داها قوه‌تلی وداها زنگین‌و عین زماندا سخاوتلی حامی آقاراماغا باشلادی.(چان-زو-لین) بو یکی حامینی تایدی؛ او، چوقدانبه‌ری چینده قانتون حکومتنك قارشوسینا چیقا بیله‌جك بیر قوه‌آقاران-اینگلتره حکومتی‌ایدی.

انگلتره و قانتون.

ایمدی باقالم، انگلتره دولتی نه سبب باشقا قاپیتالیست حکومتلرینه نسبتاً (قانتون) علیهنده الك فعال چالیشیر؛ و نه سبب چینلی‌لرك نفرتی برینجی نوبه‌ده انگلتره‌یه قارشی چه‌ویریلمشدر؟

چونکه انگلتره؛ چین ئولکه‌سنی استثمار ایدن دول- تلرك برینجیسی‌در. بومقصدایله انگلتره حکومتی‌بلاواسطه اولاراق‌مبارزه‌یه باشلایوب(باشقا قاپیتالیست دولتلرینك‌یاردیمی ایله)چین ئولکه‌سنی‌قان‌درباسینه چه‌ویرمشدر. چین‌ئولکه‌سنی استثمار ایتمك ایچون انگلتره حکومتی بیر چوق پارا صرف ایدوب، 3 میلیارد مناته کبی پول بیراقمشدر. چین ئولکه‌سنك خارجی تجارتنده اینگلتره‌برینجی یئر دوتیر؛ چین گومرو کخانه‌لرینك‌باشندا اینگلیزلر دورمشدر. دیمك اولار که چین‌ئولکه‌سنده کی‌دمیریوللارینك هاموسی‌اینگلتره قاپیتالینك گوجی‌ایله چکیلمشدر. بونك‌ایچوندر که اینگلتره حکومتی، ئوزینك چین ئولکه‌سنده کی حقوقینی بویله یوره گله مدافعه‌یه چالیشیر.

قانتون حکومتی؛ برابر اولمیان مقاوله‌نامه‌لرك لغو ایدیله‌جگنی و خارجی ملتلرك آغالیقلارینا قارشو مبارزه آپاریلاجاغنی بیلدیردیگدن صوکرا، اینگلتره حکومتی درحال اونا قارشو چیقماغا باشلادی. بو چیقیش یالگز رسمی پروتستو شکلنده‌اولمایوب، بلکه بلا واسطه آپاریلان حربی ایشلر ایله دخی گوریلردی. اولجه بو یالگز آبری آبری چیقیشلاردان عبارت ایدی. لاکن 1926 نجی ایلك آخرلارینا بو چیقیشلار بویوك ووروشمالارا چه‌ویریلیر. اینگلتره‌نك مسلح دسته‌لری، خارجیلر محله‌سندن کیچن‌چین نمایش دسته‌لرینك‌داغیدیلماسی‌ایچون گونده‌ریلیر. بونگله‌برابر اینگلتره نك‌چوق‌یئرلرندن‌چین ئولکه‌سینه اوردو گونده‌ریلمگده‌در.

26 نجی ایلك سنتیابر آیندا اینگلتره‌نك حرب گمیلری اوچ ساعت مدتنده (وان‌سیان) آدلی چین شهرینی آتشه دوتمشلاردی. بو وقت بر نیچه یوز انسان تلف اولوب، 100 دن آرتیق ئوو داغیلمشدر.

اینگلتره حکومتی سلاحسز اهالینی نه ایچون قیردیر- مشدر؟ چونکه‌اینگلتره اوردو دسته‌لری طرفندن(وان‌سیان) شهرینده چیقیش یاپیلدیغی زمان 3 نفر اینگلیز ضابطی و 4 بحریه‌لی (ماتروس) ئولدیریلمشدی. چینلیلردن ئولنلری اینگلیزلر سایمیرلار.

لاکن (وان سیان) ك آتشه دوتولماسی یالگز چین ئولکه‌سنده نفرت اویاندیرمایوب، بلکه بوتون ئولکه‌لرك أمکیچی خلقینده اینگلیزلره قارشی بویوك نفرت اویاندیر- مشدر. بو حادثه‌دن صوکرا اوز ئولکه‌سنی سه‌وه‌ن هربر چینلی«اینگلیز»سوزینی بیر «دشمان» کیبی آگلایبر. اینگلیزلر (وان‌سیانی) آتشه دوتار کن انقلابچی چینی قورقوتماق ایسته‌مشلردر؛ لاکن بونی باجارمامشلاردر. (وان سیان)دا توکولن قان قورقوتماق عوضینده چینلیلرك یوره گنده بویوك عداوت اویاندیروب، اونلاری اینگلیزلردن انتقام آلماغا و هر واسطه ایله اولورسه خارجلرك آغالیغنی یقماغا دعوت ایتمشدر.

اینگلیزلرك بو وحشیلگی نتیجه‌سنده خارجی ئولکه تبعه‌لرینك آغالقلارینا قارشی مبارزه‌آپاران قانتون حکومتینك نفوذی داها آرتمشدر. یالکز چین‌ئولکه‌سنك أمگچیلری دگل، بلکه بوتون چین ضیالیلری و خیردا بورژوآزیا دخی (قانتون) حکومتنك غالبیتینی ایسته‌ییر. یوزلرجه و بیکلرجه یکی‌مبارزلر(قانتون) اوردوسنا قوشولیر. (قانتون) اوردوسنك هر غلبه‌سی - چینلیلرایچون ملی بایرام‌اولیر.

بیز بورادا (قانتون) اوردوسینك (چینك بویوك شهر-لریندن‌اولان) (خانقوئو) شهرینه داخل اونماسنی گوره‌ن‌بر شخصیك خاطره‌سنی مثال گتیریریز!

«(هو-آن-دون) دان چیقوب (خونان) و (خوبه‌ی) واسطه‌سی ایله پیاده گلمش و آراسی کسیلمه‌ین ووروشما نتیجه‌سنده جنوبلیلارك اوردوسی چوق یورغون بر حالدا ایدی.

بونا باقمیاراق گونشك تأثیری آلتیندا قارالمش عسکرلرك یوزینده سه‌وینجلی گولوش وارایدی.

اونلار، گولدیگجه خلقده‌اونلارایله بیرلیگده گولیردی. شهرك کوچه‌لری اوردو دسته‌لری ایله دولی ایدی. بونلار گزدیکجه‌بیکلرجه ایشچی،(قولی)، ویوك داشیان قوللوقچی و تاجرده بونلار ایله شهری دولانیردیلار. بیز بو گون بیرینجی دفعه اولاراق خلقك اوردو دسته‌لرینی آلقشلادیغنی و اونلارك شرفنه أل‌چالدیغنی گوردیك. بو اوردو شهری آلمش مظفر (قانتون)اوردوسی‌ایدی.

بو گون به‌زه گلی آلاقاپیلار اولمادیغی کبی خصوصی تبریك قومیته‌سی‌ده یوق‌ایدی. اوردو دسته‌لرینی خلق ئوزی گورولتی باغیرتی ایله آلقیشلاییردی.»

(قانتون) اوردوسی، طرفندن (خانقوئو)شهری آلندیقدان سوکرا قانتون حکومتی ایله اینگلتره ایمپه‌ریالیستلری و برنجی‌نوبه‌ده اینگلیزلر آراسندا کی علاقه داهادا کسکین-له‌شر. (خانقوئو)دان صوکرا انقلابچی (قانتون) اوردوسی ایچون چینك‌آك زنگین شهرلریندن و بویوك لیمانلارندان اولان (شانغهای)شهرینه یول‌آچیلیر.

اینگلتره حکومتی و اونك‌آردینجادا باشقا دولتلر ئوز قوه‌لرینی (شانغهای)ه توپلاییرلار.

(چان-زو-لین) بیلدیریرکه اونك اوردوسی جنوبی قانتونلیلاردان تمیزله‌مگه آند ایچمشلردر. لاکن خلق اوردوسنك انقلابچی روحی آزالمیر؛سوك‌خبرلر گوسته‌ریرکه قانتونلیلار (شانغهای)ه یاقینلاشمشدر. انقلاب اوردوسینك یاقینلاشماسینی‌تبریك اشاره‌سی اولاراق (شانغهای) همکارلار اتفاقلاری تعطیل اعلان ایتمشلردر.

ئوز اوردوسیله (شانغهای) دا آغالق ایده‌ن جنرال (سون-چوآن-فان) - (حقیقت حالدا خارجلر آغالق‌ایدیر). شهرده قاعده ساقلاماق ایچون (آسایشی پوزماماق ایچون) هرگون انقلاب فکرینی داغیتماق ایچون تبلیغات‌آپارماقدا شبه‌لندیگی اونلارجا چینلی ئولدیرمگده‌در. بو وحشته قارشو پروتستو اولاراق اوچ گونلك تعطیل ایمدیه کبی دوام ایتدیریلیر، قان‌دریاسنه چه‌وریلمش(شانغهای)خلق اوردو سنك گلیشینی گوزله‌ییر.

فه‌ریدا.

بو گون بوتون دنیاده قادینلار سسی ایشیدیله‌جکدر؛ اونلار دییه‌جکلر: انقلابچی چین اوردولارینا سلاملار! یاشاسین بو مبارزه‌لرینده اونلارا کومك ایدن چین قادینلاری!...



اوروجلق.

اەر – اوروجلق گەلدی آرواد!
زهرمار اولدی هر زاد،
ایشلیوب، قازانیردیق،
بر تەهەر دولانیردیق.

ایندی گەرەك آج قالاق،
گیئدەك نسیه قند آلاق،
بر آی ایشه گیتمەیەك،
ایو شەین ساتوب یئیەك.

آرواد – هرگاه ایشه گیئتمەسك،
آز چوق قازانج ایتمەسك،
بورج آلتیندا باتاریق!
جیندیرلاری ساتاریق!

سحر تیزدەن یئردن دور،
سن قارنیگی بەرك دولدور،
گیئدوب ایشله، پول قازان،
أەل چەك اورج – نمازدان.

اەر – آخرەتی نەیلەییم؟
مولالارا نه دەییم؟
دوتمویاق، اوتاناقمی؟
جهنمده یا نا قمی؟

من مسجده گیتمەسەم،
سجده، سلام ایتمەسەم،
مولا، واعظ نه دییەر،
سید، درویش نه ییئەر؟

آرواد – آغی زهرمار یەسین!
هرنه دییەر، قوی دەسین!
چیقسین آخوندیك لوزی،
جهنمدن بس ئوزی،

نەدەندر هیچ قورقمایین،
آغا – بوزا باقمایین،
سویور ئولی – دیرینی،
هیچ کس قانمیر سیرینی.

تومارلانیر ساققالی،
آرتیر واری – احوالی،
آروادی قوماش گەییر،
یاغلی پلووولار یەییر.

بیز قالمیشیق آج چیپلاق،
آی باشی داشلی سارساق،
نه قورقورساك آللهدان!
بسدر دها بر اوتان!

یاری یاشا دولوبساك،
گنه عوام قالوبساك!..
هر دییەنه باقیرساك،
هر «خوخو»دان قورقورساك!.

بیلدیر باقدیم سوزیگه،
آکول سنك گوزیگه،
اوروج دوتوب آج قالدیم،
ئوزیمی درده سالدیم.

أیلیم چیقدی ایشیمدن،
سود کەسیلدی دوشیمدن،
اوشاق آج قالدی، ئولدی،
گوزجیگیزیم تو کولدی.

اینانمیرام هیچ زادا!..
واعظده، نه مولادا
دوعرو سوز یوقدر داها،
قوی اینانسین آللها.

دولتلیلر، وارلیلار...
سنك أملیگده قابار
ایشله، چالیش پول قازان،
أەل چیك اوروج، نمازدان

اەر – آرواد، مندە قانمیشام،
سوزلریگه اینانمیشام،
بر آز أیلیك دینازی...
برده بو مولا، قاضی...

آرواد – کول اونلارك گوزینه....
هر نه دییەر ئوزینه!
سال باشیگی، یی گیئتسین،
هر کیم نه ایدیر، ایتسین!

دانشدیلار بو تەهەر؛
سحر تیزدن آرواد، أەر؛
ساماواری قوردولار،
اوروجا اود ووردولار.

ثانیلی



رومان

تونج آی

یازانی:
یوری سلیوزکین

حسن.

مخمل چادر کبی گورونن گوك یوزی بر چوق ییلدیزلارلا بهزه‌نمشدی. توستولی مشعللر ایله ایشیقلانمش ده گیز کناریندا ایکی جرگه سلاحلی فرنگی عسکری دورمشدی. بونلارك آراسندا قارانلق ساحلدن گمیلره دوغرو اوزانمش دار کورپی اوزه‌ریله، آغیر یوك آلتندا ایکی‌نات بو کولمش حمللار آغیرنفس آلا-آلا یوروییردی.

حمللار ئوز قوه‌تلی و به‌ر کیمش یالین آیاقلارینی یاواش-یاواش آتاراق سس‌سیز و دانشیقسیز یوروییردیلر؛ اونلارك یوك دوتان و گه‌ریبه دوغری اوزانمش، گه‌رکین اللری ته‌رله‌مش اولدیغی ایچون پار - پار پاریلدایییردی. مشعللرك دیتره‌ك شعله‌سی شدتلی قارانلق ایچنده کاه تاختا قوتولارك بر کونجینی، کاه آداملارك یوزنی، کاه تونج ره‌نگلی چیگینلره ایز بیراقمش قطرانلی توقونما اپلری و گاهدا زول - زول گوگه‌رمش دامارلاری ایشیقلاندیریردی. آرابیر، منتظم ایشیدیلن آیاق تاپیلتیسی، قوم و له‌په‌لرك گورولتوسی آراسندان حزین زاریلتی، گمیکلرك شاققیلتیسی، های - کوی، اوزون و، غمالی ده‌وه ناریلتیسی ایشیدینییردی.

گوج ایله سه‌چیله ییلن و آرتیق هیجانلی عمر سوره‌ن قارانلق ساحل بویوك بیرتسماحه بگزه‌ییردی که؛ گویا او ئوز طمعکار باشینی دگزه طرف اوزادوب، دال پنجه‌لرینی‌ده (مردآب)ك قامیشلارلا اورتولمش ته‌کینه سوقمشدر.

کورفزك ساغ طرفینده کی انزه‌لی شهری؛ ئوز دار و بوغاناقلی کوچه‌لری، بازار و مسجدلری، آلچاق تالوارلی دوکانلاری، صرافخانه‌لری، قهوه و حمامللاری ایله برابر بو قارانلق بهار گیجه‌سنده یاتمشدی بیر طرفده سگز گوشه‌لی سوکوك قللهلری، شیشه‌سیز و سنیق پنجره‌لری اولان شاه سرایی دخی ئوز هه‌یه‌تینك آرقا طرفنده، گوجلی سارماشیق ایله ئورتولمش داش دیوارلار آرقا-سندا کی (اندرون) حرمخانه‌لری ایله برابر سا کت‌دورمشدی.

سول ساحلده، قالین باغللرك آراسندا بولونان قامیش کوله‌ش داملی آغ ئه‌ولرك ایشیغی آغاجلار آراسندان گورونیردی.

بورادا ایشچی خلقی، یعنی قایقچی، بالیقچی و حمللار یاشاییر. و بونلارك چوغی همین گیجه ده گز کناریندہ ایشله‌ییردی؛ بونا گوره‌ده آرواتلار ئوز أمرلرینی گوزله‌یه‌رك، ته‌نی‌نك یانیندا مور گوله‌ییردیلر. ده گز کناری؛ دایاز و دائما فورطونالی اولدیغی ایچون گمیلر ساحله چوقدا یاقینلاشا بیلمیردیلر. اوزاقدان قارالتی کبی گورسه‌نن اوزون ساو قایقلار (کره‌جیلر) قومسال بوروندان آیریلاراق له‌په‌نك تاثیری ایله یرغالاناراق سویه باتوب، چیقیر وباخود بر یاندان اوبیری یانا آتیلییردی. بو قایقلار (کره‌جیلر)ده آغیر قوتولار و یو کله‌ر گتیریلوب، حمللار طرفندن کناره داشینییردی. بورادا ایسه همین شیئلری‌ده‌وه لره، آرابالارا وباخودیوك آقتوموبیللرینه یغوب آپاریردیلار. یو کلرك گمیلردن ساحله‌داشیندیغی‌زمان، ممکن اولان

قیسا استراحت زمانلاری، حسن؛ آرتیق تعجیله، یوك داشیبان قوچاق و یوره گلی قاییقچیلارا (کره‌جی بانلارا) باقوب، چوجوق کبی اونلارا حسد ایدیردی. بو قایقچیلار بویوك سوئوق قانلیلق و حتا بر قدر سه‌وینجله جوشغون دالغالار ایله نبارزه ایدیردیلر: حسن سویوك کنارینده اوتوروب قاییقچیلارا باقیردی؛ کوبو گلی له‌په‌لر سیچرایوب، اونك یوزینه‌ده گدیگجه حسن داهادا خوشلانوب، گوله‌مسه‌ییردی.

حسن؛ عمرینده ده گز گورمه‌مشدی. او؛ طهراندان تبریزه گیده‌ن یولدان بر آز کناردده بولونان «میانداب» (میان‌دو آب) ده‌نیلن بالاجا بر کنده دوغولمشدی. حسنك آناسی، ئوز آناسی، طرفندن همان کنددن کیچن بر تاجره «صیغه» آدی ایله ساتیلمشدی. لاکن تاجر، قادین ایله بالگز میاندابدان تبریزه گیده‌ن یول اوزونی یاشایوب، تبریزه چاتاندان سوگرا اونی بوشلامشدی. زواللی قادین بورادان تکرار گه‌ری قایدوب پیاده ئوز کندلرینه گلمشدی. قادین گه‌ری قایدار کن ئوزی ایله برابر گله‌جك چوجوغنك تامین ایدیلمه‌سی ایچون ویریلمش بر آز پارادا ئوزی ایله گتیرمشدی. حسن دوغولدیقدان سوگرا بو پارا خرجله‌نوب، قورتارمشدی؛ بوناگوره‌ده چوجوغك آیاغی یئر دوتان کبی اونی ئوز باشینا بیراق شدیلار. بویله‌لگله حسن گلوب طهرانه چیقمشدی. بورادا او؛ ایکنجی دفعه اره گیتمش ئوز آناسینی تمامیله یادیندان چیقارتمشدی. آناسنی ایسه حسن اصلا گورمه‌مشدی؛ پایتخت کوچه‌لرینده گه‌زوب دیله‌نرکن، صدقه ایچون ال اوزاتدیغی شخصلردن بیرینك ئوز آناسی اولدیغنی‌دا بیلمه‌مشدی. بر زمان بویله یاشادیقدان سوگرا حسن اویونباز و افسونچینك یانندا یاشایور؛ قهوه‌خانه‌لرده رقص ایدوب او، ادبسیز (عیلی) نغمه‌لر اوقویور، یانمش اسگی پارچالارینی اودورو، بیز ایله اوردینی ده‌شیردی.

اونك قوه‌تلی و اوزون بویلی بدنی، بولی کوله‌ك و یاغیشلارك تاثیری آلتندا به‌رکیبوب، پارلاق میس رنگینده ایدی. بونك بوگورونوشی بر چوقلارینا خوش گلیردی. برگون تاجرالصاحب حسنی گوروب، چوق خوشلادی و اوزینك قزوین‌ده کی حامیندا ساقلاماق ایچون قوللوغا گوتوردی. حسن بوراده الصاحبك کبابچی دوکانینا گلن تنبل، یاغلی مشتریلرینه کیسه چیکمه‌لیدی.

هر طرفدن اونك اوزه‌رینه هجوم ایتمگده اولان ناتمیز لیکاره و حوضك سوییندا کوپو گلنمش صابونلی چیرك لرك بونی احاطه ایتمه‌سینه باقمیاراق حسن یئه‌ده مردانه‌لیگله اوز ناموسینی مدافعه ایدوب وجدانلی قالمش ایدی. حسن، طلبکار مشتریلری هیچ وقت راضی سالا بیلمیردی.

بیر دفعه مشتری‌لردن بیری اونا ساتاشماق ایسته‌دیگده، حسن اونك قیچینی برك دیشله‌مشدی. او؛ آجیغندان ناموس‌سیز مشترینك یاغلی و آغ قیچینك ده‌ریسینی ایتی دیشلری ایله به‌رك دوتوب وارگوجی ایله سیقیردی؛ بو وقت اونك اوسته بوز کیبی سوئوق سو توکوب، گوج ایله آییرابلدیلر... بو ایشك اوستنده حسنی، سیرکه‌ده ایسلادیلمش نه‌ی چوبوغلاریله دوگدیلر ایسه، یئه‌ده قورقماـ یوب، وحشی و عنادچی حالندا قالمشدی. دیمه بو مشتری مجلس ملی عضوی ایمش؛ بونا گوره‌ده بو سرك اطرافه داغیلماسندان قورقوب، حسنی حمامدان قاوماماسنی الصاحبدن رجا ایتمشدی. بوندان سوگرا چوجوغی قاپو آغزیندا اوتوردوب، توتون و قنادی (شیرنی) ساتماغی اونا تاپشیردیلار؛ اونا ده‌للهك لیگده ئوگره‌تمشدیلر؛ بوقاعده ایله حسن اون یدی یاشینا چاتمشدی. کبابچی دکانینك قاپوسی آغزینده بر خالچه دوشنمشدی. خالیچه‌نك اوستنده دوزیلمش اون ده‌رت گیجه‌لك آی کبی گیرده گوموش قابلاردا عطرلی ساری توتون قویولمشدی؛ بوندان باشقا به‌زه گلی تیریاك قوتولاری ایله برابر اوزون و دار بوغازلی قابلاردا داتلی شربتلر و کوچوك کاسالاردا دخی انسانی مست ایدن لذتلی زنجفیل شربتلری بولونیردی.

قهوه‌خانه‌نك آرقا طرفنده کولگه‌لی بر باغ اولوب ایچینده فواره ووران سو حوضلری بولونیردی. بورادا نار، اینجیر و سرو آغاجلاری اه کیلمشدی. بر طرفده‌ده حمام و یوموشاق خالی ایله دوشه‌نمش بر چوق اوتاقلار واردی. بو اوتاقلاردا ایپه‌ك یاسدیقلاری و عطرلی شیئلر قویولمشدی. بورادا قوناقلارا تند قارا و قاتی شیرین قهوه، و تند شیراز شرابی ویریلیردی. آرزو ایده‌نلر سازه‌نده‌لرك گوزه‌ل چالغی و نغمه‌لرینی دیگله‌یبر و یاخود مرمر تختلرك اوستنده اوزانوب رقصه‌لرك اویونلارینا تماشا ایدیردیلر. بو وقت زیره‌ك چوجوقلار اونلارا کیسه چیکوب، بدنلرینی عطرلی باغ ایله سیقه‌للهییردیلر... حسن؛ کباب خانه‌نك ایچه‌ری اوتاقلارینی گورمه‌مشدی. او؛ سحردن آقشاما کیبی خالیچه اوزه‌رنده اوتوروب، تسبیح چه‌ویریر و ایچه‌ری گیره‌نلرك سلامنه جواب اولاراق یاواشجا اه گیلوب تعظیم ایده‌ردی. هر گون اونك یانیندان بر چوق مسلمان، ارمنی و فرنگی کیچوب گیدیردی. آرا بیر حسنك دقتنی بورادان یولداشی ایله کیچن کورد قیزی رقاصه (مارو) جلب ایدیردی.

هر زمان (مارو) قارا و بالاجا باشی ایله حسنه یاواشجا تعظیم ایدوب:

– سلام علیکم، حسن!

دیدیگدن سوکرا کیچوب، گیده‌ردی. بویله که حسن مارونی گورجك ئوزینی‌ایتیره‌ردی و«علیکم‌سلام!.» دییه‌نه کیبی کورد قیزی خالیچه پرده‌نی قالدیروب ایچه‌ری کیچمش اولوردی.

بیرگون حسن؛ اسعد ابراهیم خان آدلی گوزه‌ل بزرگانلاردان (ملکدارلاردان) برینك یوزینی قیرقیردی. بزرگان لوغالانوب (مارو)نی الصاحبدن آلاجاغنی سویله‌دی. بو سوز جوان آلیش ویریشچی‌یه خوش گلمه‌دیگی ایچون آز قالمشدی که ئولگوچ ایله اونی کسوب ئولدیرسون. خوشیختلگدن ابراهیم خان تیزگه‌ری چکیلوب جانینی قورتارا بیلمیشدی. حسنی «چوب – فلقه» یه سالوب جزالندیردیلر. زاواللی‌نك جلادا ویرمك ایچون بر دیناری‌دا تاپلمادیغندان ظالم فراش هر آیاغنا اللی‌چوبوغووورمشدی.

حسن بر–ایکی گون آیاقلارینی یره باسا بیلمه‌دی؛ لاکن بو ایشدن سوکرا هیچ کیم اونك یانندا (مارو) ایچون بر سوز دییه بیلمیردی.

مارونك دوستی قشنك زینب گولوب دییردی:

– مارو، باق سنك ایسته‌گلك و آغاك اوتورمشدر. گور سنی نه قدر سه‌ویرکه سنك یولوندا آیاقلارینی قابارلانمشدر. قوی سنك اونا قارشو گوسته‌ره‌جگك محبت اونی پروازلاندیروب محمدك بزه‌وعدایتدیگی جنته‌اوچورتسین.

بهار وقتی، محرم گونلرینك برینده الصاحبك کباب – خانه‌سنه بر نفر یوزی قیرخیق، آغ شالوارلی، گوزه‌ل بیرگنج فرنگی–انگلیز داخل اولدی. بوگنج حسنك و الصاحبك سلاملارینا قارشی یونگول باش اه‌گوب، سرعتله پرده‌نك آرقاسینا کیچدی:

بوگوندن باشلایاراق گنج فرنگی هر گون ورایا گلمگه باشلادی.

الصاحب سه‌ویندیگندن الرینی آووشدیریردی. «الله» اونك ایچون‌دولتلی‌بیرمشتری یتیرمشدی. هامو بیلیردی که بو فرنگی کورد قیزی (مارو) دان اوتری گلیردی؛ بوکا کوره‌ده آرتیق مراقلا حسنه باقیردیلار.

لاکن حسن بونا هیچده اهمیت ویرمیردی و یاخود اخلاقسیز قادیندان اوتری قیسقانجلق ایتمگی ئوز شانینه یاراشدیرمیردی؛ بلکه عکسنه اولاراق حسن اولکندن‌ده یوزی کولەر گورونیردی. اونك یوزینده بالاجا (مارو)نك بشاشلیغی عکس ایدیردی.

بیرگون بو رقاصه عادتی اوزره سلام ویردیگدن سوکرا گیتمه‌یوب، حسنك قارشوسندا دوردی و دیدی:

– حسن؛ بوگون، منم عمریمده‌الك فرحلی‌بر گون‌در...

بوگون فرنگی بکا کوزه‌ل پیشکش ویرمشدر؛.. باق!

بو سوزلردن سوکرا قادین حسنه بر یوزیك گوسته‌ردی. زمردن یاپیلمش بو یوزیك (دماوند) داغنك یاشیئل ئه‌ته‌گی کبی پالاییردی.

(مارو) سوزینه دوام ایده‌رك:

– من بوگون اوقدر شادم که؛ نه‌ایسترسنسه‌ایده‌رم!..

جوان آلویریشچی اوتاندیغندان، قیزاروب باشینی آشاغا سالدی و دیدی:

– آی، جیران خانم! سندن هیچ شئی ایسته‌میرم، منه بیر شئی‌ده لازم ده‌گل... یالکز منیم یوزیمه گول؛ گوله‌ر یوزله‌منه باق، سنك باقیشك چوق گوزه‌لدر.

(مارو) تعجبله ئوز دوستلارینا باقوب دیدی:

– ایشیدیرسکز، نه‌دییر؟ نه احمق‌در!

زینب به‌رکدن لواوب دیدی:

– ای، حسن! ایشیتمه‌میسن که ماهنولاردا اوقوییرلار: «باده‌لرك الك گوزه‌لی، سه‌وگیلی قادینك گوبگی‌در...» او حالدا، سن نه‌ایچون بو باده‌نی موردارلایان دوداقلارا مانع اولمیرسار؟ نه ایچون قویمیرسان (مارو)، تکجه سنك قاباغیگدا اویناسین، نه‌ایچون اونی ئوز حرمخانه‌که آپارمیرسان؟ بو سوزلردن سوکرا بورادا بولونانلاردا حسنه گولوب سوروشیردیلار که اونیچه آرواد آلاجاق، اونك ئه‌وی نه بویو گلیگده‌در؟..

طوینا چوق آدام چاغیراجاقمی؟ البته، هامو چوق یاقشی بیلیردی که حسن یوقسول بیرگده اولدیغندان بیر نفرده آرواد ساقلایا بیلمیه‌جگدر. لاکن حسن بوسوزلردن اینجیمیردی.

(مارو)نك گوله‌ر یوزینی گورمگدن باشقا هیچ شئی ایسته‌میردی بیر آزدان سوکرابورایا گلن آغ شالوارلی اینگلیز یوق اولدی.

(مارو)نك یوزی داها آرتیق گولمیردی.

حسنك‌ده کیفی پوزولمشدی. گوزلری، چوقورا دوشمشدی. اونك یوقوسی قاچوب، اشتهاسی‌ده پوزولمشدی. ویریلن سئواللارا حسن داها جواب قایتارمیردی. نهایت بر گون جرئتلنوب، یانیندان کیچن (مارو)نی ساقلادی و یاواشدان:

– گوزه‌ل خانم! دیدی.

(مارو)نك خیالی باشقایرده اولدیغندان اونك سسنی ایشیتمه‌دی:

أیرتەسی گون حسن اونی بەرکدن چاغیروب دیدی:

– (مارو)، دی گوروم‌سنی کیم‌اینجیدیر، من اونی ئولدیریم!

رقاصه گەریبه دونوب، غملی سس ایله:

نه احمق سن! – دیدیگدن سوگرا جلد کیچوب گیتدی. حسن بر نیچه گون همیشه کی یرندن یوق اولدی. هیچ کس بیلمیردی که او هارالاردا گەزیر.

بعضیلری دییردی که اونی اینگلتره سفارتخانه‌سنك یاتندا گورمشلردر. نهایت او بر گون یورغون و رنگی آغارمش حالدا قایتدی.

(مارو) تیزاونك یانینا گلوب، هیجانلی‌صورتده سوروشدی!

– هارادا ایدیك؟ انگلیز یمی آقتاریردیك؟

– بلی من اونی آقتاریردیم! دییوب حسن یاواشدان جواب ویردی.

– سن اونی ئولدورمك ایسته‌ییردگمی؟

حسن باشینی ترپتدی.

– یوق.. من ایسته‌ییردیم که اونی سنك یانیگا گتیریم.. سن بنه‌ده گوله‌ر یوزلی اولاساك...

(مارو) سورمه‌لی قاشلارینی یوقاری دارتاراق، تعجبله سوروشدی:

– منم گوله‌ر یوزلی باقیشیم نه‌یگه لازمدر؟

حسنك سسی دیتره‌دی:

– خانم! چونکه من سنی سه‌ویرم دیدی ..

– سن، منی سه‌ویرسن؟

– بلی خانم! من سنی سه‌ویرم، و سنك غملی اولما‌غیگی گوره بیلمیرم. من سنك فرنگی دوستگی تاپوب گیتره‌جگم؛ یالگز بگا گوله‌ر یوزله باق!... (مارو)؛ من ایسته‌ییرم که سن هر زمان منیم یوزومه گوله‌سن!

بو سوزلردن سوگرا حسن رقاصه‌نك‌قارشوسندا دیزی اوسته چوکوب، آغلایاراق، قادینك گوده تومانینك بالا‌غینی ئوپیردی.

حسنك بو حرکتی رقاصه‌نك خوشینا گیتمه‌دی او باغیروب، آجیقلی دیدی:

– سوس؛ پدر سوخته! سن نیجه جرئت ایدوب، منه محبت گوسته‌ریرسن، دیلنچی!..غلام!..منی ئوز قاری‌شوبدا اویناداجاق پاراك وارمی؟ منی ساقلاماق ایچون حرمخانه‌ك وارمی؟ ایتیل گوزیمك قاباغیندان؛ یوقسا دابا‌نلاریگدان قان دامانا کیبی سنی دوگدیره‌رم؛ سوگرا مندن عذر ایسته‌مك ایچون قارنی اوسته سورونوب یانیمه گله‌رسن!رد اول بورادان، بیرداهاسنك حیاسز یوز یگی گورمه‌ییم!

منی یالگز بزرکان ویاخود فرنگی‌لر، سه‌ویندیره‌بیلر، چونکه اونلار پوللی‌درلار. بو سوزلردن سوگرا(مارو)، پالتارینی حسنك اینین دارتوب، جلد خالیچه پرده‌نك آرقاسنا کیچدی و زاواللی گنج تەپه شکلنده یغیلمش ایکی قاب ساری توتون یغینینك آراسندا خالی اوستنده ییقیلوب، هوکورتمه ایله آغلاییردی.

لاکن حسن بودرد دن ئولمه‌دی و دەلی‌ده اولمادی. اونك آنجاق اون یدی یاشی واردی. او هله دونیادان بیزارلانماشدی. بونا گوره‌ده حس ساری توتون یغینلارینی بر طرفه براقوب، تسبیحی الصاحبك قاباغنا آتدی؛ بوندان سوگرا اگنینده کی کوملگی جیروب، الینه بر عصا گوتوردی و پول، زور گوجینه عشق ساتماق ایله مشغول اولان کباب خانه‌دن جیقوب گیتدی. صاحبنك یانندان ئوز باشینا گیتدیگی ایچون قزوین‌ده اونا اذیت و جزا ویریله‌جگدی بونك ایچون او قزوینی ترك ایدوب، گیلان ساحلنه یولا دوشدی.

او ایشیتمشدی که بورادا لازمی ایش تاپماقلا برابر، ئوزینی ظالملرك ظلملندن ساقلاماق ایچون جنگلی‌لرك یانیندا گیزلنمك اولار؛ بو یول چوق اوزاق و چتین ایدی. حسنك یوره‌گی غم و پشیمانیقدان آغرییردی؛ لاکن اوئوزینه بو شکایت‌سوزلری ایله یوره‌ك ویریردی.

«آی‌الله! محشر گونی من سنك قارشوگدا شکا‌یتچی اولاجاغام. من او گون دیه‌جگم که سن بزیم توپراغمزی جلادلارك و معامله‌چیلرك الینه تاپشیرمیسان. محشر گونی من سنك یانیگا چیپلاق گله‌جگم؛ اونا گوره‌ده منیم بو جرئتمه قارشی جزا اولاراق مندن هیچ بر شی آلاییلمیه‌جگسن!..

حسن؛ رشته عاشورا گونی چاتمشدی. اونك آیاقلاری چاتلایوب، یارالانمشدی. لباسی تماماً جیریلوب، توزا باتمشدی. ساچلاری بیری برینه دولاشوب، آج، سونوك گوزلری پارلاییردی. حسن بو قیافه‌ده صحرادن گلمش دەلی درویشلره اوقشاییردی. هر طرفدن:

– یاحسین! یاحسن!

سوزلری ایشیدیلیردی.

آقشام ساعت آلتی اولمشدی. گوگك یوزی آل قیرمیزی شفق ایله ئورتولی ایدی. حسن اویله گمان ایدیردی که بوتون ئەولری، دیوارلاری، داشلاری و آغاجلارك یاپراغینی امامك قانی بویامشدر.

ئه گری ودار کوچه‌لرك‌اوزه‌رینده، بیگلرجه آیاقلارك قالدیرمش اولدیغی قوجاق – قوجاق توزلاردا قیرمیزی

رنگلی گورونیردی. بو توز، انسانك گوزلرینه آغزینا بورونینا دولوب، اذیت ویریردی. حیوانلارك اوزه‌ریندن آسیلمش زنك و زینقرولارك سسی دسته دسته میدانه طرف یوروین اهالینك فریاد و ناله‌سنه قاریشمشدی. دار کوچه‌لرده برك باسیریق ایدی. انسانلار؛ پوزغون هوا و ایستی‌نك تاثیریندن چین نفس آلیردی. چیپلاق باشلار اوزه‌رینده ایتی خنجرلر پارلاییردی. سانکه بونلارك باشینك اوستندن هواده خیردا شیشه پارچالاری توللاییردیلار. ده‌وه‌لرك ساری کوه‌نلری آهسته - آهسته یر قالانیردی. اللر اوستنده یوقاری قالدیریلمش کورپه اوشاقلار آغلاییردی. دسته‌نك قارشوسندا آل - الوان پارچالار وگوزگولر ایله به‌زه‌نمش توغ و سلله‌لر گه‌ز دیریلیردی. بونلارك آردینجا قاسم اوتاغلاری، (ماتم کجاوه‌لری) و اوزه‌رلرینده قزیللی پنجه سانجیلمش أه‌لملر و بایراقلار آپاریلیردی. هر طرفده قرآن یازیلاری ایله به‌زه‌نمش قارا و قیرمیزی بایراقلار یه‌لله‌نوب، مختلف کجاوه‌لره توغلار وقاسم اوتاغلارنیا قاریشیردی. ایشکلرك یانلاریندان آسیلمش زوربا طبللرك غملی گورولتوسی عمومی سسه قاریشمشدی.

هر یاندا قزیل قانه بویانمش و آغریدان آرتیق اذیت چیکن. هیجانلی صفتلر دوتقون سسله: «یاحسین! یاحسن!» دییوب فریاد ایدیردی.

میدانك بر طرفنده، هورکمش قویون سوروسی کبی قارا چارشافلی آروادلار توپلانمشدی،

اونلار؛ دخی یاس علامتی اولاراق ئوز اوشاقلارینا آغ کونیه‌ك گیدیرمشلردی.

هیجانلی صورتده دیتره‌ین بر اه‌ل اوزانوب ایتی و اگری پیچاق ایله‌چوجوغلارك چیپلاق‌باشلارینی چه‌رتیردی. دوتقون رنکلی‌قان دامجیلاری آقوب، چوجوقلارك یومرو صفتلرینی و آغ کفنلرینی بویادی.

گورونتولی سس ایله مرثیه‌اوقویان سینه‌زن دسته‌لری‌ده گه‌زیردی.

حسن، ئوز یاننـدا شاخسی گیدن بر شخصك الیندن خنجرینی آلوب، ئوز سینه‌سینی چیزدی. شدتلی آغری سانکه یگیدن اونا قوت‌ویردی. او؛ ایشیقلانمش گوزلری ایله اطراقه باقماغا باشلادی:

قانلی یارالار، قانلی‌خلعت پارچالاری، اوزانمش صفتلر، سانکه هوادا برشی دوتماق ایسته‌ین قاتلانمش بارماقلار، ئوز باشلارینی‌یاران‌یوزلرجه انسانلارك دهشتلی گورونوشی، وحشی، باغیرتیلار ایله یورولوب بره ییقیلانلار و نهایت ئوز بدننك آغریسی، سانکه اونی یر یوزیندن یوقارییه قالدیرمشدی؛ بو منظره‌نی گورن حسن ئوز دردینی اونوتمشدی؛ او ئوزینی ساقلایابیلمه‌دی.

بونا گوره حسن‌ده خلقك آقینتیسینا قاریشوب، ایله‌ری گیتمگه باشلادی. باشقالاری‌دا بونك آردینجا یو گوردیلر؛ او باغیردیقجا، باشقالاری‌دخی‌اونگله برابر باغیریردیلار.

- امام‌حسین‌وامام‌حسن‌خاطره‌سی‌ایچون‌اسیرلره آزاده‌لك!

هر ایل عاشورا گونی بویله اولیردی. بو قاعده‌نی یاقشی بیلن‌سربازلار قاباقجا بر - ایکی نفر آز گناهلی محبوسلاردان چیقاروب حبس‌خانه‌نك قاپوسندا ساقلاردیلار؛ بو وقت بورایا هجوم ایدن دسته‌نك برینجی طلبی اوزره درحال اونلاری براقاردیلار لاکن بودفعه اهالی طلب ایتدی که حبس‌خانه‌نك بوتون قاپولاری آچیلوب یرده قالان محبوسلاردا براقیلسین. یوزلرجه آغ کوینه‌ك یارالی باشلارینا ووروب، فریاد ایده - ایده حبس‌خانه‌نی دوره‌یه آلمشدیلار. بونلارك‌قارشوسنیا بر دسته سرباز چیقدی. قارشودا دوران ضابط اهالیه داغیلماغی امر ایتدی.

لاکن اونك سسی اهالینك هیجانلی باغیرتیسی آلتندا ایشیدیلمه‌دی:

- حاجی زاهدی بزه ویریگز!

بو شخصك کیم اولدیغنی بیلمه‌دیگی حالدا حسن‌ده اهالینك سوزی ایله یومروغینی‌هوادا اوینادوب باغیریردی.

- حاجی زاهدی بزه ویریگز! او؛اویله برك چیغیریردی که سسی تمامیله باتمشدی. اونك بوغازیندان یالگز ضعیف، دوتقون سس ایشیدیلیردی.

بوندان سوگرا قاپولارا دوغرو هجوم ایدوب، سربازلارك سلاحلارینا أه‌ل اوزاتدی ایسه هیچ برمانع گورمه‌دی؛ بیرده گه‌ری باقدیقدا گوردی که‌حبسخانه‌نك قاپولاری آچیلمش وخلق، قانلی آغزینی آییروب دوتغون سس ایله:

- حاجی زاهده آزاده‌لك ویریگز!

دییوب بونك یانلاریندان یو گورورلر.

حسن حبسخانه‌نك هه‌یه‌تنی کیچوب، داش پیلله‌لری چیقدی، بورادان بر قوریدورا گیرب اونیدا کیچدی. بوندان سوگرا ایکنجی و اوچنجی‌قوریدوری‌دا کیچوب، بر آغیر قاپونی آچوب؛ دایاندی.

گونشك آل شفقلری، یوقاریدا اولان پنجره‌نك‌ده‌میر شبکه‌لری آراسندان کیچوب، اونك یوزینه دوشدی. او؛ بر زمان هیچ شی گورمه‌دی. اونك قاباغینا اوزون بر قارالتی چیقدی.

حسنك آرقاسندا دوتقون نفس آلیردیلار:

– بورادا کیمی آقتاریرسگز؟ دییوب اوزاقدان بر سس ایشیدیلدی.

حسن دیکسینوب، گەری چکیلدی و قاملی کوپوك ایله دولمش آغزینی آچوب یاواشدان دیدی:

– ییز حاجی زاهدی آقتاریریق...

بو وقت قوەتلی بر اەل حسنك چیگنیندن یاپشوب، قالین قاشلارك آلتندا پارلایان قارا گوزلو انسان صفتی اونا یاقینلاشوب ساکت و قوەتلی سسله دیدی:

– فرنگیلرك غدار دشمنی، شاعر حاجی زاهد سنك قاباغیگدا دوروبدر.

حسن؛ سوگرالاری جاندان آرتیق سەودیگی انسان ایله بوسیاق تانیش اولدی.

حاجی زاهد اونی بیراقمادی. او؛ حسنی انزلیيه آپاروب ئوز بالاجا ئەوینده ساقلادی بو شخص نقشکار اولوب، برآرودی و دورت یاشندا براوغلی ایله یاشایردی.

حسن هیچ عمرینده‌ده بر بوقدەر خوشبخت اولمامشدی. حسنك باشینا گلنلر اونا بر یوخی کبی گورونیردی. او؛ نه یارا و نه‌ده یورغونلق حس ایتمەیوب بوتون دقیقه یگی دوستینی دیگلەییردی.

زاهدك گنج آرودی، سول الینده بر بوشقاب پلاو گتیروب بونلارك قارشوسنا قویدی. آرواد ساغ‌الیله اوشاغینی دوتمشدی.

حاجی زاهد ئوز ایلك بالاسنی آروددان آلوب حسنه گوسته‌ردی.

– گول– گوله باق؛ هر زمان بر ایش باشلایاندا اوشاقلارا باق! بز یالگز بویله کورپه بالالارك خاطره‌سی ایچون ئوز جانمزی قوربان ویروب، اذیت چیکیریك، شعرلر یازوب، دوشماندان نفرتلنیریك! بیز آنجاق بو چوجوقلارك خاطره‌سی ایچون‌در که‌سوگنجی و وروشمادان اوتری حنجرمزی ایتیلەییریك! حسن، سن بو گوندن منیم قارداشیم ساگ! ایمدی آل منیم اوغلومی قوجاغیگا و سوز ویرکه من ئولندن سوگرا اونا آتالق ایده‌جگسن بو گون من آزاده‌یم، لاکن کیم بیلیر؛ بلکه صباح ینه حبس‌خانه‌ده یاتوب و یاخود ئولدیم...

حسن گول– گولی قوجاغینا آلوب دیندیردی؛ لاکن چوجوق اونك صورتندن و اوزون قاریشیق ساچلارندان قورقوب، آغلادی. آناسی درحال اوشاغك یانینا گلدی. حاجی زاهد سەوینوب، بەر کدن گولدی. بوندان سوگرا او قوناغی یمکه تکلیف ایدوب دیدی.

– ایمدی گەل، چورەك یەك. سن چوق آرتق، گنج و ساغلام اولدیغك ایچون یمگدن بویون قاچیرماز ساگ! سکینه، سنده گەل بیزیم ایله اوتور. بو منیم یگانه آرواديم‌در. دوستیمدان گیزلین اولماسین که من اونی چوق سەویرم و ئوزیمی‌ده چوق خوشبخت سایيرام. سکینه! آت چادراگی باشوندان؛ سنك کوزەللیگك قوناغمزی تحقیر ایتمەز؛ سنك‌منه قارشی بسله‌دیگك محبتك ایسه اونی، پیس فکرلردن داشیندیرار. اوزون مدت حبسخانه‌ده قالدیقدان سوگرا، ایمدی من ئوز عائله‌مك و یاقین آداملاریمك یانیندا ساکت‌اوتوروب، صحبت‌ایتمك ایسته‌ییرم. من اونلارك سەوینج، گولوشارینی گورمك ایسته‌ییرم، چونکه بزیم صحبتمزده، یوره گمز کیبی شاد اولاجاقدر.

بر آزادن سوگرا بونلارك هر اوچی خالچه اوستنده اوتوردیقلاری حالدا نوبت‌ایله اللرینی ایستی پلاو نیمچه‌سنه اوزادوب چیکیردیلر. یمك قورتاردیقدان سوگرا حاجی زاهد یوزینی حسنه چەویروب تکرار دیدی که «بوگون‌دن اعتبارا بو ئەو سنگ‌در!.» بوسوزلردن سوگرا چوجوغا یاتماق ایچون یر ویردی.

حسن قولتوغندان ئوز جای نمازینی چیقاروب، یوزینی قبله‌یه چەویردی و شام نمازینی قیلدی.

بر نیچه گوندن سوگرا حسن؛ حاجی زاهدك دوغما قارداشی ملکدار حاجی مبارکك کورپسینده حمالیغا باشلادی. مبارك زاهددن بش یاش بویوك ایدی.

بونلارك هر ایکیسی بر عائله‌ده دوغولوب، بر آتانك اوغلانلاری ایدی. بونلارك آناسی انزەلی اهالیسیندن اولوب زرگر و نقشکار ایدی. بونلار؛ اوشاق وقتنده انزەلینك چامورلی کوچه‌لرینده اوینایوب، (پیره بازار) چایندان بالق دوتاردیلار؛ بوندان باشقا شهرك اطرافندا کی باغلارا گیدوب اورادان پورتاغال و اریك (قایصی) اوغورلاردیلار. لاکن بوبودیکدن سوگرا هرەسی بر یول ایله گیتدی، مبارك آتاسینك صنعتنی خوشلامادی. او؛ دولتلی بر (بزرگان)ك کاروانی ایله طهرانه گیتدی و بیر آزدان سوگرا ئوزی‌ده تجارته باشلادی. او؛ حاکم و آغاسنك تاثیریندن قورتاروب، انزەلی‌ده ئوزی ایچون ئەو تیکدی و اك مشهور آداملاردان سایيلماغا باشلادی. بر آزدان سوگرا بر میوه باغی آلدی. بوندان سوگرا پیشکشلر ویرمك ایله آخوندك رغبتی قازانوب، قانون اوزره هر جوره ویرگی و توجیلردن آزاد ایدیلن وقف یئرینی اجاره‌یه گوتوردی. گیتدیگجه مبارکك

حرمتی و شهرتی آرتوب،دولتلندی؛ طهران ایله تجارته باشلایوب، رشتده بر قیش ایوی آلدی. بوندان باشقا قاسپی دکزینده گمی آلوب، کاروان ایچون آت و ده‌وه ساقلاماغا باشلادی. بو قاعده ایله زاهد یوقسول زرگر و شاعر قالدیغی حالدا زاهدی مجلسه عضو سه‌چدیلر.

حسن مبارکی یالکز ایکنجی دفعه گورمشدی. قیزغین گونش آتندا گورولن آغیر ایش نتیجه‌سنده دایانوب دویونجا اطرافه تماشا ایتمك ایچون مجالی یوقدی. سحردن آقشامه کبی زاوالللی گمیلره دوشوب، کورپیه یوك داشیماقدا ایدی. طالیش داغلاریندان یکیجه چیقان گونشك ایشیغی گوك ده کز یوزه‌رینه‌دوشوب، آل الوان رنکلر ویردیکی زمان حسن ئوزایشینه باشلاییردی. سوك زمانلار او: گیجه‌لری‌ده چالیشیردی.چونکه نه‌دنسه انگلیزلر ئوزحربی لوازماتینی رشت و میانه‌یه داشیماغا تله‌سیردیلر؛

ایمدی داها حسن تمامیله (مارو)نی اونوتمشدی. او اوز ایشنده ته‌رله‌دیکجه، باشیندا کی باشقا خاطره‌لربده یاددان چیقوب گیدیرلردی.

بوندان باشقا عادت ایتمه‌دیکی آغیر ایش، اوللری اونی چوق یوریردی. یالکز سفالت زمانی به‌رکیمش اولان بدنی‌وساغلاملیغی اونکا خسته‌لنمه‌سنه مانع‌اولوردی.

آقشاملار، مازدان سوکرا استراحت زمانی ئوز یکی دوستی حاجی زاهدك اینجه صنعتینه تماشا ایدیردی.

سودا بوغولان ایت بالاسینی نجات ویرمش بر آداما ایت بالاسی نه‌قده‌رراضی وممنون بیرنظرله باقارسا، حسن‌ده حاجی زاهده اویله بر مهربان نظرله باقیردی.

او؛ شاعری سوك دره‌جه سه‌ویردی،اونکیوره گنده عشق حسیاتی یکیدن برلشمشدر.

بیتمه‌دی.



ای ایشجی شرق قادینی.

ای ایشچی شرق قادینی
یوکسه‌لت شرقك آدینی

حریت آلمش قادین
سعی‌ایت یوکسلسین آدیك

معارف ایچین چالیش!
درسه مکتبه آلیش!

آت باشیکدان چادرانی!
گور بو ایشیق دنیانی!

حریتك قدرین بیل!
یاتماق زمانی دکل!

سوسیالیزمك گونشی،
دوزه‌لده‌جك هر ایشی!

قاپیتالا قیل نفرت،
سویله یاشاسین زحمت!

گلبکز خانم ابراهیموا،

قوتقاشین

قوتقاشین کندی‌قضامز کزیندن 105 ویرست آرالیدر. کند لیلرك مدنیت‌سویه‌لری باشقالارینا نسبت‌یوکسك درجه‌ده‌در. بو کنده وارد اولان هر برکس بو حقیقتی شخصا تصدیق ایده بیله‌ر.

کندك قیز واوغلانلارا مخصوص ایکی مکتبی وار؛ معلمه و معلم بو مکتبلری اداره ایدیرلر. قادین قلوبی، اوشاق میدانچاسی، ماماچا، خسته‌خانه... تورك قادینی اسارتدن خلاص ایده‌جك آمللربونلاردان عبارت‌ده گلمی؟.. قوتقاشین‌ده شورا اداره‌لریده اوز قاعده‌سیله ایشله‌یورلر دائره شوراسی، قوئوپیراتیف، بانق و سائره... بو کنده کی‌فرقه ئوزه گیده‌اوزینی تانیدیرمش‌ئوزه گلردن بیریسیدر. ئوزه گده کی‌قادینلاردان 15 نفری‌تورك قادینی‌در.

ایکی طرفدن اوجا داغلارك آراسیندا قیسیلوب و دورت طرفدنده قالین میشه‌لر آراسینا آلنمش قوتقاشین، طبیعتجه گوزه‌ل منظره‌لی، یوره‌ك آچان کندلردن بیریسیدر: حتی یای آیلارینده بورایا یایلاغا گلنلرده آز اولمیور...

قوتقاشین‌ك جغرافیجه قورولوشی تازه اصولده سالنمش کندلر کیبی‌در. ایولرك هم‌یه‌تلری بویوك، کوچه‌لری گه‌نیش و هر طرف یام ـ یاشیل آغاجلق و گوگه‌رتیلی باغلیق در. اوجا داغلارك أته گلرندن شاریلتی ایله آجیقلی صورتده آقان خیرداجا چایلار قوتقاشینی چالین ـ چاپرازینا سیر ایدوب صوگرا میشه‌لرك آغاجلاری آراسیندا پارچالا نوب یوق اولیرلار. یاز آغزی آچیلدیمی، قوتقاشین کند‌لیلری بوچایلارك «هجومندن» اوزلرینی قووراماغا آماده دورورلار.

قاباقکی زمانلاردا نوخادان قوتقاشینه بویوك بیرشوسه یولی چیکیلوب ایمش؛ لاکن یول صاحبسز قالوب، و «آجیقلی» چایلار داخی بوشوسه‌دن اوطرفه بوطرفه آشدیقدا اونی دار ـ باداغین‌قویوبلار. یول اوزونی گیتدیکده بو شوسه‌دن آنجاق بعضی‌نشانه‌لر، و دوزه‌لیگلرسنه‌راست گه‌لیر.

گورینور که اوزمان‌بو شوسه یولینك هر ایکی طرفنده‌جرگه ایله قوز آغاجلاری أکیلوب ایمش؛ آنجاق اوآغاجلیقلاردان بعضی یثرلرده بیر نیچه‌سی بو چاغاجان یاشایوب، یاز آچیلدیقدا یاشیللانوب گلوب گیده‌نلر ایچین اوز کولگه‌لیگلرینده گوزه‌ل‌بیر استراحت موقع‌لری تشکیل ایدیرلر.

قوتقاشین‌ده یاووقلاشدیقجا قوز آغاجلارنیك گوزه‌ل خیابانی اوزاقدان فوق‌العاده مراقلی وشاعرانه بیرمنظره‌یی تصویرایدیر. بوطرفلرك‌شوسه‌یولداسلامت‌قالمشدر. انسان‌باقدیقجا فرحله‌تیر، یاووقلاشدیقجااوزینی گوزه‌ل طبیعتك آغوشینده حس ایدیر. قوتقاشین یاریم ویرستلیگینده بوبوك برمیدانـ نجاداچوق هوندور و قوجا آغاجلار و قارانلیق کولـ کوسلیق نظری جلب ایدیر؛ سانکه الك و حشی حالنده قالمش، مدنی انسان نفوذیندن اوزاقدا قالمش یابانجی بیر اورمانلیق‌در.

قوجامان آغاجلارك بعضی‌سی بوگری اوسته یقیلمش؛ بعضی‌سیده عصرلرجه عمر سوروب یورولمش و صوك نفسلرینی آلیرلار. بوراياچوق آز کیمسه‌لرك‌یول‌لی دوشه‌ر...

بوراسی قدیم بابالاریمزك مزارستانی‌در. بیر زمان بورادا عصرك الك قوجا و متعصب بیر «مقدسی» دفن ایدیلوب ایمش. اوقوجامان آغاجلارك بیریسیده بو«مقدس» مزار قارشوسیندا دیز چوکمشدر. آغاجك بوتون شاخ‌بوداغ‌ری رنك‌به‌رنك لون ـ لون جیندیر و قایتانلار ایله به‌زه‌نمشدر. دیمه، بوراسی بیر«پیر» ایمش! اولاد ایسته‌نلر، اوزون‌خسته لیگلره دوتولانلار، عشق بلاسینه مبتلا اولانلار، دشمن جفاسینی‌چیکه‌نلر؛ زیارت آرزوسیندااولانلار... هپ بوکیبی محتاج، مغموم‌و مایوس اولان بیچاره، عوام‌« جاهل، علمسزو تربیه‌سزتورك‌قادینلاری بو«پیر»ك زیارتینه گلوب‌عبادت و استغا ثه‌لردن ـ وگرا کمال صدق قلب ایله نذر ایدوب‌بوقوجامان آغاجابیر پارچا اسکی باغلیوب آرزولارینانائل‌اولاجاقلارینا محکم اعتقاد ایله بورادان آیریلیرلار... نه‌ایتمه‌لی! علم، مدنیت ایشیغی اولمایان یثرده، صنفی مبارزه دوشونجه‌سی ضعیف اولان کتله ایچه‌ریسنده انسانلار هپ بوجور حیات سورمکده‌در.

بودر، همان متعصب اعتقاد وکور ـ کورانه تقلید قوربانلاریندان بیریسیده بیزیم گوله‌ر یوزلی حمای ایمش..

گنج یاشلی گوزه‌ل حمای، چارشافی آلتیندا، تیره‌ك دوداقلاریله، مابوس‌اللرینی«قاضی الحاجات» قاپوسیناقالدیروب، ایری و آلا گوزلرینden ایکی داملا حاجت یاشلاری آقیداراق، قلم بارماقلاریله همان قوجامان آغاجا اودا باشقالاری کیبی «ندر» قایتانینی باغلیوب تله‌سیك ایوینه قاییدوب ایمش.

حمای‌ك دیله گی نه ایمش؟.. نه مقصدله بو «پیره» صدق باغلیوب بونی أمان مأواسی بیلمشدر؟ حمایی‌تانیماق ایسته‌رسیگزمی؟. حمای، قوتقاشین‌ده بیر کندلی قیزیدر.

گونلرك بیرینده اوز کندلی حیاتنده، اوز هم کندلیسی اولان شیر علی آدینلی بر قومسامول ایله راست گلوبدر. او ـ بونا، بودا ـ اونا دقله باقمشلار...

بو باقیش نتیجه‌سیز قالمامش؛ تکرار، یه‌ده تکرار بویله باقیشلاری هر ایکی گنج حس ایتمکده ایمشلر. حمای قومسامول شیرعلی‌نی بولاق باشیندان باشقا هارادا گوره بیله‌ردی؟..

گیزلی، گیزلی گوروشمه‌ك... آخردادا سه‌ویشمه‌ك!.. نه ایده‌سنکه بو سه‌ویشمك حمای ایچین سعادت ده گل، بلکه‌ده‌ندامت‌و بویوك بیر غصه و پشیمانچیلق گتیره‌جکدر.

اوشاقلیقدان آنادان — یتم قالمش حمای آنجاق آتاسینك حمایه‌سی آلتیندا بویومشدر: قوجا آتاسی حمایی اوشاقلیقندان تانیمادیغی و بیلمه‌دیگی بیر کشی‌یه آداخلاند یرمش... قز اوشاغنی چوجوقلیقدان آدلاند یرماق بلاسی بورا لارداجوق‌ده‌رین کوك سالمش بلالردن در.

قولچوماقلارك، مفته‌خور موللالارك سوزلرینه باقما! اونلار، سنك آزادلیغینك علیهنده‌درلر. اونلارشورا حکومتنك ایشچی کندلی قادینلار حقنده بتون دنیاده اك یاخشی اولان یکی قانونلارینك علیهنده‌درلر.

حمای 16 یاشینا چاتارکن آتادان یتیم قالیر. پرستار سیز قالمش حمای البته گرمك آتاسینك روحنی اوزیندن راضی سالسون...

عرف و شریعته عاق اولماماق خاطره‌سینه علاجسز قالوب سه‌ومه‌دیگی آداخلی‌سینا اره گیتمگه مجبور قالیر.. اوزون — اوزادی یالوارماق‌لار، گوز یاشلاری حمایی بو بلادن قورتارا بیله‌ریمی؟

البته یوق، چونکه عرف‌وعادت اژدهاسی‌چوق گوجلیدر. قرق بارماقلاریله عوام و جاهل‌لرك... دوشونجه — لرینی ساربمشدر.

بودر، گوزی یاشلی، مایوس باقشلی حمای «زاقس» اداره‌سینه نکاح یازیلماق ایچین اذن‌ویرمگه گتیریلمشدر. بورادا دائره قادین تشکیلاتچی‌سی حمایك یورمك سرینلدن خبردار اولوب ایسته دیگی وقت اوز حقوقلدان استفاده ایتمگه قادر اولدیغنی اونا آکدیریر... «شورا اصول اداره‌سینده بو کیبی‌جبری‌نکاحلارا یول‌ویریلمه‌یر!.. هیچ کس حمایی سه‌ومه‌دیگی بر کشی‌یه اره‌ویره بیلمز!..» یوسوزلر حمایی دوشوندیریرسه‌ده لاکن داها‌ایش ایشدن کیچمشدر. تری بساطی قورولمش، بویوك خرجلر قویولمش، نکاح باغلانمشدر...

حمای چوق بویوك اذیتلر و روح عذابلارینا قاتلاشوب یالیکز ایکرمیجه گون اوزاه‌رینك ایوینده یاشایا بیلر... ایکرمی گونلیك تازه گه‌لین یه‌ده «زاقسا» اوز اختیارینه گلوب طلاقنی اوقوتدیریر.

حمای آزاد در؛ حمای اوزی اوز یاشایشنی ایسته‌دیگی کیبی قورماق ایسته‌یبر... حمایدا باشقالاری کیبی شورا لار حکومتینك قادینا بخش ایتدیگی حقوقدان استفاده ایتمك ایسته‌یور...

بودر، حمای چوقدانبه‌ری یوره گینده گیزلین بسله‌دیگی فکر و آمالینا تابع اولاراق قامسامول شیرعلی ایله حیات یولداشلیغی تمنی قویور...

نه ایده‌سنکه، حمایك خوش گونلری، آزاد یاشایشی اوزون چیکمه‌یثر؛ سعادت یولدوزی تیزلیکله قارانلیق پرده‌لر آلتیندا گیزله‌نیر... میشه‌یه آوا چیقمیش شیرعلی ناگهانی بر گوللهایله یارالانوب وفات‌ایدیر..

حمای ایچین ایکنجی دفعه اذا و اذیتلر دورانی باشلانیر...

حمای اوز امرینك بویوك قارداشی‌نك تحت حمایه سینده قالیر...

بو،شریعت وعرف‌قانونلارینی مقدس‌حساب ایده‌ن‌طمعکار بیر شخصدر... ظاهرا او، ایسته‌میرکه «اونك قارداشی آروادی باشقا ایولره گیدوب باشقا کشیلره آرواد اولسون!..»

اصل حقیقتده ایسه حمایك آتاسیندان و امرینلن‌قالمش‌مال و مخلفاتی آلیندن چیقارتماق ایسته‌میر... «نه تفاوتی قاردا شم اولماسین، اوغلوم اولسین، شیرعلی اولدیسه‌ده سنی اوز اوغلوما آلارام!..» دیه‌رك حمایی اوز پنجه‌سیندن بیراقماق ایسته‌میر... حمای ایسه أره گیتمك فکرینده‌ده ده گل... حمایك حتی شیرعلی‌دن حامله اولدیغی‌دا بونك بو وحشی تکلیفلرینه مانع اولا بیلمه‌یور... حمای یه‌ده تحقیراته، ظلمه و اشگنجه‌لره معروض قالیر...

دائره اجرائیه قومیته‌سی بودفعه‌حمایی یالقیز بیراقمیر.. اونی ظالملر چنگالیندن خلاص ایده‌رك ایشی محکمه‌یه گوندیریر...

حمای گنج‌در؛.. اونك گله‌جگی وار!.. اونی نجات ویرمك، عرف، عادت وشریعت آدینلی قورقونج اژدهالرك چنگه‌سندن اونی خلاص ایتمك، هر حالدا بیزیم وظیفه مزدر... البته، شورا زحمتکش عدلیه دیوانی قوتقاشین‌ده کی حمایی یاردیمسز بیراقمیاجقدر!..

بیز بونا اینانیریق!..

ن. تقی اووا.

قاپیتالیست ئولکه‌لرینده زحمتکش قادین یاشایشیندان.

فرانسه‌ده قادین زحمتی

بو حالدا فرانسه‌ده استحصالات مؤسسه‌لرینده چالیشان لارك 25 فائضی قادینلار تشکیل ایدیرلر.

بعضی صنایع وار که اورادا چالیشانلارك اکثریتی قادین‌لار تشکیل ایدیرلر.

مثال ایچین توقویوجی صنایعنی گوسترمك اولور. بورادا کی ایشجیلرك 80 فائضی قادین ایشجیسی‌در: کیمیا صنایعنده 61 فائض، فلیزات‌دا 40 فائض؛ اعاشه ایشارینده 70 فائض واردر.

ایش شرائطی ایسه الك منفور و عذابلی برشکل‌ده‌در.

مثال ایچین کیمیا صنایعنی گوسترمك اولار... کیمیاصنایعی زاوودلارینده قورولوش بویله‌در که بورایا تازه هوا گلمگه هیچ بر یول یوقدر. زهرلنمگك قباغنی کسمك ایچین الك واجب اولان سوت دخی ایشجی‌لره ویریلمه‌یور.

ایشجی قادینلار حامله اولدیقلاری حالدادا ایشله‌یرلر. ایشجی قادینك زحمت شرائطی اوقدر چتین‌در که حتی اوشاق سالدیرماق اتفاقلاری‌دا چوق تیز-تیز واقع اولور.

بیر نیچه زمان بوندان قاباق (قاور) محله‌سنده (شنه‌یدور)لك زاوودینده‌ا بیر ایشجی قادین أولی بیراوشاق دوغمشدی؛ بو اوشاقك بدنی تامیله گوم-گوك ایدی.

آناسی باروت قایران اعمالاتخانه‌ده چالشیر ایمش؛ بونا گوره‌ده اوز اوشاقنی تلف ایدوبدر.

یه‌یله‌جك شیلر حاضرلایان صنایعه‌ده بر چوق قادینلار چالشیرلار. ماغازا لاردا قادینلار چوق آغیر ایشلره‌ده ایشله‌یوب الك جزوی معاش آلیرلار. حاضرپالتار ساتیلان مغازه‌لرده ایشله‌ین قادین‌لارك وضعیتی هامودان فنادر.

بو مغازه‌لرده پالتاراولچمگدن اوتری مخصوصی اولاراق قوللوق ایدن قادینلار همیشه تازه و باهالی پالتارلار گیمگه مجبوردرلر. بونا گوره‌ده اونلارك معاشلارینك چوق حصه‌سی یالکز پالتارلارینا صرف ایدیلر؛ و یاشایش ایچین چاتمیور. بو مغازه صاحبلرینك حیاسیزلیقلاری بر درجه‌ده در که ایشجی قادینلار اونلاردان زحمت حقلرینك آرتریلماسینی خواهش ایتدیگده مغازه صاحبلری استهزا یانه گولوب بویله طعنه ایدیرلر:

-عزیزخانم! بو گوزه‌ل صفت ومرطوب بدن که‌سیزلك‌در، کناردادا مواجبدن آرتیق پول قازانماغا همیشه قادرسیگز!...»

بو سوزلرله‌ده مغازه صاحبلری اوز ایشجی‌لرینی فاحشه‌لیگه دلالت ایدیرلر.

قیمتلر گیت-گیده آرتیرلار. عائله‌ده أمر و آرواد ایشله‌دیگلری حالدا ینه‌ده معاشلارینا چاتمیور. قادینلار آراسیندا ناراضی لیق چوغالماقدادر.

ایشجی قادینلارك معاشی آرتیرماق مسئله‌سی اوستنده دفعه‌لرله چاغیرمش اولدیقلاری عمومی اجلاسلار بونلارك هیجانلی حال‌لارینی ثبوت ایدیر.

بو سوك آیلاردا قادینلارك دوشونجه‌لری‌یو کسلمگه‌در.

بو آخر کی یاریم ییلده وقوع بولمش تعطیل‌لرك چوغیندا قادین‌لار بیرنجی صیرادا گیتمگده‌درلر؛ و بزده وجدان ایله تصدیق ایده بیله‌ریك که قادینلار تعطیل حرکاتنك باشیندا دورورلار.

ایشجی‌لر و ایشجی قادینلارك آراسیندا ناراضی‌لق حسیاتی قابارماقدادر. بیزده جالشیریق که قادین‌لار آراسیندا کی ایشی جانلاندیرا؛ چونکه قادین‌لار اوز طلبلرینك اوستنده کشی‌لردنده آرتیق جدی‌صورتده مبارزه آپارماغا حاضردرلر.

بیزیم نجات یولومزی ایشیقلاندیران سیزسیگز!

(چه-سلاواق‌دان)

بیزیم توقویوجی فابریقالاردا چالیشان فعله‌لریمز چوقدانبری اوزلرینه بر ایو آلوب اورادا استراحت وقتلرینی کچیرمك ایچون بر مرکز تشکیل ایتمك ایسته‌یوردیلر.

اونلارك بو ایسته‌کلری آنجاق بیر گوزه‌ل آرزو اولاراق یوره‌کلرینده قالمش‌ایدی.

بیزیم چه-سلاواق فعله یولداشلاریمز شورالار اتفاقینا گیدوب اورادا گوردیگلری قهرمانانه نائلیتلری و ترقیلری نقل‌ایتدیگدن سوکرا بیزده عبرت آلوب اوز قصدیمزه نائل اولاجاغمزی محکم رای ایله قرار قویدیق.

«طبیعت دوستلاری» آدینداا بر قوئوپه‌راتیف تشکیل ایدوب (ایسه‌ر) داغلارینداا بر یر آلوب «استراحت‌ایوی» تیکمك قصدینده اولدیق.

بز مادی جهتدن بر اوقدرده وارلی ده گلیك؛ وبزه

کومك ایدنلرده یوقدر، اوناگوره‌ده سیزده اولان(سوبیو تیق)لر کیبی بزده (ووسقره‌سه‌تیق)لر دوزه‌لدوب اوزیمز ایشه باشلادیق. حتی‌یکشنبه‌دن باشقا گونلرده‌ده ایشله‌یبردیك و بتون قوه‌مزله ایوتیکمك خرجنك اکسیلمه‌سینه چالیشیریق بو(ووسقره‌سه‌تیق)لرده کشیلر و آروادلار بیرلیکده چالیشیردیق. اوزیمز اوزیل قویوب لازم اولان میدانچا تعیین ایتدیك، داغلاردان تاچقالارایله‌داش‌داشییردیق. حتی‌یکشنبه گونلرینی بتون گونی‌پورادا چالیشیریق. آروادلار بورادا کی‌مطبخده قوللهقتیوایله‌یونگول‌نهاروچای‌ی حاضرلایوب کشیلره ویریرلر.

اوزیمزك آز زحمت حقمزدن برحصه آیروب بوایوی تیکمگه چالیشریق و اینانیریق که بو ایو بیزیم ایچین گله‌جکده فعله و شورا حکومتی‌نك قورولوشی ایچین بر نجات اوجاغی اولاجاقدر.

بیز ایشجی قادینلارك زحمت حقی چوق آزدر.

من اوزیم 19 یيل‌در که فابریقادا ایشله‌یورم.هفته باشینا من 130قرون آلیرام. (هر 18قرون‌بزیم‌بیرمناتمزا مقابل‌در). اك باجاریقلی فعله هفته‌ده 200 قرون آلابیلر. ایشجی قادینلار 125قروندان آرتیق آلابیلمیرلر.

بورادا چوره‌گیك هر کیلوسی سیزك پولا½ 5 قیمکدر. پالتار قیمتی سیزدن اوجوزدر. بونك‌دا سببی‌اودر که بورادا توقویوجی فابریقالار رایونی چوقدر.

فعله‌لر تماماً سوادلیدرلر. 6 دان 14 یاشینا قادار بتون اهالی‌مجبوری‌تدریس‌اوزره تحصیلده‌در. سوادسیزلار آنجاق آنجاق 5فائض تشکیل ایدیر.لاپ تنبل وفراستسیزلردرس اوقومیرلار. فرقه‌قومیته‌سی آچیق آیدین‌ایشله‌یور.لاکن‌قامسامول تشکیلاتینه اذن‌ویریلمه‌مشدر. فرقه قومیته‌سنك بیغنجاقلارینا گیده‌ن ایشجی قادینلاری‌تعقیب‌ایدیرلر. بزیم فعله‌لر ایمدی داها فرقه قومیته‌سینه وقامسامولاباشقا نظرله باقیرلار...

اونلارك باشقافرقه‌لره اعتمادلاری یوقدر. بیزلرروسیه‌ده اولدیقمز زمان سیزك تصرفاتگزك فرقه قومیته‌سی رهبرلگی آلتنداندرجه‌ده یوکسلمش‌اولدیقنی اوزگوزیمزله گوردیك:

سیزك ئولکه‌یه گلمش نماینده‌لر هیئتی بیزه برچوق فائده‌لی معلومات گتیرمشدر.

بیز بوراسینی بیلمشیك که فعله‌صنفی‌نك قاپیتال‌اسارتندن خلاص اولماسی یالیگز فعله‌لرك الیراولاراق آپاردیقلاری مبارزه نتیجه‌سنده ممکن اولاجاقدر.

بتون ئولکه‌لرك بین‌الخلق بیرلیکلری بیزیم مبارزه مزی غالبیت ایله نتیجه‌لندیره‌جکدر.

بیزده، سوسیالیست شوراجمهوریتلری اتفاقینك فعله‌لری کبی‌غالب گله‌جکز:سیزك‌تجربه‌لردن‌بیزده استفاده‌ایده‌جکز!

سیزك بو تجربه ، بیلیکار گزدن چه‌ـسلوواق فعله و ایشجی قادینلاریدا لازم‌اولان ساعتده استفاده ایده‌جکلر.

آننا بواود.

خه‌ینخه‌ین شهری.

لوندون خرابانده یاشایش.

بدن تربیه‌سی و طنطنه‌لی یاشایش مرکزی‌حساب‌اولونان اینگلتره پایتختی (لوندون) شهرینده بو شعشعه‌لی و فرحلی یاشایش‌ایله یاناشا اولاراق تصویری‌ممکن اولمایان درجه‌ده یوقسول و زهرلی حیات سوره‌نلرده آز ده گلدر.

بورادامثلی گورولمه‌مین دیلنجی‌لیك‌لره‌ده‌راست گلمکده‌اولور.

«تجارت ویرمن» جمعیتنك عضولری لوندونك بر نیچه کاسب محله‌لرینده اهالینك یاشایشنی تدقیق ایتدیکده بر چوق آجی و یورمك یاندیریجی معیشته‌ده راست گلمشلر. اونلاردان بر نیچه‌سینی بویله تصویر ایدیرلر:

«پادوال‌دا قاب ـ قاشیق یوماغا مخصوص قارانلیق و پنجره‌سیز بر اوتاق همده یاتاجاق یئریدر. بو اوتاقیك هوا ده گیشمکدن اوتری اولان باجالاری دوشمه‌نك آلتیندان چیکیلمشلر. بورادا آلتی عضودن عبارت بر عائله‌ده، آتا، آنا و دورت‌خیردااوشاقلاریاشایرلار.

بو عائله‌نیك‌ده یئمه‌ك ـ ایچمگلری، پالتار یوماقلاری و قوروتماقلاری بوراداجا واقع اولور.»

7 اوتاقدان عبارت اولان بر أیوده بر نیچه کلفت یاشایر. بونلارك 35 نفر خیردا یاشلی اوشاقلاری واردر. اونلارك 6 سی پادوالدا یاریم قارانلیق اوتاقدا یاشایرلار. 6 نیجی اوشاق بر نیچه گون بوندان قاباق باشقا خیردا اوشاقلارك گوزلرینك قاباغیندا آتادان اولمشدر. آتانی خسته‌خانه‌یه آپاروبلار و آتالاریدا ناخوشدر.

بویله یاشایش‌ایله برابر لوندونك‌باشقا حصه‌لرینده مزین و دولتلی عمارتلرده 3 ـ 4 نفردن عبارت بر عائله برأیوی، سرایی‌اشغال ایدوب عیش‌عشرت‌ده عمر سورورلر.

قاپيتاليستلر جنتده.

(ره‌ين) محالندا ،(قومه‌رسباخ) شهرينده، (زاننده‌رمان)ك فابريقاسيندا سحر ساعت 6 دان ايش باشلانير. زاوودك بر ساعت‌لك يول مسافه‌سنده ياشايان فقير كندليلرك آرواد و قيزلارى، يعنى بو فابريقانك ايشجيلرى ايشه گليرلر. بورالاردا كى كندليلرك اكين ئيرلرى اوزلرينى دولانديرا بيلمه‌يور،اونا گوره‌ده كندليلرداش چيقارتماقلامشغول اولوب آروادلاريدا توقويوجى فابريقالاردا چالشيرلار.

بو فابريقالاردا چاليشان ايشجى قادينلارك آنجاق 50 فائضى توقويوجيلارهمكارلاراتفاقلارينا داخل‌اولوب تشكيلا- تلانمشلار. قالانلارى‌ايسه هيچ برتشكيلاتدا اشتراك ايتمه- يورلر. بو سيبدنده فابريقا صاحبى اوز ايسته‌ديگى كبى بونلارك اوستنده آغالق ايدير. ايشجى قادين6 گون جديتلى و آغير ايش ايچون 16 مارقا(8منات)موزد آليرر. البته بو موزد ايله ياشاماق چوق آغير اولاجاقدر . بو طرفدنده روحانى آتالار هر هفته باشى بو فعله‌لرك ايولرينى دولانوب آج، يالاواج فعله‌لره او دنياده راحت ياشايش وعده‌لرينى ويريرلر.

هر گون ايش قورتارانا ياووق اوستالار ده‌زگاهلارك يانلارينى گه‌زوب « اوز خواهشلريله » دال‌به‌دال ايكنجى نوبه‌ده ايشله‌مك ايسته‌ين ايشجى قادينلارى سياهى‌يه گوتو- رورلر. ديلنجى‌لك قورقوسى آلتينداا اولان آج وچاره‌سيز ايشجى قادينلاردا « اوز خواهشلريله » ايكينجى نوبه‌ده ايشله‌مگه راضى اولدوقلارينى يازديريرلار.

اويله‌ده قادينلار وار كه هر گون صبح ساعت 6 دن گيئجه 11 ه كيمى آراسى كسيلمگسيزين دزگاه قاباغيندا دوروب‌چالشيرلار.بونى دانظرده‌دوتمالى كه 8 ساعت‌ايش گونى وايشجى‌قادينلار زحمتنى مدافعه ايده‌ن قانونلارك آدى‌بزيم آلمانيادا وارسادا يالگز كاغذ اوزه‌رينده يازيلوب قالمش قانونلاردان بريسى‌در. بودا آلمانيادا كى‌ده‌موقرات‌جمهوريتى اصول‌اداره‌سينك بهره‌لريندن بريسيدر.

بر آى عرضينده اوتاق كرايه‌سنى ويرميه‌نلرى قانون اوزره « شله ـ كوله‌سى » ايله برابر كوچه اورتاسينا سالير لار. بو طرفدن‌ده كوچه‌يه توللانيلانلار آچيق هواده، حمايه‌سيز قالميرلار. چونكه (كه‌لن) شهرينك پوليس‌مديرى(سوسيال ديموقراتدر) اوز دائره‌سينده كى اهالينك‌دردينه قالير(؟!). يوردسيز قادينلارايچون تاختادان قايريلما باراقلار واردر.

قادينلار اوز أمرلرينى گورمك ايسته‌ديگده پنجره‌دن چيقوب أمرلريله برابر قارتوفلى اكينلرينده چاليشماغا گيديرلر.

بو اكين‌لرده، قادينلارك زحمتلرينه قانون ايله قرار ويرياهش قيمتلردنده اكسيك موزد ويريرلر. نمايش‌ده بر قادين‌اشتراك ايتديمى، اوساعت اونلارى‌قاپوسى‌باغلى‌منزللره اوتوردير لار. منيم بر تانيشيم 37 ياشيندادر. او قادين 11 ياشيندان باشلامش (كه‌لن)ده (شتولوه‌رق) قارداشلارينك شوقالاد فابريقالارينداا قوطو قاپيران شعبه‌ده چاليشير.

باشقا بر ايشجى قادين او كسورور ايدى. بو آخر كى5 آى عرضنده‌ايكى‌دفعه‌طبيبلر قومسيونى اونى‌معاينه ايتمشدر.

او ايشجى قادين 21 ييل تمام خسته‌خانه قاسساسينا عضولك حقى‌ويرمش‌در. اونى ساناتوريا معالجه‌سينه گوتدر- مه‌ديلر و آخرده خسته‌ليگدن ئولدى.

(قه‌تى آلسته‌ر)7 آيدر كه ايشسيزدر. او مه‌به‌لى اوتاق كرايه ايدوب هر هفته‌ده 7 مارقا كرايه ويرير. ايشسيز اولديغى ايچون هفته‌ده $9\frac{1}{2}$ مارقا تقاعد آليرر. ديمه‌لى‌اونك بيمه گى ايچون $2\frac{1}{2}$ مارقا قالير.

جنوب آلمانيادا كند اهاليسى آراسيندا يوزلرله قادين و اوشاقلار تسبيحه قايرماقلا مشغولدرلر.

طمع كار خيردا آليش ـ ويريشچيلر بونلارك استحصال لارينى اوجوز قيمته آليرلار. بر عائله‌ده آتا(آاوقسبورق)دا توقويوجى فابريقادا ايشله‌يور. او، دوشنبه گونى سحر ايودن چيقوب شنبه آخشام أيوه قايديرر. اونگ ايش موزدى آنجاق ايو كرايه‌سينى اوده‌ير. آروادى واوشاقلارى ايسه ياشاماق خرجلرينى هر جوره اولورسا اولسون قازانماليدرلار. سحر ساعت 5 دن باشلياراق اوشاقلار مرجان دوزمگه باشلايورلار. اون خيردا و بير ايرى مرجانى نازيك مفتوله دوزمگله بوتون گونى مشغول اولير- لار. آنالاريدا بونلارك ياننداا اوتوروب بر ثانيه بيله ايشدن قالمايور. ايوده « عبادت سلاحلارى » حاضرلايور. تسبيح‌دوزيرلر. بو تسبيحه‌لر حساب ماشيناسينگ‌عوضنده‌در. عابدلراوتسبيحه‌لر ايله اوزلرينگ ثواب‌عملرينى‌حسابه آليرلار.

مكتبدن قايتمش اوشاقلار اوناماغا گيتمه‌يوب يده‌ده اوز ايشلرينه باشلايورلار. بر آنا 3 اوشاق 14ساعت آراسى كسيلمگسيزين ايشله‌يندن صوگرا آنجاق $2\frac{1}{2}$ مارقا موزد آلابيلير. مين‌لرله فقيروآج‌چوجوقلار گون‌اوزونى‌تسبيحه وباشقااويونجاقلارقايرماقلا جوان عمرلرينى چورودوزلر.

آلمانيادا أل صنايعنگ وضعيتى بويله بر حالدادر.

بورادا آچيندان اولمه گى قدغن ايدن برقانون‌يوقدر.

م. بليوم .

کومور معدنلرینده چالیشان فعله‌لرك آروادلارندان نماینده اولاراق شورالار روسیه‌سینه گلمش هیئت عضولرینك (مستریس ن. چه‌سته‌ر)ك اوز سیاحتی باره‌سینده‌کی معروضه‌سی
(انگلتره‌دن مکتوب)

انگلتره معدنچیلرینك آروادلاری طرفندن روسیه‌یه گونده‌ریلمش هیئت عضولرینك بریسیده (نه‌للی چه‌سته‌ر)در. تعطیل ایتمش اینگلتره فعله‌لرینه روس فعله‌لری طرفندن گونده‌ریلمش مادی یاردیملارا قارشو روس فعله‌لرینه اظهار ممنونیت ایچین روسیه‌یه گونده‌ریلمش هیئت قایدوب اینگلتره‌یه گلدی.

(نه‌للی چه‌سته‌ر)ك قایتدیغی زمان (مالتبی) محاللده قوممونیست فرقه‌سینك محلی تشکیلاتی و بیرده محلی فعله فرقه‌سینك قادین سه‌قسیاسی بویوك بیر نمایش حاضرلامشدیلار. (نه‌للی چه‌سته‌ر) بورایا وارد اولدیقدان بر ساعت کیچمش بویوك بر میتنغ آچیلوب (موره‌للی) و (فارریس) نطقلر دییوب موسیقی دخی چالندی.

میتینغ‌ده مین نفردن آرتیق جماعت توپلانمشدی. اینته‌رناسیونال نغمه‌سی چالنوب، بویوك آلقشلار ایله (چه‌سته‌ر) خطابت کورسی‌سینه چیقدی. مختصر بر نطقنده (چه‌سته‌ر) اوزینك روسیه تاثراتنی نقل ایدوب سوسیالیست شورا جمهوریتلری اتفاقنده زحمتکشلرك یاراتدیجیلقلاری باره‌سنده چوق مراقلی معلومات ویردی.

معروضه‌دن سوکرا، موسیقی دسته‌سی ایله برابر نمایش باشلانوب بورادا فعله فرقه‌سینك قادین سه‌قسیاسی اوز بایراقلاری ایله و قوممونیست فرقه‌سی عضولریده اوز قرمزی بایراقلاری ایله اشتراك ایتدیلر.

بو نمایش (مالتبی) محاللنی تماماً گه‌زوب موسیقی دسته‌سیده اینته‌رناسیونال و «قرمزی بایراق» نغمه‌لرینی چالیردی.

آخردا نمایش (چه‌سته‌ر)ك ایوینه طرف یوللاندی. بورادا (چه‌سته‌ر) ایکنجی دفعه نطق سویله‌یوب ایشچی‌لری تبریك ایتدی و یه‌ده اینته‌رناسیونال چالندی.

اوگونك آخشامی (چه‌سته‌ر) یه‌ده (کوینس خول) قلوبیندا، رقص مسامره‌سینده چیقشدا بولونوب روس فعله‌لرینك یاراتدیجی‌لیغی وسوسیالیزم قورولوشی تشکیلنده‌اًلده ایتدیکلری نائیلیتلری باره‌ده تأثراتنی سویلیوب تحسینلر اوقوبوردی.

(چه‌سته‌ر) ده‌ییردی که: روسیه‌یه گیتمه‌مشدن ایره‌لی اونا روس فعله‌لرینك گونده 10 پنس معاش آلدیقلرینی سویله‌یوردیلر لاکن روسیه‌یه گیتدوب اورادا بو شایعه‌نك قطعیاً اصلسیز اولدیغنی اوز گوزیله مشاهده ایتمشدر.

شورالی فعله‌لر روسیه‌ده دفعه‌لرله بیزیم فعله‌لردن گوزمل یاشایورلار. (چه‌سته‌ر) دون داش کومور معدنلرینه گیتدیکده اورادا گورمشکه معدنچیلر آنجاق، 6 ساعت ایشله‌یورلر؛ 16 یاشیندان کیچیك اوشاقلاری ایشه قویمیورلار؛ 16 یاشیندان بویوك اوشاقلار 4 ساعت اوقویوب، 4 ساعته‌زحمت‌مکتبنه گیدوب تحقیقی تدریسده بولنورلار؛ هرفعله ییل‌ده بردفعه 2 هفته‌لیك مأذونیت آلوب تمامیله معاشلارینی‌دا آلیرلار؛ پولسیز طبی یاردیم آلیرلار وهابیله باشقا یاردیملاردا آلیرلار...

هرگاه چارزماتنده فعله‌لرك 75 فائضینك سوادسیز اولدیقلاری نظرده‌دوتولورسا، بوحالدا اونلارك آراسیندا تمامیله سوادسیزلیقك تسویه‌ایدیلمه‌سینی گوردیکده البته انسان آرتیق حیرت ایده‌جکدر:

(چه‌سته‌ر) بیرده ایشتمشدی که روسیه‌ده مذهب آزادلیغی یوقدر؛ لاکن رفیقه‌لرینك بریسیله اوچ — دورت دفعه کلیسالره گیدوب اورادا عبادتلرده‌ده شخصاً اشتراك ایتمشدر. (چه‌سته‌ر) بونی تصدیق ایدیر که حکومت هیچ بر وجهیله مذهب ایشلرینه مداخله ایتمه‌یور. هرکس ایسته‌دیکی کبی اوز مذهب آیین‌لرینی جاری ایدیر؛ لاکن مذهب حکومت و دولت طرفندن تقاعد آلمایور، و هر بر مذهب عبادتلرینی یرینه یتیره‌ن شخص اوزی عبادتگاهلارنیك خرجینی چیکیر. و بو اصولیده اك عادی و عدالتلی بر اصول اولاراق آلقشلایور.

(چه‌سته‌ر) خصوصی اولاراق آنالیق و چوجوقلیق محافظه‌سی ایشینك دوزگون تشکیل ایدیلمه‌سینی‌ده اشاره ایتدی. هر بیر ایشچی قادین حامله اولدیقدا 2 آی دوغماقدان قاباق و ایکی آیدا دوغماقدان صوکرا ایشدن آزاد ایدیلوب هر وقت معاشینی تمامیله آلیر و دوغدیقدان سوکرا اوزی و اوشاغی ایچونده مجانی اولاراق سوت آلا بیلیر. بونلاردان باشقا هر بر موسسه‌ده اوشاقلار ایچین یاسلی‌لار داخی آچیلمشدر. بورادا ایشچی قادینلاریك چوجوقلاری بلاواسطه نظارت آلتندا اولوب بیمك — ایچمکلریده قاعده ایله معین وقتلرده ویریلمکده‌در.

(چه‌سته‌ر) نه‌ره‌یه گیتمشسه، اورادا روس فعله‌لری آرتیق مراق ایله انگلتره معدنچیلرینك تعطیل‌لرندن معلومات ایسته‌یوب او مسئله ایله سوك درجه مراقلاندیقلارینی اظهار وبیان ایتمشلار.

شورالی روسیه فعله‌لری وارقوه‌لریله انگلتره تعطیل چیلرینه کومك ایتمکه حاضر اولدیقلارینی بیان ایتمشلر. روس فعله‌لری بوراسینی دوشونمیورلر که نیجه اولوردا انگلتره فعله‌لری (توماس) و (ماقدونالد) کبی خائنلرك اوز آرالارندا قالماقلارینا راضی اولورلار.»



آنالیق و چوجوقلیق محافظه‌سی

قاپیتال بویوبوب، بورژوآزیا ایله پرولەتاریاتك آرالا- رینداکی داخلی مناقشه‌لر کسگینلشدیگجه 1 مای گونینك اهمیتی آرتوب پرولەتاریاتك بر بین‌الخلق بیرلیك و هم‌رأی‌لیك و فعله‌لرك حربی قوه‌لرینك نمایش و سیاسی آزادلیق، اقتصادی وضعیتنك یاقشیلاشماسی یولوندا آپاریلان مبارزه‌نك آچیق بر چیقیش گونی حساب اولونور. روسیه‌ده ایلك گوندن باشلیاراق 1 مای بایرامی بر سیاسی مبارزه گونی شکلنی آلمشدر. چار حکومتی هر ییل 1 مای بایرامنی پوزماقدان اوتری خصوصی قوشون و پولیس نفراتی حاضرلایوردی. بو ایش اوستنده هر ییل پولیس نفراتی ایله فعله‌لرك آراسیندا قانلی توقوشمالار اولوب حدسیز حبسلر و آقاریشلار عمله کلیردی.

روسیه‌ده 1 مای بایرامنك شعارلاری بونلاردان عبارت ایدی: جمهوریت اعلانی: عمومی و مساوی سه‌چکی حقوقی؛ دائمی اوردونك مقدارجا اکسیلمه‌سی؛ مطبوعات، کلام وبیغنجاقلارك آزادلیغی؛ عمومی، مجانی، خلق تعلیمی وسائره.

ییل به ییل 1 مای (کهنه تقویم اوزره 18 آپره‌ل) بایرامی مبارزه‌سی فعله‌لر آراسیندا انتشار تاپوب گیت - کیده ایشجی کتله‌لری داها آرتیق بو نمایشده اشتراك ایدیردیلر. و بو گونك شعارلاریدا کیت‌کیده سیاسی مضمون کسب ایدیردی.

1902 نجی ییل‌دن قافقاز دخی بو مبارزه‌یه قاریشمشدر. خصوصاً فعله آزادلیغی تاریخینه بر چوق شانلی صحیفه‌لر علاوه ایتمش باکو شهریده بو مبارزه‌ده اشترا که‌باشلامشدر.

هابیله بونیدا قید ایتمه‌لیدر که روسیه‌ده مای چیقیشلاری باشلاندیغی زماندان به‌ری بزیم ایشجی قادین و گنج‌لریمزده بورادا فعال صورتده اشتراك ایتمگده‌درلر.

فقط روسیه‌ده 1 مای گونلرینده همه‌وقت نمایشلر ترتیب ویرمك ممکن اولمایوردی. اویله‌ده ییللر اولمشکه (مثلا 1902. 1903، 1907 و 1911) چار حکومتی‌نك ظلمی، بیدادلیغی صوك درجه طغیان ایدوب فعله حرکاتنی او قدر بوغوردی که آچیق نمایشلره امکان ویریلمه‌یوب یالیگز خلوتی بیغنجاقلار، ویاکه میشه‌لرده و داغلاردا گیزلین نمایشلر یاپماقلا اکتفا اولنوردی.

1905 نجی ییل‌دن سوگرا نمایشلر آیری آیری شهرلرده واقع اولوردیسه‌ده، لاکن تعطیل حرکاتی کیت کیده وسعتله‌نیردی. او جمله‌دن 1905 نجی ییلده پتربورغدا 100.000 نفردن آرتیق فعله تعطیل اینمشدی. 1914 نجی ییلده ایسه تعطیل ایتمش فعله‌لرك مقداری یاریم میلیوندان یوقاری ایدی.

ایمپریالیست محاربه‌سی باشلاندیقدان سوگرا هر ئولکه‌ده 1 مای بایرامنی ساقلاماق فسخ اولنور؛ چونکه 2 نجی بین‌الملل رهبرلرینك خیانتلری نتیجه‌سنده اونلار فعله‌لری «هجوم ایتمش دشمنلردن وطنی مدافعه ایتمك» شعاریله آلدادوب حقیقت حالدا ایسه‌اوز بورژوآزیالارینی مدافعه‌یه ترغیب ایدیردیلر.

روسیه‌ده 1 مای بایرامنی ساقلاماق قاعده‌سی یالیگز 1917 نجی ییلدن سوگرا، بوتون شورالار جمهوریتی زحمتکشلرینك مستبد چار حکومتنك بویوندیریغی آلتدان خلاص اولدیقلاری زماندان سوگرا باشلانوب در،

بو گون زحمتکشلر واحد برانسان کیبی کوچه‌لره دولوشوب اوزلرینك یوره‌ك آچیجی فعله نغمه‌لرینی اوقویاراق بتون بین‌الخلق پرولەتاریاتا رجوعاً روسیه فعله‌لریندن عبرت گوتورمه‌لرینی تکلیف ایدیرلر.

1918 نجی ییلده شورا جمهوریتلری دورت طرفدن عکس انقلاب ایله آرالیغا آلنمشدی؛ اونا گوره‌ده بیزیم اساس شعاریمز فعله و کندلیلرك روسیه قوممونیست (ب) فرقه‌سی اطرافنه توپلاشوب بر محکم رأی ایله بورژوآزیانك هجومنی سیندیرماقدان عبارت ایدی. بو ییلده شورا ئولکه‌سی (آبلوقایا) محاصره‌یه آلندیغندان باشقا دولتلرك پرولەتاریاتی فعله‌لری شورا جمهوریتلرینك مدافعه‌سینه دعوت ایدیردی و شعارلاری‌دا بوندان عبارت ایدی. «شورالی روسیه‌دن الیگی چیك!..»

1919 نجی ییلده 1 مای شعاری بوتون انقلابی فعله فرقه‌لرینی 3 نجی قوممونیست بین‌الملل بایراقنك آلتینا چاغرماقدان عبارت ایدی. 1921-1920 نجی ییللرده بیزیم حربی جبهه‌لرده غالب گلوب یکی اقتصادی سیاسته کیچوب تصرفاتجه ایشلریمزی یو کسلتدیگمز بر زماندا ولادیمیر ایلیچ بزه بو شعارلاری ویرمشدی.

«بیز چالشمالیق که کتله‌نك کونده‌لك حیاتنده اونك دوشونجه‌سینه بویله بر مفهومی یرلشدیرمك؛ هامو برنفرك قارشوسیندا مسئول اولدیغی کیبی بر نفرده هامونك قارشوسیندا مسئول اولمالیدر!..»

1 مایدا هامو أعلینه بئیل، کوره‌ك و بالتالار آلوب عموم روسیه سوویتیقنا چیقمشدیلار. بو گونده بیز یوزقونلیغا، ناتمزلیگه ومیللیگه رحمسز مبارزه اعلان ایتدیك.

بیز 1 مایی کتله‌نك قوللەقتیو یارادیجیلیغی گونی اعلان ایتدیك.

بو گونکی بایرام و شادلیق روحنده ترتیب ویریلمش نمایشلردن باشقا پرولەتاریات حقیقی صورتده بر یارادیجیلیق دخی گوسترمك ایسته‌یور: آغاج اکمك، فعله خیابان و باغلاری سالماق.. عادی ایش وقتندن زماندان باشقا کوکللی اولاراق فعله‌لرك اوز خوشلاریلا قایریلمش پارا-ووزلاری ایشه براقماق؛ ایشسیز قالمش فابریقا و زاوودلاری ایشه سالماق و سائره...

بو ییلکی 1 مای بایرامی گرك بیزیم عموم شورالار جمهوریتی اتفاقینك سوسیالیزم قورولوشیندا کی نائیلیتلری نمایش ایتمك شعاری آلتندا کیچریلسین؛ و تصرفات قورولوشی یولوندا قارشومزا چیقان مانعه‌لری رفع ایتمك مقصدیله فعله و کندلیلرك شورالار اطرافنه داها صیقی توپلانمالاری شعاری بایراقلاریمزدا یازیلسین.

بوییل بوتون دنیا زحمتکشاری چین‌ده آرتماقدا اولان انقلابیك گیدیشنی تعقیب ایدیر. شرق خلقلرینك ملی آزادلیق یولوندا کی مبارزه‌لرینك پرولەتاریات مبارزه‌سنده نه بویوك اهمیتلی رول اویناديغنی بیز بیلیریك و او مبارزه‌ده 4 یوز میلیون اهالیه مالك اولان چینك‌ده نه بویوك موقع دوتدیقنی دوشونیریك. بو جهتدن بزیم بو گونکی شعاریمز؛ «یاشاسین چین انقلابی!..» شعاریدر.

بیز بیلیریك که بو گون دنیانك قاپیتالیستلری چینه هجومه حاضرلاشوب و بهانه آقتاریرلار که عموم شورالار اتفاقی ایاله‌ده محاربه باشلاسونلار. بونا گوره‌ده 1 مای گونی ایمپریالیستلر طرفندن حاضرلانان تازه محاربه‌لرك هده‌سی علیهنه اولاراق بتون ئولکه‌لر فعله‌لرینك بین‌الخلق بیرلیگی و هم‌رأیلیگی‌نك شعاری آلتندا آپارمالیق. بو ییل بیز اوز شعارلاریمزا بوندا علاوه ایدیریك: «یاشاسین فعله‌لرك بین‌الخلق صنفی بیرلیگلری!...»

ق.



مطبوعات گونی و ایشجی قادین

15 ییل بوندان قاباق سیبیریادا، له‌نا قزیل معدنلرینده یوزلرجه تعطیل ایتمش فعله، ایشجی قادین واونلارك اوغول اوشاقلارینی چار نیقالای یایلیم آتشه دوتدیردیغی زمان روسیه نك هامو یرلرینده بو قانلی گولله‌بارانلارا پروتست اولا راق تعطیل‌لر باشلانمشدی.

بولشه‌ویقلرك «پراودا»(حقیقت)غزته‌سی ده‌اوزمانلاردا نشره باشلامشدر. او وقت قوری سوزایله یوق، حقیقی صورتده فعله‌لرك منافعنی مدافعه ایدن بیر فعله غزیته‌سنی نشرایتمك چوق‌چتین بر ایش‌ایدی.

پولیس نفراتی گیجه ـ گوندوز مطبعه‌لرده قایناشوب قاباقلارینا گلنلری، ایسته‌دیگلری آداملاری دوتوب داملاییردیلار.

قاراداوویلار کوچه اورتاسیندا، «پراودا»نی ساتان اوشاقلاری دوتوب یوموروق، ته‌پیك آلتینا سالیردیلار. ژاندارملار حاضر چاپ ایدیلمش غزته‌لری ضبط ایدیردیلر. «پراودا» غزته‌سی 9 دفعه نیقالای حکومتی طرفندن قاپا دیلوب ینه‌ده تازه‌دن یکی بر عنوان ایله نشره باشلا ـ مشدر. گون کیچمز ایدی که او غزته‌نی جریمه ایتمه سونلر، بونا باقمیاراق غزته ینه‌ده دوام ایدیردی؛ چونکه فعله‌لر بو غزته‌یه کومك ایدیردیلر.

«پراودا» غزته‌سی برینجی اولاراق قادین زحمتنه‌اك جدی دقت ویرمگه باشلامشدر. او زمانلار قادینلاری بره ایکی‌دفعه آرتیق‌استثمار ایدیردیلر. اوستا باشیلار وصاحبکار لار اونلارا آزموزد ویروب، اوزلرینی‌ده حددن آرتیق اینجیدوب، تحقیر ایدوب، پول ایله آلنما اسیرلر کیبی اونلار رفتار ایدیردیلر. لاکن ایشجی قادینلاری ایسه هیچ کس مدافعه ایتمه‌یوردی.

«پراودا» غزته‌سی برینجی سنه دوامیه‌سنده قادین‌زحمتی و ایشجی قادینك‌وضعیتی باره‌ده 155 مکتوب چاپ‌ایتمشدی. گیت ـ گیده ایشجی قادینلار اوزلریده بو غزته‌یه یازماغا باشلایوبلار. بونلار روسیه‌ده برینجی ایشجی قادین مخبره لری حساب اولنورلار.

1914 نجی ییلده‌فیورالك 26 ینده قرار قویولمشدی که آشکار و گنیش صورتده ایشجی قادین گوننی‌بایرام ساقلاسونلار. بو گونده «پراودا» غزته‌سنده صنایع‌ده، و تجارت ساحه‌لرینده چالیشان ایشجی‌قادینلارك 20 دن آرتیق مقاله‌لری درج ایدیلمش ایدی. او مقاله‌لری یازانلار فلیزاتچیلار، توقویوجیلار، ایوقوللوقچی‌لاری، تلفونچیلار، مغازه‌لرده ساتیجیلار وباشقا ایشجی قادینلاردان‌عبارت‌ایدیلر.

غزته‌نك بو نومروسندا ایشجی قادین باره‌سنده ایشجی قادینلارك اوزلری طرفندن یازیلمش مقاله‌لردن باشقا دیمك اولور که هیچ بر باشقا یازیچی‌نك مقاله‌سی یوق ایدی.

بو گون (1914 ینجی‌ییل‌فیورالك 23 ده) «پراودا» نشریاتی اولاراق «رابوتنیتسا» (ایشجی قادین) مجموعه ـ سینك برینجی نومروسی دخی براقیلمشدر.

1914 ینجی ییلده مارت آیندا (تره‌اوقولیق) ره‌زین فابریقاسیندا ایشجی قادینلارك چوق مقداردا زهرلنمه‌لری اتفاقی واقع اولمشدی. بو مناسبتله تعطیل باشلاندی، «پراودا» غزته‌سیده تعطیل ایتمش ایشجی‌قادینلار آراسیندا بویوك تشکیلات ایشی آپارماقدا ایدی.

محاربه باشلاندیقدانسوگرا چار نیقالایك حکمیله اوزینك وبتون بورژوآزیانك زهله‌سی گیدن «پراودا»غزته سی قاپادیلمشدی. ویالیگز فعله‌لر ده‌گل، حتی ایشجی قادینلاردا اوزلرینك یگانه غزته‌لریندن مایوس قالدیلار. لاکن 2 ییل 7 آی کیچندنصوگرا، یعنی 1917ینجی ییلده مارتك 5 ینده«پراودا»غزته‌سی ینه‌ده نشره باشلامشدر. فعله صنفك حیاتنده مطبوعات چوق بویوك رول اوینامش و ایمدیده اویناماقدادر. اوقتیابر انقلابی فعله صنفنی اسا رتدن قورتاراندان سوگرا مطبوعات یکی یاشایش قورماق ایشینده چوق بویوك کومك ایتمشدر.

فعله و ایشجی قادینلارا یکی و گوزه‌ل یاشایشك یولونی مطبوعات گوستریردی. بو جهتدنده مایك 5ینده «پراودا»نك ییل دونومی گونی و عموماً مطبوعات گونی بایرامی، هابیله هر برایشجی‌قادینك بایرامی حساب‌اولونور،

بو گونده هر بر غزته و مجموعه اوقویان قادین اوزینك غزته و مجموعه اوقومایان تانیش و رفیقه‌لرینه مطبوعاتك اهمیتنی، اونك منفعتلرینی نقل ایتمه‌لیدر. غزته و مجموعه اوقویوجیسی اولان هر بر قادین چالشمالیدر که باشقالارینی‌دا بو ایشه تشویق ایتسونلر. غزته و مجموعه لری اوقوماق ایله انسانك گوزینك آچیلماسینی، کوهنه و وحشی عادت و موهوماتدان خلاص اولماق یولوندا اونك گوردیگی ایشلری ذکرایتسونلر.

ر. ب.

بز قیمتلری نه ایچون آشاغا سالیریق!...

(ستالین یولداشك معروضه‌سندن)

یولداشلار! بزیم (ایندوستریا) ایری صنایعمزك آپاریلدیغی اساس یول و بو ایشلرك بوتون گیدیشینی تعیین ایدن اساس خط حرکت ـ صنایع مالارینك حقیقی قیمتی منتظم صورتده اوجوزلاشدیرماقدان عبارتدر؛ هرگاه بیزیم ایری صنایعمز آرتوب، قوه‌تلمنك ایسته‌ییرسه: هرگاه او کند تصرفاتینی ئوز آرقاسنجا آپارماق ایسته‌ییرسه و نهایت او، بزیم سوسیالیزم اقتصادیاتمزك اساسینی محکملتمك، گه‌نیشلتمك ایسته‌ییرسه اونك گیده‌جگی اساس یول بوندان عبارتدر.

ایمدی باقالم بو اساس خطهارادان چیقمشدر؟ بو جوره خطحرکتك لازم ومقصده اویغون اولدیغنی گوسته‌رن سببلر نه‌در؟ هیچ اولماز سابونك دورت بویوك سببی واردر



برینجی سبب یو کسك قیمتلر اوزه‌رینده قورولمش صنایع ـ حقیقی صنایع دگل واولادا بیلمز؛ چونکه بویله بر صنایع؛ ایستی یرلرده یتیشدیریلن ویاشاماغا قدرتی اولمایان بیتگی یه بکزه‌ر؛ بزه یالکز ئوز مالارینك قیمتی تدریجله آشاغا سالان ومحصولاتینك حقیقی قیمتی منتظم صورتده اوجوزلاشدیران صنایع لازمدر نهایت بزه منتظم صورتده یاقشیلا شماغا باشلایان و بویله لگله‌ده ئوز استحصالاتی، ته‌خنیقاسی و امك تشکیلاتینی نظامه سالان و همچنین تصرفات اصول ویوللارینی قاعده ایله آپاران صنایع لازمدر.. چونکه یالکز بویله صنایع ترقی ایدوب، پروله‌تار کتله‌سنه هریرده غالب گلمك امکانی ویره‌جکدر.

ایکنجی سبب بزیم صنایعمز یالکز داخلی بازاردا دورمشدر؛ چونکه بز اجنبی بازاردا قاپیتالیستلر ایله رقابت آپارماغا امکانمز یوقدر و آپارادا بیلمیریك. بونا گوره داخلی بازار بیزیم صنایعمز ایچون اساس بازاردر. لاکن بودا اودیمك دگلدر که بزیم صنایعمز یالکز داخلی بازارك آرتوب، گه‌نیشلندیگی دره‌جده آرتوب، قوه‌تلنه بیله‌جکدر؛ بو بازارك حجمی صنایع مالارینا اولان کلی احتیاجدان آسیلی‌در. باقالم داخلی بازاریمزك گه‌نیشلنمه سی و حجمینك قوه‌تلنمه‌سی نه ایله تعیین اولونیر؟ بودا ینه‌ده صنایع مالارینك تدریجله اوجوزلاشدیریلماسی ایله اولاجاقدر. بو ایسه یوقاریدا سویله‌دیگمز کبی صنایعمزك آرتماسی ایچون لازم اولان اساس یولدر.

اوچنجی سبب صنایع مالارینك قیمتی اوجوزلاشدیر یلمازسا گله‌جك ایشجیلرك امك حقینی یو کسه‌لتمك ایچون لازم اولان شرائطی یاراتماق ممکن اولمیاجاقدر. اولا؛ صنایع مالارینی ایشجیلر دخی ایشله‌دیرلر؛ بونا گوره صنایع مالارینك قیمتی اوجوزلاشماقلا حقیقی امك حقی مقدارینك ساقلا بیلماسی وآرتیریلماسی ایچون اهمیتسز اولمیاجاقدر. ایکنجی؛ صنایع مالارینك قیمتی اوجوزلا شارسا شهرلرده ایشك تدیکلری کند تصرفات محصولاتینك محکم قیمتینی تعیین ایده‌ر. بودا یه ایشجیلر ایچون قویولمش حقیقی امك حقینك ساقلانماسی ویو کسه لدیلمه‌سندن ئوتری اهمیتسز قالمیا جاقدر. نهایت دوردنجی سبب: صنایع مالارینك قیمتی اوجوزلاشد یریلماز سابز پروله‌تار کتله‌سی ایله کندلی آراسندا کی رابطه‌نی ساقلایا بیلمه‌ریز. بوندان باشقا ئولکه‌مزده پروله‌تار حاکمیتنك اساس نقطه‌سی اولان کند تصرفاتی ایله آغیر صنایع آراسندا رابطه ساقلاماق ممکن اولماز؛ مالاری، مانوفاقتورا، ماشین و باشقابو کبی شیئلری بها قیمته آلیر. بوراسنی دخی بیلیرسگز که بو ایش کندلیلرك ناراضیلق لارینا سبب اولوب کند تصرفاتنك ترقیسنه مانع اولور. ایمدی بوندان نه کیبی نتیجه چیقیر؟ بوندان بویله نتیجه چیقاریلیر: هرگاه بز دوغرودانما بو رابطه‌نی و ایشجی صنفی ایله کندستان آراسندا کی برلیگی ساقلاماقلا برابر کند تصرفاتنی داهادا گوجلندیرمك ایسته یریك ایسه او زمان دائما صنایع مالارینك قیمتنی منتظم صورتده اوجوزلاشدیرماغا چالیشمالی‌یز.

یوقسول قادینلارا آرتیق اهمیت ویرملی!

هربیر کندلی و کندلی قادینی بر قاعده ایله یاشامیر اویله کندلیلر وارکه دولتلی درلر، هر شیئلری بولدر. اویله‌لریده وارکه یوقسولدرلر، بیله اولورکه حتی اوز توپراقلارینی‌دا اکمکه قوه‌لری چاتمیر.

شورا حکومتی وار قوه‌سیله چالشیرکه یوقسول کندلی اوز تصرفاتینی یاقشیلاشدیرماق ایچون اونا یاردیم ایتسون. بونا گوره‌ده یوقسوللارك قوئوپه‌راتیفه گیرمه‌لری ایچون بر چوق یونگول شرطلر قویولمشدر؛ یوقسوللاردان تصرفات ویرگیسی اولدیقجا آز آلنیر. لاپ یوقسوللار ایسه تمامیله بو ویرگیدن آزاد اولورلار.

کند تصرفات ماشینلاری برنجی نوبه‌ده تشکیلات حالندا برلشمش یوقسول تصرفاتلارینا براقیلیر؛ اکبن زمانی دولت طرفندن یوقسوللارك تصرفاتلارینا بورج توخوم‌ویریلر. بوندان باشقا شورا حکومتی یوقسول تصرفاتنك قوه‌تلندیرلمه‌سی ایچون بر چوق تدبیرلرده گورولوردی لاکن یوقسول کندلیلرك وضعیتلرینی یاقشیلاتماق ایچون یالکز شورا حکومتنك گوسته‌ردیکی یاردیم کافی دگلدر. بونك ایچون لازمدرکه یوقسول کندلیلر دولت طرفندن گوسته‌ریلن بو یاردیمدان استفاده ایتمکی باجارسینلار؛ اونلار بو یاردیمك اهمیتی دوشونوب، ئوز نوبه‌لرینده چالیشمالیدرلارکه قولچوماقلارك یوقسول آدیلا حکومت اورغانلارندان (شورالاردان) آلنان یاردیمدان استفاده ایتمکه چالیشان حصه‌لریله لازمنجه مبارزه آپاریلسین.

نیجه اولورکه قولچوماقلار بعضی وقت قره‌دیت تشکیلاتلارینی (بانکلری) آلدادیرلار؟ نیجه اولورکه یوقسوللارك بعضی حصه‌سی ویرگی یونگوللیکیندن آز استفاده ایدیرلر؟ اونلارا دوزگون ویرگی سه‌پیلمیر؟ چونکه اونلار سوادسزدرلار. هر زمان کندك اجتماعی اشایشی ایله مراقلانمیرلار (فعالیتلری آزدر)؛ نهایت بعضی یرلرده بو وقته کبی قولدور - قولچوماقلارا، دولتلی آدامارا «حرمت» گوسته‌رمك عادتی ایمدیده دوام ایدیر. چونکه دولتلی آدام قولدوردا اولسا هردن اونا بر آز بورج پول ویره‌ده ئیله‌ر.

شورا حکومتی طرفندن یوقسوللارا گوسته‌ریلن یاردیمدان یوقسول کندلیلرك استفاده ایتمه‌سی، یوقسوللارك تشکیل ایدیلمه‌سی و قولچوماقلارك؛ آیری آیری یوقسول کندلی ازه‌ینده کی تاثیرینی اورتادان قالدیرماق ایچون، قوممونیست فرقه‌سی؛ یوقسول کندلیلر آراسندا آیریجا ایش آپاریر.

ایمدی بو ایشلرك معین و بویوك نتیجه‌لری گوروبیر.

یوقسوللار اجلاسلاردا فعال صورتده چیقیشدا بولونیرلار، شورا سه‌چگیلرینده اونلارا یارامیان آداملاری رد ایدیرلر. قوئوپه‌راتسیا قارشوسندا بیر چوق مسئله‌لر قویورلار؛ اونلار، کندلیلرك احتیاجلارینی تامین ایتمك ایچون قوئوپه‌راتیفه لازمی تکلیفلر ایدیرلر. یوقسول کندلیلر آراسندا ماشین شرکتلری، قوللقتیف (اورتاقلی) تصرفات و سائر تصرفات آرته‌للرینك دوزه‌لدیریلمه‌سنه آرتیق هوس گورولیر. لاکن آذربایجاندا یوقسول کندلیلر آراسیندا آپاریلان ایشلره باقدیقدا دیمك اولارکه بو فعالیت یالیکز کشیلر آراسیندا آپاریلر.

یوقسول - کندلی قادینی یوقسوللار یغنجاقلارینا گیتمیر؛ چونکه اونسیزدا تورك قادینلاری کیشی یغنجاقلارینا گیتمکه جسارت ایتمیرلر. ایشچی - کندلی قادین شعبه‌لری ایسه آز بیجا اولاراق یوقسول کندلی قادینلار آراسندا ایش آپارمیرلار. عمومیتله دیمك اولارکه کندلرده کندلی قادینلار آراسندا آپاریلان ایشلرده یوقسول قادینلار آراسندا آپاریلان هیچ بر فعالیت گوزه گورونمیر.

دوغرودور، کندی تورك قادینلاری آراسندا ایش آپارماق چوق چتین‌در. لاکن آذربایجان قادینی یاواش-یاواش کوهنه یاشایش عادتلریندن ال چیکمکه باشلامشدر. بو اگوره‌ده هر تورك کندلی قادینی ئوز عائله حیاتندن باشقا اجتماعی ایشلرده‌ده چالیشماق (اجلاسه گیتمك، اوقوماق) ایسته‌ییر. تورك قادینی ایسه اوزینك بو آرزوسنه اهمیت ویریلوب، لازمی یاردیمی گوزله‌مکه حقلیدر. بز هاموکندلی قادینلارینی اجلاسلارا چاغیریریق؛ سواد منطقه‌سنه هرکسی قبول ایدیریك، لاکن بونگله برابر برنجی نوبه‌ده یوقسول کندلی قادین ایله اورتاباب (آز وارلی اولان کندلی قادینی) بیرنجی نوبه‌ده قبول ایدیریك.

بیز گره‌ك نماینده قادین یغنجاقلارینا کندلی قادینلاری سه‌چدیکمز زمان چوق دقتلی اولاق.

نماینده قادین یغنجاقلارینداکی خصوصی پروغرام اوزره اویله ایش آپاریلیر که اورادا حاضراق آلمش نماینده قادین کندده ایشچی و کندلی قادین شعبه‌سینك بر معاونی، بر ایشچی‌سی اولا بیلر.

دقت ویریلمه‌لیدرکه نماینده قادین سه‌چگیلرینده نماینده‌لیکه یالیکز یوقسول و اورتاباب قادینلار سه‌چیلمش اولسونلار.

یوقسول قادینلارك نماینده قادین یغنجاقلارینا جلب ایدیلمه‌سنه خصوصی بر دقت ایدیلمه‌لیدر. عمومیتله کندك یوقسول قادینلاری گه‌ریده‌قالار، سوادسز، و اوزون‌مدتلی، آغیر ایش نتیجه‌سنده یورغون دوشمش کندلیلردرلر. یوقسول‌قادینلار: قادینلار یغنجاقلارینا باشقا کندلی‌قادینلار داندا گئیج گلیرلر؛ چونکه ئوده ایشلری چوقدر. اونلارك گذارانلاری آغیر گئیچیر؛ طبیعی‌در که بویله اولدیقدا اجلاسه گیتمگه‌ده امکانلاری اولمیور. حالبوکه یوقسول قادین دوشونمیر که اجلاسه گیتدیکده اورادا ئوز احتیاج‌لارینك برطرف ایدیلمه‌سی یوللارینی ئوگره‌نه بیله‌جگدر. بونی بز هر نه جوره اولورسا اونا آگلاتمالی یز؛ بو ایسه ایشجی ـ کندلی قادین شعبه‌سی ایشجیلرینك بورجی‌در.

کندلی قادین یغنجاقلارینی چاغیردیقدا خصوصی‌صورتده اولماق اوزره اورایا یوقسول قادینلاری چاغرماق لازمدر.

کندلی قادینلار آراسندا منتظم ایش آپاریلان کندلرده، یوقسول قادینلارك چوق حصه‌سی بو ایشه جلب ایدیلمه‌مش ایسه تشکیلاتجی یوقسول قادینلارك ئولرینی آیری آیری گزوب، اونلارا آنلاتمالیدر که یوقسول قادینلار نماینده قادین یغنجاقلاریندا ئوز حقوقلاریندان استفاده ایتمکی و ئوز تصرفاتلارینك یاقشیلاشدیریلماسی یوللارینی ئوگره‌نه بیله‌جگلر. تشکیلاتجیلار یوقسول قادینلارك (خصوصیله قوستار قادینلارك) آرته‌ل حالنده برلشمه‌لرینه یاردیم ایتمه‌لیدرلر. آجیناجاق بر حال وارسا اودا بو وقته کبی بزده بو جوره آرته‌للر کفایت ده‌ره‌جه‌ده دوزه‌لمه‌مشلر. خیردا صنعتکار (قوستار) قادینلار آرته‌ل حالنده تشکیل اولونارلارسا اجتماعی یاردیم ایشینك اهمیتی آیدین مثال صورتنده گوسته‌ریله‌جگدر. یوقاریدا گوسته‌ریلدیکی کبی یوقسول قادینلارك اجلاسه چاغریلماسی یاشایش شرائطندن آسیلی اولاراق چتینله‌شیر. لاکن بنده لازیمی تدبیرلر گورولمه‌لیدر که عمومی کندلی یغنجاقلارینا قادینلارك آسانلقله گلدیکلری دائره‌لرده (کوردستان، قازاق) و هابیله ارمنی مالاقان کندلرینده **کندلی قادینلار یوقسوللار یغنجاقلاریندا اشتراك ایتسینلر.**

قادینلار یاقشی خبردارلق ایدیلمگله برابر اجلاسه گلن یوقسول قادینلار ایله یاقشی رفتار اولونارسا نتیجه‌ده یوقسول یغنجاقلارینا گلن بیر نیچه قادینك سایی آرتوب اونلارجا و حتی یوزلرجه چوقالاجاقدر.

البته بز یوقسول کندلی قادینلارك آیریجا یغنجاقلارینی چاغیرماغی مقصده موافق گورمیریز. لاکن بویله خصوصی یغنجاق چاغیرماقلا برابر ایشجی ـ کندلی قادین شعبه‌لری اویله ایتمه‌لیدر که بو یغنجاقلارك ایشلرینده اشتراك ایدن یوقسول کندلی قادینی برنجی یئردوتوب آیریجا گوزه چارپسین.

ف. شله‌موا.

تلغرام

عموم اتفاق قوممونیست (ب) فرقه‌سی مرکزی قومیته‌سینك ایشجی کندلی قادینلار شعبه‌سینه.

آذربایجان قوممونیست (ب) فرقه‌سی مرکزی قومیته‌سینك ایشجی کندلی قادینلار شعبه‌سینه.

ستالین غرادغوبرنیه‌وقضاسنده، تساتسی محالنك تساتسی کندنیك کندلی قادینلارینك 8 مارت بین‌الخلق قادینلار گونته اتحاف ایدیلمش طنطه‌لی اجلاسلاری کندك هامو قادینلاری نامندن عموم اتفاق قوممونیست (ب) فرقه‌سی مرکزی قومیته‌سینك ایشجی کندلی قادینلار شعبه‌سینه و بیرده آذربایجان قوممونیست (ب) فرقه‌سی مرکزی قومیته‌سینك ایشجی کندلی قادین لار شعبه‌سینه اوز آتشین سلاملارینی گونده‌ریر.

طنطه‌لی اجلاس بونی‌دا قید ایدیرکه یالگز عموم اتفاق قوممونیست (ب) قرقه‌سینك پولاد کبیی محکم رهبرلیگی آلتندا، مبارزه‌مز اثناسنده ایشجی قادین‌لار ایله کندلی قادین‌لارك اك سیقی و محکم رابطه‌لری ایله؛ یالگز ایلیچك وصیتلرینه تمامیله عمل ایتمك یولیله بیز معیشت جهنجه قادینك اسارتدن خلاص اولماسینا نائل اولا بیله‌ریك.

اوز مبارزه منزله قاباتالیست ئولکه‌لرینده‌ده اوز حقوقلاری و اسارتدن خلاص اولمالاری یولوندا مبارزه‌یه قالقیشان قادین‌لارادا رهبرلك ایده‌لم.

یاشاسین ایشجی و کندلی قادین‌لارك بین‌الخلق قادین گونی 8 مارت!

یاشاسین بتون دنیاده اسیر و مظلوم قادین‌لارك اسارت زنجیرلرندن نجات تاپمالاری.

یاشاسین قادینا نجات ویره‌ن مبارزه رهبری ـ قوممونیست فرقه‌سی.

اجلاسك هیئت ریاستی **قومیچه‌نقو، قوممه‌ر. له‌سینقووا، خاخاله‌ف ستتیوفسکی.**

1927 ییلده کندشورالاری سه‌چگیلرینك یگونلارینا دائر

قاباقکی سه‌چگیلری نظره آلدیقدا کوریریك که، بو ییلکی آتجوت‌ییغینجاقلارینداً اولدیغی کیبی سه‌چگیلرده‌ده تورك‌قادینی آیریجابر جدیت گوسترمشدر؛ ییله که بوییلکی سه‌چگی قامپانیاسی نتیجه‌سیله قاباق ایللرده کی سه‌چگیلرك نتیجه‌لری آراسیندا چوق بویوك تفاوتلر گورونمکده‌در.

بو ییل سه‌چگی ییغینجاقلارینداً دانیشیقلاردا اشتراك ایتمش قادینلارك مقداری کشیلردن دورت دفعه اکسیك اولمشسه‌ده ، فقط آذربایجاندا کی باشایش شرائطنی نظرده دوتدیقدا گره‌ك دیمك که بو ییلکی سه‌چگیارده آذربایجان کندلی آروادلارینك اورتالیغا چیقوب سوز دانشمالاری، رأی ویرمه‌لری ایشی اوزی اوزلیگینده بویوك بیر سیاسی موفقیت حساب‌اولونابیله‌ر.

بو موفقیتلرله برابر بونیدا دیمه‌لیك که بو ییلکی سه‌چگیلرده قادینلارك اشتراکی ضعیف کیئچمشدر. بونی رقملرله گوسترمك ایسته‌سه‌ك گره‌ك بویله دییه‌ك: بوییلکی سه‌چگیلرده هر یوز نفر سه‌چگی حقینه مالك اولان کشیلردن 71 ی سه‌چگیده اشتراك ایتدیگی حالدا، قادینلاردان ایسه آنجاق 29 ی اشتراك ایتمشدر.

آیری-آیری قضالاردا سه‌چگی یغینجاقلارینداً اشتراك ایتمش قادینلاری فائضجه حسابه آلساق گوره‌ریك که 7 قضاده سه‌چگی‌ده اشتراك ایتمش قادینلارك الی یوکسك فائضی 35 دن 45ه قادارردر. یئرده قالان 7 قضاده ایسه بو فائض 6 ایله 23 آراسیندا متردد‌در. قادین‌لارك اشتراکی ضعیف اولان قضالار بونلاردان عبارتدر: قازاق، قوبا، گنجه،لنکران، نخچوان‌ئولکه‌سی، زاقاتال‌وبرده گوگچای.

قادینلارك اشتراکنی کیچمش ایلده کی سه‌چگی‌نتیجه‌لریله مقایسه ایتدیگده بونی گورورویك: لنکران و برده قوبا قضالارینداً قادینلارك اشتراکی فائضجه آرتمشدر . لنکراندا بره ایکی دفعه (1926نجی ییلده 10 فائض اولدیغی حالدا ، بو ییل 20,5 فائض اولوبدر) قوبا قضاسینده ینه‌ده بر او قادار-(1926نجی ییلده 17فائض اولدیغی حالدا بو ییل 22,9 فائض اولمشدر).

قادین اشتراکی فائضجه‌اکسیك اولان قضالاربونلاردر: زاقاتالا وبرده گوگچای. مثلا: زاقاتالدا 1926نجی ییلده 13,7 فائض اولدیغی حالدا بو ییل 7,3 اولمشدر . گوگچایدا 1926نجی ییلده 19,2 فائض اولدیغی حالدا بو ییل 6,2 فائض‌در.

بو ییلکی سه‌چگیلره گلمش عموم قادینلارك فائضی اورتا حسابیله 36در: حالبوکه قاباقکی ییلده سه‌چگیده اشتراك ایده‌ن قادینلارك فائضی 39,2 ایدی. نتیجه‌ده‌ایسه کچن‌ییله نسبت 3،2 فائض اکسیلمشدر. بونك باش سببی بعضی قضالاردا سه‌چگیلرده قادینلارك چوق آز مقداردا اشتراك ایتمه‌لریدر . ییله که زاقاتال قضاسنده سه‌چگی‌یه گلنلرك فائضی بره ایکی دفعه اکسیلمش؛ وگوگچایدادا 4 یاریم دفعه اکسیلمشدر.

بو ایکی قضانی آرادان گوتوره‌رسك، یرده قالان 12 قضادا سه‌چگیده اشتراك ایتمش قادین‌لارك فائضی 40,3 اولاجاق‌در؛ یعنی کیچن ییله نسبت داهادا یوکسك گورونه‌جکدر.

نتیجه اعتباریله بوتون آذربایجان مقیاسندا سه‌چگی‌یه گلمیش قادین‌لارك فائضلرینی بو ایکی قضا (گوگچای ایله زاقاتال) تام 4 فائض اکسیلتمکده‌در.

بو ییلکی سه‌چگیلرك نتیجه‌لرینه گلدیگده بوراسینی دیمه‌لیك که 1926نجی ییلده عموم جمهوریت مقیاسیندا شورالارا سه‌چیلمش قادین عضولر بر قادار آرتمشدر . ییله که 1926 نجی ییلده عمومی فائض 13،2 اولدیغی حالدا بو ییل 17،7در.

کندلی‌قادینلاردان سه‌چیلمش‌شورا صدرلرینه گلدیگده بو ایشده بو ییل بویوك موفقیتلر الده ایدیلمشدر.

کچن ییل عموم آذربایجان مقیاسندا 11 نفر کندلی قادین شورا صدرلیگینه سه‌چیلدیگلری زمان ، بو ییل صدرلیگه سه‌چیلمش کندلی‌قادینلارك سایی 23 ه قالقمشدر. دیمه‌لی بورادا بره ایکی دفعه‌آرتیق موفقیت واردر.

آیری-آیری قضالاردا شوراصدرلیگینه سه‌چیلمش کندلی قادینلارك سایی‌بویله‌در: آغدام‌دا-5، قوبادا-7، کوردستاندا 2، لنکراندا-1، نوخادا-3، شماخیدا-1، داغلق‌قاراباغدا-4. باشقاقضالاردا صدر وظیفه‌سینه سه‌چیلمش کندلی قادینلاریمز یوقدر. 1927 نجی ییل سه‌چگی قامپانیاسنك مختصرجه نتیجه‌لری یوندان عبارت‌در.

شوراچی



خاناچیلار

I

قیش... شدتلی سویوق...

توپراقلی، آنجاق اورتا باجادان ایشیق دوشن بیر ایو دامی. بیر دسته خالیچیلار خالی توقویورلار. اورتا باجانیك آلتیندا اوجاق قالانوب، بیر قاری بونیك اوستینده سوتلی آش پیشیریر.

خالیچیلاردان سکینه آدلی بیریسی:

– بو گون تمام اوچ آیدر که، بوخاناتیك اوستینده عمر، گون چورودوریك؛ قورتاراجاغی، بیته جگی گورونمه‌یور. کیم بیلیر، کیمیك آلتیناسالیناجاقدر! کیملره قسمت اولاجاقدر

یازیق بیزیم حالیمزه!.. آرشینندا هر قادین بش منات آلیریز. صباحدان ایودن، اوشاقدان آیریلوب آخشامه‌دك بو زندان هوه‌نی چالیریز. ایلمه باشینا بیر نیچه دیرناق قوپاریریز. اللریمزیك قانی تو گولور. هر آقشام یاغلاماق، کسیکلرینی ساریماق... سهر ینه قانلی – یارالی بارماقلار ایله همین ایش، همین خانا... کیچن ییل زهرانیك اری ایوده درمانسیز، دواسیز ئولدی. بوتون قازاندیغی اونك دفن خرجنی‌ده گورمه‌دی. بو ییل گوللر کورپه قیزینی ایوده قویوب، خالی توخوماغا گلمشدی. قایدوب اوشاغی ایوده بوخاریك قارشوسیندا باریا قدر کوه‌ورلنمش بولدی.

گورونور که، بیزلره نه‌نه– بابالاریمز قارغامشلار... گوزوموزیك قارشوسندا توخویوب چالدیغی‌میز خالیلاری بر کره‌ده اولسا، ایویمیزه سالمایوریز... آرتیق بیزیم یللریمیزدن گلوب گوز ئوگومیزدن گیدن شیلر؟ بیر نیچه ایل بوندان ایره‌لی محمد آغا ایچون توخودیغمز خالی فره‌نگستانا گونده‌ریلوب «پریز» آلوب دیبورلر... «پریز» نه‌در بیلمه‌یرم؛ فقط دوققوز آرواد گیجه گوندوز چالشوب، همین خالینك اوستینده چوق اذیتلر چیکدیکنی بیلیرم؛ همیشه بویله، همیشه بویله!..

بعضا باشقالاریندان پول گوتوروب، بالاجا خالچالار توقویوروق؛ یه‌ده بیر شیئی آرتیرماق اولمور. بو الدن گلوب او الدن گیدیر. یازیق خیرانسا پول گوتوروب خالی توقویاجاق ایدی؛ أمری خسته‌لندی، پولدا داوا – درمانا گیتدی وقتی گلوب یتیشنده پول صاحبی شکایت ایدوب، ایوینی – ئه‌شیگنی ساتدیردی. غرض بو خالیچیلیق!...

أوزینی سوتلی آش پیشیره‌ن قاریا طره‌ف چه‌ویریب:

– یازیق صنم ماما!... اودر، بو ساعت ایمه‌جیلره آش پیشیریر، هیچ بر کلمه بیله ایشیتمیر.

قاریمی چاغیریر:

– صنم ماما، آی صنم ماما! پیشیردیگیك نه‌در؟

قاری جوابنده:

– سو ایسته‌یرسن؟ اودر، سه‌نه کده.. دور، آل ایچ!

سکینه قهقهه ایله گولور.

– بودر، دیمه‌یورمی‌، هیمزیك آخریمز بو!.

یانیندا کی ایمه‌جیلردن بیرسنه دوغرو:

– ها بودا بیریسی، بالاجیجی: هلم اینجه قولاغی آغیرلاشماغا باشلامشدر.

چالدیغی ایلمه‌لره دقت ویره‌رك: – بالاجیجی، دیه‌سن قولاغیك آغیرلاشان کیبی گوزلریگده ضعیفله‌نوب‌در!.. نارینج عوضنه ساری ایلمه چالمیسك، اودر که قارا عوضنه‌ده سرمایی چالمیسك! (کندی – کندینه) هر گاه بویله گیده‌رسه، الك یاخشی خاناچیلیقدان الی چیقار،

بالاجیجی سوسدی. قوجا ایمه‌جی یاگلیش چالدیغی ایلمه‌لری بیچاق اوجی ایله سو کور، بیچاق دونوب ألینی کەسیر. قاری یوزینی سکینه‌یه طرف‌چه‌ویروب سویله‌نیر:

– گونی آی قارا گلمیش، گوزیم نیه خراب اولور! سنیك صحبتگه فکر ویروب ایلمه‌لری یاگلیش چالمیشام.

ایو صاحبینك 12ـ10 یاشلی بیر قیزی ایچری داخل اولور. سکینه بونی گورجك:

ـ بالاجیجی اینجمه، اودر که سوت ویردیگیك خانیم گلسیك سنه کومك ایله‌سیك (بالاجیجی همین قیزیك دایه‌سی ایمش).

سکینه‌نیك سوزینی ایشیدر، ایشیتمز، بالاجا قیز ئوزینی قارینك اوستینه آتیر، الیندن بیچاغی آلیر، یاکلیش ایلمه‌لری بیر ـ بیر باشلایور سوکمگه.

بونی گوره‌ن صنم قاری قیزاراق:

ـ او سنیك ایشیك ده گل، بوراق گیتسیك، ایمدی گلوب گوره‌رلر ئوزیمیزیك سوینی، حیامیزی توکه‌رلر.

صوك کلمه‌نی دوداغی آلتیندا سویله‌یه سویله‌یه ینه ایشینه مشغول اولور. قیز بوندان قورقاراق قالقیر. ایلمه‌لری یاریمچیق قویور، فقط گوزلری دایه‌سینك قانلی بارماقلارینداقالیر. قاری اسکی عادتی ایله الی‌نیك یاراسینا ایلمه‌نیك توزوندان باسوب، ینه ایشینه مشغول اولور. سکینه دوداغی آلتیندا ینه میزیلدانیر:

ـ ایوه گیتمك وقتی یاقینلاشیر؛ گوره‌سن چیردان ـ چیرپیدان گولپری گتیردیمی؟ بو قیش آقشاملاری کاسب حیاتینك آشکاراً سویوق جهنمی‌در:

ـ دور قاری، دور گیده‌ك، داها وقتدر. ایویمیزه یتیشه‌نه‌جکده آقشام اولار.

ایمه‌جیلر لباسلارینی چیرپیب، خوره کلرینی‌یه‌یوب گیدیرلر.

II

1920 نجی سنه آپریل انقلابندان بیر قدر کیچمیش دولتلی‌لریك خالی، خالچالاری فقرای کاسبه‌لره پایلاندیغی زمان تصادفا سکینه‌یه همان اوستینده سویله‌نه سویله‌نه آه‌ناله چیکوب توخودیغی خالی دوشوبدور.

سکینه بیر قدر قوجالمیش، کهنه داخماسینك قارشوسیندا اوتوروب، خالینی سریب تماشا ایدیر و کندی ـ کندینه سویله‌ییر:

ـ بودر، بو خالی دییه‌سن یوزیمه گولور. ئوز الیمله توخویوب ویردیگم خالی‌در. همان بو خالینك اوستینده چوق آه ناله‌لر توکوردوم. رحمتلیك بالاجیجیمده گاه منه داریلیر، کاهده تسلی ویریردی. حیف عمری چاتوب بو گونلری، بو زمانه‌نی گورمه‌دی. بونیك اوستینده بنیم باشیم چوق بلالر چیکدی. ایویم صاحبسز قالدیغندان 12ـ10 یاشیندا قیزیمی گوتوروب قاچدیلار .. بالاجا اوغلومی قونشونیك ایتی یارالایوب، سویوقدان، یالکزلیقدان سیمله‌یوب ئولدی. غرض، سن بنیم باشیما چوق بلالر گتیرمیسن!.. بنیم ایچون چوق قانلی ـ قادالی خالی‌سك. گوره‌سن بونیك صاحبلری نه دوشونورلر؟

ـ بندن شدتلی دوشونمزلر که . . . او وقت که، الیمله توخویوب ویرنده نه دوشونوردوم، اونلاردا اونی!..

یوق، یوق بر فرقی واردیر. اونلار آنجاق ایولرینیك بزه‌گی گیتدیگنی، بن ایسه ـ زحمتم، قطره ـ قطره قانیم گیتدیگینی دوشونورم . . . خایر، ینه سهو ایتدیم، بیر شیئی داها اونوتدوم. اونیك ایچون ایوینیك بزه‌گی گیتمك عادت اولونمامش برحال، و اونیك ایچونده چوق چتین حال: بنیم وبنیم کیبی‌لریك الینیك زحمتی گیتمك همیشه گورولموش، عادت اولمش تکراری بیرحال... بو خالینیك اوستینده بن چوق داریلدیم، اوییل لاپ جانا گلمشدیم، بزمیشدیم. صنم قاریی چوق اینجیدیردیم، بوتون حیفیمی اوندان آلیردیم.

ـ آجی سوز دیسه‌م، ایشیتمه‌یوب ترسی جواب ایله بنی گولدوروردی. او وقت بنی گولدوره‌جك باشقا بیر شیی یوق ایدی. او آجی گولوشلریله آغلاماغیم سلنده. اوکا و ئوزیمیك حالینه گولوردوم. ئولور زمانی یانینا گیتدیم، بنی تانیدی: یالکز کیچه‌نیك اوستینده، بیر جیریق یورغانیك آلتیندا جان ویریردی: حالاللیق آلدیم؛ گوزلرینی سیغادیم. بالاجاجیجی بوندان خوشبخت ایدی: بویویوب ساخلادیغی قیزی اونی اونوتماییردی. فقط اوداعمرینك آخرینده گوزدن، قولاقدان بیچاره اولمش، بارماقلاری اگیلمیش، بو کولمیش ایدی. مدت عمرینده چالشدیغی آغیر مشغله‌نیك نتیجه‌سی ایدی.

بو صوك کلمه‌لر ایله سکینه‌نیك گوزلری یاشاریر باش یایلیغنك اوجی ایله گوز یاشینی سیله ـ سیله آیاغا قالقیر. خالینی یغوب ایچری آپاریر.

III

آذربایجان کندلرینك بیریسنده‌اك صوك تیخنیقا اصولیله قورولموش بیر خالی کارخاناسیندا، 25 سنه‌لیك طنطنه‌لی یوبیله ....

چوق قوجالمش، سکینه قاری، بو مجلسده‌در... همین یوبیله‌ده اونیك زحمت مدتی مناسبتیله حاظر اولنمش. خالیچیلار طرفندن مجلیسیك صدارتی اوکا حواله اولنور.

سکینه جوانلاریك الینه اسناد ایده‌رك، صحنه‌یه چیخیر. ضعیف گوزلریله اطرافه بیر نظر آتیر... دوشونور، خیال ایوینده بیر قاچ شکللر اوینایور . . . جانلانیر . . . صنم قاری... بالاجیجی... کندی جوانلیغی، قارغانا ـ قارغانا توخودیغی خالیلار، چکدیگی اذیتلر هپسی گوز ئوکونده دورور. صوك دفعه توقودیغی خالینك اوکا قسمت اولدیغنی یادیناسالیر.

بویوك انقلابیك کوچوك ـ کوچوك مهر کلری، آذربایجاندا کیچمش خالیچیلق تاریخنیك شکللری سکینه قارینیك گوده‌جیك نطقینده معره‌که‌یه نقل اولنور. صوك سوزینی بتیره‌جك، یوبیله صاحبی همان کارخانه‌نك جنبنده بیر خالی موزه‌سی تشکیل ایدیلمه‌سی مناسبتیله گنجلیگینده باشقالارینا توخویوب، صوکرا تصادفا اوکا قسمت اولان خالینی آرزولادیغی موزه‌یه هدیه ویردیگنی اعلان ایدیر.

معلمه: **س. قیاسبگلی**

28 آپریل خاطراتی

1920 نجی ییلده آذربایجاندا آپریل انقلابنا بر آی قالمش باکو شهرینده واقع تاریخی بیر حکایه‌در.

I



اسگی بیر دور ایدی همین دنیا،
کیمسه‌دن‌اوممماق اولمایوردی وفا،
چونکه آرتیق حریص‌ایدی ثروت،
حکم سورمگده ئولکه‌ده ظلمت.
ایشچی گلمیشدی ظلمدن زاره؛
ظلم، تضییق اولوردی احراره.

کیچمه‌ده بویله برآجی دوران،
واردی‌بیر کویده بیر فقیر انسان.



قوجا پك ساده، اسمی میرزا بشیر،
بیر بولوك عائله، بش ـ آلتی صغیر.
کیشی، آرواد و اوغلی گنج اصلان؛
گوزله‌یور سانکه اونلاری بیر قان.

یاشایوردی بو عائله یوقسول،
پك مکدر هامو حزین، مملول.

بو اوجاقدا وار ایدی بیر سودا،
ویریلور زحمته درین معنا

—

II

صنعتی خواجه‌لیگدی، میرزا بشیر،
صبح تیزدن هوسله درسه گیدیر.
ئوز ایشینده همیشه پك ساده،
چالیشار کندی فکری آزاده.
پك مدیر ایدی و پك هوشیار،
هم چالیشغان، یانیقلی بر اجرار.
چوق گوروردی‌جهاندا زار، اسیر،
ایدییوردی بو حال اوگا تأثیر.
درسدن باشقا واردی آیری ایشی،
گیجه قورصیندا درس ویره‌ردی‌قیشی،
ایسته‌یوردی یاراتماغا یگی لیك.
هر کسه ایله‌یوردی بیر أیی‌لیك.
ئولکه‌یه ایسته‌یور یگی تعمیم،
ویریبوردی او هر کسه تعلیم؛
دوغویور هپ فنالیغی ثروت
دهرده پارلاسین! دییور، «زحمت!»



—

III.

اوقومش اوغلو وار یگیت اصلان،
تام اوتوز بر یاشیندا گنج اوغلان،
او گادا ویرمه‌یوردی أمل درران،
دوره قارشو دله‌ردی بر عصیان.
ایشله‌یور پك یاقیندا قابریقادا،
گوروشور ایشچیله‌رله هر آندا.
أمك اهلیله واردی خوش انسی،
هپ برابر بیلیردی هپ جنسی.
ده گیشیلسین دییوردی کیم ایام،
سه‌ودیگی حربه ایلدی اقدام.



بیر قدر کیچدی آلدی چوق تعلیم.
أدبی، انقلابی بیر تحمیم.
پیس کیچیردی هپ ایشچی یه‌دیریلیك.
زحمت اهلی ایدوب هامو بیرلك.
بوزمان ایشچیله‌ر ایدوب تشکیل،
ئولکه‌ده اقتصادی بیر تعطیل،
أللده بایرام أمگچیلر یوزمین،
ثروته، دولته دویار آجی کین؛
بو نمایشده ایشته چوقلی جوان،
أللده بایراق بودر گیدیر اصلان.



IV.

گیت گیده ایشله‌یور ئه‌وت اصلان،
مقتدر پك ذکالی بیر انسان.
گیجه‌ـ گوندوز گوزینده‌یوق اویغو،
یوره گینده وار ایدی بیر دویغو.
ئولکه‌یی ثروت ایله‌میش ویران؛
یوره گینده دوغوردی بیر طغیان.
گیجه‌له‌ر دائما قلوبدا اولور،
هامو یولداشلارك بوراده بولور.
بیر سیاسی اوجاق ایدی بو مکان
چونکه حاضرلاشیر بویوك عصیان؛
جدا اصلان چالیشمادا مسرور.
تاریخنده یازیلدی بیر یگی دور.



گوردی اصلان زوللی گنج بیر قیز؛
جانلی بیر قیزدی سانکی بیر بیلدیز.
اوقومش، پك ادبلی، خوش سیما؛
پر وقار، اسمی نازنین زهرا
قوشدیلار بیر ـ بیرله بیر نیچه گون،
طوی بساطی قوروللدی، اولدی دو گون.

V

طوی ایدیلدی بیر آز کیشچینچه ئەوەت،
ایکی سەوگی دلنده وار حرمت.

قونوشور پك شیرین ایکی مجنون؛
شاد ایکن یوزده، قلبلەر محزون،

سویلەیورلەر ئەوت یاقین گلەجك.
ئولکەده ایشچیلەر نەلەر ایدەجك؛

قیزدی صحبت، دوغولدی حسیات،
اونودولدی ئەوەت خصوصی حیات،



دیلی نه سویلەیور دلی سیزلەر،
دیمه بیچارەنی بیر بلا ایزلەر.
بیر قدار کئیچدی بر ایکی مامور،
ایچەری گیردی: «سنسن اصلان. دور!..
سنی دیوان ایستەمیش گیدەلم،
اوردا تقصیریکی ثبوت ایدەلم!..
نه قدر ایتدیسه فغان زهرا،
ویرمەدی آغلایش ثمر اصلا،
قالدی آغزیندا سویلەدیکجه سوزی،
قاپودا قالدی زهرانك ده گوزی
اصلانی، بینوانی حبس ایدەرەك!
دیشاری چیقدیلار همان گیدەرەك!

VI



چیکدیلر اصلانی بیلك نره یه،
شهر اطرافینه، اوچوق دەره یه!
واردی چوق حاضرون و باش ،امور،
پك غضبله باقیرلار اصلانا خور،
اصلانا ایتدیلەر بو ایله خطاب!
«ویریکز!..» سویلەدی بو دمده جواب؛
سویله، آرتیق سیاستی سویله!
یوقسا قتلیك اولور علاج ایله،
اصلان ایسه سکوت ایدەر مغرور،
دوغرو بیر انقلابچی، شانلی غیور.

جانیلردن زوالللی بیچاره،
آلدی خنجرله بیر نیچه یاره

اصلانا آیدین اولدی ایش آرتیق؛
قالدی او انقلاب ایچون صادق.

هر نه قصد ایتدیلەر فقط اصلان؛
بیلدیکی سری ساقلادی پنهان.

کسدیلر اصلانیك باشین آخر!
امر ویرمشدی داخلی ناظر..



VII

کیئچدی قاچ گون بوقتلدن نا گاه.
ایشچیلر اولدی بو اینشه آ گاه !
اصلانك میتی تاپیلدی همان ؛
دفن اولان گون ایدیلدی ده اعلان.
ئولکه ده ایشچیلر ایدوب تعطیل؛
صف قورولمشدی الده چوق اکلیل.
دفنه توپلاشوبدر چوق آدم ،
ایشچی یه سانکه هپ جهان ماتم.
دانشور حدت ایله زحمتکش ؛
گوزلریندن آخیردی قان، آتش.
توپلاشوب ایشچی الده آل بایراق!
انقلاب ایسته یور بو گون آنجاق !
بوراقان دمده اصلانی قبره ؛
ایشچیلر هپسی منتظر امره ؛
ایدییور ایشچیلر اوگا تعظیم؛
آلیور انقلاب ایچون تعمیم ؛
اصلانك قارشوسیندا چوق انسان؛
ایتدیلر انقلابه هپ ایمان ! . .
یاقیور اویله نیل محیط آغو
ایشچی قلبینده قالدی بو دویغو!

VIII

ایمدی قان گلدی چقدی پارلمانا،
چیقاریر پارلمان اونی یالانا !

سورغو ویرمگده ایشچی هر یاندان.
کافی بیر سوز دیله ر او بو قاندان.

ویریلورسه جواب ده گل کافی ؛
ایشچیلر دیگله مه ز بو جور لافی؛

ئه مك اهلینده واردی چونکه ثبات؛
پارلماندا ایدیلدی قان اثبات ؛

عدلدن یوقدی چونکه اوردا اثر؛
ویرمه دی ایشچی یه او دور ثمر.

IX

بیرجه آی گئچدی انقلاب اولدی .
ایشچیلر حکمی هپ خطاب اولدی:
ایشچی کندلی حکومتی قورولوب؛
حقسیز جانیلر هامو دوتولوب ؛
یاقالانمش دی بر نیچه جانی ؛
محکمه قورمش ایدی دیوانی؛
ایشچیلر ایش باشیندا ایمدی داها؛
جانی یه محکمه ویریردی جزا .



حاضرولر ایچینده‌در زهرا؛
یوقدی اصلان فقط او تك تنها؛
گولیوردی هامو باقان سیما؛
دوشونوردی ده‌رین، ده‌رین زهرا؛
حاضرون زالدا. جمله‌سی ممنون؛
بیرجه زهرا یازیق فقط سولغون؛
آنا آناسی یوقدی، ئولمشدی؛
عمده علت بو ایدی، سولمشدی.

X.

ایلك نمایش بوگون ینه بایرام؛
گزیپور کوچه‌لرده خلق تمام؛
شاد، مسرور جمله پیر و جوان.
هر طرف لوحه، بایراق، آل‌الوان؛
یوق داها ایشچی‌یه همان تضییق.
حقسیزلیق کسیلدی هپ آرتیق.



ئولومی آغرادیردی جمله کسی؛
بو نمایشده وار ینه زهرا؛
غملی‌در، چونکه قالمش او تنها؛
ایمدی مسعود اولوب هامو انسان؛
چوق چنین، چوق چنین ایدی او زمان؛
فکره گلدیگجه کیچمش او عالم؛
پك مکدر اولور ئهوت آدم.



یاد ایدیلمگده اسگی گون کیئچمش؛
ئولکه هپ نو بهار گل آچمش؛
اصلانك هر یوره گده وار حسی؛
اشبو یولدا کسیلدی چوق اصلان!
ئولکه اولدی قیزیل آذربایجان!

آغا حسین رسول زاده.



رومان

تونج آی

یوری سلیوزکین.

دالیسی.

جنگلیلر.

آقشاملار ایشدن فراغت اولان وقتلرده حمال‌لار، کره‌جیچیلر، خیردا اصناف و رنجبرلر یغیشوب حاجی زاهدك یانینا صحبته گلردیلر. بعضاً اولوردی که اونلار مرد آب کنارینده کی باغلارك اك قالین یئرلرینده توپلا- نیردیلار. بورادا تونقار قوروب توزلی، و په‌له‌ش ساققاللی، آریغ صفتلرینی بری بیرینه یاقینلاشدیروب آهسته و خیریلتیلی سسله سوز دانشیردیلار. صحبت اثناسنده هردنبر اللرینی‌ده هوایه قالدیروب هوندوردن سوزله‌شیردیلر. اود قالاغینك شعله‌لری اونلارك آج گوزلرینده منعکس اولوردی.

یپرانمش گوك اوتلارك اوستنده اوتوردیقلاری حالدا اوز تفنك و خنجرلرینی‌ده یانلارینا اوزادیردیلار... چوقینك چگینلری داش چیقاردانلارك کی کیبی ئه‌نلی، و اللریده میمون پنجه‌لری کیبی ایدی. بورایا یغیشانلاردان اوت، په‌یین و قاطرته‌رینك عفونتی ایشیدیلینیردی. اونلارك گون قاباغیندا یانوب قارارمش یوزلرینه تونقارك شعله‌لری منعکس اولدیقجا صفتلری داها آرتیق نارینجی رنك آلوب پاریلدا ییردی.

قیزغین صحبت اثناسینده اونلارك آغزلاریندان تیز- تیز «جنگل!»، «اتحاد اسلام!»، «میرزه کوچك خان!» کیبی سوزلر ایشیدیلنیردی. «میرزه کوچك خان؟.» لفظنی چوق آرتیق احترام و تعظیم ایله یاواشدان ذکر ایدیردیلر.

حسن‌ده نفسنی چیقارمادان بو سوزلری آرتیق دقتله دیگله‌ییردی.

— منیم عزیز و مهربان دوستلاریم! قدیم زمانلاردا سامانی‌لر عصرینده گرگانی طائفه سیندن اولان مشهور شاعر ابوصالحك او عاقلانه و مدرکانه سوزلرینی یادگزا سالیك! او ده‌ییرمشکه، قوی سنك قانیك توپراقلار اوستنده آقوب گیتسك؛ آنجاق ناموسینك تاپدالانماسینا، آیاقلار آلتینا دوشمه‌سینه هیچ وقت راضی اولما!...»

و بیرده بویوگلریمز بویله ده‌مشلر؛ «زحمت کشك، محنتکشك ناموسی اونك زحمتندن باشقا نه‌اولا بیله‌ر؟.»

بونا گوره‌ده فرنگیلرك غروشلار اوز زحمتگی ساتما!. چونکه او غروشلار عوضنده فرنگیلرسنك اك سوك قطره قانیگی‌دا ایچمه‌گه حاضردرلر!..»

حاجی‌زاهد فرنگیلر باره‌سنده دانشماقدان هیچ وقت یورولماز ایدی. اونك اطرافینه توپلانوب سوزلرینی جان- دلدن دیگله‌ینلری او یاقشی تانییردی. حاجی‌زاهد اوز فکرینی بویله شرح ایدیردی:

— من فرنگی دییرسه‌م هامو دوشونه‌جك که من کافرلری منظور دوتیرام؛ و آرتیق هوسله‌ده آرقامله گله‌جگلر...

فقط، بو گون من ثروتدار دیدیگیمده اهل ایمانلارك بر چوغی پریشان‌حال اولوب، قورقاراق مندن قاچارلار... البته، فرنگیلر آرامزدان قوغولدیقدان سوگرا ملکدار و بزرگانلارادا نوبه چاتاجاقدر. هر ایش اوز موسمنده گوریلمه‌لی!

گونلرك برینده، کومور کیبی قارالمش، و قورشاغا کیبی

چپلاق اولان بش نفر حمال‌لار حاجی زاهدك ایوینه گلوب ساکت ودقتلی برحالدا کاندردیلار. زاهد سوزینی بتیردیکدن سوکرا حمال‌لارك بریسی بواش سسله بیله دیدی:

ـ الله سنك کولکه‌کی بیزیم باشمیز اوستندن اکسیك ایتمه‌سین! بیز چوق شاد اولدیق که یه‌ده سنی اوز آرا- مزدا گوروب نصیحتلر یکه قولاق آسیریق: و سن گیتدیکك یول ایله گیدیریك؛ بیز سنه چوق خوش خبرلر گتیرمشیك.

حاجی زاهد بو سوزلرك جوابنده بیله دیدی:

ـ آنجاق خوش خبرلر ایشیتمکه حاضریق، پس خبرلر ایسه اوزلری گلوب بیزه چاتیرلار؛ و بیزیده همیشه مبارزه‌یه آماده تاپیرلار. خوش خبرلری ایشیتمك ایچونده همیشه حاضر اولمالییق ؛ چونکه او خبرلر بیزی حاضرلقسیز درك ایده‌رلرسه، البته دونوب بدخبر اولاجاقلار. ایمدی سویله گوروم!

ـ لنکراندان بیزه طرف قزل بایراقلی گمیلر حرکت ایدیرلر. فرنگیلرانزلینی بوشالدوب گیتمکه حاضرلاشیرلار. حربی لوازماتله یوکلنمش بویوك کاروانلار رشته طرف یوللاندیلار... بو ایشلره ایمدی سن نه دییه‌رسن، ای حاجی زاهد؟..

ـ من دییه‌رم که سیزلك منه گتیردیکگز بو خبرلر بو وقته‌قدر ایشیتمش اولدیقم خوش خبرلرك هاموسیندان باها قیمتلی خبرلردر.

بو سوزلری دییه‌ن شاعر آیاقا قالقوب اللرینی هوایه قالدیروب دیدی:

ـ چاتدی او زمانکه بیزده گرك آشکارا عصیان ایدوب نفرتلی فرنگیلری چگینلریمزدن ازاله ایدمك!.. قوی روسلارك گمیلریندن بزیم ساحللره طرف آتیلمش برنجی قومبارا بیزیم ایچون عصیان شعاری اولسون!

بو سوزلردن سوکرا حمال‌لارك بریسی حاجی زاهده بیله بر سوال وردی:

ـ حاجی، روسلارا امید باغلاماق اولورمی؟.

ـ ـ روسلاردا همان کافر فرنگیلر دگلدرلرمی؟

دییه‌رك حسن برکدن قشقیروب حیرتله حاجی زاهده باقدی و یه‌ده باشلادی:

ـ او روسلارك‌دا قیرمانجلاری او منفور اینگلیزلرك قیرمانجلاری قادار بیزی آغریتمیورمی؟

حاجی زاهد فرحلی برحالدا گولدی. اونك گولومسه‌ین صفتی حسنه ، دریا افقندن طلوع ایتمش بر گونش کیبی گوروندی. سوکرا حاجی زاهد هوندور سسله بیله جواب وبردی:

ـ سن حقلی‌سن، منیم عزیز قارداشم حسن! بو- راسینی دوغری ده‌یرسن که اینگلیزلرك‌ده، روسلارك‌ده ، ایرانلیلارك‌ده قیرمانج ضربه‌لری هپ بردرجه‌ده آغریدیر... او قیرمانجلارك آجینتیلاریداء اذیتلریده بردر. هیچ وقت اوموزلاریکی او قرمانجلارك آلتینا أه گمه‌مه‌لی!. او قرمانجلاری آغالارك اللریندن قاپوب اوزصفلرینه‌چیرپمالی!..

او آل بایراقلی گمیلرده گلن روسلاردا او صنف روسلاردر که اوز آغالارینك اللرینده کی قیرمانجلاری آلمشلار ، بو گون همان منفور فرنگیلرله برابر اوز آغالارینی‌داخی بیزیم‌ساحللردن قووالیورلار. بیزیم‌توپراق- لاریمز، میوه‌لریمز، منزللریمز بوروسلارا لازم ده گل.

بو حالدا همان‌روسلار دنیانیك اك مشهور ملکدار و ثروتدارلارندان بیله‌دولتلیدرلر؛ چونکه‌اونلار اوز ملکدار- لارینی، روحانیلرینی رد ایدوب بویوك و گنیش‌روسستا نه تمامیله مالك و صاحب‌اولمشلار. اونلارایسته یرلر که‌بیزده روسلار کیبی دولتلی و وارلی اولاق! عزیز دوستلاریم؛ ایتانیگز که منم سوزلریم‌دوغرودر و منده سیزی آلداتمیورام!

صبح تیزدن‌موذن‌اهل‌ایمانلاری‌نمازه دعوت‌ایتدیکی زمان بیزده شهر کوچه‌لریندە، بیچارلارا گیده‌ن یوللاردا و هر یئرده دوروب اعلان ایده‌ریك که شریعتك برپا و پایدار اولان وقتی چاتمشدر؛ بیزیم شریعتك حکمی بیله‌در: «کیم توپراغی اه کوب ، بجه‌ریسه اونك رنجیده رنجبرك اوزی و اولادی نیگدر !..» باقالم، او وقت کیم جرعت ایدوب منیم بو شعاریمه ردجواب ویره‌جگدر.

ـ انشاالله ، انشاالله !.. دیه‌رك حمالار اللرینی بیر تیکه چوره‌ك اوستینه. قویوب آند ایچدیلر که اوز سوزلریندن قاچماسونلار.

حمال‌لار گیتدیکدنصکرا حاجی زاهد حسنه دیدی:

پایزدا شمالدان اوچوشوب ئولکه‌مزه گلن قوش قطار لاری کیبی اورادان بیزه خوش خبرلر گلمکده‌در. ساعت به ساعت او خبرلرك مقداری آرتیر. منجیل جنگل- لرینده میرزه کوچك‌خان اوز الی‌آلتیندا یوزلرجه مسلح دسته‌لر تشکیل ایتمشدر. هر طرفدن کوکللیلر آقین ـ آقین اونك‌طرفینه‌توپلانیرلار. شاه سربازلاری اونلاری آقتاروب تاپادا بیلمزلر. جنگل چوق‌سرلری پنهان ایده بیلر. فقط بو یاووق گله‌جگده جنگل‌ده ایزینی میدانه آتاجاقدر. رمضان آیی‌چیقمامش بیز شاه وفرنگیلرك اسارت‌زنجیرلرینی بوینومزدان‌قیروب آتماغا موفق‌اولاجایق؛ من برایشدن نگرانم. کوچك خان چوق شجاعتلی‌در. فقط، او هر حالدا موللادر. او موهومات‌ه اینانماندر؛ او اوز گوجینه یوق ،

اللهه امید باغلایور؛ او اینگلیزلرك ظلمنی و شاه‌حکومتنی بزرگان و روحانیلر کومگیله دەویرمك فکرینده‌در ؛ حالبوکه روحانیلر و بزرگان آرتیق حیله‌کار واحتیاطلی اولوب اوز جانلارینك قورقوسیندان هله‌لیك اونی (کوچك‌خانی) أله ویرمیورلر.

حقیقت حالدا ایسه بو روحانیلر و بزرگان همه‌وقت او دشمنلریمزك پناه‌گاهی اولاجاقلار...

بو سوزلردن سوکرا حاجی زاهد فکره گیتدی. متفکر بر حالدا گوزلری یول چکیردی. بیرنیچه دقیقه‌دن سوکرا باشینی قالدیروب مسرور بر حالدا بو سوزلری علاوه ایتدی:

ـ قارداشم‌حسن؛ هرحالدا متردد قورقولارا قاپیلمامالی، گرەك همیشه گله‌جگه شن قلبله امید باغلامالی؛ و سنه یاردیم ایتمك خیالیله أمل اوزاتمش شخص، کیم اولورسه اولسون،اونی‌هیچ وقت‌رد ایتمه‌مه‌لی...وقارداشیم‌حاجی‌مبارکك آغیر تایلارینی چگینلریکده طاشیدیغك زمان الله سنه یار اولسون'.. چاتیر او زمان که،سنده او آغیر تایلاری چگینلر-- یگدن دریایه آتوب‌عوضینده اوموزلاریکا سلاح تاقاجاقسك!

من بونیدا گوزلجه بیلیرم که قارداشم حاجی مبارکده اوزطرفندن میشه‌دن گلن‌صدالری آرتیق هیجانله دیگله‌ییر.

من قارداشیم حاجی زاهدی دیلنچی‌لر و خیردا اصناف آراسندا گوردیم. قارداشیم اوخیردا! اصناف و دیلنچی‌لرله اوزینه برابر اولان دوستلاری کیبی صحبت ایدیردی. او عابد بنده‌لر کیبی، اطاعتلی بر صورتده فقرایه احسان پایلاییردی و بونیکله برابر آچیق ـ آیدین فرنگیلریده سوگوردی. قارداشیم حاجی‌مبارك چوق حیله‌کار، رند بر انسان‌در. او اوز ایشینی یاقشی بیلیر. اونك بو حرکتیندن آگلاماق لازم‌در که داها فرنگیلرك آخر گونلری چاتمش: اونلارك عمرلری تو کنمشدر. حاجی مبارك خودپسند بر آدمدر ؛ او هیچ وقت اوزیندن آلچاق آدملارا ان اوزاتماز. توز ایچینه یقیلمش بر انسان قاباغینا چیقارسه اونا اعتنا ایتمز اما ایمدی او گوریر که قدملری آلتیندا کی توز دهشتلی برطوفانه جولقاشوب آسمانه بلند اولماقدادر: واونا گوره‌ده حاجی مبارك مسجده گیردیگی زمان عبادتکار بر طرزده نعاین‌لرینی چیقاران کیبی ، او توزلاری تابدالایوب کیچمك ایسته‌میور.

منیم گنج رفیقم؛ گیت یات، و بو گون ایشله‌دیگك زمان آلنگدان توکولمش‌اولان ته‌رلره هیچ وقت افسوس ایتمه؛ سنك آلنگدان توکولمش تەر داملالاریله ایسلانمش توپراقلارا صباح‌مالك اولاجاغیگا قانع اول!. سنك‌باردیمك لازم اولدیغی زمان سنه خبر ویریله‌جگدر.

دوغریداندا حسنك‌باردیمینا چوق تیز برزماندا احتیاج گورولدی:

مای گیجه‌لرینك بری ایدی،هله آی تمامیله قرصه‌لنمه‌مشدی،دمشق یاتاغانی(قەمەسی) شکلنده اولدیغی حالدا اویقویا دالمش انزلینك اوستینده ایشیقلانیردی. بوحالدا حاجی‌زاهد بویوك بر احتیاط ایله اوز رفیقنی یوقودان اویاُدیردی:

ـ حسن قالق! یاتماق زمانی ده‌گل! قوی گتیردیگم خبرلر سنك یورولمش دیزلریکه قوت ویرسونلر . بیزیم بورادا داها هیچ بر ایشیمز قالمامش. بوندان سوکرا بیزیم بورادا کی ایشلریمزی ، دریا ساحلنده کی گمیلرله گلمش آدملار باشا آپارارلار، کیدەك !...

حسن، یاتدیغی حصیرك اوستیندن جلد قالقوب اوز رفیقینك دالسینجا دوشدی . باغلاری کیچندن سوکرا، همیشه یولك کولگه طرفیله حرکت ایده‌رك آهسته‌جه بر نیچه چەپەرلردن آشوب آخردا مردآب کنارینه یتیشدیلر.

بورادا قامشلار آراسیندا گیزله‌دیلمش بر کره‌جی‌یی تاپدیلار . کره‌جی‌نك ایچینده بیر نیچه نفر باشقالاریدا بونلاری گوزلیور ایمشلر . کره‌جی‌یی آوارلار واسطه‌سیله سورمك لازم گورولدی ؛ چونکه چیچه کلنمش باغلارك عطرلی و شیرین رایحه‌سیله دولمش گیجه‌نك نرم وساکت هواسی کره‌جی‌نك یلکاتی دولدوروب اونی سورمکدن عاجز ایدی. آنجاق لطیف و گوموش کیبی پاریلدایان و خاموش آردی کسیلمه‌ین بر شیریلتی کره‌جی‌نك دالینجا ایشیدیلمکده‌ایدی.

یولچیلار مردآبك قارشوداکی ساحلینه یتیشینجه‌یه قدر برکلمه بیله دانیشمایوردیلار. بو طرفده، قالین قامیشلقلار آراسیندا یولچیلار بیر نیچه آت ونیچه نفرده تفنك وخنجرلرله مسلح کندیلریله راست کلدیلر.

بو کوچك دسته بر آزچای کناریله یول گیدوب پیربازار قصبه‌سینه یتیشدی بورادا بش‌نفرده مسلح‌سواریلر بونلارا قوشولوب رشت یولونا دوزولدیلر.

پیربازاردان رشته، تخمیناً سکز ویرست هموار تاپدانمش اوزون بر یول چکیلمشدر . ایکی طرفدن بیچارلار، (دوکی اکیناری) توت باغلاری ایله آرالیغا آلنمش بو یول آرا بیر تپه و دەره‌جیگلره‌ده راست گلیر . یول اوزونی تپه و دەره‌جیگلر آراسیندا کی کندلرك آغ و قشنك ایوجیگاری قالین آغاجلار، و قوجامان قامیشلیقلار راست گلیردیلر.

ده‌ره‌لردن‌رطوبت ووروردی. بلبللرده سو قورباغالاریله بحث ایده‌رك اوز نغمه‌لریله الله حمد ثالرینی کوندریردیلر.

حسن به‌ره‌لمش گوزلریله اطرافی تماشا ایدوب‌شاد ـ لیقدان یوره کی یرندن چیقوب اوچماق ایسته‌یوردی. بوحالدا آتا مینوب‌نه‌ره‌یه ونه ایچون گیتدیکنی حسنه هله‌ده آنلاتمامشدیلار. فقط حسن اوزینده بر حربجولق حسی دویوب گیت گیده قیزیشیردی. آرقاسیندان آسلمش وینتوفقایی تیز ـ تیز الیله یاپیشوب، جیبلاق آیاقلارینی‌دا آتیك تەرلی‌بو گورلرینه سیخوردی. حسنه‌یله گورونوردی که‌بودر، بوهوندور قامشلیقلارك آراسیندان فرنگیلر چیقوب اونك یولونی کسه‌جکلر؛ و اودا فرنگیلرله تك ـ به‌تك مبارزه‌یه گیریشه‌جکدر. هر دفعه قاباقدان بر کولکه گورونوب ویا که بیر ایت میریلتی‌سی ایشیدیلن کیبی‌حسن او آن‌ده آماده اولوب آجیقدان قان باشینا سیچرایییردی. حسنك نظرینده جلوه‌لنمش دشمنه قارشو قلبنده کی نفرت و عداوت حسیاتی گیتدیکجه اونی قاپلایوب غالبیت نداسی اولان:

ـ یاحسین، یاحسن!..

دیه‌رك فریاد ایتمگدن اوزینی زور ایله ساقلییردی. بو دسته‌نك یولی صحرادن ایدی.

آتلیلار متفکر و ساکت حالدایول گیدیردیلر. باشلارینداکی قویون ده‌ریسیندن ایری پاپاقلاری قاشلارینك اوستینه أیندیریلوب‌توکلری‌پریشان ساققالللی یوزلرینی‌ده باسمشدیلار.

کیلکه یوندان توقونمش قارانتور رنگلی (پسته‌ك) قولسیز دوشدیگلر تو کلی دوشلرینی اورتمشدی. آتلیلارك عمر ـ لری اوزونی اوزاق یول‌لارك باتداقلارینی تاپدالامش یاستی و چپلاق دابانلاری، گیجه و گوندوز دوام ایدن چوق آغیر زحمتلرك آثیندا عاجز قالوب ئه گیلمش اولان اوموزلاری بو آتلیلارك برمجاهد ومبارز اولدوقلا ـ رینی ایلك یاقشیدا اصلا گوسترمیوردیلر.

بو آتلیلارك یەهر اوستده اوتوروشلارینا باقدیقدا آنجاق بونی دیمك اولاردی که بو کندلیلر اوزون گونی اوز ایشلرینده زحمت چیکوب ایمدیده ایولرینه قایدیرلار. آتلیلارك یانلارینداناللانمش قلیج و تفنگلری لزومسیز بر شیلر کیبی سیلکه‌له‌نیردیلر.

بوتون بو ظاهری گورونوشلره باقمیاراق حقیقت حالدا ایسه بو آتلیلار یئده انقلابچی و مجاهد ایدیلر.

آتلیلارك بعضیسی دوقوزیوز آلتنجی یيل عصیانینده اشتراك ایتمشدیلر. ایران حبسخانه‌لرینی گورمه‌یوب، اورادا کی «چوب‌فلقه» جزا ـ سینی دادمیانلاردان بو آتلیلارك آراسیندا بر کیشی تاپیلمازایدی بو نلارك چوغی یالیکز تصادفی اولاراق باشلا رینی اعدام جزاسیندن خلاص ایده‌بیلمشدیلر. ئیللر اوزونی یاریم کوچه‌ری حالدا، آج



بو طرفده، قالین قامیشلقلار آراسیندا یولچیلار برنیچه آت ونیچه نفرده‌تفنك وخنجرله مسلح کندلیلره راست گلدیلر.

خوش گلیر

چادرادان آیریلمش آذرك قیزی،
بلبلی جوشدورور، گله خوش گلیر.
او قیایج قاشلاری، او کومور گوزی،
باقدیقجا کوگلومه، گله‌خوش گلیر.

آذرك قیزلاری اوقویار، یازار،
یانیق سحرالری ایدر لاله زار.
گل آرا، گلچهره، گللی، گلعزار،
دیدیگجه آغیزا، دیله خوش گلیر.

به‌زه گدر او گللر بیزیم ئیللره،
درماندر سوزلری سوسموش دیللره.
آزاده سالانان، قارا تئللره.
توقونماق هر زمان ئله خوش گلیر.

قارانلق ایولره چرا (چراغ)در اونلار،
خسته کوگوللره چاره‌در اونلار.
یه‌گیلیك دورانی یارادیر اونلار،
دنیا مگا بوندان بیله خوش گلیر.

آذری قیزلاری، دورو در قانیك!
بوراقما سن الدن اوقیك، کمانیك!
یوزیگه بر دونوم ئه‌گری باقانیك
اوقلارك گوزینی دله خوش گلیر.

ثانیلی

ویالاواج، اوزگه کندلرده گیزلنمگله عمر سورورلردیلر. بو قدر احتیاج و اذیتلره باقمیاراق اوز محکم عقیده‌لرینده بر آن بیله سستلشمه‌مشدیلر.

حاجی زاهد بوراسینی یاقشی بیلیردی. اوز دسته‌سینك انقلابی مردانه‌لیگلرینه اعتمادلی بر صورتده امین اولا‌بیلردی. موردارلارا قارشو مجاهدلرك یوره گلرینده نفرت حسیاتی اویاندیرماق ایچون تبلیغاته هیچده لزوم یوق ایدی...

اللهه باغلانمش امیدلرك حقیقی قیمتلرینی بو مجاهدلر چوقدان دوشونمشدیلر. اونلار بونی درك ایتمشدیلر که ایستر فرنگی اولسون، ایسترسه شیعه اولسون اونلارك هاموسینك یگانه ورحمسیز دشمنلری وار که اودا ثروتدار و دولتلی‌دن عبارت‌در. بوسبیدنده اونلاراوز یول‌لارینی ساکت وراحت برحالدا گیئدیردیلر. انسان اوزمقصد و آرزوسینی معین ایتدیگدن سوگرا باشقا طرفلره چه‌وریلمه‌یوب خیالاره‌ده قاپیلماز.

حتی، حاجی زاهددده کیچن گون بو سوزلری سویله‌مشدی، حسن بوسوزلری خاطرلایان کیبی فکره گیتدی...

شرق‌دن، طالش داغلارینك تپه‌سندن هوا آچیلماغا باشلامشدی. ناگهان توپ کوللهسینك سسی صبح هواسینی طالغالاندیردی. کیتدیگجه بوسس‌هوا طالغالاری آراسندا گنیشله‌یوب دریا کناریندهکی رشتك داش قلعه دیوارلاری اوستنده عکس صدا ویرمگه باشلادی.

آتلار دیکسینوب قولاقلارینی شیکله‌یوب دوردیلار. حاجی زاهد آت اوستنده، اوزه‌نگیلری اوسته قالقوب یوزینی اترلی‌یه طرف چه‌ویروب بوسسی دیگله‌دی. اونك گوزلرینده سرور و طنطنه‌لی بر شفق پارلادی.

— اولار گلدیلر!..

ده‌یوب، آنی قاچاراق شهره طرف دونده‌ردی... اونك دالیسنجا باشقالاریدا چاپدیلار.

بیته‌دی.

„تونج آی“ رومانی „آذرنشر“ طرفندن خصوصی بر کتابچه شکلنده نشر ایدیله‌جکدر.

مریدلیگك تورتوکونتوسی

اسلام آراسندا موهوماتك قوه‌لشمه‌سنه بر سبب‌ده شیخلیك و مریدلك ایدی.

شیخلك آوانتیوراسنك ایچروسنده اقتصادی و سیاسی بر مسئله وار ایدی که بوندان عبارتدر: او آده‌لر که شیخلك منصبنی داشییرلار اونلار اوزلرینی تأمیندن باشقا کله‌جك نسللری ایچون ده بریر حاضرلایورلار بو شیخلك اسلا میتله باهم آذربایجانك سنی لری آراسندا انتشار تاپمش ایدی.

بو شیخلر اوز نفوذلرینی یوکسلتمك و اقتصادجه حال‌لارینی گوزه‌للشدیرمك ایچون باشلارینا مریدلر جمع ایدردی که بونلار شیخلرك تبلیغاتجی‌سی حساب ایدیلیردی.

آشکار بر مسئله‌در که وهو ماته‌اینانان، جهالتده وقارانلقدا قالان بر کتله اولابیله‌ر. بو کتله‌ده شیخلگه‌ك برینجی اعتقاد ایدن قادینلار ایدی.

شیخلرك مریدلرینك برعباد تلری وار که بوگا (سلسله) دیورلر. بوسلسله‌ده قادینلاردا اشتراك ایدیرلر. بو اویون قارانلق‌دا لامیالار سوندورو- له‌رك اوینانیلیر.

بو شیخلر هربر جهتجه کتله‌یی هم استثمار، همده استفاده ایدیرلردی.

آنجاق حجاب آلتندا قالان باجیلارینمز بوگا بووقتده‌دك اعتقاد ایدیرلر.

بوشیخلرك تورتوکونتو لرندن بیریده نوخا قضاسنك 4 نجی دائره‌سی زاراغان کندینده ملامحمد آدیندا بر آدم‌در. بو آدم قره‌شینلی، کودك‌بویلی، سوادسز بر شخص‌در. ملا محمد کندلره چیقوبدا اوز دعالرینی قادینلارینمزا ویره‌رایمش ملا محمد پادار کند شوراسی کاتبی طرفندن دردست اولونار. بو آدمك النده بالاجابر خالچه دوتولمشدر بو آدم. بوخالچه‌نك ساچاقلارینی کسه‌رك قادینلارا 4 پوت بوغدایا ساتار ایمش. هانکی قادین خالچه‌نك ساچاغنی قورشاغینا باغلارسه حامله قالاجاغینا قطعی امید باغلیور ایمش. نیجه که خالچه‌نك‌دا ساچاقلاریندان بیر حصه‌سی (شکلده) کسیلوب ساتیلمشدر.



تحقیقات نتیجه‌سینده آشکار اولور که بو آدم اخلاقسز بر آدم‌ایمش و گوستردیکی خالچه‌نیده داغستاندا بیر کندن اوغورلامشدر.

قادینلارینمز بویله‌بیرتیپلردن کندیلرینه و چوجوقلارینا امید، امداد گوزلیور ایمشلر.

بوگون عصرك بویوك ترقی‌سی، ومدنیت انکشافی دورینده بویله‌لرینه اویماق حیاتنی زهراه‌مك قادینلارینمز جگر گوشه‌لرینی محو ایتمك دیمکدر. بویله تیپلر قادینلا ری‌دوقتوردان تداویدن اوزاقلاشد یرآراق معالجه‌سیز قالمالارینا سبب اولورلار. بویله عنصرلره جدی مبارزه آپارمالی!.. بونلاری ته‌یه‌له مه‌لی: بونلاری مضرعنصر بیله‌رك دیشیکلره آتمالی! داها قادینلارینمز، جاهللرینمز بویله‌لرینه آلدانمیاراق ناخوشلق، بدبختلك یوز ویردیگده دوقتورا قاچمالی، هکیمه‌ره یاناشمالی‌درلر.

مکه شهری جده لیمانی واسطه‌سیله خارجی تجارتدن استفاده ایدیر؛ مدینه داخی ینبع لیماندان نفس آلیردی. آنجاق کاروان یوللارینا و نقلیات واسطه‌لرینه مالك‌اولمایان حجاز بوایکی لیمانك اقتصادی‌اهمیتندن استفاده‌ایده‌بیلمیردی.

بونك ایچون‌ده لیمانلاریك استفاده‌سی یالگز مدینه و مکه شهریك ئوزینه مخصوص اولاراق قالیردی. اودرـ که: هم‌مکه، هم‌ده مدینه عربلری‌ایچریسنده آریستوقرات و اصیل‌زاده صنفی دوغماغا باشلامشدی. مکه آریستوقرا تیاسی بربرلریله مبارزه آپاریر و اقتصادی منبعلری اله کیتیرمگه چالیشردی. مکه‌ده گلیر منبعی کعبه کلیددارلغی و مکه‌نك کناریندہ اولان یارمارقالاریك اداره‌سندن‌عبارت ایدی. اسلام دینینی دوزه‌لده‌ن محمدك باباسی و اونك عموسی اوغلانلاری مکه آریستوقراتیاسنك الك باشچیلاری ایدی. بونلار، بربرلریله مبارزه آپاریردی. کاه اوطرف، کاه بوطرف غالب اولوردی. نهایت دین گتیرمك محمدی ئوز دشمنلرینه غالب چیقارتدی. محمددن سوگرا خلیفه‌لر دورینده محمدك عموسی اوغلی علی و اونك اوغلانلا ری حکومتی الده ایده‌مه‌دیگلریندن و اونلاریك‌بابا دشمنلری ایش باشنا گلدیگیندن بو مبارزه ینه‌ده تازالاندی. سیاسی مبارزه‌لرده غالب کلمك‌ایچون‌مبارزه‌لره‌دیگی‌برر نك‌ویریلدی.

امامت‌چیلر، اجماع (اکثریت)چیلر) آرالیغا چیقدی. خلیفه‌لردن سوگرا عرب ایمپراطورلغی قورماق ایسته‌ین امویلر ایله علی‌عائله‌سنك مبارزه‌سی باشلاندی. حسن (علی نك اوغلی) ئوز حقنی معاویه‌یه پول مقابله ساتوب صلح ایتدی‌سه‌ده اونك قارداشی‌حسین: «پول‌لازم ده گل حکومت لازدر» دیدیکی ایچون کربلا حادثه‌سنك وجوده کلمه سنه سبب اولدی. اوگا برطرفدن کوفه‌لیلر، اوبری‌طرفدن عرب زنجیریندن قورتارماق ایسته‌ین ایرانلیلار یاردیم ویرمشدی. حسین بو مظفریتی تامین ایتمك ایچون صوك ساسانی حکمداری یزدجردك jezid çurd قیزینی آلماقلا ایرانلیلارایله قوهوم اولمشدی.

فقط بووعد بیزانس عظمتی ارزه‌رینده قورولمش‌اموی سلطنتنی بیقا بلمه‌دیکندن حسین بدوی قهرمانلغنه عاید بر شجاعتله بویوك براوردویه قارشو دوراراق محواولمشدی.

حسین‌ك بو حادثه‌سی ایراندا بویوك غوغالارا سبب اولدی. حتی کوفه‌ده اموی سلطنتنه قارشو دوران مختاره یاردیم ایتدیلرسه بر ایش گوره‌مدیلر. آنجاق ایرانلیلار تبلیغات واسطه‌سیله غالب گله‌رك نهایت عباسیلره یاردیم ایتمگه امویلری محو ایتمگه موفق اولدیلار.

بونگله برابر علویلر ینه‌ده ساکت اولمیاراق حکوـ مته کیچمه‌لرینه یاردیم ایتدیگلری عباسیلره قارشو دوشمانه حرکتده بولوندیلار، قریلدیلار، داغیلدیلار... بونك ایچوندہ ایرانلیلاربونلارا تعزیه ساقلاماق، عاشورادوزه‌لتمگله شیعه‌لكك اساسنی محکم ایتمك ایسته‌دیلر. کربلاشهری شیعه‌لریك عباسیلره قارشو گیزلین تشکیلات دوزلتمك ایچون گیزلین مرکزی کسیلدی. بوگاگوره عباسیلردن متوکل زیارت کاهلاری‌داغیتدی. کربلایه کیتمگی‌قده‌غن‌ایتدی.

لاکن بو تدبیرلر ینه‌ده یاردیم‌ایتمه‌دی. علویلرخارجی اینتریقانك بر آلتی کسیله‌رك دائما مبارزه‌ده بولوندیلار. بو مبارزه‌لردن چیقان داخلی عصیانلار حکومتی ضعیفلتدی. گونلریك برینده مغوللاریك دهشتلی هجوملاری قارشوسندا دوام ایده‌میه‌ن عباسیلر محو اولدی. بغداديك دور اقبالنه خاتمه چیکلدی.

ایندی باقالم-شیعه سنی مسئله‌سی نیجه اولدی؟

بو مسئله یه‌ده عباسیلرك پریشان ئولكه‌لری ئوزه‌رینده حكومت قورمش ایرانلیلارلا تورکلریك محاربه سلاحی كسیلدی. ایرانلیلار ئوز مرثیه‌خانلای و تبلیغاتچیلاری واسطه‌سیله شرقی آناطولنی بر شیعه تشكیلاتی یوواسینا دونده‌ردی. تورك ایله ایرانلیلاریك بو مسئله اوزه‌رینده آچدیقلاری 17 محاربه‌ده یوز بیكلرجه آدام قیریلدی. صفویلریك بیتمه‌سی نتیجه‌سنده ایراندا حكمدار اولمش نادرشاه بوتون شیعه‌سنی مسئله‌سنه نهایت ویرمك ایسته‌دی. حكومت حسابنه ساقلانان تبلیغاتجی درویشلر، مرثیه‌خانلاری دوبورماق ایچون حكومت بودجه‌سی اولمادیغندان بو مفته‌خورلار جماعت حسابنا یاشاماغا باشلادی. مرثیه‌خانلق تنبللر، صنعت‌سزلر ایچون بر صنعت اولدی. او زمانه قادارحكمدارلق آرزوسندا اولان طباطبائی، راوندی، بابك، و ابوالسرایالارا abussəraja ساتیلوب اغتشاش سالان علویلر سید آدلاناراق قارینلارینی اوتارماق ایچون شاه‌لاریك، ملكدارلاریك خان وبكلریك قاپوسیناسوخولدیلار. اوزماندان باشلیاراق یكی بر دور آچیلدی.

اودور داخی مفته خورلاریك بك خان و ملكدارلار حتی پادشاه‌لار طرفندن استفاده اولوندیغی دوردر. مفته‌خورلار استمارچیلاریك موقعنی محكم ایتمك ایچون آشاغی طبقه‌نی دنیادن ایگره‌ندیردی. صوفی‌لگه تشویق ایتدی، هر بر ظلمه قارشو صبر ایتمگه، الله تو گل قیلماغا آلیشدیردی. بونك ایچوندە قول‌اوق، كوله‌لك دوری آچیلدی. آشاغی طبقه اوزی ایچون ده گل اوزگه‌لرایچون ایشلیوب نامردجه‌سنه برصورتد. استمارایدیلدی. یوقاریدان به‌ری گوردیك كه: بو حادثه‌لر نه اوستونده باشلامش و نه كبی بر نتیجه ویرمشدر.

شورا حكومتی بونلاری آرادان قالدیرماق ایچون مكتبلریك قاپوسینی آچدی. استمارچیلاریك علم اطرافنه بیر اقمادینی آشاغی طبقه‌نی برنجی نوبه‌ده مكتبه آلماغاموهوماتك، جهالتك لغوینه چالشدی. قلوبلار، قرائت‌خانه‌لرقروژوقلاریك هاموسی بوموهوماتك آرادان قالدیریلماسی ایچون تشكیل اولونان موسسه‌لردركه: بورادان برامگچی استفاده ایتمه‌لیدر.

بو موسسه‌لردن تورك قادینلارینك داهادا آرتق استفاده ایتمه‌سی لازمدر. چوق تاسف ایدیله‌جك بر حالدر كه: تورك ایشچی قادینلاری و تورك عوام قادینلاری تورك امكچی كشیلری قدمر بو موهوماتی آتا بیلمه‌مشدر. بونك سببی اونلاریك جمعیته قوشولماماسی و قلوب قرائت خانه ایشلرینه هوسله دقت‌ویرمه‌مه‌لریدر. بونك ایچونده محرم‌اك مفته‌خورلاری و سایر تنبل عنصرلر هله‌لك تورك قادینلارینك موهوماتندن استفاده ایدیرلر. بو گون سهو ایتمیرم‌سه باكودا موجود قادین مرثیه‌خانلارینك مقداری كیشی‌مرثیه‌خانلارینداں قات قات آرتقدر. محرم گونلری تورك قادینلارینك دسته دسته اولوب همان مرثیه رزالت خانه‌لرینه گیتدیكی دوغروداندا موهوماتنی آتمش‌ده‌رلریك وعلملی، معرفتلی قادینلاریك بوینیندا اولان ایفا ایدیلمه‌مش بر وظیفه كبی‌در. كرك علملی قادین وموهوماتنی آتمش كشیلر قادینلاری‌قورتارماغا چالیشسین‌لار! چونكه‌قادینلاریك موهومات ایچریسنده یاشاماسی اونلاریك قوجاقلاریندا بسله‌دیگی چوجقلارادا تأثیر ایدیر چوجوقلار بر گنج اولورکن ئوزینی بو موهوماتك پنجه‌سنده گورير.

هرحالداقادینلارئوز موهومات‌ایله اولان‌مبارزه‌جبهه‌لرینی گوجلندیرمه‌لی ومحرم‌لك موهوماتنه ضربت ووورمالیدرلار!..

محمد سعید اوردوبادی.

بیوروقراتیزم و اونگله مبارزه.

1 - بیوروقراتیزم نه‌در ؟

ئولکه‌مزیك اهالیسی باشقا آوروپا ئولکه‌لرنیك اهالیسنه نسبتاً مدنی جهتجه گیروده قالمشدی. ئولکه‌مزیك صنایعی، کند تصرفاتی، یوللار رابطه‌سی چوق ضعیف حالدا ایدی. اهالی‌مزیك چوغی سوادسیز، بیلیك‌سیز ایدی. اودر که بو شرائط بزیم ئولکه‌مزده بیوروقراتیزم ایچون گه‌نیش بر میدان آچیردی، کوهنه بورژوآزیا حکومتلرینك اصول اداره‌لری بیوروقراتیزمك اوجاغی ایدی.

ایمدی باخاق، کوهنه حکومتك یرینه شوراحکومتی قورولاندانسو گرا بوشرائط پوزولورمی؟ هر بر زحمتکش بوگا بویله جواب ویره‌جکدر: بزیم حکومت اداره‌لرمز ایله سابق حکومتلریك اداره‌لری آراسندا فرق چوقدر، بزیم حکومت اداره‌لریمز زحمتکش‌لریك آراسندان عمله گلمش و آنجاق اونلاریك اشترا کی ایله دولانیر.

بزیم حکومت و اجتماعی اداره و موسسه‌لریمزك مسئول ایشچی‌لری زحمکش‌لردن‌سه‌چیلوبدرلر، اونلار بوزحمتکش لریك قارشوسندا مسئول‌درلر، اونلار ئوز سه‌چگیچیلرینه آنچوت ویریرلر. لاکن کیچمش حکومت‌لرده مسئول‌چینو ونیك‌لر تعین اولنوب، اون‌یللر ایله اداره‌لرده یاتیردیلار.

بوفرقه کوره گره‌ك بزیم اداره‌لریمزده بیوروقراتیزم اولمایا ایدی فقط بیوروقراتیزم نه‌دن ایسه یئه‌ده یاشایور،

پس سبب نه‌در؟ سبب اوندادر که بزیم اداره‌لریمزده چالیشان کیچمش‌دن قالمش خدمتچیلر هله چوقدر. اونلاریك بر حصه‌سی یگی شرائطه اویغون چالیشمایور. شوراحکومتی بوتون وارقوه‌سی ایله چالیشیر که کوهنه اصول ایله‌تربیه لنمش ویگی شرائطه موافق ئوزینی اویغونلاشدیرایله‌مین خدمتچیلری زحمتکش‌لریك آراسندان چیقمیش خدمتچیلر ایله‌ده گیشدیرسون، بوگا کوره‌ده زحمتکش‌لریك معارف ایشینه تاریخده مثالی کورولمیه‌ن درجه‌ده دقت ویریلیر.

ئولکه‌مزیك صنایعی و بوتون خلق تصرفاتی دخی گر- وده قالمشدر: بوگون شورالار حکومتنك سیاستی بودر که، خلق تصرفاتنی بو کسه‌ك بر درجه‌یه کتیرسون، صنایعی تکمیللشدیر سون، لازمه‌لی مالالریك عمله گلمه‌سنی ئوز داخلمزده آرتیرسون، صنایعی یگی اصول ایله قورسون، کند تصرفاتنی سابق سولغون حالدن خلاص ایدوب سوسیالیزم اصولی تصرفاته اویغونلاشدیرسون والخ... بوکون بو سیاست ئوز نتیجه‌سنی گوسته‌ریر. فقط، نه‌قدر که بو فعالیتمزی باشا کیبی آپارمامشیق، نه‌قدر که بزیم ئولکه‌مزده تصرفاتك بوسبوتون حصه‌لری سوسیالیزم حالنه کیچمه‌مشدر وسوك درجه موفقیته نائل اولمامشیق بیوروقراتیزم بزیمله واردر.

بیوروقراتیزم ایله‌بیزبوتون شوراحکومتی دوامنده مبارزه آپارمشیق . بر قورولتای ، بر قونفرانسه اولمامش که اورادا بو مسئله حقنده دانیشیلماسین. بوکون بزیم ئولکه‌مزیك صنایعی‌یگی اصوللار ایله قورولماغاباشلا- دیقدا، بوکون قیمتلر مسئله‌سنه‌بزبیوك اهمیت ویردیگده. بو مسئله‌یه‌ده شدتلی صورتده بزیم قارشومزدا دورمشدر.

صنایعمزیك تکمیللشمه‌سی بزیم قارشومزدا آغر وظیفه لر قالدیریر بووظیفه‌لر: بزیم آپاراتمزیك فعالیتنی یاقشیلاشد- یرماق، اونك آیری - آیری حصه‌لرینی موافق صورتده قورماق، اونلاریك‌مسئول‌ایشچیلرینی، فعالیتسیز اولارلارسا، یگی‌لتمك والخ....

صنایعمزیك انکشافی ایچون بز آرتق در-ه‌ده سر مایه توپلامالیز؛ بو ایسه بزدن طلب ایدیر که، بزیم آپاراتمز اوجوز باشا گلسین، آزپارا ئوزینه صرف ایله‌سون و بو آپارات نهایت درجه ساده‌لشسون صنایع مالالرینك قیمتلرینك اه‌ندیریلمه‌سی و بومالالریك بره اوجوز تمام‌اولماسی، اوجوز عمله گلمه‌سی بزیم آپاراتلاریمزدا یاشایان تصرفاتسیز چیلغی، سوروندرومه‌نی وسهلنکارلیغی آرادان چیقارتماغی سوریر. بزیم اداره‌لریمز نهایت درجه کاغذ سوروندور مه‌سندن بوغولورلار. بزیم اداره‌لریمزئوز ایشلرینی اونلارجا قومیسیالردن کیچیریرلر ایش پلانی‌قبول اولونینجا اونلارجا باشقااداره‌لرده‌تحقیق‌تصدیق‌اولمالیدر. براداره‌نك بو ایسه‌بر ایشی کورمك‌ایچون لازم اولمایان‌قادار اداره‌لر، تشکیلاتلار یاراتیر. تك برجه ایشی اونلارجا قومیسیون‌لر اداره‌لر تشکیلاتلار واسطه‌سیله یرتمك آخردا بو ایشك اوستنده مسئولیتجی لگی یوقا چیقاریر. معلوم اولمیر که کیم نه ایشه مسئول‌در، کیم جوابده‌در. چوق وقت بر ایشك‌حیاتم کیچریلمه‌سنده یاخوداونك نقصانلارینداکیم مقصر اولماسی آختاریلوب، تاپیلمایور. چونکه اوستنده آنجاق بر نفرشخص مسئول دگل، اونلارجا اداره‌لر، تشکیلاتلار مقصردرلر. بویله ایشلرده مقصرلری آرایوب تاپماق ممکن اولمایور. بیله‌اولدیقدا بوایش‌پلانی‌تصدیق‌اولونینجانیچه آیلارلاله‌نکه‌یور.

بوباره‌ده 15 نجی فرقه‌قونفرانسی دیمشکه: بیوروقراتیزم شورا حکومتنك دورنده بربیوك دشمندر. بودشمن خصوصا

بو کون که بزیم ئولکه‌مز ئوز تصرفاتنی یکی‌دن قوریر، نهایت درجه قورقولیدر. بیوروقراتیق آپاراتنك باها قیمته باشا گلمه‌سی، تعجیلی قورولوشی مسئله‌لرینگ حلنده دوام ایده‌ن سوروندورمه، چوق وقت فرقه‌نك و شوراحکومتنك دیره‌قتیفلرینی یا گلیش دوشونمه‌ك - بونلار هاموسی قورو - لوشمزیك ایلریلمه‌سنه بیوك مانع سببلردر. یکی تصرفاتمز وظیفه‌لرینه موافق ایشده یالگز خردا نقصانلاری بزیم اداره‌لریمزده یوقاچیقار تماقلا کافی اولماق لازم‌دگلدر. لازمدر که تصرفات اداره‌لریمزیك بوتون سیاستنی کوزدن کیچرتمك و اونی یکی‌دن ایله قورماق که او؛ اوجوز باشا کلسین وساده‌لشسین.

مسئله‌یی آیدینلاشدیرماق ایچوق دیمه‌لیز که، بیوروقرا - تیزم دیدیکمز شئی یالگز بزیم اداره‌لریمزیك تخنیقی جهته پیس قورولماسندان عبارت دگلدر. آوروپائوله‌لرنیك چوقیسندا اداره‌لر قورولوشی تخنیقی جهتجه کوزل بر صورته‌در، فقط بیوروقراتیزام ایسه اونلاردا کوزلجه‌سنه یاشایور.

بزیم اداره‌لریمزده بیوروقراتیزم همی تخنیقی قورولوش جهتجه ضعیف‌لکی دوام ایدیر، همی‌ده اوگا کوره که زحمتکش کته‌دن چیقمش اولان، ایشچی - کندلی اداره‌سی زحمتکشلردن اوزاقلاشیر و اونلاریك باشلاری اوستنده دوران بر شکله دونیر. زحمتکش‌لر طرفندن سه‌چیلمش اداره‌لر ئوز سه‌چکیجی‌لرینه لایقنجه آتچوت (حق‌حساب) ویرمه‌یورلر. سه‌چگیجی‌لر اونلاریك فعالیتلرینی لازمنجه تحقیق ایده‌بیلمیرلر. هر بر شورا عضویندن سورسا گز که او؛ ئوز سه‌چکیجی‌لرینه منتظم صورتده حق‌حساب ویریر، یوق جوابنی ایشیده‌رسگز.

2 - بیوروقراتیزم ایله مبارزه یوللاری.

بزم حکومت قورولوشمز بیوروقراتیزام ایله مبارزه ایچون گه‌نیش امکان ویریر. بزیم حکومت قورولوشمز ایله بورژوآزیا حکومتی قورولوشنك تفاوتی دخی بوندادر. بز ئوز حکومتمزه گه‌نیش زحمتکش کتله‌لرینی جلب ایدیریگ. بزیم حکومتمز زحمتکش‌لریك ئوز اداره‌لریدر، اما بورژوآزیا حکومتی یالگز چینوونیکلر دولاندیریرلار. بو گا کوره‌ده، بزم اداره‌لریمزده اولان بیوروقراتیزم وقتیله محو اولوب کیده‌جکدر. بیوروقراتیزمك بزیم اداره‌لریمزده عمری زحمکش کتله‌لریك فعالیتندن آسیلیدر. اودر که یولداش له‌نین و بزیم فرقه قورولتایی و قونفرانسلاریمز زحمتکش کتله‌لرینك اداره‌لرده ایشه جلب اولونمالارینا آرتق درجه اهمیت ویرمشلردر.

بیوروقراتیزم ایله مبارزه ایده‌ن مهم اورغانمز ایشچی کندلی مفتشلکی‌در. فقط اگر کتله‌لریك بوایشده اشتراکی اولمازسا، بو اورغان موفقیت قازانا بیلمه‌یه جکدر. یولداش له‌نین دیمشدر که ایشچی - کندلی مفتشلکی ئوزینی بر دولتی اداره مکتبی اولاراق، زحمتکش کتله‌لری ئوز باشنا توپلامالیدر. زحمتکشلر؛ بو اورغان واسطه‌سیله ئوز اداره‌لرینی آشاغیدان یوقاری یه کبی قونترول آلتینا آلمش اولورلار. قونترول ایشی بزیم اداره‌لریمزك سیاستنده دائمی برمحکم یر دوتمالیدر. زحمتکشلر؛ اداره‌لرده اولان نقصانلاری سهلنکارلیغی، صورووندورمه‌نی، له‌نکیتمه‌نی یوقاچیقارتماق ایچون ایشچی - کندلی مفتشلکی اورغانلاری واسطه‌سیله شدتلی مبارزه‌ده هیچ بر شیئدن قورخمایوب یارامازخادملری ده کیشدیرمکه و اونلاری محکمه‌یه ویرمکه کبی چالیشمالیدرلار.

اداره‌لریمزده بیوروقراتیزمی یریه‌ن خادملری کیت - گیده زحمتکش‌لردن چیقمش یکی خادملر ایله ده گیشدیرمك ایچون کتله بویوك حاضرلیق یاپمالیدر. اداره‌لریمزده ایشچیلریك، خصوصاً قومونیست لریگ سایی آزدر. چالیشمالی که، گیت - گیده بونلاریك سایی آرتسون. ایشچیلر آراسندان چیقمش فعال ایشچی لرمسئول ایشه سه‌چیلسونلار والخ..

ایشچی کتله‌لریك استحصالات مشاوره‌لرینده اشتراکی صنایعك تکمیللشمه‌سنه، خرجلرك آزالماسینا بیوك برتاثیرایدیر.

استحصالات مشاوره‌لری و اقتصادی قومیسیه‌لر واسطه‌لریله زحمتکش‌لر یوزمین مناتلار مقدارینداً قناعت قازانیرلار، بو اورغانلاریك ایشینگ محکملشمه‌سی - بیوروقراتیزمه بیوك غلبه چالماق دیمگدر. بوگا کوره‌ده زحمتکشلر بو اورغانلاریگ فعالیتنده بیوك موفقیت قازانماغا چالیشمالیدرلار.

زحمتکش قادینلاریگ خصوصی بر تشکیلاتلاری (ده‌له‌قاتقا) نماینده اجلاسلاریدر. اونلار بوتشکیلاتلارینداً اداره‌لریمزده مشاهده اولونان نقصانلار علیهنه ئوز فعالیتلرینی گه‌نیشلندیرمه لیدرلر. بوتشکیلات ئوزی زحمتکش قادینلار ایچون بر مکتبدر. بو مکتب‌ده اولانلار حاضرلاشوب یاواش یاواش حکومت اداره‌لرینده چالیشماغا جلب اولنمالیدرلار. نه قدر زحمتکشلردن آرتق درجه سوادلی ایشچیلر حاضر لانارسا، اوقدرده بیزپیس خادملرگ عوضنه ئوز صنفمزایچریسندن چیقمش فعال آداملاری قویاجایز.

بیوروقراتیزم ایله شدتلی مبارزه آپاران تشکیلاتلار - یمزدان بریده ایشچی و کندلی مخبرلگیدر. بونلاریك بزیم نقصانلاریمز ایله نه قدر مبارزه آپارمالاری بوکون هر بر شخصه معلومدر. بونگله بیله بوتشکیلاتدا اگر - اگسیگلك دخی واردر. کله‌جکده بو تشکیلات داهادا قوه‌تلنمه‌لیدر. بو تشکیلات ئوز فعالیتنی - کندلی مفتشلیکی ایله سیقی بر

رابطه‌ده قورمالیدر. بو تشکیلاتیگ شکایتلرینی حیاته تطبیق ایتمك لازمدر. چونکه عیناً بوشکایتلر ایشچی‌لریگ کندلی لریگ شکایتلریدر، محکمه‌لر بوایشده کرهك ایشچی و کندلی مخبرلرینه یاردیم ایتسونلر.

شورالاردا یاشایان بیوروقراتیزمی محوایتمك ایچون، بر یول وارسا، اودا کتله‌لری، زحمتکش اهالی‌نی یواش‌ـ یواش بونلاردا فعالیته جلب ایتمکدر. شورالاردا ایشچی ده‌موقراتسیاسی کەنیشلنمه‌لیدر. شورالاریگ سه‌قسیالاریگ فعالیتی منتظم بر اصوله سالنمالیدر. شورالاردا هر جوره نقصانلاریك کوکینی سیندیرماق سه‌قسیالاریگ وظیفه‌سیدر. بیز هله فرقه‌نك همکارلار اتفاقلارینك، مطبوعاتگ و باشقا تشکیلاتلاریگ فعالیتنی بوراقید ایتمه یوریك. بوتون ایشچی تشکیلاتلاری بیوروقرا تیزمله منتظم مبارزه ایتمه‌لیدر.

اداره‌لر یمزیگ ایشینی اویله تکمیللشدیرمه لیز که، اونلاردا کی کاغذدریاسی قوروسون، اون مین‌لرجه سوال ورقه‌لری، تعلیماتنامه‌لر قیسالسون کارکذارلق ایشی ساده‌لشسون، تك بر ایشی بر نیچه اداره‌لرده حل ایتمکك قباقی آلنسون، حدسیز آنچوتلار آزالسین، ایشلریمز اونلارجا قومیسیه‌لر عوضنه بر شخصگ مسئولیتی. آلتندا یریسین، شوراعضولرینگ سه‌چکیجی‌لر قارشوسندا آنچوتی منتظم صورتده ویریلسین. پیس چالیشان خادملر ایش باشندان قووبلوب عوضلرینه صاف قلبلی دوزگون خادملر، ایشچیلر آراسندان تعین اولنسون، حدندن آرتق شیشمش اداره‌لریك سایی، اونلاریك خدمتچیلری قیسالسون، بر اداره مکمل بر صورتده قورولانا کبی اونی یگی‌ـ یگی اصوللارا سالما والخ ...

بونلاریك هاموسینی آنجان زحمتکشلر ئوزلری حیاته کیچره بیله‌جکلر.

بیوروقراتیزم اوقادار بیوك دشمندر که، یولداش له‌نین اونی ده‌نیکین‌ـ قولچاق جبهه‌لرینده سلاحلی مبارزه‌دن‌داها بر شدتلی و مهم مبارزه حساب ایدیردی. یولداش له‌نین بیوروقراتیزمله مبارزه‌نی زحمتکشلرك قارشوسینه سوروب اونگله مبارزه‌ده سهلنکارلیق ایده‌ن بر قوممونیستی ایش باشندان گتیرمکی و بو مبارزه‌ده مقاومت کوسترەن بر شخصی محکمه‌یه ویرمکی طلب ایدیردی.

له‌نیك وصیتلرینی حیاته کیچیرمك ایسته‌رسکسه، بیوروقراتیزمی بیوك دشمن سایوب اونی بوغمالیز. یوقسا اوبزی بوغاجاقدر....

م. آ.



قوصار دائره‌سنده خوره‌ل کند شوراسینك سه‌چگیسی.

آذربایجاندا خالچا توخوماق ایشینك ترقی یوللاری.

آذربایجان کندلرینك آبادانلقلاریندا خالچا توخوماق ایشی نیك بویوك بررول اویناماسی هامویا معلومدر.

جهانگیرلیك و وطنداش محاربه‌لریندن سوکرا دیمك اولار که بوایش 80 فائض آشاغا دوشوبدر. بویوك تصرفات اورغانمز اولان سابق (آزغوستورق) اوز وقتنده بوصنعته فکرویرمکده ایدی. افسوس که، تصرفات اورغانلارینك خالچا توخوماق ایشینی وبوصنعتك معمولاتنی ترقی یولونا سالماق ایچون گورـدیگلری تدبیرلر ایسته‌نیلن نتیجه‌لری ویرمه‌دی. حتی بو ایشه بوراقیلمش پارالاربیله ایمدیه کیبی مختلف وئولی حالندا اولان آرته‌لر، شرکتلرك قاسسالارینداهیچ برایشه قویولمیوب فائده‌سیز قالماقدادر.

خالچاچیلق کیبی قوستار الصنعتلرینی برلشدیروب اونلارك انکشافنه خدمت ایچون (آذرصنعت برلیگی) آدینداخصوصی بر اورغان تشکیل ایدیلمیشدر.

(آذرصنعت برلیگی)نك اساس وظیفه‌لریندن بریسی خالچا توخوماق ایشینه ترقی ویرمکدر. الك بویوك سعی وقوه، قورواوش طرفینه ویریلمه‌لیدر.

خالچاچیلق صنعتینك ترقی‌سی یالیگز بوتشکیلاتك دوزگون قورولماسیندان آسیلیدر. (آذر صنعت برلیگی) ایشه باشلامش‌در.

بیر نیچه گون بوندان قاباق بوایشه بلد اولان الی قوملی وخبردار خالیچاچیلاریك اشتراکی ایله خصوصی مشاوره چاغریلمشدر. بومشاوره دائمی بر قومسیون انتخاب ایتمکله خالچاچیلق ایشینك گله‌جك ترقیسی یولوندا لازم اولان تدـبیرلری گورمکله مشغولدر.

اولکه‌مزده خالچا توخوماق ایشیله مشغول اولانلار دخی قادینلاردر. اوقادینلار که شرق شاعرلری اونلار حقینده شعر لریازمشلاردر. بو باره‌ده یولداش (تاتیشویلی)ده باکو فعله‌سی غزته‌سنك مایس 17 سنده چیقمش 112 نومروسندا بیر مقاله یازوب مدنی باکو شهرینده تورك ـ تات قادینلارینك نه کیبی مشکلاته دوچار اولدیقلارینی دخی قید ایتمشدی.

اولکه‌مزده صناعتك ترقیسی اساساً مشترك زحمتی طلب ایدیر. بو قاعده‌نی خالچا استحصالاته تطبیق ایده‌ن زمان بربویوك مشکلاته دوچار اولوریق.

آذربایجاندا قادینلارك یاشایشندا حکم سوره‌ن قارانلق، عواملق وسوادسزلغی نظره آلانلار کهنه ودره‌بکلیك زمانه یاراشان یول ایله گیتمکی تکلیف ایدیرلر؛ یعنی تك تك قادینلارا پارا بوراقوب ایولرینده ایشله‌تمیی تکلیف ایدیرلر.

بویله اولاندا، بزیم (مشترك زحمت) و(قادین آزادلغی) شعارلاریمز هایاندا قالیر؟

جسمانی قوه‌لرك صناعتده مشترکا ایشله‌دیلمه‌لری، بوقوه‌لرك انکشافی، وعلی‌الخصوص قادینلارك فیزیقی قوه‌سندن استفاده ایتمك مفکوره‌مزی، بز خالچا ایشینده‌ده حیاته کیچیرمه‌لییز. بوسببدن (آذر صنعت برلیگنه) لازم گه‌لیر که گله‌جکده خالچا توخوماق ایشینده، قوئوپیراتیف شرکتلری تأسیس ایتمك اساسنی گوزده‌ن بوراقماسون؛ اساس خط حرکتی حیاته کیچرملیدن اوتری، قضالرده، دائره‌لرده قادینلار قلوبلاری یاندا شرکتلر تأسیس ایدیلمه‌لیدر.

قادین قلوبلاری، قادینلارك مشترك زحمتی حقنده بویوك موفقیتلره وتجربه‌لره مالکدرلر. بو باره‌ده بو قلو بلاردا کی تیکیش کارگاهلارینی گوسترمك اولار.

خالچا ایشینك متخصصلری، آذربایجان کندلیلرینك یاشا یشندان، تاریخی بردلیل گوستروب ده‌یبرلر که کندلرده قادینلاری بربیره یغشدیرماق، اونلاردان جمعیت تشکیل ایتمك چتین ومشگلاتلی برمسئله‌در.

قوبا قضاسندا کندلی قادینلار خالچا توقویان فوئوپیراتیف شراکتلرینه هوس ایله داخل اولورلار.

کندقادینلارینك ترقیسنده بویله موفقیتلری الده ایتدیگمز حالدا، خالچا توقویوجی قادینلار بولونان موقعلرده بو توقویوجیلر آراسندا قوئوپیراتیف شرکتلری دوزه‌لتمك هیچ‌ده مشکل برمسئله دگلدر.

ایکی موقع بوایشده مرکز قبول ایدیله‌جکدر. بیری قلوبلار ودیگری‌اوکندلر که خالچاتوخویان قادینلار اورادا اکثریت تشکیل ایدیرلر.

بورالاردا تشگیل اولنان شرکتلره اختیار ویریله بیلر که تك تك کندلرده اولوب خالچا توخوماق ایله مشغول اولان قادینلاری شرکتلرینه عضو قبول ایتسونلرو اونلارا، اوز ایولرینده حاضر ایتمگدن اوتری ایش تاپشیرسونلار.

البته، بو صورتله‌ده قادینلاری خالچاجی قوئوپیراتیفلرینه جلب ایتمگ آسان برایش‌ده گلدر لاکن بوایشده اولنجی هوس وتشبثاتی محلی حکومت وعلی الخصوص قادینلار تشکیلارینا حواله ایتدیگده هیچده مشکل اولا بیلمز، ظنمرجه بو گوستریلمش یوللارایله خالچا توخوتماق صنعتنی دیریلتمك آسانلق ایله ممکن اولاجاقدر.

علی حسین

گنج قزلار آراسیندا آپاریلان فعالیتده قادین قلوبلاریندان نه جوره استفاده ایتمه‌لی.

عصرلر اوزونی قادین اسیر و کوله حالندا یاشامش اولان شرقده قادین قلوبلاری اویله بر مدنی اوجاق اولمالیدرلار که بورایا توپلانمش شرق قادینلاری قلوبدا یالیکز نظری حاضرلق ده گل، حتی عملی بیلیکلر و حاضرلیقلار تحصیل ایدوب تام معناسیله مربست یاشاماغا قادر اولان بر انسان چیقا بیلسینلر.

قادین قلوبلاری اوز فعالیتلری نتیجه‌سینده تمامیله معیشت اسارتندن یاقاسینی قورتارمش بر قادین حاضرلامالیدرلار. بو اساسی نقطهٔ نظرلره گوره‌ده قادین قلوبلاری اوز فعالیتلرینی یگی یتیشن نسلك تربیه‌سینه طرف چه‌وریلمه‌لیدرلر وار قوه ایله چالیشمالیدر که گنج قزلار قلوبلارا جلب ایدیلسونلر و بوراداکی فعالیت دخی او قزلاری تربیه ایتمك ایچون برنمونه اولمالیدر. «علی بایراموف» آدینا اولان مرکزی تورك قادین قلوبنیك فعالیتینده‌ده بو تمایل گورونمگده‌در. بو قلوب عضولرینك چوخنی گنجلردن عبارتدر. گنجلر تمامیله قلوبداکی قورصلار، مکتبلر، ودرنگلره جلب ایدیلمشلردر. قورص، مکتب و درنگلرده تحصیلده بولوندیقلاری حالدا گنج قزلار دیوار غزته‌لری نشرینده، مخبره‌لر درنکلرینده اشتراك ایده‌رك اوز یاشلارینداکی نقصانلاری گوروب اونلارا تنقید نظریله یاناشوب بوتون أه گه‌ر ـ اکسیکلرینی دوزه‌لتمکه چالیشیرلار وبویله‌لیگله‌ده اوز معیشتلرینك گوزه‌الشمه‌سینه باعث اولورلار، قزلار قوئوپه‌راتیف قورصلارینداکی اشتراك ایتمگله قوئوپراتیف ایشلرینی اوگره‌نوب سوگرادان قوئوپیراتیف‌لرده حاضرلقلی بیر عضو کبی اشتراك ایتمك امکانی تاپیرلار. گله‌جگده آنا اولاجاق گنج قزلارا صحیه معارفی قورصلارینداکی اشتراك ایتمك لازمدر؛ چونکه بو قورصلاردا گنج قزلار حفظالصحه و تمیزلیگك اساس شرطلرینی اوگره‌نیرلر؛ هابیله گیت گیده گنیش اهالی آراسیندا بویوك انتشار تاپمش بدن تربیه‌سی ایشلریله‌ده گنج قزلارتنیش اولمالیدرلار. چونکه بدن تربیه‌سی گنج نسلك بدن ساغلاملیغینا کومك ایدیر،

قادین قلوبلارینك فعالیتنك باش مقصدی گنج قزلاری اجتماعی ایشلره اوگرتمکدن عبارت اولمالیدر. بو جهتدنده قومسامولك قادین قلوبلارینده اجدیتله اشتراك ایتمه‌سی آرتیق اهمیتلی بر مسئله‌در.

چونکه قومسامول قلوب واسطه‌سیله گنج تورك قزلارینی اوز صیرالارینا جلب ایتمه‌لیدرلر.

ف. حاجینسگایا.



جبرائیلده تورك قزلاری ـ قومسومول قونفرانسندا.

تورك اناث صنایع مکتبنك ایلك براقلیشی.

تورك قادینلارینك وظیفه‌سی آنجاق اوشاق دوغوب، مطبخ ایشلرینی آپارماقدان عبارت ایدی. اجتماعی حیاتدان تمامیله اوزاق اولوب قادین کشی‌نك اسیری، ساتین آلنمش برقولی حساب اولونوردی. قادینك بویله حقسیز، مظلوم حالنی دیله گتیروب اونك مدافعه‌سینه قالقاندا یوق ایدی.

سابق حکومتلر زمانینده تورك قادینلاری علم، صنعت نه اولدیقنی بیلمه‌یوردیلر. نه اینکه قادینلار حتی ارککلر بیله علمدن، صنعتدن خبردار ده گل ایدیلر. بونلارا سبب نه ایدی؟ معلومدر که اوزلری. چونکه اجنبی‌لر ایچه‌ریسنده آز کیمسه‌لره تصادف ایدیلیر که اونلاردان ضیالیلری اولماسون، بودا اونلارك چالیشقانلغنی ثبوت ایدیر. اونلار کوچیکلیکدن علم آرقاسنجا قوشوب عالم اولماق آرزوسنده‌درلر. اونلار علمه مدنیته آرتیق اهمیت ویریرلر. فقط عکسینه اولاراق بیزلر ویرمه‌یوریك. آذربایجاندا شورا حکومتی قورولاندان سوکرا آذربایجان قوممونیست فرقه‌سنك مرکزی قادینلار شعبه‌سنك تشبثیله تورك قادینلارینا مخصوص مرکزی قادین قلوبی یانیندا بر صنعت مکتبی آچیلدی.. مذکور مکتبك ایلك دفعه اولاراق براقلیشی بوییل اولمشدر. مکتبده دورت سنه‌لیك تدریس پروغرامنی بیترمش 28 نفر طالبه براقلیر. بونلاردان 20 نفری تیکیش بیچکی آلت البسه‌لری، و اینجه ال ایشلری، 3 نفری اویماقابارتما، 2 نفری جلدچلیك، 2 نفری چکمه‌چلیك، و 1 نفری ایسه توقویوجلیق شعبه‌لرینی تمام ایتمشلردر. مذکور طالبه لردن هر بریسی تمام ایتدیگی شعبه‌یه گوره متخصص صنعت معلمه‌سی حسابنده براقلیر. بونلاردان قازاخ کوردستان، جبرائیل، گیده‌بك، مورول وقوبا قضالرینه کونده ریلوب اورادا قادینلار قلوبی مدیره‌سی وظیفه سنی داشیاجاقلار.



مکتبی بتیرمش طالبه‌لردن قضالره اجتماعی ایشه گیدن یولداشلار.



صنایع مکتبنی بتیرمش تورك قزلارینك غروپی.

تورك اناث صنایع مکتبی بتون آذربایجان عالمنده ایلك دفعه اولاراق آچیلدیقنا گوره تأسیس اولدیقی گوندن حال حاضره قدر اوز حیاتنده برچوق طبیعی مشکلات گورمشدر. فقط بو مشکلات کیتدیکجه مکتبك تجربه‌سی آرتدیقندان و مکتب کندینی آذربایجان حیاتنه‌داها موفقیتله ایشله‌یوب آذربایجان زحمتکشلری ایچون مقتدر صنعت معلمه‌لری حاضرلاماغنا شبهه یوقدر. صنایع جبهه‌سنده بر داها غالبیتمز تورك اناث صنایع مکتبنك مدیره‌سی: **ص. صادیقووا.**

علی بایراموف نامنه قادینلار قلوبنك قورصلاری و درنگلری حقنده معلومات.

بو تدریس ایلینك اولندن علی بایراموف نامنه قادینلار قلوبی جنبنده سوادسیزلغی لغو، تحصیل عمومی و غیری قورصلار آچیلمشدر. بونلاردان 1 ـ 4 غروپی الفبا، اوقویانلار 88 نفر آزسوادلیلار قورصلارینا کیچیر 79؛ 2 ـ ایکنجی غروپ آزسوادلیلار قورصی اوقویانلاردان 55 نفری تحصیل عمومی قورصلارینا کیچیرلر 46.

3ـ2 غروپ تحصیل1 عمومی قورصلاری 1 نجی و 2 نجی. a) نجیده اوقویانلار 46 B)2 نجیده 14 طالبه 1نجیدن 2نجیه کیچر 23؛ اکمال آلیر 11 و تکرار دیکله‌مك ایچون قالیر 3 نفر.

2نجی‌قورصی‌بتیروب وثیقه آلانلار 14 نفر بو 14 نفر طالبه امتحانلا موجود اولان تیختیقوملارا قبول‌اولوناجاقلار.

4ـ ماکینه‌چیلر قورصلارینداوگره‌نه‌نلر 30 نفردر بونلاردان بوراقیلر 20 نفر.

5ـ قضالاردا چالشماق ایچون یاسلی مربیه‌لری قورصلارینا دوام ایدوب 25 قادین اکمال ایتمشدر.

1ـ قولوبدا موجود اولان صحیه درنگینده 40 نفر عضو اشتراك ایدیردی؛ 4آیلق مشغولیتدن صوگرا موفقیتله بتیره‌نلر 9 نفر اولمشدر.

2ـ قوئوپه‌راتیف درنگینی موفقیتله بتیره‌نلر 6 نفردر.

3ـ سیاسی درنگینده کی 30 نفر عضودن 18 نفری موفقیتله کیچمشدر.

4ـ موسیقی خور و درام درنگلرینده اشتراك ایده‌ـنلرك سایی 90 نفره قدردر بونلاردان ٪50 کیچن یاکی عضولردر و ٪50ده یگی عضولردر و مشغولیتلرینی بویوك موفقیتله کیچیرلر. ف.ح.

دائره قادین تشکیلاتچیلاری قورصی.

کندلی قادینلار آراسندا چالشماق و خصوصیله اونلاردان ایشچیلر حاضرلاماق مقصدیله هر بر کنده کند تشکیلاتچیلاری انتخاب اولنور.

بو تشکیلاتچیلار اساس اوزره نماینده قادینلار دسته سنك فعال عضولریندن تحکیم اولناراق اونلارا رهبرلك ایدیر. بو کبی تشکیلاتچیلار دخی یرلی فرقه ئوزه گنیك و قادینلارشعبه‌لرینك رهبرلیگی‌اوزره کندلی‌قادینلارك منافعنه‌چالیشماقدادر.

بو کبی تشکیلاتچیلاردان آخر زمانلاردا بره‌ر دائره‌تشکیلاتچیلاری دخی تعین اولنور که بونلاررسمی بر وظیفه داشییاراق دائره مقیاسندا چالیشیرلار.

آذربایجان‌قادینلاری‌چاروماوات حکومتلرینك دورینده هر برشیدن محروم اولدیغی کبی، اونا الثواجب اولان علمدن دخی محروم ایدیلر. بونی اثبات ایچون گوسته‌ره بیلریز که دائره تشکیلاتچیسی تعین ایتمك ایچون کندچی‌وفعله‌قادینلاربندان بر نفرسوادلی‌قادین‌تاپماق‌ممکن‌دگلدی.

اودر که بو کبی تشکیلاتچیلار سوادسیز اولدیقلاری حالدا بر او قدر کندلی قادینلار آراسندا فعالیت گوسترە بیلمه‌یوردیلر.

مرکزی شهرلردن گوندریله‌جك دخی او قدر سوادلی ایشچی قادینلارمز یوق ایدی. فرقه‌میز بو آغیر وضعیتك قارشوسینی آلاراق باکودا بر تشکیلاتچیلار قورصی تشکیلنه تشبث ایتمشدر. حال حاضردا قورصدا 23 نفر لیلی اولاراق کندلی قادینلار دوام ایدیرلر. بونلاردان2 سی گورجستان و 2 سی ارمنستان جمهوریتلریندن گلمیشلر در. 19ی ایسه آذربایجان قضالرینده‌ندرلر.



قورصك درس پروغرامندا لسان، طبیعیات، حساب، کند تصرفاتی، له‌نین و کندچی آنالق چوجوق محافظه‌سی، قومسومول، سیاسی معارف ایشلری مکتبه قدر تربیه باشقا بو کبی درسلر واردر. قورص 4 آیلیقدر.

قورصك بویوگ‌نتیجه‌لر ویره‌جگی ایمدیدن معلومدر. سوادسیز گلمیش تورك قادینی بو گون یگی الفبا اوزره اوقوماغا قادردر.

فرقه‌مزك بو گوزه‌ل تشبثنی تقدیر ایده‌رك بو قورصك هر سنه دوام ایتمه‌سنی دیله‌ریز.

کویلی قیزی گل آرا



یازانی: س. حسین

یاتمیش کندك قیش گیجه‌لرینده .

I

یاریم‌ساعتك ایچینده بوتون کندآرواتلاری‌خبردوتدیلار که گل‌پرینك آناسی قیشلاقدا وفات ایتمشدر. بو خبری (ش) کندینه گل‌پرینك قارداشی خصوصی بر آتلی گوندر مگله بیلدیرمیشدی. رضوانك ایوینده بر آغلاشما باشلادی.

رضوان گل‌پرینی تلسدیرپردی(اوتوروب یاسخانا قور ماق وقتی‌ده گیلدی). تیز یولا چیقماق لازم ایدی. قیشلاقدا اونلاری گوزله‌ییردیلر. شعبان، ایوك قاپوسیندا دایاناراق، آغلاشمایا گله‌ن آرواتلارا ایشیتدیره‌جك برسسله‌دییوردی:

– بن آرابانی قوشورام.. سن‌ده اوشاقلاری حاضرلا... هوا یاغیر،.سوکرا یول–ایز دوتولار، گیجه‌یه دوشه‌ریك!..

گوگك یوزینی قارهواسینا مخصوص بر دوتقونلوق بورومیش، شدتلی برروزکارلا قار یاغدیغیندان یرآغار-میشدی. رضوان‌بویله‌قارلی وچوغونلی هوادا برجوت‌او کوز له یولا چیقماغا جرئت ایتمه‌دیگیندن قومشوسینك‌ده او کوز لرینی آلدی. دورت او کوز قوشولی آرابا دوققازك قاباغیندا حاضرایدی. گل‌پری آغلار گوزله آرابایا اوتوروب اوشاقلارینی یانینا آلدی. تللی، گوزلری یاشلی حالدا، آرابانك یانیندا باشینا اورتدیگی ایکی قاتلی چادراسینی دیشیله دوتاراق، اوشاقلاری یورغان ایله سه‌ریر،رضوانك کورکینی گل‌پرینك چکینه سالیردی. آرابا یولادوشه‌رکن رضوان تللی‌یه تاپشیردی:

– قاپو–باجانی محکم باغلا... حیوانلاردان مغایات‌اول!

***

شدتلی چوغون باشلادیغی ایچون ناخیر چولدن چوق تیز قاپندی. تللی اینگلری تویله‌یه سالدیقدان سوکرا گل پرینك براقوب گیندیگی ایوی یغیشدیردی: قاپوسینی قفل لادی، اوز ایوینده کی یر سوباسینی قالایوب ساج آسدی؛ یایما پشیرمگه باشلادی. بونك یاریسنی قومشو اوتاغدا یاشایان کند معلمینه ویره‌جگدی. بو معلم سوبای اولدیغی ایچون چوره گینی هرزمان رضوانك عائله‌سی پشیروب حاضرلاردی.

تللی اوجاغك قاباغیندان قالقدیقدا آقشامك قارانلغی چو کمیشدی. قارشودا کی قومشونك کیچیك پنجره‌سینده چیقان خفیف بر ایشیق قارانلغك بر پارچاسنی یرتدیغیندان بورادا اوچوشان قار پارچالاری نظره چارپیردی. تللی، تویله‌یه انوب اینگلری ساغدی.فکرینده اوز–اوزیله‌مشغول ایدی. او، بوسودی پشیروب معلمه ویره‌جگدی.هرزمان معلمك حالینه آجییاردی. زوالینی بوکندده غریب وآدام سیز قیشك اوزون کیجه‌لرینی اوزی کیبی یالیکزجه کیچیریردی.

تللی تویله‌نك‌ده قاپوسینی‌باغلادی... قار اوز قاعده‌سیله یاغیردی. حیاطدا توپوغا قادار قالقمیشدی.سوتی‌پشیردی. قیغاجی ایکی قاتلی‌چادراسینی‌باشینا اورتدی.معلمك‌قاپوسینی دوگدی. معلم قاپونی آچدیقده ئوزینی یان‌طرفه دوتاراق بر سوز دیمه‌دن، آغزینده یایمالار بولونان‌سوت کاساسینی اونا اوزاتدی. معلم لوب «تشکرایدیرم» دیدی.تللی«تشکر» کلمه‌سینك معناسینی بیلمیردی. بو کلمه‌نی هیچ ایشیتمه–

میشدی. دوشونوردی که معلم بو سوز ایله اوزینك راضی‌لیغنی بیلدیریر.

***

تللی رضوانك قارداشی اسلامك آروادی ایدی. اسلام کیچن پابزدا ایکینجی بر آروات آلدیغیندان ایکی گونی یولا گیده بیلمیردیلر؛ بونا گوره تللی هرزمان یایلاق‌حساب اولونان (ش) کندینده قادینی ایله برحیاطدا یاشاییردی. او، اوز اوتاغیندا تك باشینا یاتماغا آلیشمیشدی. فقط آدامسیز، خلوت حیاطدا یالیکز قالوب گیجه‌لهدیکی اولامیشدی. یاتماق زمانی چاتینجا واهمه‌لنمکه باشلادی. اگر بریسی، بوچوغونلی، طوفانلی گیجه‌ده بو حیاطه گله‌رسه، بر شی چالماق ایسته‌رسه تللی نه‌یاپا بیله‌ردی. نه اوزینی، نه‌ده قاینی‌نك کندیسینه تاپشردیغی ایوینی‌مدافعه ایده بیله‌جگدی. سسینی و قشقریغنی‌دا قومشولاری بویله هوادا ایشیتمه‌یه جگلردی. فکرینه گلدی که گیدوب (عجب خالا) نی‌چاغیرسین؛ کندیسینه هایان اولاردی. چادراسنی اورتوب بایرا چیقدیقدا تردده باشلادی: یرده بر قاریشدان آرتیق قار واردی. عجب خالا کندك باشیندا اولدیغی ایچون تك باشینا گیتمکه یوره گی گلمه‌دی؛ قارا باتوب قالماسیندان قورقدی. بونگله برابر عجب خالا چوق قوجا ایدی. بویله هوادا اونك گله بیله‌جگی شبهه‌لی ایدی. گلسه‌ده نه کیمی برکومکی اولا بیله‌جگدی. قولاغی، گوزی ایشیدوب، گورمیردی، تللی معطل‌قالمیشدی. نه‌یاپمالی‌ایدی. دوشوندی.. دوشوندی. بردن فکرینه بر شی کلدی. اوز اوزینه دیدی: «نه‌دن‌قورقاجاغم؟» واقعا اورتادا قورقولاجاق بر شی یوقدی. او، تمامیله یالیکز ده کیلدی. معلم‌اونکله بر حیاطدا کیمی حساب اولونوردی. اوزیله‌معلمك آراسیندا نازیك بر دیوار واردی؛ لازم اولدیغی وقتده اونی‌چاغیرا بیلردی. اوتاغینا قایدوب قاپوسینی ایچه‌ریدن باغلادی.

***

تللی لامپاسینی کیچیروپ یاتاغینا اوزانمیشدی. دیشاریدا طوفان بوتون شدتیله دوام ایدیردی. اونی بر درلو یوقو آپارمیردی. معلم ایله اوز اوتاغینك آراسیندا کی دیواردا قاپو کیمی آلچاق، بر آرشین‌هوندورلگینده برباجا واردی. بو، ایچریسینه سامان‌دولدورولمش بر توربا ایله‌قاپانمیشدی. بوجاقلاریندان معلمك ایشیقی گلیردی. بو ایشیق اوتاغك قارانلغی ایچینده تللی ایچون بر دایاق ایدی. برحادثه یوز ویردیکی تقدیرده بو سامان توربا‌سینی ایلریه ایته‌له مکله معلمك اوتاغینا یول آچار. اونی اوز هاراینا چاغرا بیله‌ردی. گوزلرینی کیسه‌نك بوجاغلاریندان گله‌ن ایشیقدان آیرمایبردی. یوقوسی تمامیله قاچمیشدی. بردن ایشیغك کسیلدیکینی گوردی. معلم لامپاسینی کیچرمیشدی. احتمال یاتماغا حاضرلانیردی. تللی‌نی یکیدن واهمه بورودی. او قورقیردی. یورغانی باشیناچیکه‌رك گوزلرینی قاپادی. یاتماغا چالیشیردی. دیشاریدا اسه‌ن کولك سوبانك دمیر باجاسی ایچریسینه دوشه‌رك اوتاغا بر سس‌سالمیشدی. اول آقشامدان گیدوب عجب خالانی چاغر. ادیغینا پشیمان ایدی. تللی برساعته‌قدر بر تاقم وسوسه‌لر ایله‌دوشوندی .. بردن شبهانك ایوینده بر سس ایشیتدی. برشیئك یره‌دوشه‌رك‌قیریلدیغنی دویدی. گوزلری آچیلدی. بوغازی قورودی. اودغوبدی. شبهه‌سیز او بری ایوده آدام وار ایدی. بو، اوغرو اولاجاقدی. نه یاپمالی ایدی؛ ایمدی وجودی‌قورقوسیندان تیتره‌یردی.

***

معلم کنده بو یللك پابزیندا گلمیشدی. رضوانك قوناق‌قارا ایچون تیکدیردیگی، قاپوسی کوچه‌دن اولدیغیندان حیاطله علاقه‌سی بولونمایان اوتاغیندا یاشاییردی. اونك‌بو کنده‌ده هیچ بر تانیش‌-بیلیشی یوقدی. چوره گینی‌رضوانك عائله‌سی پشیره‌ردی. کندیسینه بر شی لازم اولدیقدا اوز اوتاغیله تللی‌نك ساکن‌اولدیغی‌اوتاق آراسیندا کی‌دیواری یومروقلاردی. چوق وقت رضوانك بش یاشلی اوغلی‌قاپویا گله‌ردی. بعض وقت‌ده تللی، یوزینی محکم دوتدیغی حالدا گورونوب نه ایسته‌دیکینی سورادی.

معلم اوللرده رضوانك عائله‌سینی اوگره‌نمکه مراقلانما میشدی. او، اویله‌ظن‌ایدیردی که تللی رضوانك باجیسی‌در. فقط بر تصادف اونی تللی باره‌سینده دوشونمکه مجبور ایتمیشدی: او، تللی‌نك یوزینی هیچ گورمه‌میشدی. اونك کنج واختیار، قیز و دول اولدیغینی بیلمیردی. بر کون مکتبدن قایدار کن بر کوچه‌نی‌بورولدیقدا یوزینی‌اورتمه‌دن، چیکینده سهنك سویا گیده‌ن‌برقیز ایله یوز-یوزه گلمیشدی. قیزاونی گوردیکده مشاشیروب یوزینی اورتمکه‌تله‌سدیکده سهنگی سالوب سیندیرمیشدی. بو حال معلمك پك خوشینا گیتمش، اونی گولدورمشدی. او: قارشوسینا چیقان و کیم اولدیغینی تانیمایان بوقیزی چوق گوزل بولدیغندان بر قدر اوزاقلاشدیقدان سوکرا گه‌ری دونوب آرقاسنجا دا باقمیشدی. سوکرا باشیندا کی چادراسیندان اونك‌اوزیله بر بنادا یاشایان قیز اولدیغینی اوگره‌نمیشدی.

بو حادثه‌دن سوکرا معلم تللی‌ایله مراقلانیردی. اونی بر داها گورمك ایسته‌یردی. آرا-سیرا بر شیئی بهانه ایدوب آرا دیواری یومروقلاردی. چوق وقت رضوانك

اوغلی گورونوردی. تك ـ توك تللی قاپویا گلدیگده یوزینی اویله برك دوتاردی که بر دولو معلم اوز مقصدینه نائل اولمازدی.

او، هر آقشام چوجوقلارك دفترلرینی دوزه‌لتدیگدن سوگرا کند قولوبینا گیدەر، بویوکلره سواد اوگره‌دەر ایدی. اوگون قار و چوغون اولدیغی ایچون کیمسه‌نك قولوبا گلمیه‌جگی بللی ایدی بوناگوره بر یانا چیقمایوب اوتاغیندا مطالعه ایله مشغول اولمیشدر. سوگرا چای قاینا دوب تللی‌نك گتیردیگی سوت ایله شام ایتمیش، آخردا سوبانی یگیدن قالایوب یاتاغینا اوزانمیشدی.

معلم اویاقلق ایله اویغو آراسیندا ایدی. بردن اوزرینه بر شیئك دوشدیگنی حس ایتدی. گوزلرینی آچدیقدا، اوزیله قومشو اوتاق آراسیندا کی باجانی قاپایان سامان توربا سیئك یرینده بولونمادیغینی، اونك عوضینه بر قادینك باشینی اوزا داراق آلچاق سسله «معلم!» دییوب چاغردیغینی گوردی.

معلمی حیرت آلدی. عقلی بر شی درك ایتمه‌یوردی. یاتاغیندان اوزاندیغی حالدا قمیلداماداں باقیردی. سوبانك آچیق براقیلان قاپوسیندان چیقان ایشیق تمامیله بورایا دوشدیگی ایچون، کندیسینه باقان باشی تانیدی: بو، تللی ایدی. اوکه، هر زمان یاشینار، یوزینی گوسترمه‌زدی. ایمدی ایسه بوسبوتون باش آچیق ایدی. اللرینی یره دیره‌دیگی ایچون، اینجه هورولمیش ساچلاری هرایکی طرفندن آشاغا دوغرو سارقمیش، گوزه‌للیگینی بره ایکی آرترمیشدی. معلم یوقو گوردیگینی ظن ایدیردی.

تللی:

ـ اویاقسگز؟ـ دییه سوردی.

معلم ـ اویاغم!.. نه ایسته‌یورسگز؟ـ دییه‌جواب ویردی.

ـ رضوانك ایوینده آدام وار!

ـ آدام وار ؟؟؟

معلم دوروب یاتاغینك ایچینده اوتوردی. گوردیگی یوقو ده گیلدی. بر حقیقت ایدی. تللی علاوه ایتدی

ـ اوغرو اولاجاق!

معلم ایچون مسئله آیدین اولمیشدی. تللی، اونك یار دیمنی ایسته‌یوردی. یورغانی اوزینه ساریوب دیك قالقدی. پالتوسینی گیبوب دوکمه‌له‌دی. ایسته‌دی که دیشاری چیقماق ایچون قاپویا طرف گیتسین. تللی اونك فکرینی آگلادی. تك قالماقدان قورقوردی:

ـ اورادان یوق... دیدی، بورادان گلیگز، بن‌ده سزیگله برابر چیقارام!..

معلم بر قدر دوروخدی. سوگرا تللی‌نك آچمیش اولدیغی باجادان یوزی اوسته اوزاناراق کیچدی. تللی‌نك یاتاغی باجانك قارشوسیندا ایدی. معلم النی اونك اوزرینه قویدیقدا یاتاغك سیجاقلقنی حس ایتدی. تللی لامپانی یاندیردیقدان سوگرا باشینك آچیقلیغنی فرق ایتدیگیندن تیز چادراسینی اورتدی. قاپونی آچوب اوگده معلم، آرقادا اوزی بالقونا چیقدیلار. بالقوندا بر قارش قار واردی. نه بالقوندا، نه حیاطدا آیاق ایزی گورونوردی.

معلم ـ احتمال، دیدی، سزی قارا باسوبدر؛ حیاطدا هیچ بر ایز، له‌پیر یوقدر.

ـ بن سس ایشیتدیم. برقاب دوشوب قیریلدی.

قاپونك قارشوسینا گلدیلر. قفلی یرینده ایدی. هرایکیسی اونی یوقلادی.

معلم دیدی:

ـ ایسته‌یورسگز، آچیگز، ایچری‌ده باقاق.

تللی آچار ایچون اوتاغینا قایتدی. معلم بالقوندا قارشوسیندا گورونن کنده باقیردی. قار پارچالاری هوادا آق آق کله‌بکلر کیبی اوچوشور، هیچ یاندان بر ایشیق گلمه دیگیندن کندقار آلتدا قالمیش بر مزارستانا بگزه‌یوردی.

تللی آچاری معلمه اوزاتدی. قاپویی آچوب ایچری گیردیلر. قارانلیقدا گوز گوزی گورمیردی. معلم کبریت آلیشدیردی. تللی پنجره‌دن لامپایی آلوب معلمك قارشوسینا دوتدی. باشلاری بر ـ برینه چوق یاقین اولدیغی ایچون هرایکیسی بر ـ برینك نفسیندن گلن حرارتی حس ایدیردی.

اوتاق ایشیقلاندی. اوته‌سینی، به‌ریسینی گوزدن کیچر دیلر. دولابك قارشوسیندا بر بوشقابك قیریقلاری گورونوردی. بونی ایچینده ات اولدیغی ایچون پشیك سالمیشدی. اون چووالنك دیبینده اونی یمگله مشغول ایدی. تللی بوتون آجیغینی اوندان چیقارماق ایسته‌یردی. آیاغیله اونا بر تەپیك ایلیشدیردی. پشیك قولاغلارینی یاستیلادوب گوزلرینی قیاراق باشینی گیری چیکدی. تللی کاندارادا چیقاردیغی باشماق تاینی آلدی. اونی ازیشدیره‌جگدی.

معلم مانع اولدی:

ـ وورمایك، یازیقدر، دیدی.

بایرا چیقوب قاپونی یگیدن باغلادیلار. تللی حیاطا گوز گیزدیریردی. او ایسته‌یوردی که تویله‌یه‌ده بر باقسین یوزینی معلمه چه‌ویردی:

ـ سزه زحمت ویردیم، دیدی، بورادان یه بر قدر باقیگز، بر حیوانلاری‌دا یوقلایم.

ـ یوقلیاق... بن‌ده سنگله گله‌رم.

تویله ایوك آلت قاتیندا ایدی. پیللەلرك اوزەرینی قار دوتمیشدی. معلم آیاغیله قاری تاپدالایوب یول آچیردی. حیاطدا قار آرتیق دیزه قالقمیشدی. تویله‌نك دەقاپوسینی آچوب ایچری گیردیلر. کبریت ایشیقیله تللی حیوانلاری گوزدن کیچیردی. اینه گلر یاتمیشلاردی... آخورك قاباغیندا دوروب باقیردی. بایراچیقدیلار. تللی اوگده، معلم آرقادا پیللەلری چیقیردیلار. کولەك ووردیقجا تللی‌نك قایقاجی اور تدیکی چادراسینی پللەندیریردی. معلم اونك بەلیندن آشاغا اوزانان هورو گلرینه دقت ایتدی. سوگرا جوراسیز بالدیرلاری نظرینه دوقوندی. تیز گوزلرینی اورادان قالدیر دی. ایمدی بالقوندا ایدیلر. بر ایکی کره آیاغلارینی برك-برك یره چیرپاراق قارلارینی تمیزلەدیلر. تللی‌نك اوتاغینا گیردیلر. تللی باقار کن معلم اونك اوتاغینی گوزدن کیچردی. دیواردا بدن‌نما برجوت قدیم گوزگو وارایدی. لمەده بعض اوفاق توفك، قاب-قاجاق گورونوردی. اوتاغك اورتا سیندان یره سالینمیش بر سوبا بولونوردی. سوبانك یانیندا تللی‌نك یاتاغی سریلمیشدر.

تللی اوتانجاق بر حالدا یوزیشی معلمه دوتوب دیدی:

– باغیمشلایك، سزه زحمت ویردیم!..

– بو زحمت دگیلدر، قورقولی حالیگزدا بنی یادیگزا سالوب کومکه چاغیرماگزدان چوق ممنون اولدوم!..

– آقشامدان بنی واهمه آلمیشدی. اول عجب خالانی چاغیرماق ایستەدیم. سوگرا فکریمه گلدی که سیز بورادا سگز. بر شی اولسا سزی چاغیرارام.

– دیمك آقشامدان قورقو ایله یاتمیسگز؟..

– هیچ یاتا بیلمەدیم. یوقوم قاچمیشدی!..

معلم اوز اوتاغینا کیچدی. یاتاغینك یانیناوشمیش سامان توربا سیله باجانی قاپاماق ایستەییردی. بردن فکرینه گلدی که تللی یالیگز لیقدان قورقور. بلکه بورانی آچیق براقماق لازمدر. سوبایا طرف گیندی. یگیدن بر ایکی پارچا اودون قالادی. بر پاپروس ئەشوب سوبادا یاندیردی. یاتا غینك یانینا قایتدیقدا آچیق قالان باجادان تللی‌یه دقت ایتدی. لامپاسینی کیچرمیشدی. اوتاغی قالین بر قارانلیغا بورود- یگیندن نه پایدیغنی سەچه بیلمەدی. سوروشدی:

– اگر تك یاتماقدان قورقورسگز ایسه بو آرالیق باجا سحرەدك آچیق قالسین.

تللی راضی اولدی:

– یاخشی، دیدی، قالسین!

معلم یاتاغینا اوزاندی. تللی هله یاتاغینك یانیندا اوتور میشدی. او، تمامیله اوزینه نامحرم بر آدامك گوزی قارشو سیندا، قارانلیقدا بیله اولسا، اوزانوب یاتماغی مناسب بیلمیردی. تردد ده قالمیشدی. باجانی قاپاتماق لازم ایدی. فقط معلم آرتیق یاتاغینا اوزانمیشدی. اونی ایکنجی کره ناراحت ایتمگه اوتانیردی.

ایمدی اورتادا بر سکوت واردی. یالیگز سوبادا یانان اودونلارك چیتردیسی ایشیدیلیردی. معلم حس ایتدی که تللی هله اوزانمامیشدر، کندیسیندن سیقیلیر. اونك گوزی قارشوسیندا یاتماغی مناسب ده گیلدر... تکرار یورغا نینا بورونەرك آیاغا قالقدی. یاتاغینی باجانك قارشوسیندان اوزاقلاشدیردی.

معلم گنج ایدی. بو گیجەنك حادثەسی اونك ایچون مناسب بر تصادف ایدی. او، بر آیدان بری یوزینی بر کره گورمگی آرزو ایدوبده موفق اولا بیلمەدیگی بیر قیزله، یاقین بر آرقداش کیبی، بویله طوفانلی گیجەده یالیگز جا اوتاقلاری گزمش، خلوت حیاطدا قارانلیق تویله‌یه گیروب چیقمشدی. کندیسیندن ادب و نزاکت خارجینده هیچ بر حرکت باش ویرمەمیش، حتا فکرینه بیله برشی کتیرمەمیشدی. اونك تللی‌یه قارشو بوبوك بر حرمتی واردی. دیدی.

– سزك آدیگز گرك تللی اولسون، اویلەمی؟

– تللیدر! دیه تللی تصدیق ایتدی. علاوه اولاراق سوردی:

– بنم آدیمی سیز هارادان اوگرەنمیسگز؟

– نیجه اولا بیلەرکه بر حیاطدا، بربنادا یاشادیغیمز حالدا بو وقتەدك بونی اوگرنمەییم.

تللی سکوت ایتدی. اودا آرتیق یاتاغینا اوزانمیشدی. فکرینده مشغول ایدی. یارینداناعتبارا معامله اونك رفتاری نەیولدا اولمالی ایدی. بنەاولکی کیبی یوزینی دوتوب اوندان یاشینسین. یاخود بو گیجەده کی کیبی سنلی، بنلی دانشسین؟. بوحالدا معلمك سسینی ایشیتدی. اودییردی.

– ایمدی بوندان سوگرا سن گرك بندن یاشینمایاسك. بز، آرتیق رسمی صورتده بر-بریمزی تانیوب، تانیش اولدیق.

– بونا پیشیك سبب اولدی.

– گرك او پشیگه تشکر ایدەك

– نیچین؟

– چونکه، او اولماسیدی، سن هله بندن قاچاجاقدك. حالبوکه بنده قورقولاجاق بر شی یوقدر.

– بنم قاچماغیم قورخودان دگیل که...

معلم گولومسەدی. اونك یادینا بر آی اول تللی‌نك کوچەده شاشیروب سهنگی قیردیغی دوشمیشدی. دیدی:

ـ سنك قاچماغك قورخودان اولماسایدی کوچه‌ده سهنگی سالوب قه‌مازدك.

تللی جواب ویرمه‌دی. داها دوغروسی نه یولداجواب ویرمه‌سینی بیلمیردی.

معلم تللی‌نك کیم اولدیغینی، اونك دول ویاخود قیز اولماسینی‌او گره‌نمك ایسته‌ییردی. او، هیچ تصور ایتمیردی که تللی‌نك اری اولسون. سوردی:

ـ سن رضوانك نه‌یی‌سك؟

ـ قارداشی آروادی.

معلم بویله جواب آلاجاغینی‌فکرینه گتیرمه‌میشدی.ظن ایتدی که تللی‌نك اری ئولمیشدر. ویا بر جنایت یاپمشدا حبسخانادا یاتیر.

ـ رضوانك، دیدی، قارداشی ایمدی هارادادر؟

ـ قیشلاقدا اولور...

تللی‌نك بو جوابی‌ده معلم ایچون غریب گوروندی. اوز اوزینه «نیه آروادینی یانینا آپارمایور!» دییه دوشوندی. سوردی.

ـ نیچین سن اونك یانیندا دگیلسك؟

تللی اختیارسیز بر آه چکدی. معلم اونك روحینك اك حساس نقطه‌سینه توقونمیشدی. بو، اونك اك آغریبان بر یری ایدی. جواب ویردی:

ـ ایکی گونی یولا گیده بیلمیریك.

ـ دیمك اریکك سندن باشقا ایکنجی بر آروادی‌دا واردر.

تللی تصدیق ایتدی.

***

گیجه یاریدان کیچمیشدی. (ش) کندینك‌اوزرینده اسه‌ن طوفان اوزینك آقشامکی شدتینی آزالتمیشدی. بوتون کند ده‌رین بر یوقو ایچینده ایدی. یالیکز تللی ایله معلم اویاق ایدیلر. بونلارك آراسیندا روحی بریاقینلیق واردی. معلم قولاق آسیردی. تللی اوز حیاتینك صحیفه لرینی برر-برر اونا آچیردی.

تللی دورت ییل بوندان اول اسلامك ایوینه گلمیش، یالیکز اوچ ییلنی بختیار بر گلین گیبی عمر سورمیشدر. او، اسلامی سه‌ومیش، اونك هربر جفاسینا قاتلاشمیشدر. اوللرده اسلامك ایوینده هیچ بر زنده‌کانایق یوق ایمیش. تللی دیشیله، دیرناغیله چالیشمیش؛ بوغازیندان، اه گتیندن کسمش؛ هر شیئه قناعت ایتمیش؛ نهایت اسلام ایچون عمللی باشلی بر ایو-ایشیك دوزه‌لتمیشدر. تللی ایوقادینی اولماق حسبیله ایوینده هیچ بر اه کسیکلك دورمیره‌یش. فقط نه یاپسین که طالعسزیارانمیشدر. اوشاغی اولمامیشدر. بونك اوزرینه اسلامك گوزیندن دوشمیش،اوستینه‌ایکینجی بر آروات آلینمیشدر.

تللی سوزلرینی بوجمله‌لر ایله بتیریردی:

ـ بو، بزیم ئولکه‌مزك دأبی‌در. بزده بر آروانلی ایو چوق آزدر. بن بوندان او قدر غم یمزدیم. بنی یاندیران جهت بوراسیدر که اسلام ایکنجی آروادینی بنم جهیزیمله، آتام ایوندن گتیردیگم خالچالارك پولیله آلدی. بو خالچالاری بن اوزوم توقومیشدیم. بوتون کنده‌ده هیچ بر جوانه‌زنك اویله ظریف خالچالاری یوقدی.بن‌اونلاری چوق سه‌ویردیم.«هر نه ایسته‌یورسك آپار، سات، یالیکز بونلارا، بو خالچالارا توقونمه» دییوب‌یالواردیم. گوزیاشی توکدوم. تاثیری اولمادی. «بنه توقویارسك!» دییوب بنه جواب ویردی. گوزومك قاباغیندا، قیزلغمك بربر نشانه‌سی ویادکاری اولان خالچالاریم، اوستمه گله‌جك آروادپالتار آلتماق ایچون ساتیلدی. اسلامك بو ظلمینی بن اونوتمایا جاغم؛ او، بنم یوره گیمی یارالادی.

تللی سوزینی بیتیرمیشدی.معلم ایشیتدیرمیه‌جك درجه‌ده یاواشجادان آغلاییردی. معلم دوشونیردی. بو بروجدان سزلقدی. اسلام تللی‌نك عزت نفسینی آیاغی آلتینا سالوب خیرپالامیشدی. دیدی:

ـ بویله اولان صورتده اونگ ایوینده نیه قالیردك. نیچین بوشانوب کیتمه‌دك؟

ـ بوشانماق ایسته‌دیم. برطرفدن دوزه‌لتدیگیم ایویمه خانملق ایدن گونومی کوزوم کورمك ایسته‌میردی. اوبری طرفدن یوره‌کیم تمامیله اسلامدان ساوومیشدی. «بنی یولا سال، کیدیم»دیدیم. اونگ‌بنه‌جوابی بویله‌اولدی:

ایسته‌یورسگ کیت آتاگك ایوینه ... فقط سنه طلاق ویرمه‌رم. بنم غیرتیم قبول ایتمز که سن باشقا کیشی‌یه اره کیدوب اونك قوجاغینا گیرمسگ»

ـ بو، سنه قارشو بویوك بر ظلمدر. ارك راضی اولمیر که سن اوندان بوشاناسك. چونکه باشقا اره گیتمگك اونك غیرتینه توقونور، بو حالدا سن‌نیچه‌قبول ایدیرسن که گوزیگك قاباغیندا اوباشقا آروادك قوجاغینا گیریر؟

تللی بو سواله بر جواب ویره بیلمیردی. معلم حقلی ایدی. نهایت دیدی:

ـ او کیشیدر، بن آروادام ... بو شریعتك قویدیغی بر قانوندر: کشیلرك حقی آروانلاردان چوقدر.

معلم تللی‌نك ایلری چیکدیگی‌شریعت مسئله‌سینی‌تحلیل ایتمك ایسته‌ییردی. حس ایتدی که بویله مهم بر مسئله‌نی

تللی کیبی عوام بر قادینا قاندیرماق ایچون اساسلی دلیللر وثبوتلر کوسترمك لازم گله‌جکدر. بونك اوزرینده اوزون دانیشماق ایجاب ایدیردی. حالبوکه یوقوسی گلیردی. دیدی.

– ایمدی وقت گیجدر. یاتالیم. صباح کیجه بوباره‌ده سنك ایچون دانیشارام. سنی آلداتمیشلار.

– نیجه آلداتمیشلار؟

– قوی بو صحبتمز گله‌ن کیجه‌یه قالسین.

تللی بر سوز دیمه‌دی. دوشونوردی. دوغرودان اسلام اونك باره‌سینده ظلم ایدیردی. اوداگنج بر گلین ایدی. اونك‌ده طبیعی احتیاجلاری، طلباتلاری واردی. نیچین کیشیلرك، ایسته‌دیگلری زمانلاردا، اوز آروادلارینی چیقاروب قووماغا، ایکنجی آروات آلماغا، کیفنه چاتدیقدا دوگوب سوکمکه حقی اولور؛ آرواتلارك اوزارلریندن بوشانماغا، طلاق ویریلمه‌دیگجه باشقا اره گیتمگه حقی اولمایور.

معلم آرتیق اویومیشدر.

II

دوردینجی گون، قاش قارالیرکن رضوان عائله‌سیله کنده قایتدی. تللی اوچ کیجه‌نی‌تك باشینا کیچرمیش، کیمسه‌نی یانینا چاغیرمامیشدی. هر آقشام معلم ایله اوز اوتاغی آراسینداکی باجانی آچیق براقوب یاتمیش، کیجه نك مهم بر قسمینی معلمك ایتدیگی صحبتلری دیگله‌میشدی. معلم گنجدی؛ قیزلاری، قادینلاری اگلندیرمگی بیلیردی. تللی ایچون ایتدیگی صحبتلر مختلف موضوعلاردا اولمیشدی. برنجی گیجه صحبت تللی‌نك اری اسلام ایله اولان علاقه سینه منحصر ایدیلمیشدی.

ایکینجی گیجه معلم اونك ایچون عائله ایچروسینده قادینك وضعیتی واهمیتی حقینده مصاحبه باشلامیشدی. او بومصاحبه‌سینده تاریخك مختلف دورلرینده، مختلف ملت وجمعیتلرده قادینلارا نه نظرله باقیلدیغینی، شرق و اسلام قادینلارینك ایمدیکی حالینی، بونك اجتماعی سببلرینی آگلاتمیشدی.

اوچونجی کیجه معلم، غرب ئولکه‌لرینده قادینلارك اوز حقوقلاری اوغریندا نه یولدا مبارزه ایتدیگلریندن، اوقتیابر انقلابینك بو مسئله‌یی نه یولدا حل ایدوب قادینلارا نه کیبی اختیارلار ویردیگیندن صحبت آچمیشدی. معلمك بر سوزی تللی‌نك قولاغیندا قالمیشدی. او، سوزینك آخرینده دیمیشدی که «ایمدی شورالار حکومتیدر. هیچ بر کیشینك حقوق واختیارجا قادیندان آرتیقلیغی یوقدر. شورالار حکومتینده قادینلارا ظلم وجبر ایده‌نلرك یری حبسخانه‌لردر. قادینلار گرك اوزلری بو حالدان استفاده ایدوب کندیلرینه ظلم ایده‌ن کیشیلر ایله مبارزه ایتسینلر.»

او گیجه تللی بو باره‌ده چوق دوشونمیشدی. سحر، تك باشینا ایو ایشلریله مشغول اولورکن بو فکر اونك باشیندان چیقمامیشدی. بر قادین اولماق حسبیله اونگدا اختیاری واردی که بویگی ویریله‌ن حقوقدان استفاده ایتسین. بو حقوق واسطه‌سیله او، ایوینده یاشاماق ایسته‌مه دیگی اسلامدان بوشانا بیله‌ردی. فقط کیمه مراجعت ایتمه‌لی، نه‌یولدا شکایت ایله‌مه‌لی ایدی. بونی او بیلمیردی.

تللی معلمك بو موضوعده ایتدیگی صحبتلریندن چوق مراقلانیردی. او، آقشامك گلمه‌سینی صبرسیزلقله بکله‌ییر، رضوانك تیزلیگله قایتماسینی آرزو ایتمیردی. فقط رضوان آرتیق قایتمیش، حیاطدا آرابانی آچیردی. ایمدی تللی متردد قالمیشدی. بوندان سوگرا هانکی بهانه ایله معلم ایله معلم اوز آراسینداکی باجانی آچاجاق، اونك صحبتلرینه قولاق آساجاق ایدی.

آقشامك قارانلیغی چوکمیشدی. کند خلقی رضوانك یانینا عذره گلیردیلر. رضوان اونلاری معلمك اوتاغینداقبول ایدیردی. گل‌پری بر قدر کیفسیز اولدیغی ایچون آقشامدان یاتمیشدی. تللی اوز اوتاغینا کیچوب معلمك اوتاغینداکی صحبتی دیگله‌مگه باشلادی. بورادا بر مباحثه واردی. مباحثه ایدنلرك بریسینی سسیندن تانیدی: بو معلم ایدی. معلمك مباحثه‌سی کیم ایله ایدی. بوسس اونا تانیش گلیردی دقت ایتدی. بو، کندك روحانیسی ملا خلیل ایدی.

(بیتمه‌دی)

سکینه

(حکایه)

گیجه یاریدان کیچمشدی. شیشه‌سی دودالانمش لامپانك ضعیف ایشیغی اونسزدا حفه اوتاغك هیسلی دیوارلارینی ایشیقلاندیریردی. بودار یسقال اوتاقدا یغیشوب، هره برجوره لزومسیز و معناسیز خدمت گوسترمگه چالیشان آرواد‌لارك صحبتلری و آغیز دولوسی «آخ - اوف»ندالری اوتاقك اونسیزدا عفونتلی هواسینی غلیظ لندیروب نفس آلماغی بیله چتینلشدیرمشدی بویله بربوغاناق منزلدن دیشاری چیقوب برآن بیله آچیق و صاف هواده نفس چیکمه‌گه جان آتیردی. سکینه‌یه یردن قالماق ممکن ده‌گل ایدی.

سکینه دوشه‌مه اوستنده سالاغی اوتوروب دوغوم سانجیسنی چیکیردی. سکینه‌نك دیزلری کەسیلیردی، آیاقلاری طاقتدن قالمشدی؛ یورغان دوشه‌گه اوزانوب، امل آیاقلارینی اوزادوب راحتلنمك ایسته‌یوردی. بوتون بدننی تەر باسمشدی، ساچلاری ایسلانوب آلتینا قولاقلارینك دالیسنا یاپشمشدی. سکینه لاپ تنکه گەلمشدی بو آنده جان ویروب، بو دنیانك عذابندن خلاص اولماغا راضی ایدی؛ بوقدر آجی، آغرینی چیکمه گەنسه اوزانوب ئولمگه بیله راضی ایدی.

لاکن نه ایده‌سن که ممکن ده‌گل ... عادت‌در؛ عادت بیله ده‌ییر. بیله‌ده گرك اولسون ... دوغان آرواد گره‌ك سالاغی اوتوروب بوتون اذا و جفالره صبرایتسون، دوام ایتسون... عادتدن چیقماق اولورمی؟.

سانجی داهادا کەسکینله‌شیردی ... طاقتدن دوشمش سکینه وار قوه‌سینی بیغوب «امان، ئولدوم!... داها صبر ایده بیلمیرم!...» دیه چیغیردیغی آنده ساعتلر اوزونی اونی بو فلاکته اوغراشدیران بر پارچا امت اوندان رد اولوب دوشه‌مه‌نك اوستنه فرلاندی. اوتاقك هواسی داهادا غلیظلشدی؛ نفس آلماق چه‌تین‌لشدی. اوتاقدا آیری‌جوره تلخ قوقولار حس ایدیلدی و برده قدمی آتاسنی شادایتمه‌ین فیزك ایگیلتی‌سیده ایشیدیلمگه باشلادی.

اوشاغی دوتان قاری نه‌نه سکینه‌نی یوماغا باشلادی؛ لاکن سو اوقادار سویوق ایدی که سکینه‌نی بو وقتده تیتره‌تمه دوتمش ایدی.

ایلیق سو اولماز!.. بوگری اوسته اوزانماق اولماز!..

بوتون بو «اولماز»لار تمامیله یورولمش، ئەزیلمش و استراحته محتاج اولان سکینه‌نك راحتله‌نمه‌سینه، دینجه‌لمه سینه بر آن بیله امکان ویرمیوردیلر. سکینه مجبور ایدی که آنجاق باشقالارینك ایسته‌دیگی و دوشوندیکلرینه تمامیله عمل ایدوب اوزینه راحت و الویریشلی اولان و ضعیفده اوزانوب، یتمه‌ینی. سکینه‌ده سکوت ایدیردی؛ چونکه اطاعتدن چیقماق اولماز!.. چونکه شریعت و برده أمر قادینك حاکمی، آغاسی‌درلر!.. قادینك‌ده طالعی بیله‌در!..

یویولمامش، آنادان گەلمه حالدا اولان اوشاغی تمیز لیگی شبهه‌لی اولان براه‌سگی‌یه چولغادیلار بو لطیف بدن‌سوتقالار اوزونی همین چیرکلی وقاتلی‌حالدا قالمالیدر.

عجبا، بویله برناتمیز حالدا اوشاغی ساقلاماق کیمه لازمدر. بو عفونتلی و چیرکلی اوشاغی کیم الینه آلارسا اونك أەتی اورپه‌شوب مایوس اولار. و علاوه بو چیرکلی حال اوشاغك اوزینه‌ده اولدوقجا ضرردر؛ اونك بدنی گیجیشه‌ر، راحت اویقو گورمه‌ز...

صبح تیزدن، هله سکینه یاتمش ایکن اه‌ری اوتاغا داخل اولدی، اونك یوزینده بر ناراضی‌لیق نشانه‌سی وار ایدی؛ اوشاغا طرف باقمادان یوز گوزینی تورشالدوب، یئره بر پارچا ; فورجه‌ك آتوب اوتاقدان چیقدی!..

اونا گوره که آنادان اولان قیز ایمش؛ یالیگز کشی جنسینك دوغولماسی انسانه فرح و سعادت ویره‌جگمش!...

ایکنجی گونی، هه سکینه تمامیله ضعیف و ناخوش اولدیغی حالدا سکینه‌نی یئره اوتوردیلار

دوردینجی گونده سکینه یئریندن قالقدی. او چوق ضعیف ایدی. گوج - بلا ایله حرکت ایده بیلردی.

بیرینجی اون گونده سکینه هله ناپاك حساب اولونوردی. اومورداز اولدیغی ایچون هیچ بر باشقا شیئلره اه‌ووره بیلمز ایدی؛ اوشاق دوغمش آرواد پاکلانمامش باشقا‌سنك ایوینه گیره‌رسه ایوه‌بر بدبختلك گتیره بیله‌ر!.

سکینه پریشان و غمکین گوزلریله اطرافنده کیلره باقوب اوزینی‌واحد وخلق آراسیندان قوغولمش حس ایدیردی.

بتن گوندن سوگرا سکینه بو دنیادن گیتدی. أمری آرتیق حرصلی اولدیغی حالدا قوتلی ضربه ایله اونی ایته‌له‌دی و اودا آغیر صورتده یئره یقیلدی.

سکینه یقیلدیغی یئریندن قالقدیغی زمان اوزینك بویوك بر خسارت آلدیغنی حس ایتدی یورولمش سکینه‌نك ئولومیده یاشایشی

کیبی مطیع ومظلوم برحالدا ایدی. ایری و قارا گوزلری غملی وملول برنظرله اطرافنه باقاراق همیشه‌لك یومولوردی.

—

بالاجا آراسته‌نك گوزلریده آناسینك کی کیبی قارا و آتشلی‌در. حتی گوگجه گلیگیده آناسینا اوقشایور... لاکن آراسته‌نك بختی اوشاقلقندان قارا گلمشدر.

صبح تیزدن هایاتدا یاشایش باشلانیردی. آروادلارك قشقریقلاریندان، حتی مباحثه و دوگوشلریندن نادینج اوشا قلارك دوگوشلری اوستنده ایکی آنانك آراسنداقالقمش مناقشه‌نك قشقیرتیسیندان آراسته‌ده باشقالاری کیبی صبح تیزدن یوقودان آییلردی.

بو قشقریق و قالماغالمی هایاتدا، اوز قومسندن خارج زحمتلر ایچینده آراسته‌نك چوجوقلق ایامی کیچمگده ایدی. کیمك خیالنه بیله گلمز ایدی که اونی مکتبه قویوب سواد اوگره‌تسون. قادیناداوقویوب یازماق لازم اولارمی؟.. قادینك اك برینجی و باش وظیفه‌سی اوز امرینه اطاعت ایتمك، اوشاقلاری و ایوینك دردینی چیکوب زحمتلرینه قاتلاشماقدان عبارت اولمالیدر.

آرواد اوز حسیاتنی، اوز دوشونجه‌لرینی هیچ وقت کشی‌یه بیان ایده بیلمه‌ز، کشی جوابنده ایسه آنجاق ده‌رین‌دن گوله بیله‌ر...

قرآن قیزی 9 یاشیندا حد بلوغه چاتمش حساب ایدیر. لاکن آراسته‌نك آتاسی اوز شخصی فکرینه گوره اونی 12 یاشینا کیبی اوز ایوینده ساقلامشدی.

بودر، گونلرك برینده آراسته‌یه تماشایه گه‌لمش آرواتلار، ایچمگه سوایسته دیکلری زمان بوایوده شیرین چای ایچدیلر.

قوجا کشیلر آراسته‌نك آتاسی ایله اوزون او ادی صحبت ایتدیلر.

ایرته‌سی گون بر دسته آرواتلار بر یوزیك، برباش یابایغی و برده گوزگی گه‌تیروب آراسته‌یه بیلدیروبار که او بوگوندن نامزد (آداخلی)در. آراسته أره گیتمك ایسته‌یرمی سئوالینی اونا ویرمه‌دیلر. چونکه او حقسیز بر انساندر و اوزینه مالك ده گلدر.

آتاسی طوی دستگاهنی بیر نیچه آی تأخیره سالدی. مقصدیده بر قدر آرتیق بخششلر آلوب قیزینی باها قیمته ساتماقدان عبارت ایدی.

بودر طوی وقتی‌ده گلوب چاتدی.

قوجالار کابین مقدارینی کسمك ایچین بر یئره توپلا‌نمشدیلار.

جهازك قیمتلرینی قزیله چه‌ویردیلر، کابینلك‌ده مقداری آز ده گل ایدی. آراسته‌نك آتاسی اوزیندن راضی بر حالدا گولومسه‌یردی. یاغلی بلاوك قوقوسی‌هایاتی باسمشدی. بوقوناقلق موالا و یاووق قوهوملار ایچون ایدی.

گه‌لین‌ده آروادلارا مخصوص حصه‌ده اوتورمشدی. کابین کمسیله‌ن یئرده اونك هیچ ایشی یوق ایدی: اونك بورادا حاظر اولماسیدا لازم ده گل.

آراسته‌نك یاووق رفیقه‌لری اونی حمامه آپاروب اورادا اونا بالا‌ـ بیرچه‌ك کمسدیلر. تازه بیگك‌ده حمام‌ـ ان زورنا‌ـ قاوال ایله گه‌لمه‌سینی آراسته ایشیدیردی. اونك اندامنی سویوق تمر باسمشدی، اونك امری کیم اولاجاق؟ او که هیچ‌بر دفعه اولسون اوز امرینی گورمه‌مشدر. بونك باشینا یغیشوب، چالوب‌ـ چاغیروب، شادلق ایدن آروادلارك بودرجه خوشنودلقلاری بر ذره‌قدر آراسته‌یه اثر ایتمه‌یوردی. آراسته بو کیف چیکه‌ن آرواد و قزلارا باقوب اوزی اوزینه بیله فکرله‌نیردی: «اوزمانداکه بونك قلبی بوقدر دوتقوندر اجوالی بوقدر پریشان‌در، نه‌اولمش که باشقالاری بوقدر خوشنود، بو درجه شاددرلر!؟...»

بودر، آخردا آراسته اوز امری ایله یالقوز منزلده قالدی. قوجانك چه‌لیه‌شیك، چل ساققال و کیچه‌ل باشی‌اك اول آراسته‌نك گوزینه ساتاشدی. بو کشی آراسته‌یه آنجاق آنالیغیاراشاردی!

آراسته یالواریردی که اونی اینجیتمه‌سون، دال به دال امرینك قوجالمش، قریش‌ـ قریش صفتنی اوپوب یالواریردی که اونا اذیت ایتمه‌سون. لاکن قوجا امان ویرمیوردی، رحمسیز ایدی....

له‌ئونتیه‌وا

(بیتمه‌دی)



تونج آی

رومان.

دالیسی.

یوری سلیوزکین.

حاجی مبارك

داغلاردان قارلی صباح نسیمی اسمگده ایدی. آسمانه قالقمش آی سانکه اوزون گیجه‌نك رقصندن یورولوب بکزی بوزارمش، اولگون حالدا أرییوب نازیکله‌شیردی، دار و قارانلق دالاندا انسان و حیوانلارك زور ایله سه‌چیله‌بیلن هیکللری قوردالاشیردیلار. اونلار کوچه‌نی آغزینا کیمی دولدیرمشدیلار. انسانلارك سوگوشلری، زینقرولارك جینگیلتی‌سی آت و قاطر نعللرینك تاققیلتی‌سی، قولاق باتیریجی فشدیریقلار، ایشگلرك آنقیرتیسی ده‌وه‌لرك ناریلتیسی بیری بیرینه قاریشاراق هوایه عکس صدا سالوب قولاقلاری باتیریردی.

کاروان قالخیردی. کاروانیك یولی، او زمانلاردا، رشتدن قزوینه کوچمگدن اوتری چوق زحمتلی قورقولی ایدی. آخرکه صفلر دوزه‌لیندی؛ اویقویا باتمش أیولرك دالیله یولادوشمش کاروان آغیر-آغیر حرکته باشلادی. چاروادارلارك یوغون سسلی قشقرتیلاری، تماشایه گلنلرك هوندوردن صحبتلری و دیلنچی‌لرك‌ده تاختا چاناقلارینی سواریلرك دیزلرینه قدر اوزادوب زارینتیلی سسلر ایله التجالاری ایشیدیله‌نه‌رك کاروان حرکته باشلامشدی. ایلان کبی دار یولا دوزولوب میدانه طرف دونمش کاروان تمکین ایله حرکت ایدیردی.

اك قاباقدا زینقرولی قایشلار ایله به‌زه‌نمش، اه‌نلی پالان آلتندا یوکله‌نمش آغ و هوندور آتدا اوتورمش چاروادار گیدیردی. پالانك هر ایکی طرفندن نازیك میسدن قایریلمش، آغزلاری آشاغا، ایکی بویوك ساتیللار آسیلمشدیلار بو ساتیللارك‌دا ایچلریندن ینه‌ده بالاجا ساتیللار آسیلوب بیری او بیریسینك زنك دیلی یئرینی آلوب گاه هوندوردن و گاه آلچاقدان سسلر چیقاریردیلار. چاروادارلارك دالسنجا ساروان گیدیردی. بودا اوجا بویلی گوزه‌ل بر جوان اولوب یاشیل و ئه‌نلی قوللی خلعت گه‌ینمش، آلتینك اطرافنه چالما ساریمش گوزه‌ل بر جوان ایدی.

بویوك پالان و یانیندان آسیلمش کوهنه و اه‌گری بر شمشیر بوز رنگلی قوجا آتنی‌دا گیزله‌دیردیلر.

بونلاردان صوکرا آغیر یوکلر آلتیندا و خیردا قدملرله ساروانلارك یانلارینجا قاچان اللی‌باش قاطرلار، و برده یوگه‌نلر ایله بیری بیرلرینه باغلانوب مینیگسیز اولان دورت باش قاراباغ آتلاری تله‌سمیه‌رك یوروش ایله حرکت ایدیردیلر.

اویناقلیاراق، قدملرینی ده گیشدیره‌رك ساغریلارینك نازیك و پاریلدایان ده‌ریلری سه‌گیرده‌رك، دیشلرینی آغاردوب، یومرو گوزلرینی سوزه‌رك بو آتلار بویوك مراق ایله بیری - بیرینه اینانمیاراق اینه‌شیردیلر. کاروانك قورتاراجاغیندا بر افسرك قوماندا‌سی آلتیندا تفنك و نیزه لرله مسلح سواری سربازلار دسته‌سی گلیردیلر. ضابط چرکسی لباس گه‌یینوب باشینادا آغ توکلی پاپاق قویمشدی. ضابطك به‌لیندن قرمزی قایتانلی قلینج ساللانمیشدی. شهردن چیقاندان سوکرا ضابط سیغار قوتوسنی جیبندن چیقاروب بر پاپروس یاندیردی. افسر یوزینی تورشاتمشدی. حاجی مبارکك قوناقلیقندا کیچردیگی گیجه‌دن سوکرا افسری

چوق بەرك یوخی باسمیشدی بو، روس ضابطی (پاناسیوق) ایدی: (پاناسیوق)بشنجی بیل‌در که شاه قوشونیندا تعلیماتچی وظیفه‌سنده قوللوقدادر: رشته کی قیمتلی شیلری قزوینه کوچورتمك ایشی بونا تاپشریلمشدی.

طهراندا تازه‌جه ترتیب ویریلمش قازاق بریقاداسینا گونده‌ریلن حربی لوازمات آدیله، بو قیمتلی شیئلری شهردن کناره چیقاریردیلار. (پاناسیوق) عصبی بر حالدا اوزی اوزینه بیله فکر له‌شیردی:

– بو ایت اوغلانلاری اینگلیزلر همیشه‌بیله‌درلر؛ اوز- لری قورقودان دازییرلار، اما آرادا منمده ئه‌لیمی چیر- کین ایشه بولاشدیرلار.

دیندار مسلمانلار طرفندن، بو حالدا ایراندا کل اختیار اولان فرنگیلره قارشو اولان خصومت و نفرت حسیاتنه پاناسیوق‌ده شریك ایدی. روس تعلیماتچیلارینی ایشدن کنار ایدوب عوضلرینده انگلیز تعلیماتچیلاری قویماق فقره‌سیده (پاناسیوقی) حرصلندیروب هیجانه سالمیا بیلمه‌ز ایدی. او ایراندا آلتینی دولدیرمشدی. و بو سببدنده اوز وطننه قایتماق ایشی هیچده پاناسیوقا خوش گلن بر فقره ده گل ایدی. انزه‌لیه وارد اولمش کوگللیلرك روسیه باره‌سنده دانشدیقلاری صحبتلر اونی قورقویا سالمشدی.

جهنمه اولسون بیله وطن! بوراداء ایراندا هربروقوعاته، اهالینی اضطرابه‌سالان‌هربیر راحتسیزلیکلره کناردن کلمش‌بر آدام کیبی باقماغا (پاناسیوق)چوقدان عادت‌ایتمش‌ایدی.او هر بر عصیانی یاتیزدیردیغی زمان کیمك حقلی و کیمك ناحق اولوب اولمادیغنی بیلمه گه عادت ایتمه‌مش ایدی.

جمله‌ایرانلیلار باره‌سنده اونیك رایی بیله ایدی که بونلارك هاموسی بر درجه‌ده ژولیق، قورقاق‌و حیوان‌درلر. اونیك قایغوسی آنجاق بوایدی که وقتلی وقتینده‌اونك‌دونلوغی ثوده‌نیلسون حقیقت حالدا ایسه‌پاناسیوق رحمدل بر آدام ایدی اونا دیسه ایدیلر که سن پیس ایشه خدمت ایدیرسن، یقین که چوق تعجیله‌نه‌ر ایدی.

– من بو مور دارلا را محاربه صنعتنی او گره‌دیرم؛ اولار گره‌ك همیشه مندن ممنون اولسونلار!.. دییه‌ره‌ك تکبر ایله بو سوزلری تکرارایدیردی. اینکلیزلرك اوزینه جدی بر گوئنی اولمالارینی (پاناسیوق) درك ایتمشدی؛ بو سببدنده اینکلیزلری هیچ سه‌ومه‌زدی. فقط بونادا محکم صورتده اینا نمشدی که«پەرسیوقلار اوزلری بونلارك‌عهده‌لر یندن گله‌بیلمیه‌جکلر؛ اونلارك باشلاری بالقاباق کبی‌بوشدر!.. اونلارا بر روس غوبرناطوری لازمدر که ایشلرینی ساهما نلاشدیرسون!..»

(پاناسیوق) سه‌یره‌ك ساققالینی دارتاراق اوزی اوزینه گولومسه‌ییردی: «آه بویرلرده‌نه ایشلر گورمك اولار!.. بورالارك که صاحبی یوقدر!..»

بو (پاناسیوق) دیمه گوردم‌بر روس(قولاقی)قولچوماقی ایدی که باشقاسینك ایش بیلمه‌مه گینی گوروب‌حرصله‌ئیردی. لاپ بوره گدن بر چوق ایرانلیلار ایله دوستلق آپاردیغی حالدا، یه‌ده اونلاری آدام حسابنه سالمازدی.

«شیطان‌دا ایشلرندن باش چیقارماز! هله بیل که تاراقان جنسیندندرلر! بارداشلارینی قوروب دوره‌یه اوتوروب گوزلرینی‌ده آسمانه تیکرلر!..بوملتجیکزلك‌لاپ آخرزمانلاری یتشمیشدر!.. اما آروادلار بنا هیچ سوز یوقدر!.. خصوصاً قزوین آروادلارینی داها دیمه!..»

(پاناسیوق) گیجه کی کیفی یادینا سالوب آغزی لذته گلدی، ویه‌هه‌رده گه‌رنه شیب اوزه‌نگیده چیکمه‌لرینی‌قیژ یلداتدی. یئیل دامارینداں خفیف بر سرین‌لك یئریدی. بو گیجه اترلیدن رشته اوزینك قیش سراینه گلمش حاجی مبارك(پاناسیوقی)، کوگللیلرك‌جنرالنی، وایکی نفرده انگلیز لری قوناق چاغیرمشدی. حاجی مبارك اوز ایشینی یاقشی بیلیردی. حاجی‌مبار که لازم ایدی که‌احتیاط ایچون بعضی شیلری رشتدن اوزاغا گوندرسون.

حاجی مبار کك بورنی ایتی ایدی؛ هوانك مغشوش لقنی، پیس قوقو گلدیگنی اونك بورنی حس ایتمشدی. بو حیله گره معلوم ایدی که صباح صیحدن انگلیز کاروانی قزوینه یوللاناجاقدر. بو کارواندا بیر نیچه‌ده آرتق قاطر اولسا ایدی انگیلزلره هیچ بر آغرلیغی اولماز ایدی! بو قاطرلاری قره‌غولسیز گوندرمك، بو گونلرده هر حالدا خطالی بر ایش‌در...

حاجی مبار کك ده‌ریندن باخان قارا گوزلری‌یول چیکیردی. نه‌حاجی مبارك انگلیزقونسولینا باخیردی. نه‌ده قونسول حاجی مبار که فکر ویریردی. لاکن بونلارك ایکیسیده بری اوبرینك فکرینی گوزلجه آگلاییردی. هر جوره اتفاق ایچون آرالارینداً دوستلق ساخلاماغك هیچ بر ضرری یوق ایدی.

روحانیلر آراسیندا حاجی مبار کك بویوگ نفوذی‌وار ایدی؛ اونك‌سوزینك‌قدر ـ قیمتی‌وار ایدی؛ حتی بیربولوگ یوق، ایکی‌بولوگ سربازلارك قوه‌سی‌قدر، حاجی‌مبار کك برجه کلمه سوزینك قوه‌سی وار ایدی. یول‌لاردا اتفاق‌دوشه بیلن بربارا اوقات تلخ‌لیگلردنده خلاص ایده بیلمه‌ر ایدی.

بس انیگلز قونسولی؟ اوردا هرجوره اولسادا انیگلیز قونسولی ایدی. دوتالم که‌بو گون، بورشنده انیگلیز قونسو

لینك احوالی زهرماردادیر. لاکن کیم بیلیر صباح نه اولاجاق؟ بلکه ده صباحکی گون بوتون ایشلر ده گیشدی. هرنه اولسا حاجی مبارکك اینگلیز قونسولی ایله آشنالیغی سطحی بر دوست لیقدان عبارت ایدی. حاجی مبارك برتاجر وملکدار اولدیغی ایچون اوز آل-ویرینده بر چوق جهتدن اینگلیز قونسولندان آسیلی ایدی.

«اینگلیز بویوگ بر دولتدر!..» سوزلری اونیك دیلیندن دوشمه‌ز ایدی.

چاغریلمش قوناقلارك آراسیندا، رشته آدلی سالملی و بویوگ حرمت ونفوذ صاحبی اولان موللالاردانده وار ایدیلر. مسجدلرده فرنگیلرك خائن لیکلری باره‌سنده پچیلداشان همین موللا وروحانیلر اوز دوستلارینك سفره‌سی باشیندا آرتیق تواضع ایله اینگلیزلره تعظیم ایدیردیلر. روس کونسللی لرینك جنرالی فوق العاده برتاپشریق ایله طهرانه شاه حضورینه تقدیم اولونماغا گیدیردی (پاناسیوق) شاه حضورینده حاجی مبارکك ده آدینی چیکه بیله‌ردی. کاروانیدا همین ادبلی (پاناسیوق) آپاریردی... همین بو جهتلره گوره‌ده او بو گون بو مجلسده اشتراك ایتمکه لایق اولمشدر.

خدمه‌لر قوناقلارا شربت، قارا قهوه قلیان تکلیف ایدیر دیلر. قوناقلار ایچك خالچالار اوستنده اوتوروب قولتوقلاری آلتیندادا گلباتین ایله چیکنمیش بالنجلاری قویوب «تایمس» غزته‌سینك سوك نومروسیندان اوقومش اولدیقلاری تازه خبر-لری بیری بیرلرینه ده‌بیردیلر. آوروپا قوستیومنداء اوجا قامتلی، تند بوغدائی، وشاربلری وورولمش چال بوغلی ایو صاحبیده نجیب لیگنه شهادت ویرمن احتراصلی دوداقلاریله قوناقلارا گولومسه‌یوب تعظیم ایدیردی. بو حالدا کیم دیه بیله‌ردی که بو کشی همان او، انزلیده کی نقاشك اوغلیدر که اوشاقلیقیندا اوز قارداشیله برابر قومشولارینك باغلارینداں قایصی اوغورلیغنه گیده‌ردی.

غروب یاووقلاشان زمان طنطنه‌لی وساکت اوتورمش موللالار اوزئرلرینده قالقدیلار. عادت اوزره بونلار گروه گ آخشام نمازینی اوز ایولرینده ادا ایتسونلر. بوحالدا آوروپا لیلاشمش ودیپلومات اولان حاجی مبارك کمال تعظیم ایله اللرینی سینه‌سینه قویوب موللالارك حضورینده دوروب خوا-هش ایتدی که روحانی آتالار اونیك بو ایونیاوز ایولری حساب ایدوب عبادتلرینه بـورادا مشغول اولسونلار. موللالار اوز قولتوق جیبلرینده مهرلرینی چیقاردوب دیزاوسته چوکوب نمازه مشغول اولدیلار. عبادتدن صوگرا ایو صاحبیك اشاره‌سیله خدمه‌لر بادنوس ایچینده برنیچه عادی پاپاقلار گتیردیلر. زاهد و روحانی آتالار باشلارینداکی آغ عمامه‌لرینی چیقاروب پاپاقلاری باشلارینا ئولجمگه باشلادیلار.

روس جنرالی آرتیق حیرت ایله بونلارا باقیردی. (پاناسیوق) ادبله اونك قولاغینا بویله پوچیلدادی.

اونلار داها موللاده گل، بلکه عادی انسانلاردرلر: کیفلری ایسته‌دیگی کیبی وقت کیچره‌بیلرلر!..

شام سفره‌سی اونلارجا آوروپا وآسیایمه گلرینلرعبارت ایدی. حاجی مبارك روس (وودقا) عراقندن باشلایوب بیرنجی قدحی ایران ایله اونك دوستلاری اینگلیزلر وروس آغ قواردیاچیلارینك محکم و سارسیلماز اتفاقلاری شرفنه ایچمگی تکلیف ایتدی.

موللالاردا آرتق راضی لیگله ینی تصدیق ایتمك نشانه‌سی اولاراق کمال خوشنودلیقله باشلارینی ئه گیردیلر.

بیرنجی قدحدن سوگرا ایو صاحبی ده‌رینلدن برآه چیکوب، غمگین حالدا دیدی: سیز بیلسه ایدگز که بیزیم حیاتمز نه‌درجه‌ده آغیر. غملی و یك رنك در. بیزیم هیچ بریمزك صباحکی گونه امیدیمز یوقدر. بیزیم تجارتمزی وشخصی حیاتمزی بیله تامین ایده‌بیله‌جك محکم بر قانونمز یوقدر. تمامیله غوبرنا طورلارك واونلارك چینوونیقلرینك ظلم وخودسرلیگلرینلدن تمامیله آسیلی اولان قارامخلوق اوزلرینك باشایش حقوقلارینی ئولکه‌سینی داغیدان عصیانلار، اغتشاشلار واسطه سیله مدافعه ایتمگ ایسته‌یورلر. یالیگز 1919 نجی بیلده باغلانمش مقاوله‌نامه‌نك حیاته کیچریلمه‌سی یولیله ئولکه مزك سعادت و امنیتی برپا اولابیلر. بورایی بیزیم هیئت وزراصدربمز وثوق الدوله‌ده تصدیق ایدیر؛ الله اونك نام مبارکنی یللر اوزونی پایدار ایتسون.

حاجی مبارك اوز یوموق وایتی گوزلریله مجلس اهلنی تازه‌دن نظردن کیچروب داها آرتیق یالتاق برلسانیله علاوه ایتدی:

ـ مسعود آوروپالیلار بیزی چوق آرواد آلماقمزا گوره طعنه ایدیرلر! لاکن سیز بوراسنی بیلمگ ایسته‌میرسیگز که بیزلر مدنیتك باشقا لذتلرندن مأیوس اولدیقمز ایچون اوز یوره گمزك یانقوسینی آنجاق قادین عشوه‌سیله و قادین نشئه‌سیله یاتیزدیربریق. سیز او آروادلاردان ایسته‌دیگیلگز قدر لذت چکیرسیگز.

او که قالدی قادین لارا، منه معلومدر که سیز آوروپا لیلاردا بیزدن دالا قالمیرسیگز... قانونا سیزه چوق آرواد آلماق قدغن اولنوبسادا؛ شریعت بزه شرابی حرام ایتمیشسه‌ده لاکن بیز شرابك لذت ونشئه‌سندن قاچمیوریق. بوتون یارانمشلار الله قارشوسیندا گنهکاردرلار!..

حاجی مبارك باشینی موللالارا طرف اوزاتدی.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0214

اونك احتراصلی دوداقلاری بر آن آرالانوب،بئرتیجی دیشله‌ری آغاردی. او،بوحالدا بر وحشی پلنگه اوقشایبردی که اوزاقدا، قامیش سیندیران چول دونقوزینی گوروب، قولاقلارینی یاتیزدیروب، باشینی یئره سوکه‌یوب اوزشکا رینك اوستینه آتیلماغا حاضرلاشمشدر.

بیرجه قدم‌ده‌خلوتی‌حرکت لازمدر که اوز مقصدینه چاتسون...

– ای بویوك اولان حرمتلی قوناقلار، هرگاه سیزه آچاجاغم سری گیزلین ساقلبوب، باشقالارینا دیمه‌مه‌گه سیزدن خواهش ایده‌ره‌مسه،سیزمنیم‌بو جرعتمی‌اوزیگزه‌نسبت حقارت سانمایگز، سیزه فدا اولوم!.. من بو کیجه سیزه بر منظره گوسترمك ایسته‌یورم که سیز آوروپالیلارندرتاً بیله شیلره تصادف ایده بیلرسیگز. بو کون بیزیم مجلسده رقاصه‌لرده اولاجاقدر. بنده گزه همیشه عنایتگز کیچمشدر.

من اوزیمی خوشبخت حساب ایده‌ردیم که سیز بو اگلنجه‌نی‌ده مندن قبول ایده ایدگز . – حاجی مبارك سسینی آلچالدوب، پچیلدایاراق علاوه ایتدی. – آنجاق بو ایش جدیاً گیزلین ساقلانمالیدر ، چونکه بو کونده – مذهبی آیین‌لریمز اجرا اولنان بر زماندا، منیم بو حرکتیم آشکار اولورسا، باشیم بدنمدن آیریلا بیله‌ر.

حاجی مبارك سوزلرینی بتیرمه‌مش، قوللارینی آچوب، چگینلرینی قالدیردی و بو حرکتیله‌ده ایسته‌دی که بو ایشده‌اوزینك‌تمامیله‌بی‌طرف‌اولماسینی قوناقلارا ثبوت‌ایتسون اینگلیز قونسولی، سانکه رسمی بر صورتده اولاراق بوسوزلری دیدی:

– حرمتلی حاجی مبارك، سیزك سرگزی، – اوز دوستلار گزك سریدر. بیز هاموممز سیزه نوکر واریق. فارس‌دیلینده دانیشیلمش، انگلیز قونسولیله ابوصاحبی‌نك سوزلرینی(پاناسیوق) جنرال ایچونده ترجمه ایتدی. جنرال قیزارمش‌حالدا‌بوغلارینك‌اوجنی‌سیغالایاراق،هوندوردن‌دیدی:

– بونه سوزدر، البته که... هیچ دانیشیغنا ده گمز:.. بیر جه سیزك اویناياناللاری بورایا چکیك کورمك!

حاجی مبارك آیاغا قالقوب، قوناقلار دارپیللهلر ایله یو. قاری مرتبه‌یه قالقوب گنیش و خالی‌لار ایله دوشه‌نمش آینه بند بر آرتیرمایا داخل اولدیلار. بو اوتاقك باش طرفنده، کونجده بر دسته‌ایرانلی آرواتلار اوتورمشدیلار. آروادلارك بیر پاراسی چای ایچوب پاپروس چیکیردیلر. هرچند یقین ایدیله بیله‌رکه بو فرنگیلرك بو اوتاغا تماشایه گله‌جگلری قاباقجادان بو آروادلارا خبر ویریلمش ایدی؛ لاکن بونگله بیله، ینه‌ده فرنگیلر ایچه‌ری داخل اولدیقدا بونلار بیر درجه تشویشه دوشن کیبی‌اولدیلار. قاباقجا قونسول و برده جنرال گیدیردیلر. آروادلار باشدان آیاغا کیبی بونلارا تماشا ایدوب پیچلداشاراق دوداق آلتی پیقه‌یلداشیردیلار. بر نفر یاغلی، کوك آدام چیقوب قوناقلاری قارشولایوب تعظیم ایله سلاملادی. او. حیله‌گر بر طرزده گوز آلتی حاجی مبارکه باقوب گولومسه‌یردی. موللالار کمال ادب ایله ایچه‌ری دیوارك دیبینده اوتوردیلار.

هاموسیندان سوگرا (پاناسیوق) ایله بر جوان ایگلیز افسری داخل اولدیلار. بونلار آرالیقدا دوروب گوزلریله اوزلرینه اوتورماغا بئر آقاردیقلاری زمان بر بوجاقدا یقیلوب، اوتورمش آروادلار آراسیندا دوتغون برچیغرتی ایشیدیلندی. بر جفت قارا و پاریلدایان گوزلر اینگلیز ضابطدن آیریلمایوب اونی تامیله‌هینوز ایتمکه چالشیردی. ضابط اختیارسیز دونوب اوتاغك کوشکه ایچینده قالمش بوجاغینا دقت یتیردی و اورانی گوره‌ن کیبی صفتنده بر حیرت کولگه‌سی مشاهده ایدیلدی. بر آن نه ایده‌جگنی معین ایده بیلمیوب تردد ایچینده قالمش ضابط، تله‌سیك آروادلار دسته‌سینه طرف گیدوب اه‌لینی‌اونلارك بریسینه طرف اوزادوب ادبله دیدی:

– سلام‌علیکم! من سنی تانیمادیم (مارو)!.. نیجه‌اولدی که سن بورایه دوشمیسه‌ك!..

بورادا دورمش حاجی مبارك، اوتانمش آروادلارك عوضینده جواب ویرمگه باشلادی:

– بو رقاصه‌لری منیم دوستم علی‌صاحب بورایا گتیرمشدر. علی‌صاحب تیز – تیز قزوینلدن بورایا غاستروله گه‌لدیر. اونك‌رشته‌ده و بورادا قزوین‌ده‌ده ایشلری‌چوق یاقشی گیدیر. صباح سحر علی‌صاحب قزوینه قایداجاقدر. آنجاق من بونی بیلمیردیم که سیز مارونی تانییرسیگز،

حاجی‌مبارك بو سوزلردن سوگرا اوز کسگین‌نظرینی رقاصه‌یه چه‌ویردی. (مارو) باشینی آشاغا سالدی. اینگلیز ضابطی سویوق برحالدا جواب ویردی:

یولوم قزوینه دوشدن زمان من علی‌صاحبك کبابچی دکانینه گیده‌ردیم. کناردا دورمش یوغون قارینلی‌بر آدام تعظیم ایده‌رك کولومسه‌ین بر حالدا دیدی:

– من چوق خوشبختم که سیزی ینه‌ده شادو سلامت گوریرم. (مارو) هیچ‌وقت بیزیم آدلی – سانلی، سخاوتلی قوناقمیزی یادیندان چیقارتمیوردی.

حاجی‌مبارك‌قاشلارینی‌تورشالداراق بونك سوزلرینی کەسدی:

–علی‌صاحب،هامو بیلر کەسن دیللی – دلاور بر آدام



ساك. او گوزه‌ل سوزلردنسه، سن بزه اوزرقاصه‌لریکی گوسته‌ر، اولارك اینجه صنعتلرینی بزه گوسته‌ر، چونکه هرجوره گوزه‌ل داشیقلاردان او اینجه صنعته باقماق داها آرتیق لذت ویره‌ر.

بو سوزلردن سوکرا ایو صاحبی، کمال ادبله اینگلیزك قولتوقینا گیروب بالاجا وآلچاق استولك کنارینه کتیردی. باشقا قوناقلار داخی بو اوستولك اطرافنه یغیلمیشدیلار.

جنرال کیت ـ کیده‌قیزاروب فسیلدایه‌ردی، (پاناسیوق) باشینی أه گوب اونك قولاغینا بعضی سوزلر پچیلدایردی، موللالاردا قاباقکی کیبی اوز یئرلرینده حرکتسز وساکت بر حالدا دوروب تماشا ایدیردیلر و آنجاق اونلارك آج گوزلری ایشیلدایردی.

آروادلار دسته‌سیندن بریسی آیریلوب اورتالیغا کیردی: اونك یاشی اون آلتی‌دان آرتیق اولمازدی.

(بیتمه‌دی)

«شفا» اوجاقلاری!

کابلا تاپدیق، بالام نه اولدی سنه،
تنبللیگیك یوقسا دوتوبدر ینه؟...
هر گون بویله گه‌لمه‌ز ایدیك سن ایشه،
گئجیکمه گیك بنی سالدی تشویشه،
آقشام چاغی دون ایشله‌ر که‌ن بورادا.
ته‌رله‌میشدیك چونکه حددن زیادا،
خسته‌له‌ندیك دییه ایله‌دیم گمان،
بو دوشونجه به‌نی قویدی نگران!...
– به‌ندن ئوتری صادق بولداش چیکمه غم.
اویله شیئچون بن ایشیمدن قالمزم.
اویله زادلار بنی ایله‌مه‌ز ناچاق؛
نوخانیدان بیزه گه‌لمیشدی قوناق!
ایمدی دوروب قدم گاهه گیتدیلر.
به‌نی اونلار آز معطل ایتدیلر.
– قوناقلاریك کیملر ایدی دی گوره‌ك؟
– اوچ قادیندی، ایکی چوجوق بیر، ار که‌ك!
– خسته‌لری نه دن خسته‌لنمیش‌در!
– بیر قادیندر جانینا یئل أه‌نمیشدر!
– قدم گاهدا وار نه واجب ایشلری؟
– نه اولاجاق، دیدیم وار خسته‌لری!
– خوب، قدم گاه او خسته‌یه نه یاپار؟
– نه یاپاجاق، یتیشجه‌ك شفا تاپار!
– بنجه اونلار گیتسه‌یدیلر دوقتورا،
یاقشی ایدی گلینجه عبث بورا!
– یولداش صادق بو آگلا نور سوزیکدن،
سنده آزوب چیقماقدا ساك ایزیکدن،
اعتقادك خراب اولوب گیدوبدر؛
غزته‌چیلیگیك سنی برباد ایدوبدر!
– اعتقادیم بنی خراب ایتمه‌میش؛
آز سوادیم داخی برباد ایتمه‌میش؛
آنجاق بیر آز دوشوندورور بو بنی؛
اعضاسینی یه‌ل آلمیش ستاره‌نی؛
نوخانی‌دان آرابا أزه – أزه؛
قیشیك گونی سالماق ته‌په‌یه، دوزه؛
شفا اوماق کوهنه، خراب مزاردان!
نه وار خسته خلاص اولسون آزاردان!
مزارلاردا کیم بیلیر کیمدر یاتان،
خلقه بوغدا گوسته‌روب آرپا ساتان!...

قدم گاه‌دا بویله بیر بوش خبردر.
سویك تأثیریندن قالمیش اثردر.
ده گیز دالغالاری یوز ایلدن به‌ری.
آ پمیشدر قایادا آیاق اثری؛
سیزده آد قویمیش سیگز «علی آیاغی»!
دالغا اویغونینا شفا اوجاغی!
بونی دیه‌ن تاریخی هیچ بیلمه‌میش.
علی هه‌رگیز بو طرفه گه‌لمه‌میش.
دوتالیم که علی گه‌لیب بورایا؛
آیاغیندا گیدوب باسوب اورایا؛
انسانك آیاغی داشا باتارمی؟
عقلی اولان بو یالانا یاتارمی؟
بیر حیله گه‌ر یالاندان «شیخ» اولماغا،
جیبلرینه هاوادان پول دولماغا.
عوام جماعتی سالماغا أله،
حیله گه‌رلیگیندن قوروبدر ته‌له،
عقلی اولان بویله زادا اینانماز؛
چوجوق کیبی هر یالانا آلدانماز؛
– سوس سویله‌مه پیرلرك ایشی سردر.
شه‌ك گوتوره‌ن، آخوند ده‌ییر، کافردر!
بو کیشیلر أه‌زل گه‌لیب اوجاغا؛
نوخانی‌دان – ماشتاغایا «چیل‌داغا»؛
«بیر چوبوغا» شیخ گوك اسگی باغلایوب؛
اودا قویوب بند بندین داغلایوب؛
داغلایان ته‌ك تفاوتین بیلوبلر؛
شیخك نذرین ویروب اوردان گه‌لیبلر
«پیرواروا» دیك گون‌اوزتا چاتوبلار؛
او پرده‌ده بیر آز پالچیق دوتوبلار؛
پالچیغی سورتوبلر بند بندینه.
سو گرادا گه‌لیب‌لر «پیر حسنه»!
خسته اوزین‌پیره ده‌خیل سالوبدر؛
شك یوقدر که ایسته‌دیگین آلوبدر؛
«پیرك» اوجاغندا حالوا چالوبلار؛
مجاوری، زادی راضی سالوبلار؛
اورادانداً جیقوب گه‌لمشلر بیزه...
نیجه که نقل ایتدیم بیر به‌بیر سیزه...
«قدم گاه»دا بو گون کسه‌رلر قویون؛
بونگله شبهه‌سیز قورتارار اویون؛

بوندان بویوك اولاجاقمی کرامت؟
خسته‌جیغاز اولسا بو گون سلامت؟
دوقتور کیمدر، آللهینی تانیماز،
اوروج دوتماز، ایلده بیر نماز قیلماز !..
ئوزی‌قیرخیق، بیغی قیرخیق، باشی ساچ،
طهارت‌سیز دورار، بوینیندادا خاچ ،
عره‌قدر، چاخیردر ویره‌ن ده‌رمانی ،
أیت‌دن موردار ایده‌ر پاك موسورمانی ،
بوندان أزه‌ل سحر آقشام وار ایدی ،
حکیمیمز اوستا وه‌لی‌بك وار ایدی،
باش قیرخاردی، قان آلاردی او کشی ،
دیش چیکه‌ردی، واردی بویله چوق ایشی،
اوچ آیلیغی هر ایل اوروج دوتاردی،
رحمت‌لیگیك بنده‌جیلیگی وار ایدی ،
هیچ زاد ایله ساغالداردی ناخوشی ،
پول آلمازدی هر کس‌دن گلسه خوشی !..

هر بیر ایشده مهاره‌تی وارایدی،
جماعته یولداش ایدی، یار ایدی ،
هه کیم لیگده کیچمیش‌ایدی لقمانی،
آجی‌لقدان*) حاضرلاردی درمانی.
اوچ ایلده بیر زیاره‌ته گیده‌ردی،
آلله بویورانا عمل ایده‌ردی ،
بونلاردا ئوزینی بیر آدام سانیر؛
نه‌مکه، نه کربلا، مشهد قانیر!
نه‌وار، گیدوب ایکی، اوچ سوز اوقوموش.
بونلار کیبی بیله‌ن آدام یوقوموش!.
دانیر پیری، پیغمبری، امامی !
آللهادا هله بوقدر اینامی !
سنده اویوب بو دین‌سیزلر سوزینه ،
کول قویمیش‌ساك ئولنلریك گوزینه!.
اینانمیرساك پیغمبره، پیره‌ده !
بو ایشیگدن گیرمه‌یرسك یره‌ده !

معلم: آذه‌ر.

*) «آجی‌لق» چولنرده یتمه‌ن بر اوت‌در. انسان اونا أهل ووراندا زهر قدر آجی اولور.

شکی زحمتکش قادینلار قومیته‌سنك فعالیتی باره‌سنده.

آذربایجان زحمتکش قادینلار قومیته‌سینك نوخاشعبه‌سی تشکیل اولان گوندن به‌ری شکی قضاسیندا زحمتکش قادینلارك حالی برقدر گوزه‌ل‌لشمشدر. قومیته واسطه‌سیله بر بیل عرضنده 170 قادین توخوم ستاسیونینا آذرایپک اداره‌سنه، اجزاخانه‌یه، خسته‌خانه، کلاغایی، تیکیش، چولقی، اعمالاتخانه‌لرینه وقزیل‌شرق آشخانه‌لرینه‌ایشه گوندریلمشلردر. زحمتکش قادینلار سواد قورصندا دوام ایدیرلر. بو قور صلاردان7سی شهرده 4 ی ایسه قضاده واردر. قومیته‌ده بر بیل‌ده 2287 عریضه‌یه باقیلمشدر. بونلاردان 29 ی قیزلارك کوهنه عادت اوزره قوهوملاری طرفندن اره ویریلمه‌سی، 26سی قیوملیق، 15 بلدیه‌لشمش ایولرك قاپتا ریلماسی، 17 ایوسیز قادینلار طرفندن ایو ایسته‌مك. 15 شکست قادینلارا کومك ویریلمه‌سی 250 عریضه ایش طلب ایتمك، 200 صحیه معاونتی ایسته‌ین‌وچوجوق رد ایتمشلر. 270 ادعا ایتمك 333 نکاه 861 عائله‌وی مباحثه ویرده فالانی ایسه مختلف شکایتلر بارده‌اولمشدر. کوچك یاشلی قیزلارك اره ویریلمه‌سی ایکی آروادلیق، قیز گوتوروب قاچما، وبو کبی کهنه عادتلرله قومیته جدی مبارزه آپارمشدر.

زحمتکش قادینلار قومیته‌سنه کونده 50؛ 60 آدام مراجعت ایدیر. بو سنه مدتنده قومیته‌یه، 18000 شکایتچی مراجعت ایتمشدر. بونلاردان 2287 ایش ایچون قالانی ایسه مختلف مسئله‌لره گوره مراجعت ایتمشدر.

قومیته اختیارینداکلاغایی، جوراب، و تیکیش اعما لاتخانه‌سی واردر. بونلاردا 44 نفر قادین و 7 ارکك ایشله‌یوب اورتا حسابیله 25–30 مناته قادار معاش آلیرلار. سنه عرضنده قومیته‌نك 45 پله‌نوم‌وهیئت ریاست‌اجلاسلاری اولمشدر. قضا قادینلار شعبه‌سینده وقادینلار قلوبنده 5 دفعه معروضه ایدیلوبدر. عمومیتله شکی‌قضاسنده‌زحمتکش‌قادینلار قومیته‌سنك موفقیتی گوز اوگنده‌در.

رشید.



آنالق وجوجوقلق محافظه‌سی

چوجوق قونسولتاتسیاسی یانینداکی پاترونلرك وظیفه‌لری.

پاترونلر باجیلارك وظیفه‌لری بونلاردان عبارتدر.

1) تازه‌اوشاق دوغمش آنالاری قونسولتاتسیایه جلب ایتمك.

2) سودامه‌راوشاقلارا اوزایولرینده متمادیا نظارت یتیرمك.

3) آنالارا اوشاقلارینی امیزدیرمك و اوشاقلاری نه جوره ساقلاماق یولونی عملی صورتده اوگره‌تمك.

1. تازه دوغولمشلاری تدقیق ایتمك.

تازه دوغولمش اوشاق باره‌سنده قونسولتاتسیا معلومات آلاندان سوگرا پاترونلر باجی همان ایوه گیدوب زاها قادینی اوز اوشاغیله برابر قونسولتاتسیایه جلب ایتمگه چالشیر. ایلك دفعه زاهاقادینك ایوینه گلمش باجی نه‌ایتمه‌لیدر:

1) پاترونلر باجی قونسولتاتسیانك وظیفه و مقصدلری ایله زاها قادینی تانیش ایدیر، بورادا ساغلام اوشاقلارك قبول ایدیلمه‌سینی و اوشاقلارك حیان ساقلیغی خاطرینه ممکن قدر تازه تولد تاپانلارك بورایا تیز گه‌تیریلمه‌لرینك نفعنی و بیرده قونسولتاتسیادا متمادیا اوشاقلارك نظارت آلتندا اولدیقلاری حالدا جوریه جور خسته‌لیکلردن اوشاقلارك محافظه ایدیلمه‌لرینی آنالارا آگلاتیر.

2) پاترونلر ورقه‌لرینی یازماق ایچون لازم اولان معلوماتی پاترونلر باجی اوزی توپلاییر.

3) اوشاغی معاینه ایدیر؛ و بو زماندا اوشاقك گوبه‌گینك نه حالدا اولماسینا دقت یتیریر (گوبه‌ك پیس باغلانوب، یارا اولماسین) گوز، آغیز، بورون، و بوتون بدن ده‌ریسینك ساغلام و دوزگون اولماسینا دقت یتیریر. اوشاغك آغیرلیغی عادی اولچولردن آزجا اکسیك اولدیغی حالدا تیزجه قونسولتاتسیایا خبر ویریر.

4) اوشاغی یه‌دیزدیرمك باره‌سنده آنایا لازم اولان معلوماتی ویریر. اوشاغك سلامتلیگینك اك برینجی شرطی طبیعی غدا و اوشاغی تمیز ساقلاماقدان عبارت اولدوقنی، وهابیله حکیمدن اذن حاصل ایتمه‌ینجه اوشاغا آناسودیندن باشقابرشیئی ویریلمیه‌جگیده پاترونلر باجی آنایا اوگره‌دیر.

2. اوشاقلاری آردی کسیلمگسزین تدقیق ایتمك باره سنده (سودامه‌ر اوشاقلارا اوز ایولرینده باقمالی)

اوشاق قونسولتاتسیایا وارد اولاندان سوگرا پاترونلر باجی متمادیا اونی تدقیق ایدیر و اونك ساغلاملیغینا، انکشافنه دقت یتیریر؛ قونسولتاتسیانك حکیمی لازم گوردیگده پاترونلر باجی اوشاقك اوز ایوینده گیدوب باخا بیلمه‌ر.

باجی اوشاغی معاینه ایتدیکده آنا ایله صحبت ایتمك واسطه‌سیله بو آشاغادا کی معلوماتی توپلاییر: اوشاغك احوالی، یوقوسی، اشتهاسی، قوه حضمیه‌سی نیجه‌در؛ (گه گیرمك، قوسماق، بایبرا گیتمك). باجی هر دفعه‌ده اوشاغك بدنی تدقیق ایتمه‌لیدر. اونك ده‌ریسینه دقت یتیریر؛ (ده‌ریده پیشیکمش یئر وارمی، سه‌پگی وارمی؟...) بورنی نیجه‌در؛ (زکام درمی؟) گوزلری نیجه‌در؟ (گوزلرینده ایرین آخیرمی؟) بایبرا چیقدیقدا قارنینداں چیقان فضله‌سی نیجه‌در؟

بو معلومات واوشاقك معاینه‌سی تمامیله پاترونلر ورقه‌سینه یازیلیر.

معلوماته گوره و شخصی معاینه‌نك نتیجه‌سینه استنادا پاترونلر باجی زاها آنانك قونسولتاتسیادان آلدیغی تعلیماته نه درجه‌ده عمل ایتمه‌سنی معین ایدیر.

3. دوزگون صورتده اوشاق ئه‌میزدیرمك و اوشاغا قوللوق ایتمك ایشلرینی عملی صورتده آنالارا اوگره‌تمك باره‌سنده.

پاترونلر باجی چالشمالیدر که اوزینك هر دفعه آنا ایله گوروشینی، آنانی اوشاق ساخلاماق و اوشاغا سود ویرمك ایشینی پاترونلر ورقه‌سنده گوستریلن پروغرام اوزره آنایا

اوگرەتمك ايشينده استفاده ايتسون. بو ايشى صرف عملى يول ايله اوگرەتمك لازمدر: بيله كه باجى اوزى بر نيچه دفعه اوشاق بەلەمك وياخود بوكيبى باشقا بر ايشى گوروب آنايا گوسترديكدن سوگرا اونك دا تكرار ايتمەسينى طلب ايتمەليدر. سوزايله اوگرەتمك هيچ وقت كافى دەگلدر. عملى صورتده اوشاق يەديزديرمكدى آنايا اوگرەتمكدن اوترى بر نيچه دفعه پاترونۋ باجى زاها آروادك يانينا گلمەليدر. بو گوروشلرك مقدارى زاها آروادك مدنى اولماسيندان وآنانك و چوجوغك نه كيبى شرائط داخلنده ياشاماسيندان آسيليدر. لازمدر كه كوهنه عادت و موهومات نتيجەسى اولان دأب ايله جدى مبارزه آپاريلسون. (چيندارلارا رجوع ايتمك، دعا يازديرماق، فالا باخديرماق، تاس قوردورماق، سيدلرك و موللارلك اوشاقك آغيزلارينا توفورمەلرى و باشقالارى كبى).

اوشاق ساخلاماق و يەديزديرمك ايشلرينده گورولمش بوكيبى نقصانلار پاترونۋ ورقەلرينده اوز جدوللرينده قيد ايديلير و لازم اولان تعليمات دخى ويريلير. لاكن ايكنجى دفعه پاترونۋ باجيسى همين اوشاق و آناسينى زيارت ايتديكى زمان البته يوقاريدا گوسترىلمش نقصانلارك نەدرجەده رفع ايديلمەلرينى ده قيدايتمك لازمدر.

4. طبيعى يەديرتمك (غدا ويرمك).

طبيعى يەديرتمك زمانى البته اوشاقك نيچه دفعه يەديزديريلمەسينه دقت يترمك لازمدر. گيجەو گوندوزده هر يەديرتمكك فاصلەسى، نيچه وقت يەديرتمك، دوشلرى نوبه ايله ويرمك، هر دفعه سود ويردىكده قاباقجا مەمەلرينى و اللرى يوماق، هر دفعه سود ويروب قورتارديقدان صوگرا دوشده قالمش سودى بابرا ساغماق.)

قاريشيق و صنعى يەديرتمك.

قاريشيق و صنعى يەديرتمك اتفاقنده نيچه دفعه سود ويرمكك سايى و فاصلەسى مسئلەلرينده باشقا بيرده اوشاقك نه مقداردا سود ايچەجگينى آيندينلاتماق لازمدر. بوندان باشقا دوزگون صورتده ئەميزيك ويرمك، سود ويرەن شيشه و ئەميزيكلرك تميز ساقلانماسى قاعدەسين ده اوگرەتمليدر. يكى دوغولمش چوجقك آناسى اوز سوديله بالاسينى بسلەديكى اتفاقلاردا و آنايا صنعى سود ويرمك قاعدەسينى اوگرەتمكه احتياج يوقدر.

اوشاغا نيچه قولاق ايتمك.

پاترونۋ باجينك بورجيدر كه اوشاقك ياتاجاق يرينه نظر يتيرسون، اوتاقك هانكى طرفنده اونك ايچون الويريشلى يئر اولديغنى آناسينا گوسترسون، اوشاغى نيچه ساقلاماق شرطلرينى، اونك پالتارلارينى نه جوره بەلەمكى نه جور چيمديرمك، پالتار و بەلەك أەسكيلرينى نه جوره يوماق و قورو تماق شرطارينى ده آنايا اوگرەتمليدر.

زاها قادينا معاونت گوسترمك.

پاترونۋ باجى دوغمش قادين يانينا گلديگنده آنايا بو شيلرى اوگرەتمليدر:

اوشاغى بەليوب، آچماق. امل اوستينه گوتورمك، يەديزديرمك، حرارتنى اولچمك، (حكيم گوسترديكى اتفاقدا)، اوشاقا قومپرەس قويماق، گوزلرينه دامجى تو كمك، عماله ايتمك، تەرلەديكى زمان تەرينى قورو تماق، و سائره. باجينك مصلحت و كومكلرى اوشاقك ساقلانماسيندا عمومى حفظالصحه شرطلرينى گوزلەمك وبويولولدا مشاهده اولونان نقصانلارى دوزەلتمكدن عبارت اولماليدر؛

بو نقطه نظردنده اوشاق اولان ايوده كى ايشيق و هوانك مقدارينه فكر ويرمەلى، (قراوانك يئرينى ده گيشمك ايشيق طرفه چيكمك، سالانمش پردەلرى گوتورمك، اوتاغك هواسينى تازەلمك، ياش اسكى ايله هرگون ايوك توشەمەسنى سيلمك سائره كيبى) اوشاغى ناخوشلار، خصوصا مسرى ناخوشلارياتان اوتاقدان كنار ايتمك وسائره...

پاترونۋ باجى اوشاقلارا باقماق ايچون گلمەلرى رسمى بير گليش شكلنده اولماليدر. يوموشاق رفتار، صبرلى اولماق، رحملى اولماق، هميشه ياردىما حاضر اولماق، آنا و اوشاغك احتياجلارينا آرتيق دقتلى اولوب اونلارا هر آنده كومك ايتمگه حاظر اولماق يول لاريله پاترونۋ باجى آنانك اعتمادينى قازانا بيلر، و بونگله ده آناليق و چوجوقلق محافظەسى شعبەسينك پاترونۋ باجيلارينك فعاليتنك فائدەلى اولماسينا ضامن اولا بيلەر.

پاترونۋ باجيلارينك نيچه وقتدن بير گەلمەلرى باره سنده.

پاترونۋ باجيلارينك نيچه وقتدن بير ايولرده اوشاقلارى گورمكه گەلمەلرى قونسولتاسيا حكيمينك و پاترونۋ باجى ايله بيرليكده قرارلاريندان آسيليدر. پاترونۋ يكى دوغولمش اوشاغى اوز ايوينده ايلك دفعه گورەن كيبى آنايا تكليف ايدير كه قونسولتاسيادا كى قبول گونلرينده الك تيز بر زماندا اوشاغى قونسولتاسيايا گوسترمكه گتيرسونلر. هر قرار ايديلمش وقتده اوشاق قونسولتاسيايا گتيريلمزسه باجى ايكنجى دفعه اوشاقك ايوينه گيدوب اورادا اوشاقك نه سبيه قونسولتاسيايا گتيريلمەمەسينى سئوال ايدير.

باجی برینجی و ایکنجی دفعه زیارتی باره‌سنده قونسولتاتسیا حکیمینه معلومات ویریر. اوشاق قونسولتاتسیایا گتیریلدیگدن سوگرا حکیمله برابر پاترونآژ باجیسی هر نیچه وقتدن بیر اوشاقلا یولوقماق وقتلرینی تعیین ایدیرلر.

آرزو اولونور که ایشك اوللرینده پاترونآژ باجیلارك یکی دوغولمش اوشاقلاری زیارت ایتمه‌سی تیز — تیز اولسون اولجی آلتی هفته عرضنده آنالارا اوشاق ساخلاماقك قاعده‌لرینی عملی صورتده اوگره‌تمك ایچون هفته‌ده بر دفعه زیارت ایتمك لازمدر. هر گاه اوشاق سلامت اولوب، آنا سودیله بسله‌نوب، ساخلانماق شرائطی‌ده یاقشی ایسه، و آنادا قونسولتاتسیادان آلدیغی تعلیماتی لازمنجه اوگره‌نوب بوتون گوستریشلره تمامیله عمل ایدیر ایسه پاترونآژ باجی بو اوشاغی گورمیه‌ده بیله‌ر.

لاکن حکیم طرفندن اوشاغا علاوه ییمك ویریلدیگی زمان پاترونآژ باجی‌نك تکرار زیارتلری مجبوری‌در. هابیله اوشاق خسته‌لنوب ویاکه تمام وقتنی (9 آینی) بتیرمه‌یوب دوغولمش اوشاق اولدیقدا حکیمك گوستریشیله پاترونآژ باجی تیز — تیز زیارت ایتمه‌لیدر.

دوقتور: **افندی زاده.**

قونسولتاتسیا یانیندا تشکیل ایدیله‌جك اجتماعی یاردیم شورالارینك نظامنامه‌سی.

I آنالیق وچوجوقلق محافظه‌سی ایشینه اجتماعی پرو له‌تار تشکیلاتلارینی جلب ایتمگ‌مقصدیله هرشهرده قونسولتاتسیالار یانیندا اجتماعی یاردیم شورالاری تشکیل اولونور

II اجتماعی یاردیم شورالارینا داخل اولورلار:

1) قونسولتاتسیانگ فعالیتی احاطه ایتمش اولان دائره‌ده کی مؤسسه‌لرده، فعله پاسیولقالارینداً قوممونا ایولرینده کی «چوجوقلار دوستلاری» جمعیتی ئوزه گلرینگ نماینده‌لری

ب) قونسولتاتسیایی زیارت ایده‌ن آنالار قوللەقتیوینگ نماینده‌لری

ث) محل‌لرده کی «چوجوقلارا یاردیم» قومسیه‌لرنیك نماینده‌لری.

ث) دائره قادین‌لار قومیته‌سنگ، قوممونیست گنجلر اتفاقنگ سغورطه قاسساسی ویاخود مؤسسه‌لرده کی سغورطه قاسسالاری وکاتبلرینگ نماینده‌لری.

ج) قوممونا تصرفاتی شعبه‌سینگ نماینده‌سی.

ح) قضا همکارلار اتفاقی بیوروسنگ نماینده‌لری.

خ) محل‌لرده موجود قونسولتاتسیانگ هاموحکیملری، پاترونآژ باجیلاری وبرده حقوق قولتاتسیاسینگ مدیری.

د) قوئوپیراتسیانماینده‌سی. و«هلال احمر» جمعیتی‌نگ ئیرلی شعبه‌سنگ نماینده‌لری.

III اجتماعی یاردیم شوراسی‌اوز ایچیندن 3—5 نفردن عبارت بر اجرائیه ایشجی بیوروسی انتخاب ایدیر. بورایا مجبوری اولاراق قونسولتاتسیا مدیری‌ده داخل اولمالیدر. کاتب وظیفه‌سینی‌ایسه‌قونسولتاتسیا ایشجیلریندن بیری آپارمالیدر

IV اجتماعی یاردیم‌شورالارینگ‌وظیفه‌سی زحتمکش آنالار واونگ‌اوشاقلارینا اجتماعی‌یاردیم گوسترمکدن عبارت‌در:

V. اجتماعی یاردیم شوراسی اوز مقصدینه چاتماقدان اوتری بو ایشلری گورير:

آ) محتاج اولان ایکی جانلی قادینلارا و اوشاغاسوت ویره‌ن آنالارینا علاوه اولاراق ییمك پایلاماق ایشینی‌تشکیل ایدیرلر. علاوه ییمك یا قوری آذوقه‌لر پایوقی ویرمکله و یاکه ایستی خوراك ویرمکله اولور. بو ییمك پایوقلاری سودلی خوراك ویره‌ن ستالاووی‌لاردان، و یاکه فعله قوئوپیراتیفلریله خلق‌اعاشه منطقه‌لریندن ویریلمك ایچون سرانجام گوریلور.

ب) سود امه‌ر و بالاجا اوشاقلارك منزل شرطلرینی یاقشیلاشدیریر. هابیله ایکی جانلی آروادلارادا بو باره‌ده کومگلیك ایدیر. بو ایشدن اوتری دولتی اداره‌لر ایله علاقه‌یه گیروب بو جوره آروادلارا بر پارا یونگول شرطلر ایله منزل ویریلمك باره‌سنده تشبثده بولنور.

ت) سوسیال أمه‌ر وبالاجا اوشاقلارا قوللوق ایتمك‌ایچون آنالارا لازم اولان شیلری آنالارا ویریر. و هابیله اوشاق دوغاجاق آروادلارادا یاردیم گوستریر.

ث) واجبی صورتده لازم گورولدیگی حالدا ایکی‌جانلی آروادلارا، و خیرا اوشاقلارا پالتار و باشقادا ایومخلفاتی ویرمك باره‌سنده تشبثده بولنور.

ج) تك باشینا یاشایان آنالاری عمومی یاشایش ایولرینه ویاکه آنا و چوجوق ایولرینه یئرله‌شدیرمك باره‌ده تشبثده بولنور. وهابیله‌بو کیبی‌ایولرك‌تأسیس‌ایدیلمه‌سنده‌اشتراك ایدیر.

(بیتمه‌دی.)

دوقتور. **افندی‌زاده**

تنقيد و بيبليئوغرافيا قسمى.

«ايلك قدم».

(بى‌بى‌هيبت‌ده نماينده قادينلارك ديوار غزته‌سى).

غزته‌نيك هجمى چوق الوبرشلى‌در. اوزى بويوك اولماقلا برابر اوزونليغى يوقاريدان آشاغى ده گل، ئه‌نينه‌در. غزته‌نك مقاله‌لرى ئه‌نسيز، اوزون كاغذلاردا (قرانقالاردا) يازى ماكينه‌سينده چاپ اولونوب خيردا ميخلار (قنو- پقالار) ايله نازيك تاختا اوستينه ياپشديريلمشدر.

غزته‌ده بر چوق رسملرده چكيلمشدر. يازيلارك عنوانلاريدا چوق ايرى خط ايله يازيلمشدر؛ بيله كه هر كسك دقتنى جلب ايده‌جكدر. غزته‌نك ظاهرى گور- كه‌ميده ياقشيدر؛ چوق تميز و آغ كاغذدا يازيلمشدر. اوزه‌رينده ياپشقاندان قالما ايرى-ايرى قارا لكه‌لر ويا كه مركب‌لكه‌لرى يوقدر. بويله غزته‌يى اوقوماق‌دا انسانه خوش گه‌ليرـ و اوزاقدان‌دا اوقويوجيك نظرينى جلب ايديرـ

غزته يازيلارينك چوغى حياتدان گوتورولمش شيلردر. «سئوال و جوابلار» شعبه‌سى چوق گنيش‌در؛ بيله كه هر بر ايشچى قادين اوزينى مراقلاندير ان مسئله‌لرك چو- غنى بورادا تاپوب اوگره‌نه‌بيله‌ر. امگجى قادين طرفندن يازيلمش چوق‌قيسا برمقاله‌ده 8مارت بين‌الخلق‌قادين گونى باره‌سنده معلومات ويريلمشدر. غزته‌نك نقصانلارندان برى بودر كه مضمونجابرى برينه‌اوقشايان بيرنيچه اوزون‌مقاله‌لرى واردر. مثلا 8مارت باره‌سينده بر-ايكى‌مختصرمقاله‌يازيلوب سوگرادا بو گون مناسبتيله غزته اوقويوجيلاريك شخصى حياتلارينداكى نائيليتلردن گوسترىلسه‌چوق كوزه‌ل اولوردى.

غزته‌نك قالان ئيرلرينده اوقويوجيلارك طلبلرينه، احتياجلارينه‌وباشقا دردلرينه‌دائر يازيلارايثرويرمك‌لازم‌ايدى.

قادين ديوار غزته‌لرينك عمومى نقصانلارندان برى بودر كه بو غزته‌لر بو وقته كيمى ياقشى بيمگلر حاضر- لاماق، حفظ‌الصحه، اوشاقلارى آزارادن نه جوره محافظه ايتمك، و سائر بونلار كيبى ماته‌ريال‌لاردان اوز اوقويو- جيلارينا معلومات ويرميورلر.

ايشچى كندلى قادين شعبه‌لرى ايشچى‌لرينه بر دفعه‌لك اولاراق مصلحت كوره‌رديك كه ديوار غزته‌لرينده اوزون اوزادى سياسى مضمونده اولان مقاله‌لرى يازماقدان واز كيچسونلر، چونكه بر كيمسه بو مقاله‌لرى اوقومیور. چالشمالى كه ديوار غزته‌لرينده هامودان آرتيق ايشچى و كندلى‌قادينلار وايوخوزيايقالارى‌اشتراك ايتسونلر. ر. ب.

«8 مارت»

ايكنجى بر ديوار غزته‌سيدر.

(اناث پيداغوژى تخنيقومى ناشر افكارى).

بو غزته تمامیله عرب الفباسيله يازيلمشدر. ديمه‌لى يكى تورك‌الفباسيله اوز سوادسيزليقنى لغوايتمش تورك قادينلارى بو غزته‌دن استفاده ايده‌بيلميه‌جكلر.

غزته‌نك ظاهرى كورونيشى بد ده‌كل، رسملرى، و مقاله باشليقلاريدا واردر. لاكن مضمونجه غزته بر او- قدرده مراقلى ده كلدر. غزته 8 مارت بين‌الخلق قادين گونينه دائر 8 بويوك مقاله‌وشعرلر درج‌ايتمشدر. حالبوكه بونلارك بشينى آسانليقلااختصاره‌سالوب عوضينده‌باشقامضمونلرده مقاله‌لر چاپ ايتمك ممكن ايدى. غزته‌ده بر حكايه وبر نيچه‌ده شعرلر يازيلمشدر. كوندەلك حياتدان كوندەلك احتياجدان «مكتبمزك موفقيتى» آدلى‌يازيدان باشقابرشئى‌يوقدر.

بو كبى ديوارغزته‌سينك نه معنى‌سى؛ اونى كيملراوقويا جاقلار، بونى‌دوشونمه‌لى كه ديوار غزته‌سى‌برنجى ساحه‌ده اونى‌نشرايدن قوللەقتيوك حياتنى‌تصويرايتمه‌ليدر. اوقوللەقتيوى الك آرتيق مراقلاندير ان مسئله‌لردن، مطلبلردن يازماليدر.

عجبا، بو غزته‌يى اوقويان قادين، قزلارك هاموسى آنجاق بين‌الخلق قادين كونيله مراقلانيرلارمى؟... بين- الخلق قادين كونيله برابر اونلارك باشقا احتياجلارى، دردلرى‌ده وار كه او باره‌ده‌ده يازماق، مذاكره آچماق لازم‌در. بورادا كى بير چوق مقاله‌لر عمومى و شابلون مقاله‌لردن عبارتدرلر اونلارا بر اوقدرده لزوم‌يوق ايدى.

غزته‌ده يازيلمش 8 بويوك مقاله‌لرك چوق‌ياريسنى قزلار يازمامشلار. بوراسى بويوك نقصاندر.

غزته عالى‌پيداغوژى‌تخنيقومى‌ناشر افكارى اولديغى‌حالدا يازيجيلارى ياليكز اوغلانلاردر. بواوندادر كه غزته‌هيئت تحريريه‌سى 8 مارتا دائر چوق جدى وسياسى مقاله‌لر اقتارمش واونيدا ياليكز اوغلانلار يازماغا قادراولمشلار.

صنعت چيچه‌گى.

(تورك اناث صنايع مكتبى‌نك بين‌الخلق ايشچى قادينلار گونى مناسبتيله فوق‌العاده نومروسى‌در)

«صنعت چيچه‌كى» غزته‌سيده يوقاريدا ديديگمز بلايه مبتلا اولمشدر. بوغزته‌ده 8 مارت گونينه دائر، 4 مقاله (برى لاتين‌حروفاتيله 3 عرب الفباسيله)و 2ده شعروار دردر. مقاله‌لرك‌ده عنوانلارى عادى نازيك قلم‌ايله يازيلديقندان گوزه چاربمايور لار. وبازى شيوه‌لريده چوق آغير اوقونان خط ايله يازيلمشدر.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0222

بیزیم دیوار غزته‌لری هئیت تحریریه‌لریمز بویله دوشونورلر که یازماق ایچین اڭ جدی ماته‌ریال یالیڭز سیاسی مقاله‌لر اولابیله‌ر. حالبوکه بوفکر تمامیله یاڭلشدر. جدی، سیاسی مقاله‌لرله مراقلانانلار، اونلاری اوقویوب معلومات توپلاماق آرزوسنده اولانلار البته کونده‌لیك بویوك غزته‌لری اوقویورلار. هیچ کس اوزسیاسی معلوماتنی آرتیرماق ایچین دیوار غزته‌لرینه مراجعت ایتمه‌ز. دیوار غزته‌لری ایچین اڭ جدی ومراقلی ماته‌ریال ایسه اوغزته اوقویوجیلارینڭ معیشتندن وحیاتندن آلنمش، اونلاری ایشیقلاندیران مقاله‌لر اولابیلر.

«ایشیت اینانما» شعبه‌سنده یازیلمش ماته‌ریاللاری جدی صورتده، کوچوك مقاله‌لر شکلنده یازماق داهادا کوزه‌ل اولاردی.

قادین دیوار غزته‌لریده اوزاوقویوجیلاریندان کونده‌لك معیشتلریندن آلنمش ماته‌ریاللاری درج ایدرسه البته قادین لاردا اوزیاشایشلاریندان غزته‌یه یازوب اونی داهادا زنگینلشدیررلر.

عموماً تورك دیوار غزته‌لری بونی دوشونمه‌لیدرلر که غزته‌لرڭ هاموسندا لاتین الفباسی شعبه‌سی اولمالیدر، بو شعبه‌سز بر غزته بیله یازیلمامالی.

ر. ب.

« آل بایراق »

سابونچیدا کی «قزیل اوقتیابر» نامنه تورك قادینلار قلوبی طرفندن نشر اولونان آیلیق بر دیوار غزته‌سیدر.

اداره‌مزه 21 نجی نومروسی چاتمشدر. بو نومرو 28 آپره‌ل و بیر مای بایراملارینا اتحاف ایدیلمش‌در.

غزته‌نڭ باشلیغی هر شیدن اول نظری جلب ایدیر. دیوار غزته‌سنده‌ده بو برنجی شرطدر. باشلیغڭ بر طرفنده یاقشی گور که‌ملی بر فابریقا شکلی چکیلمشدر، فابریقانڭ دا قارشوسیندا یڭی کند تصویر ایدیلمشدر. یڭی کند یعنی شورالار ئولکه‌سنده قورولا بیلن، ایلیقتریق ایشیقلی، رادیئولی، گنیش و آغاجلی، باغلی کوچه‌لی، اڭ گور که‌ملی یرده مکتب، قوئوپیراتیف وقلوب عمارتلری تیکیلمش یڭی حیات ایله یاشاماق ایچون هر شیئی حاضر اولان بر یڭی کندڭ تصویری و او کندڭ کوچه‌سنده بر بولوك زحمتکش کندلی قادینلارڭ قزیل بایراق آلتیندا فابریقایا دوغرو حرکت ایتمه‌لریده رنگلی قارانداشلار ایله چیکیلمشدر.

غزته‌نڭ باش مقاله‌سی نیجه که لازم ایدی «28 آپره‌ل» گونینه مناسب یازیلمشدر. آنجاق نه‌سببدنسه بوتون مقاله‌ده بو گونڭ تاریخی و آپریل انقلابنی دوغوران احوال یازیلمش اولدیغی حالدا مقاله «یاشاسین برمایس گونی» شعاریله بتیریلمشدر؟

حقیقت حالدا ایسه بو مقاله‌ده اڭ باش‌دان آپره‌ل انقلابندان قاباق آذربایجاندا قادینلارڭ اجتماعی و سیاسی حال‌لاری، عائله‌ده کی وضعیتلری، حقوق، جهتجه نه جوره اسیرو کوله حالندا اولمالاری یازیلوب سوگرادا 28 آپره‌ل انقلابنڭ قادینلارا نه کیبی سیاسی، اجتماعی حقوق ویردیك لرینی یازماق لازم ایدی. بو سوزلرڭ قورولاف اولماماسنی ثبوت ایتمك ایچونده همان «قزیل اوقتیابر» قلوبنڭ تأسیسنی شاهد گتیرمك اولاردی. «28 آپره‌ل» انقلابی اولماسا ایدی سابونچیدا ـ موهوماتیڭ اڭ گوجلی بر مرکزی اولان قوچی لار، میلیونیرلر، قادینلاری براگلنجه، بر ساتین آلمالی جانسیز شیئی حساب ایدنلر کندینده، تورك قادینلارینڭ مخصوصی قلوبلاریدا اولماز ایدی!..» سوزلریله‌ده باش مقاله‌نی بتیرمك اولاردی.

غزته‌ده یازیلمش باشقا 3 مقاله‌ینه‌ده «1 مای» مسئله‌سینه اتحاف ایدیلمشدر.

حالبوکه بو نومرو داهم برنجی وهمده ایکینجی بایراملارا دائر قیساجا برر مقاله‌لر یازیلوب باشقا یرلرینی‌ده حیاتی، گونده‌لك مسئله‌لره دائر یازیلارایله دولدورماق اولوردی.

عمومیتجه غزته‌ده گونده‌لك حیاته قلوب ایشچیلرینڭ و عضولرینڭ گونده‌لك احتیاجلارینا اونلارڭ معیشتلرینه دائر هیچ برشیئی یوقدر. بوجهتدن غزته ضعیف چیقمشدر. هر حالدا گله‌جك نومرولاردا بو ایشه بویوك اهمیت ویریله‌جگنی امید ایدیریك

نازلو خانم



« آل بایراق » ڭ هیئت تحریریه‌سی

مسئول مدیره: آینه سلطانووا

سوادلی تورك قادینی نه اوقومالیدر!

سوادلی تورك قادینلارینك بلیك ومعلوماتلارینی آرتیرماغا گومك ایده بیله‌جك قرائت کتابلا رینی آشاغادا یازوب گوستریریك. لازم اولان کتابلاری قضالرده کی «آذرنشر» کتاب مغازه‌لریندن آلماق ممکندر!

سیاسی شعبه‌ده:

	یازانی:	قیمتلری:
1) قادین و شورا حکومتی	فریده شله‌موا	25 قپك
2) له‌نین و قادین آزادلیغی	قلاراتسه‌تگین	15 „
3) شورالار و کندلی قادین	تبدیل ایدیلمشدر	25 „
4) قادین آزادلیغی و سوسیالیزما	د. و.	25 „
5) ۸ مارت بین‌الخلق قوممونیست قادینلار گونی	روزا قووناتور	35 „
6) تصرفات ترقیسنده قادینك وضعیتی	آ. قولللونتای ا م.	25 „
7) آذربایجان قادینلاری آراسیندا آپاریلان ایشك ایللیگینه عائد ماته‌ریال	ق. ایشقووا	15 „
8) ایشچی قادین وهمکارلار اتفاقی	آ. چه‌کین	35 „

II-چین انقلابی باره‌سنده:

1) لیئو-چانغ-یانغ	ی. آربوره-راللی.	35 „

III-بدیعی ادبیات‌دان.

1) وطنداش محاربه‌سنده شرق قادینی	ز. سیفی	35 „

IV-آنالیق و چوجوقلق محافظه‌سی باره‌سنده:

1) اوشاغی نه جوره ساقلامالی		20 „

V-لاتین الفباسی ایله.

1) له‌نین فعله و کندلی قادینلار حقنده	قرویسقایاناق مقدمه‌سیله	15 „
2) له‌نین و قادین آزادلیغی	قلاراتسه‌تگین	8 „
3) قادین و شورا حکومتی	فریده شله‌موا	15 „

کندلی وایشچی مخبر و مخبره‌لریمزه

بو یاووق نومرولاریمز ایچون گوندریله‌جك مکتوبلار گز آشاغادا کی مضموندا اولمالیدر:

1) قیمتلری آشاغا سالماق ایشینده بیزیم کندلی قادینلاریمز نه جور اشتراك ایدیرلر.
2) بیزیم کندیمزده محرم موهوماتی علیهنه قامپانیا نیجه آپاریلیر.
3) قضامزده کی چوجوق یاسلی و میدانچالای نیجه ایشله‌یرلر.
4) بیزیم کندك شوراسینا سه‌چیلمش کندلی قادینلار شورادا نیجه ایشله‌یرلر.
5) کندلی قادینلارك سوادسزلقلارینی لغو ایتمك ایشینك یاقشی گیتمه‌سی ایچون نه جوره چاره‌لر گورمه‌لیدر.
6) (ده‌له‌قانقا) نماینده قادین‌لارك مختلف موسسه‌لرده: (دکان قومسیونلارینده، زاقس‌ده، خلق محکمه‌لرینده و بو کبی یرلرده) کی فعالیتلری باره‌سنده.
7) ایشچی قادینلارك و ایوخوزایقالارینك سوادسزلقلارینی لغو ایتمه‌لری باره‌سنده.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0224

Fai 22013 40 (44-45)

1927

ƷƏRK KADĻNĻ

Azərbajcan Kommynist (b) Firkəsi Mərqəzi kadɻnlar ʒə'bəsinin naʒiri əfqarɻdɻr.

ijyn
ijyl } 1927

Saji 6-7 (44-45)

قپك 30 kəpek

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0225

MUNDƏRƏCAT.

			səhifə
1 —	KlaraSetqin		1.
2 —	Kijmətlərin əndirilməsi və qitlə	*M.A.*	2.

Ədəbijjat

3 —	Zavallı Sarmaşık	*A. Basof*	4.
5 —	Qəblə fərhad ilə arvadı	*muəlm azər*	10.

Ojənc Kələmlər

Bizə jazırlar.

SAVADLI TURQ KADINLI!
«Şərk kadını» sənun öz məcmyəndır!
ona abynə jazılmakdan başka orada öz kələmunlədə iştraq etməq borcyndyr!
Abynə kimәti:
jilliqi 3 manat; jarım jilliqi 1m. 50k.

مطبوعات مدیریکی نمره 2936 باکوپولیغرافیا «قزیل‌شرق» مطبعه‌سی باکو، قاراتیننی-84 سفارش نمره 6323 نشری 1400

dördüncü jil | Bütün dünja proletarjası birläşiniz. | iyun-iyul 1927

Məhəlli idarə: Kommynist quçəsində A.K.F. Mərqəzi Komitəsi binasında.

Idarə açıkdır hər gün səhər saət 10—3 kədər telfon № 14—09.

ƏRK KADLNL

Kəbyl edilmijən jazılar kajtarılmaz.

Məkalələr müräqqəb ilə və qagızın bir juzündə jazılmalıdır.

Saji 6-7 (44-45)

Azərbajcan Kommynist Firkəsinin Mərqəzi Kadınlar şö'bəsi nəşiri əfqarıdır.
Ictimai, ədəbi və sijasi musəvvir ajlık məcmyədir.

Saji 6-7 (44-45)

Klara Setkin.

Imym Ittifak fəhlə qəndliləri və zəhmətqeş kadınları "KLARA SETKIN-in„ böjuq jublejini kejd edirlər.-Hər bir Azərbajcanlı kadın "KLARA-SETKI-Nin„ adını eşitmiş və onyn imymi işlərdə nə cur çalışdığını öjrənmişdur. „KLARA - SETKIN" öz yzyn ömrunu Sosjalizm mudafəsi ygrynda sərf etmiş və işçi kadınlarının azadəliqi uçun var qüci ilə çalışmış. Proletarjatın juqsəq dahiləri Marks və Ənqels jaşadığı zamandan bəri o qəndi işini başlajyb, tədriclə juqsəlijordu. By qun zəhmət qitləsi uçun jol qöstərici bir kadın oldu. Pəq lazımlı iclaslarda muhim məsələlər oldığı zaman məsəla: əlil fəhlələr uçun para toplamak və ələaxir by qibi məsələlərdə Klara ojlə səcijəjə maliq idiqi butun varlığı və ənerzijasını tamamilə sərf edərdi. Firkə tərəfindən öhtəsinə byrakılmış məsylijətli işlən Klara lajikilə ifa edərəq qəndi biliq və nə dərəcədə böjlə işlərdə həvəsqar oldığını oradaca qöstərərdi. Klara-Setkin kətijən ynydylmaz əy inklabçı kadın dajima bizim uçun kalacak, o dajima zəhmətqeş sinfinin tə'kib etdiji xət hərəqəti bilir və biləcəq. O bilirdi onlar çalışır kapitalizm hyqymətini jiksyn Sosjal-demokrat huqymətini kyrsyn. Klara var kuvvəsilə çalışırdıqi Firkə by fiqirdən bir sanija olsa belə dönməsin, və dajima surətli addımlar ilə irəlləsin.

Imperializm məharəbəsi zamanında, inkılabçıların II-ci bejinəlmiləldə muhimm rol ojnadığı bir vakktə Klarada Libknextom, Merinkom və Roza-Liksenbyrg qibi inkılabçılar ilə birliqdə işləjurdiqi Almanijada inkılabçı Kommynist firkəsi jaratsyn. Klara öz işini zəhmətqeş kadınların arasında dajima irəllətməqə çalışır və inkılab nişanəsi altında dajima çalışırdıqi zəhməqeş kadınları bəzi imym Byrzyazija kadınları təşqilatlarından ajırsyn. O əvvəldən başa düşmişdiqi mulqadar və Byrzyazija sinifinin məhv olması ilə qəndçi və zəhmətqeş kadın azadə jaşaja bilər, O zaman cinsijə fərki aradan kalkar iqi mubarəzə olmajyb zəhmətqeş şuari olan fəhlə qəndçi sinifini kapitalistlar ilə mubarəzəsi dahada şiddət lənər. Həkkikətən Klaranın qəturdiqi xət hərəqətinə Oktijabır inkılabı canlı bir isbat ola bilər.

Almanija zəhmətqeş kadılarının və ejni zamanda firkəçi kadınlarının umdə önində dyran Klara-Setkin olmyədyr. Klara Kommynist bejnəlmiləlinin Icraijə Komitəsinin dajimi fəxri bir uzvudur. Və Mopr Cəmijətinin Sədridur.

Agır işlər, müşəkkətli zəhmətlər kadınlar dahisi Klaranın kuvvətini əlindən almış. By qun 70 illiq Jubleji karəysında Klara qəndini jorgyn xəstə və istirahət etməqə ehtijaclı qörur.

Imym Ittifak Sosjalist Şyra Cumhyrijətinin zəhmətqeş kadınına hər tərəfdən canlı nəzər jetirilir. umid varık o jenədə öz əsqi kuvvəsilə bərabər jeni kuvvə tapacak və öhtəsinə qəturmiş qənis işlərlə sosjalizm ygrynda çalışacak.

Klara-Setqin butun ömur və kablijətini sosijalizm jolında kyrban etdi və edəcəq.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-18505541291927 5-11/fragment/page=0227

Kijmətlərin əndirilməsi və qitlə

NƏ IÇUN KEJMƏTLƏRIN ƏNDIRLIMƏSI ÇOK ƏHƏMIJJƏTLI MƏS'ƏLƏDIR.

Kejmətlərin əndirilməsi iktisadi məs'ələ oldygy qibi həmdə sijasi məsələdir.

By məsələnin iktisadi əhəmijjəti bydyr qi əyralar ələqəsində təsərrufatın butun hissələri muəjjən bir syrətdə nizamə salınır. Əhər sənajeini qənizləndirməq içun artıq dərəcədə xam mal lazımdır. By xam mali verən qənd dir. Byna qörə əhər sənajeni qənizləndirməq içun qənt təssərufatını kuvvətləndirməq lazımdır. Əqər əhər sənaje' malları kəjmətləri yca qənt təsərrufatı malları ycyz olsa, o vəkt ycyz satıb baha almak nəticəsində qəntlinin iktisadi hali pozgynlaəar, onyn təsərrufatı dagılar·

Əhər sənajeinə lazım olan xam mallar azalar, əhər sənajeində həm qənt təsərrufatında axırda pozgynlyk əmələ qələr. Əhər sənajeini kəjmətlərinin əndirilməsi dimədi həm əhər sənaje'nin həm qənt təssərufatının artması, qəniələnməsi içun əhəmijjətli bir əejdi sonra əehər səuaje' malları kəjmətlərinin baha olması, iəçilərinini' myz-dlərinin ələməsi deməqdir.

Əmma əyralar həqumətinin sejasəti qetqedə iəçinin muzdunu artırmakdadır, iəçi muzdi onda artarqi bazarda əz muzdunun az bir kissəsinə çok mal ala bilən. Muzdun manat həsabilə artırılması o kədər fajdalı dəqil, nəkədər qi malların ycyzlaəması. Imdi by məsələnin sijasi əhəmijjətini nəzərə alak.

Bizim ələqəmizdə xusysi ticarətdə jaəajir. Alverçilər bizim hər bir noksanımızdan istifadə edub pyl kazanırlar. Byrada biz bir əejə dikkət verməlijiz. Fabrikalarımız əz mallarının kejmətlərini qet-qedə azaldırlar, əmma ticarət edici idarələrimiz kooperasjalarımız isə pəraqəndə satıəda okadar kejmətləti ycyzlaədırdıkda belə neticə əmələ qəlir. Bizim fabrikalarımızdan mal almıə olan xusysi alverçilər əz alıə verilərində bacarıklı çalıəyb bizim ticarət organlarımızdan ycyz mal satırlar. Belə oldygda xusysi kapitalın roly artar Byrzyazıja pəraqəndə satıəda artıq para toplajır. Əmma əyralar həqumətinin sijasəti bynyn əqsinədir Xəlk təsərrufatında xusysi ticarət kismi dəqil, sosjalizim kismi kalib qəlməlidir. Byndan baəka əqər xusysi ticarər pəraqəndə satıəda bizdən ycyz satsa onda, qəndlini biz itirmiə olarık qəntlini byrzyazıja əz tərəfinə çəqər. Qəntlinin byrzyazıja tərəfinə qeçməsinin də axırı əyralar həqumətinin butun dvamına zərbə vırmıə olar·

Fəkət qim-qimə galib qəlir.» məsələsini arajanda qəruruzqi xusysi kapital bizə kalıb qəlmir.

Onyn roly qet-qedə azalır, sozjalızm muvəffəkijjətlə ona usqundur. Satıə bazarı vastəsilə biz əhər sənajeini qənt təsərrufat ilə rabitəjə salırık, bynynla proletarijjat qəntli sıkı bir ittifak kyryr. Senaje' mallarının qet-qedə ycyzlaəması, by ittifakı da. da məhdəmlaədirir.

NƏ UÇUN KIJMƏTLƏRIN ƏNDIRILMƏSI MUVƏFƏKIJJƏTLƏ JURUTULMIR.

Imdi kejmətlərin əndirilməsinin zəjif halda jurutuldiqinin səbəblərini nəzərdən qəçirəq.

Kejmətlərin əndirməsinə mane' olan baə səbəbləri ticarətlə məəkyl olan idarələrimizin və kooperasjaların daxilində aktarmalıdır. Əlbətdə bynlardan aszlı olmajan səbəblər dəxi vardır, əmma bəjlə səbəblərin ta'siri o, kadarda artık dəqildir. Ticarət aparatlarında bir bəjuq noksan onların artık kazanc dalınca kaçmalıdır. Bə'zi kooperasja malları baha kejmetlə satmakdan bəjuq kazanclar toplamıəlar. Əlbətdə bynların istəhalarının kabagı alınmalıdır.

Sonra, ticarət apartlarının və kooperasjaların xidmətçilərinin mikdarı əiəub lazıaı dərəcəni qeçmiədir. By əta sərf olynan pyllar soz jokqi malların kejmətlərinin ustunə ilavə olynyr. Byndao ilavə bir para mallar satılmır, çurujnr, xarab olyr bynların dəxi zərəri jerdə kalan malların ustunə qəlir. By isə bacarıksızlıgın əlamətidir. By qibi baəka izafə xərclər və artık kazanclar kejmətləri əiədirirlər. Ticarət idarələrindən asılı olmajan səbəblər isə tədariq dəjirələrinin yzaklıgı, jollar rabitəsinin joklıgı və by qibi səbəblər dir. Əmma idarələrdə olan daxili səbəblər ise tez bir zamanda avadar çıkmalıdır.

Əıtatlar kısalmalıdır. izafə xərc azalma-

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0228

lı, kazanclar muəjjəu mikdari qeçməməlidir. Fəkət bynların hamysi qitləsiz bir muvəffəkijjətə jetiənməlı.

KIJMƏTLƏRIN ƏNDIRIMƏSINDƏ QITLƏNIN ROLY.

Kijmətlərinin əndirilməsi artık dərəcədə qitlənin by isdə istiraqindən asılıdır. Jykarı idarələrdə əmələ kərarla verməq ilə iə bitnəz, by emr və kərarların həfata qeçirilməsini aəagıdan qıeniə iəçi-qəntli qitləsi təhkik və kontroı etməlidir.

دورت‌یوز میلیونلیق اهالینك علیهنه سازلانمش محاربه‌نی کوچك محاربه‌لردن حساب ایتمك اولماز. بو محاربه اوزی اوزلیکینده چوق بویوك بر محاربه حساب‌اولونور. و اونیك جدی و آغیر نتیجه‌لریده یالگز چینه عائد اولمایوب حتی بوتون دنیا ایچونده الك اهمیتلی اولاجاقدر.

هایله بونیدا بیر دقیقه اولسون اونوتمامالی که چین انقلابی علیهنه مبارزه آپارماق ایشینده رهبرلك رولینی اونایان اینکلتره ایمپه‌ریالیزمی هر واسطه ایله اولورسا اولسون، چالشیر که بو گون چینده دوام ایدن محاربه میداتی گه‌نیشله‌ندیروب حتی بوتون دنیانی بیله بو ایشه قاریشدیرسون. بوتون دریالارك آغاسی اولماق هنرینده چوقدان به‌ری اوز طالعنی ایتیرمش اینکلتره‌نك محاربه قالدیرماق ایشینده الك برنجی خیالی شورالار اتفاقی‌نك علیهنه قالقماق‌دان عبارتدر.

همین بو سببدنده پله‌نوم بورأیه گه‌لدی که بوتون دنیانك ایشچی صنفی‌نك وار قوه‌سی الك اول چین انقلابنی و شورالار جمهوریتلری اتفاقنی محافظه ایتمك ایشینه صرف ایدیلمه‌لیدر، بو خصوصدا کی ته‌زیسلرده آیدینجاسینا بیله ده‌یلمشدر: «**بوگونکی محاربه علیهنه اولان قامپانیالارك باش شعارلاری‌چین و روس انقلابنك مدافعه‌سندن عبارت اولمالیدر!.**»

بوراسی آیدینندر که محاربه علیهنه اولان بو قامپانیالار مختلف ئولکه‌لرده مختلف شکل‌لرده میدانه چیقاجاقلار.

انگلتره‌ده محاربه قورقوسی علیهنه آپاریلان مبارزه اورادا کی (بالدوئین)ك عکس انقلابچی حکومتی علیهنه آپاریلاجاق مبارزه‌دن عبارت اولاجاقدر.

یالگز بو حکومت اینگلتره فعله‌لری ایله برابر بوتون دنیا أمگکچیلرینك علیهنه آپاریلان عکس انقلاب و محاربه حاضرلیقلارینك جان دامارینی تشکیل ایدیر.

شورالار اتفاقنده ایسه محاربه علیهنه آپاریلان حاضرلق هر جهتدن شورالار اتفاقی حکومتنی محکملندیروب و برنجی قدمده اونك مسلح قاراوولچی‌سی اولان قزیل اوردونك قوتلنمه‌سندن عبارت اولمالیدر. ایمپه‌ریالیستلرك تازه‌دن بوتون دنیا یانقونی آلاولاندیرماق خیال‌لارینا قارشو گرك بوتون دنیانك امکچی‌لری جدی صورتده چالشسونلار. پله‌نوم‌دا کی گونده‌لك مسئله‌لرك برنجی‌سی محاربه مسئله‌سندن عبارت ایدی. ایکنجی مسئله ایسه چین انقلابی مسئله‌سی‌ایدی. بوایکی مسئله بری برلریله‌صیقی بر صورتده باغلیدرلار. بری اوبیریسیندن آسیلیدر. محاربه و محاربه قورقوسی باره‌سنده کی ته‌زیسلرده ده‌یلر که: «چین انقلابی‌نك فعله کندلی یوللارینك غالبیتی» بوتون دنیاده و الك اول اینگلتره‌ده فعله حرکاتنی انقلابلاشدیریر.

او ته‌زیسلر بونادا اشاره ایدیر که چین‌ده ایمپه‌ریالیستلرك غالبیتی نتیجه‌سی اولاراق بوتون فعله صنفی‌نیك علیهنه امانسیز مبارزه قالقار و ایمپه‌ریالیستلرك «مقدس» اتفاقلارینك‌دا سوسیالیست شورالار جمهوریتی‌نك اوزه‌رینه هجوم ایتمك پلانتی‌دا قولدن فعله چیقارار.

بو مطلبلردن آگلاشیلیر که چین انقلابنی مدافعه ایتمك و او ایمپه‌ریالیستلرك‌ده او انقلابه مداخله‌سی علیهنه مبارزه آپارماق باشقا سوزله عموم دنیا محاربه‌سی علیهنه مبارزه آپارماق و صلحك برپاسی ایچون جدی مبارزه آپارماق دیمه گدر.

چین انقلابینك یگی و داها چتین بر شکل آلدیغی زماندا پله‌نوم اوز اجلاسینی آچمشدی. چان - قای - شی‌نك خیانتی چین انقلابنی قان ایچینده غرق ایتمك و چین‌ده داخلی وطنداش محاربه‌سنده انقلابی محو ایتمك آرزوسیندا بولونان ایمپه‌ریالیستلرك یوره گلرینه بویوك بر

داباق ویرمش اولدی. ایمپه‌ریالیستلر بونا اینانمشدیلار که چان ـ قای ـ شی نك خیانتی چین‌ده کی ملی ـ انقلابی حرکاتك داغیلماسی و قوممونیست نفوذینك‌ده چین انقلابی اوزه‌رینده کسیلمه‌سی‌نك ابتداسی اولاجاقدر. بزیم مخالفلریمزده وار قوه‌لری ایله بونی ثبوت ایتمك ایسته‌یرلر که چان ـ قای ـ شی نك خیانتی چین انقلابی‌نك داغیدیلماسی و بین‌الملل‌ك‌ده بو ایشده کی فنا رهبرلیگنی ثبوت ایده‌جکدر.

پله‌نوم توخداق و فکرلی بر صورتده چین‌ده کی انقلاب حرکاتنك انکشاف یوللارینی تدقیق ایتدی. بو حالدا بر نیچه بورژوآ عکس انقلابچی (شانغهای، نانکین، قانتون و سائره) عصیانلارینك چین انقلابی ایچون آیری آیری مغلوبیتی اولماقله برابر عکس انقلابچی قوه‌لریگده گوجلنمش اولدیغنی پله‌نوم بتون دنیا زحمتکشلرینده گیزلتمه‌دیگی کیبی اوزیده یاقشیجا بیلوب گوردی.

بونیگله بیله پله‌نوم اوزینی ایتیرمه‌دی و مبارزه ایدن قوه‌لری حقیقی صورتده بری برلریله مقایسه ایدوب اینانیملی صورتده ثبوت ایتدی که؛ اولا، چین انقلابینه ووروملمش بو مغلوبیت ضربه‌سی ایمپه‌ریالیزم قوه‌لریله ووروملمشدر. و ایکنجی‌سیده انقلابك بعض محللرده کی آیری ـ آیری مغلوبیتلریله برابر چین‌ده خلق کتله‌سینك متشکل حرکاتیده بویومشدر.

بو گونلرده شاهدی اولدیغمز ایشلر قوممونیست اینته‌رناسیونالینك بو یولدا حقلی اولدوغنی ثبوت ایدیر. چین‌ده امکچی کتله‌نیك سفربرلیگه آلنماق ایشی گونی گوندن آرتیر. کندلی کتله‌لری ایمپه‌ریالیستله‌ر علیهنه آپار ـ دیقلاری انقلابی مبارزه‌ده گوسترديگلری جدیتدن باشقا، حتی اوز ملکدار و بورژوآلاری علیهنه‌ده مبارزه‌لرینی دوام ایتدیریرلر. بونلارك هاموسی آیدینجا ثبوت ایدیر که چین انقلابنك گیده‌جگی یول هله بیتمه‌مشدر. هر طرفدن یرتیجی دشمانلار ایله آرالیغا آلنمش یوز میلیونلارلا اهالیسی اولان چین چوق‌بویوك زحمت‌ومشقتلره دوزمه‌لیدر.

بوراسیدا شبهه‌سیزدر که چین انقلابنك گیدیشی قوممو ـ نیست اینته‌رناسیونالینك گوتوردیگی خط حرکتك دوزگون اولدیقنی ثبوت ایدیر.

قومینته‌رنك گونده‌لك مسئله‌لرینك 3 نجی‌سی اینگلتره‌ده کی وضعیت باره‌سنده ایدی. بیز قاباقجادان دیمشدیك که بوگونکی اینگلتره‌نك باشیندا دورمش قونسه‌رواتور حکومتی چین انقلابی علیهنه آپاریلان مبارزه‌یه رهبرلیك ایتمگله برابر همان حالدا سوسیالیست شورالار جمهوریتی اتفاقی‌نیگده علیهنه آپاریلان دشمنانه حرکتك جان داماریني تشکیل ایدیر. اینگلتره باره‌سنده قبول ایدیلمش ته‌زیسلر بویوك ایمپه‌ریانك سعادت بیلدیزینك باتدیغنی بزه ثبوت ایدیر و بونی‌دا گوستریر که همان حکومت اینگلتره فعله‌لرینك آلدیقلاری معاشی اکسیلتمگله، مستملکه و یاریم مستملکه حالندا یاشایان خلقلرك ظلم و سیقینتیلارینی آرتیرماق؛ محاربه‌لر قالدیرماق یولیله اوز موقعلرینی ساقلاماق ایسته‌یرلر.

قونسه‌رواتور حکومتنك اصل گوجیده بوندادر که اونك عکس انقلاب تدبیرلرینی، سوزده فعله‌لرك حقوقنی مدافعه ایدن، حقیقت حالدا ایسه عکس انقلابچیلارا کومك ایده‌ن فعله فرقه‌سندن اولان خائن ـ سوسیالیستلر، و جنرالنی شورانك نماینده‌لری‌مدافعه ایدیرلر.

ته‌زیسده بوراسیدا قید ایدیلیر که آشاغا صنفلرده فعله حرکاتی آرتیر، پرولتار تشکیلاتلاری ـ قوممونیست فرقه‌سی قوتله‌نیر و اقلیت‌ده قالانلارك سوزده یوق، ایشده عکس انقلاب علیهنه مبارزه آپارانلارك حرکاتیده گنیشله‌یبر.

اینانیملی صورتده دیمك اولار که پله‌نومدان سوگرا قومینته‌رنك هامو سه‌قسیالاری آرتیق‌صیقی‌صفلرله‌جدی‌صورتده چین انقلابی و شورالار اتفاقی مدافعه‌سی شعاریله صلحك برپاسی یولوندا مبارزه‌یه گیریشه‌جکلر.

د. په‌تروفسکی.

قیمتلریك اهندیریلمه‌سی و کتله

نیچون قیمتلریك اهندیریلمه‌سی چوق اهمیتلی مسئله‌در.

قیمتلریك اهندیریلمه‌سی اقتصادی مسئله اولدیغی کبی همده سیاسی مسئله‌در.

بو مسئله‌نك اقتصادی اهمیتی بودر که شورا ئولکه‌سینده تصرفاتك بوتون حصه‌لری معین بر صورتده نظامه سالینیر. شهر صنایعی گنیشلندیرمك ایچون آرتق درجه خام مال لازمدر. بو خام مالی ویره‌ن کنددر. بوگا گوره‌ده شهر صنایعی گنیشلندیرمك ایچون کند تصرفاتی قوتلندیریلمه‌لیدر. اکر شهرصنایع ماللارینك قیمتلری اوجا، کند تصرفاتی ماللارینك قیمتلری ایسه‌اوجوزاولورسا، او وقت اوجوز ساتوب، باها آلماق نتیجه‌سنده کندلینگ اقتصادی حالی پوزغونلاشار. اونگ تصرفاتی داغیلار؛ شهر صنایعنه لازم اولان‌خام ماللار آزالار؛ آخردا شهر صنایعنده، کند تصرفاتنده پوزغونلق عمله کلار. شهر صنایعنك قیمتلرینگ اهندیریلمه‌سی دیمه‌لی هم شهر صنایعنك، هم کند تصرفاتنك آرتماسی، گنیشلنمه‌سی ایچون اهمیتلی برشی‌در.

سوکرا، شهر صنایع ماللاری قیمتلرینك باها اولماسی ایشچیلریك موزدلرینك اه کسیلمه‌سی دیمکدر. اما شورالار حکومتنك سیاستی کیت ـ کیده ایشچی‌نگ موزدینی آرتیرماقدان عبارتدر. ایشچی‌نگ ایسه موزدی اوندا آرتارکه او، بازاردا ئوز موزدینگ آز بر حصه‌سینه چوق مال آلا بیلسین. موزدینگ منات حسابیله آرتیریلماسی او قدر فائده‌لی ده‌گل نه قدر که ماللاریگ اوجوزلاشماسی. ایمدی بو مسئله‌نگ سیاسی اهمیتی نظره آلاق.

بزیم ئولکه‌مزده خصوصی تجارت‌ده یاشایور. آلویرچیلر بیزیم هر بر نقصانمزدن استفاده ایدوب پول قازانیرلار. بورادا بیز بر شیئه دقت ویرمه‌لییز. فابریقالاریمز ئوز ماللارینگ قیمتلرینی کیت ـ کیده آزالدیرلار، اما تجارتله مشغول اولان اداره‌لریمز، قوئوپه‌راسیالاریمز ایسه پراکنده ساتیشدا اوقادارداً قیمتلری اوجوزلاشدیر. مادیقدا بیله‌نتیجه، عمله کله‌ر: بیزیم فابریقالاریمزدان مال آلمش اولان خصوصی آلویرچیلر اوز آلیش ویریشلرینده داها آرتیق باجاریقلی چالیشوب بیزیم تجارت اورغانلاریمزدان اوجوز مال ساتارلار. بیله اوندیقدا خصوصی قاپیتالك رولی آرتار، بورژوآزیا پراکنده تجارتده آرتق پارالارتوپلایار. اما شورالار حکومتنك سیاستی بونگ عکسنه‌در. خلق تصرفاتنده خصوصی تجارت قسمی ده کل، سوسیالیزم قسمی غالب گلمه‌لیدر. بوندان باشقاداخصوصی تجارت پراکنده ساتیشدا بیزدن اوجوز ساتارسا او وقت بیز کندلینی ایتیرمش اولاریق. کندلینی بورژوآزیا ئوز طرفینه چیکه‌ر. کندلی‌نگ بورژوآزیا طرفینه کیچمه‌سینگ‌ده آخری شورالار حکومتنك بوتون دوامنه ضربه ووررمش اولار.

فقط «کیم ـ کیمه غالب گه‌لیر» مسئله‌سنی آرایاندا گرریریز که خصوصی قاپیتال بیزه غالب گه‌لمیر؛ اونگ رولی کیت ـ کیده آزالیر، سوسیالیزم موقعیتله اونا اوستوندر. ساتیش بازاری واسطه‌سیله بیز شهر صنایعنی کند تصرفاتیله رابطه‌یه سالیریق و بونگله پرولەتاریات کندلی ایله سیقی بر اتفاق قورور. صنایع ماللارینك کیت ـ کیده اوجوزلاشماسی بو اتفاقی داهادا محکمله‌شدیریر.

نیچون قیمتلریك اه‌ندیریلمه‌سی موفقیتله یوروتیلمیر؟

ایمدی قیمتلریگ اهندیریلمه‌سینك ضعیف حالدا یوروتیلدیگنك سببلرینی نظردن کچیرمك.

قیمتلریگ اهندیریلمه‌سینه مانع اولان باش سببلری تجارتله مشغول‌اولان اداره‌لریمزیگ و قوئوپه‌راسیالاریك داخلنده آختارماق لازمدر. البته بونلاردان آسیلی اولمایان سببلر دخی واردر. اما بویله سببلریگ تاثیری او قادارداً آرتیق ده کلدر. تجارت آپاراتلارینداً و قوئوپه‌راسیالاردا بر بویوك نقصان اونلاریگ آرتق قازانج‌دالینجا قاچمالاریدر. بعض قوئوپه‌راسیالار ماللاریگ آزلیقیندان استفاده‌ایدوب ماللاری باهاقیمتله‌ساتماغدان بویوك قازانجلار توپلامشلار. البته بونلاریگ، اشتهـالارینك قاباغی آلنمالیدر.

سوکرا، تجارت آپاراتلارینك و قوئوپه‌راسیالاریگ خدمتچیلرینك مقداری (شتاتلاری) شیشوب، لازمی درجه‌نی کیچمشدر. بو شتاته صرف اولونان پوللار سوز یوق که ماللاریك قیمتلرینك اوستنه علاوه اولونور. بوندان‌علاوه بر پارا ماللار ساتیلمیر، چوروبور، خراب اولور، بونلاریك دخی‌ضرری یرده قالان ماللاریك اوستنه گه‌لیر: بو ایسه باجاریقسیزلق علامتیدر.

بو کبی باشقا اضافه خرجلر و آرتق قازانجلار قیمتلری شیشدیریرلر. تجارت اداره‌لرندن آسیلی اولمایان سببلر ایسه تدارك رایئونلارینك اوزاقلیغی (مثلا: باکویه توقونمش ماللار موسقوادان، فلیزات شیئلر له‌نینغراددان و

باشقا شيئلەر بو كبى اوزاق يثرلردن گەتيريلير). يوللار رابطەسينك يوقليغى و بو كبى سببلردر. بونلار وقتيله فقط چوق مدارا ايله دوزەلەجكدر. اما ادارەلرده اولان داخلى سببلر ايسه تيز بيرزمانده آرادان چيقماليدر. اضافه شتاتلار قيسالماليدر، خرجلر آزالماليدر، قازانجلار معين مقدارى كيچمەمليدر، آپپاراتلار مكمل لەشمەليدر و باشقالارى.. فقط بونلاريك هاموسى كتلەسيز بر موفقيته يتيشەمز.

قيمتلريك اەندىريلمەسنده كتلەنك رولى.

قيمتلريك اەندىريلمەسى آرتق درجه كتلەلريك بو ايشده اشتراكيندن آسيليدر. يوقارى ادارەلرده امر وقرارلار ويرمك ايله ايش بيتمەز. بوامر وقرارلارك حياته كچريلمەسينى آشاغيدان گەنيش ايشچى كندلى كتلەسى تحقيق وقونترول ايتمەليدر.

قوئوپەراسيانك رهبرلرى، اونك هيئت ادارەلرى قوئوپەراسيا عضولرينه تيز ـ تيز حق حساب ويرمەليدرلر. بو معروضەلرله نه ياپيلمش و نه تدبيرلر دخى كورولەجكى پايچىلارا آشكار اولونماليدر. معروضەده حق حساب ويرەنلر بوتون قوئوپەراسيانك فعاليتى حقنده دكل، يالكز هره ئوز قوئوپەراسياسنك فعاليتنى كوسترمليدر. نەقدر و هانسى مالك قيمتى اوجوزلاشمشدر، بو بارەده نه تدبيرلر گورونوب و گورونمكدەدر؛ نەقدر فابريقالاريك حسابنه قيمتلر اەنمش و نەقدر قوئوپەراسيا ئوزى مالى اوجوزلاشديرمشدر؛ هانسى اضافه خرجلر آزالمشدر و بو كبى گەنيش و اطرافلى معروضەلر پايچىلارى مراقلانديريرير و اونلار ئوز فكرلەرينى سويلەيورلر.

بو ايشه تفتيش قوميسيونلارى جلب اولنماليدرلار. بو وقته قدر تفتيش قوميسيونلارى يالكز ادارەلريك اوغرو لارينى دوتماقلا كفايتلەنيردىلر. ايمەى اونلار گرك مالاريك اوجوزلاشماسينى تحقيق ايتسونلەر؛ اونلار گرك گورسونلر كه خلق تجارت قوميسارياتى تعين ايدەن قيمتلر حياته كچريلير مى، ياخود كچريلمەيور. خلق تجارت قوميسارياتى چوق مالالاريك قيمتلرينى تعين ايدير. پايچى لارك چوغى بونى بيلمەيورلر. تفتيش قوميسيونلارى بو ايشده اونلارا ياردىم ايتمەليدرلر.

تفتيش قومسيونلارينداں باشقا دكان قوميسيونلارى دخى واردر. چوق رايئونلاردا بر قوئوپەراسيانك برنيچه دكانى واردر. بو دكانلاريك هاموسينى تك يالكز تفتيش قوميسيونلارى قونترول ايده بيلمەزلر، اونلارا بو ايشده دكان قوميسيونلارى ياردىم ايتمەليدز.

ايسته تفتيش قوميسيونلارى، دكان قوميسيونلارى و ايسته قوئوپەراسيالاريك تعليماتچىلارى هاموسى مشاهده ايتديكلارى نقصانلار بارەسنده پايچىلارا معلومات ويروب، اونلارى بو ايشيك حلنه جلب ايتمەليدرلر.

بر پارچا يرلرده قوئوپەراسيالار اوز خرجلرينى آزالتماق ايچون كوبوت حركتده بولونورلار، مثلا: فقرا محلەلرينده ضررلى دكانلارى قاپايورلار، بويلەحركتلرەيول ويريلمەمليدر. دوغرى فعاليتده بولونمايان هيئت ادارەلريگى دن سەچيلمەليدرلر.

هر بر قوئوپەراسيا عضوى خلق تجارت قوميسارياتى تعين ايتديكى مال قيمتنى ياقشى بيلمەليدر. بونى بيلەن پايچى هميشه ئوز قوئوپەراتيفينك قيمتلر مسئلەسنده حركتنى دوشونەر. نيچون مالك اوستنده يازيلمش قيمت اوزره مال ساتيلماديغنى ئوز هيئت ادارەسندن سورار؛ مثلا (سپچقا. نك اوستنده يازيلمش قيمت) والخ...

شورالاردا قيمتلريك اەندىريلمەسى مسئلەسينه جلب اولونماليدرلار. شورالاريك عضولرى و باشقا زحمتكشلر دخى شورالار جنبنده اولان تجارت ـ قوئوپەراسيا سەقسيالارى اطرافنه توپلانماليدرلار. بو سەقسيالارا خصوصا قادينلار جلب ايديلمەليدرلر. زحمتكشلر بو سەقسيالاردا هم شورا حكومتنك قيمتلر مسئلەسنده تدبيرلرينى اوكرەنمەلى؛ هم ده بو تدبيرلريك حياته كيئچمەسينى قونترول ايتمەليدرلر. بو سەقسيالاردا قوئوپەراسيالاريك معروضەلرينى ايشيدوب، سوگرا يثرلرده اونلاريك فعاليتنى تحقيق ايتمك لازمدر.

قيمتلر مسئلەسى خصوصى اولاراق قادينلارى مراقلاندىريرير. قوئوپەراسيالاريك معروضەلرينى تكجه قادين نمايندەلرى اجلاسنده اوقونماقلا اكتفا ايديلمەمەليدر. بيله معروضەلرى ايشچى وكندلى زحمتكش قادينلاريك عمومى اجلاسلاريندا مذاكره ايتمك لازمدر. قادينلاريك بو مسئلەدن چوق مراقلانمالاريندان استفاده ايدوب، اونلارى ايشه جلب ايتمك لازمدر؛ اونلاريك آراسندا قيمتلر مسئلەسنى حل ايدەركن نتيجەده اونلارى قوئوپەراسيالارا جلب ايتمك اولار. بو وقتەقدر بو ايشه آز دقت ويريلمشدر، بلكه هيچده ويريلمەمشدر. قوئوپەراسيالاريك هيئت ادارەلرينده، اونلاريك تفتيش و دكان قوميسيونلارينداً قادينلاريك سايى چوق آزدر. اونلارى بوتشكيلاتلارا جلب ايتمەك لازمدر.

مركزى فرقه قوميتەسنيك قرارينه گوره ايون آينك اونينا كبى صنايع مالالارينك قيمتلرى اون فائض اەنمەلى ايدى. بيزيم شورالار ئولكەمزيك هر بر يرينده بونك تماميله دكل ايسەده 7 ـ 8 فائضه قدر اەندىگنى كورىرىز. فقط بو مسئله هله بيتمەمشدر. بو سياست آراسى كسيلمكسيزين يوروتيلمەليدر. قيمتلر كيت ـ كيده اەندىريلمەليدر. فرقەنك بو خطنى موفقيتله حياته كچيرەن بر قوه ايسه زحمتكشلر كتلەسيدر. كتلەنيك اشتراكى اولماسا، غالب گله بيلمەريز.

م. آ.

آذربایجان زحمتکش قادینلار قومیته‌سینك ایشی و گونده‌لیك نوبتی مسئله‌لری.

اون بیللرجه دوام ایتمش ایمپه‌ریالیست و وطنداش محاربه‌لرینك او منفور نتیجه‌سی اولاراق قادینلار آراسندادا بویوك احتیاج و ایشسیزلیك چوقالمشدر.

بو آرالق چادرادان دیشاریی گورمه‌ین تورك قادینلاری دخی بوگون ایشسیزلر صیراسینا داخل اولاراق مادی کومك وایش ایچون قومیته‌یه مراجعت ایدیرلر.

باکو شهرینده کی زحمتکش قادینلار قومیته‌سی مرکزی حساب اولونورسادا لاکن حالا قضا قومیته‌لرینه اوقدر رهبرلیك ایده بیلمه‌مشدر.

مرکزی قومیته آنجاق هرگون مراجعت ایدن 50—40 نفردن آرتیق قادینلارا لازمی معاونتلر گوسترەرك باکو ودائره‌سی قادین اهالینك ایشلرینی حل ایتمکله مشغول اولمشدر.

قومیته‌ده محتاج قادینلارا ممکن قادار ایش ویریلیر.

حاضرده قومیته‌نك قوطو حاضرلایان فابریقاسی واردر؛ بورادا 70 نفردن یوقاری محتاج قادینلار چالیشتاراق بویوك فعالیت گوسترییرلر. چولکی توقویان اعمالاتخانه‌ده 40 نفر قادین چالیشیر.

ایکی عمومی یاشایش ایوینده 60 نفر یوردسیز قادین لار یرله‌شمیشلر. بونلاردان باشقالیرچوق خیردا آلویربودقاسی وارکه بورادا 50 نفره کیبی قادین خردا آلویر ایدیرلر.

هرگون معین برحقوق شناس مفته اولاراق قادینلار اعریضه‌لر یازیب محکمه‌لرده مجانی اولاراق قادین لاری مدافعه ایدیرلر.

بوندان باشقا قومیته باشقا اداره‌لر واسطه‌سیله ایشسیز قادینلاردان بعضیلرینی ایشه جلب ایده بیلیر؛ حتی مرکزی اداره‌لردن بعضیلرینده بوفه‌لر تشکیل ایدیلوب اورادا محتاج قادینلار چالشیرلار.

اوز وطنلرینه قایتماق ایسته‌ین قادینلارا دخی مجانی یول بیلیتی ویریله‌رك اونلارادا معاونت اولنور.

قومیته‌یه مراجعت ایدن قادینلاردان چوغی عائله‌ده قسقان جلغدان شکایت ایتمکده‌درلر.

هر زمان اولدیغی کبی، شورا حکمرانلغندا دخی بزیم عوام تورك کشیلری بر او قدر قادین حقوقنی عائله وضعیتنی لازمنجه اوگرەنه بیلمه‌میشلر؛ اونك نتیجه سیدر که، یوزلرجه، مینلرجه قادینلار اره‌لری طرفندن دوگولوب، سوگوله‌رك حتی اولدیرمك تهدیله‌یله قومیته یه مراجعت ایدوب نجات طلب ایدیرلر.

بو مسئله قومیته‌نك اك مهم وظیفه‌لریندن اولمشدر. بونکله جدی مبارزه آپارماق، بو حقده لازمی قانونلار ویریلمه‌سی اوغورینداتشبنده بولونمشدر.

لازم گه‌لیرکه، قومیته ایشلرینك آغرلغنی نظرده‌دوتو لوب بو یول نه‌جور اولور اولسون شهره‌مخصوص قومیته تشکیل ایدوب حاضرکی قومیته‌نی مرکزلشدیرمك ایله بالعموم قضالره رهبرلیك ایشلرینی اونا رجوع ایتمك.

آذربایجانك هربر قضاسنده باکودا ایسه یالکز له‌نین دائره‌سنده برەر قومیته‌لر تشکیل اولونمشدر.

قضا قومیته‌لریندن قاراباغ ایالتی، گنجه، نوخاقضالاری وبرده نخچوان ئولکه‌سنی دیمك اولارکه بونلار صوك آیلاردا بر قدر ایشلرینی یوکسلتمکده‌درلر.

اوز چالشمالاریله مرکزی قومیته‌دن دخی برقدرمادی معاونت دخی بوراقیلمشدر. باشقا قضالرده ایسه ایشلر او قدر جانلی دگلدر.

بونا باقمیاراق قومیته‌لر اوزگه اداره‌لرده‌ن اولسین قادینلارك شکایت، حقوق یاردیمی، آز فائض‌ده اولسین ایشسیز قادینلاری ایشه قبول ایتدیرمك مسئله‌سی ایله اوغرا شوب اونلارا بو حقده لازمی معاونت ایدیرلر.

لازمدرکه مرکزی شورا اورغانلاری گوستردیگی قانونلار اوزره محلی ایشچیلر بو مسئله‌یه اك جدی فکر ویروب خصوصا قضا اجرائیه قومیته‌لری اوز اداره‌سی کبی بورادا دخی رهبرلیگنی اسیرگه‌مه‌سونلر.

بوگون تورك قادینی اوزینی‌وچوجقلارینی تامین ایچین کیمسه‌یه محتاج اولمیاراق اوز الینك زحمتی ایله‌چوره‌ك یمك ایسته‌یورلاکن بونابزهله لازمی قدراهمیت ویره بیلمه‌مشیك.

قضا توپراق شعبه‌لری وبوکبی تصرفات وقوئوپیراتسیا اداره‌لری بو مسئله‌یه اهمیت ویره‌رلرسه بو ایشی آسان بر نوع ایله دفع ایتمکله برطرفدن تورك قادینك وضعیتی‌نی تامیناتینی دوزه‌لتمك دیگرطرفدن ایسه اونلاری برله‌شدیروب اجتماعی حیاته جلب ایتمش اولاریق.

قضا قومیته‌لرینك ایشلرینه یکون ووروماق و اونلارك احتیاجلارینی یاقین‌دان اوگره‌نمك ایله لازمی لایحه‌لر گوتورمك ایچین ایشبو ایول آینك 10 نده بتون قومیته ایشچیلرینك آذربایجان مشاوره‌سی دعوت اولونمشدر.

بو مشاوره بوتون احتیاج ونقصانلارینی گوسترمکله یکی تدبیرلر گورمکه چالشمالیدرلر.

آذربایجان قضالارینداکندجی قادینلارك ال صنعتلری ایشلری؛ بوندان خالچه‌چیلق مشهوردر که، بوحقده‌مراجعت ایدن قادینلاری‌دخی حالا برله‌شدیرمك‌ممکن اولمامیشدر.

قومیته‌نك ایشی بتون زحمتکش قادینلارك وضعیتنی هر جهتجه گوزه‌للشدیرمك اولدیغندان بو حقده هر بر شورا اورغانلاری لازمی معاونتلرینی اسیر گه‌میه‌رك‌بومسئله‌یه جدی اهمیت ویزمه‌لیدرلر.

تورك قادینلاری آراسندا حقوقی یاردیم ایشلرینی قوه لندیرمك‌ایچین‌لازمدر که، بوسنه مرکزده‌قضالرایچین‌تورك قادینلاریندان عبارت 25 نفره عدلیه قورصی آچیلسین.

بو باره‌ده دخی عدلیه قومیسارلغنك تشبثی ویاردیمنی آرزو ایده‌رز. هیچ‌اولمازسا آزدا اولسا تورك‌قادینلاریندان مدافعه‌چیلروحقوقی‌ایشلردن آشنااولان قادینلارحاضرلانابیله‌ر.

گل آراکویلی قیزی.

آذربایجان‌زحمت کش قادینلار قومیته‌لری مشاوره‌سنك یگونلاریندان

بو آیك 13 نده آذربایجاندا برنجی دفعه اولاراق زحمت کش قادینلارا یاردیم ایدن قومیته‌لرك مسئول کاتبه‌لرینك مشاوره‌سی واقع اولمیشدر.

مشاوره بر چوق نقصانلاری گوسترمگله برابر بر چوق عملی تکلیفلرده قبول ایتمیشدر.

بونلاردان برنجیسی قضالرده قومیته‌لریك ایشلرینی یوکسلتمك ایچین قضا اجرائیه قومیته‌لرینه حواله اولونور که برنجی نوبه‌ده قومیته اداره‌لرینه مخصوصی بنالرك بوتون تصرفاتنی اوز عهده‌سنه گوتوروب او قومیته‌لرك فعالیته جدی صورتده رهبرلك ایتسونلر.

محل‌لردن اولان معروضه‌لردن معلوم اولوردیکه، قومیته‌لر اهالی آراسیندا لازمی درجه‌ده نفوذ قازانمامشلار. بودا یه قضا اجرائیه قومیته‌لرینك بو مسئله‌یه اهمیت ویرمه‌مه‌لریندن نشئت ایدیر. مشاوره بو باره‌ده بو رأیه گلدیکه قضالاردا قومیته صدرلیگنه، و بالخاصه قومیته هیئته داها آرتیق دقت یتیریلوب نفوذلی یولداشلار بو ایشه جلب ایدیلسینلر.

بو آنه قدر ایسته‌رسه قضا و مرکزی شهرلرده بوتون اعمالاتخانه، آرتل و بوکبی تأمیناتی تشکیلاتلار قادینلار شعبه‌سی، قلوب اداره‌لری اختیارینده اولدیغندان زحمت کش قادینلار قومیته‌سی ایسه استحصالاتدا اشتراك ایتمه‌یور ایدی. حالبوکه محتاج قادینلارا کومك ایتمك ایشی‌اساسیله زحمت کش قادینلارقومیته‌سنه‌عائد برمسئله‌در.

اوناگوره بوتون قادینلار تشکیلاتلاری اختیارینده اولان آرتل اعمالاتخانه و بوکبی‌باشقا تشکیلاتلارا قومیته رهبرلیك ایده‌رك اوز اختیارینه آلمالیدر، بویله اولورسا هم قادینلارشعبه‌لری بوایشدن آزاد اولور. بوزحمت کش قادینلار قومیته‌سی دخی تأمینی و حقوقی مسئله‌لرینی شورا خط حرکتی اوزره گنیشلندیره بیله‌رلر.

آذربایجان زحمتکش قادینلار قومیته‌سینك مرکز لشدیریلمه‌سی باره‌ده مشاوره بو قراره گلمشکه باکو شوراسی یاخود آذربایجان زحمت کش قادینلار قومیته‌سی نزدینده جاری ایشلر ایله مشغول اولماق ایچین تعجیلی صورتده بر قومیته تشکیل ایدیلمك باره‌سنده لازملی سرانجاملار گوریلسونلر.

مشاوره‌ده گونده‌لیك مسئله‌لردن بریده یگی عائله قانونلاری حقنده کی مسئله ایدی. بو مسئله‌لر دوغروداندا اك اهمیتلی مسئله‌لردن اولاراق مشاوره‌نك دقتنی اوزینه جلب ایتمشدی.

قضا ایشچیلری ایچین بر تعلیمی معروضه اولماق اوزره دیگله‌نیلن عائله حقوقی قانون تامیله قادینلاردا حقوق برلیگنه بیوك بر ماده‌لر قید ایتمیشدر.

بوندان باشقا قضا زحمت کش قادینلار قومیته‌لرینك ایشلرینی جانلاندیرماق خصوصیله مرکزی اداره‌دن اونلارا رهبرلیك ایشنی آرتیرماق ایله قادینلارك اقتصادی، عائله‌وی و خصوصیله حقوقی مسئله‌لرینه لازمی یاردیم ایتمك ایچین اهمیتلی قرارلار قبول اولنمیشدر.

بوندان باشقا ایلده ایکی دفعه قضا زحمت کش قادینلار قومیته‌لرینك مسئول کاتبه‌لرینك مشاوره‌سی دعوت ایدیلمه‌نك‌ده لزومیتی گوستریلمشدر.

اونك ایچین قضا اجرائیه قومیته‌لری دخی بو مسئله‌نی نوبتی مسئله‌لریندن حساب ایده‌رك بو حقده مادی و معنوی یاردیمنی اسیر گه‌مه‌لیدر.

ك. آ.

کندلی قادین شورا صدرلری مشاوره‌سینك یگونده دائر.

یاقین وقتلرده مرکزی اجرائیه قومیته‌سی طرفندن چاغیریلمش اولان کندلی قادین شورا صدرلری مشاوره‌سنده قضالاردان اوتوز اوچ نماینده اشتراك ایدیردی. آیناخانم سلطانووانك صداره‌تی ایله آچیلان بو مشاوره‌ده: کند شورالاری و اونلارك ایشلری؛ شورا قانون اساسیسی یرلردن معروضه؛ خلق توپراق قومیسارلغنك نوبتی مسئله‌لری و کند شوراسی؛ آذربایجان قوئوپه‌راسیاسینك کنده فعالیتی. کنده مدنی معارف ایشلری، آنالق و چوجوقلغك قورونماسی واونك آذربایجان کندینده مسئله‌لری وشورا حکومتنك نوبتی مسئله‌لری و کندلیلر.... کبی مسئله‌لر دورمشدی. بو کبی مسئله‌لری مذاکره ایده‌جك مشاوره‌نك چاغریلماسینك البته بویوك بر اهمیتی وار ایدی. بویله مشاوره‌لر داها چوقدان دگل، انجاق سه‌چگی واسطه‌سی ایله تشکیل اولونان شورالارا کندلی قادینلار کیچدیکدن صوکرا، بو مشاوره سایجا، آذربایجاندا ایکینجیسی‌در. بو مشاوره‌نك چاغیریلماسی؛ اونلارك قارشیسیندا دوران مسئله‌لری حل ایتمك، بوندا اشتراك ایدنلره بیلیگ ویرمك، اونلاری حکومت آپاراتنك قورولمای ایشلرینده شورالارا جلب ایتمگ کبی مهم مسئله‌لر ایله برابر، دیکر طرفدن اونلارك گورمش اولدیقلاری ایشلری یوقلامادان عبارت ایدی.

گوندهلك مسئله‌لره عائد اولان تعلیماتی معروضه‌لری دیگله‌ین قادینلار، معروضه‌لره عائد سوآللار ویره‌رك، بیلمه‌دیکلرینی ئوگرنمکله بیله حتی، بعضا مسئله‌لر خصوصندا چیقیشدا بولونوب، بر چوق شیلری میدانه چیقاردیلار. مذاکره‌ده اشتراك ایده‌نلر آزدا اولمش اولسالار، کندلی قادینلاردان چیقیشدا بولونمای، بو اونی اثبات ایدبرکه، آذربایجان کندلی قادینلارینك بر چوق قسمی آرتق، قارا پرده‌لی چادرانی اتاراق، موهوماندان اوزاقلاشماقله، اونلار آنجاق، دنیا اوزه‌رینده برنجی اولاراق، قورولمش اولان شورا حکومتی سایه‌سنده ئوز حقوقلارینا چاتوب ایمدی بزیم سوسیالیزما قورولوشی اشلرینده اشتراك ایدیرلر. بو ایسه، سیاسی جهتدن الده ایدیلن بویوك موفقیتلردن بیریدر.

کیچمش اولان مشاوره؛ کندلی قادین شورا صدرلرینه، کند شوراسی و دائره اجرائیه قومیته‌لری عضولرینه چوق بویوك منفعت ویردی. بویله که، اونلارك بیلیکلرینی آرتیرماقله بیلمه‌دیکلرینی ئوگره‌تدیکی کبی گله‌جك ایشلرینه دخی چوق-چوق یوللار گوستردی. اونلار، بو گوسته‌ریلن یوللاری دوتوب، تمامیله ایفا ایده‌جك اولورلارسا، گله‌جکده داها بویوك موفقیتلره نائل اولاجاقلرینا امین اولماق لازمدر. آنجاق، بونگله‌ده اونلارك اوزه‌رینه براقلمش اولان مسئله‌لری یالکز اونلارك حیاته تطبیق ایتمه‌سنه امید ایتمه‌یوب اونلارا رهبرلك ایتمه‌ك و اونلارا گونده‌لك ایشلرینده یاردیم گوسترمك لازمدر. چونکه، قادینلارمزك قورولوش ایشلرمزده اشتراك ایتمه‌سی داها چوقدان دگیلدر. اونلارك بیلیگی و اونلارك تجربه‌سی هله آزدر. بو یولدا رهبرلك ایتمگی یالکز مرکزك اوزه‌رینه بوراقمایوب، یرلرده اولان تشکیلاتلارمزدا آرتیق اهمیت ویرمه‌لیدر.

مشاوره‌ده یرلرده اولان معروضه‌لر اونی میدانه چیقاردی که بعضی کند شورا صدرلری لایقیله معروضه ایتمه‌گی باجارمیرلار. بو، اونی گوسته‌ریرکه، قادینلارمزك بعضلری هله تمامیله آچیلمامشلار. اونلار اوتانوب قیسقانیرلار. بو نقصانلارك چوخی یرلره عائددر که، یرلرده چالیشان یولداشلارمز، عملی ایشلرده اونلاری لازمی بر صورتده ئوگره‌تمه‌یوب و یاقیندان جانلی رابطه ایله اونلارا رهبرلك ایتمه‌یرلر. دیگر طرفدن معروضه‌لرك چوق حصه‌سی آنجاق یرلردن اولان شکایتلر ایدی. دیمك که، بو حلی ممکن وآسان اولان بعض شکایتلرك قارشیسی یرلرده آلنمش اولسایدی، بو شکایتلردن مشاوره‌ده آز دانیشلاردی، معروضه‌لرك برچوق حصه‌سنده‌ده قید اولونار. یرلرده اولان عمومی نقصانلارمزدان عبارت ایدی، قوباقضاسندان معروضه‌د ه بولونان سوناشاهبازووالده اولان موفقیتلری قید ایتدیکدن صوکرا، گوسته‌ردی که: «واحد ویرگی بعضی وارلیلارا آز، یوقسوللارا ایسه چوق چیقمشدی. بر کندلینك اوچ آروادی اولاندا اونك ایکیسنی (زاقس) واسطه‌سی ایله بوشایوب: یده‌ده شریعت ایله ساقلایر». آغدام قضاسندان شورا صدری مهتبان علی یووا سویله‌دی که: «آغجا بدیع کندینده اولان آیتك خانه‌ده کی حکیم چوق وقت ایچوب کیفله‌نیر. درمانلاری دولاشیق سالیر. باش آغریبانا گوز داواسی، گوزی آغریبانا باش داواسی ویریر». بونك کبی معروضه‌ده بولونان بر چوق یولداشلار یرلرده اولان بویله نقصانلاردان دانیشدیلار. بویله نقصانلارك چاره‌سنی مرکزده‌ن گوزله‌مك لازم گلمه‌یر. بونلارك حلی یرلرده‌عائد اولدیغی کبی، بوخصوصدا محلرده لازمی قانون و دستورالعملر ویریلمشدر.

شمس الدینلی.



یازانی: س. حسین

یاتمش کندك قیش گیجه‌لرینده.

(کیچن نومرودان مابعد).

ملا خلیل ایشینی بیله‌ن بر آدامدی. کندیلر اونك وجودینی اوزلری ایچون برنعمت بیلیردیلر. کندك خیر وشری بونك مصلحتی ورأیله‌اولاردی، او، کندیلرك بوینونا بویوك بر منت قویاردی. چونکه کندك ئولیلری بونك دعاسی وقرآنی ایله دفن ایدیلر، ترکه‌سی بونك ایله ورثه‌لر آراسیندا تقسیم‌اولار، احسان‌اونك کوسترمه‌سیله ویریلردی. ملاخلیل اوروجلقداواعظ‌لك، محرملکده روضه‌خانلیق ایدر، باشقا بر ملانك کنده گلمه‌سینی ایسته‌مزدی.

ملاخلیلك کنددن مداخلی چوقدر. واعظلیگی، روضه‌خانلیغی ایچون اوزینی بر بیلك تامین ایده‌جك مقداردا کندیلردن مکافات آلدیغی کبی رجوق قرآن، یاسین اوقوماق سفارشلری قبول ایدردی ملاخلیلك مسجده ایتدیگی موعظه‌لر دولایسیله کنده ئولیلرینه‌قرآن اوقوتمایان برایوبوقدر.

انقلابدان سوکرا کنده گلن مبلغلردن ملا خلیل چوق قورقمیشدی. مداخلینگ آزالاجاغیندان احتیاط ایدیردی. فقط اوزینی‌اویله‌یولدا آپاریردی که کنده‌نفوذی آزالمیردی. سوکرالار، بویله مبلغلره هیچ اعتنا بیله ایتمزدی. «نه‌قدر دانیشیرلار، دانیشسینلار. بونلارك هاموسی(گلدی- گیده‌ر) آداملاردر»!.. دییه‌ردی. کنده قالاجاقینه‌اوزی‌اولاجاقدی. او، کندك بوتون روحی ایدی.

معلمگ بوکنده گلمه‌سینه‌ده ملا خلیل براوقدراهمیت ویرمه‌میشدی. اونی‌ده(گلدی- گیده‌ر)بیلمیشدی. فقطمعلم کیتمه یوردی. گونلر،هفته‌لر کیچیر، او کنده‌یورد سالوب‌یاشایردی. معلم ملا خلیلك بر رقیبی اولمیشدی. کندك اوللرده قولوبی واردی. کیمسه بوقولوباگیتمه‌دیگی ایچون قاپوسی هرزمان باغلی‌قالاردی. کندلیلر قولوب عوضینه ملاخلیلگ اوتاغینا توپلاشوب اونگ صحبتلرینه قولاق آسارلر. معلم کنده گلدیگدن سوکرا قولوبگ قاپوسی آچیلمیشدی. هر آقشام اورادا توپلانیش اولوردی. بو حال ملاخلیلگ اوتاغینا بویوك تاثیر ایتمشدی. بونگله برابر معلمگ‌ده اوتاغینا صحبته گیده‌ن چوق اولوردی. بونگ ایچون ملا خلیلگ گوزی معلمدن سو ایچمیردی. هله آرا - سیرا بعض سوزلرده ایشیدیردی. گیت- گیده‌مریدلری آزالیردی. هرجمعه آقشاملاری آزی اون - اون ایکی یاسین سفارشی آلاردی. ایمدی بویاسینلارگ‌سایی‌دورت- بیشه‌اه‌ندیریلمیشدر. یاسین سفارشلرینگ آزالماسی‌مریدلرینگ آزالماسی دیمگدی. بونگ‌ده یگانه سببی معلم ایدی. ملا خلیل آرتیق‌اوندان قورقماغا باشلامیشدی.

ملا خلیل آچیقدان آچیغا گورووردی که کنده‌معلمگ طرفدارلاری واردر. اومعلمگ علیهنه تبلیغات آپارماقدان احتیاط ایدیردی. بویله تبلیغات‌دان نه کیبی بر نتیجه چیقاجاقدی: کند خلقی ایکی یره بولونه‌جك، یاریسی اوز طرفینده اولاجاغدی. بر- بریله چاربیشاجاق، مبارزه ایده جکلر. هانکی طرفك غالب گله‌جگی شبهه‌لی ایدی. هر حالدا حکومت‌ده معلمگ طرفینی‌ساقلایاجاغیندان اوزینك موفقیتنه آرقاین اولا بیلمیردی. برفکرینه گیردی که‌معلمی خلقگ گوزیندن ساللسین. بونی‌هانکی واسطه‌لره مراجعته ایده بلردی. حالبوکه معلم آچیقدان آچیغا خلقگ‌ایشینه

یارایور، یالیکز اوشاقلارا درس ویرمکاه کفایت ایتمه‌یوب، کنده قاپوسیندان ایچری گیرمه‌دیکی برایو براقمامیشدی. او، بر کنجلرك یوره گینی دگیل حتی اختیارلارك‌دا یوره گینی الینه آلمیش، کیمسه‌دن بر تمناسی‌ده یوقدی.

ملا خلیل آخردا بوفکره گلمیشدی که معلم ایله‌دوست اولسون. بو واسطه ایله معلمی اوزی ایچون ضررسیز بر حاله قویا بیله‌ردی. فقط بر دورلو اونکله گوروشه بیلمیرندی. معلم اونک اوتاغینا گلمیه‌جکدی. اوزی ایچون‌ده مناسب اولمازدی که قولوبا ویاخود معلمك اوتاغینا گیتسین. اونک بویله حرکتی کند ایچینده موقعینك آشاغا دوشمه سینه سبب اولاردی. بر ایکی کره معلم اونک قاپوسیندان اوتوب کچدیکده «یولکزی یاقین ایدیکز!»، «قوللوغکز دا اولاق!» کیبی متعارف سوزلر ایله اونی ایوینه‌چاغیرمش دیسه‌ده مقصدینه یتیشه بیلمه‌میشدی. معلم یالیکز «ساق اول!» دیبوب کیچمشدی.

رضوانکک عذر مجلسی ملا خلیله معامله دوست‌وتانیش اولماق ایچون مناسب بر فرصت اولدی. ایمدی ایکیسی بر دامك آلتیندا قارشو-قارشویا گلمیشدیلر. اوتاغك بر باشیندا ملاخلیل، بر باشیندا معلم اوتورمیشدی. فاصله اعتباریله بونلارك آراسیندا کی آچیقلیق براوقدر ده گیلدی. فقط فکر اعتباریله بونلار، بر-بریندن دنیانك ایکی قطبی قدر اوزاق ایدیلر.

ملا خلیل اوزینی معلمه سوودیرمك، اونکله خصوصیته کیچمك ایسته‌یردی. بومقصدله ابتدا کندیلرده علم ومعارفك اهمیتندن بر ایکی کلمه سویله‌میش، سوکرا: بو کنده ایکی معلم واردر. بن سزك روحانی معلمکزم، یولداش معلمده اوشاقلاریکزك معلمیدر!» دیمیش، بو باره‌ده معلمك فکرینی او گره‌نمك ایسته‌میشدی. او، ایسته‌یردی معلمك آغزینی آراسین. اوز باره‌سینده اونك نه‌فکرده اولدیغنی او گره‌نسین. معلمك جوابی هیچ‌ده خوشینه گیتمه‌میشدی.

معلم دییردی:

- ده‌غرو دییورسکز، بز ایکیمزده جماعته معلم‌لك ایدیریك. فقط یولیمز باشقا-باشقادر.

ملا خلیل اثبات ایتمك ایسته‌یردی که باشقا - باشقا یول‌لار یوقدر. ایکیسینك‌ده عزیمتی براستقامته دوغرودر. فقط فرق بورادادر که بریسی یولك آلتیله، اوبریسی یولك اوستیله گیدیر. آخردا هر ایکیسی برلشه‌جك، ال اله گیده‌جکلر. چونکه هر ایکیسینك مقصدی بردر. بریسی دنیا علملرینی، اوبریسی دین‌علملرینی او گره‌دیر. بونلارك هر ایکیسی‌ده لازم‌در. اونك فکرینه گوره بونلار بر-بریندن «لازم غیر مفارقی»در.

معلم اولده ملاخلیل ایله‌مباحثه‌یه گیریشمك ایسته‌میردی. اونی خود پسند بر آدام تانیردی. فقط بورادا مسئله‌باشقا بر شکله دوشیردی. ملاخلیل کندیلرك فکرینی شاشیرمیشدر، اونلار حقیقتك ملا خلیل دیدیکی کیبی اولدیغنا ذاهب اولمیشدیلار. دیدی:

- قطعیا دوغرو دیمه‌یورسکز. سیز یاکیلرسکز. بزیم استقامتمز برجیته‌ده گیلدر. بزباشقا، باشقابولاردان گیدیریز. احتمال یوز-وزه گله‌جکز. بزیم یوز-یوزه گلمه‌مزحادثه سیز کیچمه‌یه‌جك. ایکیمزدن بریمز اوزموقعمزی براقمالی اولاجاغز. بن اوز موقعمی سنه ترك ایتمه‌یه‌جکم. سن‌ده موقعکی اوز خوشکله براقماق ایسته‌میه‌جکسك. بلکه مبارزه مزده اولاجاق.

معلمك سوزلرینده زهرلی ایکنه‌لر اولدیغینی ملاخلیل حس ایدیردی. «مبارزه‌مز اولاجاق» فکرینی معلم‌دوغرو سویله‌میشدی. بونی ملا خلیل بر آی اول‌حس‌ایتمیشدی. او بویله بر مبارزه‌دن غالب چیقاجاغینا امید وار اولسیدی، معلمه رقتاری تمامیله باشقا طرزده اولاردی. ایش‌بوراسیندا ایدی که غالبیتنه خاطر جمع ده گیلدی. بونك ایچون معلمه صلح تکلیف ایدیردی. جواب ویردی.

- بن سیزه مبارزه ایده‌لم دیمه‌دیم. بزیم منافعمز بر برینه ضد ده گیلدر. بن سنك علیهکا ده گیلم. سنده گرك بنم علیهمه اولمایاسك. بن دییورم که ال-اله ویروب‌دوست اولاق. چونکه بوکند جماعتنك فایداسی، بزیم بربریمز ایله مبارزه‌سینی دگیل دوست اولماسینی طلب ایدیر.

ملاخلیل عوام فریبلیکه باشلامیشدی. بونی معلم حس ایدیردی. دیدی:

- بز دوست اولا بیلمیه‌جکز. کند خلقینك منافعی بزیم دوستلغمزی طلب ایتمه‌یور.

- نیچین؟

- چونکه بن خلقی ایشیغاچکیرم. سن اونلاری قارانلیغا آپاریرسك. بن حقیقتی حیاتدا، سن موهوماتدا گورورسك.

ملا خلیل مباحثه‌نك بویره چیقاجاغنی تصور ایتمه‌میشدی. معلمك قارشوسیندا سکوت ایتمك، اونکله راضی اولماق دیمکدر. بودا اونك مغلوب اولاجاغینی بیلدیره‌جکدر. عصبی بر حالدا دیدی:

- سنك حقیقت بیلدیکك یئر اگر قولوب ایسه اویئر لهو-لعب اوجاغیندان باشقا برشی دگیلدر. موهومات آدلان دیردیغك شی‌ده بزیم مقدساتمز اولان مسجددر.

سوکرا یوزینی جماعته دوتوب علاوه ایتدی:

- جماعت، سز شاهد اولیکز که اوشاغلاریکزك معلمی اللهك ایوینی موهومات آدلاندیریر.

– ایشته گورورسك که بزیم یولیمز بر دگیلدر. سن قولویی بر لهو–لعب اوچاغی بیلوب حقیقتك مسجده اولدیغنی سویله یورسك. بن دییورم که بیزیم مملکتمزده کی قولوبلار امکجی خلقه حقیقی حیاتی اوگره‌دن مکتبلردر، کند قولوبیندا کندلیلر سواد اوگره‌نیر، اکینچیلکه، باغچیلغا، مالدارلیغا عائد معلومات آلیر. مسجده سنك اونلارا اوگره‌تدیگك نه‌اردر؟

« وزوجنا من الحور العین »می ؟ بو اسه حقیقتدن اوزاق، بش بر خیالدر.

– قولوبدا چالدیغیگز زورنا قاوالا نه دیرسك، لهو لعب دگیلمی؟

– سن بونی لهو لعب آدلاندیریرسك، مسجده خلقه توکدیردیگك معناسیز گوز یاشلارینی نه آدلاندیرالم، مسجد، خلقی آغلادیر. حیاتدان ایکره‌ندیریزسه، قولوب اونلاری اگلندیریر. حیاتی اونلارا سه‌ودیریر.

مناقشه باشلامیشدی. اوبری اوتاغدا تللی‌نك ایشیندیگی بو مباحثه ایدی. او ایشیدیردی، فقط سس آیدین گلمه دیگیندن لایقنجه آگلامایبردی.

***

تللی هله یاتمامیشدی. مجلسك داغیلماسینی گوزله‌یوردی. نهایت قاریشیق سسلر گلدیگنی فرق ایتدی. هر کس آیاغا قالقمیش، دیشاری چیقیردی. بر آز سوگرا رضوانك‌ده پیللرلری چیقدیغنی، ایوینه گیره‌رك قاپوسینی ایچه‌ریدن باغلا دیغنی ایشیتدی. باجانك بوجاغیندان گله‌ن ایشیغه دقت ایدیردی. بودا کسیلدی. دیمك معلم یاتیردی. ایمدی او، اولکی گیجه‌لر کیبی آرا باجانی آچماق ایسته‌ییردی. فقط یوزی گلمیردی. هر آقشام حیاطك آدامسیزلغی، اوزینك یالیگزلیغی بونا بر سبب ایدی. ایمدی ایسه اورتادا بویله بر بهانه‌یه بر یوقدی. برقدر دوشوندی. فکرینه گلدی که ملا خلیل ایله نه اوزرنده مباحثه ایتدیکنی سورماق بهانه سیله باجانی آچسین، یاتارکن بنه‌قاپار. آیاغا قالقدی. یاواشجا قاپونی آچوب باقمونا باقدی. حیاطدا کیمسه یوقدی. کل پرینك‌ده ایشیغی سونمیشدی. قاپونی تکرار قاپادی. سوگرا متردداللریله باجانك سامان توربا سینی یاواشجا ایلری ایته‌لدی. باجا آچیلمیش، بنه اولکی گیجه‌لر کیبی یاواشجادان مصاحبه باشلامیشدی.

III

یاز یاقینلاشیردی. چوللرده قیشدا یاغان قارلاردان بر اثر گورونمیردی. کندك کوچه‌لرنده، ایچیندن چیقیلامیا جاق بر پالچیق واردی. معلم، متعلملرینی ایکی هفته‌لك یاز تعطیلینه براقمیش، اوزی شهره گیده‌جگدی. حیاطدا رضوان آتینی اونك ایچون یهرله‌مگله مشغول ایدی. تللی ایکی قات قایقاجی چادرالی باشینی بالقونك ستونینه سوکه‌یوب باقیردی. نه‌دنسه‌او، معلمك گیتمه‌سینی هیچ ایسته‌میردی.

معلم گورونمدی. بونونی ر شارفله ساریمیشدی. پالچیقدان یاپیلمش حصارك اوستنه چیقوب آتا مینه‌رکن گوزی تللی‌نك گوزینه ساتاشدی. گولومسه‌دی. سوگرا یولا دوشه‌رکن «سلامت قالیگز!» دیدی. بونی رضوان ایله کندینی یولا سالماغا گله‌ن برنیچه‌متعلمارینه دیمیشدی. عینی زماندا بوندا تللی‌نك‌ده بر حصه‌سی واردی.

معلم کندك آلچاق ایولری، اگری–او گری کوچه‌لری ایله گیدیردی. بعضا یوکسك بر دیوارك آرقاسیندا قالا راق گورو کمه‌یور، بعض واقت‌ده آلچاق بر حصارك اوستیندن باشی وبدینك بر قسمی فرق ایدیلیردی.

معلم آرتیق کنددن چیقمش، آرابا یولیله آشاغادوغرو اندیگجه تللی‌دن اوزاقلاشیردی. او، گوزلرینی معلمدن آیرمایوردی. معلم اوزاقلاشدیقجه کوچولور، کوچولدیکجه فرق ایدیلمه‌یه‌جك بر حال آلیردی. نهایت تمامیله گوزدن ایتدی. تللی‌نك گوزلری اختیارسیز یاشاردی.

اوگونی آقشامادك تللی‌نك قراری گلمیردی. سانکه برشی ایتیرمشدی. یاتماق زمانی چاتدیقدا یوره کی چوق دوتولدی. اوزینده، نه اولدیغینی تعیین ایده بیلمه‌دیگی بر حال حس ایدیردی. معلمك گیتمه‌سی اونا بویوك تاثیر ایتمشدی. ایمدی تام اوچ آی ایدی که هر گیجه آرا باجا آچیلار، معلم ایله بر ساعته قدر اوتەدن بریدن صحبت ایدردی. داها دوغروسی معلم اونك ایچون دانیشار، او، گوزلرینی شالبانا دیره‌یه‌رك قولاق آسار، باجا قاپاندیقدان سوگرا بر شیلر دوشونردی.

یوقوسی گلمه‌دی دوروب یاتاغینك ایچنده اوتوردی. دوشونیردی. فقط نه دوشوندیگینی، نیچین دوشوندیگینی اوزی‌ده تعیین ایده بیلمیردی. پك دالغین ایدی. معلم اونك هیچ بر شیئی ده گیلدی. اونی سه‌ومگه اختیاری یوقدی. او، هله اسلامك کابینلی آروادی حساب اولونوردی. بو کابین اونك الیندن باشقاسینی سوومك احتیارینی آلمیشدی. بویله بر شرائط ایچروسینده یاشادیغی و اسلامك آروادی سایبلدیغی ایچون معلمی اوبوتمالی، اونی خاطریندن چیقارتمالی ایدی. بو، اونك ایچون ممکنمی ایدی...

تللی آرتیق آغلاماغا باشلامیشدی.

***

تللی بالقوندا دوروب گیندیگجه اینجه‌له‌شوب گوزدن

ایتەن بیلانوار کند یولینا باقیردی... او گونلری سایردی. معلمك گیتدیگی بش گوزدی، اون گون سوکرا قایدا جاقدی. بو، اونا چوق اوزون گورونوردی. بو حالدا یولدا بر آتلی گورونوردی. کندە دوغری گلیردی. بو کیم اولاجاقدی؟ تللی دوشونوردی، پك اوزاقدا اولدیغی ایچون اونك کیم اولدیغینی فرق ایتمك گوجدی.

آتلی کندك کنارینه چاتدیقدا تللی‌نك وجودینی بر رعشه آلدی: گلەن اونك اری اسلام ایدی. ایوینه چکیلوب قاپوسینی اورتدی.

اسلام دوققازك قاباغیندا آتدان اەندی. آتی تویله‌یه چکوب باغلادی. پیللەلردن یوقاری‌قالقدیقدا رضوانك اوشاق لاری قاباغینا یوگورو شدیلر. گل‌پری‌دەاوز قاینینا «خوش گلدك» دیدی. تللی هله گورونمه‌یوردی. اونك اوزرینه سانکه برکابوس چوکمشدی. او، آغیر بر شیئك آلتیندا قالمش کبی ازیلیر، قورتارماسیچون چاره آرایوردی.

اسلام نیچین گلمیشدی. کندیسیندن نه ایسته‌یوردی. هانکی حقله اوندان برشی‌طلب‌ایده‌جکدی. اسلام کیمدی؟ عزت نفسینی آیاغلار آلتینا سالوب ازەن، حقوقینی الیندن آلان، قادینلغینی تحقیر ایدەن، نهایت الك چوق سەودیکی خالجالارینی اوزەرینه ایکینجی بر آروات آلماق مقصدیله ساتان، توکدیگی گوز یاشلارینه قارشو اعتناسیز بر حالدا دیشلرینی آغاردوب گولەن بر آدام ایدی. او، بو آدامله مبارزه ایدوب چارپیشماق، اونی ازمك، محو ایلەمك فکرینی داشییور، یوزینی‌بیله گورمك ایسته‌میردی. بو آدام ایسه‌اونك یانینا گلمیشدی. اونك‌قوجاغینا کیرمك‌خیالینده‌ایدی.

تللی وجدان عذابی چکیردی. آقشامك قارانلیغی چوکدیکجه اونك‌دردی، کدری آرتیر، اونی‌قایغو آلیردی

***

اسلام گولە‌گولە یاواش سسله اونا دییوردی:

– آی قیز گیج‌اولما... چوق وقت آدام یاغلی پلودن چیکرەمەر، اشتهاسی سوغان چورەك یمك چیکەر.

دیمك تللی اسلام ایچون بر «سوغان چورەك» ایدی. یاغلی پلو مثالینده بولونان ایکینجی آروادی یورەگینی وورديقدا کندیسی خاطرلاناجاق‌ایمیش؛ بو، اونی آچیقدان آچیقه بر تحقیر ایدی.

او کیجەنی تللی اسلام ایله نیجه باشا چیقاردی، بورا سینی بیلمیرز. آنجاق بوقدر بیلیرز که سحر اسلام آتینی مینوب گیتدیکدن سوکرا تللی قطعی برفکره گلمیشدی. تللی‌دوشونمیشدی که‌برداها اسلامك آروادی بولابیلمیه‌جکدر. او، حقنی طلب ایده‌جك. اوندان بوشاناجاقدی.

جمعه آقشامی اولدیغی ایچون تللی اوزی ایچون توقودیغی یون جورابی، آلدی. اوزرینه بر اون دانا یومورتا قویوب ملا خلیلك یانینا گیتدی:

ئولیلرینه یاسین اوقوداجاقدی. بو بلکه بر بهانه‌ایدی. تللی‌نك ایکینجی بر مقصدی‌واردی. اریندن بوشانماق... بونی اسلامدان طلب ایتمگه شریعتله نه‌قدر حقی اولوب اولمادیغینی اوگرەنمك...

اسلام کند ایچینده سوزی کیچن بر آدام حساب ایدیلیردی. چوق آدام اوندان‌چکینەر، اونگله‌چکیشمك ایسته‌مزدی. ملا خلیل بویله بر آدامی‌اوزیندن ایچیتمگی آرزوایتمیردی. او، بویله نفوذلی‌آداملاری هرزمان الینده ساقلاردی. بونگله‌برابر تللی‌نك‌طلاق‌طلب‌ایتمگه‌حقی‌یوقدی.

– اریکك، دیدی، اختیاری واردر که سنه طلاق‌ویرمەسین. شریعت بونی اوندان طلب ایده‌بیلمەز. بر شیئی که شریعت‌طلب ایده بیلمیر، سن‌ده ایده بیلمەزسك...

ملا خلیل تللی‌یه بر روحانی آتا کیبی‌نصیحت‌ایدیردی:

– انسان بو فانی، پوچ دنیادا ظلمه قاتداشمالیدر. بو دنیادا نه‌قدر آرتیق اذیت چکسەك آخرتده‌عوضینی آلارسك. بوتون پیغمبرلر، اماملار، اونلارك آروات اوشاقلاری بو دنیادا ظلم ایچینده یاشامیشلار، مظلوم اولمیشلاردر. سن امامالرك باجیلارینی، قیزلارینی یادیگا سال صبر ایله.. الله صبر ایده‌نلری دوست دوتار....

بو سوزلرك تللی‌یه تأثیری چوق آزدی، او، آرتیق اسلامك کندیسینه ایتدیکی ظلمه قاتداشماق ایسته‌میردی. اسلامك ایوینده اونك موقعی نه ایدی. او یالیکز بر «سوغان چورەك» مثالیندا بولونوردی. نه زمان اونك‌اشتها سی بویله «مزه» چکدیکده کندیسیندن استفاده ایدیله جکدی. حالبوکه باشقالارینه «مزه» اولماقدان قورتارماق ایسته‌یوردی.

– خایر، دیدی، آرتیق مظلوم اولماق ایسته‌میرم. بن حقمی طلب ایدیرم.

– سنك طلب ایده‌جك بر حقك یوقدر. شریعت سنه بویله براختیار ویرمەمیشدر. اگر اسلام سنی آچ، چیپلاق قویورسا اوندا شکایت ایده بیلرسك حالبوکه گرك سن اسلام کیبی برکیشینك آروادی اولماغا سەوینەسك.

***

تللی آقشام‌لامبا ایشیغیندا، اهل دگیرمانیله‌یرماچکیردی. اوگون ملا خلیل‌دن ایشیتدیگی سوزلرایله، اولجه‌معلمدن ایشیتدیگی سوزلری بر بریله دوتاشدیریردی:

ملاخلیل‌دیوردی: «سنك‌اسلامدان‌طلب ایده‌جك‌حقك‌یوقدر»

معلم دیمیشدی: «سنی آلدادیرلار...»

ملا خلیل اونا ظلمه قارشوصبر ایتمگی توصیه‌ایدیردی. معلم‌دیمیشدی که انسان ظلمه قارشو گرك عصیان‌ایتسین.

بونلارك هانکیسی حقیقت ایدی. دوغرودانمی اونك طلب ایتمگه حقی یوقدی؛ یاخود ملاخلیل اونی آلدادیردی. بورادا کیمك سوزلرینی دوغرو حساب ایتمه‌لی ایدی. بو باره‌ده او معلمك ایکنجی بر سوزینی خاطرلادی. معلم بر کره صحبت زمانیندا اونا دیمیشدی که: «دوغرو اوشیلر در که بزیم اوندا فایدامز واردر. ضرریمزه اولان‌شیلرده حقیقت یوقدر» بو صورتده ملا خلیلك فکری اوزینك ضررینه اولدیغی ایچون دوغرو اولا بیلمیه‌جکدی. عینی زماندا کندیسی ایچون دوز و دوغرو اولمایان بو فکر، اسلام ایچون بر حقیقت ایدی. چونکه بو فکر، اسلامك فایداسینا ایدی. چونکه اسلامك پلو اوستندن یوره گینی یاساجاق بر «سوغان چوره گه» احتیاجی واردی.

تللی حقیقتی تاپمیشدی. ملا خلیل اونی آلدادیردی. ملا خلیل اونی همیشه‌لگله «سوغان چوره‌ك» موقعینده ساقلایو دی. معلم ایسه‌اونی بویله بر آلچاقلقدان قورتاریردی. او، حقینی ایسته‌یه‌جك، عصیان ایده‌جك، هر کسه‌ایشتدیره جك بر سسله دییه‌جگدر.

– بن سوغان چوره‌ك اولماقدان چیقیرام.

تللی قطعی قرارینی ویرمیشدی. او، بو گوندن اعتبارا اسلامك آروادی دگیلدی. اسلام وارسین اونا طلاق ویرمه‌سین. او، اوزینی سربست حساب ایدیردی.

IV

معلم کنده وقتیندن اول قایدی. او، شهرده آنجاق بر هفته قالمیشدی. داریخیردی. اونك بویله گلیشی تللی ایچون ناگهانی اولدی. اونی دوققازك قاباغیندا آندان انه‌رکن گوردیگده اختیارسیز اولاراق تله‌سیك پیللرلری اه‌نوب قارشوسینا یوگوردی. فقط شعبان حیاطدا ایدی. اونی گوردیگده گری قایتماغا مجبور اولدی. معلم اونا باقاراق گولومسه‌یوردی.

تللی بر اوشاق کیبی سه‌وینیر، آقشامك کلمه‌سیچون تله‌سیردی. اونك معلمه سویله‌یه‌جك بر چوق سوزلری واردی. او، معلمدن نه یولدا حرکت ایتمه‌سی، قادینلارا ویریله‌ن اختیاردان نیجه استفاده ایله‌مه‌سی باره‌سنده‌سورو شاجاق، اسلام طلاق ویرمه‌دیگی حالدا تمامیله سربست اولا بیلوب بیلمه‌یه‌جگینی او گره‌نه‌جگدی... او، بو گیجه معلمه دییه‌جکدی که «سنك‌بوتون دیدیکلرك دوغرودر. بنی بو وقته کیبی آلداتمشلار. بن بوندان سوگرا سنك گوستردیگك یول ایله گیده‌جگم.»

معلمك گلمه‌سیندن خبر دوتان کندلیلر آقشام اونك گوروشینه گلدیلر. تللی اوز اوتاغیندا حالوا چالیردی. معلمی بر عزیز آدامی کیبی بو گیجه‌قوناق ایده‌جگدی. سه‌ویندیگیندن قابینا، قاجاغینا سیقمایوردی. اونك بو کنده‌ده یکانه امیدی معلم ایدی. او، بلکه برهفته اول آتاسی ایچون خبر گونده‌روب اوزینك آپاریلماسینی خاهش ایده‌ردی. فقط او، معلمدن آیریلماسینی ایسته‌میردی.

معلم، یانینا گله‌ن کندلیلری یولا سالدیقدان سوگرا قاپوسینی باغلادی. «گوره‌لیم تللی نه یاپیر» دییه دیواری یاواشجاد و گدی، باجا آچیلدی. تللی‌نك باشی اوتانمیش بر طرزده گولومسیه‌رك گورونوندی «خوش گلمیسگز» دیدی. معلم «ساق اول» دییوب النی اونا اوزاتدی. تللی نه‌یاپاجا غینی بیلمه‌دی. حس ایدیردی که معلم اونگله الدوتماق ایسته‌یور. اوتانیردی. نهایت اودا النی اوزاتدی. هرایکیسی بر–برینك النی سیقدی.

ایمدی شیرین برصحبت باشلامیشدی. سفره‌سالینمیش، تللی‌نك حاضرلادیغی حلوا معلمك قاناتدیغی چایلا ایچیلردی. تللی معلمی اوزینه اك یاقین بر آدام حساب ایدیردی.

***

گیجه یاریدان کیچمشدی. تللی بوتون یوره گینی آچوب اورتایا توکمیشدی. اوبر داها اسلامك ایوینده یاشایاجاق حالدا ده گیلدی. معلم اونك ایچون مصلحت گورووردی که آتاسی ایوینه گیتسین. اورادان لازم اولان یرینه مراجعتله حقنی اسلامدان طلب ایله‌سین. اسلامك ایوینده اوتوردیغی حالدا اونگله حقوقی ایچون جار پیشا بیلمیه‌جگدی.

تللی دیدی:

– بن بونا اینانیرام که بو وقته کیبی بنی آلداتمشلار. بوندان سوگرا سنك سوزیگدن چیقمایاجاغم...

تللی بر سوز سویلیه‌جگدی. بو، اوسویلیه‌جکی سوز ایچون بر مقدمه ایدی. فقط سویلیه بیلمه‌دی. معلم‌بونك فرقینده اولمادی. او بر کندلی، عوام قادین تبلیغاتیله باشا سالوب‌قاندیرا بلدیگینی گوردیگیندن، وظیفه‌سینی بتیرمشلره مخصوص بر وجدان راحتلگی دویوردی.

– براق، دیدی، اودنیانك جنتی ده، جهنمی ده ملاخلیل لرك اولسون. بزیم اونلارك جنتنده گوزومز اولمادیغی کیبی جهنملریندن ده قورقمیرز. بز بهشتمزی بودنیادا کیچرملك، گورمك ایسته‌یورز. عتلی آدام نقدی نسیه‌یه ده گیشمز.

تللی حس ایدیردی که معلم یول گلدیگی ایچون یورغوندر، استراحته احتیاجی واردر. اونی سربست براقمالی. اوتاغیناچکیلمه‌لی ایدی. آنجاق سویله‌مك ایسته

دیکی بر سوزی قالمیشدی: او. آتاسی ایوینه‌ده گیتمك ایسته‌میردی. دیدی:

– بر ایش وار که آتام ایوینه گیتمگه یوره گیم یوقدر. بر شی بنی بورادا ساقلایور.

– او، سنی ساقلایان «شی» نه‌در؟

تللی سوك سوزینی سویله‌دیگده بویله بر سئوال قارشو سیندا بولوناجاغینی بلکه‌ده دوشونمیشدی. ویا خود هیچ دوشونمه‌میشدی. هر حالدا بر جواب ویره بیلمه‌دی. او، بو «شی»ك نه اولدیغینی آچوب دییه بیلمیه جگدی. چونکه تللی‌نی ایمدی بو کنده باغلایوب ساقلایان «شی» معلمك اوزی ایدی. او، معلمدن آیریلابیلمیردی. معلمك سئوالنی جوابسیز براقماماق ایچون

– اوزیمده یاخشی بیلمیرم، دیدی.

سو کرا «یوقوك شیرین اوسون!» دییه‌رك باشنی اوتاغیناچکدی.

* * *

معلم ایمدی یالیکز ایدی. آقشامدان بری اوتاغیندا یانینا گاه‌ن کندلیلر بر چوق پاپروس، توتون چکدیکلریندن هوا آغیرلاشمیشدی، قاپونی آچوب دیشاری چیقدی، بایردا ایلیق بر بهار هواسی تنفس ایدیلیردی. یاقیندا کی بولاغك شیریلتسی کیجه‌نك ساکتلیگی ایچروسینده حزین بر ایکیلتی کیبی ایشیدیلیردی. آیك ایشیغینده اوتاغك یانیندا اه کیلمیش بر آغاجك یکیجه آچمیش اوفاق یاپراقلاری گورولور، کندك آرقاسیندا باشینی آق دومان بورومش بر داغ فرق ایدیلردی. کند درین بر اویقو ایچینده ایدی.

معلم اوتاغینا قایتدی. یاتمایوردی. گزینیر، دوشونوردی تللی اریندن بوشاناجاق، کندیسینك هیچ بر سوزیندن چیقما یاجاقدی. او، تللی‌یه آتاسی ایوینه گیتمه‌سینی مصلحت بیلمیشدی. فقط بر ایش واردی که بوا اونك یوره گی یوقدی. اونی بو کنده‌ده ساقلایان «بر شیئی» واردی. تللی بو «شئی»ك نه اولدیغینی آچوب سویله‌مه‌میشدی. داها دوغروسی سویله‌یه بیلمه‌میشدی. معلم بو «شیئی» بولماق ایسته‌بوردی. بونی بولماقدا، او بر او قدر چتینلگه دوشمه‌دی.

تللی‌نی بو کنده‌ده، داهادوغروسی اسلامك ایوینده ساقلایان «شی» بر «کس» ایدی. بونی تللی تعیین ایتمیردی. «اوزیمده یاخشی بیلمیرم» دییوردی. حالبوکه بونی معلم تعیین ایتمکده مشکلاته اوغرامادی. تللی بو «کس»ی سه‌ویردی. اوندان آیریلا بیلمیردی. بو سه‌ویلن «کسی» کیم اولاجاقدی. معلم اوزی دگیلمی ایدی. تللی اونا «کندیسینی سه‌ودیگینی» بیلدر گدنمی، یاخود بیلمیه‌رکدنمی باشقا بر دیل ایله، قلبنك لسانیله دیمیشدی. تللی آنجاق اونك خاطری ایچون بو ایودن قیراغا چیقماق ایسته‌میردی.

معلم ایمدی باشقا بر شی دوشونوردی، او، شهرده ایکن باجیسینك کندیسینه سویله‌دیگلرینی خاطرلایوردی. باجیسی اونا ایولنمك تکلیف ایتمیشدی. اوزی‌ده حس ایدیردیکه ایولنمه‌سی لازمدر. باجیسی اونا ایکی قیز نشان ویرمیشدی. او، بو قیزلارك ایکیسنی‌ده تللی ایله مقایسه ایدیردی. هر خصوصدا تللی او قیزلاردان آرتیق و مزیتلی ایدی. تللی‌نك بر قادین اولماق حسبیله اکسیکی، نقصانی نه ایدی. اونك یالیکز بر فصوری واردی: عوام، و سوادسیز ایدی. بو، بر معلم ایچون هیچ بر شی ایدی. اونك صنعتی اوقوتماق، او گره‌تمك دگیلمی ایدی؟ خدا چوجوقلارا سواد، بیلیك او گره‌ده بیلدیگی حالدا تللی‌یه او گره‌ده بیلمزمی ایدی...

معلمك فکرینی باشقا بر شی مشغول ایتمگه باشلادی. او، تللی‌نی سه‌وه بیلیرمی؟ بو مهم بر مسئله ایدی. ایمدی او خاطرلایوردی که شهرده نیچین داریخدی.

بورا که اوزینك دوغما یوردی ایدی. بر چوق تانیشلاری، بیلیشلری واردی. بونلارك مصاحبتی اونی اگلندیرمه‌دی. کنده قایتماغا تله‌سدی. اونی کنده چیکه‌ن نه ایدی. اونی بو کنده‌ده نه اگلندیریردی. بو خصوصی تحلیل ایتدیگده اونك فکری بر نقطه‌نك اوزه‌رینده دایانمیشدی: اونی شوق و هوسله کنده چیکه‌ن آنجاق تللی‌نك خاطره‌سی ایدی. او تللی‌نی سه‌وه بیله‌جگدی. بلکه اوزی فرقنه وارمادان اونی سه‌ویردی. بویوك بر حرمت حسیله سه‌ویردی. تللی گنج بر قادین ایدی. قیشك اوزون گیجه‌لرینی بر اوتاغك ایچینده اولدیغی کیبی برابر یاشامیش، یاتمیشلاردی. آرالارینداکی حائل ایچینده کی سامان قدر اهمیتسز بر چووال بولونوردی. اگر اوزینك یرینده باشقا بر ارکك بولونسایدی، تللی‌یه قارشو علاقه‌سی نه یولدا اولاردی؟ ویاخود تللی‌نك عوضنده باشقا بر قادین اولسایدی، اوزی بو اوچ آیدا نه ایده بیلمزدی؟ هر شی اونك ایچون ممکن ایدی. بو وقته‌دك اونك قارشوسینی آلان، حتا باشقا فکرلره دوشمه‌سینه یول ویرمه‌ین آنجاق تللی‌یه قارشو بسله‌دیگی حرمتی، صمیمی بر محبتی ایدی. بر زماندا کی تللی اونی سه‌ویر، ارینمدن بوشانیر بو حالدا، اوزینك محبتنی اونا بیلدیرمك مناسب اولمازمی ایدی.

یاتاغین سه‌ردی. باجا هله قاپانمامیشدی. تللی‌نك یاتدیغی تنفسندن معلوم اولوردی. معلم باجانك قارشوسیندا یره اوتوردی. اونك نفس آلدیقجا قالقوب انه‌ن سینه‌سینه باقیردی. سول بیلگینی گوزلرینك اوزرینه قویمیش، کوینه گی

چیرمانوب بوتون قولی آچیق قالمیشدی. اوز اوتاغیندا یانان لامپانك خفیف ضیاسی باجادان کیچه‌یرك تللی‌نك باشینی، سینه‌سینی قارانلیقدا فرق ایدیله‌جك بر حاله قویمیشدی. معلم بر هوسله اونا تماشا ایدیردی. بو حالدا تللی یانی اوسته چه‌وریلدی. آچق قولینی ایلری اوزاتدی. الی، قولینك بر حصه‌سی تمامیله معلمك اوتاغینا اوزاندی. بو ال تللی‌نك قلبی قدر لکه‌سیز و تمیز ایدی. معلم یاواشجه اونی الینه آلدی. بارماقلارینك آراسیندا ئه‌ویروب چه‌ویریردی. بو ان شهرده، نازو نعمت ایچروسینده پرورش تاپمیش اوز ایشینی باشقالارینا گوردیره‌ن بر خانم الی دگیل، زحمت سه‌ون بر کندلی قادینیك الی ایدی. بیردن اونك حسیاتی غلیانه گلدی. تللی‌نك تمامیله اداره‌سی اوز الینده بولونان الینی یوره گینك اوزه‌رینه قویدی.

تللی هله اویانمامیشدی.

V

ملاخلیل لامپانی یاندیروب اوتاغك کوچه‌یه باقان پنجره‌سینه قویدی. بو، بر اشارت ایدی. هر زمان ملاخلیلك اوتاغیندن ایشیق گلدیگده کندلیلر اورانك آچیق اولدیغنی بیلر، صحبته توپلانارلر. ملاخلیل بو کیجه ساماوارادا اودسالدیروب اوتاغك اورتاسیناقویمیشدی. او، چوق تشویشده ایدی. معلم اونك دهشتلی بر رقیبی ایدی. اوزینك دیدیگی کیبی ایکیسی بریرده یولا گیده بیلمیه‌جگلردی. ایکیسیندن بریسی بو کندن گیتمه‌لی ایدی. بونگله برابر قاباقدا اوروجلق آیی واردی. خیر و برکت احسان آیی گلیردی. ملا خلیلك بوتون حیات و سعادتی بو آیه باغلی ایدی. او، معلمك کنده احسان ویرمك، ئولیاره قرآن اوقوتماق علیهنه تبلیغات آپارماسیندان قورقوردی. هر ییل بو وقتلر، اوروجلغه بر آی قالمیش او، الی آزی 30ـ35 قرآن سفارش آلاردی. ایمدی شمبانك اونی ایدی، بو وقته‌دك کندلیلردن هله کیمسه قرآن اوقوتماق ایچون قاپوسینا گلمه‌میشدی. یالیکز حاجی مناف بر قوزو گوندروب آناسی، آناسی و اوغلی ایچون بر قرآن اوقوماسینی خواهش ایتمیشدی. حالبوکه حاجی مناف هر ییل اوچ قویون گوندره‌ر، اوچ قرآن ختم ایتدیره‌ردی، ایمدی ایسه گوندردیگی یالیکز برقوزوایدی. ملاخلیلك «نه اوچ ئولی یه‌برقرآن» سئوالنه حاجی مناف «اگر اوقونان قرآنك ئولی ایچون بر فایداسی وارسه بریسی‌ده بندر. یوقسا بر قرآن ایله‌بش‌ویاخود اون قرآنك فرقی نه‌در» دیمیشدی. طبیعی بو، حاجی منافك سوزی دگیلدی. احتمال بو باره‌ده کند قولوبندا، معلمك اوتاغیندا صحبتلر اولوردی. ملاخلیل دوشونوردی، اگر هر اوچ، بش قرآن او‌ـ قودان حاجی مناف کیبی یاغلی مشتریلر قرآنلارك ساینی اختصاره سالسالار، اوندا مداخلی‌بره اوچ، دورت کره آزالاجاقدی. البته بونا ساووق قانلیلیقله باقماق اولمازدی. معلم ایسته‌دیگنی یاپیر، کنده کیچیریردی. مشهدی ایوبك ترکه‌سیندن ثلث آیرماغا، احسان ویرمگه مانع اولدی. حالبوکه ترکه سیاهه‌یه آلنوب حساب ایدیلمیش برجوت اوکوزی ایله بش باش کیچی‌سی ثلثه‌چیقیلمیشدی. ورثه‌لرك‌ده بر سوزی یوقدی. خاجی مناف اوکوزلر ایله کچیلره مشتری ایدی.

قیمت کسیلمش، مالالا صاحب اولمیشدی. یالیکز مشهدی ایوبك عیالی آغلایوب جزع، فزع ایدیردی. ذاتاً هانسی ترکه‌نك تقسیمینده آروات - اوشاق آغلاشماسی اولمامیشدر. بومعامله‌دن ملاخلیلك الی آزی 80 ـ 90 منات فایداسی واردی. فقط نتیجه‌ده نه اولدی؟ معلم ایشه قاریشدی. بوتون ایشلری آلت اوست ایله‌دی. هله بر صحبت‌ده واردر که معلم قیشلاقك کوچه‌سینی گوزله‌یور، بوتون کند جماعتینه ئولیاره احسان ویرمك علیهنه بر قرار چیقارتماق ایسته‌یور. اگر بو ایشی باش دوتارسا اوزینك ئولدیگی گوندی. اوندا ملاخلیل نه‌یاپمالی ایدی. گرك عادی بر رنجبر کیبی خیشك دسته‌سیندن یاپشسین، اکینچیلگه باشلاسین.

ملاخلیل اوزینی تهمت‌لندیریردی. بو حاللاریك هاموسینا اوزی سبب اولمیشدی. اگر قیش گیجه‌لرینده بر لامپالیق نفته، بر سوبالیق اودونا قیزیرقانمایوب اوتاغینی هر آقشام آچیق بولوندورسایدی، کند جماعتی باشیندان داغیلماز یاجاقدی. او، اوز الیله خلقی قولوبه، معلمك اوتاغینا گوندرمیشدی. ساکت اوتورماق وقتی ده گیلدی. باشیندان داغیلان مریدلرینی اوز طرفینه چیکمه‌لی ایدی.

آقشامدان‌بیر قدر کیچمیشدی. گیت ـ گیده ساماوارك قاپناری آزالیردی. فقط هله کیمسه گورونمه‌میشدی. ملاخلیل بالقونا چیقدی. اوزون لابیاداسینك اتکلرینی یللندیره ـ یللندیره او باش ـ بو باشا گه‌زینیر، قالین بر قارانلیغه بورونن کنده باقیردی. کند قولوبی نظرینی جلب ایتدی. قارشوسیندا قوتلی بر غاز فاناری آسیلمیشدی. بو فانارك ایشیغی قارانلغی یرتوب داغیدیر، اونا یاقین ایولردن قوالیوردی. قولوبك اطرافینده آداملار گورونوردی. سوکرا یوزینی کندیك جنوبینده کی مسجده طرف چه‌ویردی. کندك اوفاق و آلچاق ایولری آراسیندا مسجد اوزینك بویو کلگی ایله سه‌چیلیر، نظره چارپیردی. فقط بوغوجی بر قارانلیق ایچینده ایدی. ملاخلیلی درین بردوشونجه آلدی.

بر زمانلار بو مسجدده نه شنلگلر یوقدی. بوتون کند روحانی فیضی بورادان آلیردی.

ایمدی ایسه کند خلقی یوزینی بورادان باشقا بر طرفه چه‌ویرمیشدر. یارین اوروجلقدا بورا آچیلسا د. شنسه، موعظه باشلانساخلقی او غاز فانارلی‌قولوبدان اوزاقلاشدیرا بیله‌جکمی ایدی. ملاخلیل ایمدی معلمك اوچ – دورت آی اول کندیسینه سویله‌دیگی بر سوزی خاطرلادی: «سن خلقی مسجده، بن ایسه قولوبه چکیرم» او، بو سوزی چوق دوغرو دیمیشدی. معلم خلقی قولوبه طرف چکمیشدی ایمدی ملاخلیلك گوره‌جکی ایشی، بو خلقی مسجده طرف چکمکدی. سوگرا معلم اونا بر سوزده سویله‌میشدی: مبارزه‌مز اولاجاق، ایکیمزدن بریمز محو اولمالی‌یز» ملاخلیل معلمك بو سوزینه بر او قدر اهمیت ویرمه‌میشدی. ایشی صلح ایله، مدارا ایله حل ایتمك ایسته‌میشدی. ایمدی ایسه آچیقدان آچیقه اوزینك محو اولاجاغنی گورووردی. اگر گیت گیده قولوب پارلارسا، خلقی اوزینه جلب ایده‌رسه مسجد اوزینك اهمیتنی ایتیردی دیمکدر. مسجدك سقوطی اوزینك سقوطی ایدی. چونکه ملا خلیل آنجاق مسجدك سایه‌سینده یاشایوردی.

ملاخلیلی دهشت بوردی. او محو اولوردی. اوتاغینا قایتدی. ساماوار تامیله سونمیش، کوسکون بر حالدا کندیسینه باقیردی. ملا خلیل بو وضعیتك ایچندن چقماغا چاره آرایوردی. فقط چیقاجاق بر یول تاپامیشدی. اوتاغینی آچماق بر نتیجه ویرمه‌میشدی. بونا باقمیاراق او تامیله امیدسیز ده گیلدی. بو حالدا اللرینی چوقاسینك قوللری ایچروسینه کیچرمیش بر وضعیتده شریف گوروندی. بو، ملا خلیلك عموسی اوغلی ایدی. اوندان، نره‌دن گلدیگنی سوردی. قولوبدان گلیردی. اورادا یاخشی صحبتلر وارمیتر. معلم اونلارا تاریخدن دانیشیرمیش، گویا آمریقا آدیندا بر مملکت وارمیش. اورا‌دا بر پوت بوغدا ا کوب عوضینده ایکی یوز پوت حاصل آلیرلارمش. بزیم یوز پوت حاصل آلا بیلدیگمز بر یردن اونلار ایکی بیك پوت قارغیدالی الده ایدیرمیشلر. گویا یودا علم و بیلیك واسطه‌سیله اولورمیش.

ملا خلیل سوردی

– سن بونا اینانیرسك؟

– نیچین اینانمایم.

– بر پوت بوغدا ایکی یوز پوت حاصل ویره‌رمی

– نیه ویرمیر؟

بردن شریفك خاطرینه بر شی گلدی. علاوه ایتدی:

– نه‌دن بر صلواته آخرتده آداما ایکی یوز حوری ویریرلر. اگر سزك دیدیگلریگز دوغرو ایسه اودا دوغرودر.

ملا خلیل عصبی‌لشدی. شریف که هر زمان اونك مطیع و اطاعتکار بر مریدی ایدی، بوتون بابر ایشلرینی اونا گوردیره‌ردی. او، هر زمان ملا خلیلك نوکری اولماقلا فخر ایده‌ردی. ایمدی اوزینه نیجه جواب‌ویریردی. ایسته‌دی که اونی سوگوب اوتاغیندان قوولاسین. فقط آجیغینی یه‌دی. سوگرا بوندان‌دا بر ایش چیقاردی. شریف‌ده گیندی. او، ایمدی تك قالمیشدی.

***

اوگونك صباحی ملا خلیل اوز اوزینه دییوردی: «دنیامالی اویله بر شیدر که اونگله دنیانی‌ده، آخرتی‌ده آلماق اولار». بو فکر اونك باشینا آنجاق بو گون، سحر نمازی اوستنده گلمیشدی. « معلمه بر شی بویون اولارام، بنم مداخلیمه توقونماز، بلکه اوز فایداسی اولدیغی ایچون بر قدر آرتماسینادا چالیشار»

ملا خلیل اوزینك بو یکی فکرینی بگه‌نیردی. معلمله چکیشمکدن بر شی چیقمایاجاقدی. اونك کند ایچینده طرفدارلاری چوقدی. خوشلق و مهربانلیق ایله گورولن بو ایشك موفقیتی داهادا آرتیق اولاردی. او، آقشامك گلمه‌سینی، قارانلغك چوکمه‌سینی گوزله‌یوردی. خلوتده معلمك اوتاغینا گیده‌جك، اونی اوزیندن « راضی » سالماغا چالیشاجاقدی. بر «اتفاق» دوزمله‌جگلر، لازم گلسه بوتون اوروجلق مداخلینك اوچده بر حصه‌سینی بو اتفاقك عمله گلمه‌سیچون فدا ایده‌جگدی.

ملا خلیل گیجه یاریسی، بوتون کند خلقینك اویقودا اولدیغینا، معلمك یالیگز بولوندیغینا امین اولاراق بایرا چیقدی. معلمك قاپوسینا گلدی. قولاغینی قاپویا سوکه‌یوب دیگله‌مکه باشلادی. او هله قاپونی دوگمیردی. ایچریدن بر سس ایشیدیردی. بو سس ملا خلیلی هور کوتمه‌دی. چونکه معلمك اوتاغیندان گلن سس، قادین سسی ایدی. قاپونك اوته‌سینی، بروسینی یوقلاماغا باشلادی . او بر ده‌لیك آقتاریردی که ایچریده کی قادینك کیم اولدیغینی تانیسین. فقط قاپودا بویله بر ده‌لیك یوقدی. ملا خلیل سه‌وینیردی. مقصدینه تامیله موفق اولاجاغینا آرقاین ایدی. او، معلمی یاقشی یرده دوتمیشدی.

***

معلم، هر آقشام قولوبدان قایتدیقدان سوگرا قاپوسینی ایچریدن باغلار، تللی‌نك اوتاغینا اولان باجائی آچاردی.

تللیه سواد اوگره‌دیر ایدی. ایمدی بر آی اولوردی که بویله درس اوقوتماق دوام ایدوب گیدیردی.

بردن قاپونك یاواشجادان دوگولدیگی ایشیدیلدی. تللی تیز قالقوب اوز اوتاغینا چکیلدی. معلم باجانی قاپادیقدار سوگرا قاپویی آچدی. اونی حیرت آلدی او، ملا خلیلی گورمیشدی. کندیسیندن نه ایسته‌یه‌جگدی.

– ملا عمی، دیدی، بنه نسبت قوللوغیگز.

– بنه ملا عمی دیمه، یولداش، رفیق دی. بر بریمز ایله یولداش، مسلکداش اولاق!

هر حالدا ملانك بر مطلبی واردی. بویله لزومسیز سوزلر اونك بر مقدمه‌سی ایدی. معلم دیدی

– سوزیگزی سویله‌یگز.

ملا خلیل اوتاغا گیرمك ایسته‌یوردی. اولا ایچریده کی قادینی گوروب تانیمالی ایدی. بر زماندا که او معلمه «اتفاق» تکلیف ایده‌جگدی. «شرکت» دوزه‌لده‌جگلردی، معلمه بر چوق مادی منفعت ویره‌جگدی، نیه اونك یانینا گلن قادیندان اوزی استفاده ایتمه‌یه ایدی. اونگله برابر بویله‌مهم‌برمسئله‌نی کوچه‌نك‌اورتاسیندا دانیشماق‌اولمیاجاقدی.

– بورادا، دیدی، آیاق اوسته دانیشماق اولماز؛ ایچری بویوریگز، سزیگله مهم بر ایشم وار.

ایچری گیردیلر، ملا خلیل اوتاغیك هر طرفینی گوزیله آراشدیردی. ایمدیجه سسینی ایشیتدیگی قادیندان هیچ بر اثر یوقدی. معلم بونی نرده گیزله‌میشدی. هر حالدا بو سوگرا کی ایشدی. مطلبنی آچدی:

– بن کوروروم که سن ناموسلی، کاسب بر اوغلانسك، بو کنده پول قازانماغا گلمیسك. ایسته‌یورم سزیگله بر آلیش ویریش ایدیم.

– باغشلایگز، اولا بن بو کنده پول قازانماق ایچون ده گیل، خلقه بر خدمت ایچون گلمیشم. ایکنجی بنم هیچ بر آلیش ویریشله ایشم یوقدر.

– سیز بنی یاخشی باشا دوشمه‌دیگز. بنم مطلبم تمامیله اوزگه‌در. دیه ملا خلیل باشلادی. بوتون فکرینی آچوب سویله‌دی. اونك سوزلرینه گوره بو کند جماعتی قویون کیبی بر میخلوقدر، هانسی طرفه سورسه‌ك گیده‌ر. معلمك کند ایچینده حرمتی واردر، او ایسته‌میر که بو حرمت آزالسین. بلکه هر زمان داهادا آرتماسینا چالیشمیشدر. اوزینك‌ده نفوذی کنده چوقدر. او ایسته‌سه بر هفته‌نك عرضینده مکتبی‌ده، قولوبی‌ده قاپادار، معلمی‌ده کنده‌دن قووللندیرار. بونا باقمیاراق او بویله بر فکرده اولمامیشدر. او، اوز نفوذیله معلمك حرمتی بر یره قاریشدیروب محکم بر «اتفاق» دوزلتمك ایسته‌یور. بو «اتفاق» هر ایکیسینه بویك منفعتلر ویره‌جگمیش.

– سن، دییوردی، هیچ بر ایش گورمیه‌جگسك. یالیگز کند ایچینده احسان ویرمك، قرآن اوقوتماق علیهنه بر سوز سویله‌مه. زحمتك چوغنی بنه دوشه‌جگدر. سوگرا اوزك کوره‌جگسك که آز زمانك ایچینده بویوك بر ثروته یتیشدیك. قویون، قوزو، بوغدا، دمری ایله یاغ، موتال ایله پندیر، هر شیی اوز آیاغیله سنك قاپوگدا حاضر اولدی. بونلاری سن بندن آلاجاقسك. بن اوز گلیریمی آتامالی کیبی سنگله بوله‌رم.

معلمی کولمك دوتمیشدی. فکرینه گلیردی که بو آدام سارساقلامیشدر. برسوز دییه‌جگدی. ملاخلیل‌علاوه‌ایتدی:

– البته، سن بنم بو کوزمل فکریمه بر سوز دیمیه‌جگسك. ایمدی‌سویله کوروم‌بندن‌نه‌قدرحصه آلماق‌ایسته‌یورسك

– یاخشی فکر ایتمیشسگز. آنجاق بر شی وار که بزیم «اتفاقمز» باش دوتمیاجاقدر.

– نیچین؟

ملا خلیل بو «نیچین؟»ی دهشتله قاریشیق بویوك بر حیرتله دیمیشدی.

معلم – چونکه بن یدیگیم چوره کپی آلتمك تریله الیمك امگیله الده ایتمك ایسته‌یورم. سیز ایسه خلقی آلداتماق‌واسطه‌سیله‌قازانماق‌ایسته‌یورسگز! بن‌سزه بر کره ده دیمیشدیم که بزیم یوللاریمز باشقا – باشقادر.

ملا خلیل اوز تکلیفنك بو صورتله رد ایدیله‌جگنی هیچ تصور ایتمه‌میشدی. چیقیماز برموقعده‌بولونوردی. دیدی:

– دیمك، بنم تکلیفمی رد ایدیرسگز، اویله‌می؟

– ئه‌ودت!

– بن سزیگله رفتار ایتمك ایسته‌یوردیم. ایمدی که بویله اولدی، اوندا داها بندن گورمه!

– باجاردیغگی اسیر که‌مه!

ملاخلیل آیاغا قالقدی. قاپینی چیرپاراق دیشاری چیقدی.

(بیتمه‌دی)

سکینه

(کیچن نومرودان مابعد)

آراسته شدتلی باش آغریسی ایله یوقودان آییلدی. بوتون بدنینده آغری حس‌ایدیردی. بوحالدا باشینا گه‌لمش احوالاتی درك ایده‌مه‌دی؛ آنجاق اونگله یاناشا اوزانمش قوجانمش خورولتوسی‌اونی‌حقیقت عالمنه قایتاردی. چیرکین و ناهموار ئه‌ری اونگله برابر یاتاقدا اوزانمشدی. آراسته یئرینده حرکتسیز قالوب‌ئه‌رینی‌یوقودان آییلتماغاچالشیردی.

قلبنی سیقان، ده‌رین نفرتی جوشه گتیره‌ن بو هیولایه نفرتله تماشا ایدوبده بو آن‌ده تام معنی‌سیله بونك اسیری و بنده‌سی اولدیغنی دوشوندیکجه قلبی سیقیلوب بایلاجاق درجه‌سینه گه‌لیردی.

آراسته یاناـیاقیلا آغلیوردی؛ لاکن‌سس‌سیز، هوکورتمه سز آغلیوردی؛ اه‌ری‌ایشیتمه‌سین؛ اونك‌راحتی‌بوزولماسین..

شرق قادینی‌نیگدا اعتراض حقی وارمی؟.. شرق قادینی مطیع اولمالیدر؛ اونك ئه‌ری نه‌قدر ظالم، نالایق و کوبود اولورسادا قادین گوزلرینی یئره دیکوب‌تمامیله اطاعتلی و محکوم اولمالیدر... ایشته، شرق قادینینك طالعی‌ده بوندان عبارتدر.

قارا بوغدایی انداملی آراسته بو قوجا کافتارك آروادی اولدی. اوزی محبت و عشق سوداسینی دادمامشدان بو کافتارك منفور و موردار احتراصینه هدف اولدی.

***

آراسته‌نك آل یاناقلاری سارالدی؛ کسکین باقیشلی گوزلری غم ومأیوسلق پرده‌سیله‌اورتیلوب خزان‌یاپراقلاری کبی سولدی. او ئه‌رینده‌ن‌قورقوردی؛ گوندوزلری‌ساکت وصامت‌اولان‌قوجاکافتار گیجه‌لری صبحه کیمی‌اونی اینجیدوب راحت‌سز ایدیردی. قوجا أیودن چیقان زمانلاردا آراسته مأیوس باشینی‌دیزلری‌اوستنه‌قویوب ایچین‌ـایچین آغلیوردی. مختلف فکرلر اونك باشندا دولاشیرلاردی. آراسته بوتون گونی صبحدن آخشاما کبی چالشیر؛ هیچ وقت اونك یوزی گولمه‌ز...

خلوتلرده غملی‌سسله یورمك‌ده کی ده‌ردینی داغیدان ماهنولار اوقویار... آرا بیر اونی بوتون دنیادن آیری سالان قالین چادراسینی‌قالدیروب‌باشقالارینك آزاد ومسرور یاشایشلارینا تماشا ایده‌ر و حسرت آپارار...

آزاده حیات سورمك آرزوسی آرا بیر اونك دا قلبنه سه‌زیردی. لاکن بو آزاده حیاته نه جور و نه یول‌ایله نائل‌اولابیله‌جگنی هیچ کس اوناوگره‌تمیوردی...

سکینه‌نك قزی آراسته‌نك ده حیاتی آناسینك‌حیاتی کیمی دوام ایده‌جك ایدی. اوقارا بولودلار بونك‌دا باشی اوزه رینده گه‌زیشیرلردی....لاکن‌نیجه‌اولدیسه ایش‌ده گیشدی.. سانکه کنده بویوك بر ناگهانی ایش واقع اولدی. کند تازه بر روح ایله روحلاندی. بوکنده تازه برجنبش، یگی بر حیات پیلدیزی پارلادی. آراسته بو ده گشیك لیکلری حس ایدیردی.

او، کند قادینلارینك نقل‌لرینی، تازه صحبتلرینی آرتیق مراقلا دیکله‌یردی. آراسته بوتازه سوزلری، تازه‌خبرلری ایشیتمه گه داها آرتیق جان آتیردی.

بوحالدا آراسته‌نك أمری‌غملی، متغیرحال کسب‌ایتمیشدی.

آراسته‌نك بوتون‌ویردیگی‌سوال‌لاری جوابسیزقالیردی.

بو آخرلاردابربارا یاد آداملار کندی تیز-تیز زیارت ایدیردیلر. گه‌له‌نلرك آراسیندا روسلاروتور کلرده‌اولوردیلار. کندا‌هالیسنی تیز - تیز اجلاسلارا، یغینجاقلارادا چاغریر دیلار. گه‌له‌نلرك آراسیندا کی قرمزی یایلیقلی قادینلاردا کندك قادینلارینی آیریجااجلاسلاراچاغیروب ندنسه صحبتلر ایدیردیلر.

آراسته‌نك أمری اونا قاباقجادان تاپشرمشدی که:«اوبو یغنجاقلارا گیده‌رسه قابیرغالارینی سینمش گوره‌جگدر!.»

یوره گنده بویوك حزن و کده‌ری اولان آراسته‌ایوك دامینا چیقوب آروادلار یغنجاغینا گیدن کندلی قادینلارا حسرتله تماشا ایدیردی.

کندلی قادینلار اوزون چادرالارینا بورونوب همان قرمزی یایلیقلی قادینك یانینا تله‌سیرلردی. بونلاری گوره‌ن آراسته، بردنبره أمرینك هده‌سینی اونودوب قورقا ـ قورقا همان کندلی قادینلار دسته‌سینه یاناشدی.

***

آروادلار اوتاغا دولاندان سوکرا قرمیزی یایلیقلی رواد سوزه باشلادی.

آراسته‌دن اوتری تازه و عمرینده بیله ایشیتمه‌دیگی سوزلردن دانشیلردی. بو سوزلر آراسته‌یه چوق خوش ایدی. اونك یاناقلاری چارشاف آلتیندا قیزاروب، یوره گینده کی غم و ألمی‌ده بر درجه داغیلیردی.

آراسته ایشیتدی که اونك بوگونکی اسیر، مظلوم یاشایشندان باشقادا بر حیاتواردر. اسیر و کوله حیاتی یوق، آزاد و مسرور حیات واردر. اوحیات قانونلارینداً

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0262

بڭه نمه ديڭك؛ سه ومه ديڭك بر آدام ايله ياشاماغا هيچ كسى مجبور ايتمه يورلر؛ يوزيڭى چارشافلار آلتيندا گيزله تمه- گه لزوم گورولمه يور؛ آروادلاردا كشيلر كيبى آزاد، و يوزلرى آچيق اولاراق هر كسله هم حقوق بر انسان كيبى ياشاماغا قادردرلر. قادينلا باشقالارى كيبى بر انسان اولوب اونيڭدا حقوقى واردر.

ايلك دفعه آراسته بوسوزلردن وحشت ايديردى؛ او، حتى بوسوزلرڭ حقيقى بر انسان سسى اولديغينا بيله اينان- ميوردى؛ لاكن گيت گيده گيده تورقوسى گيتدى، يوره گى ساكتلشدى: احوالى آيدينلاشدى.

***

«محو اولسون قادينى اسير ايدەن قانونلار، قادينلا حياتدا هم حقوق برانساندر، او هيچ وقت كشيه اسير و تابع اولمامالىدر، قوى بتون حقسيزلر، مظلوملار بورايا گه لسونلر، بورادا! اونلارا چالشماق، زحمت چيكمك او گره ده رلر!...»

آراسته فكرينى شاشمشدى. قارشوسيندا دورمش شه ن و مسرور قرمزى يايليقلى قادين آراسته نڭ قلبنڭ الده رين يرلرينده گيزله نميش آرزو و مقصدلرينى ذكر ايديردى.

بوسوزلرى ايشيتميش آراسته بو دفعه أيوه قايتديقدا سانكه بوسبتون ده گيشمش در.. او، داها ئەرى طرفدن دوگولميه جگينه امين در. او، ندنسه بو گوندن سوگرا اوزينڭ كومگلى، و آرقالى بر انسان اولديغنى حس ايده رك أيونه قايديردى.

***

أمرى آراسته يه برسوز بيله ديمه مشدى. لاكن گيجه ياريسى آيبلوب بو بهانه ايله اونى سوگمگه باشلادى: «بنيم دينشله ريم آغرييور، سن ايسه ويجيگه آلمايوب يورادا ياتيرسانڭ؛ تنبل له شميسڭ، گونى صباح سنى قووالارام، باشقاسينى آلارام!.»

بو سوزلردن سوگرا بر نيچه كلمه ده سوگوشلر ايشيديلديسه ده لاكن داها آغاج ايله كوته گلنمه اولمادى.

ايشته همين بو وقعه آراسته يه ثبوت ايتدى كه يغنجاقدا سويله نيلمش سوزلر فائده سز ده گلمش؛ اوسوزلرڭ نتيجه سى در كه بو گيجه دوگولمگسزين كيچدى.

***

كندڭ بعض قارانليق عنصرلرى گيجه لر آراسته نڭ أمرينڭ يانينا يغشيرديلار چوق اوزون و گيزلى صحبتلريده دوام ايديردى.

آراسته قاپو داليسيندان قولاق آسوب بوتون بونلارڭ همان شهره گه لمش تبليغاتچيلاردان سوڭ درجه ناراضى قالمش دوشونوردى.

آراسته بونلارڭ تازه حياته دشمن و يگى قانونلارڭ عليهنه اولان عنصرلردن عبارت اولديقلارينى حس ايديردى. لاكن شهردن گلمشلرڭ ده حقيقى صورتده بونا آزادليق و يگى حيات وبره بيله جگلرينه امين ايدى.

***

آراسته يغنجاقلارا گيتمگه عادت ايتمشدى. بو ياووق گونلرده بو كنده تازه شوراسه چيله جك خبرينى ده آراسته ايره ليدن ايشيتمشدى. بوندان سوگرا كندلرده كى حاكملر عوضنده بوسه چيلميش شورالارڭ، يگى قانون اوزره ترتيب ويريلميش اداره نڭ حكومت سوره جگنى ده آراسته دوشونميشدى.

بودر، سه چگى گونيده چاتمش.

آراسته آرتيق هيجان ايچينده قاپولارينا دوروب سه چگيه گيتميش ئەرينى گوزليوردى. آخردا كوچه ايله گيده ن بر دسته كشيلرڭ صحبتى سه چگيلرڭ بيتمش اولديغنى گوسته ردى. كشيلر بيرى بيرلرينى تبريك ايديرله ردى. هپسى شاد ايدى. آنجاق آراسته نڭ ئەرى بونلارڭ آراسيندا يوق ايدى. او، ملول و پشيمان بر حالدا، قاش قاباقلى اولاراق خلوت كوچه ايله گه ليردى. آراسته دوگوب پژينده قالدى. ناگهان ئەرينڭ آغزيندان چيقميش بوسوزلرى ايشيتدى:

ـ عيبى يوقدر، ايتڭ برى ايت؛ آز زمان كيچمه ز كه بيز اوزيمزى گوسته ريك. «بيز فعاله لر» ديمه گيگزى-يزڭ بورنيگزدان توكه ريك!.. سيز فعاله لرڭ قانينى ايچيرسيگز! بوتون بيزيم باشيمزا گه تيرمش اولديگز بلا و مصيبتلرڭ ع ضنده جزا گزه چاتارسيگز!...»

بوسوزلرڭ معنى سى نه اولديغنى آراسته اوساعت دوشوندى؛ و هاياتڭ اوبرى قاپوسيندان چيخوب، دورمادان اورايا، سه چگى مجلسينه طرف يوللاندى.

***

سه چگى اولان منزلدن ايچه رى گيره ن كيمى آراسته قرمزى يايليقلى قادينڭ آياقلارينا سه ريلدى

ـ آماندر، باشيگدا دونوم، يولداش؟..

ديه رك بوتون باشينا گه لمش بلا و مصيبتلرى گوزلرى ياشلى، هيچقريقلار ايچينده نقل ايتدى.

آراسته نڭ حياتنده بو ايش بويوك بر ده گشيكليگه سبب اولدى.

بو گوندن سوگرا آراسته تماميله باشقا بر حسياته قاپيلمشدى. بوتون كيچميشلرينه بر انتها قويولمش اولديغنى اودوشونوردى.

***

آراسته باشى قرمزى يايليقلى يولداش ايله شهره گيتدى. بو حالدا او اوزكندينده، دوغولوب، نشو نما بولمش

ایوندن آیریلماغینا هیچده تأسف ایتمه‌یردی. اوبیلیردی که یئده بورایا قایداجاقدر. وقایدار کن شهرده اخذایتدیگی علم و بیلیگلرینی باشقا باجیلارینادا اوگره‌ده‌جگنی ایره‌لیدن یقین ایتمیشدی.

***

شهر 1 مای بایرامی قامپانیاسی کیچیریردی. کوچه‌لرده بویوك دسته‌لر گه‌زیشیرلردی. موسیقی چالنیر، آل بایراقلارا وجالمشلار. آوتوموبیل‌له‌ره بینمش اوشاقلار شهر کوچه‌لرینی سیرایدیر دیلر. شاد و خوشبخت چوجوقلار «اورا» قشقیریردیلار.

هواده انسانی مست ایدیجی شیرین و ملیح بهارقوقوسی حس ایدیلیردی. سانکه بوآنده بر نفرده اولسون غملی و مأیوس بر انسان گورونمه‌یوردی...

آراسته‌نك‌ده یوره‌گی سه‌وینجله‌له دولدی. ار دا قرمزی یایلیقلی یولداشیله برابر قادینلار دسته‌سینه یاناشدی. نمایش حرکت ایدیردی. قادینلار دسته‌سی‌ده نطق ایراد ایدیلن خطابت کرسیسینه یاقلاشدی. بورادا بر نیچه ناطقلر دوروب نوبه ایله دسته‌لری تبریك ایدیردیلر.

بودر، خطابت کرسیسینه باشی قرمزی یایلیقلی برقادین‌دا چیقه‌میش؛ و متاثلی برسسله «یاشاسین قادینلارك حقوقیجه برابرلیگی و یاشاسین 1 مای بایرامی؟..» ندالریله دسته لری تبریك ایدیر..

بو تبریکلره قارشو هامودان آرتیق آراسته‌نك «اورا» سسی ایشدیلیردی

***

بر نیچه ئیل کیچمشدی. آراسته بر آرابادا. اوز دوغما کندینه یاووقلاشیردی. بو زمان آراسته قادینلار نماینده‌سی ایدی؛ و بوگون اوزینه الك برنجی وظیفه حساب ایده‌رك بورایا گلوب کندلی قادینلارادا شوراحکومتی قانونلارینی اوگره‌تمك ایسته‌ییردی.

بو حالدا اولك بوتون کیچمیشی گوزله‌رینك قاباغیندا جانلانمشدی. بدبخت آناسی سکینه‌نك ئولومی، چوجوقلیقدا کی آغیر حیاتی، ئه‌ره ویریلمه‌سی....

بوگون او، اوز باجیلارینا اوگره‌دیجك که بوندان سوگرا داها اسیره اولماسونلار، اوزحقوقلارینی تانیسونلار؛

آراسته اونلارا اوگره‌ده‌جك که‌بوتون عادت وعنعنه‌لر آنجاق چال‌ساققال موللالارك اویدورمالاری و پوچ‌موهوماتلارینداندان عبارتدرلر.

اصل حقیقت، اصل حیات ایسه آنجاق زحمت وشادلیقدان عبارتدر؛ شادلیق و سعادت دخی یالیکز آزادلیق سایه سنده الده ایدیله بیله‌ر...

له‌اونیدووا



«26» قوممونارلار نامنه نوخا قضا تورك فرقه شورا مکتبی طالبه‌لرندن بر غروپ.

قومسومول صونانك ياردیمی

1

آقشام ساعت 10 ده لامپالار یانیر،
افقلر گیت گیده قاراگلقلانیر،
کوی بر غلبه‌لق قارانلیق هوا،
داغلارا عکس ایدیر جوربه‌جور صدا،
قایادان سوروسین آغنادیر چوبان،
قویونلار، قوزولار، مه‌لهر یان به یان.
اکین‌دن قاییدوب گه‌له‌ن چوتچیلهر،
آتلاریك کیشنه‌ده‌ر، ئوکوزین سوره‌ر،
کندیك هر یاندا انسان قاپناشیر،
ئولگه‌ر آقوب گیدیر، قایادان آشیر،
بولوت قارا چارشاف چکیر ییلدیزلا،
میشه‌لر بکزه‌یور غمگین بر قیزلا،
کویلیلر چه کیلوب دالیر راحته،
هر طرف غرق اولور بر سکوته،
حق قوشی‌نك گه‌لیر حزین نغمه‌سی،
ایشیدیلیر هرده‌ن بایقوشك سسی،
او سسلر غملی بر داستان دییور،
بر کویلی قیزینك غمین سویلیور،
آرا ساکت‌له‌شیر، گه‌لیر سس سه‌میر،
آنجاق چوق اوزاقدان بر ایشیق گه‌لیر...

2

ساعت 12 ده چکیلمز نفس،
لاکن بر بنادن یو کسه‌لیردی سس.
قادینلار توپلانوب اویناییر، چالیر؛
قیزی کوچورمکه، آز زمان قالیر،
قیز قادین بر بره ویرمش اللرین،
قیزلار «یاللی» گیدیر اوتانیر گه‌لین،
قاریشوب بر بره چالان، چاغیران،
ده‌فینی اویناداز، سازینی چالان،
اوغلانلار اویناییر، قیزلار اوتورور،
قیزلار اوینویاندا اوغلان أمل وورور.
هیچ کس ایسته‌مزدی، آچیلسین سحر،
اوغلان، قیز، قونوشوب گوزله‌رین سوزه‌ر.
گه‌لین‌لر قونوشور، قیزلار قیسقانیر،
ته‌رلر دامجیلایر، یاکلیق ایسلانیر.
اویون اوطه‌سنده سه‌وگیلر جوشار،
هر کس أملنك آردینجا قوشار.
آنجاق بر اوطه‌نك هر یاندا غم؛
هر بوجاغا باقسانك قارشیلار ألم...

3

«گه‌لین» آپارماغا گه‌له‌ن دسته‌لر،
قاپیدا توپلانوب انتظار چیکه‌ر.
قونوم قونشو توتوب تیللی‌نك یانین.
بری ئه‌نیك سورته‌ر، بری کیرشانیك.
بریسی گه‌لینك باغلاییر بیللین،
ساچلارینی هورور، دارایر تللین.
هر گئن قوچاقلار سوروشار حالین،
یاشماغین دوزه‌لده‌ر باغلیار شالین.
تسلی‌لر ویره‌ر گه‌لینلر اوکا،
قیزلار اویناداراق باقار بویانا،
لاکن آغلاییردی گوکسیز گه‌لین.
گوزینك اوستندن قالدیرماز اه‌لین.
ساده کویلی قیزی گورمه‌مش به‌زه‌ك.
اوکا هر بزه‌نیش بر یابانجی‌تك،
نشانلانان گوندن ئه‌رین ایسته‌مه‌ز،
آنا قورقوسیندان «گیتمه‌ره‌م»! دیمه‌ز،
فرصت تاپان کیمی قاچیر ایوانا،
انتظار ـ انتظار باقیر اورمانا،
باشینی دولاندیریر سولوندان ساغا،
سرین آیا سویله‌ر، دردلرین داغا.
بریسنی آراردی یازیغك گوزی،
اوکا آشکار ایدی هر گیزلین سوزی.
گونلریك برینده قومساموول صونا،
یاردیم ایده‌جگینی دیمشدی اوکا.
صونانك یانینا گونده‌رمش آدام،
خبر گتیرمه‌مش دورت ساهات تمام.
هر ضعیف بر سسدن بکله‌یور نجات،
هر خیردا قارالتی ـ بویوك برحیات....

4

ساعت بری چالیر، خوروز بانلایور،
آنا یامانلایور، ینگه دانلایور.
خبر دوتا بیلمیر قومساموولقادان،
تیللی طیشاری‌یا قاچیر هر زمان.
آنجاق چوق چیکمه‌دن ده گیشمشدی حال،
طوی ئه‌وینده دوشمش بویوك قالماغال!.

هر کس بیلمك ایسته‌ر گه‌لیندن خه‌به‌ر،
ئه‌وی بوجاق ـ بوجاق گه‌زیر یتنگه‌لر.
آتاسی غیظ‌ـن تو کور گوز یاشین،
کوره کن ایشیدوب سیندیریر باشین،
دیبور: برباد اولدی عاریم، غیرتیم،
دشمنه قوشولوب قاچدی عورتیم!..
که‌بین‌لی آروادی قاچیرانلارا،
کرك دوتوب ووارم ایکی یوز یارا؛
قاباقجا ئولدورم کرك تیللنی،
چونکه آیاقلامش مذهبی، دینی!...
کوره کن سلاحلی آختاریر قیزی،
جزا ویرمك ایچون دوتولور ایزی.
داك یئری آغاردی، آچیلدی سحر،
کوره کنه گه‌لدی تیللی‌دن خبر؛
آنجاق کوره کنده قالمامش غضب.
شبهه‌سز وار ایدی بوندا بر سبب،
آرا بر جوشاراق ئوز ئوزین دو کور،
قومسومول صونانی هردن بر سو گور....
5
تیللی ساعت بیرده چیقوب بالقونا،

قاچیرمشدی اونی قومسومول صونا،
جاناوار الندن قورتاران گه‌لین.
قلبنه کتیرمیر «شریعت» که‌بین.
یوزینده کورور کن کلین زینتی،
طوبی خاطرلایوب قیلار نفرتی.
ئه‌تیگین تمیزله‌ر، کیرشانین سیله‌ر،
صنعی کوزه‌للیگه نفرت بسلیه‌ر
سیلینیر بویالار، یویولور به‌زه‌ك.
ساده بر گوزه‌للك آی ضیاسی تك؛
بله گدن آچیلار، قولاقدان چیقار،
آلتون بله‌رزیگلر، مینا سیرغالار،
سورمه‌دن تمیزله‌ر قارا گوزله‌رین.
اه گینیدن چیقارار، زیوه‌رین، زه‌ریں
آثار کهنه‌لیگی اوستندن تمام،
قومسومول یولونا ایلیه‌ر دوام.
کوی قادینلارین قورتارماق ایچون،
تیللی صرف ایده‌ردی وارلیغیك بوتون،
چالیشر هر ایکی قومسومولقالار؟
اسیرلیکدن آزاد بر دنیا قورار.

محمد سعید اوردوبادی.



گوگچای شهر قادینلاردان اوتری تشکیل اولنمش سوادسزلغی لغو ایدیجی گیجه قورصی.

قویون قیرخینی.

یازانی: ح. مهدی.

(کوچه‌ریلر حیاتیندان)

ایول آیی ایدی. کندلیلریگ داغدان تاخیل بیچمه‌ك ایچون آرانا قاییداملاری صاف و تمیز هواسی اولان بو یرلرده ده‌رین ـ ده‌رین نفس آلماغا باشلامشلاردی.

بر سحر چه‌گلر1) چه‌کیلمش. گونش ایسه ایلیق ایستیلیگی ایله آخشامدان یاغان یاغیش داملالارینی قورو- تموشدو. آرا بر هواصویوبور و اگ الچاق تپه‌جیکله‌ر بیله دومانلارا أورتولوردی.

گوك یوزینگ سحرکی آچیقلیقیندان استفاده ایده‌رك ده‌ره‌لره أه‌نمش بالیقچیلار اوز اللرینده ایکی ـ اوچ ساپاقلیق 2) بالیق ایله بیرلیکده اوزاق یوقوشلاری چیقیر لاردی. اوبانیك آز یاشلی اوغلان و قیزلاری اوز بالیق چیلارینگ یوللاری آراسیندا دورموش اولدوقلاری حالدا ساکت أسمن داغ کوله‌گله‌رینگ قاباغیندا آسانلیقلا حرکته گلن چه‌گلر آراسیندا ایتوب گیدیرلردی. چه‌گله‌ر چه‌کیلدیگی صیرادا گنج بالیقچیلار قارشولارینداً دوران چوجوقلاری سه‌وینجله یانلارینا چاغیروب اللرینده کی بالیقلا ری ویریرله‌ردی.

هرکس یایلاقلارگ لذتنی دادمش، تمیز هوالاردان دویمش، یاشیل اوتلو چمه‌نلیکلر قوروماغا باشلامش. مال قارا اسگی یه‌مله‌ری تاپماغا موفق اولامیرلاردی.

12ـ13 ده‌گه‌دن 3) عبارت اولان بوبینه‌نیگ 4) آرقاسیندا کی یوجا داغگ دوشونده‌ن جه‌رگه ایله دوزه له‌ره‌ك چوبان تورکوسیله اوتاریلماقدا اولان قویون‌سوروسی کناردان سیر ایده‌نلره یگی روح یوکسه‌کلیگی حس ایتدیریردی.

گنج چوبان یوسف یگی آلمش اولدیغی توته گینی گوتوروب سورینك آشاغا طرفینده یاشیل اوت اوزه‌رینه اوزانمش اولدوغو حالدا «چوبانی» هواسینی چالیردی.

قایالیقلار اوزه‌رینده کی آز بیچیملی اوتلارگ اوزه رینده گه‌زه‌شمکده 5)اولان قویونلارا اوز چوبانلارینك توته‌ك‌سه‌سینه‌اویانیرویگی‌ده‌ن‌اوتلامالارینداًدوام‌ایدیرله‌ردی.

اوچ آی اول یونلاری آلنمش اولان قویونلارگ یوکلری آرتمش و یونگوللیکلری ایتمشدی. بر چوقینك یونو چوبوکله‌ره‌ك 6) گوك اوتلار و قانقالار 7)اوزه رینده قالمشلاردی.

گنج چوبان یوسف اوز نغمه‌سینده چوق بویوك مهارت گوسته‌ریردی. آغزیندا بیر دیشی قالمیان (قوجا) قویونلار بیله «چوبانی» هواسندان خوشلانیر، و یگیدن صفلر دوزه‌لتمگه باشلابرلاردی.

قویونلارگ اشبو صفلرینی سیره دالان کندلیلرگ ده‌ردلری اکسیلدیگی کبی سه‌وینجاری آرتیر و بو منظره‌یی گورمیه‌نلر بیله باقماغا مجبور اولورلاردی.

بویله‌لیگله وقتینی کیجیره‌نلر نه قادار خوشبخت‌درلر...

II

بیه‌نگ قوجاسی اسگندرکیشی ده‌ره‌نیگ کناریندہ کی تپه اوزه‌رینه چیقمش یگی ـ یگی اوز گوشه‌سینی گوسته‌رمه‌کده اولان گونش ضیاسنگ آغوشندا اوزاقداکی قوزی سوروسینی سیر ایدیردی. اوز قار- قی‌سینا 8) بورونمش کیچیك چوبان سوری اوگینده کی ئه‌رکه‌جی 9) یاشیل اوتلی یئرلره سورور و اونیك آرقاسینجا قوزولار مه‌له‌شه ـ مه‌له‌شه قوشولورلاردی. بو منظره‌یی سوزمگده اولان اسکندرگ گنجلیگی یادینا دوشور و اوز چوبانلق دورینی خاطرلایردی.

ده‌گه‌لرینده‌ن چقماقدا اولان که‌ندلیلر صحبت ایچون اسکندریگ باشینا توپلانماقدا ایدیله‌ر. گیجه یاریلارینداً قویون سوریسینه گیریشمش اولان اوغرولاریك ایشلری توپلانانلارگ دانشاجاقلاری سوزله‌ر اولدی. هرکس اوز قوچاقلیغینی و اوغرولاری گورمگده کی مهارتینی دانشماغا باشلامشدی.

بری:

ـ حیاسیز اوشاقلاری بزی راحت بواقمیاجاقلار، دیدی.

ـ اولارگ عجللری یتیشمشدر: بوگون، صباح تاپیلوب جزالاری ویریله‌جه‌کدر.

اسکنده‌رکیشی اوزینی ساقلایا بیلمه‌یب سویله‌نمگه باشلادی:

1) داغلاردا کی دومانلارا دیرلر.
2) برنوع اوتدور. بالیقلاری اوگا تاقیرلار.
3) ایچه‌ریسینده یاشاماق ایچون یاپیلان داغ ایولریدر.
4) داغ محله‌سینه دیرلر.
6) یوقودن دوردقدا یاپیلان حرکتدر.
7) یونگ واسطه‌سیله‌جه‌سینه قویون اوزه‌رینده توپلانماسی دیمکدر.
7) دیکه‌نلی اوتلارا دیرلر.
8) کهنه یابنجی‌در.
9) ارکك و بویوك کیچی‌د.

– ده گه‌نیك یان‌طره‌فنده اوزانمیش ایدیم. برده گوردوم که آشاغی طرفده ایتلر هورورله‌ر. دوغروسو بو واقعدا اوغرو گله‌بیله‌جه‌گنی گوزله‌بردیم. اما فکرلشدیم که حیاسیز اوشاقلاری قویونلاری آپارابیله‌رلر. تیز یئریمده‌ن قالقدیم و اولارك اوغرو اولدوقلارینی تیزجه دویدوم. قویون سوروسینك یاندا باغلانمش، به‌نه‌ك ایتی آچاراق قیس ووردوم!.. چوق قارانلق اولدوغو ایچون برشئی آپاروب آپارمادیقلارینی گوره بیلمه‌دیم. هرهالدا بوگون قویونلاری یوقلاماق و سایماق لازم‌در، دیدی.

– بو سوز کنارده قالسین، قیرخین وقتی گلب چاتمشدر بوگونلرده ایشه باشلاماق لازمدر.

اسکندر کیشی علاوه ایتدی:

– دوغرودر، بوگونده‌ن سوکرا اوغرولاردا آرتاجاقدر. قویونلاریك یونوحایف (حیف) اولوب‌توکولور. شهرده یونی چوق بها گوتورورلر. قویونلاری قیرخوب یونلاری ساتماق لازم‌در؛ دیدی.

– او حالدا نه وقت باشلامالی‌یق؟

– گونو صباح!..

اسکندر کیشی‌نیگ قویونو بو بینه‌ده کیلریگ‌هامیسندان چوق ایدی. البته أونیك قویونی اولجه قیرخیلاجاقدی. «صباح باشلامالی، دییه قرارلاشدیروب آیریلدیلار.

III

گنج چوبان یوسف داك یه‌ری آغارمادان اوزسو-ریسینی «اوجاق» [10]) داغی أته‌گینه سورمیشدی وایسته-دیگی قیرخین تاپشریغی یادیندان چقمامشدی. اوزایشلری یانیندا و قویونلاریگ اطرافینده اولدوغوندان هیچ برشئی‌دن قورقوسی یوقایدی. یولداشلاریدا سورینگ آرقا و اوك طره‌فینی گوزله‌یرله‌ردی. یوسف قویونلارك آلت (آشاغی) طره‌فینی که‌سمیش و آشاغادا کی‌چنقیلا [11]) اینمگه قویموردی. سوری بویوك اوتلاغگ اوزه‌رینده هر طره‌فه سه که [12]) بیلیردی. گنج چوبان آخشامدان یاتمامشدی. ایمدی یوقلاماق ایسته‌یردی. اوزه‌رینده کی یاپنجی [13]) اولگون سه‌سله أه‌ه‌ن‌داك یه‌لینك صوغوقوندان اونی ساقلیا بیلیردی.

یوسف اوزی بیلمه‌ده‌ن اویودو و قویونلارینداں آیری دوشدی. سوری داغ-دوشی ایله ایلریله‌دیگی کبی چو-بانگ یاتماسندان استفاده ایده‌ره‌ك آشاغی ئه‌نیردی. یوسف یولداشلاری بونگ یاتماسینی دویاراق سسله‌ندیلر. یوسف سکسه‌نه‌ره‌ك قالقدی و سورینك آشاغایا اوزانان طره‌ئینی یوقاری قایتاردی.

اوتلاغگ هر ایکی طره‌فی قایالیقلا بورونموشدی. بوغاز یوردك [14]) اوزه‌رندن اوچ-دورت گونه‌ش شعاعی مایماق (اوجاق) داغیگ یالگز اوست طره‌فینی ایشیقلا-ندیرا بیلیردی. سوری اوزه‌رینه دوغرو اوزانماقدا دوام ایده‌ن شعاعلار گنج یوسفگ یاپنجی‌سی اوزه‌رینده کی داملالاری پارچالایر و قورودوردی. یوسف اوزینه ویر-یله‌ن تاپشریغی خاطرلیا بیلدی. اوزه‌رندن یاپنجی‌بی یئره آتاراق یولداشلارینی چاغیردی و «اسکندرك قویونو سه‌چمه‌گه کومك ایدیگز!..» دیدی.

قوجا چوبان سلیمان، اوز یولداشیله یوسفه کومگه گلدی و «قولاغینك آرقاسیندان که‌سیلمش» نشانیله اولان قویونلاری‌یوسفگ قاباغینا قاتدیلار. یوقلانان قویونلاردان بردانه اوغورلاندیغی بللی اولدی.

اوز چوماغنی [15]) بیلینه سوکه‌یه‌رك حرکت ایده‌ن یوسف قویونلارك مه‌له‌شه‌رك أوتمه‌لرینی ایشیتدیکده بو سورینگده پارچالاناراق یاری به‌یاری کیری‌یه دونمه‌سینی گوردی. قویونلار سوریده‌ن آیریلماق ایسته‌میردیلر.

یوسف آرقایا کیچدی و سورینك دالندان س..س..س.. دییه‌رك ایله‌ریله‌تدی.

ایمدی بوتون اختیارینده کی قویونلار یوسفك آرزو-سونا موافق حرکت‌ایدیرله‌ردی. نهایت بینه‌یه یاقینلاشدی. آرخاچ‌دا [16]) قویونلاری ساخلادی. قیرخیجی‌لار اوز قایچیلاری ایله حاضر اولمشدی. اسکندریك اشاره‌سیله قومرال قویون دوتولوب که‌سیلدی و ایوه آپاریلدی.

بینه‌نك بوتون باشی پاپاقلیلاری [17]) اسکندرك قیرخینینا گلمش و اوگا کومك ایدیرله‌ردی.

قولاق آسانلارك نظرینی هرکسده‌ن اول یوسف جلب ایدیردی. اوز حرکتلرینده قیرخین ایشینی یاخشی بیلنلر ده‌ن آیریلیر و هرکس اونیك بو ایشده‌ن خبرسیزاولما سینی گورووردی. اویگی آلمش اولدیغی قایچیسی ایله شیشه‌کارده‌ن [18]) برینی دوتوب باغلادی و قیرخماق ایسته‌دی. اوچ آی‌کوك چمنلکارده اوتارمیش اولدیغی قویون کوك اولدوغوندان گوجی چاتمایردی. قویونو دفعه‌لرله اوطرف-بوطرفه فرلاتدی و بر نیچه ثرینده‌ن

(10) ارمنستانك «قاراکلیسا» قضاسینده‌در.
(11) کیچیك داشلیق‌در.
(12) حرکت ایتمکدر.
(13) قالین اوستا بالتاریدر.
(14) بر دره‌نك آدیدر.
(15) بلنده کی آقاجیدر.
(16) قویون یاتان یئردر.
(17) ارکك‌لری دیمکدر.
(18) گنج قویونا دییرلر.

کسیب کومورله‌دی. یوسفك آغیر ضربه‌سیندن قویون قیرخیلیغا دوشدی [19])

اسکندر کیشی اوز گنجلیگی‌نیك چوق حصه‌سینی چوبانلیقلا کیچرمیش و آغر زحمتلرله بو قویون سوروسونه صاحب اولموشدی.

یوسفك بو ایشینی گورینجه سویله‌نمك ایسته‌دی: لاکن اوز چوبانلق دورینده برچوق قویونلاری قیرخیلیغا دوشو روب اولدوردوگینی خاطرلادیقدا گنج یوسفه بر سوز بیله دیمه‌دی.

– آچ! بنه‌ك ایته باغلا، سور!.. دیدی.

یوسف: «بنه‌ك – بنه‌ك!» دییه‌سسله‌دی. قویونو ایتك بوغا زینا باغلیاراق تپه‌یندی و اوزیده بر – برینه اویمیان بو جانلیلار آرقاسنجا قوشمایا باشلادی. دره – تپه‌لری آشاراق قیرخین آغزینا دوشموش اولان، قویون و ایتك آرقاسنجا قوشان یوسف، قویونیك أولومنی کوردی.

گنج یاشینك ایلك چاغلاریندان چوبانلقلا کیچینمگه مجبور اولان یوسف عمرینده هیچ بویله بر «قباحت» ایشله‌مه‌میش و دائم سوری صاحبلرینه احترام بسله‌میشدی. یورغون بر حالدا اوز قایچیسی یانیندا باشی آشاغا دوشموش بر حالدا اوتورموش، تیز – تیز نفس آلاراق درین – درین دوشونمگه باشلامشدی. اسکندر کیشی کلوب اونی اوز دوشونجه‌سیندن آیروب وایمه‌جیلرله [20]) برلکده چورهك یمگه دعوت ایتدی.

بوتون ایمه‌جیلرده حس ایدیلن روح یوکسه‌کلیگی یوسفده یوق ایدی. ده‌رین دوشونجه‌سینده اسکندر کیشی‌یه ووردیغی بو ضره‌ری تصور ایده‌رهك اوچ قات داها بویودوردی. فقط اسکندر اوگا تسلی ویره‌رهك «ضرر یوقدور یوسف، کیفگی پوزمه» دییردی.

IY.

قیرخین قورتارمش و گندیلر «آران کوچی»نه حاضر- لانیرلاردی.

یایلاقلاردا سویوق دوشه‌رهك دومانلاردا بوتون دره و تپه‌نی بورویوردی. «مایماق» داغی‌نیك زروه‌سی اوزره رینده ساکت دومانلار دورور و داشلار اوزه‌رینده سارا- لمیش اوتلارك قاچمش رنگلری اوزه‌رینه شه‌حلر سه‌ریلمه‌ده ایدی. آرا صیرا دومانلار چکیلدیگجه اوز کوشه‌سینی کوسته‌ردن گونش یگی دوشموش اولان بو شه‌حلری دومانلارلا برلشدیریردی، «آلتون داغ» یایلاسیندا کی تپه‌لرك آلچاق اولماسی چه گلرك کوزلره پرده چیکمه‌سینه مانع اولوردی.

دره‌ده کی چایلارك بوغوق سسلری قاورلی یالدان [22]) دوران و سیر ایده‌ن آداملارك قولاقلارینی خوروشلاندیریر و یاقین بیر آیریلیق دویدورووردی.

گندلی قیزلاری جرکه ایله دوزولموش اولدوقلاری حالدا چایلارا اینه‌رهك کوچ حاضرلیغی کورمك ایچون پالتارلارینی بیقایرلاردی. ایروان طرفندن یوکسه‌لمکده اولان (آرارات) داغی دخی اوز قارلا بورونموش تپه‌سیله انسان روحینه یگی غدالر ویربردی. بو آرالیق (مایماق) داغینك شوقیندن یوکسه‌لن قوزی سوریسیله موازی اولاراق دره دوشیله گنج چوبان یوسف سوریسی قایالیقلار آراسندا آز – آز کورونمکده ایدی.

حزین توته‌ك سسینی ده کیشه‌ن نغمه‌لرله قالدیران یوسفك دورت اطرافینی سارمش اولان تمیز داغ‌هواسی اوز ساکت دالغالاریلا چوبان موسیقی‌سینك سینیق سسینه یوکسه‌کلیك واینجه‌لیکلرینه یگی‌لیکلر بخش ایدیردی. گندلی قیزلاری گنج چوبانیك توته‌ك هواسینی ایشیتدیکجه ایشلرینی بوراقیر، قولاق کسیلیرلاردی.

یوسف قیرخین خاطره‌سینی اونوتمامشدی. توته کنیك غملی و کده‌رلی سسلرینده اسکی خاطره‌یی عکس ایدیر و بو یوسفیك سسینه قولاق دیکه‌نلرده‌ده شو خاطره‌یی آسانقلا آگلاتا بیلیردی.

صباحی کون هرکس یوکله‌نمیش و آرانا دوغرو حرکت ایتمیشلردی. داغلار سلطانی چوبان یوسف غملریتی بر قادار اونوتموش حالدا قویون سوریسینی اوچوروم قایالیقلار آراسندان چیقاراراق آیاقلانمامیش کبی اوتلاقلارا سورور و آرابیر سوری آرقاسیندان قالقاراق قویونلك شاد اولماسی خاطرینه یگی هوالار چالماقدا دوام‌ایدیردی.

19) قویون قیرخماق، بیلمیه‌ن آداملار قویونی چوق اوطرف – بوطرفه حرکت ایتدیره‌نده کوك قویونلار تاب ایتمه‌یوب گیچ کیرلر او قیرخلیقا دوشمکدر

20) هرکس : بنك قویرتنی قیرخلان آدام اوگا بورچلی قالیر

21) چه‌گلرده‌ن دوشن‌صو داملاری‌در.

22) «قارلی‌داغ» دیمکدر، همین یایلادا واردر.



رومان.

دالیسی.

تونج آی

یوری

سلیوزکین.

(کیچن نومرودان مابعد)

او، ئولگون بر صورتده باشدان آیاغا کیبی بورونمش اولدیغی یونگول چارشافنی کناره آتوب تماشاچیلارك صبرسیز ومنتظر گوزلرینك قاباغیندا باله‌ته مخصوص بر لباسدا نمایان اولدی: عادتاً ایرانگ مودالی پالتار گیبه‌ن خانملاری اوز ایولرینده بو لباسدا گه‌زینیرلر. آغ و نازیك غازدان تیکیلمش دیزدن یوقاری قالان چاخچور، قزیل و گلاباتین‌لارلا به‌زه‌نوب آلتدان یو- قاری چیمدیك بوزمه‌ارله بوزولمش اولدیغندان کناردان باقانلارا ئه‌نلی شالوار کیبی گورونوردی.

قزیل قایتان ایله چکیلمش قارامتور، یاشیل مخمل دوشلیك رقاصه‌نك سینه‌سینی محکم سیقمشدی. اوستدن یوقاری دارانوب واوجلاری بر چوق خیردا هورو کلره تقسیم ایدیلمش قارا ساچلارینك قورتاراجاغیندا قرمزی باتلار سالللانمشدیلار. اونگ صفتی عادی کورد قزلاری تپینده ایدی. قارا بوغدایی، بویوك و شققلی بر جفت آلا گوزلری دریا ته‌کیندن گوتورولمش قارا داشلارا بگزه‌یردیلر. اونگ خیرداجا و آل آتش‌بویانمش آغزی نازلی بر صورته‌اوست دوداقلارینی قالدیرمشدی، چیلاق قالمش، گوك گیل کیبی پاریلدانان قول و قیچلاریندان ایشیلدایان بیله‌زیکلر آسیلمشدیلار. هرحرکنده‌دبرناقلاریدا بارماقلارینداکی قیمتلی داشلار کیبی پاریلدایپردیلار.

بو، (مارو) ایدی.

او، اوزون و گوك گیپریکلی خومار باقیشلی، قول- لارینی قالدیردی. اوبری قادینلار - چارشاف و رو- بندلرله گیزله‌نمش قادینلار حاجی مبارکك آروادلاری ایدیلر. اونلارك یانندا بر نفرده رقاصه قیز اللرینده کی قیمرولی خیردا ده‌فله‌رینی یوقاری قالدیردیلار. آروادلارك بریسی بالغ ده‌ریسیندن چکیلمیش ناغاراسینی قاباغینا قویدی. عشوه ایله باشینی سیلکه‌یوب، بودفعه الرینگ ایکیسینی ده یوقاری قالدیرمش، و بارماقلارینداکی گوموش چنگاله- لرینی جینگیلده‌دن (مارو) بر آنده اوز ئرینده دوگوب قالمشدی. بو آنده طنبورك سه‌سی چیقدی. اولجه دوتغون و آغیرسسلی طنبورك گورولتوسی ایشیدیله‌ن ساعت‌خواننده‌لرك نغمه‌لری وناغارا، طنبوردلریگده جالغوسی بیری بیرلرینه‌قاتیشدی.

جنرال پاناسیوقك اللریندن یاپشدی. حاجی مبارك، رنگی بوزارمش دوداقلارینك‌اوجیله جنراله بیله پچیلدادی:

- ناخوش ده گیلسیگز که؟.. برقدح‌قونیاق‌ایچسه‌ایدیگز!.

اینگیزلرك دقتلی و ادبلی صفتاری حرکتسز حالدا دوگوب قالمشدیلار. موللالاردا بوغازلارینی ایزه‌لی اوزا- دوب حیرت‌ایچینده‌ایدیلر. سانکه ناز - عشوه‌دن یورولمش (مارو) خفیف حرکتله، خواننده‌لرك تصنیفلری تاقتندا، طنبورك صوك ضربه‌سینه موافق خالی اوزه‌رینده قالقوب سوزه‌رك یینده طنبورك آخرکی سریع بر ضربه‌سیله اوز ئرینده اوتوردی. (مارو)نی متعاقب بالاجا رقاصه یرینده سیچرایوب میدانه آتیلدی. موسیقی چالغی و نغمه صداسی داهادا سرتله‌شوب شده چیقمشدی. چارشافلارك اوستنده بیهوش حالدا چالینان ده‌فله‌ردائره ووروب، سرعتله‌اوقونان تصنیفلرك تاقیندا‌حرکته گه‌لیردیلر.. بو تصنیفلرك دالسینجادا بالاجا رقاصه یه‌ل کیبی‌یونگول و ایتی قدملراله گاه هواده فیرلانوب، گاهدا خالی اوزه‌رینده اوزه‌رك ناگهانی



یئرینده‌ن اود قیغیلجمی کیبی سیچرایوب قول وقیلچالارینی ئیلله‌نه‌یره‌ره‌ك یاریم مست حالدا هواده اوچوردی.

قادین‌لارك خورده‌سته‌لرینه کشی‌لریكده‌سسله‌ری قاریشمشدی.

موللالار چه‌پیك چالیردیلار؛ جنرال آغیر آغیر نفس آلیر... آیاغا قالقمش الصاحب شیشمش گوز وه‌له - مبه‌لرینی خومار بر حالدا یوموب آرتیق ممنون‌لیگنی اظهار ایده‌رك گولومسه‌یردی؛ حاجی مبار کده گون ایستی‌سینده قیزمیش افعی ایلانلار کیبی گوزلرینی (مارو)نك توبوقلارینا زیلله‌یوب اونی آغوشینه‌چیكمك، یاخود اودماق ایسته‌یردی.

همین بو آن‌ده (مارو) یئرینده‌ن قالقوب شراب قدحنی دیشله‌رینه دوتوب، دور ووراراق اونایا - اونایا صیرا ایله تماشاچیلارك قاباغیندا سوزیردی. بارماقلارینی کی

چه‌نگیلری سسلندیره‌رك داهادا سرعتلی قدملرله قالله‌ره‌یا اوزونی دور ووروب هواده اوچان قوش کیبی آغزیندا- کی ایچی دولی شراب اولان قدحی ده گه‌زدیریردی.

بوحالدا الصاحب ره‌نگی‌قاچمش اینکلیز ضابطینه باقوب‌دیدی:

- فرنگی، ای فرنگی!..

(مارو) بو دقیقه‌ده اینگلیزك قاباغیندا دوروب؛ حتی اونك‌دیزلرینه‌سو که‌نمشدی. بوآن‌ده ضابطك‌یانیندا اوتورمش و اوزآتش‌پوسکوردەن نظرینی(مارو)دان آییرامیان حاجی مبارك دوداقلارینی(مارو)نك صفتی‌نه‌یاقینلاشدیروب اونی‌حرا- رتلی نفسی‌ایله جزب‌ایده‌رك قدحده کی شرابی بیرقورتومدا ایچدی. حاجی‌مبارك‌اوزایشیندە‌اوقدرجلد ایدی که بوحر کتی یالیگز الصاحب و برده اینگلیز ضابطی گوره بیلدیلر؛ باشقالاری ایسه هیچ بر شی آ گلامامشدیلار. حاجی‌مبارك‌ده اینگلیز ضابطیله او قدر یاووق اوتورمشدی که هیچ کس حاجی مبارکك‌ده اوز قوناقنی تحقیر ایتمه‌سینی دویمامشدی و بو ایشده‌اونی مقصر بله دوتا بیلمه‌زایدیلر.

بو حرکتدن سوگرا اینگلیز ضابطی‌نك رنگی داها دا آرتیق آغاروب آنجاق قیرخیلمش چه‌نه‌سینی به‌رك سیقدی. ایو صاحبی ایسه داهادا ممنون و رند بر طرز ایله اینگلیزك یوزینه باقوب گولومسه‌یردی.

قادین‌لار اوزبوجاقلاریندا ساکت دوردیلار. کشیلرك دقتلی نظرلرینی اوز چیپلاق اندامینه دیکیلمش اولدیغنی حس ایدن (مارو) خجالتلی بر حالدا چارشافینا طرف یوگوروب، سرعتله چارشافینا بورووندی. پارچالانمش‌قدح ایسه یوموشاق خالی اوزه‌رینه دیگیرله‌تمشدی،

اوز کاروانتی‌دا فرنگیلرك کاروانینا قوشماق اجازه‌سنی آلمش حاجی مبارك فرنگیلردن آرتیق درجه‌ده راضی‌لق ایدوب؛ بو سفرلرینی صحیح وسالم بتیرمك آرزوسنی‌اونلارایبان ایدندصوگرا، فرنگیلر حاجی‌مبارکك ایوینی ترك ایتدیلر. موللالاردا، اونلارا گیجه‌لر ایودن چیقماق ممنوع اولدیغی ایچون، بوراداجا قالوب باشقا بر اوتاغا کیچدیگدن سوگرا الصاحب ایله حاجی مبارك مختصر بر صحبت ایچون خلوته چکیلدیلر.

حاجی‌مبارك قلیانك‌توستوسنی دوشینه‌چیکه‌ره‌ك‌سوروشدی:

- سن، صباح گیدیرسن؟

شیش قارین الصاحب، گوزلرینی یوموب بارماقلارینی قارنی اوستنده اویناداراق بیله جواب ویردی:

- بلی، صباح یولا دوشیرم!

- سن رقاصه‌لریگی‌ده اوزیگله برابر آپاراجاقسك؟..

- بلی، اونلاردا منیمله برابر گیده‌جگلر. بو آخر- کی سوزلر الصاحبك آغزیندان قورتارمامیش اوزاقدان، کوچه طرفدن چیغریق و سوگوش ایشیدیلندی.

حاجی مبارك بر آز گوزله‌دی. چیغیرتیلارك دالیسی که‌سیلمه‌یردی. بو زمان حاجی مبارك یئرینەن دوروب پنجره‌لری آچدی. ساکت گیجه هواسندا چیغیرتیلار داهادا آیدین ایشیدیلنیرلردی.

آیاغ تاپیلتی‌سی و بو قالماغال آراسندا بر نفراجنبی لسانده دانیشان آدامك لهجه‌سی بیله ایشیدیلنیردی.

- کورسانمی؟ ای خاك به‌سر، (یعنی ای کول باش!) فرنگی!.. منیم کیماره قوناق گیده‌جگمی سنمی منه اوگره‌ده‌جگسن؟ ایتیل جهنمه!..

- صاحب، بیز سیزی بوراقا بیلمه‌ریك!..

دیه‌ن یوغون سسلی بر آدام جواب ویریردی.

- بو ایوده آروادلار و رقاصه‌لر وار ایدی. سیزك بو ایوده اولماغا اختیاریگز یوقدر... بویوریگز بزیم دالیمزجا گه‌لیگ!..

اوچونجی بر آدام روس دیلنده بیله ده‌ییردی.

- اللهگ غضبنه گه‌لسین بونلار!..

بونیگ یوغون سسی بر نیچه‌ده باشقا سسلری‌باتیریری. بوسسلرك‌هاموسنی بردانه‌قولاق باتیریجی‌طپانچه‌سسی که‌سدی.

حاجی مبارك پنجره‌نی باغلیوب ساکت حالدا خالی اوزه‌رینه اوزانوب قالیانیگ سوینی بولاندیراراق قوللاب ووروردی.

الصاحب دیدی:

- اونلاری کوچه‌ده پارچا - پارچا ایده‌رلر. ایمدی داها بزیمکیلر هیچ فرنگیلردن‌ده قورقمیورلار!..

ایو صاحبی قیسا بر سکوتدان سوگرا دیدی:

- عیبی یوقدر، اونلاری سربازلار محافظه ایدیرلر. بو قالماغالی سالانلار بر نیچه بوش بوغازلار و ایکی نفرده پولیس نفرلریدرلر. برینجی توقوشمادا هاموسی قاچوب گیزله‌نرلر. انقلابچیلار آچیق آچیغینا میدانه چیقماقدان قورقورلار... نه اولورسا اولسون، هر حالدا آلله کریم‌در. بیر، دی گوروم که سن سوزیگ اوستنده دوروب (مارو)نی آپاریرسانمی؟.

یوقولی الصاحب بیله جواب ویردی:

- بلی، من (مارو)نی آپاراجاغم..

- ای، منیم عقللی رفیقم، نه سبیه سن (مارو)نی منه ساتماق ایسته‌میرسن؟ یوقسا سن او قدر ثروت قازانمیسك که سنه داها قزیل لازم ده گلدر؟

- (مارو) منه او قدر منفعت گه‌تیریر که، حتی

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0272

شاهنشاه اوژیده اونگ مقابلنده منی قزیل‌دان دویدیرا بیلمه‌ز.

حاجی مبارك بو سوزك جوابنده دیدی.

ـ من (مارو)نگ مقابلنده قزوینده کی خالی توقویان قابریقامی سنه ویره بیله‌رم.

الصاحب سکوتده ایدی. سانکه او تامیله یوقویا گیتمشدی. اونگ باشی دوشینه دوشمشدی؛ دوشلریده قارنی‌نگ اوزه‌رینه سالانمشدیلار. حاجی مبارك بری برینگ دالینجا قلیانه قوللاب ووریردی. اونگ هیجانی گوزله‌رندن آگلاشیلیردی. او، اودوزمش و بره ایکی دفعه آرتیق بانك قویمش قوماربازلارا اوقشاییردی. نازیك بورنی‌نگ ده‌شیگاری قاراباغ آیغیرلارینگ بورون پره گله‌ی کیبی آچیلمشدی. او، دیك اوتوروب منتظر بر طرزده ایدی. بو آنده او، اوزینگ کیچیك قارداشی حاجی زاهده چوق اوقشاییردی. حاجی مبارکده، حاجی زاهد کیبی احتراصگ نه اولدیغنی دوشونمش بر انسان ایدیلر. لاکن بونلارك احتراصی یاتیرتماق باره‌سنده کی نظریه‌لری مختلف ایدی.

حاجی مبارك پول قوه‌سندن باشقا بر قوه تانیمازایدی.

قادین احتراصی اونا غلبه چالدیقدا او قادینی قزیل آغرلیغینا بیله قیمت ایدوب اونی أله گتیرمگه حاضر ایدی. عمرینده الك قیمتداراولان شیئی او قادین یولوندا فدا ایتمگدن چیکینمز ایدی. (مارو) نگ بو قدر باها قیمت اولونماسیدا اوندان ایدی که (مارو) یا مالك‌اولماق، اوز احتراصنی یاتیرتماق ایسته‌ییردی.

ایو صاحیده قوناغی کیبی بر نیچه دقیقه بری برلرینگ قارشوسیندا ساکت دورمشدیلار. پنجره قاباغیندا‌کی قالماغال ساکتلشدی. قونشو اوتاقدا یاتمش مولالارك خورولتولاری ایشیدیلنیردی.

حاجی مبارك بیرده‌ن آیاغا قالقدی. اونگ بو حرکتی پلنك حرکتنه اوخشاییردی. او الصاحبگ آرواد چیگینله‌رینه بگزه‌ین چیگینله‌رینی‌دوتوب سیلکه‌له‌دی و چیغیردی:

ـ دی گوروم نه ایسته‌ییرسن؟ الصاحب سه کسه‌ندی. سانکه یوقودان دورمشدی. او شیشمش کوچك دوداقلارینی آچوب دیدی:

ـ سکینه‌نی!

ـ نیچه؟..

حاجی مبارك ایشیتدیکی کلمه‌یه آرتیق تعجب‌ایدوب اونا دقتله باقدی.

قوناق بیله جواب ویردی.

ـ (مارو)نگ عوضنده سنده قارداشیگگ آروادینی منه ویرمه‌لیسن؟..

ـ زاهدك آروادنیمی؟..

ـ بلی، من اونی بر دفعه انزه‌لیده چای کناریندە گورمیشم. او پالتار یویوردی. من اونگ یوزینی، سینه‌سینی، الله‌رینی گورمیشم. سن اونی منیم ایچون گه‌تیر، منده (مارو)نی سنه پولسیز ویره‌رم!..

حاجی مبارك اوتوردی. او آیاق اوستنده دورا بیلمه‌دی. بو آل ـ ویر حقنده، اوتورمش حالدا فکر‌له‌نمك لازم ایدی، قلیانك سویو یه‌ده قورولدادی. بو دفعه‌ده حاجی مبارك گوزلرینی یوموب باشینی آشاغا سالاراق فکره دالمشدی. بر سوز سویله‌مه‌دن حرکتسز حالدا اوتورمشدی. پنجره‌لردن گورونه‌ن قارانلیق یاواش یاواش آچیلماقدا ایدی. خوروزلاردا سسله‌نیردیلر. آغا جلارك یاپراقلاریدا یاشیل‌لانیردی. صبح طلوعینگ قارشوسیندا قومشولار، پنجره‌لر، قارا آغاجلار، یاواش ـ یاواش سه‌چیلردیلر. حاجی مبارکك کسگین نظرینگ قارشوسیندا کی افق گیت ـ گیده اوزاقلاشیردی. حاجی مبارك‌باشینی‌ته‌رپتمه‌دن و الصاحبه‌باقمادان‌قطعی‌برسسله‌بیله‌دیدی:

ـ سکینه، سنك اولا بیله‌رم!..

بو آنده شهره دوشمش توپ مرمی (گوللە) سینك ضربه‌سندن زلزله‌یه‌دوشمش ایوده کی پنجره‌لرك شیشه‌لری زینگیللە‌دیلر.

* * *

درخت!

هوندور و پالچیق دیوار ایله حصارلانمش بویوك حیاتلی ایکی مرتبه چیرکین تیکیلی‌سی اولان (امام‌زاده هاشم) ستاسیوندان باشلامش، (سفیدرود) ده‌ره‌سینگ آرقاسنجا داغلارك ئه‌ته گله‌ری ایله قالین میشه‌لیگلرله احاطه‌ایدیلمش ایلان یولی جیغیر ایله داغلارا طرف اوزانیرلار. میشه‌نك یاشیل یاپراقلارینگ قالین کولگه‌سی اونی گون حرارتندن مدافعه ایده‌رك فکری افسانه‌وی و مغلق‌هورومجگ تورلارینا چولغایور.

مختلف یرلرده داغ جولگه‌لری ییلان یولی کبی جیغیردان کیچوب اویان‌بویانا ئه‌گیلوب بوزیله‌رەك سیلدیریم داغ باشی آشاغا یووارلانمقدادر. ستاسیوندان اوزاقلاشدیقجا (سفیدرود)ك ساحلی داهادا داغلق و داشلق اولوب، میشه‌یه دیره‌کله‌نیر، داغ ئه‌ته گله‌ری ده‌ره لره تبدیل اولونور. و مأیوس بر بولانلق قهوه‌یی رنگ آلیرلار. یالیگز داغلارك چایا دوغرو آقوب گله‌ن ئه‌ته گله‌ری آراسیندا کوچگ پارچالار کیبی گوگ چیمنلیگلره

بر آزدا آشاغا طرفده قامیشلارلا باسیلمش دوزه‌نگاهلار و بعضی یرلرده دخی آغاجلار آراسیندا گیزله‌نوب؛ او- زاقدان داغ تپه‌لرینه بکزه‌مین پالچیقدان یاپلمش أیولی یاسیولقالار کوزه چارپماقدادر.

حاجی زاهد ایله اونك اون آلتی نفر سواری یولداشلاری امام زاده هاشم ستاسیونی کیچدیکلری زمان قارانلیق قاووشیردی. اونلار رشتك اطرافندن کیچوب تله‌سیردیلر که هوا ایشیق کن اوزلرینی تعین ایدیلمش محله چاتدیرسونلار: چونکه بو یرده میرزه کوچك خانك باش دسته‌سیندن بر نیچه نفر یولداشلار حاجی زاهدی اوز دسته‌سیله کوزلیوردیلر. بونلارك ورودیله منتظم صورتده حربه شروع ایدیله‌جك ایدی. انقلابی قوه‌لر مخفی صورتده رشت اطرافنه توپلانوب بورانی حربی بر مرکز قرار ویرمك ایچون رشته مالك اولماق ایسته‌ییردیلر. شورا بحری قوه‌سی طرفندن اشغال ایدیلمش انزه‌لی شهری آرقا استحکاماتی وظیفه سینی ایفا ایده‌جك ایدی.

1920 ینجی یلده مای آینك اون یدینجی کونی غروب ایدیردی، حاجی زاهدك دسته‌سی حرکت ایتدیکی یول - (سفید رود) ساحلی ایدیکه کاه چایدا کی سو سطحینه قادار ئه‌نیشه و کاهدا چوق اوجا یوقوشا قالقوب اورادا یالیکز تکجه سواری حرکت ایده یله‌جك بیر جیغیرا تبدیل اولونوردی. بیر موقعده یاشیل اوتلالار اورتولمش بر قایا سواریلرك باشلاری اوستندن اویله سالللانمشدی که کویا بودر بوآنده یثرینندن توکولوب اونلاری باسوب محو ایده‌جکدر.

گیجه‌نك قارانلیق پرده‌سی یثر یوزینه سه‌ریلیردی.

یولك هر ایکی طرفنده بریلیانت کبی برق ووران جوجیلر اوچوشاراق پاریلدایییردیلار. بو جوجیلر بعضاً کول‌لیقلاردا خیردا یاپراقلار اوستنده اوتوروب کوچك فاناللار کیبی جغیرلاری ایشیقلاندیریرلار، و بعضاده اوزاقدان میشه‌نك ده‌رینلکلرینندن، دال -بوداقلار آراسیندان پاریلدا یاراق یاپراقلار اوزه‌رینه دوشمش بیلدیز پاره‌لر کیبی اطرافه نورساچیردیلار.

گیت - گیده (سفیدرود)ك ساحللری دارالوب هر ایکی‌طرفدن اوچورولمی برده‌ره تشکیل ایدیرایدی.

آغ و خیردا جینقللی جیغیر، ملیونلارجا بارکش حیوانلارك آیاغلاری آلتیندا دوگولوب بورکیمیش بر یول اولاراق هوندور قایالارك ئه‌ته گلریله ییلان یولی کیبی اه گریم-او گریم گزر کاهلار تشکیل ایده‌رك یوقاری‌چیق - دیقجا کول‌لیقلارك قارانلق سطحنده ایتوب گیدیردیلر

یوقاری قالقدیقجا داغلارك تپه‌لری قالین میشه‌لر آلتیندا گیزله‌نوب قالمشلار. او یوقاریلاردا خلوت و مسجدلرده اولان کبی عظمتلی بر سکوت برپا ایدی. آشاغالاردا ایسه ایکی طرفدن داغلار آراسینا سیقیلمش و هوندور قایالار ایله پارچالانمش چایك شاقلتی‌سی، چینقیلیقدان گیده‌ن بارکش آتلارك قدملرینك تاپیلتیسی، آتلارك قدملرینندن چیقوب سیچرایان دیبی گورونمه‌ین ده‌ره‌لره‌یووارلانان داشلارك تاقیلتیسی اطرافه بویوك بر قالماغال سالماقدا ایدی.

بو آرادا هردنبر میشه‌بایقوشلارینك‌دا اولاماسی کیجه نك ئولوملی سکوتنی خلل‌دار ایدیرایدی.

اوزون یول و عادت ایتمه‌دیکی سواریلیکدن یورولمش حسن مور گولیوب کاه باشینی ئه گوب، گاهدا سه کسه‌ه‌رك بردن قالدیروب، احتیاطلی بر حالدا اطرافی دیکله‌یوب آتنك یوگه نی دارتیردی.

امام‌زاده هاشیمه چاتاناکیبی اوزاقلارا و کاهدا یاووق ده‌ره‌لره عکس صدا سالمش‌د کزدن آتیلان توپ‌مرمی‌لرینك سسی حسنك قولاغینا گلمکده ایدی.

بو گنج اوزخیالاتنده انزه‌لی‌محاربه‌سنده اشتراك ایدوب ایشتمش اولدیغی‌فرنکیلرایله روسلارك‌فر قلرینه‌وارمامش ایدی.

حسنك یوره گندن کیچن بو ایدی: نه اولایدی که خلیج فارسدان دوتوب مازانداران ساحللرینه کیبی بوتون اهل ایمانلار اتحاد ایدوب لسانلارینی و ساچلارینك رنك لرینی فرق ایتمه‌دن تمام‌فرنکیلری قیرماغا موفق اولسونلار.

عجبا، نه سبب حاجی زاهدبو کبی خداپسند، ثواب بر ایشی اوز عهده‌سنه گوتورمه‌یور که هر بر خالص ایرانلی دا اوز شمشیرینی گوتوروب اونك کومکینه گه‌لسونلر. یولك اوطرف بوطرفلرینده اوچوشماقدا اولان اود کیبی پاریلدایان جوجیلرك ایشیقلاری یوقولی اولان حسنك گوز لرینی مختلط اولوب، بویوبوب آخردا تمام کافرلری اوز آغوشینه چیکمکه حاضراولان بویوك بر جهنم زبانه‌سی کبی تصویر ایدیلردی.

بواودلارك‌دالینجاسونمکده‌اولان یوقولی‌حسن‌ده‌بروقت‌اوز یه‌هه رندن سوروشدیکنی گوروب یوقودان آییلوب گوزلرینی به‌ره‌لدیردی. حسنك بالدیرلاری ئورپه‌شیردی. حسن‌چیلاق دابانلارینی آتك بوش بوگیرلرینه‌سیخوب گوزلرینی‌باسمش یوقودان اوزینی آزاد ایتمك مقصدیله دوداقلارینی ایسلا دوب آتا موچقوریر وهردنبرده یانیقلی هوا ایله بیلدیکی غزل‌لردن اوقویوردی.

حسن اوزینك قزوین‌دن رشته گه‌لدیکی زمان باشینا

گه‌له‌ن قضاو قدەرى يادينا سالیردى. (مارو) نك جانلى سيماسى‌ده اونك گوزينك قاباغيندا جلوه‌له‌نيردى. لاپ يا ووقدان-حتى آنك قولاقلارينك آراسيندان (مارو)نك‌دوداق لارى گولومسه‌يوب‌حسنى جاغيرپردى. لاكن حسنك آلنى آتيك يالينا توقونوب يوزينه سورتولديگده حسن يوقودان آيلردى. اوزيندن بر نيچه قدم ايره‌ليده گيدن حاجى‌زاهد ده گاه دونگه‌لرده گوزه‌ن ايتوب گاهيده آيدين‌ويلديزلى آسمانك قارشوسيندا آيدين بر صورتده نمايان اولوردى. ساغ طرفده، هوندور بريرده، ميشه‌نك قالين كول‌ليقى آراسيندان اود قالاغينك شعله‌سيده گوزه جارپيردى. بو نه‌در؟.. بو آلاو چوبانلارك اود قالاغنى‌ويا كه جنگليلرك مشروط اشارتلريمى؟.. بونى گوره‌ن حسن بيله فكر له‌شدى: «بلكه‌ده‌ياريم‌ساعت داغ بوگريله قالقاندان‌سوگرا بو آلاو قالاغينك كنارينده اوتوروب ايستى چاى ايچوب راحتجه‌سينه آياقلاريمى اوزاتماق منه نسيب اولدى!..

بوفكردن سوگرا حسن اوز رفيقينه بيله سوردى:

-حاجى، بيز بو اود قالاغينا طرف قالقميوريقمى ؟..

- يوق، بو ساعت ده‌ره باشى آشاغى أينه‌جه‌يك!.

-حاجى، ميرزه كوچك‌خانك‌قوشونيناتشمه گميزه‌چوقمى قالمشدر؟.. حاجى زاهد اوزيه‌هه‌رينده اوتوردينى حالدا بوناطرف دونوب به‌ر كدن گولدى.

- ميرزه كوچك خانك قوشونيمى!. اونك قوشونى هريئرده‌حاضردر. اورادا، بورادااونك‌قوشونتى‌تاپماق‌اولار. هر بر قايا ديبيندن، هر بر كومادان‌وده‌ره‌دن مسلح امل اوزانوب كومگه قالقاجاقدر!..

-من‌تله‌سيرم‌كه ممكس قادار دشمنه تيز راست گه‌ليم.

- سن تيز زماندا اونا راست گه‌لرسن!

- بس، بو ساعت انزه‌ليده نه‌لر واقع اولور؟..

- يقين كه‌بوساعت‌قرمزى‌روسلار انزليه داخل‌اولوبلار.

- اونلار هيچ وقت بيزه خائن چيقمازلار كه؟..

- سن‌دن هيچ وقت موالا اولمايان كيبى، اونلارك‌دا توپلارى هيچ وقت بيزه قارشو چه‌ويريلمزلر.

- سن اونلار ايله گوروشوب‌صحبت ايتمش سنمى؟..

بو سئوالدان‌سوگراحاجى‌زاهد داهادابه‌ر كدن گولدى.

- دريا دالغالارى منه اونلارك سلامنى گه‌تيرمشدر.

بو اثناده سسينى بيردن كه‌سوب يو گه‌ندن ياپيشدى. جيغير بيردن بيره‌ده‌ره‌ريه‌ئه گيلوب چاى كنارينه‌طرف اوزاندى. آتلارك آياقلارى آلتندان ساغساغانلارا وچوشماغا باشلادىلار. بير چيتوه‌رت ساعت‌دن سوگرا همين دسته ساغا دونوب زيتون كول‌ليقينا داخل اولدى.

كول‌ليقدان چيقديقجا قوجامان آغاجلارك آراسيندان گيده‌ن جيغيردا يولچيلارى بال عطرى مست ايديجى بر درجه‌ده ايدى. مزارستان ساكتليگى وزيل قارانليق‌يولچى لارى احاطه ايتمش ايدى.

حاجى زاهد بر چنكه قورى اوت ياندىروب باشينك اوستنده دوتدى. معشلك نازيك وايتى شعله‌سينك قاباغيندا آتلارك آياقلارى آلتيندا آچيق-ساري داشلارك اوستندن سوزه‌ن نازيك سوجولگه‌سى‌پارلدايىردى. آتلاردويوكمش حالدا احتياط ايله قدمارينى قالديراراق دوداقلاريله بوسو دان ايچيردىلر.

تفنك چاقماقلارينك چكيلمه‌سى سسى احتياطلى‌حسنك قولاقلارينا يتيشدى. حسن اوساعت تفنگنى‌چيگنندن‌سالوب الينده، آماده دوتدى. او، حتى اوز يوره گينك‌دوگونمه سينى بيله ايشيديردى.

بوآنده حاجى زاهد يوكسگدن:

- درخت!.. كلمه‌سينى قيشقيروب الينده كى يانارمشعلى چوق هوندوره تولادى.

- انشاالله-ديه‌ن بر نيچه‌سس كول‌ليقلار آراسيندان ايشيديلنوب يالين آياقلارك آخارسوايچينده يورومگلرى‌ايشيديلدى.

-انشاءالله، سوزيله‌حاجى‌زاهد ياواشدن جواب‌ويردى.

بو حالدا اوزون لوله‌لى بيردانقا تفنگلريله مسلح‌اولان اوچ‌نفرچوبان‌پالتارى گه‌يمش آدامىلارحاجى‌زاهده‌ياووقلاشديلار.

مشعلك آلاوى اونلارك كومور كيبى قارا ساققالللى صفتارينى ايشيقلاندىردى.

بونلارك بريسى حاجى زاهده ياووقلاشوب ديدى:

بيز سنى گوزليوردىك. بيز گلديك، سندن بيله‌ك كه آلاو تونقارلارينى ياندىرماق وقتى چاتديمى؟..

حاجى زاهد ديدى:

- گيدوب ديبگز كه ئولى گول روحلانمشدر. بو سوزدن سوگرا الينده كى يانار مشعلى توللادى. مشعل هوندور آغاجلارك آراسيندان قالقوب بر نيچه دور وور ديقدان سوگرا سفيد رودك تكينه دوشوب سوندى.

زيل قارانليق بونلارك هاموسينى احاطه ايتدى.

- بزدن‌برنفرسيزى راحت اولاجاقيگزمحله‌آپاراجاقدر.

قارانليقدان ايكنجى بر سس بيله ديدى:

- صباح، صبح نمازيندن سوگرا آغاجلار تماماً ياپراقلانوب بتون جنگل‌سنك‌ورودبگى تبريك‌ايده‌جگدر.

- انشاءالله!.. سوزيله حاجى زاهد جواب ويردى.

اونك‌دالينجادسته‌تماميله «انشاءالله» كلمه‌سينى‌تذكارايتدى.

- انشاءالله!..



سونیندن سوکرا آتلار تازه‌دن حرکته گلوب یوالارینادوام ایتدیلر.



آنالق و چوجوقلق محافظه‌سی

قادین حفظ‌الصحه‌سی.

عمومیتله قادینلارك حیاتی دورت دوره‌یه آیریلر: برینجی دوره ـ دنیایه گلدیگدن تکلیف یاشینا قدر کیچردیگی دور؛ ایکنجی دوره ـ تکلیف یاشیندان اره گیدینجه‌یه قدر؛ اوچنجی دوره اره گیتدیگدن سوڭرا عادتدن کسیلینجه‌یه قدر؛ و دوردینجی ـ عادتدن کسیلدیگدن اولو ـ نجه‌یه قدر. بونك ایچونده قادین حفظ‌الصحه‌سینیده دورت دوره‌یه آیراراق مطالعه ایده‌جگیز.

I. چوجق جهاز تناسل حفظ‌الصحه‌سی.

بو حفظ‌الصحه‌یه چوجق دنیایه گلیرکن باشلامالی. تازه دوغان چوجق ایچون اڭ بویوك تهلکه سوزه‌نگدر. چوجق دوغوران آنا بو خسته‌لگه مبتلا ایسه چوجق دو غوریرکن اونی خسته ایتمك قورقوسی واردر..

بر ایوده آنادان باشقا بر چوقلارینك خسته اولماق احتمالی واردر، ایوده هر کس چوجق ایله اوینایور، دیمك هر خسته آدامدان چوجغه سوزه‌نك کیچه بیله‌ر. اڭ فنا عادت بر چوجغك دونینی باشقا بر چوجغه گیدیرمك ایله بر نیچه چوجغی بر یئرده یاتیرماقدر. خسته بر چوجغك سالم چوجقلار ایله بر آرادا بولونماسی، خسته‌لغك سالم چوجقلارا کیچمه‌سنه چوق یاردم ایده‌ر. چوجغی ال ایله ییقاماق دوغرو بر شی ده گل. اڭ یاقشیسی هر دفعه ده گیشمك شرطیله چوجیغی تعیز پامبوق ایله ییقامالیدر. خسته‌لغه دوتولان چوجقلارك جهاز تناسلی‌لری قرمزی، ایشپرگه‌ن و خارجی قسملری ساریمتراق افرازات ایله اورتولیدر. خسته‌لغك قاباغی تیز آلینمازسا افرازات قیزلیق پرده‌سنده‌ن ایچه‌ری کیچه‌ره‌ك مهبلك آشاغی قسمنی خسته ایده بیله‌ر. خسته‌لغك یوقاریلارا قدر کیچمه‌سینه امکان اولمادیغی ایچین فرجك اطرافنده کوچك یارالار حصوله گتیریر و ساغالدیقدان سوڭرا یرینده بر چوق سرت نقطه‌لر بیراقیر. بعضاً بو یارادان بتون بر قیزلیق پرده‌سنك خراب اولدیغی گوریلمشدر. خسته اولان چوجغی درحال دوقتورا گوستروب تداویسنی اوناترك ایتمه‌لیدر.

II. گنج حل بلوغه واران قیزلاردا حفظ‌الصحه.

15 ـ 13 یاش آراسندا (بوندان اول و گیجده اولا بیله‌ر) قیز چوجقلاری عادت گورمگه باشلارلار. بو یاشا ـ حن بلوغ دییلیر. بو یاشدا قیزلار حامله (کبه) قالماق و چوجق دوغورماق اقتدارینه مالکدرلر. عادت گور مك قادینلار ایچین بر نوع خسته‌لگدر. عادت زمانی قادینلاردا بر چوق تبدلات حصوله گه‌لیر. بر چوق گنج قیزلار بونك نه اولدیغنی آڭلامادیقلاری ایچین، ایلك عادت گوردیگلری زمان بویوك قورقو وهیجان کیچریر لر. بو قباحت نتیجه‌سی اولاراق حصوله گلدیگنی ظن ایدره‌ك، قانی دوردیرماق مقصدیله فرجلرینه، اللرینه گلن پیس و کیرلی شیلری طیقار ـ ویا خود آلت کوملکی و دونلاری قانا بولاشماسون دییه هر بش دقیقه‌ده اوز ـ لرینی ساووق سو ایله ییقارلار. هر آنا قیز چوجوقلارینا جهاز تناسلی حفظ‌الصحه‌سی باره‌سنده آز چوق معلومات ویرمه‌لیدر. بعض آنالار قیز چوجقلارینا پیشابا (ایدرار) گیتدیگدن سوڭرا کومله گلرینك اتکلری، ایله اوزلرینی قورولامالارینی اوگره‌دیرلر. بونا هیچده لزوم یوقدر، بوندانسا بویله قورولامالارك ضررلرینی اونلارا اوگره‌تمك داها خیرلی‌در. کوملك اتگینده هر طورلو میقروب واردر، چوجق اوزینی قورولارکن أوز الی ایله میقروبی ایدرار

یولیله مهلنه سورو کله‌یور و اوزینی خسته ایدیر. ایکنجی- آنالارك دقت ایده‌جکلری شی، بیوك آبده‌ستدن سو کرا چوجقلارینی آرقادان او که دکل، اوکدن آرقایا بیقمالا ریدر و بویله‌او کره‌تمه‌لیدرلر.

چونکه دوز باغرساقدا «قولی» و دیگر بر چوق میقروب لار واردر، بونلارك فرجه گیره‌رك خسته‌لك حصوله گتیردیگنی گوزه ده گمشدر. بوندان باشقا بعض قیز چوجقلارینك قرجلرینده «اوقسیور» دیکلری قورت ویا دیگر سبب لردن متولد قاشینتی حصوله گلیر. بو قاشینتی ازاله ایچون قیزلار اللری ایله فرجلرینی قاشیر و عین زماندا غیری اختیاری اولاراق الك حساس عضولرینه تماس ایدیرلر.

بو تماس اونلارك چوق خوشلارینا گیدیر و قاشینتی زائل اولدیغی حالدا بو عادتی ترك ایتمه‌یه‌رك حس شهوا نیلرینی بونکله تسکین ایدرلر، بو عادت هر کسك زهنینی، استقبالینی، وارلیقنی محو ویوقا چیقاراق و اوزینه، گوره بر خسته‌لکدر. بویله قیزلار گوندن گونه ضعیفلر اشتهادان قالار، گوزلرینك آلتلاری سارالیر، گولمز، هر زمان و هر کسدن یالکز یاشاماق ایسته‌ر، یادداشی گوندن گونه غیب اولار ه‌الخ.. بونلارا مانع اولماق ایچین هر آنا چوجقلرینی دائما نظرده بولوندیرمالیدر و بویله بر شی گورور گورمز چوجقلارینی بر دوقتورا گوتورمه‌لیدرلر.

مابعدی وار.

دوقتور: **محمد خلف**

اوشاقلاردا خاله‌را ناخوشلغی.

اوشاقلاردا گورونه‌ن آزارلاردان الك قورقولوسو «اوشاق خاله‌راسی» آدلانان قارین ایشله‌مه‌در. اودا همیشه یایدا اولور. بو آزار آرتیق درجه‌ده آنا سودی ییمه‌یوب باشقا شیئلرله بسله‌نن اوشاقلاردا گورونور. اوشاق گونده 15_10 دفعه آیاق بولونا گیدیر. هرنه یه‌ر، ایچرسه قوسور، قیزدیرماسی 40_39 درجه‌یه قالقیر. املی آیاغی سویوبور درحال لازیم اولان هکیم کومگی اولمازسا اوشاق تلف اولور.

ایندی دیمه‌ك ایسته‌یوره‌مکه بالاجا اوشاقلاری بوخسته لکدن نه طور قوروماق لازم‌در. اسهال آزاری الچوق آنا سودی ئه‌مه‌یه‌ن اوشاقلاردا گورونور. اوکا گوره اوشاقلارا همیشه تازه، یاخشی، قاینانمش سود ویرمه‌لیدر. اوشاغا هر سود ویرمه‌دن اول سودی قاینانمالی. چونکه سود قالوب سویودوقجا اوندا اوشاغیك بدنینه ضرر رویره‌ن میقروبلار توره‌یر. بیر اوشاق اسهال ایله آزارلی اولورسا اونی او ساعت عادی ییمه گیندن کسوب غیری شیله‌ر ویرمه‌لیدر. بوشیلردن الك یاقشی‌سی قاینانمش سود ایله قاتشدیریلمش یومورتا آغی‌در، بونی ایسه قایرماق چوق آسان برشی‌در. یومورتا آغنی (یومورتا آغی چیئی اولمالیدر) بر استکان سویوق، قاینانمش صو ایله قاریشدیروب بیر پارچا آغ تنظیفدن سوزورله‌ر وایچینه بیرر قاشیق شکر، وقونیاق توکورله‌ر. بونی بوز ایچنده‌ساقلایوب هر 10_5 دقیقه‌ده بیر چای قاشیغی اوشاغا ویرمه‌ك لازم‌در. اوشاغیك ال وآیاغی سویوارسا ایستی صویو بوتولقالارا توکوب آیاقلارینك آلتینا قویوب قیزدیرمالی قارنینا قومپره‌س ساریما لی. اوشاغا لازم اولان قاعده‌ده باقیلارسا ساغالتماق اولار. البته حکیم اولان یه‌رده باشاردیقجا اوشاغی تیز حکیمه گوسته‌رمه‌لی‌در.

ماهتابان خانم آدیگوزه‌لووا.

تنباکو چیکمك و اونك ضرری.

دورت یوز ایل بوندان مقدم لیسابونلی زنگین بر آدمه تحفه اولاراق آمیریقادان تنباکونك توخومنی گوندره‌رمیشدیلر. او وقت آوروپادا تنباکو چیکمك بیر کیمسه‌یه معلوم دکل ایدی وهمین زنگین لیسا بونلی نی تنباکونك آنجاق گوزه‌ل چیچکلری مراقلاندیریردی واونی باشقا چیچکلریك آراسندا ئه کوب بسله‌یوردی.

اووقتدن به‌ری آوروپادا تنباکو اکمك برعادت اولدی، دیمك ایلك اوللری تنباکونك یالکز چیچکلرینك گوزه‌ل اولماسینا گوره اکیردیلر. سوکرالار تنباکونی بیچه‌ره‌لر گوردیلر که تنباکونك یاپراقلاری دیشی آغریسانا ومختلف آغریلاردان انسانه بیر آز کومك ایدیر، حتی بعضا انسانه کیفده کتیریر. بونی گوره‌ن تنباکو امکچیلری تنباکونك یاپراغلارینی قورودوب اونی ایله‌مکه، چیکمکه وچیگنه مگه باشلادیلار.

XIV نجی عصرده تنباکو چیکمك اوقدر آرتدی که اینکلتره وایتالیادا حکومت تنباکو چکمکی قدغن ایتمه گه

مجبور اولدی. تورکیه‌ده همچنین تنباکو چیکنلریك بورونلارینی دیشیردیلر وبعضی وقت‌اولدیریردیلر. روسیه‌ده ایلك وقت تنباکو چکن عسکرلری سیبریایه سورگون ایدیردیلر. بویله‌لیکله تنباکو چیکمکی قدغن ایتمك گوستریرکه بویله تدبیریك برسببی واردر. بودا تنباکودا اولان بر زهریك وجوده اولان ضررلی تاثیریندن عبارتدر. اونك ایچون چوق عالملر بو مسئه اوستنده چالشوب گوردیلرکه تنبا کودابرضررلی زهرواردرکه‌اوگادا (نیقوتین) دییه‌رلر. (نیقوتین) بعض تنباکولرده برآز چوق وبعضلرینده اوبرینه نسبتاً آزدر. تقریبا تنباکوده اورتا ایکی فایض (نیقوتین)وار. بهالی تنباکوده (قاوانتا تنباکوسنده) نیقوتین ماه2 قدر و اوجوزنده ماه 8 قدردر.

انسانلار تنباکو چیکنده تنباکو توستوسی ایله‌اوندا اولان نیقوتینك اوزجگرلرینه گیتمه‌گنه سبب اولورلار، اوراداندا قان واسطه‌سیله وجودینك بتون اعضالرینه‌داغیلیر.

نیقوتینك باشقا تنباکو توستی‌سنده، غیری ضررلی‌غاز لاردا وار آنجاق بونلاریك ضررلی‌سی نیقوتین‌در.

نیقوتین اوقدرضررلی برشی‌درکه اونك بردامجی‌سی آدامی اولدوره بیله‌ر. تنباکونك توستی‌سنده نیقوتین‌چوق آز اولدیغنا گوره انسانی اولدورمه‌یور. آنجاق بعضابدبخت حادثه‌ده یوز ویره بیله‌ر؛ حتی بیر دفعه‌ساغلام بیر کیشی 12 ساعت مدتنده 14 سیغاره و40 سیقاریت چیکدیگدن سوگرا تلف اولمشدر انسان نیقوتین ایله زهرلندیگده باشی‌آغریماغا باشلایور، قوسور، نفسی آغیرلاشیر، بگزی آغاریر، الی آیاغی ساوویور وبیهوش حالدا ضعیف‌دوشیر.

سیغاره‌یه آلیشمامیش بر آدام اوچ دورت پاپروس چکدیکدن سوگرا گورورسیگز که اوزینی پیس حس ایدیر، باشی آغرایور، یوره گی بولانیر، بعضاً حتی‌بیهوش‌دا اولا بیلر. چوق وقت جوانلار اوزلرینی مجبوراپاپروس چکمگه او گره‌دیرلر.

اوللر اونلارده پاپروسیك قوقوسی‌ده باش آغریسی تورەدیر اما سوگرالار وجودلری نیقوتین زهرینه‌او گره‌ن دیگی ایچون اول‌چکه بیلمه‌یورلر. حتی‌پاپروس‌چکدیکدن سوگرا اوزلرینی روحلانمیش کبی حس ایدیرلر.

نه‌قدر انسان جواندر وجاندا برخسته‌لیق یوقدرپاپروس چکمگینك آغر ضربه‌لرینی حس ایتمه‌یور؛ چونکه جانی ساغلام آدامیك وجودی مبارزه ایدیر. اما تنباکوچیکه‌ن بیر خسته وضعیف بر آدام تاب گتورمه‌یور. تنباکونك ضررینی اوز وجودینده حس ایدیر. تنباکو انسانك بتون اعضالرینه یوره گینه، جیگرلرینه، معده‌سنه، ضرر ویریر. تنباکو نی چیکن آدملارینك یوره‌ك دو گونمه‌سی اولور، نبضلریده قاعده ایله وورمایور.

قان دامارلارینداگونی گوندن خراب اولور واونلاردا (Arteriosclerosis) آدیندا برخسته‌لیق عمله گلیر. آنجق تنباکونك اك‌چوق ضرری انسانك جگرلرینه ده گیر. علی‌الخصوص جگرلری ضعیف اولانلار وه‌ره‌م ایله خسته اولانلارا وه‌ره‌می‌اولان آدامیك‌پاپروس چیکدیکدن‌سوگرا جگرینده‌ن داها تیز قان گله بیلر.

فرنك دوقتورلاری اوز تجربه‌لری سایه‌سنده بویله‌بر فکره گلمیشدرلرکه: «100 وه‌ره‌مله خسته اولان آدملا ریك تخمینا 95 نفری تنباکو چیکنلردر.

تنباکوده اولان نیقوتین نه‌اینکه یورك وجگرلره‌ضرر ایدیر. حتی گوزه، دیشه وقولاغادا ضرری وار.

معلومدرکه نیقوتین ایله زهرلنمش اولان‌آدام‌بوسبتون کور اولا بیله. تنباکو چکمك بویوك آدملارا ضرررلی اولدیغی کیبی اوشاقلارا داهادا ضرررلی‌در.

هیچ بر زمان اوشاقلارا پاپروس چیکمك اولماز.

تنباکو فابریقالارینداایشله‌ین‌جوانلار وحتی چوق‌یاشلی عمله‌لر چوق تیز وه‌ره‌م‌خسته‌لیقنه‌مبتلا اولورلار. فابریقدا ایشله‌ین حامله قادینلاردا چوق وقتی یاریمچیق اوشاق سالیرلار ویاخود دوغدیقلاری‌اوشاق اولدیقجاضعیف‌اولور.

ستاتیستیقا گوستریرکه 35ـ25 یاشلارینداا اولنلریك اك چوق فائضی تنباکو فابریقالارینداا ایشله‌ین‌عمله‌لردن‌عبارتدر.

تنباکونك ضررلی اولماسی داها برکمسه‌یه معلومدر. بونی ثبوت ایتمك ایچون عالملریك‌لابارا توریالارینه‌مراجعت ایتمك لازم دگلدر. بونی بیز یوزلرچه سارارمیش‌وجودی ضعیف، کو کسی‌باتمیش چوبوقـقلیان وپاپروس‌چیکن خلقمزك افرادینده گوریریك. خصوصاً صوك ایللرده آرواد لاریمزدا اوشاقلاریمزدا تنباکو وپاپروس چکمك‌اولدوقجا دهشتلی سرایت ایتمشدر.

بوگون بتون دنیا تنباکو چکمك ایله مبارزه‌ایدیر. مملکتمزده تنباکوچکمك چوق آرتدیغنا گوره‌اونگله مبارزه ایتمك لازمدر. هربر مکتبده اوشاقلارا آگلاتماق لازمدرکه تنباکو چکمك انسانك وجودینه‌ضرر ایدیر.

خصوصا قادینلارك تنباکو چکمك‌لرینك قارشوسینی آلمالی‌در، چونکه تنباکو یالگز آنایا ضربه ووررمایور گله‌جك نسلینی‌ده ضعیفلشدیریر.

هروطنداش بیلمه‌لیدرکه آنجاق ساغلام بدنده ساغلام روح اولا بیله‌ر؛ و آروادلاریمزدا بیلمه‌لیدرکه آنجاق ساغلام آنادان ساغلام اولاد اولا بیله‌ر.

یازانی: ا. موسی بگلی.



کوی قیزی...

گزه‌سه‌ن جهانی. دوتاسان سایی
ایشله‌یه‌ر قیش بهار، پایز هم یایی
گوزه‌للیگده اصلا، تاپیلماز تایی
ایونی-باغینی، به‌زه‌ر کوی قیزی.

گوکلو صاف چوق ساده، هم ئوزی آزاد
هر یئری تازه‌دیر، ایواری آباد
ایده‌رسه‌م اونلاری، گرچه بوگون یاد
سویله‌ره‌م ایت بیزه، گذر کوی قیزی.

سنده کی آچیق سوز، خلق‌ده کی سازدیر،
تویوقلاریك ئورده گ، خوروزیك قازدیر،
قیش گیتمیش صباحك، ایانداا یازدیر،
اورمانی سیر ایدوب، گزه‌ر کوی قیزی.

گوکلومك ایزی‌سه‌ن، یوره گك ساده
بو هجراندا بیر گه‌ل، جاتده سن داده
یوکسه‌ل بو جهاندا، مالك اول آده
هر دورلو جفایه، دوزه‌ر کوی قیزی.

چالیشقان سخالی، ئه‌ل‌ده، اوبادا؛
اکین وقتی اولماز، یقین اووادا؛
قیش فصلی قیزینار، ده‌میر سوبادا؛
آقشاملار مرجانین دوزه‌ر کوی قیزی،

بیچینه گیده‌ر که‌ن، یولدا ییلانلار
آریلار چیقار که: آدام چالانلار
قورقمایوب یئرده‌ن داش آلار آرانلار
ییلانلار باشینی، ازه‌ر کوی قیزی.

شهرده قیزلاری، سورمه‌لی گوره‌ر
یاناغدا أنلیه کیرشانه گوله‌ر
گوکلو صاف ترلادیر، بیر یئره یوره‌ر
اونلارا دوداغین، بوزه‌ر کوی قیزی

بولاغ صولارینی، ایچه‌ر هر زمان
باشارماز ایتمه گه، بیرینه یمان
چوخ خیال پروردیر، حمام‌سیز همان
آخاردا یویونار، یوزه‌ر کوی قیزی.

سه‌وه‌ر تك بیرینی، اوله‌نه‌ر اوگا،
ویردیگی سوزی بیر، اول‌دن صوگا
گوگول گرگ اوچوب باق اوگا قوگا
نه گوزه‌ل گوزلرین، سوزه‌ر کوی قیزی.

قدرت علوی.

بیز بیز

ازلاب باغنك شهن چیچكلری
چالینماز بر عشقیك چالقیسی بیزیز

بیزده جسارت وار همده حقیقت
حقیقت آردینجا قوشالار بیزیز

حقیقت له‌نینك ایزیندن قالمیش
اونی تقدیس ایده‌ن یگیتلر بیزیز

مسعود یاشایش چین جان آتان ادرلر
عالمه ولوله سالانلار بیزیز

انقلاب توخومیك بهره‌سی اولدیق
بو شانلی ایده آلیك یواچیسی بیزیز

علم، فن، تربیه، تعلیم و تدریس
آرقاسنجا قوشان چوجوقلار بیزیز

غایه‌میز چوق بویوك هله مختصر
عالمه انقلاب سالانلار بیزیز

مكتبه قوشاراق آلیق تربیه
هر ایشه مفكوره صرف ایده‌ن بیزیز

بیزده صداقت‌وار همده حقیقت
دردار چین درمانی تاپانلار بیزیز

آچیلمیش بر چیچك قده‌ر الوانیز
بو گوزه‌للیك ایله شاد اولان بیزیز

بزده بو صنعتلر چوق اسكی‌در
بونلارك هاموسیك رنك ساتان بیزیز

یگی بر عالمیك ایلك قوماندانی
خلقی حق یولونا آپاران بیزیز

داغیتماق ایسته‌ریز اسكی عالمی
سلطانی، خاقانی محو ایده‌ن بیزیز

یگیت چوچوقلاریز فكریمیز ساغلام
له‌نینك یولونی پاك سانان بیزیز

اینانماریز داها اسكی عادته
نفرتلر باغدیران بیكتلر بیزیز

توپلاشوب بر یره اولموشیز فارداش
كوهنه عادتلری قیرانلار بیزیز

هر ایشمیز اوستنده له‌نین املی
دائما سه‌وه‌ریز بین‌المللی

برابر یاشایوب هایدی ایله‌ری
استقبال بزیمدر، سوسیالیزمایه

آل بر اولوب شرقه طرف قوشالم
شرق قادینك بزلر آزاد ایده‌لم

رحمان سلطانوف شاغانی

ته‌خیكی چهتدن نقصانلی اولان بو منظومه یی برافاركه‌ن اداره مفكوره‌وی جهتی نظره آلدی.

یکی تربیه.

تبلیغات اویونو.

(اوشاق باغچالاریندا و میدانچالاریندا اویناناماق ایچوندر)

جیران خالا. په، په بودا آروادی آ! بیلیرسگز نه وار؟ مارال نه‌ده اجتماعی تربیه درنگینه یازیلوبدر.

دیلاره. ایشی گوجی یوقدر، اونا گوره‌ده قوجالقدا یورغالق ایله‌یبر. هله هاراسیدی؟ پیئونه‌رلیگه‌ده یازیلاجاقدی. فاطما هیچ یاینمه‌ین، ئیله پیئورقادی که وار: باشینا قیرمزی دستمال چالوب، آروات، لاپ اوزونو گولونج ایلییوب (هاموسو گولور).

جیران خالا. بو موردارك قیزی شعله اوزونو هر یه‌ره سوخور، دنیانی قاتیر ـ قاریشدیریر. نه اینکه آرواتلارك، بوتون کیشیله‌رك‌ده ایچریسینه وه‌لوله سالیبدی! منم کریم کیشیم، داها شعله دیمکدن «اجتماعی تربیه» دیمکده‌ن، قولاقلاریمی آپاریبدی، سن، دیر، بر شعله‌یه باق چوق قوچاق آرواتدی، اوزوده اوقویور، اوز گه‌ریده چه کیر. سویله‌یور که «اجتماعی تربیه» درنکی، «یاسلی» دیئیله‌ن، سود أمه‌ر، کورپه چوجوق أیوی آچماغا، چوجوق میدانچاسی آچماغا چالیشیر، گینه‌ده ساغ اولسون شعله! بو آروادا منیم ایله آجیغم دوتور که آز قالیرام اولدورم. کیشیده دییورم، که سنده کیت شعله‌نك یانینا، بزی یولدان چیقارتما.

گل جهان. آی آرواتلار، بو ظالیمك قیزی، هریه‌ره یورنونو سوقور. بو گونله‌رده منم باشیما بر اویون گه‌تیروبدر، که اینندی‌ده هله آجیغیم سویوموبوبدر! یکه محمدك اوغلی حسن قولونو یقوب، بیلینی اولگوج نه‌ن چه‌رتیب بادکه‌ش ایله قان ـ آلماق ایستییریك، که تیتره‌دوب، قیزدیرماسین؛ بو دقیقه‌ده هه‌یه‌ته گه‌لوب، بزیم آبریمزی توکدی: سز قانمازسگز آدام ده گلسگز! نه قایریرسگز؟ یازیق اوشاغی نیه اولدورورسگز؟ دییوب، بزی اویان بویانا ایته‌له‌دی، حسن قولونو أیلمزدن قاپوب، گوتوردی، قاچدی آرواد دوخدورونك یانینا هله ایمدی‌ده حسن قولو او شئیك اوسته شعله‌نك خطرینی چوق ایستیر.

جیران خالا. آلا، ای، کول باشیگا! سنده گوتوروب اونك «قانماز» دیمه گینك عوضنده، بارماقلاریگك بیشینده اونك به‌به گینه سوخایدك، بزه آغیل اوگره‌ده‌نه باق! تبلیغاتچی‌یه‌باق! او اولماز، بو اولماز! پس نه‌اولار؟ هاراداسا اوزوندن بیر (حفظ صحه) دییور نه دییور «أده‌بلیلیك» چیقار دوبدی، هاموناك گوزونه سوخور، سویله‌ر، که‌بورنو گزی أته گگزنه‌ن سیلمیین! بو بی‌أده‌بلکدی، ناتیمزلیگدی!.. آی، شیطانك بالاسی شیطان! بزده سن ایله بیر یئرده اوقوماميشيق؟ الفدن، بیئی‌دن یاشقا هیچ بر شیئی بیلمیریك.

په‌ری. یوق، عزیزله‌ریم، بیز هارا، او هارا؟ بیر باقین گورون، شعله خالا نه ایشله‌ر توره‌دیر؟ خیره‌نسه‌نك قیزی لاپ ئولوردی. یازیق قیزك باشینا نه‌لر قالمشدی، که گه‌تیرمه‌میش اولالار؛ کوپه‌ده قویمشدیلار، بیلینه‌خامیردان مهلمده قویموشدیلار، هیچ بر کومه‌ك اولمامشدی. شعله چوق آسانلق‌لا خیره‌نیسه‌نك قیزجیغازی لیئلانی ناخوشلوقدان قورتاردی. هر کون آروات زحمت چه‌کوب قیزی هکیمك یانینا آپاردی، بیشیگی تولادی چوله، اونك عوضینه بیر فورماصبت کمی گه‌تیردی، قویدو، چوق یمه گده ویرمه‌دی. او گون اولموردی که خیره‌نیسه‌نك یانینا گیتمه‌سین؛ اورایا گه‌لن کیبی‌ده اونی سوگوب بی آبور ایدیردی، که سن نیه آرالق آرواتلاری‌نی چاغیروب، قیزیگا معالجه ایتمه‌ك عوضنده اونی داهادا آرتیق خسته‌له‌ندیروب خراب ایله‌میسه‌ن؟

فاطما. هیچ بیلمیرسن، اوشاقلاری نیجه تیلیسیمه سالوبدر، هاموسی شعله خالانی سه‌ویر، هاموسی اونك سوزینه باقیر.

دیلاره. دوغرو دییورسن فاطما باجی، دوغرو دییورسن. گور ایش هارایا چاتوبدی، که منم نادینج، اوغلومدا شعله‌نی تیز ـ تیز گوزومه سوخور دییور، که بیرشعله خالایا، باخ، هیچ اوز اوشاقلارینی دوگمور. اما سن ئیله هر شیئ اوسته منی دوگورسن.

جیران خالا. منم‌ده جیغیر قانیم، سهر تیزدن یوگوروب ـ گه‌لوب، دوشوب اوستومه، که «آناجیغیم مگا بر دستمال قایئر گوهنه‌دنده اولسا ضرر‌ل یوقدر. شعله خالانك اوشاقلارینك هاموسیندا دستمال وار، اونلار داها بورونلارینی أنگله‌رینه سیلمیرله‌ر.

گل جهان. بوتون کندی آلت اوست ایلییوبدی! چهارشنبه گونی، کورپه‌چه اوشاقلارا قوشولوب، آت

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0282

کبی چاپیردی. من داها دوزمویوب، اوز قیزیمی چاغردیم دیدیم، که گورشعله، یئکه آروات‌لغی‌نان نه‌پستها چیقاردیر؟ کیده‌ك، دیدیم، اونا بر آز مذمت ایلییه‌ك قیزدا هیچ بر ترپنیشیك گورمه‌دیم، ئیله بیل که هیچ ایشیتمه‌دی: سوزومی وه‌یجینه آلمادی.

فاطما. نه دانیشرسگز. ایئی بر یوللوق بیلك، که شعله اوشاقلارك دوستو کومك‌جیسودی. هیچ وقت او اوشاقلاری گوزدن قویمور: «کره‌ك»، دیور، «اوشاقلار ألله‌رینی یوسونلار، یاتاجاقلارینی‌دا هواده سه‌رسینله‌ر، اوندا ضررلی بیت، بیره‌له‌ر قیریلیر.

پەری. آی آرواتلار بلکه ائیله دوغروداندا ائیله لازمدر؟ بیر یاقشی فکرله‌شین گوره‌ك!

جیران خالا. کس سه‌سیگی به‌سدی! نادینجلك اوسته اوشاقلاری اوپمه گمی لازمدر؟ آنا، باجی من بیله ایشی باجارمارام. قوی بو ایشی شعله‌نه‌ن مارال نه‌نه ایله‌سینله‌ر. بو بیزیم عادتمز ده گل. گوزوموز آیدین تازه مود چیقاردیبلار: دیجورنالار ــ مه‌جورنالار هر گون یورغان دوشه گی چوله سه‌رسینله‌ر، بیله اولسون، هیله اولسون بو نه ایشدی؟

قاباقلاردا پالتاری هیچ سه‌رمیردیك، بیت بیره‌مزده قیریلمیردی؟ اوزوموزده ساغ سلامت ده گیلدیك؟من سیزك شعله گزه و اجتماعی تربیه اوزه گیگزه هیچ توپورمکده ایسته‌میرم! آخی بز اونا نیه باش قوشوب، اوزوموزی اینجدیریك! شعله بیله‌دی، شعله ائیله‌دی؟ تپو!.. گل جهان، گل جهان! من اولوم که‌ل بیر ایندیکی هاوالاردان برینی اوقویاق، بر باشلا! باشلاده!..

گل‌جهان (اوقویور)

(هاواسی: یامان‌گونه قویدولار بیزی بو بالشاوویلار)

من کیدیرم اجلاسلارا هر آقشام وقتینده،
باقیرام غازیت ژورناللارا اورادا همده،
ساده‌جه‌یم من، ساده‌جه‌یم، پك ساده‌جه‌یم
هیچ کیمسه‌یه کولمه‌رم، من کولمه‌رم، کولمه‌رم.

عزیز یولداش، نه چون سن پریشانسان بیله،
نه گیزلی سه‌نیك درد غمیك اولا بیله‌ر هیله؟
سوموش، دویموشام، گه‌له‌جه گمیزی‌سن،
قارانلق کیچمیشیمیزه پەك متاثرسن سن،

نه گور یاقینلاشدیرمش قیزیل بایراق بیزه
اونو، ده کیل ایگیرمی، یالگز یدی أیلده،
یقین اولاجاق پارلاق، ایکرمی بیشده کامیل
کندلی‌یه‌ده، ایشچی فعله سیزده شامیل

(ایکنجی پارچا اوقونان زمان اجتماعی تربیه درنگی ایشچیله‌ری داخل اولور، قولاق آسیرلار.)

گل جهان. هه، نیجه‌در؟ دییه‌سن، سیزك کیبی او- قویا بیلمه‌ریك؟ بیئی! مارال نه‌نه، سنده بوراداسان؟ کیفك نیجه‌در؟

مارال نه‌نه. کوك‌دو، عزیزیم چوق کوکدو.

گل جهان. اما مارال نه‌نه، قیرمزی چالماسنك آغ ساچ بیرچه کیگاهیچ‌یاراشمیر، ها!

مارال نه‌نه. آی قیز ایئی! سگا بورج ده گل.اونو من اوزوم بیله‌رم، منیم ساچ بیرچه کیمه یاراشیر یابوق.

گل جهان. سز نه ایچین بزیم یانیمزا که‌لمیسگز؟

شعله. صحبتگزه قولاق آسماق ایچین کلمشیك.

جیران خالا. ناحق یه‌ره باشیگزی آغریتمیین، بز پشیروب دوشورمکدن باشقا،قاب قازاندان باشقا هیچ بر شی بیلمیریك.

شعله. چوق حیف؛ که آی یازیق آروات، بیرشئی یلمیرسن! اما بیله بیله‌رسن‌ها!

جیران خالا. قاداك آلیم، بو آغیز بورونان، بزی هارایا قویارلار؟ سز ته‌زه باردا‌غ صو یوسگز، تربیه‌چی- سگز! بز یازیقجا بنده‌ایك، بزه قولاق آسمیین اوزوگز بزه بر شئی سویله‌یك!

شعله. بز چوق شادلق ایله بیلدیگمزی سزه‌سویله- ریك، ائیله بوندان اوته‌ریده بیلیك دالنجا یو کوروروك.

جیران خالا. چوق یاقشی، ایندیکی سز بیله‌نسگز، دانیشین، بزده قولاق آساق.

شعله. (داوجا داغلار قارلی داغلار باشیندا» هاواسیندا)

1ـ ویرمه‌ك ایچین چوجوغا گوزه‌ل تربیه
آنا هر شی‌ئی دخی بیلمه‌ك گره‌ك؛
یه‌دیرمه‌ك، کیئیدیرمه‌ك باقماغی نیجه
او گره‌نوب، بیلوب، او دوشونمه‌ك گره‌ك

(«یغلدیلار رابوچیلر کندجیله» هاواسندا)

2ـ یاه، عاغیلا گه‌لمه‌ز بودا ایش اولدو،
کتابلار اوزونه اوشاغا باق،
بو کی صو ایچیمی کمی بر شی‌دی.
دالینجا یو کوروب، اونو ساقلاماق

شعله. (بر قوجایام یوقدر جیبیمده پولوم هاواسینده)

1ـ ساغلاماغی ایچین کورپه چوجوغك
ایکی بویوك شرطی لازیم پوزماماق:
بری همیشه تمیزلکدی اونك
دیگه‌ری چوجوغی دوشدن آلماماق

(«آواز اوسته» هاواسیندا)

2ـ نه تمیزلیك بازلیقدی!
ده کیلیك کی بیزده خانیم!
تام اوز چیرك ـ پاسیمیزدی،
زوم‌جا قوقویور، جانیم!

شعله. (گوزه‌لیم یار گوزه‌لیم هاواسیندا)

1ـ اوچ آیلیغینا کمی،
قورقما، سن ویر مه‌مه‌گی
هر اوچ ساعتده بیر؛
موجوز ده کیل بو تدبیر.

(«آی قیز آی قیز آماندر» هاواسیندا)

2ـ چوجوغوم آغلادیقدا،
مه‌مه ویره‌رم اونا،
ساکیت اوندا دورارسا،
سوددن اولماز بیر خطا.

شعله. (« صباح هجران یانار» هاواسیندا)

1ـ چوقدان بیلمه‌ك گرکدی آنی:
اولماز چاغاجیغی به‌له‌مه‌ك،
علی‌الخصوص کی سود أمه‌ری
کورلاماقدی، ده کیل بسله‌مه‌ك.

(«اوجا باریدان آشارام» هاواسیندا)

2ـ بیزیم عاغیللی تربیه‌جیله‌ر،
«ضررلی دور ـ به‌له‌ك» دیرله‌ر،
آخماقئیدیلارمی کیچمشده
ساریرلاردی اونو به‌له‌گه.

تربیه‌چی.

(«دورون گیده‌ك ایویمیزه» هاواسیندا)

1ـ چوجوق خسته‌له‌ندیکده (آنا) 2،
ایتمه اوزون معالجه؛ (باجی) 2
هه کیمه قاچ آنا تیزلکده 2
درمان آل ویرسن کورپه‌یه 2

هاواسی: انزه‌لی
قید: «ترارام» آرتیریلیر.

2ـ آزارلاسادا چوجوق بردن 2
نه معالجه اولسا کم‌دن 2
تاپا بیلمه‌ز قطعیاً شفا
ویرمه‌ز قرار تاکری اونا.

شعله. («دو چه‌س هاوادوم» هاواسیندا)

1ـ ساقلاماق ایچین کورپه‌له‌ری
کیچه‌نه‌جن یای ایستیله‌ری؛
آچمالی یاسلی‌لار هر یه‌رده
ایتمه‌لی آنانی آزاده.

(«که‌که‌جقوری وقارتی ایغرال، یاتوم‌یروئغرال» هواسی‌یاخود «درسه‌گیدن براوشاق»)

2ـ سوزده آساندر أکر،
ایشده اولارمی مگر؟
ویرمه‌زله‌ر قه‌پیکده بیزه،
کوز آغاردارلار سیزه؟

شعله. (« بزیم یه‌رده‌اوردەك اولار، قاز اولار» هاواسیندا)

1ـ یاسلی! که‌ره کدی بر آزجا پارا،
کومه‌ك ویرمه‌ك دخی دوشه‌ر آتایا؛
چه‌تینمی‌دی به کم، بر آزدا اولسا،
أل یئتیر، باقما باجاریئقینا؟

تربیه‌چیلر. («آقشام اولدی هئی» هاواسیندا)

1ـ بویؤدو کده کی چوجوق بر بالاجا،
اولوك اوچون حکماً آچمالی باغجا؛
آکلایاجاق باغچادا عزیز اوشاق:
گه‌له‌جه کده نیجه لازیم دولانماق؟

(هواسی: سه‌گاه)

2 بیلمیرەم بورادا نه جواب ویریم،
لاپ اولدورسه گز بو ساعت منی،
قاباقیگزا کی دوران یوق، نه ایدیم،
نه دییرسگز، تئز دییگز دخی!

شعله. (هاواسی: «کیریپچیکی» یاخود لیزگی آهنگی «دائرارا»)

1ـ چوجوق باغچاسی، کورپه‌جیك اوشاغی،
او گره‌دیر، همیشه قوچاق اولماغی؛
پیسلیکه دوغرو چوجوق چکمه‌ز آهی،
اولار یالگز حیاتدا بزه داهی.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0284

(هواسی: «مصطفی کمال»)

2ـ پاه، کور نه فنا، آشعله، سوز دانیشیرسان!
زه‌وزه‌مه کده *) عجب ماهئیر اوستا آدام‌سان،
بولاندیریرسان چون کمی کیف احوالیمیزی،
اولسه‌نده بیله ویرمه‌ریك اوشاغیمیزی!

شعله. (هاواسی: «شمیلیك دعاسی»)

بو ایشله‌ره باشلارساق بز یه‌ك جدمن
قورقماریق یاشایشمزدا کیمسه‌دن،
آچاریق یاسلی، باغچا جسورا
فائدا یوق سیزك قیرقریکزدان.

جیران خالا. آی شعله‌سن نه‌دیلی اوزون آرواتسان سنك دوداقلارینان بال سوراسان.

شعله. آی آخماق آروات! سن أیله بیلیرسن، که هر شئی گوگدن دوشور! بیز اوزوموز گه‌رمك چالیشاق، ایسته‌دیگمیزی عمله گه‌تیره‌ك.

جیران خالا. بیز نه قایرا بیله‌ریك؟ بیز عوام آدامـلاریق!

شعله. دوغرودر، عوامیق: ایندی که بیله‌دی، گه‌رمك اوقویاق، اوگره‌نمك ده...

جیران خالا. آناجیغم، اوقوماغیمز کیچدی.

مارال نه‌نه. قیزیم، اوقوماق هیچ وقت گیچ اولماز، آنجاق خاهش لازمدی.

شعله. ساق اول، مارال نه‌نه! بوتون کنده سن بیر مثالسان! جیران خالا سنده گرمك چوقدان بزیم درنگه یازیلا ایدین‌ها: سنك أریك قاناجاقلی آدامدر، هیچ وقت مانع اولماز.

جیران خالا. بیله، سزك اوزوگزا لعنت! منی‌ده یولدان چیقاردیرسگز؟؟

(یوزونو چووورور اوز یولداشلارینا) آی آروادلار، کهلین بزده درنگه کیرمك، داها نه أیله‌یمك؟ اوقویاریق داینا! (آرواتلاردان بیر نیچه‌سی) أه نه اولار که گهلین بزده بو ایشی سینایاق!

جیران خالا. آی آرواتلار، بر منل وار، دییه‌رله‌ر، که خالامدان بیر دیلمك دیله‌رم، ویرسه‌ده خالامدی، ویرمه‌سه‌ده!

شعله. یاشا، جیران خالا، یاشا! (بوتون تربیه‌چیله‌ر) یاشاسین، یاشاسین! (أل‌چالیرلار) (بوحالدا قادینلار تشکیلاتچیسی ألینده بیر ته‌له‌غرام، ایچری داخل اولور).

تشکیلاتچی. هارا باتوب، کیجه‌لمیسگز؟ بوتون کندی آختاروب، سیزی تاپا بیلمه‌مشام.

یولداشلار، بودور باکودان ته‌له‌غرام گه‌لوب، بیزی قادینلار قونفرانسیناچاغیریرلار. نماینده‌سیزی گوندره‌رکمی؟

تربیه‌چیلر. گوندره‌رك، البته گوندره‌رك!

تشکیلاتچی. ایندی که بیله‌دی، نماینده سیچین، بو آقشام دوشسون‌له‌ر یولا!

آرواتلار. قوی تربیه‌چیله‌ر گیتسینله‌ر.

شعله. سز، بیزدنده، اوزوگوزداندا بیر نیچه نامزد گوسته‌رین.

تربیه‌چیله‌ر. بزیم طرفمزدن شعله‌نك مارال نه‌نه‌نك و کوهرك نامزدنی قویوروق.

آرواتلار. بزیم طرفمزدنده جیران خالانك و کل جهانك نامزدینی قویوروق.

تشکیلاتچی. یولداشلار، اجتماعی تربیه درنگی طرفندن شعله، مارال نه‌نه و کوهرك نامزدی قویولور، کیم بونلارك طرفداری‌دی الینی قالدیرسین؛ کندك آرـ وادلاری طرفندن جیران خالا و گل‌جهانك نامزدی قوـ یولور، کیم بونلارك طرفداری‌دی، الینی قالدیرسین.

(هامو أینی قالدیریر)

تشکیلاتچی. بیر سس ایله نامزدلر سه‌چیلدیله‌ر، چوق گوزمل؛ ایندی یولداشلار، جه‌لد گیدین، ایشله‌ریکزی دوزمه‌لدین، آقشام چیقمك یولا! شعله، سکا بیر تاپشیریغیم وار: چونکه سن هامودان زیره‌کسن، اورادا بیزیم نماینده‌له‌ر ایله برابر تنزهدن گیری‌یه قالما، هر شی‌یه‌دقت ایتله، سوگرا بورادا بزه سویله‌رسن.

آروادلار. یاقشی، یاقشی، اوزگه‌له‌ردن گیری‌یه قالماـ ریق. گل جهان، گل جهان بیر سلاماتی نغمه‌سی اوقو!.. (گل‌جهان باشلایور، اوقویور). هامو کومه‌ك ایدیر و نغمه اوقویا ـ اوقویا گیدیرله‌ر:

(هاواسی: «یاز گلیور بلبل اوقور» (مارش).

ساق اولون سیز یولداشلار،
هم باجی، هم قارداشلار،
آزاد اولموش آروادلار
هیچ وقت گیری قالمازلار.

چه‌ویره‌نی: **جواد جووارلی.**

*) زه‌مزه‌مه کده



اوزون مدت کەره یاغینی نیجه ساقلامالی.

کەره یاغنی اوزون مدت ساخلاماقدان اوتری لازمدر که الك اول اویاغی محکم سیخوب ایچەریسینده کی سویی چیقارتماق؛ سوکرا ایکی حصه نارین دوز وبر حصەده دوگولمش زەگ بری بریله یاقشی قاتیشدیریلوب هر بر گیروانکه یاغا آلتی غرام حسابیله همان یاغاسەبمك لازمدر. ممکن قادار یاغی سەرین ئیرده ساقلامالی.

نیچه جنس کەره یاغی اولور.

ساتیشدا برنیچه جوره کەره یاغی واردر که اونلارك هربرینك آیریجا خواصیت وقمیتلری واردر. أیو خوزیاقاسی بازاردان یاغ آلدیقدا البته گرەك اویاغلارك جنسینه وخواصیتنه فکر ویرسین که ویردیکی پولی هەدەر گیتمەسین.

بیمه گ ایچون ساتیلان کەره یاغلارینك الك یاقشی سی پاریس یاغیدر. بویاغی برآز ایلیق قایماقدان چالیرلار. بو یاغ بیمه گ ایچون الك گوزەل وعطرلی بر یاغدر؛ لاکن اونی اوزون مدت ئەرینمەمش ساقلاماق اولماز.

ایکنجی درجه یاغ شیرین کەره یاغیدر. بو یاغیدا ایستیله نمەمش قایماقدان چالیرلار. بو یاغ حقیقتەده برآزشیرین دادیر. شیرین کەره یاغینی دوزلیوب ساقلاماق دا اولار.

اوچونجی درجەلی یاغ (قورشیتی) یاغیدر. بویاغی برآز تورشامش قایماقدان دوتورلار. قایماغی برآز دوزلایوب سوکرا یاغنی دوتورلار؛ اونا گورەده بر آزتورش دادیر. لاکن (قورشیتی) یاغینك دوامی چوقدر.

سوکرا (چوخون) یاغی گەلیر. بویاغ چوق دوامسیزدر. 2 — 3 هفته یغیلوب قالمش وتورشامش قایماقدان (چوخون) یاغینی دوتورلار. اونا گورەده یاغك دوامی اولمیور. و طعمیده قاباقکی لارا نسبتاً لذتلی دە گلدر.

روس یاغی آدیله ساتیلان یاغلار دوامجه الك برینجی ئیر دوتور، بویاغ اەرینمیش یاغدر. قیمتیده قاباقکی لارا نسبتاً یوکسکدر. چونکه بو یاغی أەریتمەك چوق باها اوتورور واوزون وقت طلب ایدیر. یوز گیرونکه قایماق یاغیندان 75 گیروانکه اەرینمیش یاغ حاصل اولا بیلەر.

بو یاغ مطبخده ایشلەنیر وچوقدا الویریشلیدر. بویاغ باها اولدیغی ایچون اونك آدینا برچوق قلب یاغلاری اساتیرلار.

هر حالدا «روس یاغی» آدینا ساتیلان یاغلاری آلدیقدا چوق دقتلی اولماق لازمدر.

جوجه بسلەمك بارەسینده

ایلك دقیقەلرده، جوجه یومورتادان چیقان کبی اونلاری آنجاق تاووقك آلتندان آلوب بر قوری یئره قویماق لازمدر. تازه چیقان جوجەلر ایچون بر قارزینقا، قەلبیرویا که یاشچیك حاضرلایوب اورایا یوموشاق سامان، اوت ویا که یون دوشەمك لازمدر. جوجەلر یومورتادان چیقدیقجا اونلاری آناسینك آلتیندا قویمایوب بورایا آلمالی که بعضی جوان تاووقلار بیلمیەرەك اوز بالالارینی آلتیندا سیخوب اولدیرمەسونلر. چوق وقت تازه چیقمش جوجەلر یومورتا سینیقلارینك آراسیندا قالوب بدەنلری یارالانیر وبونکلەده فوت اولوب گیدیرلر.

جوجەلر قوروباندان سوکرا برقارزینقایا ویاکه قەلبیره دولدیریلوب اوستلرینی اورتوب، جوجەلره هوا آلماق ایچون بردەشیك قویوب، ایستی بر یرده ساخلانمالیدر. او ایستی ئیر، هر حالدا تازەجه سوندیریلمش تندیرویا که اوجاق باشی اولمالیدر، بیرنجی سوتقادا جوجەلره بیمەك ویرمك اولماز. لاکن ایکنجی گونده اونلارا بیمەك حاضر لیوب یوموشاق بر پارچا اوستنده، یاخود بر پارچا کیچه اوستنده یەدیزدیرمك لازمدر. بو اوندان اوتریدر که جوجەلرك نازك ولطیف دیمدیکلری اه گیلوب توبالاشما سونلار. دیمدیکلری ئه گیری وتوپال اولان جوجەلر آنجاق بویلەلیکله زدەلنمشلر.

خیردا جوجەلر ایچون الك الویریشلی بیمەك بەرك پیشمش یومورتادر. بەرك پیشیریلوب. نارین دوغرانمش یومورتا ایله دورت، بش گون خیردا جوجەلری یەدیرمك

اولار. اوندان سوکرا یاقشی ایسلانمش چوره‌ك سوخاریسیدا آرتیرماق لازمدر. هفته‌لك جوجه‌لره داری (قاشا) سیدا اویرمك اولار. بو (قاشا)دان باشقا هردنبر چورودولمش سودئوزیده ویرمك یاخشیدر. ایلك گونلرده جوجه‌لری تیز-تیز یه‌دیرمك لازمدر. یعنی که هر 2 — 3 ساعت فاصله ایله ئیمه‌ك ویرمه‌لی. لاکن ییمه‌ك اوقدر ویرمه‌لی که بر دفعه‌ده هامو سینی یه‌یوب قورتارسونلار. قاباقلاریندا آرتیق قالارسا اونی درحال گوتورمه‌لی، تازه یومورتادان چیقمش جوجه‌لره آنجاق ایکی سوتقادان سوکرا سو ویرمك اولار. جوجه‌لرك قاباقیندا همیشه لیگله سو قویماق یاقشی ده گل؛ چونکه جوجه‌لر سو قابینا یه‌یین سالوب، سوکرا اوسودان ایچسه‌لر ناخوشلارلار. جوجه‌لری، آچیق هواداساقلامالی. گه‌زمك ایچون اونلارا خصوصی بر ئیر آییرمالی. جوجه‌لر چمن لیگلرده، گوك اوتلاقلاردا گزمرلرسه براوقدر فائده‌لیدر. ایلك بهاردا چیقمش جوجه‌لره گوك اوت یه‌دیزدیرمك ده فائدالیدر. کاهو، که‌لم کیبی گوگه‌رتیلری خیردا دوغرایوب ویاکه امت دوگه‌ن ماشینقادان کیچیروب سوکرا جوجه‌لره یه‌دیزدیرمك مصلحتدر. قاریشقا یومورتاسیدا جوجه‌لرایچون بویوك فائده ویرمن خوراك حساب اولونور.

بر آیلیق جوجه‌لرك خورا کی بویوك تویوقلارك خورا کی کیبی‌در، بو زمانلاردا جوجه‌لره سوموك اونی ویرمك فائده‌لیدر. دورت-بش گون ایستی اوجاقدا قورودولمش سومو گلری هونگده امزوب، ئه‌له گدن کیچردیگدن سوکرا جوجه‌لره یه‌دیرمك ویاکه یومورتا قابوقلارینی ئه‌زوب جوجه‌لره ویرمك اونلارك سومو گلرینك یه‌رکیمه سینه وچوق تیز بوی آتمالارینا فائده ویره‌ر.

جوجه‌لری رطوبتلی وسویوق هوادان ساقلاماق لازمدر. هله تمامیله توك گتیرمه‌میش جوجه‌لری یاغیشلی وبه‌رك دوماللی هوایه‌ده بوراقمامالی. جوجه‌لر سویوقلایوب ناخوشلیارلار. جوجه‌لرك یاغان ئرلری قوری ویوموشاق اولمالیدر. قوری وایستی ئر، ایشیقلق وتمیز ئیمه‌ك جوجه‌لرك ساغلاملیغی ایچون الك برینجی شرط اولدیغی کیبی اونلارك بدنلرینی جوربه جور بیت، بیره، گنه‌وباشقا بو کیبی حشرات دان محافظه ایتمك الك واجب مسئله‌لردندر. اونا گوره‌ده هردنبیر جوجه‌لرك بدنلرینه آغاج کولی و قوری بورنی کیسلاتا (یاری بوندان، یاریسیدا اوندان اولماق شرطیله) سورتمك فایدالیدر

„قادین مجموعه‌سندن»

بوز دان نیجه استفاده ایتمه‌لی.

یای زمانی بعضی آذوقه‌لری، ایچمه‌لی سویی سویوق ساقلاماقدان اوتری بوز ایشله‌دیرلر. سویوق ساقلانماسی لازم اولان شیلری بعض ایو خوزیایقالاری بوزك اوستینه قویورلار. بو قاعده دوز ده گل.

بوراسینی بیلمك لازمدر که همیشه سویودولموش هوا آشاغادا اولوب، ایستی هوا یوقاریدا قالیر. بوزك تأثیریندن سویوقلانمش هوا آغیرلاشیر وبوز اولان یاشیك ویاکه باشقا قابك آلتینا یغیلوب اونك عوضنده ایستی هوایوقاری قالقیر. بونی ایلیق سویی بر شیشه‌ده بوز اولان ئیر ه قویماق واسطه‌سیله تجربه ایتمك اولار. شیشه‌ده کی سویی یاشیکه قویدیقدان برآز سوکرا گوره‌رسن که شیشه‌نك آلت طرفنده کی سو سویوقلاشوب اوست طرفی ایسه همان قاباقکی قاعده ایله دورمشدر.

ایمدی همان بوزی شیشه‌نك اوسندن قویدیقدا تمامیله عکسینه اولاراق تأثیر گوره‌جگسگز. شیشه‌نك اوستندن قویولمش بوزك تأثیریله الك اول همان شیشه‌ده کی سویك یوقاریدا کی حصه‌سی بوزلانماغا باشلایاجاقدر. وقت‌اوزان دیقجا همان سویوق سو آشاغادا کی حصه‌لره‌سرایت ایدیب شیشه‌نك هاموسی سویویاجاقدر.

مثال ایچین بونیدا گوسته‌ره‌لم. دوتاق که ناخوش آدم یاتان بر اوتاقدا کی هوانی سویوتماق لازم گه‌لیر. اووقت بوز ویاکه قاری گتیروب ایوده بر بوجاقدا ساخلاماق لازم ده گل. عکسینه، اوبوز ویاکه قاری بر قابدا یوقاریدان، تاوان (پاتالوق)دان آسماق چوق فایدالیدر، چونکه سویودولمش هوا همیشه اوطاقك آشاغاسیندا اولوب ایستی هوا یوقاری یا قالقاجاقدر.

تنقید و بیبلیوغرافیا قسمی

«داڭ ییلدیزی» مجموعه‌سی لاتین حروفاتیله

یکی تورك الفباسی گورجستان وارمنستان قومیته‌لرینك نشریاتی اولان «داڭ ییلدیزی» ژورنالینك 8نجی آپره‌ل نومروسی اداره‌مزه چاتدی. «داڭ-ییلدیزی» 32صحیفه‌دن عبارت اولوب آیلق ادبی، علمی، اجتماعی و شکللی بر ژورنال‌در. تك نسخه‌سی 30 قپکدر.

بو ژورنالدا بر چوق ده گرلی مقاله، ادبی وفنی پار چالار درج اولونور. بو نومرودا ر. نجف‌اوڤ یولداشك «چین-انقلابی یکی دورلر کیچیریر» آدلی مقاله‌سی چوق ده گرلی اولدیغی کبی ژورنالك گه‌جیکدیگنه باقمیاراق ئوز اهمیتنی ایتیرمه‌مشدر. بومقاله‌ده چین انقلابنك عمومی گیدیشی وایندیکی وضعیتی آیدین صورتده آگلاتیلیر.

یالکز مقاله‌نك دیلی برآز آغیر اولوب، بعضی عرب وفارس سوزلری ایشله‌دیلمشدر. عمومیتله یکی الفباقومیته سنك مقصدی الفبانی آسانلاشدیرماقلا برابر دیلیمزك ساده لشدیریلمه‌سنده فکر ویرمگدر. بویله اولدوقدا بوقومیته نك اورغانی سایلان «داڭ-ییلدیزی» دخی یازیلارینك آسانلاشدیریلماسنا دقت ایتمه‌لیدر. ژورنالك ادبیات قسمی زنگین‌در. بورادا ی. سلطان اوف یولداشك «آجی مسخره» سرلوحه‌سی ایله یازیلمش حکایه‌سی یاقشی و مراقلی‌در.

حکایه‌نك دیلی آساندر. شرقلی یولداشك «سفیح‌سرای تکرار گله‌جگم» آدلی حکایه‌سی یاقشی‌در.

شعرلردن شمس‌الجدیدك «شاه داغی» و محمودك «ایندی گولوریك-اول آغلاردیق» شعرلری گوزه‌ل‌در. بونلاردان باشقا ایوب شکیلی‌نك «یکیلیك سازی» و ع. نظمی‌نك «زحمت گوزه‌لی» آدلی شعرلری‌واردر. ژورنالدا ئه‌ل ادبیاتنا دخی‌دقت‌اولونور؛ بو نومرودا «عاشق‌صادق»ك سوزلری وترجمه حالی یازیلمشدر. عاشق صادقك شکلی دخی واردر.

«ایران-په‌ریسینه» آدلی شعر آنلاشیلمادی.

بو شعر روس ادبیی (سه‌رگه‌ی یه‌سه‌نین)دن ترجمه اولونمشدر. خصوصا بوشعرده یازیلمش «یبرلیایتیم» سوزونك نه اولدوغنی بر دورلو آنلایامادیق.

بونلاردان باشقا «تورك ادبیاتی تدقیق‌لرینده یکی بر ساحه» آدلی بر مقاله واردر.

ع. نظیمی طرفندن یازیلان بو ده گرلی مقاله‌نك باشی کیچن نومرودادر.

مشهور موسیقی شناس (به‌تهوون)ك یوز ایللیگی‌وتورك دراما یازانلاریندان عبدالرحیم بك حقوبردییوفك 35 ایللیگی مناسبتیله ترجمه حاللاری یازیلمشدر.

(به‌تهوون)ك یوبیله‌یی مناسبتیله (لوناچارسکی)یولداشك یازمش اولدیغی مقاله‌سی‌ده ترجمه ایدیلوب بورادا درج اولونمشدر.

علمی، فنی، وته‌خنیقا صحیفه‌لرینده درج اولونمش پار- چالار بر چوق مراقلی معلوماتلار ویریر.

سوڭ صحیفه‌ده ایران شاهی محمد علی شاهك یاشایشی حقنده یازیلمش مراقلی بر خاطره واردر.

نهایت «آوروپا نیچه ترك سلاح ایدیر» آدلی برمضحکه وبر نیچه قاریقاتور درج ایدیلمشدر.

ژورنالك عمومیتله مندرجاتی زنگین وشکللری چوقدر.

بوتون، اوقوجولارا بو ژورنالی اوقوماغی توصیه ایده‌رز.

ی.



کوردستاندان.

بو ییل فرقه‌مزك چالیشماسی سایه‌سنده دیندارلی و دمیرجیلر کندلرینده قیزلاردا اوغلانلار ایله برابر درس اوقوماغا باشلایوبلار. 30 نفره قدر مکتبلی حساب ایتمك اولار. بوندان باشقا 16 نفر ایسه ئوز هوسله‌ریله گنجلر اتفاقنك صیراسینا داخل اولمشلار.

کندلی قادین‌لاردان 25 نفر قدر سواد قورصیندا سوادسزلقلارینی لغو ایدیرلر. بوتون اهالینی مراقلاندیرماق ایچون: قیزلار و قادین‌لارك اشتراکیله تیاترو تماشالاری و مسامره‌لر ترتیب ویریلیر.

کولوشن محمد رضایف

شوشادان.

شوشا قادینلار قلوبیندا اولان سوادسیزلیغی لغو ایدیجی قورصدا قادینلار اولدیقجه آرتق‌هوسله درسه دوام‌ایدیرلر. 250 نفره قدر طالبه‌سی اولان ایکی مکتب واردیر. معلمه‌لر چادرایه بوکولی اولدیقدان طبیعی اونیك طالبه‌لریده بورونه‌جکلر. شهرده 35 نفر عضوه مالك بر قیزلار ئوزه‌گی واردرکه بو ئوزمك دیمك اولورکه بی‌طرف قادینلاری اوز اطرافینه آز توپلامشدر.

قیزلار ئوزه‌گنیك مرکزی غزته ومجموعه‌لره یازان بر مخبره‌سی بیله یوقدر. قیزلار «شرق قادینی» مجموعه سینی بیله تانیمایورلار.

بوتون بو نقصانلارك باشلیجا سببی قادین‌لار آراسیندا آپاریلان ایشك ضعیف‌لیگیدر.

محمدعلی محرمی

مالی بگلی‌دن.

«مالی‌بگلی» کندینده اناث و ذکور اولماق اوزره بر مکتب واردرکه بورادا 110 نفره قادار طلبه و طالبه لر اوقویورلار. بونلاردان 45 نفری قیز و 65 نفری اوغلاندیر. قیزلارك مقدارینك اوغلانلارا یاقین اولماسی مالی بگلی کند اهالیسنك نه‌درجه ترقی‌ایتمش‌اولدیغنی گوستریر.

کیچن ییل قیزلار اوغلانلارله بر یرده درس آلیردیلار. بوگادا سبب معلمه‌نك اولماماسی ایدیکه بوسنه بو نقصان رفع ایدیلمش وکنده بر معلمه تعیین اولنمشدر.

دیگر طرفدن 33 نفر ل. ق. ك. ا. عضوندن 16 سی قیزدر، عمومیتله «مالی‌بگلی» کند اهالیسی سائر کندلره نسبتاً اولدیقجا ایلریده و اجتماعی حیاته یاووق گلمه‌ده‌در. قادینلاردان قوئوپه‌راتیفه عضو یازیلانلار دخی واردر. عمومیتله «مالی‌بگلی» کندنده بر نقصان نظره چارپیرکه اودا قادینلارا مخصوص سوادسیزلیغی لغو قورصلارینك یوقلیغی‌در.

م. م.

اوردوبادان.

اوردوباد قادین‌لاری اسکی موهومات دورندن میراث قالمش منحوس چارشافا بورونه‌رك بوگونکی اجتماعی حیاتمزدن محروم قالمیشلاردر.

اوردوباد قادین‌لاری ینه‌ده اجتماعی بیغنجاقلاردا و شورا ایشلرینده جدیتله اشتراك‌ایتمیرلر. فرقه‌چیلرك قادینلار تشکیلاتنه رهبرلیك ایتمه‌مه‌سی، قادین‌لار حیاتنه اویغون محاضره‌لرك کیچمه‌مه‌سی. و قادینلار تعلیماتچیسنك جدیتله چالیشوب قادینلاری یکی‌لیکه اجتماعی حیاته‌جلب ایتمه‌مه‌سی بوناباشلیجاسبب گوستریله‌بیلر. کوی‌قادین‌لار وضعیتنه گنجه بعضی کویلرده قادین‌لار وضعیتی گوزمل اولدیغی کیبی بعضی کویده چوق فنادر.

دائره‌نك (اگلیس) و (وته) کویلرینده قادین‌لار وضعیتنك گوزللیکی سوك درجه‌ده مستثنادر. کویلرده قادینلار باشقا کویلره نسبتاً شورا سه‌چگیلرینده جدیتله اشتراك ایتمگله برابر شورا عضولیگنه‌ده سه‌چیلمشلردر. وگنج قیزلاردا معارفه مراقلانیرلار، قومسومول اوزه‌گلرینده و پیونیر تشکیلاتلارینداً فعالیت گوسترمکده‌درلر. نخچوان دارالمعلمین طلبه‌لرینك و باشقا ضیالی طلبه‌لرك

رهبرلیگی آلتندا اگلیسده قادین‌لار حیاتنه اویغون محاضره‌لرك و تیاترولرك گوسته‌ریلمه‌سیده‌بورا قادینلارك اجتماعی یاشایش‌لارینا بویوك کومك ایتمشدر.

و بند کوینده‌ده قادین‌لارك وضعیتی یاخشیدر. و بند فرقه اوزه گیمك فعالیتی شایان‌دقتدر.

هله وبند فرقه اوزه گیمك فعالیتیله صوك وقتلرده وبند کوینده نمونه اولاراق برقیز مکتبی آچیلمشدر.

مکتبده اوتوز—اوتوزبیش کویلی قیزلاری اوقویورلار.

دائره‌نك (نوسنوس) (کنزه) (کوتام) (دسته) و (دیریش) کویلرینده موهومات قوتلیدر.

بو کویلرده قادینلارك وضعیتی صوك درجه‌ده فنادر. بیله که اسکی زمان کیبی یئه‌ده بو کویلرده قادینلاریك حقوقی تاپدالانوب انقلاب گونشینك ضیاسیندن محروم قالمشلاردر.

اوردوباد دائره‌سنده قادینلار حیاتنی گوزه‌للشدیرمك ایچین قادینلار قورصی آچماق و دائره‌مزه فعال برتعلیماتچی گوندرمك لازمدر،

اگلیشلی

گنجه‌ده‌ن.

گنجه قضاسنك «نبی آغالی» دائره‌سنك احمدبکلی کندی دائره‌نیك الك بویوك کندلریندن بیریسی اولدیغینا باقمیاراق بورادا بو وقته قادار گنج قیزلار آراسندا هیچ بر ایش آپارماق ممکن اولمامشدر. باشقا کندلرده اولان کیبی کندلیلریك چوغی موهوماتچیلار اولوب. اوز قادینلارینی وگنج قیزلارینی دخی علمسیز و مدنیتسیز بیر ساحه‌ده حیوان کیبی یاشاتماق ایسته‌یورلر.

بو کندده گنج قیزلار ایمدیده مکتب نه اولدیغنی بیلمه‌یرلر. معلمه‌یه بویوك احتیاج واردر. معلمه‌نك اولماماسیندان‌در که قیزلار مکتبسز قالمشدر. معلم اولان مکتبلره کندلیلر اوز قیزلارینی براقمیورلار.

قیزلار گنجلر اتفاقنك نه اولدیغنی ایمدیده دوشونمه‌مشلر. حال حاضردا بو کندیك گنج قیزلاری آراسندا ایشجی اولمادیغی ایچون قضا قادینلار شعبه‌سی واسطه‌سیله بو کبی کندلرده قیزلار اوزه گی تشکیل ایتمه‌لیدر. کندده گنج قیزلار آراسیندا ایشلری جانلاندیرماق ایچون قضا دان معلمه‌لر و قضا گنجلر قومیته‌سندن بیر نفر قادین ایشجی‌سی آلمالی و اونلاری قیزلاریمزیك قارانلقدان ایشیغه دوغرو چیقماسینا چالشدیرمالیدر.

حسین کاظیموف.

نوخادان

1925/26 ییلده نوخا فرقه مکتبی ایکی ییللك اولاراق برنجی درجه‌لی مکتب پروغرامماسی دائره‌سنده سوادی اولان فعله — کندلی و گنج قیزلار قبول اولندی فرقه مکتبنك پروغرامی معین‌لشدیریله‌رك مکتبه مدنی سیاسی معارف ایشچیلری حاضرلامانمه تمایلی ویریلدی.

صوك غروپ طالبه و طلبه‌لرینه استحصلات تمایلی ویرمك و تجربه ایشلریله آلیشدیرماقدان اوتری بوتون صوك صنف طالبه و طلبه‌لری استحصالات مشاوره‌لرینه و ایپك زاوودلارینا تحکیم ایدیله‌رك هر غروپ ایچون بر رهبر آیریلوب استحصالاتدا گوردیگلری نقصان و موفقیتلردن آیدا بر دفعه طلبه‌لرك عمومی اجلاسندا معلومات ویریله‌رك مذاکره ایدیلیردی.

مکتبه قبول زمانی گنج قیزلار اقبول شرائطی جهتنجه گذشنلر اولونوردی.

بو ییل نوخا فرقه مکتبنده 7 نفر طالبه تحصیله دوام ایده‌رك بونلاردان ایکی نفری مکتبی بتیروب بیری قادینلار و دیگریسه سیاسی معارف ایشینه گونده‌ریلمشدر. قالان 5 نفر طالبه‌لر یای مناسبتیله کندلره تجربه‌دن اوتری سیاسی معارف ایشلرینه گونده‌ریله‌رك حال حاضردا تجربه ایشلرینده دوام ایدیرلر. همچنین قیزلاردا اوغلان‌لاردان گه‌ری قالمیاراق اجتماعی تشکیلاتلاردا چالشیرلار.

مکتب داخلده فرقه، گنجلر و آویاخیم ئوزه گلری حامیلیك قومسیوی تشکیل اولناراق هره اوز وظیفه‌سنی لایقنجه آپارارق بونلارك اوزه‌رینده جانلی قوة رهبرلگی اولمشدر.

بو آیدا فرقه مکتبنك (ایکی ییل دوام ایتمه‌سی مناسبتیله) طنطنه‌لی بر صورتده برنجی بوراقیلیشی اولمشدر. بو مناسبتله بویوك مسامره ترتیب ایدیله‌رك قضا فرقه، گنجلر همکارلار تشکیلاتلاری طرفلریندن تبریك ایدیلوب حقیقتا فرقه مکتبنك بو بوراقیلیشینده گوزله‌نیلن ایشچیلرك تیشدیریلمه‌سی قید ایدیلمشدر.

بو ییل فرقه مکتبندن 35 نفر طالبه و طلبه بوراقیلاراق بونلاردان «12» نفر آذربایجان مرکزی فرقه مکتبنه گونده‌ریلمگدن اوتری آیریلوب‌در.

23 نفری کندلره فرقه‌وسیاسی معارف ایشلرینه گونده‌ریلمشدرلر بو ییل سیاسی معارف تمایلنی حیاته کیچرمك ایله برابر معارف قارشوسندا دوران دالتون پلان اصولینده برنجی قدم قویارق کله‌جك تدریس سنه‌سنده تام معناسیله دالتون پلانی اصولیله ایشلرك کچیریلمه‌سنه حاضرلق گوریلیر.

ابراهیم میرزایوف.

شاغان کندیندن (باکو)

قلعه – ماشتاغی دائره‌سی شاغان کندینده قادینلار آرا- سندا آپاریلان ایشلر اولدوقجا ضعیف گیدیر. محلی تشکیلاتلار طرفنده‌نده بو ایشه آز اهمیت ویریلیر. قا- دینلارك عموم یغنجاقلاری آز – آز چاغیریلیر. بو کنده قادینلاردان فرقه‌یه آز جلب ایدیلمیشلر کند شوراسندا کی قادین عضولر حقوق آزادلیقی بیله نه اولدوغنی دوشونمه‌میشلر.

دائره قادینلار شعبه‌سی طرفندن قادین‌لار آراسندا نه طور چالیشماق باره‌سنده لازم اولان دستورالعمل گونده- ریلمه‌مشدر.

بو دائرنیك بعضی کندلرینده اولان قادینلارك اجتماعی ایشلرده چالشوبده حکومتك ایشلری ایله یاقندان آشنا اولماق آرزوسنده اولمالارینا باقمایاراق بونلارك اوزه‌رینده رهبر اولمادیغی ایچون زوالللی قادینلار هنوز کندی مقصد- لرینه تام معناسیله مالك اولمامشدرلار. کنده قیزلار آرا- سندا بر ایش یوقدر. قادینلاراوزه‌رینده رهبرلیك ضعیفدر. بو دائره‌میزده 2 آرواد و بلکه 3 آرواد ساقلایانلاردا آز دگلدر.

اگر وقتیله شاغان کندینده اولان قادینلار ایچون یکی یاشایشدان معروضه‌لر اولسایدی، دخی نزیم کند قادینلاریمز جهالت ایچرسنده قالمایوب علم معارف نه اولدوغنی دوشو- نه‌ردیلر. عجبا بو مسئله کیمدن آسیلی‌در؟ بونلارك هاموسی دائره قادینلار شعبه‌سی واسطه‌سیله اولمالی‌در. کندیمزه سیار کینو گلدیگده قادین آز یغیلر. بو یاقین گونلرده ایبون آیندا قادینلار ایچون «بسم‌الله» کینوسی گوسته‌ریلمیشدی. تأسف اولسون که بو شکله دائر هیچ بر معلومات ویاکه ایضاحات ویریلمه‌دی و قادینلاردا شکلك اصل فکر و مقصدینی باشا دوشمه‌مش قالدیلار.

قادینلار ینه اسکی روحده اوز اولادیناتربیه ویروب اونلاری موهوماته طرف چکیرلر. کنده قادینلار ایچون قلوب یوقدر. قلوب اولارسا کند قادینلاری گلوب اوزلری ایچون تیکیش، توقوماق و باشقا أل صنعتی او گره‌نه‌رلر، بودا ممکن دگل ایسه کند قادینلارینداں، بر نیچه‌سینی مرد کاندا آچیلان قادینلار قلوبنا جلب ایتمك لازمدر.

قلعه – ماشتاغی دائره فرقه قومیته‌سنك یانندا قادینلار شعبه‌سی بو کندك گه‌ریده قالماسنی نظره آلاراق بورایا آرتیق دقت یترمه‌سی آرزو اولونور.

رحمان سلطانوف.

گنجه قضاسندان

گنجه قضاسی ده‌لی محمدلی دائره‌سینك «سارو» کندینده یاشایان مشهدی علی‌نك واریوخ ایکی قزی وار ایدی. بونیك بویوك قزینا 3–4 ایل بوندان قاباق نشان گلوب قزی بیرینه نشانلادیلار. قیز آلانیك برجه ایوی اولدیقی ایچون هر ایل توی ایتمك ایسته‌یوردیسه‌ده قیزك آتا- آناسی راضی اولمیوب بو منوال اوزره قزی 3–4 ایل ایبوده ساخلاییرلار.

قیز آلان اوغلانیك علاجی کسیلوب بتون وارینی ساتماقلا کیچه‌ن یل بر ابو تیکدیروب بیر نوع طوی ایده‌رك نشانلی‌سنی آپاریر.

همین بو منوال ایله‌ده ایکینجی قیزینی اره ویریر. بو دفعه وار یوقنی تویدا صرف ایتمش اوغلان نشانلی سنی گتیردیکدن بیر نیچه گون صوگرا گورور که نه یمه گه چوره‌ك، نه خرج ایتمگه پول ونه‌ده یکی دن ساتیلاسی بیر شئی یوخدر.

بو اوغلان چوق بویوك احتیاج ایچینده قالدیغنی گورور. آخردا نیچه اولورسا اوغلان ایله قزك آراسیندا دعوا باشلانوب بر گیجه قزی اولدیروب اوزیده قاچوبدر.

اوقاچان اوغلاندر که: هله‌ده یئری معلوم دگلدر.

البته بورادا دیمك اولمازکه اوغلان مقصر ده گلدر. اوغلان هرحالدا بو جنایتی ایچون گرك جزالنسون. بو قتل‌ده قزیك آتا- آناسی داشریك حساب اولونمالیدرلار. چونکه قزیك آتا- آناسی همین اوغلانیك وقزینك خوشبخت اولما سنی ایسته‌سه ایدیلر اولوقت اوغلانك واریوقنی ساتدیروب قزیلا- تویا ویریلمه‌سنه راضی اولمازدیلار.

بوعادتاریك‌ده آخردا بو جوره نتیجه‌سی اورتالیغا چیقیر. هرحالدا بو عادتلرك بتون بتونه آرادان کوتورولمه سی ایچون لازمی تدبیرلر لازمدر.

همیشه یازان.

سلیان قضاسندان.

دائره‌لرده اولان قادینلار تشکیلاتچیلارینك ایشلری قادینلار آراسندا ضعیف گیدیر.

سبب اودرکه قضاده قادینلار آراسیندا ایشله‌ین سوادلی ولازمی قدر تجربه‌لی ایشجیلر چوق آزدر. بورادا کی ایشجیلره دائره مرکزی ایشجیلری طرفندن جدی یاردیملار، رهبرلیکلر گوسترلمه‌لیدر. رهبرلیك اولمازسا دائره قادین تشکیلاتچیلاری اوز اقتدارلاری دائره‌سنده ضعیف ایش آپاریرلار.

کند قادینی.

داغستان مکتوبلاری

ـ داغستان قادینلاری آراسیندا کی ایشله‌رده اساس مسئله‌لر ـ

قارداش داغستان جمهوریتی آرتق ئوز حقوقینی آگلا یشلی صورتده یوروتمك عرفه‌سینده‌دیر. نوبتی مقاله و مکتوبلارمز «داغلی قادینلارینك» اجتماعی، ادبی، سیاسی، علمی جهتله‌رینه حصر ایدیلمه‌جه گدیر.

ـ فرقه سوسیالیزم‌قورولوشو ایشله‌رینه‌رهبرلیك ایتدیگی حالدا، داغلی قادینلارینك بو ایشه جلب ایدیلمه‌سینی‌اورتایا قویور. بو ایشله‌ریك یه‌رله‌رده حیاته که‌چیریلمه‌سی، قادینلار شعبه‌سینه باغلیدر. قادینلار شعبه‌سی داخلی سوسیالیزم‌قورو لوشو یولوندا موفقیت قازانماق ایچین بو مسئله‌لریك‌حل ایدیلمه‌سینه په کده چالیشیر. قارشودا دوران مسئله‌لر بونلار دیر: هر شیدن اول؛ قادینلار شعبه‌سی، ایشچی‌له‌ری و نماینده قادینلار آراسیندا کی فعالیتی آرتیرماق، گنیش‌داغلی قادینلارینی اجتماعی (کنله‌وی) بیر حیاته سوق‌ایتمه گدیر. نماینده قادینلاری و نماینده ایشچیله‌رینك واسطه‌سیله داغلی قادینلارینی مدنی‌له‌شدیرمك؛ وسوسیالیزم قوروجی صیراسینا شعورلی صورتده داخل‌ایتمك ایچین عصرله‌ریك ضرورتلی ان چیقارمالی‌دیر. بو شرائطدن صوگرا داغلی قادینلا رینك فرقه صیراسینا جلب ایدیلمه‌سی ایچین چالیشمالی‌دیر. بو ایکی مسئله‌نیك حیاته تطبیق ایدیلمه‌سی ئولی‌نقطه‌دن ایله‌ری‌یه دوغرو حرکت و گله‌جه‌ك‌موفقیتلك محکملشمه‌سی ایچین بیر باشلانغیج اولاجاقدیر. داغلی قادینلارینك او گونده دیگه‌ر بیرمسئله داخی دورمشدر که اودا هرنیجه اولورسا اولسون سوادسیزلیغی لغو ایتمه گدیر. بونوك پهك ده گه‌رلی بیر فائده‌سی واردیر. ذاتاً: داغلی قادینك‌مده‌نی احتیاجینی صارماق (اوده‌مهك) ومعالجه ایتمهك بو گونوك مقدس وظیفه‌له‌رینده‌ن‌دیر. اونو؛ فرقه‌یه چاغیرماق، مدنی بوشلیغنی دولدورماق، فکری انکشافلك‌سویه‌سینی، شعورلی چالیشماسینی سرعتلی آدیملارلا حرکتلندیرمك لازیمدیر. اسکی جمعیتك قادینلاری ایله قومونیزم‌جمعیتی آراسیندا کی فرقی آگلاتماق (عادت‌ـعنعنه) زحمت وحقوق به‌را به‌رلیگی، انسانلیق وطنداشلیغی واسطه‌سیله استحصالاتی یوکسه‌لتمهك کبی مهم بیر بورج بیلمه‌لیدیرله‌ر. بونلاردان باشقا: داغلی قادینلاری آراسیندا قوئوپه‌راتیف ایشله‌ری یوروتولمه گله به‌رابه‌ر، قیمته‌ریك آشاغی دوشمه‌سینی‌حل ایده‌ر. بویولدا اشتراك جدا لازیمدیر. فقط عمومیت اعتباریله قادینلار بو ایشله پهك آز مراقلانیرلار. چونکه: بو گیدیشده کی ایشده ناصل وهانکی یوللار ایله‌یاقلاشمایی بیلمه‌یورلر و باجارمایورلار. بوینا قسق‌قادینلار شعبه‌سی‌بوایشی حیاته که‌چیرمهك ایچین جانلا ـ باشلا چالیشاراق،اودارلیق کبی فائده‌له‌ریك الده ایدیلمه‌سینی اونلارا حس ایتدیریر، علاوه داغلی قادینلارینی همکارلار اتفاقی، کند شوراسی صابانچی‌لیق قومیته‌سی والخ ایله اجتماعی ساحه‌ده یاقیندان تانیش ایتدیرمه گی معین ایتمیشدیر.

ایشته: داغلی قادینلارینك قارشوسیندا دوران جدی وحیاته که‌چیریلمه‌سی ایچین آرزو اولونان غایه‌لر.

خسته

پوچطه قوطوسی.

گیتمه‌ین شعرلر: شیخ نظامی‌یه؛ آذربایجان باغلاری؛ محو اولسون‌دنیاقاپیتالیستلری؛ دیکسینمه؛ اورتولوباجیلاریما؛ سیاحت؛ آتاما؛ چین قزینك سوزلری؛ کندچی قزلاری؛ باغلار؛ قادینلار، ترك ایت؛ یاشاسون دنیا پرولەتاریاسی؛ شرق قادینی: چوجوقلار صحیفه‌سی؛

گیتمه‌ین حکایه‌لر: عثمان‌ایله‌فیروز؛ قوموناللار(ترجمه) پیرینك باشینا گله‌نلر؛ امینه؛ صوك‌یاشایش؛ موهومات اسیری؛ یتیم بشیر ویاخود زحمت ثمره‌سی؛ (موضوعجه ضعیفدر، آغیر عرب وفارس سوزلریله دولودر)؛ ژاپونیادا قادین معارفی مسئله‌سی ـ بومقاله‌ده اویله مطلبلره امل اوزادیلمش که بوگون‌اوکبی سقطه‌لری آذربایجان‌ایشچی و کندلی قادینلارینك به‌ینینه یرله‌شدیرمگ ایسته‌ین بر یازیچی یا نه‌مقصدتعقیب‌ایتدیگگ‌ـزی آگلامادیق!» دیمه گدن‌باشقابرجواب تاپابیلمه‌دیگ؛ مقاله‌نك‌بیر ئیرینده بوسوزلر یازیلمشدر:

«ایسته‌ر بو دودیزمه مذهبینك شأن وعظمتی گوگلره قالدیریلمش اولان‌بر زماندا وایسته‌رسه‌قوای طبیعیه‌نك‌فوقینده دینه‌جگ قادار بر قدرت واردیه‌اسناد اولنان قونفوزچیوس تعلیمینك ژاپونیایه باالتاثیر انتشار ایتدیگی دورلرده ژاپونیانك قادین حریتی وملی‌عنعنه شخصنده عمومی‌تربیه و (نورال) پره‌نسیپلرینك دائره وحمایه‌سی کوچولمش‌وقادینلار کتله‌سی اولدیقلاری کبی ظالمه واسارته تابع قالاراق شکل و طرز لریندن ثبات وابدیت سیلنمشدر.»!..؛ برشی آگلامادیق

مسئول مدیره: آینه سلطانووا.

Tai 22013 4° (46-47)

ƷƏRK KADĻNĻ

Azərbajcan Kommynist (b) Firkəsi Mərqəzi kadı̨nlar ʒə'bəsinin naʒiri əfqarı̨dı̨r.

Avgyst
Sentjabr } 1927

Saji 8-9 (46-47)

قپك 40 kəpek

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0293

Mundərəcat.

1-Iəçi v əqəndli kadınların Azərbajcan kyryltajına dajır . . . . . 1.
2-Kadınlar arasında aparılan iə hakkında . . . . . **V. K.** 3.
3-Kadın klyblarının hej'əti idarələrinin seçqilərinə dajır . . **A. Soltanova** 5.

Ədəbiijat.

4-Əsqi həjatdan bir lovhə . . . . . **Mehdi zadə Naci** 7.

Oʃənc kələmlər.

5-Bizim qəjlərdə . . . . . **Kudrət Ulvi.** 8.

SAVADLI TURQ KADINI!
«Зərk kadını» sənun өz məcmyəndır!
ona abynə jazılmakdan baəka orada өz kələmunlədə iətraq etməq borcyndyr!
Abynə kimәti:
jilliqi 3 manat; jarım jilliqi 1m. 50k.

نشری 1,600 سفارش 6839 باکوولیغرافك «قیزیل شرق» مطبعه‌سنده چاپ اولوندی. باکو، قاراتپه‌نی 84 مطبوعات مدیریکی 3876

dərdunсu jil | Butun dunja proletarjası birləşiniz. | sentjabr 1927

Məhəlli idarə: Kommynist quçəsində A.K.F. Mərqəzi Komitəsi binasında.

Idarə açıkdır hər qun səhər saət 10—3 kədər telfon № 14—09.

3ƏRK KADLNL

Kəbyl edilmijən jazılar kajtarılmaz.

Məkalələr murəqqəb ilə və qagızın bir juzundə jazılmalıdır.

Saji 8_9 (46-47)

Azərbajcan Kommynist Firkəsinin Mərqəzi Kadınlar 3ə'bəsi nasiri əfqarıdır.
Ictimai, ədəbi və sijasi musəvvir ajlık məcmyədir.

Saji 8_9 (46.47)

Işçi və qəndli kadınların Azərbajcan kyryltajına dajır.

Azərbajcan Mərqəzi Icraijə Komitəsi Hejət rəjasətinin kərarilə by oktijabir ajinin 2-də, Baqıda qənt və səhər 3yraları və dajirə Icrajijə komifələri uzvi olan işçi və qəntli kadınlar kyryltajı çagırılacakdır.

By kyryltaja 250 nəfər numajəndə; 120-si kəzalardan və 130 də Baqı və rajonlardan qələcəqlər.

Kyryltajda 3yra həqyməti sijasətinin ən məhumm məsələləri muzaqirəjə kojylacakdir: 1)Oktijabir inkılabinin on illiqnə umym sosjakist 3yralar ittifakının vəzijjəti. 2) Azərbajcan sosjalist 3yra cəmhyrijjətində işçi və qəndli kadınların vəzijjəti. 3) 3yraların fəalijjəti və orada işçi və qəntli kadınların istiraqi 4) Azərbajcanda analık və çocyklık mhafzəsı işi, və 5) ajilə və niqah hukykı. barəsində 3yra kanynları...

Məhllərdə, kəza səhərləri və birdə bojuq dajirələrdə 3yra uzvi olan kadınların konfranvə musavirələri çagrilar; Bykonfrans və musavirələrə işçi və qəntli qəniз qtləsidə cəlb edilyb zəhmətqəз kadınların ən artik ehtna və rəgbətlərini tələb edən məhumm məsələlər məzaqrə olnyrlar: xəlk məarifi; xəlk həfzissəhhəsi və həmin kəzadə işçi və qəndli kadınlarin vəzijjəti.

By umym Azərbajcan kyryltaji və habəjlə məhllərdə çagrilmıз işçi və qənfli kadınlarin konfrans və musavirələri by oktijabirin 10 da umym ittifak mərqəzi icrajijə komitəsi həj'ət rəjasətinin kərarilə maskovada çagrılacak 2-nci umym ittifak kadın kyryltajna bir hazırlık hisab olnyrlar. birinci kyryltaji 1919-nci ildə çəarilmiзdır). Azərbajcanda isə by kadın kyryltaji 4-nci kyryltaj hisab olynyr. birinci kyryltajlar (1921 və 1922-nci illərdə) firkə və 3yra huqymətinin əməqçi kadınlar arasınçalıзmak işinin illiq zəmanlarında çagrılmıз oldıklarına qərə onların ancak təbligat mahijətləri var idi. O kyryltajlara kəzalardan qəlmiз qəntli kadınlar hələ az təзqilatlanmıз idilər. O vəkt kəzalarda numajəndə kadınlar jigincaklarının fəalijjəti tazəcə baзlanyb 3yralarda dəxi kadınlarin istiraqi artik zəjif idi.

Joldə Jəniqidzə umym ittifak kadın kyryltalna dajir jazəıgı məkaləsində bojlə dəjir; „o zəmandanbəri kadınları 3yralar kyrylyзyna cəlb etməq işi canlı hərəqət 3qili alyb div addimlarilə ilərilәmiзdir!..“.

بورادا تورك قادینلاری ئوز فعالیت و باجاریقلارینی گوسته‌ریرلر. بورادا تورك قادینلارینا برنجی دفعه معین قولوب ایشی تاپشیریلیر. تورك قادینی بو ایشی‌یرینه یتیروب تیجه‌سی حقنده دخی حساب ویرملیدر.

اداره هیئتنده تورك قادینی اجتماعی قورولوشی ئوگره‌نیر. قادین قولوبلارینك اداره هیئتی سه‌چگیلرینك باشلیجا نقصانلاریندان بری‌ده اودر که اداره هیئتنك ترکیبی چوق وقت ده گیشدیریلمیر. البته بو آرزو اولوناسی‌برشی‌دگلدر.

چونکه قولوب اداره هیئتلرینده کی‌عضولرك برحصه‌سی یگی سه‌چگی زمانی ساقلانا بیلرسه لاکن هر حالدا بر حصه‌سی ده گیشدیریلوب یگیدن سه‌چیلمه‌لیدر. بو یول ایله قولوب عضوی اولان بوتون تورك قادینلاری یاواش یاواش قولوبك اداره‌هیئتنه سه‌چیلوب اجتماعی ایشرمکتبندن کیچرلر.

بوندان باشقا قولوب سه‌چگیلرینده بر نقصاندا وارکه اودا اداره هیئتنه سه‌چیلنلرك نامزدلیگی (شابلون) اوزره قویولور، یعنی اداره هیئتنه سه‌چیلنلرك حاضرلغی، چالیشقانلغی و باشقا بو کبی صفتلری نظره آلینمایور.

بونا گوره بو سه‌چگیلرك نتیجه‌سنده قولوب اداره هیئتلرینه برقدر گرگسز (یاراماز)عضولر دخی کیچیر که بونلار یالکز اداره هیئتی عضوی آدلانوب، اجلاسلاردا اشتراك‌ایدیرلر؛ فقط قولوب ایشلرینده فعال صورتده‌چالیشمیرلار.

قولوب ایشلرینك اساسی قسملری استحصالات، مدنی معارف، چوجوق و آنالق محافظه‌سی ایشلری، کتله‌وی ایشلر و همچنین گنجلر آراسندا آپاریلان ایشلردن عبارتدر. بو اساس مسئله‌لر اوزره قولوبلاردا آپاریلان ایشلر ایلدن ایله گه‌نیشلندیریلیر.

بونا گوره قولوبك اداره هیئتی همکارلار مکتبی، یاسلی، آرته‌ل کبی آیری- آیری قولوب موسسه ایشلرینی چتینلك ایله باجاریرلار بونا گوره‌ده قولوبلارك اداره هیئتی قارشوسندا بر مسئله‌ده دورور که اودا آیری- آیری قولوب موسسه‌سی ایشلری آراسندا رابطه یاراتماقدان عبارتدر. قولوب ایشلری گه‌نیشلندیگجه رابطه مسئله‌سی دخی چتینله‌شیر و آیری- آیری قولوب موسسه‌لرینك آراسندا کی رابطه‌سزلك بویوبور. (همکارلار مکتبی آرته‌ل ایله رابطه- سنی کسیر و باشقا بو کبی‌حال‌لار). بوندان علاوه قولوبك اداره هیئتی دخی همین ایشده دوزگون نظارت ایده‌بیلمیر. بو ایشلرك آراسندا رابطه یارادیلماسی ایچون بو موسسه‌لری یالکز عمومی قولوب بناسی ایچه‌رسینده آپارماق لازم‌دگل. بونك ایچون یالکز کتله‌وی ایشلری گوجلندیرمك لازمدره

کتله‌وی ایشلر همین آیری- آیری قولوب موسسه‌لرینی بری بریله رابطه‌لشدیروب بویوك قوللەقتیف حالنه سالمالیدر.

کتله‌وی ایش آپاریلماسی ایچون قولوبك بوتون مدنی، قوه‌سندن استفاده اولونمالیدر.

(بونك ایچون یالکز رهبرلك ایدن شخصلردن دگل بوتون مکتب و قورسلاردان و اورادا اوقویان طالبه‌لردن استفاده اولونمالیدر.) کتله‌وی ایشلر؛ قولوب مکتبلری وباشقا واسطه‌لر ایله اورتایاچیقاریلان جانلی غزیته، دیوارغزیته‌سی، دیباغرام و باشقا یوللارلا قولوبك حیاتینی‌عکس‌ایتدیرملیدر.

قولوبك مکتب و قورسلارینی؛ آرته‌ل، یاسلی، چوجوق میدانچاسی و باشقا بو کبی قولوب موسسه‌لری اطرافندا چالیشدیرماق لازمدر. مثلا؛ قولوب یاننداکی مکتب و قورس طالبه‌لرینك واسطه‌سی ایله آرته‌لك حالنی یوقلاماق اولار.

(امك حقینك ده گیشمه‌سی، آرته‌لده چالیشانلارك جان ساقلیغی و سائره حقنده معلومات توپلانیر. یاسلی، چوجوق میدانچه‌سی، کتبخانه‌نك وضعیتی ئوگره‌نیلیر و سائره) مکتب و قورسلارك قومسی ایله آپاریلان اجتماعی ایشلر، مکتبك اجتماعی ایشلری کبی اولاراق قومپله‌قس اصولی ایله آپا- ریلمالیدر. بو ایشلرك نتیجه‌سنده قولوب یاننداکی مکتب و قورس طالبه‌لری قولوب یاننداکی آرته‌ل و باشقا اجتماعی ایشلردن اوزاق دوشمه‌زلر، بلکه بو موسسه‌لرده آپاریلان ایشلرك قورولوشی ایله تانیش اولوب اونلارك گورولن نقصانلارینی آرادان قالدیرماغا چالیشارلار، بوندان باشقا بو موسسه‌لرك ایشلرینده اشتراك ایدوب اونلارك قورولوشندا لازیمی یاردیم گوسته‌رەرلر.

کند قولوبلاری‌دا ئوز ایشلرینی گه‌نیشلندیرملیدرلر! اونلار دائما تورك کندلی قادینلارا گونده‌لك یاشایش ایشلرینده یاردیم ایتملیدرلر. کند قولوبلاری یالکز قامپانیا زمانی قادینلارك توپلاشدیقلاری یر اولمایوب بلکه کندك (معلمه، دوقتور، آغرانوم کبی) مدنی قوه‌لرینی تشکیل ایده‌جك موسسه اولمالیدر. کند قولوبلاری کندلیلرك تصرفاتینی یو کسه‌لتمك والخ، چوجوقلارا باقماق ایچون همین مدنی قوه‌لردن استفاده ایتملیدرلر.

بویله اولورسا کندلی قادین ئوز قولوبینی تانییوب اونی سه‌وه‌ر و چتین زمانلاردا اورایا مراجعت ایده‌ر.

قوه قولوب عضولری آراسندا کی بیلیکلی شخصلردن مکتب و قورس طالبه‌لرندن عبارت اولوب، تمامیله قولوب ایشلرینده چالیشدیریلمالیدر.

آ. سلطانووا.

اجتماعیت، مدافعه و صحیه (سانیتار) معارفی.

بو باشادیقمزدورده بوتون کوکللی تشکیلاتلارك فعالیتی باشلیجا و اساس بر یول ایله جریان ایتمه‌لیدر ؛ بو یول — شورا اجتماعیتی تشکیل ایتمکدن عبارتدر.

دوغرو، دان دوغرویا بو آنده شورالار ئولکه‌سی فوق‌العاده چتین بر دوره‌ده یاشاماقدادر ؛ شورالار ئولکه‌سی بوتون دولتی قوه و تدبیرلرینی اویولدا ایشله دیر که محاربه‌یه یول‌ویر میوب قاباغنی آلسون؛ لاکن، بو ممکن اولما دیغی حالدا، یعنی بزیم رایمزه مغایر اولاراق بیزی محاربه‌یه مجبور ایده‌رلرسه هر حالدا بیز اونلارك قاباغینا چیقوب اوزیمزی مدافعه‌یه حاضر اولمالییق.

ایمدی، سوسیالیست ئولکه‌مزك حیاتنده اك مسئولیتلی اولان بویله بر وقتده عادی بیر تماشاچی اولاراق قالوب ئولکه‌نی مدافعه ایشندن کناردا دورماق ممکن میدر؟

— البته، یوق!

ئولکه‌نك بوتون اجتماعی قوه‌لرینك ، عموم ضیالیلرك بو ایشده اوز قوه‌لری داخلنده یاردیم گوسترمه‌لی برنجی مقصد اولمالیدر.

کوکللی جمعیتلر ، «آذربایجان هلال احمر» جمعیتی، کند ایله شهر رابطه‌سی «موپر» جمعیتلری اوز اطرافلارندا اجتماعیت تشکیل ایدوب اونلارك بلیك و قوه‌لریندن استفاده ایتمگه چالشمالیدرلر.

مثال ایچون گوسترەلم: آذربایجان هلال احمر ئوزمك و قومسیه‌لرینده چالشماق؛ اورادا کناه‌نك سانیتار معارفلشمه‌سی ایشلرینی یولونا قویماق؛ مکتب، خسته‌خانه. طبیه‌منطقه‌لری‌وبو کبی موسسه‌لرده شه‌فلك تشکیل ایتمك، کبی ایشلرده چالشماق...

هلال احمر جمعیتی عضولرینك اك فائده‌لی فعالیتلری شه‌فلیگنی اوزه‌رلرینه آلمش اولدیقلاری موسسه‌لری (مکتبلر، فه‌لدشه‌ر قورصلاری) مادی جهتدن تامین ایتمك یولوندا چالشماقدان عبارت اولمالیدر.

جمعیت شعبه‌لرینك عضوی اولان حکیم، معلم ویاخود کند ویا شهرده یاشایان اجتماعی ایشلرده چالیشان هر کس ایچون بوساحه‌ده اوز فعالیتنی بروزه‌ویرمگه نه بویوك امکان واردر.



«هلال احمر» جمعیتنه یازیلیکز!

آذربایجان «هلال احمر» جمعیتینك نظامنامه‌سینه گوره محلی شعبه‌لر اوز آرالارندان: مدنی معارف، مالیه تصرفات، عضولر توپلایان و باشقا بو کبی قومسیه‌لر انتخاب ایتمه‌لیدرلر.

مدنی معارف سه قسیاسینا داخل اولمش آقتیو اجتماعیتچی‌اورادا اوز فعالیتنی بو ساحه‌ده گه‌نیشلدیره بیله‌ر: له‌قسیا لار اوقوماق ، خسته‌خانه و موزه‌خانه‌لره سیاحتلر دوزه‌لتمك، محلی شعبه و یاکه قومسیه‌لرك عضولرینی ایلك یاردیم درنگلرینه تشویق ایتمك.. آخرکه، بر سوزله اوز عضولرینك ویاخود جمعیت عضوی اولمایان باشقا وطنداشلاریگدا سانیتار معارفلشمه‌سی یولوندا چوق بویوك فعالیت گوسترە بیله‌ر.

عضو توپلایان قومسیه‌لرده چالیشان زمان آقتیو عضو اوز شعبه‌سنك عضولرینی بره ایکی قات آرتیرا بیله‌ر ، شه‌فلك ایشلرینه جلب ایده‌رەك و بو یول ایله برابر اونك مادی قوه‌سنك‌ده یاقیشیلاشماسینا یاردیم ایدر.

بیزیم اساس مقصدیمز محلی شعبه‌لرك ابتدائی ئوزه گلرینك فعالیتلرینك جانلاندیریلماسینا نائل اولماق‌دان عبارتدر.

محلی شعبه‌لرك قومسیه‌لری جدیتله ایشه یاپیشارسا، بیزیم اجتماعیتچی‌لریمز و ضیالیلاریمز یوقاریدا گوسترديگمز وضعیتلری نظره آلوب قومسیه‌لری و عضولری شوقلندیروب اوزلریده اونلار ایله برابر ایشه گیریشه‌رلرسه، البته بو ایشی قاباغا آپاروب بویوك نتیجه‌لرده الده ایده‌رلر.

بونیدا نظر ده ساقلامالی که فعالیتك کتله‌وی ماهیتی اولدیقدا، بوتون عضولرك وامکان دائره‌سنده محیطده جمعیتك اشتراکی ایله ایش آپاریلارسا، معین بر موفقیتلره نائل اولونار.

قومسیه‌لرده محلی شعبه‌لرده چالشماقله بیز هلال احمر جمعیتی‌نك آقتیو ایشجیلرینی تربیه ویرمه‌لیك.

چوق آز بر مدت ایچریسینده، جمعیتمزك کتله‌وی فعالیتنی تشکیل ایتمك ساحه‌سنده کی تجربه‌لری بزه معین و مثبت نتیجه‌لر ویرمشدر.

بیزم گوزله‌دیگمز و تخمین ایتدیگمز درجه‌دنده آرتیق مقداردا تشکیل ایدیلمیش ایلك یاردیم ده‌رنگلری هر حالدا کیتله آراسندا چالشماغك وامکچی‌اهالیناك ده ئولکه مدافعه‌سی ایشلرینده تام یوره‌کله چالشماق آرزولرینك آیدین نتیجه‌سیدر.

نفت معدنلری، فابریقالار و زاوودلار ایلك یاردیم درنگلری تشکیل ایدوب رهبرلر، محاضره‌چیلر طلب ایدیرلر.

هلال احمر جمعیتی‌نك مادی قوه‌سی چوق آز اولدیغی ایچون پول ایله چاغریلمش رهبرلر، محاضره‌چیلردن اوتری بزه رجوع ایدنلرك حتی ایکرمی فائضنی بیله تأمین ایده بیلمیریك.

لاکن بز بونیدا تمامیله امکان داخلنده بیلریك که هرگاه بیزیم سانیتار و طبیه تشکیلات و یاکه ئوزه‌کلر- یمزده کی آیری - آیری ده‌رنگلریمز اوز عضولری آراسیندا حکیملر اولدیغی حالدا نفت معدنلری و یاکه فابریقالاردا کی ایلك یاردیم ئوزه گلرینی اوز (شعف) حامیلیگلری آلتینا آلوب او حکیملری محاضره‌چی ورهبر صفتیله اورایا گونده‌رسونلر. البته او حکیملر گده معین مرامنامه اوزره مشغولیت آپارمالاری لازمدر.

بیز بویله دوشونوریك که هلال احمر تشکیلاتنك ایلك یاردیم ده‌رنگلری اوزه‌رینده اولان مدنی شعفلیك مفکوره‌سینی هامودان اول حکیملر اوزلری تقدیر ایتمه‌لیدرلر. اونلار اوز عملی گوستریشلری ایله ایچینده یاشادیقمز زماندا حکیملرك اوزلرینه دوشن وظیفه‌لرینی اوده‌مش اولورلار.

طبی و صحیه خادملری اتفاقیده، بیزیم خصوصی رجوعنامه‌مز ایله اوز عضولرینه تاثیر نفوذ ایده بیلرلر؛ بو ایشك ممکن و آسان اولدیغنی برده اونیله ثبوت ایتمك اولور که رهبر و یاخود محاضره‌چی هفته‌ده یالگز ایکیجه ساعت وقتنی بو ایشه صرف ایده‌جکدر. بو ایش هر حالدا هر حکیم ایچون ممکندر.

بوگونك شعاری محلی سانیتار و طبی شعبه‌لرك ایلك یاردیم ده‌رنگلرینه شعف انتخاب ایتدگدن عبارت اولمالیدر.

کتله‌وی فعالیتك تشکیلاتی و شورا اجتماعیتی توپلاماغك نمونه و فورمالاری بوندان عبارتدر.

آذربایجان هلال احمر جمعیتی‌نك محلی شعبه‌لری، عضویمز اولان حکیملر، معاملر و اجتماعیتچی‌لر بوقراراوزره چالیشارلار سابر آنده ایکی مقصده خدمت ایتمش اولورلار: ئولکه‌نك مدافعه ایشینی تشکیل ایتمك و کیتله‌نك ده سانیتار معارفنی یوکسه‌لتمك.

شهرلرده بیزیم سانیتار وطبی یاردیم ایشلریمز اوزیولونا قویولمشسادا کندلرده بوجهه‌ده کی ایشلریمز آرتیق فناحالدادر.

آذربایجان کندینده اولدوقجا چوق ایلك یاردیم ده‌رنگلری تشکیل ایدیلمه‌لی، ائاوزاق گوشه‌لرده کی کند و قصبه‌لرده ده‌رنگلر دوزه‌لدوب اورایا محاضره‌چی وطبی قوه‌لر گونده‌رمه‌لی.

بیزیم شهرده کی محلی شعبه‌لریمز، قضاده آزینا بر ئوزه گك حامیلگنی عهده‌سینه آلابیله‌ر. بیزیم محلی شعبه‌لریمز تشکیلاتلانوب قیسا مدته‌ده اولورساپوند وورماق ایچون و یاکه باشقابو کیبی ایشلر ایچون خصوصی دسته‌لر دوزه‌لده بیله‌رلر.

بو ایشلرك هاموسی شهر و کنده بیزیم کیتله‌وی مدنی فعالیتمزك نمونه‌لری اولا بیله‌ر.

ائ آخردا بوتون هلال احمر تشکیلاتنك قارشوسیندا دوران نوبتی مسئله‌لردن بریده محلی شعبه‌لری، محکمه- تمگله برابر، ئوزه گلرك کتله‌وی تدقیق و تفتیش ایدیلمه‌لریدر.

بیز لازم بیلریك که بو ایشلری محلی شعبه‌لرك تفتیش قومسیه‌لرینه محول ایده‌ك؛ او قومسیه‌لر بو کیچیردیگمز دورده بیزیم باش مقصدلریمزدن، عملی تکلیفلردن، قومسیه‌لرك فعالیتندن، تازه قومیته‌لر تشکیلاندن، عموماً بویله مسئله‌لر بارەسینده تحقیقات آپارمالیدرلر.

بونیکله برابر تفتیش قومسیه‌لرینه تاپشیرمالی که محلی شعبه‌نك هیئت ریاستی طرفندن، او و یا بوکبی دستور- العمللردن بعضی‌سی حیاته کیچیریلمه‌یوب اونك حیاته کیچیریلمه‌سینی طلب ایتمه‌لی، و هرگاه قومسیه هیئت ریاستنك پلانی یوق ایسه اونی برابرلیگده دوزه‌لتمه‌لی، و تفتیش ده نتیجه‌سینی عضولرك عمومی یغنجاقلارینا معلومات ویرمه‌لی.

بو کیتله‌وی تفتیش و معاینه قامپانیاسی دخی تشکیلاتمزك محلی شعبه‌لری هیئت ریاستلرینك تازه سه‌چگیلرینه برحاظرلق ایشی اولاجاقدر.

دوقتور کاظم‌اوف.

ایلك یاردیم درنگلری.

درنگلرك مقصدی.

ئولکه‌مزی مدافعه ایتمك ایشینده فرقه‌مز و هایله شورا حکومتیده قادین ایله کشینك آراسیندا هیچ بر تفاوت قویمیور. بو سبیدنده بوتون فعله صنفی و کندستان اهالیسی ایله یاناشا امکچی قادینلاردا محاربه حاضرلیغینا جلب اولونوب ئولکه مدافعه‌سی ایچین برینجی نوبه‌ده ایلك یاردیم ایچون حربی سانیتار درنگلری تشکیل ایتمکه باشلایبرلار.

ایلك یاردیم درنگلرینك مقصدی گه‌نیش امکچی قادین کیتله‌سینی بدبخت حادثه‌لرده ایلك یاردیم گوسترمکه و خسته‌لره، یارالیلارا، غازدان زهرلنمشلره قوللوق ایتمك ایشینه حاظرلاشماقدان عبارتدر. بو درنگلرك باش مقصدی محاربه اثناسنده سانیتار نفرلری حاظرلاماقدان عبارتدر.

ایلك یاردیم درنگلرینده مشغولیت‌لرینی بیتره‌نلر ایلك یاردیم ایچون کوگللیلر دسته‌سی تشکیل ایدوب محاربه اثناسنده قزیل اوردونك حربی سانیتار حصه‌لرینه ملحق اولورلار، و یاخود جبهه آرقاسیندا قالوب اهالی آراسیندا ایجاب ایدن ایشلر گورورلر. بو درنگلر صلح زمانده‌ده بویوك رول اویناماليدرلار.

چوق اولور که بیزیم زاقافقاسیادا جوربه‌جور خارق‌العاده بدبخت‌لیگلر یوز ویریر؛ بعض یولوقویوجی خسته‌لیگلر، زلزله، داشقینلار، فابریقالاردا بویوك یانقولار، کند ایشلرینده و بدنی تربیه یاریشلارینداً بدبخت حادثه‌لر یوز ویریر. بوتون بو کیبی بدبخت حادثه‌لرده ایلك یاردیم درنگلرینده تعلیمات آلوب حاضر اولانلار مجبوردرلار که جدی چالیشوب اوز بیلیك و تجربه‌لری دائره‌سینده بوتون خسارت گوره‌نلره یاردیم گوسترسونلر.

ایلك یاردیم درنگلرینی نیجه تشکیل ایتمه‌لی.

ایلك یاردیم درنگلری آیری ـ آیری موسسه‌لرده، فابریقا، زاوود، اداره، مکتب و کندلرده تشکیل اولنورلار. ایلك نوبه‌ده بو درنگلر «هلال احمر» جمعیتی‌و برده‌اوسو ـ آوییاخیم» اوزه گلرینك یانیندا تشکیل اولنورلار.

درنگك تشکیل ایتمك مسئله‌سینی اوزك قالدیریر و بو باره‌ده شهر ویا کند خسته‌خانه‌سی ایله، یاخود صحیه شعبه‌سی ایله سازلاشوب درنگده مشغولیت آپارماق باره‌سنده مخصوصی بردوقتورك تعیین ایدیلمه‌سینی تحت‌قراره آلیر. درنگلرك تشکیل ایدیلمه‌سی ایشینده ایشچی و کندلی قادینلارك نماینده‌لرینه‌جاقلاری بویوك رول اویناماليدرلار. ایلك یاردیم درنگلرینی تشکیل ایتمك ایشینده اولار بیرینجی بانی اولماليدرلار. نماینده قادینلار اوز یغنجاقلارینداً قادین قلوبلارینداً و یا که کندلی قادین گوشه‌لرینده ایلك یاردیم درنگینی تشکیل ایتمك مسئله‌سینی قالدیرماليدرلار.



سائیان‌دا ایلك یاردیم ده‌رنه‌گی مداوملری تجربه ایشی اثناسنده.

درنگلرده مشغولیت نیجه آپاریلر؟

ایلك یاردیم درنگی‌نك مشغولیتی معین پروغرام اوزره آپاریلیر. بو پروغرام تام 16 مشغولیت‌دن عبارتدر. بوتون پروغرام‌دا هر درسدن سوگرا عملی مشغولیتلرده کیچریله‌جکدر. اوچ مشغولیت تمامیله معالجه‌خانه‌لری (خسته‌خانه، آمبولاتوریا، حربی خسته‌خانه و سائرلری) گه‌زوب اونلارك فعالیتی ایله تانش اولماغا صرف اولونور. مشغولیتلری آپارماقدان اوتری درسلرده آدلاری چیکیلمش کاراستیلارك گوستریلمه‌سی مجبوریدر: تشریح تابلولاری شکللر و سائره... عملی مشغولیتلردن اوتری بو ماته‌ریال‌لار لازمدر: بینت‌لر، ژقوتلار، پروتیووغازلار، ایشنالار، یارالی داشییان چارپایلار و سائره.

بوتون مشغولیت پروغرامی هفته‌ده ایکی درس اولماق شرطیله ایکی آیا بیتریلمه‌لیدر. مشغولیت بیتدیکده درنك عضولرینك بیلیکلری تحقیق ایدیلوب سوگرا اونلار آیری آیری سانیتار دسته‌لرینه تقسیم ایدیلیر،

س. ب.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0316

امگجی قادین و حربی‌له‌شدیرمه ایشی.

شورالار اتفاقی اوزه‌رینده محاربه قورقوسی واردر؛ و بو سبیدنده بوتون زحمتکشلر، و اوجمله‌دن امگجی قادینلاردا بو ایشه حاضرلانوب اوز سوسیالیست ئولکه‌مزك مدافعه‌سی ایچون تشکیلاتلانیرلار. کیچمش انقلابی محاربه‌لرده قادین هر وقت کشی ایله برابر، اوز آتا،قارداشی و أمری ایله چیگین ـ چیگنه دوراراق مردانه مبارزه ایتمشدر. 1871 ینجی یلده پاریس کوچه‌لرینده قوممونانی مدافعه ایتمگده امگجی قادینك قهرمانانه مبارزه‌سینی یادا سالمش **له‌نین** بو خصوصدا بو سوزلری یازمشدر: «گله‌جگده بورژوآزیا حکمرانلغنی ده‌ویرمك ایشینده‌ده باشقا جوره اولا بیلمه‌ز ..

پرولەتار قادین‌لار هیچ وقت پاسیف قالوب یاقشی سلاحلانمش بورژوآزیا طرفندن آز سلاحلانمش ویا که هیچ سلاحلانمامش فعله‌لرك گوللەباران ایدیلمه‌سینه سویوق قانلیلیق ایله باقابیلمه‌زلر. پرولەتار قادین‌لاردا 1871 تاریخده اولدیغی کبی اللرینه سلاح آلوب مدافعه‌یه قالقیشارلار!..»

وطنداش محاربه‌سی اثناسنده بزیم‌جبهه‌لرده اون‌مین‌لرجه ایشجی و کندلی‌قادینلار مبارزه‌ده اشتراك ایدوب یوزمین‌لر ایله‌ده آج و چیپلاق ایشجی قادینلار صوك نفسلرینه قدر جبهه آرقاسیندا چالشیردیلار.

قادینا بوینی باغلی قول‌نظریله باقان بورژوآزیا گله‌جك محاربه زمانینده قادین‌دان‌دا استفاده ایتمك‌فکرینه‌دوشمشدر؛ گورینور که‌بو ایشده‌ده **له‌نین**‌ك 1916 ینجی یلده‌یازدیغی سوزلر دوغرولانیر: «بوگون ایمپه‌ریالیست‌بورژوآزیا بوتون خاقی حتی کنجلری‌ده میلیتاریزمه چیکیرلر.

فرانسه‌ده تازه قبول ایدیلمش قانون موجبنجه محاربه زمانینده حکومت بوتون اهالینی، حتی قادینلاریدا حربی مکلفیته چاغیرا بیلر. آمه‌ریقادا یوزمین نفره قادار قادینلار حرب ایشلرینی اوگره‌نمگه مشغولدرلر: قادین قلوبلاریندا ایسه متشکل‌صورتده حربه حاضرلق مشغولیتلری آپاریلیر. بو تشکیلاتلارا اون میلیونا قادار قادینلار یازیلمشلار. اینگلتره‌ده مختلف جمعیت و درنگلردن باشقا 138 قادین نشانچی قلوبلاری موجوددر.

قادینلار آراسیندا حربه حاضرلق ایشلری هابیله‌ئه‌ستونیا، لاتویا و پولشادا دخی جدی صورتده آپاریلماقدادر.

بونی‌دا نظرده دوتمالیدرکه بوتون بورژوآ ئولکه لرینده امگجی قادینلار و فعله‌لرك قیز و آروادلاری نشانچی درنگلرینده و قلوبلاردا قبول ایدیلمه‌یبرلر.

ایمدی دوشونمه‌لی که محاربه‌یه حاضرلق ایشلرینده بیزیم ایشچی و کندلی قادینلارك اشتراکی مسئله‌سی نه‌حالدادر!

بیزده ئولکه‌نی مدافعه‌یه یاردیم جمعیتی (اوسوـآویا خیم) واردر که، بوجمعیته چوقلی ایشچی و کندلی‌قادینلاری جلب ایتمگه چالشمالی؛ بوندان باشقا حربی سانیتار درنگلر نیك گه‌نیش صورتده تشکیل ایدیلمه‌لرینه چالشمالی، بوباره‌ده بعضی تشبثاتدا بولونمشلار.

بو یولدا قریمدا چوق بویوك ایشلر گورولمشدر؛ قریم قادینلاری هله ایمدیه کیبی اورادا ایکی ییل حکومت سورن آغ غواردیاچیلارك وحشت و دهشتلرنی اونوتمامشلار.

ایشجی و کندلی قادین یارالیلارا و غازدان زهرلنمشلره ایلك یاردیم ایشینی اوگره‌تمه‌لیدر. ایشجی و کندلی‌قادینلار پروتیووغازلاری تاقماق اصولینی‌ده اوگره‌نمه‌لیدرلر؛چونکه گله‌جك محاربه‌لر اثناسنده‌جبهه آرقاسیندا کی اهالیده‌ایستەر ایسته‌مه‌ز، حربی حرکاته جلب ایدیله‌جکدر.

بیزیم یوزلر، میلرله حاضرلق گورمش، مدافعه‌ایشینی و غازك تخریباتلاریله آشنا اولمش ایشجی و کندلی قادینلا ریمز: شهر و کندلریمزده بویله حاضرلق گورمش‌دسته‌لریمز اولدیغی حالدا دشمن‌لر طرفندن آئه‌روپلانلاردان آتیلمش بر نیچه غاز بومبالارینك دهشت و قورقوسی، اهالینگ‌ده هیجانه دوشوب، قاچا ـ قاچ سالوب آرادا ناحق یئره مین‌لر، اون مین‌لرجه قادین، قوجا و خصوصاً اوشاقلارك تلف اولمالاری باش ویرمه‌ز.

بونلاردان باشقا حربی درنگلرده تعلیم آلمش امگجی قادین دشمنك(شپیون) جاسوسلاری قارشوسیندا بیلمیه‌رگدن اوز حربی سرلریمزی آچوب دیمه‌زلر و بونگله‌ده اوز یاووق‌لارینی، قوهوم، قارداشلارینی هلاکته سالمازلار؛ چونکه بونی اونوتمایالم که دشمنلرك جاسوسلاری اوزلرینه لازم اولان معلوماتی جماعت توپلاشان یئرلرده، بازارلاردا، تراموایدا وسائر بوکیبی یئرلرده آرا صحبتلرندن توپلایوب استفاده ایدرلر.

آخردا بونیدا اونوتمامالی که نشانچی‌لار یاریشندان حاصل اولان تجربه‌لر گوسترمشکه قادین‌لارك گوزلری نشانه

آتماق ایشینده کشیلردن دالا قالمیورلار؛ قادینلارك‌دا اللهری کشیلر کیبی تفنگه مالك اولوب نشانه آتماق ایشینده برابرجه‌سینه موفقیت گوستریرلر..

یاقشی اولار که ایمدیدن اسلحه دوتماق ایشینه اوگره نوب حاضر اولمالی؛ و محاربه زمانتده حاضرلیقسز جبهه‌یه گیتمه‌مه‌لی؛ نیجه که بویله بر وضعیت وطنداش محاربه‌نمنده گورولمشدر.

ایشجی قادینلاری اوسو-آویاخیمه، حاضرلق درنگلرینه ایلك یاردیم درنگلرینه - نشانچی‌لار درنگلرینه جلب ایتمك ایشینده فعله، مخبره‌لری و دیوار غزیته‌لرنیك مخبره لری‌ده چوق بویوك رول اوینایا بیله‌رلر. اومخبره‌لر، غزته‌لر و دیوار غزته‌لری واسطه‌سیله بورولماقسزین اوز اوقوبو-جیلارینی بو ایشه دعوت ایتسونلر؛ مخبرلر اوزغزته‌لرینده بورژوآزیانك نه واسطه‌لر ایله حربه حاضرلاندیغنی یازوب بیلدیرسونلر. امکچی قادینلارك‌دا هانکی یول‌لار ایله‌حربه حاضرلانوب، قان بهاسی ایله الده ایتدیگی آزادلیغی مدافعه ایتمك یوللارینی‌دا اوگره‌تمه‌لیدرلر.

فعله مخبره‌سی اوز دیوار غزته‌سنده حربی درنگره ویاکه اوسو - آویاخیمه داخل اولماق ایسته‌ینلره لازم اولان معلوماتی ویرمه‌لیدرلر. فعله مخبره‌سی مدافعه‌یه حاضرلانان شرقك امکچی قادینلارنیك برینجی‌جرگه‌لرینده کیتمه‌لیدر؛ چونکه اوزه‌ریمزه‌هجومه حاضرلانان‌بورژوآزیا شورا حکومتی‌نك الیله آغیر زنجیرلری قریلوب آزادلیغا چیقمش شرق‌قادینی ینه‌ده‌قاباقکی کوله‌و اسیر حالینافایتارماق مقصدینی تعقیب ایدیرلر.

ر. ب.

اوقتیابر انقلابنك 10 ایل‌لگینه دائر نه اوقومالی!

IV — نفیس ادبیات

1 - آلکسه‌یف: بولشه‌ویکلر 290ص «آذرنشر» 1927نجی ایل (امکی‌ویکی حروفاتلا چاپ اولونمشدر) مولف آچیق و دوغرو اولاراق ایشچی انقلابی اوعروندا چالیشان مبارزلردن نقل ایدیر قوممونیست (بوریس) و (آروں) پارتیزانلار صدری، ده‌لی‌حانا دوقتوری و اوقتیابر انقلابنك باشقا مبارزلرینك تیپلری گوزه‌ل بیر صورتده تصویر ایدیلمشدر.

2 - لیبه‌دنیسکی: هفته «قوممونیست» نشریاتی 1925نجی ایل 26صحیفه مؤلفی گنج یازیچی قوممونیستدر. بو کتاب‌حقینده یولداش بوخارین یازیر: „بو کتابك‌سطرلرینی آج گوزلیلیك تشویش، نفه‌سگز داریقاراق اوقویاجاقسگز" بو حکایه حال حاضردا چیقان انقلابی کتابلارك الك دگرلی‌لرندن بیریدر. 1917 نجی ییل انقلابندان سوگرا عکس انقلابچیلارك بولشه‌ویکلره ایتدیکلری ظلملر، قوممونیستلرك نه کیبی وضعیت ایچریسینده ایشله‌مه‌لری گوزل صورتده تصویر اولونمشدر.

سیفولینا: چورونتی «آذرنشر» 1927ایل 180 صحیفه

سیفی: وطنداش محاربه‌سینده شرق قادینی «آذرنشر» 1926ایل

انقلاب مجموعه‌سی عالی سیاسی معارف اداره‌سی نشریاتی 1925 ایل
خیردا انقلابی پارچالاردان عبارتدر. آز سوادلیلارا یاردار بیر دیلده یازیلمیشدر.

اوقتیابر منتخبانی (چاپ اولونور)

آ. ه ا. م. م. شعبه‌سینك کتبخانه بیوروسی

اون اوچونجی بین‌الخلق گنجلر گونی و گنجلر بین‌المللنك وظیفه‌لری.

بین‌الخلق گنجلر گونی تاریخی بیر دوردە، یعنی جهان ایمپریالیست محاربه‌سنك آلاولاندیغی بیر دمنده. 1915 نجی یلده دوغولدی. بو انقلابی حرکاتك الك بیرینجی و الك بویوك شعاری: «محو اولسون ایمپریالیست محاربه‌سی، یاشاسون صلح!» شعاری اولور...

گنجلر بین‌المللی بو یولداکی مبارزه‌سیله کفایت ایتمه‌یوب گیت گیده داهادا انقلابی حرکاته سارپلیر، قاپیتالیزم غدار حربجولیغی ایله چارپشماغا باشلایور. بوندان بیر یيل کیچندن سوکرا 1916 نجی یلده، مداراچی سوسیالیست لارك بورژوآزیایه، قاپیتالیستلارا یالتاقلیغنی گورەن و حس ایدەن گنجلر بین‌المللی بر دفعه نیزه‌سینی اونلارا طرف چەویریر و یکی اولاراق «یوق اولسون وطن‌پرەست سوسیالیست‌لار!» شعارینی میدانه آتیر. بونکله گنجلر حرکاتی ایکنجی بیر آددیم ایله‌ری آتمیش اولور.

1917 نجی یلده ـ صلح تشویقاتنك اوزرینه، بیرده؛ روسیه‌ده عمله گلن انقلابی ده‌گیشیکلیکلر منا‌سبتیله ـ قاپیتالیستلار علیهنه صنفی مبارزه آچماق، بورژوآزیا حکومتینی ده‌ویروب **اجتماعی انقلاب** یاپماق لزومیتی آرایا چیقیر.

انقلابی گنجلر حرکاتی: بوتون قوه‌سیله بو یولدا چالیشان بالشەویق فرقه‌سنك انقلابچی پرولەتاریاتك صفلرینه قاریشیر و آرقالارینجا گیدیر. بویله‌لکله او وقته‌دەك ـ نظریه عالمنده باشلیجا، حرکتده بولونان و انقلابی مفکوره‌لری ده‌رینلشدیرەن گنجلر ایچون بلاواسطه صنفی مبارزه‌ده اشتراك ایتمك، قاپیتالیستلار و بورژوآزیا ایله الیه یاقا اولماغا امکان بولونور.

اوقتیابر انقلابیندا روسیه‌ده پرولەتاریا صنفنه جدی صورتده کومك‌لیك یاپابیلن انقلابچی گنجلر، صوکرا کی مبارزلرده‌ده گەری اوتورمایورلار، لاقیدقالمایورلار. صیرالاریندان اون بیك‌لرایله قیزیل اوردودا شورا وهمکارلار تشکیلاتلارینا عضولرینی گونده‌ره‌رەك ـ وطنداش محاربه‌سنده یاشلیلار ایله برابر اشتراك ایدیرلر؛ و پرولەتاریاتا حکومتی اله آلماق ایشلرینده جدی کومك‌ویریرلر. 1921 نجی یلده‌ن 1926 نجی یلەدەك پرولەتاریا صنفنك سیاسی و اقتصادی وظیفه‌لری‌نك ده‌گیشمه‌سی مناسبتیله، ـ گنجلرده شورالار مملکتنك اقتصادی و سیاسی اقتدارینك محکم‌لشمه‌سینه چالیشیرلار، قاپیتالیستلارك ایشچی صنفینه یاپدیغی هجومنه عکس هجوم یاپیرلار؛ قومونیست فرقه‌سنك و پرولەتاریاتك بوتون بوراقدیقلاری یکی شعارلارا شریك اولوب، فرقه و شورا تشکیلاتلاری ایله برابر اونلاری یاشایشا کچیریرلر. گنجلر حرکاتینك بوگونکی باش شعاری ایسه حربجولیق، محاربه علیهنه اولان شعاردر.

گنجلرك ایمدیکی بین‌الخلق وضعیتی افاده ایدەن اوچ خصوصیت واردر که اونلاردان بیرینجیسی: شورالار اتفاقی جمهوریتی ایله قاپیتالیست دنیاسنك و باشدا اولاراق انگلتره دولتی آراسندا کی سیاسی و اقتصادی علاقه‌لرك کسکین‌لشمه‌سی؛ ایکنجیسی چین انقلابنك موقتی عزیمتی و بو یوزدەن انقلابچی ایشچی صنفی قارشوسیندا دوران مهم وظیفه‌لر، اوچنجیسی ایسه: بیرینجی سوسیالیست گنجلر بین‌المللنك 1907 نجی یلده (شتوتغارد) شهرینده طوپلادیغی قونغره‌نك یيگرمی‌یللیك دونومیدر. چونکه گنجلر حرکاتی اساسیندا بیر انقلابی حرکات کیبی باشلانمیشدی. سویله‌دیگمز قونغره‌ده اوچ بویوك مسئله مذاکره‌یه قویولمشدر. که اونلاردان 1) اقتصادی مبارزه، 2) سیاسی تربیه و 3) اووقتکی حربجولیق ایله مبارزه مسئله‌لری ایدی، قونغره‌یه رهبرلیك ایدەن ـ قارل لیبکنخت اولمیشدر. قونغره‌نك گور که‌ملی شعار ـ لاریندان: 18 یاشینا کبی اولان گنجلر ایچون 6 ساعتلیق ایش گونی، 16 یاشینا یتیشمه‌ینلر ایچون هفته‌ده مجبوری استراحت گونی طلب ایتمك شعارلارینی گوسترمك اولور. قونغره‌نك قراریه گوره ـ گنجلر صنفی مبارزه‌ده مجبوری صورتده اشتراك ایتمه‌لیدرلر.

گنجلرك بو حرکاتیندان هور کویه دوشن بورژوآزیا و مداراچی سوسیالیست‌لار ـ گنجلرك علیهنه یوریشه باشلا‌یورلار. آلمانیادا، 18 یاشینادەك سیاسی تشکیلاتلاردا ایشله‌مك گنجلره قدغن اولونور. (1907 نجی یيل قانونی). ها بیله ایکنجی بین‌المله منسوب تقتیشچی سوسیالیستلارك اونلارا هجومیده بو زماندان باشلار. اوکا گوره‌ده گنجلر حرکاتی بیر چوق برلرده ـ سیاسی زمینه‌ده‌ن مدنی ـ معارف جبهه‌سینه کچیر. لاکن مدهش جهان محاربه‌سی و ایکنجی بین‌المللك بو خیانتی ـ گنجلر آراسیندا صنفی دویغونك وجوده گلمه‌سینه باعث اولور. گنجلر حرکاتی مستقل و گنیش مبارزه یولینا دوشور. 1917، 1918 و 1919 نجی یللر گنجلرك انقلابی چوشمالاری یللری اولور.

1919 نجی یلده یولداش له‌نین و قارل لیبکنه‌ختك

رهبرلیگی و تربیه‌سی آلتیندا ـ قوممونیست گنجلر بین‌المللی (کیم) تشکیل اولنور. بو زماندان گنجلر حرکاتنك قبول ایتدیگی خط حرکت ـ دوطلب صنفی مبارزه اصولی اولور.

بو گونلرده ساری سوسیالیست گنجلر بین‌المللی‌ده (20) بیللیك بابرام یاپماق خیالیندادر. لاکن اونلارك اساس مقصدلری بام باشقادر و تامیله بورژوآزیایا کومگچی چیقماقدان عبارتدر.

اونلار بو کومگلیکی آسانلیقلا گوسترە بیله جگلردر. ایش اوندادر که 1914 نجی ییل جهان محاربه‌سی ده‌ملرینده انقلابی حرکاته‌ساریلان گنجلر ـ بلاواسطه بیرتیجی قاپیتالیست غوغاسینه شاهد ایدی؛ بازار، مستملکه آغالیغی منفعت آرتیرما سیاستی اوستینده آپاریلان مبارزه‌یی گوزی ایله گورور و آچیقجا حس ایدیردی.

بو گونکی وضعیت ایسه بویله ده گیلدر. ایمدیکی گنجلر کتله‌سینك چوغی 1914 نجی ییل محاربه‌سینی گوزی ایله گورمه‌میش آنجاق روایتلر ایله ایشیتمیشدر. اوگا گوره‌ده اویله محاربه‌نك بوتون آجی‌لقلارینی درك و حس ایله‌یه بیلمه‌یه‌جگدر.

بو ایسه؛ اونلاری آلداتماغا، وطن پرستلیك دویغولاری ایله تربیه‌لندیرمگه، بورژوآزیا صنفینه خدمت ایتدیرمگه، حقیقی انقلابی یولدان چاشدیرماغا ساری گنجلر بین‌المللینه بویوك امکان ویره‌جك‌در.

بو مسئله‌یی تامیله آچماق، جهان گنجلر حرکاتینه آکلاتماق ـ قوممونیست گنجلر بین‌المللنك باش وظیفه‌لریندن بریسیدر. چونکه قوممونیست گنجلر بین‌المللنك وظیفه‌لری بسبوتون اونلارك عکسینه‌در. اونك قارشوسیندا دوران باش وظیفه‌لرده‌ن ایکنجیسی؛ محاربه هده‌سی ایله مبارزه، 3 نجیسی: قاپیتالیست ثمره‌لشمه‌سنك علیهنه تشویقات و دوردنجیسی ایسه ایشسیزلیك، باخصوص گنجلرك ایش‌سیزلیگی علیهنه مبارزه قالدیرماقدر.

بورژوآزیا: آغ ته‌رروری اوز خدمتینه چاغیرمیش ایسه‌ده؛ قوممونیست گنجلر بین‌المللی گون‌ـ گوندن گنیشله‌نیر و تشکیلاتلاری محکم‌له‌شیر. گنجلر تشکیلاتلاری چین انقلابندان دوتوب ـ داخلی مسئله‌اره‌ده‌ك جدی صورتده اشتراك ایده بیلیرلر. بیر یاك ایچریسینده قوممونیست گنجلر بین‌المللنك صیرالاری (شورالار اتفاقیندان باشقا) 110 بیگده‌ن 48،650 یه‌ده‌ك آرتمیشدر. بوندان باشقا گنجلر تشکیلاتلارینه داخل اولمایوبدا ـ باشقا مملکتلرده بولونان طرفدار گنجلرك قدری 1927 نجی ییلده 82 بیگه چیقیر.

قوممونیست گنجلر بین‌المللی کیبی یالکز بیر آوروپا قطعه‌سینده فعالیتده بولونمایوب، آفریقا، هندستان، جنوب آمریقا و باشقا مملکت‌اردەده شعبه‌لره، (بولمه‌لره) مالك‌در. بویله‌لیکله همان بین‌المللی حقیقی بین‌الخلق بیر تشکیلات کیبی خارجی گنجلری ایله چیگین چیگینه ایشله‌یور، اونلار ایله صیقی علاقه یارادیر و انقلابی مبارزه مفکوره‌سینی جهان گنجلر حرکاتی ایچریسینده محکم‌لشدیریر. لاکن بو وضعیت: بوگونکی بین‌الخلق گنجلر گونینده هر بیر اوزه‌ك وهر بیر گنج قارشوسیندا دوران بین‌المللی وظیفه‌لری داهادا ده‌رین‌لشدیرمگده‌ن و کسکین‌لشدیرمگده‌ن آزاد ایتمه‌یور.

بو هله آزدر. مملکتمزده سوسیالیزم قورولوشینا باشلانمیشدر. بو ایسه جهان پرولتاریا انقلابنك آیریلماز بیر حصه‌سی دیمکدر. بین‌الخلق گنجلر گونی: بو ایشك داهادا محکم‌لشمه‌سینه و گنیشلنمه‌سینه خدمت ایده‌ن حرکت ویریجی بیر قوه صورتینی آلمالیدر. دیمك که اون اوچنجی بین‌الخلق گنجلر گونینك **اساس مقصدی: سیاسی حرکت، سیاسی فعالیت و کتله‌لرك تشکیلی اولمالیدر.** بونی باشا دوشه‌مه‌ین گنج ـ هله سیاسی غفلته‌ن اویانمامیشدر، و اویانماغی‌ده گوجدر؛ چونکه بوعزیز گون: هر بیر گنجك قاناجاقلی اولوب اولمادیغنك گنجلرك حربی متشکل‌لیگنك تفتیش گونیدر.

علی ستار ابراهیم اوف.

ساققو و وانسه‌تتی

ساققو و وانسه‌تتی‌نك آدی ایندی هامو امگچیلره بللی‌در. دونیادا چیقان بوتون غزته و ژورناللار و دنیانك هر طرفنده یاشایان ایشچیلر ساققو و وانسه‌تتی‌نك ایشی ایله مارافلانوب بوتون دقتلرینی بورایا ویرمشلردر.

ایش آقتارماق ایچون ایتالیادان آمه‌ریقایا گلمش اولان بوعادی ایشچیلری بویله شهرتلندیرن نه اولمشدر؟ بو عادی امکچی ـ انقلابچیلاری بویله اهمیتلی ایدن نه اولمشدر؟

بو نا سبب آمه‌ریقا بورژوآزیاسی و ساققو وانسه‌تتی یدی ایللك حبسخانه اذیتندن سوکرا گناهسز اولاراق قتله یتیرن آمه‌ریقا محکمه‌سی اولمشدر.

بر مدت ایچه‌ریسینده زندانلار ایچه‌ریسینده چورولمه‌سی باشلاندی. محکمه قرارینك حیاته کیچیریلمه‌سی ساقلانوب، اوزاتیلیردی ایسه، لاکن قراری لغو ایتمك ممکن اولمیردی.

شکایت ویریلن هر یکی محکمه تشکیلاتی اونلارك ایشلرینه یکیدن باقوب، محکمه‌نك اولکی قراریني تصدیق ایدیردی ساققو ووانسه‌تتی هر گون ئولومله‌رینی گوزله‌یردیلر. بوتون انسانلق عالمنك الك یاقشی حصه‌سی ساققو و وانسه‌تتی‌نك ایشاری ایله مارافلانوب بو یولدا چالیشیردی. دنیانك هر طرفندن ایشچی و ایشچی قادینلار، رساملار، یازیچیلار بوتون عالملر آمه‌ریقا حکومتنه مکتوب یازوب، گناهسز



ساققو و وانسه‌تتی‌نك ایشی چوقدان، حتی 1920 نجی ییلده باشلانمشدر. اونلاری جنایت، آدام ئولدورمك ایشینده متهم ایده‌رك دوتمشلاردی.

محاکمه زمانی آشکار اولمشدی که اونلاری تقصیرلندیرمکدن اوتری هیچ بر اساس یوقدر. لاکن ساققو و وانسه‌تتی فعال ایشچی و مفکوره جهتدن بر انقلابچی اولدیقلاری ایچون اونلارك تقصیرلندیریلمه‌سی لازم ایدی؛ چونکه آزاد صورتده یاشایان ساققو و وانسه‌تتی قاپیتالیستلر ایچون قورقو تورەدیردی. بونا گوره‌ده محکمه اونلارا ئولوم جزاسی ویردی.

محکمه‌نك قراری اوزره تمیز شکایتی ویریلدی. محکمه‌نك قراری حیاته کیچیریلمه‌یوب دایاندیریلدی و بو گوندن اعتبارا ساققو و وانسه‌تتی‌نك یدی ایللك اوزون محبوسلارك بوراقیلماسنی طلب ایدیردیلر.

محاکمه‌نك ایکنجی ییلی (ماده یروس) آدیندا بر جانی، بر چوق جنایتلرده متهم اولونارکن ئوز بوینینا آلمشدر که ساققو و وانسه‌تتی‌یه اسناد ویریلن جنایتی‌ده او ایتمشدر.

هر بر وجدان صاحبی و قانونی گوزله‌ین شخصلر حتی بورژوآزیا دولتی دخی اولسا آیدینجاسنا آنلایردی که (ماده یروس) ك بو بیاناتندان سوکرا ساققو و وانسه‌تتی حبسدن بوراقیلمالیدرلار. لاکن بورژوآزیایا فائده‌لی اولان حاللاردا اونك بوتون قانونلاری ئوزلری طرفندن لغو اولونوره

محکمه بو بیاناتی قبول ایتمه‌یوب ساققو و وانسه‌تتی‌نك ئولدوریلمه‌سی ایچون وقت قویدی. محکمه‌نك بو قراری

بوتون دنیانك نفرتنه سبب اولدی. یوتون بویوك شهرلرده پروتستو نمایشلری باشلاندی. آمه‌ریقانك بوتون حکومت چینوونیقلارینك منزللری و سفارتخانه بنالاری هیجانه گلمش کتله‌نك هجومنك قورقوسیندان اوردو حصه‌سی طرفندن محافظت اولونوردی.

دنیانك هر طرفندن ئولوم جزاسی ایچون چیقاریلمش قرارك لغو ایدیلمه‌سنی طلب ایدیردیلر.

لاکن آمه‌ریقا بورژوآزیاسی ئوز فکریندن گه‌ری دورمیردی. آوغوستك 23 نده ساققو و وانسه‌تتی‌نی اعدام ایتدیلر. بین‌الخلق پروله‌تار کتله‌سی اونلارك ئولوم جزاسنه چاتدیریلماسینا جواب اولاراق هر یرده بویوك ایشلر دوزه‌لتدیلر. بو نمایشلرك چوغی، مثلا پاریس‌دا اولدیغی کبی پولیس نفراتی ایله توقوشما و انسان تلفاتی ایله بیتمشدر. بو هله ایشچی طرفندن ویریله‌جك جوابك برنجی دالغالاری‌در.

بو گون ساققو و وانسه‌تتی‌نك آدلاری امانسز بورژو-آزییانك عدالتسزلیگلرینی ثبوت ایدن بر سیمبول کیبی تلفظ اولونورلار.

بوندان سوگرا بو اولار، بورژوآزیا ایچون فائده‌لی اولمیان ایشچیلری قیرماق و گوجدن سالماق مقصدی ایله دائما حاضر اولدیغنی گوسته‌رن بر علامت اولاجاقدر.

بوروژآزیایا قارشی انقلاب مبارزه‌سی آچارکن آمه‌ریقا ایشچیلرینك اللرینده دوتاجاقلاری حربی بایراقلاردا قانلی حرفلر ایله «ساققو و وانسه‌تتی» نك آدلاری یازیلاجاقدر.

ساققو و وانسه‌تتی‌نی خاطرلا! وجدان صاحبی اولان بوتون ایشچی و امکجیلر اونلاری خاطرلایوب، اونلارك ئولدورولمه‌سی عوضنده بورژوآزیایا نفرت ایتمه‌لیدر.

فه‌ریدا.

گنج قلملردن:

چین قیزینا!

چین قیزی، چین قیزی قارالار گه‌بین؛
دوتوشمش هر طرف، ایگله‌ییر په‌کین! .

سارمشدر چه‌وره‌گی بر ییغین آلاو.
یاغیور باشیگا؛ کومه‌ـ کومه لاو!
قاپیتال چنگینده اولمش‌سك بر آو..
چین قیزی، چین قیزی ئولوم گلمه‌سین
صاراردی گل رنگك، صارارماق نیچین؟..

آنالار ایگله‌ییر، باجیلار بایغین،
صارمشدر ئولکه‌گی قان ییغین - ییغین،
یاردیم ایدن قیزیل قوللارا صیغین!
چین قیزی، چین قیزی ایمدی سن نه‌سیك؟
یوردوگدا یانغین وار، داغیلدی نانکین.

گیئجه‌لر قورقونجدر، آغلاییر روزکار،
ئولکه‌گده ایگله‌یه‌ن قارداشلارك وار،
دیز چوکمه یئرلره، انقلابه صار...
چین قیزی، چین قیزی ایگله‌مك نیچین؟..
قلبنده انتقام یاشار ایشچینك...

اینانما بوددایا، کور براهمایا،
دیز چوکمه داشلارا، باش قالدیر آیا:
قوه‌ت ویر عصیانا، داغیلسین قایا!
چین قیزی، چین قیزی ئولمه‌یه‌جك چین!
قزیللار گیئیب گوله‌جك په‌کین...

آغلایان روزکاردر، هیچقران چین‌در.
یوره‌گلردن قوپان فریاد، بر کین‌در!..

تورخان خالد



یاتمش کندك قیش گیجه‌لرینده.

(کیچن نومرودان مابعد)

اوروجلغه هله ایکی هفته واردی. ملا خلیل هفته نك پنجشنبه و جمعه گونلرینی مسجد ده‌اوقویاجاغینی بیلدیرمیشدی. معلم مکتبدن، چوجوقلاری بیراقوب، ایوه قایتدیقدا کاپلا قدیر مسجدك دامیندا گون اورتا آذانینی ویریردی. کندك اختیار و آق ساققال‌لاری یاواش ـ یاواش مسجده طرف گیدیردیلر. معلم بش گون اول ملا خلیلك گلوب کندیسنه ایتدیگی «اتفاق» تکلیفنی خاطرلادی. بو آدام نه قدر وجدانسیز بر مخلوقدی. خلقك عواملغیندان استفاده ایدیر، اونلارك بیك زحمت و مشقتله حاصله گتیردیگلری بر پارچا چوره گلرینی خیرات و احسان آدیله اللریندن آلیر، علاوه اولاراق اوزلرینی‌ده قویون آدلاندیریردی. او، بو وقته‌دك شخصا ملا خلیلك علیهنه بر سوز سویله‌مه‌میشدی. بوندان سوگرا او نه یاپمالی، نیجه حرکت ایتمه‌لی ایدی. ملا خلیل خلقی نذر و احسان آدیله سویوردی. بونا آچیقدان آچیغه امکان ویرمك مناسب بر حرکت اولمیاجاقدی. اونك فکرینه قولوب گلیردی. قولوبدا اویله بر ایش باشلامالی ایدی که خلقی تمامیله اورایه جلب ایدوب «احسان» ده‌نیلن شیئك نه اولدیغنی اونلارا آگلاتسین.

❀

آقشام‌اوزه‌ری گونش افقه دوغرو اه گیلمیش، کولگه‌لر اوزانماغا باشلامیشدر. کندك کناریندہ کی اکینلرك باشاقلاری خفیفجه اسه‌ن بر روز کارك تاثیریله ساکت بر دگز کیبی موجه‌له‌نیر، اوزاقدا اوته‌ن بر بیلدیرچینك شاقلتیسی ایشیدیلیردی. معلم قولوب بناسینك قارشوسیندا کی سه کی اوزرینده اوتوروب پاپروس چکیر، چولدن قاییدان ناخرك اوگیله، آلچاق بر دیوار اوزریله بر برینك آردیله اوزانوب گلدن کیچیلره تماشا ایدیردی. بو حالدا اوزینك اك قیزغین طرفدارلارندان اولان یونس اونا یاقینلاشدی.

ملا خلیلك‌متبرده اونك علیهنه اولاراق دانشدیغی سوزلری خبر ویردی.

ملا خلیل دیبورمش، بر دین رهبری اولماق صفتیله (امر بمعروف)، (نهی‌أزمنکر) ایتمك اونك وظیفه‌سیدر. معلمك حرکتلرینه دقت لازمدر. گویا معلم بر طرفدن کند گنجلرینی یولدان چیقاریر، بر طرفدن‌ده کندقادینلارینی پیس یول‌لارا چیکیر.

معلم گولومسه‌دی:

ـ عیبی یوقدر. یارین اونك خدمتینه یتشمك واجب اولدی. اوگونك صباحی، بوتون کند گنجلری خبر دوتدیلار که معلم بوگون مسجده، ملا خلیلك موعظه‌سینه گیده‌جك، اورادا بر مباحثه اولاجاقدر. هاموسی اورایا توپلاندیلار. جماعت نمازیندان سوگرا ملا خلیل منبره چیقوب موعظه‌یه باشلادی. موعظه‌سینك موضوعی قادینلارك عفت و ناموسی بارەسینده ایدی. ملا خلیل عوام کندلیلرك اك حساس بر نقطه‌سینی قیدیقلایور، قادینلاردان بحث ایتمکله خلقی هیجانه گتیرمك، اونلاری معلمك علیهنه سوق ایتمك ایسته‌یوردی.

ـ هر کیشینك، دیوردی، وظیفه‌سی یالیگز اوز عیالینك عفت و ناموسینی محافظه ایتمك ده گیلدر؛ عینی زماندا او، اوز قومشوسینك، اوز کندینك قادینلارینی، اونلارك ناموس وغیرتلرینی گوزله‌مه‌لیدر. قرانك گتیردیگی حجاب آیه‌سی قادینلاری پیس یوللاردان ساقلاماق ایچون قوتلی، متین بر حصاردر. اگر بر آدام بو حصاری داغیتماق ایسته‌رسه، دیمك او، سیزك عفت و ناموسگزه تجاوز ایدیر.

ملا خلیل مسجد خلقینی لازمنجه قیزیشدیردیقدان سوگرا علاوه ایتدی:

ـ سیز کندلیلر او قدر غفلتده‌سگز که بویله آدامارا یول ویریرسگز! اونی کنده، چوره‌ك ویروب، بسله‌یورسگز!

معلم یریندن:

– ملا عمی، دیدی، بر قدر آچیق دانیشگز، او آداملاری گوسترسه گز یاخشی اولار.

ملا خلیل معلمك مسجده اولدیغیندان خبری یوقدی. او، ستونك آرقاسیندا اوتوردیغی ایچون ملا خلیل اونی گورمه‌میشدی او، آرتیق معلمله آچیق مبارزه‌یه چیتمشدی. نه‌دن قورقوب چکینه‌جگدی. معلمك اوتاغیندا، کیجه ایکن قادینی گوزیله گورمه‌میشدی ایسه‌ده قولاغلاری ایله ایشیتمیشدی. دیدی:

– او آدامك برنجیسی‌سن اوزك‌سك. سن بزیم ناموس و غیرتمزه ال آتمیش‌سك!

– ثبوت، دلیل لازمدر.

– ثبوتم واردر.

ایمدی ملا خلیل بوتون مسجدی ایناندیرماق ایسته‌یوردی که اوز گوزیله گوروب قولاغیله ایشیتمیشدر. گیجه معلمك اوتاغیندا بر قادین وار ایدی. بو قادین، کنده بر کیشی‌نك آروادی، بر کنجك باجیسی ایمیش.

معلم آیاغا قالقدی. مسئله جدیلشمیشدی. مسجد خلقی هیجاندا ایدیلر.

– ملا عمی، دیدی، بن بو قدر جماعتك حضورینده سزه بر سئوال ویره‌جگم. اگر وجدانلی بر آدام ایسه‌گز، سویله‌یگز، دیدیگگز گیجه بنم اوتاغمك قاپوسینا نه ایش ایچون گلمشدیگز.

ملا خلیل بو باره‌ده بر سوز سویله‌میه‌جگدی. تکرار ایدیردی:

– سیز سویله‌یگز؛ یانیگزدا بر قادین واردی، یایوق؟

معلم – جماعت، دیدی، ملا خلیل دوغرو سویله‌یور، او گیجه بنم اوتاغمده بر قادین واردی. هر گیجه یانیما گلیر، بندن درس اوقویور. بو قادین، بنیم سه‌ودیگیم، گندیسینی آلماق ایسته‌دیگیم بر قیزدر. گیچ، تیز بو قیزی سیز تانیارسگز. ایمدی بنه اختیار ویریگز او گیجه ملا خلیلك نه مقصده بنم قاپوما گلدیگینی سزه سویله‌یم...

ملا خلیل معلمك سوز سویله‌مه‌سینه مانع اولوردی.

– یالان دییور، اونا اینانمایگز، او سزی آلدادیر، اونی مسجددن چیقاریگز – کیبی سوزلر ایله آرانی قاریشدیریردی. مسجده بویوك بر گورولتو واردی.

جماعت ایکی یره بولونمشدی. بر قسمی ملا خلیلك طرفینده ایدی، بر قسمی معلمه طرفدار ایدی. نهایت کند شوراسی صدری ایشه مداخله ایتدی:

– ملا عمی، دیدی، مفتنلك لازم دگیلدر، قوییگز معلم سوزینی سویله‌سین.

– او، بزه نه سویله‌یه‌جك؟ بوتون سویلییه‌جکلری اقترا اولاجاق، بهتان اولاجاقدر.

– اولجه‌دن نه سویله‌یه‌جگینی سن نره‌دن بیلرسك؟!! بو سوزی قشقراراق دییه‌ن یونس ایدی.

– سنك، دییوردی، ایشك اگر تمیز ایسه نیه دانیشماغا قویمایورسك؟

ملا خلیل منبرده ساووق قانلیلقله اوتورا بیلمیردی، ایشك بورایا گلوب چیقاجاغینی تصویر ایتمه‌میشدی.

معلم آگلادیردی: ملا خلیل گیجه اونك یانینا کلوب کندیسینه «اتفاق» تکلیف ایدیردی. «حق سکوت» اولاراق اوروجلق قازانجینك بر حصه‌سینی اونا وعده ویریردی. او، ملا خلیلی قاپوسیندان دیشاری چیقارمیش، ناموسلی آدام چوره کینی الینك امگیله یه‌ر، خلقی اغفال ایله الده ایتمگه چالیشماز دییوب اونی رد ایتمشدر. ایمدی ملا خلیل کند خلقینی هیجانه سالوب آیاغا قالدیرماق، اوزینی میداندا یالیگز کورمك ایسته‌یور.

معلم سوزینك آخرینده یوزینی ملا خلیله دوتوب دیدی:

– اگر جسارتك وارسه الیگی وجدانیگك اوزرینه قویوب اعتراف ایت و خلقی اغفال ایتمگدن ال چیك!

ملا خلیل سوزی مغالطه‌یه سالماق ایسته‌یوردی:

– جماعت، دیدی، بن تکلیف ایدیرم معلم اوز نشانلیسینك آدینی بو ساعت بورادا سویله‌سین.

یونسك سسی یه ایشیدیلدی. بو کره آیاغا قالقمیشدی.

– سن، دییوردی، بو قدر جماعتك ایچینده اوز آروادیگك آدینی دییه‌رسگمی؟ بسدر داها بیزی آلداتدیگز! . . بسدر، بزی قویون کبی سویدیگز.

مسجد آرتیق داغیلماغا باشلامیشدی

بو حادثه‌دن سوگرا ملا خلیل هر آقشام گیجه یاریه‌دك معلمك اوتاغنی کوز آلتیندا بولوندیراردی که اونك یانینا درس اوقوماغا کلن قادینك کیم اولدیغینی اوگره‌نسین. قیراقدان اورایا کیده‌ن یوقدی. فقط ایچریده قادین سسی ایشیدیلیردی. ملا خلیل بر نیچه آی اول تللی‌نك کندی یانینا کلوب اسلامدان بوشانماق فکرینده اولدیغینی بیلدیرمه‌سینی خاطرلادی. او، آرادیغینی بولمیش، معلمدن یاخشی انتقام آلاجاقدی.

***

اسلامی، آلدیغی خبر، بیلدیریم کیبی وورمیشدی تللی کند ایچینده، أیل آراسیندا اونك پاپاغینی یره

سوقمیش، ناموس و شرفینی آیاقلار آلتینا سالمیشدی.

آقشامك قارانلیغی چوکه‌رك قیشلاغك اوزه‌رینی قارا بر چادرا کیبی اورتمیشدی. بونا باقمیاراق اسلام ایوه قایتمایور، تك باشینا پیگه‌نك دامیندا، سرعتلی آدیملار ایله او باش بو باشینا کیدیر، پاپروس پاپروس اوستیندن چیکیر، نه یاپاجاغینی تعین ایده بیلمیردی. اونك باشقا چاره‌سی یوقدی. ئولدورمه‌لی ایدی. هر ایکیسینی ئولدورمه‌لی ایدی. فقط بر شی اونك قارشوسینی آلیردی. او، دوتولماقدان، گوللەلنمکدن چوق قورقوردی. قاچاقچیلغك‌ده آخری ئولوم ایدی.

ـ تفو! سنك اعتباریکا آروات!.. دییوب بوغلارینك اوجینی چیکنه‌یوردی.

اونك نظرینده تللی اعتبارسیز، وفاسیز بر قادیندی. اوزینك چوره کینی بیدیگی، پالتارینی گیدیگی حالدا حیثیت و شرفینی کوزله‌میوب آیاغلار آلتنا سالمیشدی.

اسلام بو باره‌ده چوق دوشوندی. اگر تللی ایله معلمی بر یرده ئولدورسه، گوللەلنمه‌سه بیله، آزی اونا اون یل ایش ویره‌جکلردی. بو اون یللی ایوده کی آروادی سکینه ایمدیکی زماندا اونی گوزله‌یوب دورا‌ـ جاقمی ایدی؟ اونك‌ده اعتبار و وفاسینه اینانماق اولاردیمی. کیم بیلیر او نه یاپاردی. آرواتلار آخر زمان‌لاردا نه‌لر سویله‌یوب، دانیشمایوردیلار.

قیشلاقك آلچاق داخمالارینده‌ن سه‌زیله‌ن تیتره‌مك خفیف ایشیقلار بررـ بر غایب اولور، کند اویوماغا باشلایوردی. سکینه بر ـ ایکی کره قاپودان اسلامه باقمیش، اونك اوقات تلخلیکنی دویاراق یاقینلاشماغا جسارت ایتمه‌میشدی.

اسلام نهایت بر قراره گلدی. اوز اوزینه دییوردی؛

« بویله مهم ایشلرده انسان گرك ساووق قانلی‌لغینی الدن ویرمه‌سین ». اونك بو باره‌ده تجربه‌سی آز ده کیلدی معلمك ایشینی باشقا مناسب بر وقته قویماق اولاردی. ایلك نوبه‌ده تللی‌نی آرادان قالدیرمالی ایدی بونی آچیقدان آچیغا ئولدیرمك، اوز اوزینی محو ایتمك دیمکدی. حالبوکه ممکن ایدی که بو ایش کیمسه‌یه سزدیریلمه‌دن یاپیلسین. او وقت حکومت اونك اوزه‌رینه هیچ بر تقصیرده قویا بیلمه‌زدی.

اسلامك فکرینه کلمشدی که بوقاری کنده گیتسین. تللی‌نی خوش دیل ایله آلوب قیشلاغا گتیرسین. سوگرا بر گیجه بوغازینا ایپ سالوب بوغسون. بر آداما بیلدیروب سزدیرمه‌دن توپراغا باسدیرسین. بو پك مناسب بر پلان ایدی.

او گیجه‌نك صباحی اسلام آراباسینی قوشوب یوقاری کنده یولا دوشدی.

***

اسلام تللی‌یه حاضرلانماسینی امر ایدیردی. آرابا اونی قاپودا گوزله‌یوردی. تللی ایسه قطعی صورتده بر یانا ترپنمیه‌جکینی بیلدیریردی.

ـ بن سنه امر ایدیرم.

ـ بن‌ده سنه قولاق آسمیرام.

قان، اسلامك به‌ینینه ووردی. دوداغلاری حرصیندن تیتره‌یوردی.

ـ سنك حقك یوقدر بنه قولاق آسمایاساك!

ـ نیچین؟

ـ چونکه بنیم آروادیم‌ساك!

ـ بن سنك آروادك ده گلهم، اولماقدا ایسته‌میرم.

اسلام آرتیق دایانا بیلمه‌دی.

ـ بن بو ساعت. دیدی. سنی آپارارام.

ایلری یورودی. آجیغندان تیتره‌یه‌ن الیله تللی‌نك بیله گیندن یاپیشدی، اونی دیشاری چیکیردی.

تللی بیله گینی اونك دمیر کیبی پنجه‌سیندن قورتارماغا چالیشیردی. گیری چیکیلوب دارتینیردی. کوجی چاتمادیغندان یره اوتوردی:

بن گیتمیرم، بن بر یانا گیتمیه‌جگم.

اسلام اونك هورو گارینی الینه دولادی. چیکوب سوروپوردی. تللی آرتیق‌چیغیرماغا باشلادی. او چغیردیقجا اسلام اونی ته‌پیگیله نه‌ره‌سی گلدی ووروب ازیشدیریر دی. اونك گوزلری قیزمیش آدامله‌قدان چیقمش، وحشی بر سسله ووردیقجا دییوردی؛

ـ ئولدوره‌جگم!.. دینم‌حقی، ایمانیم‌حقی ئولدوره‌جگم ...م سنك آغزیکی!

اسلام آرتیق محاکمه‌سنی ایتیرمشدی. او هیچ بر شی دوشونمیردی. او یالکز، برشی دوشونیردی. تللی‌نی ئولدورمك. یومروغیله، تپیگیله ووروردی. تللی‌نك باشی یاریلمش آقان قاندان یوزینك بر طرفی قیزارمیشدی. او هله ساقدی. او هله چارپشیردی. دیشیله اسلامك الینی گمیریر، قیشقریقیله باشقالارینی یاردیمینا چاغیریردی. بردن اسلامك گوزینه دیواردان آسیلان اسکی بر خنجر ساتاشدی. اونی قاپدی. قینیندان چیقاریردی. بو حالدا بوغازینا برال یاپیشدی. بو، معلم ایدی.

ایمدی معلم ایله اسلام ایوك ایچینده چارپیشیردیلار کاه او، معلمی، کاه معلم اونی یره یقیردی. معلم اونی بوغوب

نفسدن سالماق، اوایسه معلمی ایوك برطرفنه دوشهن خنجر ایله پارچالاماق ایسته‌یور... اللهشیردیلر.

تللی بالقونا چیقمشدی. آچیق باشی، داغینیق ساچلاری آلتندا قانلا قرمزیلشمش یوزیله اوطرف، بوطرفه یوگوره‌رك قیشقیردی:

– آی!.. .. گلیك!.. آی هارای.. کومك ایدك!. ئولدورورلر... قورتارك!!! دییوردی.

یاقیندا کی ایولردن قادینلار، چوجوقلار رضوانك حیاطینا دولوشمشدی. کندك هرطرفیندن آداملار یوگوروشوردیلر. کند شوراسنك صدری، یانیندا بر نیچه کندلی، تله‌سیك پلله‌لری یوقاری دیرماشیردی. رضوانك آروادی گل‌پری ساچلارینی یونور، اوشاقلاری آغلاشاراق بر–برینه‌قاریمشدیلار. اسلام ایله معلمی بر بریندن آیردیلار. هر ایکیسینك پالتاری چیریلمشدی.

***

کند شوراسندا برات‌القول ترتیب ایدیلیردی. اسلام کند شوراسینی اینانديرماق ایسته‌یوردی که اونك معلم‌ایله هیچ بر غرضی و عداوتی یوقدر.

– بن، دییوردی، آنجاق آروادیمی قیشلاغا آپارماغا گلمیشم معلم اونك دوغرو سویله‌دمه‌یگنی ادعا ایدیردی. او، تللی‌نك قیشقیرغنا قوشمش، اسلامك النده خنجر اونی ئولدورمك ایسته‌دیگنی گوره‌رك مانع اولمشدر.

– بن، یالگز خنجر آلتندا ایکله‌ین بر قادینی خلاص ایچون اسلام‌ایله چارپشیر، اللهشیردیم.

اسلام معلمك اوز عائله ایشینه مداخله ایتمگی عادت و قانونك خلافی بیلیردی.

بر کشی دییوردی: آروادینی سه‌وه‌بیلدیگی کبی، ایوینده دوگه‌ده بیله‌ر. باشقاسنك گلوب بونا مداخله ایتمگه حقی یوقدر. کابینلی، حلال آروادیم اولدیغی ایچون بنیم‌تللی‌نی ایسته‌دیگیم یره آپارماغا صلاحیتیم واردر.

تللی اونگله هیچ بر یانا گیتمیه‌جگینی آچیقدان آچیقا سویله‌یوردی:

– بن سنگله هیچ بر یانا گیتمیه‌جگم. آروادك اولماقدا ایسته‌میرم.

کند شوراسی بویله اختلافلی مسئله‌نی حل ایده‌بیله‌جك حالدا دگیلدی. تللی‌نك خواهشنه گوره، اونی ملیس نفرلرینك محافظه‌سی آلتندا (ن) کندینه، آتاسی ایوینه گوندردیلر. اسلامه‌ده دیدیلر که «سن اوز حقگی آنجاق محکمه قارشوسیندا مدافعه ایده‌بیلرسك»

VIII

مایسك صفالی، لطیف بر گونی‌ایدی. قیشلاقدا کی کوچریلر یاواش یاواش (ش) کندینه توپلاشیردیلار. هر زمان بر مزارستان ساکنلگی داشیان بو کنده قیزغین بر حرکت، آدام قاینا‌شماسی مشاهده اولونوردی. قیشده اوچمیش داملار قایریلیر، رخنه‌لنمش حصارلار تعمیراولنوب دوزه‌لیردی. کندك اوته‌سینده بر دسته یومورتادان یگی چیقمش جوجه‌لر، اوینا‌قلاشان اوغلاقلار گورونور. کورپه قوزولارك مله‌مه‌سی، کوپکلرك هورمه‌سی ایشیدیلیردی.

معلم مکتب چوجوقلارنی بر هفته اول یای تعطیلینه براقمش، اوزی هله بر طرفه گیتمه‌مشدی. او، بو گون لرده کنده گله‌جك سیار محکمه‌نی گوزله‌یوردی. ملا لیل اوروجلق آیندان موفقیتسیز چیقدیغندان هر یلکی مداخلنك یارینی ایتیرمیش، اونی جماعت نظرینده لکه له‌مك ایچون اسلامی قورشامشدی که شکایت ایتسین. علیهنه بر دسته دوزه‌لمشدی. بو دسته اونی کنددن آوارا سالماق ایسته‌یوردی. او ایسه بر یانا ترپنمیه‌جك، علیهنه سویله‌نن افترالاری تمامیله رد ایده‌جك، محکمه‌نك کندی باره‌سنده ویردیگی قراردان سوگرا تللی ایله ایولنه‌جك، بو کنده یاشایوب دوراجاقدی.

***

محکمه کند قلوبنك قارشوسندا بولونان بویوك بر خارماندا اجلاس‌یاپاجاقدی. قلوبك بتون سیرالاری ساندالیا وماسالاری دیشاری چیقاریلمش، ایولردن برائوز اولاراق یغیلان خالچا و گبه‌لرایله خارمان باشدان باشا دوشه‌نمش ایدی. محکمه هیئتینه مخصوص‌اولماق اوزره قلوبك اه‌نلی سه کیسی اوزه‌رینده بر صحنه قایریلمش، بورا قیرمزی بایراقلار، مختلف شعارلار، انقلاب قهرمانلارینداں یولداش له‌نینك و باشقا برنیچه آدامك عکسیله محرملك موهوماتی علیهنه نشر اولونان شکللر ایله بزنمشدی.

بوتون کند بورادا حاضر ایدی. تللی برگون اول آتاسیله گلوب یونس گیلده اقامت ایدیردی.

محکمه‌نك اجلاسی آچیق اعلان ایدیلدی. محکمه رئیسی ابتدا بر نطق سویله‌دی. بو نطقده حکومت ایله خلقك بر– برینده آیری – آیری شیلر اولمادیغنی، باشقا حکومتلرایله شورالار حکومتنك آراسندا کی فرقك نه‌دن عبارت بولوندیغنی، محکمه‌لرك خلقه یاقینلاشماسندا کی مقصدی آگلاتدی... سوگرا (ش) کندینده باقیلاجاق ایشلرك سیاهه‌سی اعلان ایدیلدی. برنجی نوبده اسلامك

شکایتی ایدی. کاتب اونك شکایتنی حاوی اولان استدعاسنی اوقودی. اسلام بو استدعاسینده گوسترردی که کند معلمی اونك کابینلی آروادی تللی نی یولدان چیقارماقلا اونك الندن آلمشدر. بونك ایچون طلب ایدیردی که اولا معلمه لازم گلهن تنبیه ایدیلسین. ایکنجی کندیسنك تللی اوزرینده اولان حقوقنی محکمه تصدیق ایتسین.

اسلام عریضه‌سنده برچوق شاهدلار گوستریردی.

بونگله برابر اسلام ایشینی بیلهن، محکمه‌لر قاپوسینی تانیان بر آدام ایدی. اوزی یاخشی دانشماق بیلمیردی. حاجی منافی اوز طرفیندن وکیل ایتمشدی. حاجی مناف دانشماغی باجاران و قانوندان خبردار بر آدام حساب اولونوردی.

حاجی مناف سوز آلوب آیاغا قالقدی.

– بن، دیدی، تکلیف ایدیرم که محترم محکمه هیئتی برنجی نوبده او شاهدلاری دانشدیرسین که اونلار تللی نك، اسلامك حلال آورادی اولدیغنی اثبات ایده‌جکلر. اویله که محکمه بونی یقین ایتدی، سوگرا بر شاهد صفتیله کندیمزك محترم روحانیسی ملاخلیلی دانشدیرسین. ملاخلیل معلمك اسلام قادینلارینی پیس–پیس یوللاراچکدیگنی گوزلریله گوروب قولاقلاریله ایشتمشدر. آو. بونی آلهك کلامینه آندایچمکله اثبات ایدجکدر. سوگرا بن بر وکیل صفتیله محکمه‌دن اینکی شی طلب ایده‌جگم. برنجی: تللی نك الیندن یاپیشوب اونی اوز شرعی وحلال اهری اسلامه تاپشیرسین. ایکنجی: باشقالارینك آروادلارینی یولدان چیقاران معلمه آغر جزا ویریلسین.

حاجی منافك دانشیغی اسلامك کوگلینه یاتدی. اونك یوره گیندن دانشمشدی. ملاخلیل اونك سوزینك آخریندن ممنون قالمدی. یانینداکی گلهشهن حاجی فرجك، قولاغینا پیچیلادی:

– حاجی مناف گرك محکمه‌دن طلب ایده ایدی که معلمی، برادار، جماعتك گوزی قاباغینداآسایدیلار. قوی باشقالارینا عبرت درسی اولسون.

تللی نك اسلامك آروادی اولوب اولمادیغنی اثباته احتیاج گورولمه‌دی. محکمه صدرینك بوباره‌ده اولان برسوالینه تللی جواب ویردی که: «اوللرده اسلامك آروادی ایدیم، اوایکنجی آرواد آلدیقدان سوگرا بن بوشانماق ایسته‌دیم؛ بو سوزیمی اولده دیمشدیم ایمدی‌ده دییورم».

ایمدی مسئله‌نك ایکنجی جهتی قالیردی: «معلمك اسلام قادینلارینی پیس یوللارا چکمك!..» بو پیس یولك نه‌دن عبارت اولدیغی آیدین ده گیلدی. بوباره‌ده هیچ بر فاقت گوسته‌ریامیردی. اسلامك وکیلی حاجی‌مناف محکمه صدرینك سوالنه جواب اولاراق دیدی:

– ایشك بو جهتنی ملاخلیلك بیاناتی ایضاح ایده‌جکدر.

ملاخلیل آیاغا قالقوب محکمه هیئتنك قارشوسینا گلدی. او، اولدیقجا مهم بر مسئله‌نی آچاجاق، معلمك کندقادین لارینی پیس یوللارا چکدیگنی ایضاح ایده‌جگدی. هر کس مراقلا اونی دیکله‌یوردی. ملاخلیل باشلادی:

– معلمك وظیفه‌سی یالگز اوشاقلارا درس ویرمك اولمالیدر. بو معلم ایسه ئوز وظیفه‌سی اولمایان ایشلره‌ده قاریشیر.

– مثلا نه کبی ایشلره؟

بو سوالی ملاخلیله هیئت عضولرینden بری ویردی.

ملا خلیل بو باره‌ده آچیق برشی گوسترمه بیلمه‌دی. یالگز بونی دیدی که مرحوم مشهدی ایوبك ترکه‌سی بولونمشدی، ورثه‌لرده بو تقسیمه راضی ایدیلر. معلم بوایشه قاریشوب اوزینك تقسیماتنی یوزمشدی.

سوگرا ینه اوز سوزینه دواملا دیدی:

– بن معلمك اوتاغیندا گیجه‌ایکن قادین گورمشیم.

ملاخلیل حقیقت حالدا «گورمه‌میشدی» یالگز «ایشیتمشدی» بو باره‌ده معلم اونا سواللار ویرمگه باشلادی. او ایسه معلمك سوالرینه جواب ویرمکدن امتناع ایتدی. محکمه نك اصرارینه گوره ملا خلیل اعتراف ایتدی که قادینی گوزیله گورمه‌میش، فقط قولاقلاریله ایشیتمشدر.

ملا خلیلك بو بیاناتی مسئله‌نی ینه آیدینلاتمایوردی. «پیس یوللار»ك نه‌دیمك اولدیغی باشی اورتولی قالیردی محکمه صدری سوردی:

– سیز «پیس یول» نه‌یه دیرسگز؟

– پیس یول اونا دیورم که شریعتك خلافینه اولسون، ایچینده فسق فجور اولسون.

– معلم دییور که او آقشاملار، قومشو اوتاغدا یاشایان تللی‌یه درس ویریرمش. سیز ادعا ایده‌بیلرمیسگز که اونلار درس اوقومایوب باشقا فسق فجور ایشلر گوریرمشلر؟

– بنمده دییه‌جگم هله بو اولاجاقدی. بزده هیچ بر قادین درس اوقوماق فکرینده اولمامشدی. اگر تللی بو فکره دوشمشسه دیمك اونی بو ایش اوسته معلم قویمشدر. شریعتك نهی ایتدیکی برایشی بیز «پیس یول» آدلاندیریریز.

– معلم آنجاق اونا درس ویریر. سواد او گره‌دیرمیش.

– او درس و سواده بیز «پیس یول» دییورز. چونکه بوندان فسق و فجور اورتایا چیقیر.

ملاخلیل باشقا بر شی گوسترمه‌یه‌لمه‌دی. محکمه تللی نك ومعلمك‌ده بیاناتلارینی دیکله‌یوب اوزقرارینی اعلان ایتدی.

«معلمك اوزه‌رینه آتیلان تهمت افترادن باشقا بر شی اولمادیغندان اسلامك بو باره‌ده اولان طلبی‌سرانجام سیز براخلیر، برطرفدن آذربایجان مرکزی اجرائیه قومیته‌سنك ایکی آروادلیق باره‌سنده اولان ده‌قره‌تی دیگر طرفدن تللی‌نك اه‌رئندن بوشانماق خواهشی نظرده دوتولاراق اسلامك اونی بر داها گه‌ری ایسته‌مك حقی الندن آلنیر.»

اسلام آیاغا قالقدی.

– او، دیدی، بنیم کابینلی آروادیم اولدیغی ایچون بنی ئولدورسه گزده اونا طلاق ویرمیه‌جگم،

– شورالار حکومتنده کابین، طلاق همیشه‌لیکله قادینلاری باغلایابیلمیر. سنك طلاق ویرمه‌مگك، تللی‌نك سربست‌لگنی الندن آلابیلمیه‌جکدر.

محکمه ایکنجی مسئله‌نك مذاکره‌سنه باشلاماق ایسته یوردی. اسلام ینه آیاغا قالقدی: عصبی بر حالدا دیدی؛

– یولداش‌محکمه اگر سیز عدالتله ایش گورورسگز ایسه اوندا بنم حقمی بو قادیندان آلیگز.

– هانکی حقگی ایسته‌یورسك؟

– باشیندا کی چادرا بنیم خصوصی مالیم‌در.

اسلامك سقی‌واردی. برزماندا که تللی‌اوندان‌بوشانمشدی، اونك پولیله آلنان شیلرینی‌ده اونا قایتارمالی‌ایدی. حالبوکه باشندا کی چادرا اسلامك البسه‌سی ایدی.

محکمه هیئتی اونك طلبنی نظره آلماق ایسته‌ـی.تللی‌یه دیدیلر که اسلامك شیلرینی اوزینه ویرسین. اسلام تللی‌نی چیقیلماز بر وضعیته سالماق فکرینده اولدیغندان طلب ایدیردی که، همان ساعت چادراسینی اونا قایتارسین.

– برزماندا که او بنیم آروادلغمدان چیقمشدر، چادرامی ئورتمگه حقی یوقدر.

معلم ایلری یورودی. تللی‌نك الندن دوتاراق آیاغا قالدیردی. محکمه‌نك اجلاس ایتدیگی صحنه‌یه چیقاردی.

– اسلامك جوابینی ویریگز – دیدی.

تللی هیجانیندان تیتره‌یوردی. هرکسك گوزی اوندا ایدی، تیتره‌ك الرینی‌چادراسینا آپاردی. برقدرتردددن سوگرا قطعی بر حرکتله اونی ایکی طرفه آچدی. ایمدی‌اونك یوزی گورونوردی. ایکینجی برحرکنده چادرانی‌بوتون وجودیندن رفع ایتدی.

– آل بوسنك چادرك!.. دیدی.

اسلامه طرف آتدی. چادرا هوادا برایکی کره یللە نوب‌والایلاندیقدان سوگرا یره دوشدی. تللی‌نك‌باشی‌ایله بوتون وجودی تمامیله آچیلدی – شمالدان اسەن روزکارك تاثیریله ساچلاری یللەنیردی. مجلسده کیلرك برقسمی باش‌لارینی آشاغا سالمشدیلار، بر قسمی اونی آلقیشلایوردی.

معلم هرکسك ایشیده‌جگی‌یوکسەك بر سسله‌دییوردی:

– کمال مسکنتله یرده سورونه‌ن بو چادرا اسلامك بر یادکاری اولماقلا برابر تللی‌ایچون بر اسارت نشانه‌سی ایدی، تللی بونی باشندان آتماقلا اوزینی بو اسارتدن قورتاردی، قوی هرکس بیلسین که تللی‌نك عفت‌وناموسنی محافظه ایده‌ن اسلامك چادراسی‌ده گلدر.

***

سیز بونا، بر تصادف دییه‌جگسگز؛ ئه‌وت، بو بر تصادف‌ایدی، فقط تاریخك یاراتدیغی بر «تصادف»ایدی.

س. حسین.



صوك



I

آراس اوستنده بر قدیم کندك؛
وارایدی ملا میر فاطمی قاریسی؛
ایشیده‌ردی هامی بونك پندك،
ایمانارادی بوگا ئه‌لیك هاموسی...
میر فاطمی شأن شهرت آلمشدی؛
روضه خاناقدا آد یوجالتمشدی؛
عوام آروادلاری جلوولاردی؛
الی‌سیك گونده ـ گونده تووولاردی...
اوقویاردی قران ئوله‌نارینه؛
محرم ایدی بتون امللرینه؛
صنعتی بیر دگل‌دی میر فاطمی‌نك؛
منبعی آرتق ایدی ثروتنك:
فال آچاردی، حکیم‌لیك ایله‌ردی؛
کندده هر درده چاره سویله‌ردی.
قوجا، هشتاد یاشیندا گل پریلر؛
اه گیلوب قاتلانان مه‌شه‌د حوریلر؛
احترام ایله‌یه‌ردیلر فاطمی‌یا؛
داهی ایدی فاطمی کویه گویا؛
فاطمی تکلیف ایدن زماندا همان؛
قوجالار هیچده ویرمه‌ز ایدی آمان؛
چونکه‌اونلار بونگله باش داشدی؛
صحبته، مکره، فکره یولداشدی؛
فاطمی هر سوز دییه‌یدی اول ده‌مده؛
قوجالار تیز یاپاردیلار کنده؛
قوجالار سه‌س سالان کیبی درحال؛
چاخناشوب بیر بیره ده گه‌ردی‌محال؛
کیمیسی پاتاریك گیبه‌ردی تمزه؛
کیمی‌سی باش آچیق دوشه‌ردی دوزه؛
غضبی کیتچمه‌یه؛ کیمی موتالی‌ـ
گوتوره‌ردی، کیمی یومورتا، یاغی؛
آپارادی حضورینه پشیروب؛
باش اه که‌ردی سجده‌لر بتیروب؛



سوگرا معصومه‌قزلاری مجبور؛
ایده‌رمك سویله‌یه‌ردیلر بیر ـ بیر؛
یاورولار، دورمادان گیدك آخونك؛
اوپوگز اللەرین ثوابدی اونك؛
خیردا قزلاردا عادت اوزره گیدوب؛
فاطمی‌نك اللەریك آلوبدا اوپوب:
او گره‌ده‌لردی کندیك عادتی؛
انتها گوزلیوب سعادتی؛
آلیشیرلاردی هر ایشه گیدیشه؛
بونلارا علم فنی اسگی پیشه؛
آنادان تربیه آجیقلی طوقات؛
میر فاطمی ملاداندا موهومات؛

II

گلدی بوکنده برنفر یولداش؛
یونه‌لوب دوز اداره‌یه بر باش؛
چاتدی کوی صدرینه سلاملاشدی!
نه ایشه گلدیگیك اونا آچدی؛

صدر ایشی بیلجه گین دوروب گیتدی؛
جمله شورالره خبر ایتدی:
دیدی اوچ ساعته ئه‌لیك هاموسیك؛
قادینك، امر که گیك، قیزیك، قاریسیك؛
چاغیروب توپلایوب اداره‌مزه؛
یگی ناطق گلوب دانیشا بیزه؛
ایکی ساعت ایچنده شورالر؛
هامونی دورمازین حاضرلادیلار:
ساعت اوچ اولدی آچدیلار اجلاس،
کاتب احمد سه‌چیلدی، صدر الخاص؛
سوز آلوب صدردن نماینده:
سویله‌دی: ایشته گلمیشم کنده؛
او سبیدنکه بن دییوم شیمدی؛
ایشیدیك سیزده ایتدیگیم نطقی:



بسدر آرتق ساووردیلار، یئدیلر؛
همده هر حقه حسرت ایله‌دیلر؛
بیزی اول کهنه ملالار، بگله‌ر؛
مفته‌خورلار، سیدلر، ئه‌نگه‌للر؛
داها غفلت زمانی گیتمشدر؛
کهنه عادتلر ایمدی بیتمشدر؛
سویاراق ساتدیلار حقوقمزی؛
دونده‌روب رمله هم قونمزی؛
عصرلرجه ایدوب بیزی بدبخت؛
قوردیلار ایولرینده زردن تخت؛
ایمدی اونلار بو گون گومولمیشدر؛.
گوزلری توپراغا یومولمشدر؛
قیرمزی اوقتیابرك ایشیغی؛
یوردومزدا نفوذ ایدوب حقی؛
داها لازم جهالتی آتالم؛
علم، مکتب نه اولدوغین تاپالم؛

گبئدیر اوغلان اوشاقلاری بیلیرم؛
مکتبه کندیگزده هپ گورورم؛
بو بیزه بس ده گل یقین ایدیگز؛
آچاراق گوز حیاته قارشی گیدیگز؛
سیز گلیك قیزلاری قویون گیتسون؛
درسه عادت ایدوب صفا بولسون؛
قیزیمز اولماز ایسه تربیه‌لی؛
ئولکه‌میزده سائیلاماز یئیه‌لی؛
چونکه اونلار یارین آنا اولاجاق؛
ئولکه‌میزده یئیه حاضرلایاجاق؛
اوقومازلارسا پك گیئری قالاریق؛
ینه غملی جهالته دالاریق؛
قورتاران دمده سوزلری یولداش؛
سأرماشوب ووردیلار اه‌لی باشا ـ باش؛
هامو یازدیردی قیزلارك آدینی؛
یادا هیچ سالمایوب آخون فاطی‌نی؛
دانیشیق بیتدی ئه‌ل بتون داغیلوب؛
قوجا عفریته‌لر اودمم یغیلوب؛
اوقودا قیزلاریك جماعت هپ؛
گیئتدیلر تیز خبر ویروب فاطی‌یا؛
مرئه‌خان لیلی‌یه، چولاغ توتی‌یا؛
فاطی احوالی دویجاغین درحال؛
امر ویردی یغیلسین اهل محال؛
ایکی ساعتده جمله کوی قادینی؛
یغیلوب مسجده آخون فاطینی؛
گوزله‌یورله‌ردی؛ قورقو، وهشتله؛
آزاجق چیکمه‌دی او دهشتله؛
گله‌رك حرصله سلام ایتدی؛
فیرلانوب منبره طرف گیتدی؛



چیقدی درحال منبرك باشینا؛
اه‌لینی چیکدی بورنینا، باشینا؛

بوغازین آرتلایوب توپوردی یئره؛
شمعدن دوزدی منبر اوسته صیره؛
هر طرف طمطراقنی حاضر:
ایده‌رك مسجده اولوب ناظر؛
گوز یتیردی قادینلارا باقدی؛
محترص حالدا صوتنی چاخدی؛
مجلسه هی ویروب زبانه چیکوب؛
آخرتدن جهنمی گتوروب؛
عموام آروادلارك دوتوب گوزینه؛
دیدی باق دورماسوز بنیم سوزیمه؛
اهل اوزوب تیئز بودر چیخوب گئیدیرمم؛
اوزیمه چوللری مکان ایدیرمم؛
کفر آلمیش سیزك خیالیگزی؛
ایده‌رمم ترك بن دییار گزی؛
قیزدی، هایقیردی، جوشدی، قشقیردی،
الك نهایت جواب ایچون دوردی:
بر قادین جرعت ایله‌دی دوردی؛
ملادان خوف ایله بونی سوردی:
«نیه بیزدن آجیقلانوب گیده‌سن؛
اوزووه چوللری مکان ایده‌سن؛
سبیك سویله بیزده آگلایالم؛
نه دییورسن آچیق بویور قانالیم؛
فاطی قیشقیردی بیلمه‌یورسنمی؛
که بو گون هپ آتوبدیلار دینی؛
سوز ویروبلر که قیزلاری اوقوداق؛
تازه بیر قاعده گره کدی دوتاق؛
بو ایسه دوغرو ایش ده گلدر هیچ؛
داغیلار کندیمیز داها تئیز گئیچ؛
ایدیرمم بن سیزه نصیحتمی؛
بیلیورسیز آچیق طبیعتمی؛
کیمسه آسماز قولاق بنیم سوزیمه!
داها آرتیق گورونمه‌سین گوزیمه؛
بیلگز آپ آچیق بو بر آواز؛
قیزا مذهبده علم و فن یاماز؛
دیدی نطقك سوروشدی منبردن؛
اگله‌شه‌نله‌رده قالقدیلار یئردن؛
چاره‌سیز قالدیلار تمامیله؛
هپ قادینلار فغان ناله ایله؛
گلدیلر ایوده قیزلارا دیدیلر؛
خیردا قیزلار تعرض ایله‌دیلر؛

بو گا بز دورماریز، بو یا گلش‌در؛
فاطی‌نك فکری ایمدی ئولمشدر؛
فاطی‌یا بز اینانماریق برده؛
داها مکتب کتاب، اولان یئرده؛
بز گرك مکتبه گیدوب اوقویاق؛
فاطی‌نك زهر سوزلریك اونوتاق؛

III

صبح آچیلدی بیغیلدی هپ قیزلار؛
اتفاق یاپدیلاردا بیلدیزلار؛
دوشدیلر بیر ـ بیرین گوروب هوسه؛
گیتدیلر خردا غنچه‌لر درمه؛
ایکی اوچ هفته گئچمه‌دن بوندان؛
هامو قیزلار داغیلدی مکتبدن؛
نه‌دن ایسه بو فتنه دوغمشدی؛
بر قارانلق او کندی بوغمشدی؛



بر جه مکتبده قالدی یاپ یالیگز؛
قوممونیست احمدك قیزی نرگیز!
پك متانتله دوروب بو چیچه‌ك؛
درسه سعی ایتدی‌ده بر آفت ته‌ك؛
بئش ایل‌ك قورسنی بیتیردی همان؛
گوردیلر بر امید اولار بوندان؛

چیقاروب جمله سه‌سله قطعناما؛
نر گزی سالدیلار یولا باکویا؛
باکودا سعی ایدوب اوچ ئیل اوقودی؛
اك نهایت معلمه اولدی؛
فایدوب گلدی کندی ایولرینه؛
تعیین اولدی «چیچه کلی» کویلرینه؛
بونی گوردیگده کندلی قیزلار؛
أیوده بر ثانیه اوتورمادیلار؛
توپلانوب گلدیلر بتون درسه؛
خیردا قیزلار هامو دوشوب هوسه؛
داها بوندان سورا آخون فاطی‌دان؛
زهاه قاچدی بزه کدیلر اوندان؛
هامو قیز قومسو،ولدا عضو اولدی؛
مدنیت أیی کویه دولدی؛
فاطی‌یا احترام ایدن بر آدام؛
اولمادی، اولدی آغزینا قادام؛
اك نهایتده دوشدی یولچیلیغا
أوقشادی اتچه قوش کیبی یولوغا؛
روضه‌سین دیگله‌ین سوزین ایشیده‌ن؛
اولمادی نه قادین، و نه کیشی‌دن؛
دعا یازماغینا فال آچماغینا،
اینانان اولمادی فریلداغینا؛
بللی کیم ماسقا گیئسه گر یوزینه؛
عاقبت حیله‌سی گیره‌ر گوزینه!...

مجنون محمد زاده





گنج قلملردن

کویلی قیزلاری

قلبی، چوجوق قلبی هم وجدانی پاك،
درد ألم بیلمه‌ز کویلی قیزلاری.
سه‌وه‌ر حیاتنی ایتمه‌زلر هلاك
ئولوم سازین چالماز کویلی قیزلاری!

کائنات1) گوزه‌لی دوغار که‌ن، دوغار،
پیگه‌ده کی قاره ماللارا باقار،
تك ـ تك اوقشایاراق سودلیسین ساغار،
هیچ گوز یاشی سیلمه‌ز کویلی‌قیزلاری!

أیولری داخماجیك، اوزلری فقیر؛
حیله، ریا بیلمه‌ز روحلاری مسرور،
یاشارلار بیرلیگده دگیللر مغرور.
دیرناقلارك 2) یولماز کویلی قیزلاری!

اویله که دوشجه گین آقشام کولکه‌سی،
او وقت کویی سارار سورو صداسی،
سانکه جنت اولور اولدم بوراسی،
آجی گولوش، گولمه‌ز کویلی قیزلاری!

اسگی‌ده کی آدیگز: «یابانی گوللر»!
که‌سیلدی کو کیندن آرتق او دیللر،
سه‌وه‌ر آنا کیبی سیزی بو ایللر
عمرینده آغلاماز کویلی قیزلاری!

اشبو طبیعتك الوان قوینوندا،
یاشار جیران کیبی، مرجان بوینوندا،
جیران اوینوشی وار هر بیر اوینیندا
باشینا اورتك سالماز کویلی قیزلاری!

مکتب آچیلمشدر به گی سیستەمله
قوشار کویلی قیزی بویوك هوسله
گیئچمیشی بیر داها قطعی بیر سه‌سله
هیچ دیله آلماز کویلی قیزلاری!

قیزیل عصرمیزك: قیزیل بیلدیزی،
ضیاسیله ایدیر شوقی قیرمیزی،
بوندان نور آلانك اولورمی صیزی،
ساختا آنا اولماز کویلی قیزلاری!

ش.غ. یاووز

1) گونشه اشاره‌در
2) (Маникюр)ه‌اشاره‌در.

حبیبه

(باکودا تورك قادینلاری حیاتندن بر پارچا)

حبیبه‌نك گوزه‌للیگینه سوز یوقدر... اونك شیوه کبی قارا و شفقلی زلفلری گیجگاهلارینی ایلان کبی قیوریلوب یاتمشدر. اونك ساچی قادار قارا و انسانك یوره گینه‌اوخ باتان کمان قاشلاری و پارلاق گوزلری، بللور کبی صاف و تەمیز یوزینده الك مقتدر و صنعتکار بیر رسامك استادانه اللەری ایله یئرلی یئرینده دوزولمشدیلر. حبیبه‌نك آلما کبی آل یاناقلاری،اینجیی‌یه بکزەر دیشلری، سرو قامتی...تام معنی‌سیله شرق گوزه‌للیگی مفهومنه جانلی بر مثال اولا بیله‌ردی...

حبیبه سربست‌در؛ چادراسنی چوقدان آتمشدر.... آوروپا لباسنی‌ده سەومش‌در.حبیبه روسجا دخی قونوشیر؛ ابتدائی تربیه‌سی روس مکتبنده آلمش‌در... نه ایده‌سنکه،



حبیبه‌نك بوتون بو لیاقتلری، خارقه گوزه‌للیگی أەری علی اکبری بر دقیقه بیله راحت بیراقمایور..

علی‌اکبر مرکزی ایشچی قوئوپیراتیفنده مانوفاقتور شعبه‌سینده چالشیر. بوتون گونی، بر آن بیله راحتی یوقدر. گون اوزونی مەترو اەلیندن دوشمەز، یوزلرله آلیجیلارایله سوزله‌شوب،حسابلاشار،هپسنی‌ده آرتیق ممنون یولا سالار... بوتون‌ایش گونونی یورولماقسزین چالیشار. بونگله بیله برآن بیله حبیبه‌سینی اونوتماز، داها دوغریسی حبیبه‌نك فکری، خیالی اونی ساکت بیراقماز... علی اکبر ایچون الك دهشتلی، الك آجیناجاقلی وضعیت بوندان عبارتدر. حبیبه ایوده یوقدر... اودا وظیفه‌باشندادر. . اودا چالشیر... گوزەل، هر کسك نظرینی جلب ایده‌جك حبیبه‌ده حجابسیز،اورتوك سیز، هر کس کبی چالشماقدادر.

علی‌اکبرك حیاتنده اویله دقیقه‌لر اولور که اوز اوزینه غالب اولا بیلمیور، یوره گی چارپیر، قلب هیجانی اونی آجندیریر، مەتروسی الیندن‌دوشور؛ سرسم کیبی دیشلرینی قیجیلادیر.... بوآنده علی‌اکبر بوتون قارشوسینا یغیلمیش مشتریلری، حبیبه‌سی‌نك خیالیله مشغول اولماسینا مانع اولانلاری، اوز اەللەریله بوغوب رد ایتمکه حاضردر... لاکن علی‌اکبر ینه‌ده اوزینی ایتیرمه‌یوب ظاهری ساکت‌لیگنی ساخلیور... مشتریلره جواب ویریر.

علی‌اکبرده حبیبه‌یه لایق، گوزەل بر جواندر. اونك ظاهری گوزه‌للیگی، مرتوب بدنی، گور که‌ملی و اوجاقامتی بر چوق آلیجی‌قادین و قیزلارك نظرلرینی‌جلب ایتمکده‌در..

علی اکبر چالیشان شبه‌ده دائمی غلبه‌لك وار؛ مشتریلرك چوغی بورایا یغیشیرلار؛اونك مشتریلرایله‌خوش رفتاری هر کسی راضی سالیر... علی اکبر اون ایکی یاشندان مغازه‌لرده چالشمش و اسانجاسینا رفتاری و خواصیتی ایله هر یئرده بیکه‌نیلمشدر. علی‌اکبر اوزیده اونی حس ایدیر، و بو حالندنده چوق ممنوندر. علی اکبرك امکداش‌لاریدا اونی سەویرلر، حتی آدینی‌دا ده گیشوب علی‌اکبر عوضنده «آلیشقا» چاغیرلار.

* *
*

علی‌اکبر 28 یاشنی تمام‌لامشدر.لاکن بوحالدا اونك بوتون راحتلیگی،أدب‌وخوش‌رفتاری تامیله‌ده گیشمش،بوزولمشدر. . اونك بوتون بو رفتارلاری یالیکز ماکینه واری اولوب بوتون سوزلری و جوابلاری آنجاق عادتی اوزره‌در. سببی ایسه بودر؛ علی اکبر بوگون تام معنی‌سیله حبیبه‌نك فکریله آلوده‌در. بوگون‌اونك‌احوالی چوق‌پریشاندر. صبح تیزدن مغازه‌یه گەلەندن‌صوکرا بیر کیمسه ایله سوزلشمه‌مش، همیشه متفکر و مأیوس بر حالدادر.

صبح تیزدن اونك حبیبه ایله صحبتی کیچمش. او حبیبه یه تکلیف ایتمشکه داها ایشله‌مه‌سین و یاکه ایشه گیتدیکی زمان چادراسنی باشینا سالسین... حبیبه‌نك آچیق گەزمه‌سی،

آزاد چالشماسی علی‌اکبرك‌راحتی پوزمش، اونك‌احوالینی قاریشدیریر، آسوده چالشماسینا مانع اولور ...

همیشه اطاعتده اولان حبیبه بوگون تام باشقا برطور جواب ویرمشدر؛ اونك آغزیندان تازه سوزلرایشدیلمشدر. بو دفعه حبیبه‌نك سوزلری قطعی، و دوشونجه‌لی ایدیلر. او، بوگونکی دانشیقدا قادینلارك‌دا کشیلرا هم حقوق اولمالاری باره‌ده دانشیردی؛ آزادلیق، چادرانك موهومات توکونتوسی، قادینك‌داسربست یاشاماسی، امر ایله آروادك یولداشجاسنا و برابرجه‌سینه، متقابل اعتماد ایله یولداشواری یاشایاجاغی باره‌ده اوزون اوزادی سوزلر دانشیردی و دیدیکلرینی‌ده ثبوت ودلیل‌لر ایله ساکت بر حالدا تصدیق ایدیردی.

علی اکبر ایسه بو سوزلرك قاباغیندا عاجز قالوب سوگوشیردی، بهرك چیغیروب حدتله‌نیردی، حتی تام‌سکز ییل بوندان قاباق مین مشقتله دوزوب سه‌ویب ایولنمش اولدیغی حبیبه‌سینی‌ده یومروقلاماق ایسته‌ییردی.

بو توقوشما نتیجه‌سنده علی‌اکبر خیال عالمنده ایرانه کوچمش ایدی. حبیبه‌سنه توی ایتدیکدن سوکرا تام‌آلتی ییل آسوده و راحت اوز وطنی اولان‌ایراندا یاشامشدی، بورادا حبیبه چوق غصه‌چیکیردی؛ او؛ دائمی اوز وطنینه والده‌ینی‌نك یانینا، باکویا قایتماق ایسته‌ییردی.

حبیبه باکودان، اوز رفیقه‌لرندن آلدیغی‌مکتوبلاردان باکودا کی یکی حیات قورولوشی ایله آرتیق مراقلانیردی، او مکتوبلاردا باکودا کی تورك قادینلارینك قلوبلاردا، اجتماعی حیات ساحه‌سینده چالشمالارندان، چادراسیز و گه‌زمن قادینلاردان جوربه‌جور گوزه‌ل و مراقلی خبرلر یازیلردی. حبیبه هله ایراندا یاشارکه‌ن باکودا کی رفیقه لرینك سعادتلی و آزاد یاشایشلارینا حسد آپاریردی؛ چادرالارینی آتوب‌سربست و مسعود یاشایان تورك‌قادینلارینی تصورایدوب تیزلیکجه اوزینی‌ده اونلارك جرگه‌سینده گورمك ایسته‌ییردی.

بونکچوندا حبیبه‌نك باکویاقایتماق باره‌سنده کی‌صحبتلری و بعضاً جدیاً طلبلری بیله علی‌اکبری راحتسیز ییراقیردی.

علی‌اکبر وجدان عذابی‌چیکیردی... بر طرفدن حبیبه یی مراقلاندیران و صوك درجه بیگه‌نمیش اولدیغی یاشایش طرزی‌هیجده‌علی‌اکبری مراقلاندیرمیوردی؛ ایکنجی‌طرفدن‌ده حبیبه علی‌اکبر ایچین چوق بها قیمتلی، و عزیز اولان بر رفیقه ایدی. اوحبیبه‌نی‌سه‌وه‌ر و اونلارك ایکی گوزه‌ل و ظریف اوغوللاری بونلارك بری برلرینه اولان‌سه‌وگی و ده‌رین محبتلرینی تکمیل‌لشدیریردی.

ایراندا قالوب، أسکی طرز ایله راحت یاشاماق باره‌سنده علی‌اکبر نه قدر خواهش ورجا ایتدیسه‌ده حبیبه اوز سوزینك اوستنده محکم دوروب‌دونمه‌ك ایسته‌مه‌دی‌... حبیبه ایله علی‌اکبر باکویا کوچدیلر.

***

بیرنجی ییل حبیبه چادراسینی آتمامشدی؛ خواصیتی و رفتاریده همان‌ایراندا کی کیبی مظلوم، مطیع ومحجوب ایدی. لاکن عمومی حیات دان گه‌ری قالمیاراق اودا، باشقا لاری کیبی‌تورك‌قادینلارقلوبینی تیز — تیز زیارت ایده‌رایدی. او گیجه هیچ‌وقت حبیبه‌نك یاندیدان چیقمازدی... اك خوشبخت و روح اوقشایان‌بر گیجه ایدی... ایشدن قایتمش علی‌اکبر ایله برابر قلوبدا اولوب‌آرتیق خوش وقت کیچیرمشدیلر؛ ایوه قایتدیقدا آرتیق مرحمتلی اولان علی‌اکبر ایله‌صحبت اثناسیندا باشقالاری کبی اوزینگده چادراسیز گه‌زه‌جگینه ئه‌رینجه اذن ایسته‌دی.

صحبت‌اثناسنده علی‌اکبر حبیبه‌نك اصل مقصدینی‌دوشونمه یوب اونك سوزلرینی‌ظرافت حساب ایتمشدی؛ بوناگوره‌ده صمیمانه گولوب گوزه‌ل و ظریف حبیبه‌جگنی أوپیردی. لاکن حبیبه دیدیکلرینی تکرار ایدوب تأکید ایدیردی:

— بن داها چادرا آلتینا گیرمیه‌جگم!... چادرا بنیم‌عزت نفسیمی آلچالدیر!..

اك صمیمی و خوش حالت ایله باشلانمش بو آقشام بوغوجی وأه‌زیجی بر عذاب گیجه‌سینه دوندی.

بو سوزلردن باشقا جوره دلیل و ثبوت‌لر ایله حبیبه اوز مقصدینی آکلاتا بیلمیردی. او یوره گنده کی‌دویغولارینی دیلی ایله‌اظهار ایتمگدن عاجز ایدی. لاکن‌اوزینی چادرادان خلاص ایتمك آرزوسی اونك اك بیرنجی‌آمالی و مقصدی ایدی. حبیبه آغلادی... قانلی یاشلار آقیندی.. ایستگلی و مهربان ارینده‌ن اونی‌چادرادان خلاص ایتمه‌سنی عاجزانه رجا ایتدی....

علی‌اکبرده داش قلبلی انسان ده گل‌ایدی. حبیبه‌نك گوز یاشلاری اونك‌سگیرلارینی سستلشدیردی... یوره گی دوگونوردی...

— یاقشی!... راضی‌یام؛ چادرا گی گوتور، آنجاق یالیکز منیله چادراسیز چیقاجاقسانك؛ منسیز کوچه‌ده‌چادراسیز گورونمیه‌جگسه‌ك!...

بویله‌لیکله بیرنیچه آی کیچدی. بوشرائط ایله «چادراسیز گه‌زمك» ایشیندن حبیبه چوق داریلیردی. علی‌اکبر ایله چیقدیقدا چادراسیز، ئه‌رسیز — چادرا ایله... بو حقارت

د کلده بس نه‌در؟ سانکه چادرا حیبه‌نك اخلاقنی محافظه ایده‌جگمش...

حیبیه آیدینجاسینا دوشوندیکه علی اکبره ویرمش اولدیغی وعده‌سینه خلاف چیقاجاقدر... بودفعه حیبیه قطعی قرارینی علی اکبره دیدی:

– بن چادرامی همیشه‌لك، هیچ بر شرطه باقمیاراق آتیرام... بوندان سوکرا هر وقت وهر یرده چادراسیز گورونه‌جکم...

علی اکبر یه‌ده سویله‌ندی، سوگوشدی... باکونی و بورادا کی تازه عادتلری نفرتلرله یاد ایتدی.. ناموسلی حیبیه سنی دوز بولدان چیقارانلارا بەرك آجیدی.. حتی حیبیه‌نی ته‌بیگی آلتینادا سالدی....

علی اکبر حیبیه‌نی دوگوب؛ اوشاقلارینی قوجاقلایوب بەرك آغلادی، آنالارینك یامان یولا دوشوب، شریعتدن اوزاقلاشوب اونلاری بدبخت ایتمش حیبیه‌نی لعنتلرله یاد ایتدی.

حیبیه داها بو دفعه آغلامیوردی؛ ته‌یك و یومروقلارا دوام ایدوب آنجاق گوزلرینده قطعیت و دهشتلی عداوت قیغیلجیملاری پارلاییردی....

**
*

حیبیه چادراسینی تمامیله آتدیقدان سوکرا قادینلار قلوبیندا چاشماغا باشلادی. هیچ جوره هده، یوموروق و اشگنجه‌لر حیبیه‌نی اوز قرارندن چه‌وبره بیلمه‌دیلر. او، تمامیله ده گیشمشدی. بوگونکی حیبیه مطیع و دیلسیز آغزسیز بر انسان‌ده گلدر؛ ایسته‌دیگنی ایدیر و علی اکبرده اونا هیچ وجهیله مانع اولا بیلمیور.

علی اکبر ایسه وحشی برفکر تعقیب ایدیر. «اولوم!.. اولومدن باشقا هیچ بر چاره یوقدر!..» دییه علی اکبر مجنون کبی خولیا عالمینده یاشایور...

لاکن بوممکنمی؟. حیبیه سنی بوتون وارلیقیله سه‌ومن، اونك عشقیله یاشایان علی اکبر حیبیه‌نی اولدیره بیلرمی؟، اودر که بوگون علی اکبر مغازه‌ده مشتریلر قارشوسیندا دوروب غیر شعوری برحالدا مه‌ترویی أولچوب، مشتریلری بیراقیردی.

–

قالماغاللی باکو شهریندن اوزاقلاردا، نفت معدنلری رایئونیندا قادین قلوبیندا طنطنه‌لی برگوندر... چادرالی، چادراسیز، قوجا، جوان تورك قادین و قیزلاری ایشجی قادینلار و فعله‌لرك آروادلاری بورایا یغیشوب عمومی یغنجاقدان قاباق قونسه‌رت مجلسنده اشتراك ایدیرلر. قلوب سالونیندا بویوك هیجان واردر. بورادا تورك دیلی‌نك مختلف لهجه‌لرینده دانشیقلار ایشدیلمگده‌در. قازان تاتاری لسانی، ایران تورکلرینك لهجه‌سی، یئرلی‌لرله قاریشوب بویوك بر بین‌الخلق لسان جمعیتنی خاطرلایور..

سالوندا ده‌ف و غارمون چالغی‌سی باشلاندی... گاه روح یوکسلده‌ن، انسانی جنبشه گتیرەن رقص هاوالاری، گاهدا انساندا ده‌رین تأثیرلر بیراقان، روحنی سیقان حزنلی دستگاهلار چالنوب اوقونوردیلار.

خوانده‌نك حزین و ایگیلده‌ین سسی هامودان آرتیق قادینلارا تأثیر ایدیردی. سازنده‌لر «نااور» لزگی هواسینی باشلاینجا مجلسیك حالی بسبتون ده گیشوب جوانه قیزلار اورتایا آتیلدیلار. بو حالدا سالونا داخل اولان اورتاياشلی گوله‌ر یوزلی توبی خالا هامونك نظرینی جلب ایتدی.

هر کس– «خوش گوردیك توبی خالا!... » سوزلریله سه‌وگیلی خالاسینی تبریك ایتمگده ایدی. توبی خالا اجتماعی ایشلرده چالیشان، هر بر یغنجاقدا آماده اولوب هامونك دقت و رغبتنی قازانمشدر... توبی تورك قادینلارینك احوال روحیه‌لرینی هامودان گوزەل بیلردی. قلوبیك اهمیتنی؛ سوادسزلغی تسویه‌نك قیمتنی توبی خالا ساده و اینانملی سوزلرله تورك قادینلارینا ثبوت ایدوبده بو ایشده بویوك موفقیتلرده الده ایتمشدی.

توبی‌نیك تشویقاتی نتیجه‌سینده بر چوق تورك قادینلاریدا اوز چادرالارینی آتمشدیلار. توبی‌نك هامویا خیر خواه اولوب اونلارا گوزەل و فائده‌لی مصلحتلر ویردیگی ایچون هامودا اونی دوست دوتیردی؛ اونیك نصیحتلرینه اینانوب عمل ایدیردیلر؛ قادین کتله‌سی آراسیندا بویوك نفوذه مالك ایدی. قرق بش یاشلی توبی توقویوجی فابریقادا چالشیر؛ اوگوزەل طبیعتلی و عقللی بر یولداشدر....

توبی مجلسده گورونديگی آنده هامونك احوالی – ده گیشوب رقص هاواسی چالیندی و توبی‌ده «شاملك عبادتی» رقصنی اویناماغا باشلادی.

باشقالاریدا اویناديلار. نازیك ایپه‌ك چارقادا بورونمش گنج بر قزیدا اویناماغا چاغیردیلار؛ لاکن قیز وحشی مارال کبی اوز رفیقه‌لرینك یانیندان سیچرایوب قاچماق ایسته‌ییردی. توبی بونی گورن کبی باشی ایله اشاره‌ایدوب قزی اورتایا چاغیردی. قاباقجا یابانجی و معصوم بر باقیشله اطرافی گوزدن کیچیرمش قیز توبی‌نك سوزیندن چیقمیوب میدانه گیردی؛ مینی – مینی قوللارینی یوقاری قالدیروب

سجده‌یه گیتدی؛ سوگرا الله‌رینی چاپرازینا سینه‌سته قویوب خمار گوزلریله یوقاری باقدی ایکنجی‌دفعه سجدیه أیندی.



موسیقی آهنگی ده گیشیلدیگجه‌او مفتون و مأیوس حالدا سجده‌ده قالمش قیز بیابانی‌پشیکار کیبی یئرینده‌ن سیچرایوب رقصه باشلادی.

موسیقی سسی‌اوجالوب، جه‌پیك چالانلارك تحسین‌سسلری یوکسه‌لدیگجه رقص ایدن قیزك هیجانی آرتوب رقص تاقتلارینی داها سرعتلندیردی. مجلسده کی هیجان، فرحلی احوال هامونی صوك درجه‌ده قاپلامشدی.

***

حبیبه له‌نین گوشه‌سینده ایدی. او، بوگون سحر باشینا گه‌لمیش واقعه‌نی‌قادینلارشعبه‌سی مدیره‌سینه نقل ایدیردی. لاکن بو آجیناجاقلی المناك واقعه‌نی پك ساکت و حتی گولومسه‌یه‌رك نقل ایدیردی:

ـ بو دفعه‌بزیمکی اکثجدی بر مبارزه‌در؛ ظرافت‌د گل، بن اونك هیچ بر سوزینی جوابسیز قویمیورام. قاباغندا دیلیمی کسمیورم...

بن اونی بیلیرم که بو دفعه‌بر قدم بیله گه‌ریه دونه‌ر سم‌هپسی‌اودوزیلاجاقدر. نه‌قدرقطعیتلی واوز سوزیمده دیانتلی اولارامسا، بر اوقدرده اونك الینده کی سلاحنی قیرمش اولورام! ده‌ییرم که نه ایتسونده بن اجتماعی‌ایشدن‌چکیلمیه جگم و چادرانی‌دا ایکنجی کره باشیما سالمیاجاغام!..

آخ، کاش بن بو سوزلریمی تکرار ایتدیگیم حالدا سن اورادا اولوب اونك احوالینی سیر ایتمش اولایدك؛ او زنجیرلنمیش بر بیرتیجی حیوان شکلنده گوزلری حلقه سیندن چیقوب عالمی داغیتماق ایسته‌ییردی. منیمده‌خاصیتمی بیلیرسن، ده‌میر کیبی محکم دوروب دیدیگیسدن دونمیوردیم!. « اولدیره‌رم، دوغرام ـ دوغرام ایده‌رم ! . » دییه چیغیریردی. منده یئریمدن ته‌په‌نمیوردیم. بر آزدان سوگرا حرصی ساووبوب یالوارماغا باشلادی: ینه‌ده دیدیگیمدن دونمیوردیم! آجیغی برآز ساووپاندان سوگرا دیدیم که منیله برده بویله رفتار ایتدیگمی بز آیریلمالییق؛ اوشاقلاریمی دا آلوب گیده‌رم!..» حبیبه‌یوره گدن گولوب، شادلیغندان گوزلری یاشاریردی.

ـ « دییر که سن ایسته‌دیگك شیلرك هاموسی آنجاق‌روس آروادلارینا یاراشار؛ تورك قادینلارینا ایسه بو ایشلر هیچده لازم ده گل!.. سن بونك سوزلرینه باق!..

من‌ده ده‌ییرم که نه‌عیبی، بو سوزلرك تمامیله معنی‌سیز و موهومات‌اولدیغینی دوشونه‌یروب هرحالدا ایراندان‌چادرا ایچینده قالوب، دورت دیوار آراسیندا یاشاماق ایچون بورایا گلمه‌میشم!ده‌ییرم. مباحثه‌مزچوق چیکدی. آخردا قطعی‌سو زیمی اونا دیدیم:

بن آزاد اولماق ایستیورم؛ بوتون حقوقیمی‌اوزاه‌لیمده ساخلایاجاغام. اوقتیابر انقلابی قادینلارا ویرمش اولدیغی حقوق‌دان استفاده ایتمك ایستیورم. ایستر سنه برابرلیکده یاشایاق، عکس‌صورتده‌قطعیا آیریلمالییق..، نه‌اولورسا اولسون بن چالشوب اجتماعی حیاتدا ایشله‌مه‌لیم!. بو سوزلریمی دییب ایودن چیقدیم.

«بن بیلیرم که بنیم‌ده والده‌ینم اونی حقلی بیلیرلر. بونیدا نظره آلمیشام، اونلاردانده قورقمیورام؛.. یالکز بر دفعه غالب گه‌لمك لازمدر؛ برینجی مبارزه، ایلك تو قوشما چتین و زحمتلی اولاجاقدر؛ سوگرا ایسه هر شی آسان اولاجاق!..

حبیبه ینه‌ده گولوردی؛ احوالی پك‌خوشود ایدی. هیچ اینانماق اولماز ایدی که حبیبه‌بش‌ساعت بوندان قاباق ایوده، اره‌ی ایله بویوك مناقشه‌ده بولونمشدر ؛ او، یللرله یاشایوب عادت ایتدیگی طرز حیاتی ده گیشمه‌ك ایسته‌ییر، اوز اوشاقلارینی آتالارینداں آیرماق قصدینه دوشمشدر؛ أمرینده‌ن آرالانیر..، بوتون بونلارا اینانماق چوق چتین‌ایدی. اونا

گوره جتين ايدى كه آزادليغك، حقوق برابرليكى‌نك قدرينى، لذتينى دوشونمشدر...



حبيبه‌نى گوروب، ديكله‌ين برشخص البته يقين ايده‌جك ايدى كه بو قادين ميارزه‌ده تجربه‌لر حاصل ايدوب يكى معيشت، يكى وضعيتك شرائطنى هر طرفلى، ادرا كلى بر صورتده دوشونمشدر.

حبيبه‌نك يوزينده ذره قدرده اولسون پشيمانچيليق و مأيوسلق كولگه‌سى گورونمه‌يردى.

لاكن اولا بيلسونكه حبيبه اوز محيطنده واحد اولسا ايدى، بلكه‌ده بو مبارزه‌يه قالقيشمياجاق ايدى.

حبيبه‌نك باشقا رفيقه‌لريده آز ده گل. اونلاردا بونا يورمك ويروب اوزحقوقينك مدافعه‌سينه تشويق ايديردىلر. لاكن حبيبه‌ده كى بو قطعيت و تاكيد ياليكز توبى‌نك تاثيرى سايه‌سنده‌ايدى. توبى‌اونا يول گوسته‌روب مصلحتلر ويريردى.

حبيبه‌ده اونى دوغما آناسى كيبى سه‌ويب اوز قرارلارينداده‌مير كيبى محكم اولماسى اوندان ايدى.

حبيبه كولوردى .. او، آزادليق شربتنى ايچوب‌يانقوسينى سوندير مك ايسته‌يردى.

حبيبه‌نك شاد و مسرور برحالدا سالونا داخل اولوب عمومى يغينجاغى آچيق اعلان ايتدى. بورادا يوزلرجه‌قادينلار اونى سوه‌وگلى آلقشلارلا قارشولاديلار.

حبيبه بوتون وارلقيله چالشيردى. حبيبه بر گون اولسون اوز مظلومه و قارانليقدا قالمش باجيلارينداز اوزاق‌دوشمه‌ك ايسته‌مه‌ييردى.

حبيبه اوزينده‌خارق‌العاده‌برقوه حس‌ايدوب گون گوندن شوق و هوسى آرتوب، صميم قلبدن گولوب شادلانيردى...

ن. ميخائيلينا.





رومان.

تونج آی

یوری
سلیوزکین

دالیسی.

(کیچن نومرودان مابعد)

داغ جیغرینداء

(باناسیوق) ك مشایعتیله حرکت ایدن کاروان امام زاده هاشم‌ده گیجه‌له‌ییردی؛ آقتوموبیلده گه‌لمش جنرال ایله ایکی نفر انگلیزلرده کروانی بورادا دوتاجاق ایدیلر. بورادان باشلیاراق جنرال ایله انگلیزلرده کاروانك ایچینده قاطرلارا سواراولوب گیتمه‌لی ایدیلر.

حاجی مبارکك ایونیك یانیندا سربازلارك هجوملارینا گرفدار اولمش فرنگیلر خوشبختانه بر طرزده یاقالارینی سربازلارك الارندن خلاص ایده بیلمیشدیلر. فرنگیلر بویله بروقعه‌نك باش ویره‌جگینه قاناقجادان-حاضرلاشمشدیلار. اوزلری بونی یاخشی بیلیردیلر که کافرلرك مسلمان قادینلاری ایله بر مجلسده اولماقلاری قانونا قطعیا قدغندر. بو ایشی بهرك تعقیب ایدیرلر. خصوصا بویله بر زماندا که خلق احتراصی گیت گیده آرتوب قاباناشماقدادر. بوحرکتك نه درجه قورقولی اولدیغنی‌دا اوزلری دوشونیردیلر.

قابودا قونسولی گوزله‌ین سربازلار؛ خصوصا اونلارك آراسیندا اولوب اوز رئیسلری علیهنه عصیان قالدیرمش بر نیچه سربازلار بو معرکه‌ده حاضر اولماسایدیلار شبهه یوق که انگلیزلر پارچا-پارچا دوغرانمشدیلار. آغیر سامبانلی بر ده گه‌نك قونسولك ایکی کوره گینك آرا-سیندان شاپیلدادی. انگلیز ضابطی بر گوللە بیراقدیسه‌ده لاکن بختی ایشله‌دی که هیچ کسه او گوللە‌دن بر ظفر توقونمادی. اهالیه شام نمازیندان سوگرا کوچه‌یه چیقماق قدغن ایدیلدیگنه باقمیاراق گیت-گیده‌محل حادثه‌یه داها آرتیق آداملار یقیشماقدا ایدیلر. اونلار وحشی فشدیریقلار و آجیقلی هده‌لر ایله فرنگیلری قونسولخانه دروازه‌سینه کبی تعقیب ایدیردیلر. ایکی-اوچ پنجره شیشه‌لری خیردیم-خیردیم پارچالاندیلار.



قونسول تیلفونی الینه الوب -اها اریق امیدی اودن اینگلیز بحریونلاریندان محافظه دسته‌سی‌نك گلمه‌سینی طلب

ایتدی. کون اورتایا کبی قورقوسیندان کوچه‌ده گورونه‌بیلمه‌دی. عصیانچیلار دائمی اونی هده‌له‌ییردیلر؛ اهالی قونسول‌خانه منزلینی گوزدن قویمیوردی.

نهاردان سوڭرا قونسولا آفتوموبیل گونده‌ردیلر. شهردن خارج یولدا حاجی مبارکیڭ‌ده آفتوموبیلی بونلارا یاقینلاشدی. حاجی مبارکده الصاحبی و اونڭ ایکی نفر رقاصه‌لرینی یانیندا آپاریردی. قادینلارڭ ایکیسیده باشدان آیاغا کیبی اوزلرینڭ یول چارشافلارینا بورونمش اولدیقلا- ریندان ایکی عدد یوڭ‌تایلارینا بڭزه‌یوردیلر که آفتوموبیلده جانسیز مه‌شوقلار کیبی اویان-بویاناسیلکه‌له‌نیردیلر. الصاحبده طاتلی اویقویا دالمشدی.

امام زاده هاشمده گیجه‌لییه‌ندن صوڭرا آروادلاری قاطراوستنده کی کجاوه‌لره میندیروب الصاحبده فرنگیلرله برابر آتلاندیلار. صبح طلوعنده یاقیندا کی داغ و تپه- جیگلر قیزارماغا باشلایان کبی کاروان توپا بر صورتده حرکته باشلایوب ده‌ره باشی آشاغی یولا دوزولدی.

(پاناسیوق) آتریادینڭ بر حصه‌سی ایله بو کاروانڭ دالنجا حرکت‌ایدیردی؛ لاکن آتریادڭ قالان حصه‌سیده برنفر یوزباشی‌نڭ سرکرده‌لیگی ایله کاروانڭ قابا غنیدا گیدیردی. چوق بویوك دولت داشییان بو کاروان هر ایکی طرفدن مسلح قوه‌لر ایله محافظه ایدیلمیشدی. زیتونلیگڭ یانیندا «کاروانسرای» دان کیچندن صوڭرا آتریاد داغ باشی یوقاری، هوندور قایایا دیرماشیردی. بو قایالیقدا آت و قاطر آیاقلارینڭ یئرلری گورونمگده‌در. ایکیندی یئرینه قالقمش گونشڭ کسگین شعله‌لری پالتارلارڭ اوستندن ایگنه کبی‌سانجیردی. یوکلی حیوانلار چوق قدمارینی آهسته-آهسته گوتوروب، هر دقیقه‌ده دایانوب‌نفس‌چیکیردیلر. گون اورتانڭ اڭ یاندیریجی چاغیندا، تام بر سکوت ایچینده، اود کبی قیزمش هواده آنجاق چاروادارلارڭ یوغون سسلری و یئرده گوزگی کبی‌پاریلدایان دوم‌دوز قایالیقلاردا حیوانلارڭ نال‌لاریندان چیقان گوك قیغیلجیملارڭ شاققیلتیسی ایشیدیلردی.

ساغ طرفدن هوندوره قالقمش دوم - دوز دیوارڭ قورقولی بر منظره‌سی وار ایدی؛ صول طرفدنده چوق ده‌رینده گورولتی ایله آشوب - داشان چایڭ وحشی صداسی قولاقلاری باتیریردی.

جیغیر گیتدیگجه دارالوب ایره‌لیده، افقده، گونشڭ شعاعی چیپلاق قایا سطحی ایله تماس ایدن برخطده، داغ‌دوشینده گوزدن ایتوب گیدیردی. مارو ایله رفیقه‌سی قورقو هیجان اوز امیدسیز یووالاریندان ییقیلماق قورقوسی ایچینده آرتیق نگران بر حالدا کجاوه‌دن اطرافه باقوب تماشا ایدیرلردی.

بوتون گیجه اوزونی مارونی اشغال ایدن فکر - اینگلیزڭ عشقی ایدی. انگلیزڭ فکری برآن بیله اونی ترك ایتمه‌مشدی. الصاحب اونڭ یادینا دوشن کیبی بده‌نی اورپه‌شوب اونڭ نفرتنه سبب اولوردی. الصاحب اوز سفرلرینڭ بریسنده (دماوه‌ند) ئه‌تگلرینده اوز قبیله‌سی آراسیندا یاشایان مارونی اوزیله برابر گه‌تیروب بو وقته کیبی‌اوندان اه‌ل چیکمك ایسته‌مه‌میشدی. الصاحب حاجی مبارکی‌هیچده آلداتمیوردی که مارونڭ رقصلری اونڭ ایچون بویوك بر منفعت اوجاغیدر. بو قدر منفعت گه‌تیره‌ن صیفه منی هیچ وقت اه‌لدن براقمازلار.

مارو قولینی آچوب، هدیه اولاراق فرنگی‌دن آلدیغی زمردیوزیگه آرتیق محزون برباقیشلا تماشا ایتدی. مارو، بو بخششی الصاحبدن گیزله‌دیردی. قورقوردی که الصاحب اونی‌مارودان آلار. پارلاق زمرد داشی مارونڭ قارا گوزلرینڭ یاشارماسینا سبب اولدی. نا معلوم سببدن مارو قارا چارشافی آلتیندا آغلاییردی...

ایستی گوز یاشی اونڭ بویانوب پودرالانمش‌یاناقلارینی ایسلادیردی.

بو آن‌دا قاطر غفلدن قدم ساقلیوب کجاوه‌نی‌سیلکه‌دی. مارونڭ رفیقه‌سی بالاجا رقاصه هیجانلی حالدا چیغیردی. چاروادارلارڭ بوغاناق سسلری سوگوشلری هوانی بورودی. قاطرچیلار دال به دال چوماقلاریله قاطرلارڭ یانبوزلارینا دوشه‌نوب پالاز چرپان کیبی تاپیلدادیردیلار. قاطرلار دال دالی چه‌کیلوب بیری بیرلرینی سیقیشدیرماغا باشلادیلار. قاطرلارڭ بعضلریده منفور سسلریله آنقیریردیلار. سربازلاردا تفنگلرینی باشلاریندان اوجا قالدیروب بیری بیرلرینی سسله‌یه‌رك سوزله‌شیردیلر. یورغون، ته‌رله‌مش، قیزارمش جنرال‌دا بازار اجلافلاری کیبی روسجه سوگوشوردی.

بو قارماقاریشیقلقدا هیچ کس بو معرکه‌نڭ نه‌دن اوتری باشلاندیغنی آڭلیا بیلمیوردی. آخردا ایره‌لیده کیلردن خبر گه‌لدی که قاباقدا باشقا بر کاروان گه‌لیر. ایمدی لازم ایدی که اینگلزلرڭ کاروانی قاباغا دوشوب دیوار طرفه چیکیلوب قارشویا گه‌له‌ن کاروانڭ یوزه قدر یوکلی حیوانلارینی یولڭ ده‌ره‌یه طرف آقینینا سالوب‌قورقولی‌طرفدن کیچمه‌گه اونلاری مجبور ایتسونلر. لاکن قاباقدا کی کاروان جلد واحتیاطلی اولوب اوز ایشینی سازلایوب‌یولڭ قورقوسیز طرفنی اشغال ایتمش ایمش؛ بو منوال ایله‌ده بیزیم کاروانی ده‌ره طرفدن کیچمگه مجبور ایدوب ایمش.

اوست_باشلاری جریق، جیندیر کندلیلر آنجاق اوز آیاقلارینگ آلتینا دقت یتیره‌رەك فرنگیلرك اعتراض وناراضی لیقلارینا هیچده اعتنا ایتمه‌یوب اوت و اودون ایله یوکله‌نمش آلچاق بویلی ایشگلرینی سورمگده دوام ایدیردیلر.

اوزاقدان بو ایشگلر بیتزلرینی ترسه چه‌ویرمش دیقو برازلارا اوقشیوردیلار.

فرنگی ده‌ره‌نك الك قورقولی بیر یئرینده قایانیك بر نیچه ویرشوق کنارینده دوروب آتینگ هر قدمینه آرتیق دقت یتیره‌ن فرنگی مجبور ایدی که اونیله قاباق _ قاباغا گه‌له‌ن وحیغیرك بیر چوق حصه‌سینی اشغال ایدن‌هوندور یوکلی حیوانلارا تماشا ایده‌رك یانیندان کیچیرتسون.

قیرمزی و گوزی آجیلایان قالین توز اطرافی باسمیشدی؛ حیوانلارك آیاق تاپیلتیسی، قاطرلارك گیشنه‌یوب آتقیرمالاری وانسانلارك‌دا چیغرتیلاری بیری بیرلرینه دوقوشوب آرا قاریشوب مذهب ایتمشدی. اینگلیز ضابطی‌نیك بو معرکه‌دن دهشتلنمش آتی‌نك یانیندا بیر نفر سرباز دایانوب آتنگ یانیندان، اوزیندن ایکی قات هوندور اودون یوکی داشییان تەرس بیر ایشگی بورادان سلامت کیچیرمگه چالیشردی. ایشك آتا یاووقلاشان کیبی سرباز ایره‌لیله‌یوب اونگ قاباغنی کەسمەك ایسته‌دی. سرباز آنجاق یاریمچیق دونه بیلمشدی که بو حالدا دوردیغی یئریندن سوروشوب آتی‌نك دال آیاقلاری جیغرك لاپ کنارینده ساخلیا بیلدی. لاکن آتك آیاقلاری آلتیندا کی ناریں داشلار دوامسیز اولدیقندان آت آیاقلارینی ساقلیا بیلمه‌دی و قاباق اللری ایله ایره‌لی‌یه تولانوب دیرلری اوسته یقیلدی، و بر نفس آلماق مجالی اولمادی که اوز مینیگی ایله برابر بر باشا ده‌ره دیبینه یووارلاندی.

ضابطگ آغاج یاپراغی کیبی اەسەن قاراباغ آتی دال آیاقلاری‌اوستنه قالقمشدی. باشیندا کی توکاری‌یزله‌نمش اینگلیزك بدنی ساووق تەر باسمیشدی ، او آنجاق الك‌قورقولی‌آن‌ده انساندا اویانا بیله‌ن‌بیر شخصی مدافعه‌حسیاتیله میمون کیبی جلد بر حرکت‌ایوب آیاقلارینی اوزه‌نگیده‌ن چیقاروب یئره آتیلدی؛ و بو آن‌ده آلتیندا کی آتی‌دیرناق لاری ایله داش کسه‌گی اوچورداراق باشی آشاغا سرعتله ده‌ره‌نگ ته‌کینه طرف یووارلانبردی. تجربه‌لی ادمانچی ویاکه قوجا بر آوچی‌مثالنده اینگلیز فوق‌العاده بر سرعتله یقیلدیغی یئریندن قالقوب تاپانجاسینگ دسته‌سی ایله اونی یولدان چیقماغا مجبور ایتمش ایشگك‌باشینا دو گمگه باشلادی. ایشك دال آیاقلاری اوسته قالقدی و بو حالدا اینگلیزك گوزلری اونا طرف به‌ره‌لمش و سقالسیز، توزلی صفته اود کیبی پاریلدایان گوزلره ساتاشدی. بو گوزلرده ده‌رین بر عداوت و اوحالدادا بشاشت‌نشانه‌لری وار ایدی.

ضابط:

_ برو!...

چیغیراراق، حکم‌ویروب‌یولدان‌قاباغا کیچمك ایسته‌دیگی آنده گوزلری باشینك اوستینده سیبریلمش بر خنجره ساتاشدی. اینگلیز آنجاق دیزی‌اوسته‌چوکوب نشانه ایچون قولینی ایره‌لی آندی. بو آنده خنجر هواده‌فیرلانیردی. ناگهان، بوتون بو کشمه کش آرا_یندا قولاق باتیرىجی برقادین سسی‌ایشیدیلندی. هجوم‌ایدن‌باشینی سسه‌طرف چه‌ویرەن کیبی الینده کی خنجر دوگوب قالدی. بو آنده اونك صفتی‌ده دلیر صفتنه بگزه‌ییردی.

بو قارما _ قاریشقلق ایچینده بر قادین باغیرتیسی ایشیدیلندی. هجوم ایدن آدام سس گه‌له‌ن طرفه باشینی چه‌ویرەن کیبی الینده خنجر دوگوب قالدی؛ یوزینده



ده‌لیلیك نشانه‌سی ظاهر اولدی. بو حالدا کاروانك آخرینده، یولك تام قورقولی درنگه‌سینده، زحمتله نفسینی آلا بیله‌ن بر قاطرك یاریم چه‌وریلمش کجاوه‌سی بو هجوم ایدن آدامك نظرینی جلب ایتدی. کجاوه‌نك بر قسمی بوش اولدیغی ایچون بوقاری قالقمش ایکنجی قسمنده دیزلری اوستنده، به‌شیکدن سالللانمش کیبی بر وضعیتده «امداد» چاغیران مارو ده‌ره‌نك اك هولناك یئرینده یاریم آچیق بر حالدا کجاوه‌دن سالللانوب قالمش‌ایدی. مارونگ چارشافی باشیندان دوشوب. رنگی قاچمش، بویاقلی صفتده گوزلری به‌ره‌لوب آغزی آچیلاراق ئولوم قورقوسی ایچینده وحشی‌حیوانلار سسی چیقاردیراق هارایلیوردی.

بو وضعیت بر آن دوام ایتدی.

هجوم ایدن آدام اینگلیزدن یوز دونده‌روب دهشتلی قورقو ایچینده گوزلری حلقه‌سندن‌چیقمش، بوغوتولی سسله «خبردار» قشقیراراق، ساغ و سولیندا کی یوکلی‌حیوانلاری چوماقلیا‌ـچوماقلیا اوزینه یول آچوب قان دوتمش گوزلریله ایره‌لیه، نشانلادیغی منبعه جان آتیردی. اوبو آنده عقلنی بیله شاشیرمشدی. او حتی تانیدیغی واونی امداده چاغیران صدانیده بیله ایشیتمه‌یوردی:

ـ حسن. بورایا گه‌ل، حسن! ..

او قاچیردی. بلکه‌ده دیمك اولور که او قاچماق ایسته‌یردی، لاکن او عصبی بر حالدا نه قدر ایره‌لی‌جان آتیردیسادا آنجاق اوز یئرینده قالوب یول تاپا بیلمیردی.

اینگلیز همان ساعت اوزینه توختاق ویروب ماکینه واری یئرندن سیچرایوب دیواره طرف یونه‌لدی و آیاق بارماقلاری‌اوستینده ایره‌لیله‌یوب قاچان آدامی نشانه‌یه آلاراق تاپانچانك شیطانی‌سینی چیکوب بوشالتدی...

سکینه.

حاجی زاهد سکینه‌یه ایولندیگی زمان سکینه‌نك آنجاق اون دورت یاشی وار ایدی. سکینه هان باغبانك نوه‌سیدر که مبارك اوز قارداشی حاجی زاهد ایله بیرلیکده او باغا گیروب اورادان آلما اوغورلیوردیلار.

بو اوغریلارك قامیش چه‌په‌ردن کیچوب آلما اوغورلا مالارنی گورەن بالاجا سکینه کوچك اللری ایله هده‌لیوب اوزاقدان قشقیروب ده‌یردی که لوله‌ـخورـخوری اونلاری اوغورلیقدا دوتارسا یقین که دیری باشلی اه‌تلری یئیه‌ر؛ لاکن بونیکله بیله سکینه یه‌ده گیدوب لوله خورـخوره شکایت ایتمه‌ز ایدی، بعضاًده‌اولوردیکه‌بو اوغلانلارك‌هوسیله قیسا تومان گه‌یمیش بالاجا سکینه هوندور آغاجلارا دیرما شوب اورادان اوشاقلارا آلما تولاردی. بوزمانلاردا‌سکینه بش یاشلی وزاهده‌ده اون‌دورت یاشلی ایدیلر. ونلار راست گه‌له‌ن بیری‌بیرینی اه‌له سالوب دیل کوسته‌ر دیلر.

عشق شوراسی گنج قلبلری هیجانه سالمامشدی. چوق وقت اولوردی که بو اوشاقلار سویی قورومش (مردآبه) گیدوب‌یاناشا یویوندیقلاری زمان بیری‌ـبیرلرینه سو سیچرا‌ـدوب ، پالچیغا بولاشمش،چیلاق حالدا یوگوره‌شه‌رك شادـ لیقلاریندان چیغریشیردیلار. منبارك‌ده برآز کناردا دوروب جدی حالدا بالق دوتماغا مشغول اولوردی.

سوگرا اونلار بیری بیرلرندن اوزاقلاشدیلار. زاهد رشته مدرسه‌ده تحصیله گیتدی. اونیك آتاسی کیچك‌اوغلونی مولا گورمك ایسته‌یردی. سکینه‌ده‌چادر وروبند تاقمشدی سکینه اون ایکی یاشا واردیقدا او محبت‌ایچون ینشمش‌لر گنج‌بر قیز ایدی.

او بیرنجی اولاراق‌اوزینك اوشاقلیق ایامنده اویون یولدا شی اولان وبو حالدا قامتلی بر جوان اولوب بهار نوریله آغ وماوی آغاجلار آراسیندا قارشوسینا گه‌له‌ن زاهدی‌تانیدی اونیك لینده چیچکله‌نمش بالاجه چوبوغی، باشینك اوزون ساچلاری چگنلرینه‌سه‌پیلمیش، آچیق‌ویوکسگ آلنی، بوغدالی یاناقلاریله چنه‌سینی هموار قاراتوك باسوب، اوجا ونازیك بئه‌لینی‌ده نازیك قورشاق ایله باغلاسشدی.

او، یول گیده‌رك اطرافه بیرغالاناراق، گوزلرینی آسمانه زیللەیوب دوداق آلتی غزل‌اوقویوردی. سکینه‌بونی گورەن کیبی سسینی گیزله‌دوب، بر آغاج کوتوگینه سیقیلاراق چادرا آلتیندا گوزلری پاریلایردی. او، آغاجا یاقینلاشان کیبی سکینه نازیك‌بر بوداغی اه‌گوب سیلکه‌له‌دی. شافتالی رنگلی ماوی یاپراقلار گونشلی هواده تیتره‌یه‌ـتیتره‌یه‌جوانك یوزینه ونازیك،معطر عبا ایله‌اورتولمش چیگنلرینه سه‌پیلدیلر جوان باشینی آشاغا دیکدی. قیز بو آغاجك کوتوگیندن آیریلوب باشقا بر آغاجا سارماشدی. بوحالدا جوان هله‌ده قیزی تانیمیاراق قیشقیردی:

ـ سلام علیکم!

آغاج‌دالیندان یه‌ده گولمه‌گین ساقلیا بیلمه‌ین قیزجواب ویردی:

علیکیم سلام!

بیتمه‌دی.



بیزیم کویلرده.

دەرەسی – تەپەسی چشمه ایرماغی،
گوزەلدر علفلو، اورمانلو داغی،
آغرانوملار ئه کەر نمونه باغی،
گوك – یەشیل تارلاوار بیزیم کویلرده!

چشمەلەر باشیندا چیچه گلەر آچار،
قارلو داغلاریندا پلنگلر قاچار،
پنبەلر – اینجیلر اطرافه ساچار،
بلبل و شیدا وار بیزیم کویلرده!

ئوتوشەر بلبللر، چیچه گلر دیکلەر،
عاشقلر سازینده مرحبا سویلەر،
قاراقوش ئەنەر کن داغ قوشی ایکلەر،
قوشلاردا ادا وار بیزیم کویلرده!

قرغاوول داشلاریك دیبینده یاتار،
آوچیلار توراجه نشانه آتار،
ووردیغی قوشلاری شهرده ساتار،
قوشلارا مأوا وار بیزیم کویلرده!

توراغای – بیلدیرچین، «سیغیرچین» – بلبل،
بیك بیر دیل اوقویار آچیلار کوکول،
بهاردا آل – یەشیل لاله قیزیل گول،
آچار کەن شفا وار بیزیم کویلرده!

کسگین قایالاردان ایرماغلار آقار،
دومانلو گونلرده ییلدیریم چاقار،
کومورچو میشەده آغاجلار یاقار،
زحمتەن صفا وار بیزیم کویلرده!

چمنده بلبل، داغلاریندا قار،
چوباندا بالابان عاشقینده تار،
باغچا باغلاریندا الوانلو گوزل وار
قیزلاردا وفا وار بیزیم کویلرده!

لوقمان خستەلریك دردینی سەچەر،
دردلره دەوانی یایلاقدان بیچەر،
بولاغ سولارینی خستەلر ایچەر،
دردلره دەوا وار بیزیم کویلرده!

آران وار، ایستی سو؛ قاتیق – آیران وار،
شام باللا، شیت کره، مارال – جیران وار،
چەپیش – قویون – قوزو؛ چوقلو دوشان وار،
پك تەمیز هوا وار بیزیم کویلرده!

رنجبر قادینلار ئه کەر تارلانی،
دوگمه گه آپارار آرپا – بوغدانی،
ئەر کەله برابر ایشلەر ایل صانی،
بیجاردا جفا وار بیزیم کویلرده!

هر بیر کس آزاده، قادینلار باشدا،
ایشلەیەر قیز – اوغلان، پك کوچوك یاشدا
یازیلسون تاریخی «سلیمان داشدا»،
زحمته صدا (1) وار بیزیم کویلرده!

(1) صدا – سەس معناده یازیلمشدر.

قدرت علوی.

یاشماق مسئله‌سی

قضانك شهر و قصبه‌لرینده چادرا اوز قارا کابوسنی «ادبلی» ئورپه‌ك ایله عوض ایتمکده‌در...

فقط قضانك کندلرینده علی‌الخصوص طالش عائله‌لری ایچه‌ریسینده بو یکی «ترقی»نك تام عکسنی گورمك ممکندر.

کند آراسیندا کیت گیده چادرا اورتمه‌ك ده‌بده‌ن دوشیر؛ بعضاً ایولره تازه گتیریلن گه‌لینلر بیر نیچه آی چادرا ایله گزیشه‌رلر. بونگله برابر چادرا داها، آرتق ترقی یولونا یاقین اولمایان «یاشماق» ایله عوض ایدیلیر.

«یاشماق» مسئله‌سیده چادرا کبی کهنه عادت و عنعنه‌نك بر صحیفه‌سی اولدیغندان معین ایدیلمیش قانونلارا - یوللارا تابعدر. حقیقت حالدا ایسه «یاشماق» دوتماق چادرا سالماقدان بر قده‌رده چتین، بلکه‌ده عذابلیدر. (چادرا سالاندا یاشماق دوتمیورلار) قادینلار باشلارینا باغلادیقلاری یایلیغك بر حصه‌سنی چه‌نه‌لری برابرینده‌ن یوقاری قالدیراراق بورونلارینا ایلمیشدیریرلر. بونگله اونلار: چه‌نه، آغیز، بورونلارینی ارکگلردن نامحرم کیشلردن گیزلییه بیلیرلر. تعجب بوراسیدر که قوجالمایان گه‌لینلر قوجا قاریلاردان و قوهوملاری اولان قادینلاردان بیله یاشماق دوتورلار!.. بونلار «یاشماق» دوتدیقلاری وقت چوق چه‌تینلیك ایله دانیشابیلیرلر.

بوسیاق نفس آلمالاریدا! پك اذیتلی و بلکه‌ده ضره‌رلی کیچیر. یای گونلرینده ایستی یرلرده بو عذاب بیره بش آرتاراق یازیق قادینلاری بوغور: بو طرفده‌ن هوانك ایستیسی، باشقا طره‌فدن اوز تنفسنك حراره‌تی یایلغك مدافعه‌سی ایله بونیندان بده‌نینه یایلاراق، یاشماق دوتانی پیس وضیعت‌ده بیراقیر. یاریم ساعت‌ده تعرله‌دیر. قادینلارك ارکك‌لر ایله برابر کند تصرفاتی ساحه‌سنده بیرلیکده چالشدیقلاری معلومدر. بتون ایش مدتنده قادینلارك «یاشماقلی» ایشله‌مه‌لری وصفه گلمه‌ین بر عذابدر.

بورادا بر سوال اولابیله‌ر که عجباقادین اوز کشیسینده نمی یاشماق دوتور؟ شکسیز که یوق!.. فقط بویله تك باشینا کشی آروادلی، دیگر تعبیرله یاشماغا محتاج اولمایان عائله‌لره چوق آز تصادف اولونور. چونکه عائله بویو - دیگجه گیت گیده بر مجبوریت‌ده دوغیر. اکثرا عائله‌لرده قایین آتا، گه‌لینلر، قارداشلار و قارداش آروادلاری واردر.

بو وضعیت‌ده بر نه‌نه‌ده‌ن باشقا بیرده قالان قادینلار هامو «یاشماق» دوتماق مجبوریتنده قالیرلار. بو حال ایسته‌ر بیجارلاردا، بوستانلاردا ایسته‌رسه هه‌یه‌ت‌لرده‌ده دوام ایده‌ر.

یاشماغك قاعده‌لرینه گلدیگده قید ایتمك لازمدر که قیزلارا آتا ایوینده یاشماق دوتماق جائز ده گلدر. اونلار أمر ایوینه گیدن گوندن بو عذابلی ایشه یاواش - یاواش ئورگه‌شیرلر، أره گیتمه‌لرینه یاقین ایللرده ایسه ارگك‌لردن قاچیرلار.

یاشماغك‌دا اوزینه مخصوص گذه‌شت‌لری واردر.

گلینه الك یاقین اولانلار (مثلا: أرینك قارداشی، آناسی قایین آناسی باجیلاری، بی‌بی‌لری والخ... کبی) خلعت ویرمکله گه‌لینك یاشماغنی سالماق اختیارینه مالك اولورلار.

خلعت آلمادان گه‌لینی داخی یاشماغنی سالماز؛ گویا عذابنی یونگوللشدیردیگلری ایچون، اونلاردان زحمت حقی طلب ایده‌رکبی جد جهد ایله یاشماق دوتماغندا دوام ایده‌ر. دوغرودر «چادرانك» قالدیریلماسی ایچون چوق یازیلوب دانیشیلیر، هم‌ده ممکن قده‌ر مبارزه آپاریلیر. نده‌نسه یاشماق مسئله‌سی و اونك قالدیریلماسی باره‌سنده دانشیلمیر.

حالبوکه یاشماق دوتماق کند آراسندا بر قده‌رده چادرادان جدی گوزله‌نیلوب؛ ایسته‌ر ملالار، آخوندلار، و کوهنه آداملار طرفندن آرتیق فکر ویریلیر. یوقاریدا قید ایتدیگیم کبی کندلرده چادرا عوضنه آنجاق یاشماق حاکملیك ایدیر.

عادته گوره گویا ارگك (نامحرم‌لر) قادینك یوزینی آغیز - بورونونی گورمه‌ملیدرلر. بوسببدندر که بونلار قادینلارا فوتوغراف چیکدیرمگیده «گناه‌در!» دیه یاساق ایتمشلر. فوتوغراف چیکدیره‌نلره‌ده لعنت اوقویورلار. هر حالدا قضالرك وضعیتنه اویغون اولاراق بو ساحه‌ده داها جدی مبارزه آپارماق لازمدر.

عاقل.



آنالی وجوجوقلوق محافظه سی

قادینلاردا (پسیخوز) روح پوزغونلیغی.

Psychose.

طبیعت قانونلاری قادین حیاتنده بیر چوق مانعه و چتین لیکلهر تورهتمیشدر. ارککلهر اونلارا نسبتاً او قدر طبیعته محتاج دگلدرلر. آروادك بوتون اخلاق و پسیخولوژیاسی طبیعته موافق بیر صورتده قورولمشدر. بومسئله بو گون آرتیق بیر حقیقت شکلنی آلمشدر.

بویله که تاریخده اوزلرینه شهرت قازانمش بیر چوق فن نمایندهری بونکله اوغراشوب اونیك اصل ماهیتنه، اونی تورهدن عاملای او گرهنمگه چالیشمشلار. مدنیت جیهسنده الده ایتدیگمیز موفقیتلر سایهسنده دوشونجهلریمیزده بعض یگی لیگلر عمله گلدی. بویله که عصرلردن بهری تاپماجا حالیندا قاباغمزدا دوران بیر چوق سواللار ایمدی اوزلرینه قطعی و مثبت جواب آلمیشلاردر.

یگی اصوللار اوزره قورولمش و معین جریان ایله یوروتولهن مطالعه و فنی تجربهلر بیزه گوستهریر که: 1) آی باشی 2) حاملهلیك 3) دوغوم و غیرلری قادین حیاتنی چتین لشدیرهن مهم عاملردندن در.

قادینیك عائله و اجتماعی حیاتی بونلاریك قوهتلی تاثراتی آلتیندا آقماقدادر.

بونلار قادینیك صحتنده اونیك مادی و معنوی حیاتنده بیر چوق پوزغونلوق و بوشلق عمله گتیرهرك اجتماعی حیاتده گوستهردیگی فعالیتنی سارسیتار؛ اونی باشقا بیر رهنگه سالار. فکریمزی لازمنجه آیدین ایتمهك ایچون قادین حیاتینده هر گون تصادف ایتدیگمیز آی باشی مسئلهسینی مطالعه ایدهلم. آی باشیلاری قادین پسیخولوژیاسندا مهم انقلاب تورهتمکدن علاوه اونیك صحتنه فنا تأثیر باغشلار

بیر چوق قادینلار آیدا 3 گوندن بیر هفتهیه قدر کندیسینی جسماً وروحاً خستهحس ایدهر. مثلا: آی باشی زمانی آرتیق درجهده عصبیلهشهر، تیز یورولار و بو وقتهقدر ساغلام گورونهن بیر قادین باش آغریسی، یورهك دوگونتوسی حس ایدهر دیمك طبی تعبیر ایله سویلیهجك اولورساق قادیندا سیکیر پوزغونلوغونا (неврастение) عائد اولان علامتلهر مشاهده ایدیلهر.

قادینلاریك بیر پاراسیندا آی باشیلاری بیر او قدر مهم تبدلات عمله گیترمهز. آنجاق بعضیلهری ایسه اویله شدتلی آغریلار چیکر که 4 - 5 گون یورغان دوشگه گیرمگه مجبور قالارلار. بو وضیعته دیزمهنورریا (dysmenorrhen) دیهرلر.

بو خستهلگیك بیر چوق تشریحی و عصبی سببلری واردر. مثلا: سیکیر پوزغونلوغو و اوشاقلقك دار اولماسی و هابیله.

آی باشیلارینك آغری ایله گلمهسی بعضی آروادلاردا قیصرلیق (اوشاق دوغمامازلق) ایله برابر مشاهده اولونور. بونیكدا سببی تناسل عضولرینك لازمی درجهده انکشاف ایتمهیوب اوشاق وقتنده اولدوغی بیر پیلهده قالماسیندا ویاخود اوشاقلق قانالینك دار اولماسندادر. اوگا بناء اوشاقلغی اوپهراتسیا واسطهسیله گینهلهن قادینلاریك بیر حصهسی آی باشی آغریلارندان و حتی قیصرلیقدان بیلهخلاص اولورلار. بعضیلرینه ایسه بو تداوی تأثیر ایتمهز.

بونلاردا جیمناستیق ویا تمیز هوا و ایی غدا ایله تداوی ایدیلرلر. دیمه‌لی بو آخرینجیلار سیکیر پوزغونلوغیندان ایره‌لی گلمه آغریلاردر.

آی باشیلارینك بزم اجتماعی حیاتمیزده دوتدوغو مهم موقعی نظره آلان عالملر اونی بیر جوق نقطه نظردن مطالعه ایتمیشلر. مثلا: بعضی عالملر قادین معیشتینی جوشغون بیر ده‌گز ایله مقایسه ایده‌رك اونیگدا آیری-آیری لپه‌لر و دالغالاردان عبارت اولماسینی سویله‌میشلردر.

ده‌گزده دالغالار دائما کناره دوغرو یورویه‌رك قایالارا چارپدیقدان صوگرا گیریه دونه‌رلر.

بیر مدت ساکت‌لیك مشاهده ایدیله‌ر. فقط چوق‌چیکمه‌ز که 2نجی دالغالار رجعته یوز قویمش بیرنجی‌لریگده توکونتی‌سینی توپلایوب تکرار اوزینی کناره چارپار. قادینلاردا مشاهده ایتدیگمیز آی باشیلاریدا بوگا بگزه‌ر بیر شئی‌در: 1نجی آی باشیندان صوگرا بیر دورسکوت؛ صوگرا 2 نجی آی باشیلاری ایچون قادین اعضاسیندا حاضرلقلار و آییك نهایتینده تکرار 2 نجی آی باشی و هابیله..

قادیندا صحت پوزغونلوغو حتی اونك روحانی حیات و اخلاقده بیله بیر چوق اوچوروملار توره‌تمه‌گه قادردر. بیر چوق قادین‌لاردا آی باشی زمانلاری روح خسته‌لیگی 1نجی دفعه اولارق ظهور ایده‌ر.

اوگا بناء بعضی عالملر پسیخوزیك عمله گلمه‌سینده آی باشیلارینی اتهام ایدیرله‌ر. فقط آخر زمانلاردا بایلان فنی تحقیقات و تدقیقات بو فکری رد ایدوب میدانه باشقا بیر نظریه چیقارتمیش‌در. بونظریه‌یه گوره پسخوز ارثی‌در و بوینك سببلرینی‌ده باش بینیمز و عمومیتجه جمله عصبیه میزده عمله گلمیش بعض گوزه گورونمه‌یه‌ن اونجه مادی تخریباتدا آرامالیدر.

معلوم شئی‌در که پسیخوز علامتلری هیچ بیر ظاهری سببلر (مثلا آی باشیلاری) میداندا اولمادیغی حالدادا مشاهده ایدیلر.

دیمه‌لی آی باشیلاری پسیخوزی میدانه چیقارتماق‌ایچون اك الویریشلی ظاهری سببلردن بیریسی‌در. بوندان گوروه‌نور که خسته‌لیگیك اصل ریشه‌لری آی باشیلاریندا ده‌گل و قادینك جمله عصبیه‌سینده عمله گلمش ده‌گیشیك‌لك‌لرده‌در. فقط آی باشیلاری قادین حیاتیندا مهم بیر حادثه اولدوغندان ایمدیه قدر گیزلی صورتده یاشایان پسیخوز عاملرینی اوزیرندن اوینادوب ظاهره چیقاریر. بویله که باشقا وقتلرده بیر چوق شیلری اوزینه روا گورمه‌یه‌ن بیرقادین آی باشی زمانی گوره‌ر.

جنایت یاپان قادینلار چوق زمانلار آی باشی زمانی یاپارلار. آلمان پروفیسورلاریندان هوبنه‌ر (Hubner) گتیردیگی ستاتیسقایا گوره 220 اوغورلوقدا متهم اولونوب محکمه‌یه جلب ایدیلەن قادینلاریك آنجاق 30 فائضی احتیاج اوزه‌رندن حرکت ایتمش‌لر. یرده قالانلاری ایسه جنایت یاپدیقلاری وقت آی باشی دورینه تصادف ایتمش‌در. بز ایمدیه قدر آی باشیلارینك تأثیرینده اولاراق قادیندا گیزلین صورتده یاشایان روح و اخلاق پوزغونلوقلارینك ظاهره چیقماسیندان بحث ایتدیك. ایمدی مسئله‌نیك باشقا جهتنه‌ده فکر ویره‌لیم. ایمدیه قادار آی باشیلاری دوز گون گیدن قادین‌لار روح خسته‌لکله‌رینه دوتولدوغو گوندن اعتباراً اونیك گیدیشینده بیر غیر منتظملك مشاهده ایده‌رلر. مثلا بعضی پسیخوزلار باشلادیغی زمان قادینك آی باشیلاری غفلتاً کسیلمش‌در.

اوگا بناء پالتار گورمه‌نیك سببسیز کسیلمه‌سی بعض روحیاتچی‌لار طرفیندن شبهه آلتینا آلناراق روحانی خسته‌لکله‌ریك ایلك علامتلری کبی قلمه ویریله‌لر.

آی باشیندان علاوه قادین معیشتینی چتین‌لشدیره‌ن 2نجی بیر عامل وارسا اودا دوغومدر. بگی‌اره گیتمش قادینلاریك بعضیله‌ری بیرنجی دفعه دوغدیقلاری ایچون دوغومدان آرتق درجه‌ده قورخارلار.

اونلار دوغومیك یاقینلاشماسینی اضطراب ایله تعقیب ایده‌رلر. بویله قادینلار ساغلام‌جمله عصبیه‌یه مالك اولمایوب سیکیر پوزغونلوغو وقورقو پسیخوزینه دوتولمش عنصرلردر. انسان حیاتندا طبیعی بیر حادثه موقعینی دوتان دوغوم بونلار ایچون غیر عادی و اولوم سانجان بیر شیی کبی تلف ایدیله‌ر. عادتاً بونلار دوغوم صالونلاریندا کی (یورتلاریندا) موجود قانونلارا تابع اولمایوب اوزلرینی ادبسیز آپارارلار. مثلا: سببسیز چیغیرارلار؛ یرلرینden سیچرارلار، لازمسیز چرپینارلار و اورتالقدا قوه‌تلی بیر عامل اولمادیغی حالدا دفعاتله بیهوش اولارلار و روا گوردیگلری بیر فنالغنك سببلرینی سوردیقدا انسان دوزمه‌یه‌جك شدتلی آغریلارا معروض قالدیقلارینی سویله‌یرلر. فقط حقیقت‌ده ایسه بو حرکت‌لر دوغوم آغریلارینك شدتیندن ده‌گل اشبو قادینلاریك هیسته‌ری (Hysterie) نامیله‌مشهور سیکیر خسته‌لیغینه دوتولمالاریندان ایره‌لی گه‌لیر.

معلوم شی‌در که بونگله بز دوغوم آغریلارینك اهمیتینی هیچ درجه‌سینه أیندیرمك فکرینده ده‌گلز.

دوغوم آغریلاری ماماچالیق علمینده مهم بیر مسئله حساب ایدیلمکده‌در. قادین‌لاری بو آغریلاردان خلاص ایتمك فکری اوته‌دن به‌ری بیر چوق عالملرك باشلارینده دولاشماقدادر. بو باره‌ده بیر چوق تکلیفلر ایدیلمیش و ملاحظه‌لر سویله‌نمیشدر. بعضی خسته‌خانه‌لرده دوغوم آغریسی باشلادیقدا قادینا آرا سیرا آغری آزالدیجی و یاتریجی ده‌رمانلار ویریرلر (نارقوتیقا) Narkotika.

آنجاق بو آخر زمانلاردا حامله قادینلاری هیپنوز (Hypnos) اتاسنده دوغوز دورورلار. دوغدوغو وقت هیپنوز ایدیلمش بو قادینلار عادتاً اوشاق دنیایه گلدیکدن صوکرا آوازیدیرلار، و کندیلرینك هیچ بیر آغری حس ایتمه‌دیکلرینی شهادت ایدوب تشکرلر ایده‌رلر. طبیعی شئی‌در که هر بیر فنی مسئله‌ده اولدوغو کبی بو مسئله‌نیك‌ده لهینه و علیهنه بر چوق رأی ویرنلر واردر.

بو مسئله‌نك حقنده‌ده گله‌جك نومرومزدا کی مقاله‌یی دیکله‌ملیدر.

دوقتور: ع. آتایف.

پاترونلر باجیلارا تعلیمات

پاترونلر باجیلارك وظیفه‌لری بونلاردان عبارتدر:

1) تازه اوشاق دوغمش آنالاری اوز اوشاقلاریله برابر قونسولتاتسیایا جلب ایتمك.

2) سود ئه‌مه‌ر چوجوقلارا اوز ایولرینده متمادیاً نظر یتیرمك.

3) عملی صورتده سود ویرمه‌گی و چوجوقلارا نه سیاق قوللوق ایتمه‌گی آنالارا اوگره‌تمك.

I. تازه دوغولمش‌لاری یوقلاماق.

1. قونسولتاتسیا تازه دوغولمش اوشاق باره‌سنده معلومات آلان کیبی پاترونلر باجی گوسته‌ریلمش آدره‌سه آنایی اوز اوشاغیله برابر قونسولتاتسیایا جلب ایتمك مقصدیله گدیر.

باجی یایلك گه‌لیشینده: 1) آنانی قونسولتاتسیانك قارشو سندا دوران وظیفه‌لر ایله تانیش ایدیر؛ قونسولتاتسیایا آنجاق ساغلام چوجوقلارك قبول ایدیله‌جکنی بیلدیریر؛ چوجوقلارك سلامتی‌خاطرینه اوشاقلارك ممکن‌قدر تیز اورایه گوندیریمه‌نك لازم اولدیغنی آکلاتیر. و بونیکدا آنجاق بعضی چوجوق خسته‌لیکلریتك قاباغنی آلماق ایچون اولدیغنی بیان ایدیرلر.

2. پاترونلر ورقه‌لرینی دولدیرماق ایچون لازم اولان معلوماتی توپلایور.

3. چوجوغی تدقیق ایدیر؛ بو زمان اونك گوبه‌گینه فکر ویریر، گوز، آغیز، بورون و عموما بوتون بدنینه دقت یتیروب عمومی نورمادان اکسیك اولدیغی حالدا بلاتاخیر قونسولتاتسیایا رجوع ایتمه‌گی مصلحت گوریر.

4. اوشاغا سودویرمك، اونا نه جوره قوللوق ایلمك باره‌سنده آنایا الك واجب تعلیماتی ویریر؛ آنا سودیله، تمیزلیگك اوشاقدان اوتری نه درجه اهمیتلی اولدیغنی، و حکیمك مصلحتی اولماقسزین اوشاغا آنا سودیندن باشقا بیئمه‌ك ویریلمیه‌جکنی‌ده آنایا تاپشیریر.

II. آردی کسیلمگسزین تازه دوغولمش اوشاغك اوز ایوینده اونی یوقلاماق

سود ئه‌مه‌ر اوشاق‌قونسولتاتسیایا گوستریلدیکدنصوکرا، قونسولتاتسیا حکیمی لازم گوردیکده پاترونلر باجی‌اوشاغك ایوینه گیدوب اونی یوقلامالیدر.

باجی هر دفعه اوشاغیك آناسی ایله دانشماق‌واسطه‌سیله اونك اویقوسی، اشتهاسی، یئدیکنی هضم ایتمه‌سی(قوسماق، گه‌یرمك، و ایشیکه چیقماق) باره‌سنده اطرافلی معلومات آلوب‌اوزیده اوشاغی نظردن کیچیریر. اونك ده‌ریسینده کی سه‌پمه‌لره، قیزارینتی‌لارا، ذکام، گوز آغریسی و باشقا بو کبی ظاهری خسته‌لیکلره دقت یتیریر. آنادان آلنمش و شخصی معاینه‌دن اخذ ایدیلمش معلومات اوشاغیك پاترونلر ورقه‌سینه یازیلمالیدر.

پاترونلر باجی اوشاغی معاینه ایدوب، آنادان آلدیغی معلومات اوزره آنانك قونسولتاتسیادان آلدیغی تعلیماته نه درجه‌ده عمل ایتمش اولدیغنی تحقیق ایدیر.

III. سود ویرمه‌گی و اوشاغا قوللوق ایتمه‌گی آنایا عملی صورتده اوگره‌تمك.

باجی هر دفعه اوز یوقلاماسینی اویله استعمال ایتمه‌لیدرکه اوشاق آناسی اونك زیارتلرندن تمامیله استفاده ایتسون؛ بو یوقلامالار ممکن قدر پاترونلر ورقه‌سینده گوستریلمش پروغرام اوزره اولمالیدر. آنایی اوگره‌تمك عملی صورتده اولمالیدر. مثلا اوشاغی دوتماق ویاکه یویوب تمیزله‌مك کیبی ایشلری بر نیچه دفعه باجی اوزی گوریر.و سوکرادا اوزیانیندا آنا او ایشلری‌تکرار ایدیر.

هیچ وقت یالیکز شفاهی گوستریشلره کفایتلنمه‌مه‌لیدر. اوشاغا سود ویرمك ایشینی آنایا عملی صورتده تعلیم ایچون پاترونلر باجی بر نیچه دفعه گلمه‌لیدر. پاترونلر باجی خلق آراسیندا موهومات نتیجه‌سی اولان بعضی عادت و عنعنه‌لره ده دقت یتیروب اونلارك علیهنه مبارزه آپارمالیدر. (اوجمله‌دن اولاراق چوپچیلر، دعا یازدیرماق، جیندارلار و باشقا بو کبیلر...) پاترونلر باجی عائله‌ده اوشاق تربیه‌سنده استعمال اولونان بو کبیی عادتلری پاترونلر ورقه‌سینه یازوب اونلارك رفعی باره‌سنده لازم اولان تبلیغاتی آپاروب سو کرا ایکنجی زیارتنده اوز تبلیغاتنك نه درجه‌ده نتیجه‌لی اولدیغینا دقت یتیریر.

IV. طبیعی غدا.

بز بردفعه‌لیك اوقتیار انقلابنك یوزدیغی چار حکومتی بورجلارینی قبول ایتمه‌یه‌رك هر ییل فرانسه حکومتنه 22 میلیون منات ویرمکه راضی اولدیق. عوضینده ایسه، صنا یعمزك برپاسی‌ایچون قره‌دی بورج ایسته‌دك. بوسوك گونلر، فرانسه‌نك مترجع دائره‌لری، انگلتره‌نك کوسته‌ریش ایله فرانسه‌ده کی سیاسی موکللرمز راقوفسکی یولداشا قارشی هجوم قامپانیاسنی آچمشلاردر. اونلار راقوفسکی‌یولداشك ده گیشدیریلمه‌سنی طلب ایده‌رك هر ایکی دولت آراسندا کی مناسباتك قیریلماسی تشبثاتندادرلار. بو احوالاتك بنو- رەسی بویله‌در. یولداشلار؛ سز نفت صنایعنده چالیشان ایشچی اوردوسی ایله‌چکین - چکینه چالیشدیغکزایچون شورا صنایعنك بویوك، قوه‌تلی متحرکی اولان نفتك‌قیمتنی بیلیرسکز. فقط خارجی ئولکه‌لرده، قاپیتالیست دولتلرینده نفتك بویوك سیاسی اهمیتی واردر. حربی‌دونانمانك‌حرکته گلمه‌سی، طیاره‌چیلیك و آوتوموبیلزمك که‌نیشلندیریلمه‌سی نفتدن آسلیدر. نفت منبعلرینك الده ایدیلمه‌سی اوغروندا دولتلر آراسندا ووروشما گیدیر. نفت‌یرلری بویوك‌آمریقا و انگلتره قومپانیالارینك آراسندا تقسیم اولونمش و مال ساتیشی بازارلاری خصوصی شرائط اوزره معین‌ایدیلمشدر. بردنبره، شورا نفتی دنیا بازارینا آتیلاراق، اوجوزساتیلیر و ده که‌رجه باشقا ئولکه‌لرك نفتندن گه‌ری قالمیر. انگلتره شورالار مناسباتی کسیلدیکدن سوکرا نفت سیندیقاتی آمریقا غروپی ایله سازشه گلیر و بونکله انگلتره قومپا- نیاسی باشچیسی ده‌ته‌ردینغ شورا نفتنك آلنماسی علیهنه جانلی قامپانیا باشلایاراق، نفتمزی «اوغورلانمش نفت» دییه آدلاندیریر. شبهه‌سز که جیب‌لرینی آغزینا قادار دولدیرمش بو جنابك فریلدا‌قلارینی فرانسه‌ده ده کوریریز. اوقتیار انقلابی، بو جنابه بویوك ضربه‌وورمشدر. قومپاردیغی گورو لتونك ساکتله‌شمه‌دیکنه باقمایاراق هله‌لك او، هیچ‌برموفقیت الده ایتمه‌مشدر. فرانسه حکومتی، بزیمله دانیشیقلاری‌دوام ایتدیریر و انگلتره‌نك فریلدا‌قلارینا باقمایاراق بودانیشیقلارك هر ایکی اولکه فائده‌سیله نتیجه‌له‌نه‌جکنه امینیز، آلمانیا ایله هله‌لك علاقه‌مز یاقشیدر. انگلتره‌نك سعینه باقمایاراق، متقابل مناسباتمز یاقشی و انکشاف ایتمکده‌در؛ انگلتره؛ آلمانیا شورالار اتفاقی ایله اولان دوستلغنی پوزماق ایسته- یر. بزی بو وقته قادار تصدیق ایتمه‌یه‌ن یکانه بر دولت وارسا، اودا «بوتون دنیا بانکیری» شمالی آمریقا حکو- متیدر. بونا باقمایاراق، شمالی آمریقا ایله تجارتمز خصوصاً انگلتره ایله قطع علاقه ایتدیکدن سوکرا، موفقیتلی بر صورتده ترقی ایتمکده‌در. دوغرودر، آمریقا حکومتنك سیاستنده‌بزیم ایچون الویریشلی جهتلر واردر، لاکن بو جهتلر هله چوق جزئی اولدیغی ایچون بو باره‌ده چوق دانشماغا ده کمز. شورالار اتفاقنك بین‌الخلق وضعیتی‌حقنده بو قیسا معلوماتی قورتارماق ایچون «دنیا انقلابنك احتیاط ئولکه‌لری» شرق ئولکه‌لری خصوصنده دخی‌بحث‌ایتمه‌لی‌یم. دوغرودر بورادا، بو سوك ییللر دنیا محاربه‌سی آرقاسینجا بلا واسطه کلن دورده اولدیغی کبی هیجانلی‌ده کیشکلیکلر یوقدر. بورادا یالکز چین مستثنا دوتولا بیلیر. بویل‌یایدا چین انقلابی کیدیشینده ده کیشیکلیك اولمشدر - تشویشه دوشمش بورژوآزیا، چینك انقلابجی فرقه‌سی هومیندان رهبری سون‌یا ت‌سه‌نك وصیت‌لرینه خیانت ایده‌رك عمومی ملی حرکات‌دان اوزاقلاشدی. شبهه‌سز که بورادا دخی انگلتره دیپلوماتلارینك حیله، تضیق و باشچیلاری ساتین آلماق کبی حرکتلری اولمشدر. لاکن دنیا ارتجاعنك شادلغی هله تزدر. معین مدتدن سوکرا اولا بیلسونکه حتی چوق تیز، انقلاب دالغالاری یکیدن باشلاسین وچینك ئوز بورژوآزیاسی‌باشدا اولماق اوزره بوتون ایمپه‌ریالیستلر اسارتنی قطعی اولاراق آرادان قالدیرسین. چین انقلابنك نه‌قادار یاتریلدیغنی کوسترمك ایچون ایه‌تین ایله‌خو-لونك عصیانینی گوسته‌رمك اولور.

آرتق عکس‌انقلابك غالب گلدیگی کورونوردی. نانکین شانغهای، اوخان عکس انقلابجیلار قرار کاهنه کیچدی.

هریرده ایشچی تشکیلاتلاری داغیدیلاراق، قوممو- نیستلر تعقیب ایدیلیر وسائره...جنرال‌چوپه‌یك اوردوسندان سورکون ایدیلن قوممونیستلر، چین جنرالی ایه‌تینك‌رهبر- لگی آلتیندا عصیان قالدیراراق، بر چوق غالبیتلر الده ایتمش و محاربه ایله قانتونه یاناشماقدادر.

کندلی عصیانینك گه‌نیشلنمه‌سی ایله یولدا ایه‌تینك اوردوسی انقلابجی کندلی دسته‌لری حسابینه‌جانلانماقدادر. و بو حرکات، عکس انقلاب ایچون بویوك بر هده تشکیل ایدیر. ملی اوردویه نسبتا بو اوردونك هیئتی و مقصدی بردر. دوغرودر ایمدیدن بو حرکاتك نه قادار که‌نیشله‌نه‌جکنی دیمك چتیندر.

ایه‌تین قانتونی آلا بیله‌جکدرمی؟ قانتون و شانغهای کبی انقلابجی مرکزلرده امکچیلرك بویوك ناراضیلیغینی کندلی حرکاتنی نظره آلدیقدا ایه‌تینك رهبرلکی آلتیندا بولونان ایشجی کندلی حرکاتنك که‌نیشله‌نه‌جکنی کمان ایتمك اولور. فقط بو حرکات، حتی که‌نیشلنمه‌سه بیله، شادلیق ایدن عکس انقلابچیلاری خبردار ایدن بر فاکت اولدیغی اهمیتلیدر.

چینده عکس انقلابچیلار جبهه‌سنك قریلماسی، وضعیتك محکم اولمادیغنی کوسته‌ریر. بو کوسته‌ریرکه، خائنلر ملی حرکات قارشیسیندا دوران وظیفه‌لری حیاته کیچره بیلمه‌یه‌جکلر. بو؛ بورژوآزیانك قیزغین ته‌ورینا باقمایاراق، بر نیچه هفته کیچدیکدن سوکرا عصیان‌بایرا_غنی قالدیران انقلابجی امکچیلرك بویوك قوه‌یه مالك اولدیقلارینی کوسته‌ریر، بو، چین انقلابنك غالبیتی ایچون بر رهندر. بو شرقك ایمپه‌ریالیزم ایله مبارزه‌سنده دهشتلی قوه‌نك قالدیغنی کوسته‌ریر.

یاقین قومشولارمزدان تورکیه و ایرانه گلدیکده، اورادا 1918 _ 21 نجی یللرده کی ملی آزادلق مبارزه‌سی ثمره‌لرینك محکمله‌نمه‌سی اوغروندا جدی ایشلر گورولیر.

بو ایلك‌اول تورکیه‌یه عائددر. تورکیه دنیا قاپیتالینك تضییقنی موفقیتله دفع ایتمکده‌در. دنیا قاپیتالی الده‌اولدیغی کبی گنیج تورکیه‌نك ترقیسینی هیچه چیقارماق اسارت و مستملکه یولینا سالماق اوغروندا جد جهد ایدیر. بو مقاومت، تورکیه سیاستیندن شورالار اتفاقی ایله دوستانه مناسباتك محافظه‌سنی طلب ایدیر.

بو قاپیتالیستلرك تضییقنی آسانلق‌ایله دفع‌ایچون‌لازیمدر. اونا گوره‌ده تورکیه، ئوزینك جمعیت «اقوام»ه دارتیلماسی تشبثنه جانلی مقاومت گوسته‌ریر. شورالار اتفاقی‌ایله انگلتره آراسنده‌مناسباتك کسکینلشدیگینه باقمایاراق، تورکیه‌سیاستنده ده کشیکلك اولمامشدر. تجارت مقاوله نامه‌سی، انگلتره ایله اولان مناسباتمزك کسکینلشدیگی بر آندا تصدیق اولونمشدر. سوك نیژنی نووغورود یارمارقاسندا تورکیه ایله مال مبادله‌سنك آرتدیغنی کورویرز. بو قونشمزك‌ئوز اساس خط حرکتنی ده کیشدیرمه‌دیکنی کوستریر.

آوغوست آیندا مات مجلسی سه‌چکیلرینده مصطفا کمال پاشانك غالبیتی بر داها تصدیق ایدیر که، انقلابجی تورکیه ملی اقتصادی و مدنیتی خلاص و که‌نیشلندیرمه‌جك یولدان چیقمایاجاقدر.

یاقین قومشولارمزدان ایران ایله اولان مناسباتمزده سوك درجه ایله‌ریله‌مشدر. بر نمونه فاقتی کوسته‌رمك کافیدر؛ انگلتره _ شورا مناسباتی کسیلدیگدن سوکرا شورا_ایران مناسباتنك کسکینله‌شمه‌سی مقصدی‌ایله‌انگلتره‌نك ایرانه اولان تضییقنی سوك درجه جانلاندیردیغنا باقمایاراق ایران حکومتی‌نك سیاستی دوغرودر بر قادار تردد ایله _ اولکی شکلنده قالمش. هر ایکی اولکه آراسندا تجارت سازشنك باغلانماسی ایچون موسقوا ایله دانیشیقلار دوام ایتمشدر. بو وقته قادار ایرانك اقتصادی ایشلرینده انکلیزلرك حاکم اولدیغنی (بانك، کومرو کخانه، نفت امتیازی) خاطرلادیقدا، یاقینلاشماق ایشینده بویوك غالبیتدر.

ایمدی موسقوادا تجارت سازشی باغلانمشدر. بوسازشك باشلیجاماده‌لری بونلاردر: هربیل شورالار اتفاقنه‌معین‌مالار (کرك صنایع خام‌مالی و کرك‌صرف اولونان‌مالار) 50میلیون‌منات‌لق مقدارینده اجازه‌سزایران مالی کتیریله‌جکدر. ایکنجسی ایران تاجرلرینه غیر محدود مقداردە شورا مالینی آلاراق ایرانه آپارماق اجازه‌سی ویریلیر. بو مقاوله هر ایکی طرف ایچون الویریشلیدر. و مستملکه‌چیلك‌مقصدینی تعقیب‌ایتمیر.

خلق تصرفاتمز آرتدیقجا، ایران ادخالاتنك اولکی مبلغی، شبهه‌سز که آرتاجاقدر.

تجارت مقاوله نامه‌سنك ایران خلق تصرفاتی ایچون اولدیجا بویوك اهمیتی واردر. بورادا انگلتره _ ایران تجارت مقاوله‌نامه‌سنك قورولوشنی خاطرلایالم. بو مقاوله‌نامه احتیاط پارا و سائطنك ایراندان آپاریلماسینا اساسلانیر. مثلا 1925 _ 26 نجی یلده انگلتره ایرانه 467 میلیون فرانق مال گتیرمش و 125 میلیون فرانق مال آپارمشدر. بویله‌لکله انگلتره ایراندان 342میلیون قران‌پارا آپارمشدر. بز ایسه تمیز بالانس (نه‌تو) اوغروندا جد جهد ایدیریز. یعنی کتیریلن مال قادار مال آپاریلسین. دیمك انگلتره دیپلوماتیاسنك فریلداقلارینا باقمایاراق شرق اولکه‌لری ایله اقتصادی رابطه‌مز، موفقیتله محکمله‌نمکده‌در. ایمدی بین الخلق وضعیتمزه مختصر یکون ووردیقدا دیه بیلیرز که مای ایون آیلارینا نسبتا کسکینلکی بر قادارضعیفلشدیکنه باقمایاراق ینه حربی توقوشما هده‌سی لابددر. دنیا عکس انقلابجیلاری الویریشلی زمان گوزله‌یه‌رك شورالار اتفاقی امکچیلرینه قارشی هجوم ایتمك ایچون جانلی بر صورتده حاضرلانماقدادر، شوا حکومتی اولده اولدیغی کبی ینه‌ده صلح سیاستنی آپاریر و بونکله تنفسك‌اوزادیلماسی‌اوغروندا جد جهد ایدیر. لاکن سوسیالیزم قورانئولکه ایله‌چوروك

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0385

قاپيتاليزم قوه‌لرينك مطلق و قطعى ووروشاجاقلارى حقنده له‌نين يولداشك سوزلرينى اونوتماق اولماز.

بزئوز فتوحاتمزك مدافعه‌سى ايچون حاضر اولمالى‌يز.

شورالار اتفاقنك مدافعه‌سى حاضرلغندا قادينلار بر ايش گوره بيلرمى؟ شبهه‌سز كه چوق بويوك ايشلر گوره بيليرلر. وقتدن استفاده ايله، شورا دولتنك پرولەتار قادينلاردان، كندلى قادينلاردان نه گوزله‌ديگنى آذربايجان قادين آقتيفنه سويله‌مك ايسته‌رديم. حرب قورقوسنك قارا بولوتلارى كسكينله‌شديگى بر زماندا ايشچى كندلى قادينلارك حاضرلغى وتشكيلى ايچون صلح قورولوشى دقيقه‌لرندن استفاده ايتمك لازيمدر. قادينلار، محاربه باش ويرديگده سوسيا ليست وطنمزك مدافعه‌سينده سوك موقع دوتماليدر.

پرولەتار انقلابنك بويوك رهبرى له‌نين هله 1916 نجى يىلده امك ايله قاپيتالك گله‌جك توقوشماسندا قادينلارك اهميتنى گوزه‌لجه‌سنه دوشونمشدر.

پرولەتار قادينلار، ياقشى سلاحلانمامش و يا هيچ سلاحلانمامش ايشچيلرك مسلح بورژوآزيا طرفندن گوللەلنمه سينه كناردان تماشاچى كبى باقا بيلمه‌يه‌جكدر. اونلار 1871 نجى يىلده اولديغى كبى، سلاحه ساريلاجاقدر. (له‌نين 13 نجى جلد 453 نجى صحيفه) ئەوت 56 يىل بوندان اول برنجى قوموناى مدافعه‌سنده قادينلار ارككلر ايله برلكده مبارزه آپارمشلار و بر انگليز بو مبارزه‌يى بويله تصوير ايديرر:

«فرانسز ملتى ياڭكز قادينلاردان عبارت اولمش اولسايدى بو ملت، مدهش برملت اولوردى. 10 ـ 8 يىل بوندان اول وطنداش محاربه‌سى اثناسندا، برچوق قهرمان قادينلار الدم سلاح عكس انقلابچيلارك كسكين تضييقينى دفع ايتمشلردر.

گله‌جك توقوشمادا طياره‌چيلك، كيميا محاربه‌سى، حصه‌لرك مەخانيكله‌شديريلمه‌سى يوزيندن جبهه‌ايله آرقا آرا سندا هيچ بر تفاوت قالمياجاقدر.

اصل حقيقتده طياره‌لرك باسقينى الك اوزاق بر جبهه آرقاسنى 6 ـ 5 ساعتدن سوكرا، جبهه‌يه دونه‌ره بيليرر، بورادا قادينلارك متشكل، حربى ايشلردن خبردار اولما سندان بويوك مسئله‌لر آسيليدر، هيجانك قارشيسنى آلماق، دوشمانا آتش آچماق، اونك سيرالارينى پوزماق، دوشمانا بويوك ضرر ووراييليرر. شبهه‌سز كه بن، گله‌جك محاربه‌ده قادينلارك بوتون وظيفه‌لرينى يعنى غازا قارشى آلتلردن استفاده ايتمك، يارالىلارك يارالارينى باغلاماق و سائره‌يى گوسته‌رمك ايسته‌ميرم. بن ياڭكز، شورا امكجيلرينك نظر دقتنى، قادينلار آراسندا، اونلارك ئولكه مدافعه‌سينه ياردىم كيميا ـ طياره جمعيتنده اشتراكى لزومى حقنده جانلى تشويقات آپارىلماسنا جلب ايتمك ايسته‌رديم. امينمكه، قورو لتاى نماينده‌لرى بو يولدا بويوك قوه صرف ايده‌جكلر و بويله امكجى قادين تايىلماياجاق كه حربى حاضرلغى دوشونمه سين و ئولكه مدافعه‌سينه ياردىم طياره ـ كيميا جمعيتنده اشتراك ايتمه‌سين.

قادينلارك بلا واسطه حربى توقوشمادا نه‌قادار اهميتلى رول اوينياياجاغلارينى گوسته‌رديكدن سوكرا اونلارك محاربه اثناسندا شورا قورولوشى و تصرفاتدا نه‌قادار مسئول وظيفه‌لر گوره‌جكلرينى گوسته‌رمك لازيمدر. كچمش دنيا محاربه‌سى و وطنداش‌محاربه‌سنده، جبهه‌لره كلى‌مقداردە اوردو سوق ايديلمشدى، آرقادا ايسه فابريقالاردا چاليشماق ايچون اركك اهالى قالمشدى. گله‌جك محاربه‌نك طلبى، داها چوق اولاجاقدر. ايشته قادينلاردان، ده‌زكاه آرقاسندا، خسته‌خانه، دفترخانه‌لرده اركككارى عوض ايتمك طلب اولونير. عين زماندا اختصاصلى ايشلرده دخى اركككارى عوض ايتمك لازيمدر. اونا گوره‌ده بوتون آذربايجانك هر بر بوجاغندان بورايه توپلانان قادينلار بو مسئله‌يى دوشونمه‌ليدر. محاربه اثناسندا انضباطى ـ تصرفات آپارا تمز نه اينكه ياقشى حتى مكمل چاليشماليدر. چونكه ايشلرك مكمل آپارىلماسى، جبهه‌ده كى وضعيته‌دن آ-يليدر. آذربايجاندا، اولان قادينلارك خصوصا آذربايجاندا، ملى اوردو تشكيلى بو ياقينلاردا باشلانمشدر. سيز قادينلار آراسندا بويوك ايشلر گورمه‌لى، گه‌نيش امكجى كتله‌سنى مفكوره‌وى جهتدن حاضرلامالى و لازيم اولديقدا، ئوز كيشى قارداش و اوغوللارينى، انقلاب فتوحاتى مدافعه‌سينه سوق ايتمه‌لى‌سڭكز. سيز، پاريس قوموناسندا كى قادينلار كبى، شورا حكومتنك برنجى دعوتى اوزره، سوسياليزم وطنمزك مدافعه‌سينه قالقشمالى‌سڭكز. اوقتيابر انقلابى نتيجه سنده خلاص اولان امكجى شرق‌قادينلارى له‌نين يولداشك قادينلارا ويرديگى اهميتى دوغرولتاجاقلاردر.

اوقتیابر انقلابی‌نك 10 ییللیگی و آذربایجاندا

قادینلار آراسیندا آپاریلان فعالیتده بزیم مقصدلریمز.

اوقتیابر انقلابی‌نك 10 ییللیگینه قوممونیست فرقه‌سی و شورا حکومتی عموم اتفاق فعله صنفی و کندستان اهالیسی ایله بیرلیکده گیتمش اولدیغی بوللاری تحقیق سلابودقالاری محیطیندن آیروب، کندلینی آنجاق اوز محله‌سینك ایشلریله مراقلانماق سویه‌سندن یوکسه‌لتمشدر. دالدا قالمش آذربایجان کندلیسی یالکز اوز کندینگ



یولداش له‌نین اوقتیابر انقلابی اوقتیابر گونلرینده

ایدوب، شورا قورولوشی‌نك بوتون جبهه‌لرینده امکچیلر قارشرسیندا دورمش تازه مسئله‌لری آیدینلاشدیریر.

چار ظلمی، ملی عداوت، دهشتلی وطنداش محاربه‌سی آجلیق، تصرفات پوغونلیغی... هپ دالدا قالمشلار.

سوسیالیست شورا جمهوریتلری اتفاقنك امکچیلری معظم سوسیالیست قورولوشی دورینه قدم قویمشلار. اوقتیابر انقلابی فعله وکندلینك گوزینی آچوب، عالمه دوشونجه‌لی بر نظرله باقماغا حاضرلامشدر، فعله‌نی فابریقا منافعی ایله مراقلانمیوب، بوگون اوکندلینی عموم اتفاقك تصرفات ایشلرینك وضعیتی، جین انقلابنك حالی، غرب آوروپا پرولتاریاتنك‌دا انقلابی حرکاتی اولدیقجامراقلاندیریر.

سوسیالیست صنایعنك، قوئوپه‌راتسیانك، مدنیتك، گنیش امکچی کیتله‌سنك معارفله‌شمه‌سنك انکشافی، یوکسلمه‌سی عصرلر اوزونی امکچیلری قاپلامش اولان ده‌ده‌ـبابادان قالما عادتلر، و به‌یین‌لرینی چوروتمش اولان موهومات مذکوره‌لرینی داغیدوب، اسارت زنجیرلرینی قیرماغاباشلامشدر.

عصرلر اوزونی روس چاریزمی آلتیندا ایکگله‌مکده اولان شرق ملتلرینك پدرشاهی طرز معیشتلری، شاتلی قزیل اوقتیابرك دالغالاری قارشوسیندا دوام ایتمه‌یوب دارما داغین اولماغا باشلادی.

الك دالدا قالمش واسارت آلتیندا ازیلمن شرق قادینی‌دا شورا اجتماعی حیاتنده گه‌نیش صورتده میدانه آتیلدی.

ولادیمیر ایلیچ له‌نین بیزه وصیت ایتمشدیکه ایی اویله آپارمالی که «هر بر قوخارقا مملکتی اداره ایتمه گی باجارسون!..»

بویوك معلممز و رهبریمز بو سوزلرله بونی دیمك ایسته‌مشکه قوممونیست فرقه‌سیله شورا حکومتنك مقصدی فعله صنفنی، اونیك ایله برابر بوتون امگچی صنفنی اویله یوکسه‌لتمه‌لی که یکی یارادیجیلق حیاتنه هوسله‌نوب سوسیالیزم قورولوشینا، سابق بویوك روسیه ایمپه‌ریاسینك الك مظلوم الك گه‌ریده قالمش زحمتکش اهالیسنی‌ده چاغیرسون و بو ایشده اونلاری تشکیلاتلاندیرسون.

اوقتیابر انقلابی عصرلر اوزونی دوام ایتمش شریعت حاکمیتنه، شرق قادینی تام معنی‌سیله اوز حکمرانی اولان امرینك اسیر و قولی باغلی قولی حالینه سالمش عادت و عنعنه قلعه‌لرینی جدی هجوم یاپوب دارباداغین ایتدی.

شورا ده‌قره‌تلری ایله آذربایجاندا چوق آرواد آلماق، وقتندن ایره‌لی امره گیتمك ایشلری منع ایدیلر؛ عوضنده تام معنی‌سیله تورك قادینی کشیلرله هم حقوق ایده‌ن نکاح و عائله قانونلاری حیاته کیچیریلر.

قوممونیست فرقه‌سی، ایشچی و کندلی قادینلار شعبه‌لری واسطه‌سیله، شرق قادینی‌نك معیشت شرائطنی نظره آلوبدا- او قادینلارك آراسیندا چالشماق ایچون آیریجا بر فعالیت اصولی ترتیب ویروب شرقك زحمتکش قادینلارینی اونك حبس‌خانه‌سی اولان ایودن بایرا چیقاردوب اجتماعی یولا سالا بیلدی.

آز زماندان سوکرا شورالی روسیه امکچی قادینلار آراسیندا چالشماق ایچون داها مکمل بر اصول دوشو- نولدی؛ او اصول دخی نماینده‌لر یغنجاغیندان عبارتدر که عموم اتفاق دائره‌سنده ایشچی و کندلی قادینلار آراسیندا بو اصولدا فعالیت آپاریلماقدادر.

نماینده‌لر یغینجاقلاری واسطه‌سیله ایشچی و کندلی قادینلار شورالار اطرافیندا تشکیلاتلانوب شورا ایشلرینه و فرقه‌یه جلب اولونورلار.

قاباقلاردا تام معنی‌سیله اسیر اولان و حتی اوزعائله‌سی ایچریسینده بیله رأی ویرمکه اختیاری اولمایان تورك قادینی شورا حکومتی اثاسنده اجتماعی حیاته قدم باسوب، کند شورالاری صدرلیکی وظیفه‌سینه کیچوب اوز کندینگ مدنی و تصرفات ایشلرینی اداره ایتمگده‌در.

بوتون شورالار اتفاقی مقیاسنده، هابیله آذربایجاندا معیشتی تازه اصولدا قورن موسسه‌لری تشکیل ایتمك ایشینده چوق بویوك ناثیلیتلر اماده ایدیلمیشدر. (اوشاق میدانچالاری، اوشاق باغچالاری، یاسلی وسائره‌لر...) بو موسسه‌لر امگچیلرك، هامودان اول قادینلارك معیشتلرینی یاقشیلاشدیرماق ایچوندرلر.

بو موسسه‌لری تشکیل ایتمك ایشینه قادین قلوبلاری، نماینده‌لر یغنجاقلاری و شورالار اطرافلارینا توپلانمش ایشچی و کندلی قادینلار گه‌نیش صورتده جلب اولونمشدیلار.

سوسیالیزم قورولوشیندا و اونك بر حصه‌سی اولان قادینلاری اسارتدن خلاص ایتمك ایشینده بویوك، لاکن ایلك قدملر گوتوریلمشده، هر حالدا محکم بنوره قویولمشدر. هله قاباقمزدا بویوك مانعه‌لر دوروب تیکانلی یوللاریمز قالمشدر.

آذربایجاندا قادینلاری اسارتدن خلاص ایتمك ایشینده قاباقمزدا دورمش اساس مانعه‌لر بونلاردان عبارتدر:

قادینلارك جوغی، خصوصا کندلرده کیلرك سوادسیزلیغی؛ آذربایجان صنایعنده چوق آز مقداردا اشتراك ایتمه‌سی؛ بو جهتلردنده شورا قانونلاری موجبنجه قادین‌لار کشیلرله هم حقوق اولوبلارسادا حیاتدا ایسه قادینك حقوقی یه‌ده تام معنی‌سیله برابرله‌شمه‌مشدر؛ اوقتیابر فتوحاتی ایله قادینا ویریلمش حقوقدان قادین تامیله استفاده ایده بیلمه‌یوبدر. آخردا بونیدا دیمه‌لی که ایو تصرفاتنده‌ده قادینك وضعیتی یه‌ده محدود قالمشدر.

بین‌الخلق پرولەتار مبارزەنك بیرنجی اون ییلی، قاپیتالیستلر دنیاسنی قبره یاقینلاشدیردی. ایکینجی اون ییل ایسه قاپیتالیزمی توپراغا باسدیراجاقدر.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0388

ولادیمیر ایلیچ موسقوادا ایشچی قادینلار قونفرانسیندا قادینی اسارتدن خلاص ایتمك چارەلرینی بوسوزارلەقرارلامشدر:

«قادینی تمامیله اسارتدن قورتارماق ایچون، اونی کشی ایله حقیقی صورتده هم‌حقوق ایتمك ایچون لازمدر که اجتماعی تصرفات قورولسون و قادیندا عمومی استحصالات زحمتنده اشتراك ایتسون. بویله اولدیقدا قادین‌دا کشی کبی بر بڑ دوتا بیله‌ر!».

بیل بیلدن آذربایجاندا همکارلار اتفاقلارینداکی قادین‌لارك مقداری آرتیر؛ لاکن همکارلار اتفاقلارینداکی عضولره نسبت قادین‌لارك فائضی چوق ضعیف صورتده آرتیر. بیله که 1925 نجی بیلده ایولك برینده آذربایجاندا همکارلار اتفاقلارینداکی 19،530 نفر قادین عضوی- 12،0 فائض اولدیغی حالدا همان تاریخدا 1927 نجی بیلده قادین عضوینك مقداری 29،670در؛ - 14،9 فائض.

ایکی بیل مدتنده آذربایجاندا همکارلار اتفاقلارینداکی قادینلارك مقداری 10،140نفر آرتمشدر. فائضجه 2،9 قدر آرتمشدر. کیچن بیلده آذربایجان صنایعنده چالیشان قادینلارك مقداری 5،925 ایدی. عموم ایشچیلره نسبت قادین‌لارك فائضی 7،2در.

تورك قادینینی خیردا ایو زحمتلرندن آزاد ایدوب حقیقی صورتده کشی ایله هم‌حقوق ایتمك ایشنده بیزیم الك اساس مقصدیمز او قادینی عموم - استحصالات زحمتینه گنیش صورتده جلب ایتمکدن عبارتدر. آذربایجاندا توقویوجی، تیکیش و تنباکو صنایعی گنیشلندیگجه (گنجه‌ده چیت فابریقاسی. یاغ و صابون پشیره‌ن زاوودلار و سائره) تورك قادینی‌نا امکان ویریلیر که عموم-استحصالات‌زحمتینده اودا اشتراك ایده‌بیلسون. تورك قادینینی استحصالاتە جلب ایدوب و اونی الری چیکمك ایشینده ئەنگەل توره‌دن- اونك تجربه‌سیزلیگی و اختصاصجه حاضرلقسیز اولدیغی‌در.

آذربایجاندا قادین‌لار آراسیندا همکار تخنیقی‌تعلیم‌ایشاری ساحه‌سنده بویوك نائیلیتلریمز واردر.

عالی‌مکتبلرده، فعله‌فاقولته‌لرینده، تخنیقوم، صنایع‌مکتبی، فابریقا - زاوود مکتبلری، همکار صنایع قورضلاری و سائره‌ده 22-21نجی بیللرده 2،920 قادین تحصیلده‌اولدیغی حالدا اونلارك 226سی تورك قادینی ایدی. 27-26 نجی بیللرده بو مکتبلرده 5،123 قادین اوقویور ؛ اونلارك 1،575ی تورك قادینی‌در. صنایع مکتبلرینده اوقویان‌تورك قادین‌لارینك فائضی 1922 ده یوز اولدیغی حالدا بو بیل 696،9 فائضه چاتمشدر.

قادین زحمتنی داها آرتیق استحصالاته جلب ایتمك مقصدیله خلق زحمت قومیسارلغی یانیندا خصوصی قومیسیون ترتیب ویریلمشکه بونك وظیفه‌سی قادین زحمتنی تدقیق ایدوب، زحمت‌شرائطنی یاقشیلاشدیرماقدان عبارتدر. فابریقا زاوود مکتبلرینه قزلاری جلب‌ایتمك ایچون بو قومیسیون طرفندن معین (نورما) مقدار قرار ویریلمشدر. بو (نور ما)لار بو قرار اوزره‌در. داغ صنایعنده -10فائض؛ تیکیش توقویوجی. تنباکو صنایعنده وبرده فابریقا-زاوود مکتبلرینك چەرتیوژ شعبه‌لرینده 50 فائض؛ کیمیه‌وی و ایلیقتروتخنیق ایشلرینده - 25 فائض؛ده‌ری و تخته شعبه‌لرینده- 20 فائض

1927 نجی بیلده مارتك 8ینده آذربایجان مرکزی اجرائیه قومیته‌سی یانیندا کی خصوصی قومسیه واسطه‌سیله باکودا کی له‌نین نامنه و برده گنجه‌ده کی چیت‌توقویوجی فابریقالارا قبول ایدیله‌جك ایشچیلرك نیچه فائضی قادین اولاجاغنی باره‌سنده معین قرارنامه قبول ایدیلمشدر. قرار قویولمشدیکه فابریقالاردا قادینك فائضی 40-50یه چاتدیریلسون.لاکن بو قرارلار حیاته تطبیق ایدیلدیگده، خصوصا تورك قزلارینی فابریقا-زاوود قومیته‌لرینه گوتورمك ایشینده چوق چتین‌لیکاره راست گلدیك ؛ قزلاری بو مکتبلره چیکمك ممکن اولمادی. حتی تیکیش آرته‌للرینده‌چالیشان تورك قادین‌لارینی‌عمومی تیکیش فابریقالارینا جلب‌ایتدیگده یه‌ده چتین‌لیگله گیدیرلر. بو، اونی ثبوت ایدیر که تورك قادینی حیاتینده بوچاغاجان دینی موهومات و کوهنه حیات تورتو کینتلری قالمشدر . گنجه‌ده ماهود فابریقاسینا تورك قزلارینی جلب ایتمك ایشینده‌ده بو کیبی مانعه‌لره راست گلدیك.

بیزیم بو یول‌داکی باش مقصدمز-استحصالاته تورك قادین‌لارینی جلب‌ایتمك مسئله‌سی اطرافنه اجتماعی بر رأی یاراتماق؛ تورك قزلاری آراسندا همکار تخنیقی بیلیگی انکشاف‌ایتدیرمکدن عبارت‌در. لازم‌در که ایشچی قادین‌لار و هابیله موزدور و کندلی قادین‌لار آراسندا جدی‌و گه‌نیش صورتده تبلیغات آپاریلسونکه‌اونلار اوز قزلارینی فابریقا - زاوود مکتبلرینه تخنیقوملارا و سائر مکتبلره براقسونلار.

کندلرده قادینلارك (فقیر و اورتاباب‌لارك) آراسندا تبلیغات آپاروب اونلاری تشکیلاتلاندیرماق لازم‌در؛ آرا- لارینداکی خالچا توقوماق ، کند تصرفاتی آرته‌للری - کند تصرفاتنك محصولاتنی - سودچیلیك و تویوق - جوجه بیجه‌ره‌ن و سائره کیبی آرته‌لر دوزه‌لتمه‌گه تشویق ایتمه‌لی.

قادینی اسارتدن خلاص ایتمك ایشینده قارشودا اولان بیزیم ایکنجی مقصدیمز - اجتماعی تصرفات تشکیلی مسئله‌سیدر. اودا قادین زحمتنی اوزایوینده آسانلاشدیران موسسه‌لرك تشکیل ایدیلمه‌سیندن عبارتدر. ایشجی و کندلی قادین کتله‌سی هله ایمدییه‌جن چوق فائده‌سیز، لاکن آرتیق آغیر و خیردا ایوایشلریله مشغول اولاراق ایو تصرفاتنده وقت صرف ایدیرلر. ایشجی کندلی قادین‌لارك برچوغی ایکیلی زحمت چیکمکده‌درلر. - فابریقادا، اه کین چوللرینده چالیشدیقلاری حالدا اوز ایولری داخلنده‌ده ایشله‌مکه مجبوردرلر.

لازمدر که اوشاق باغچالاری، میدانچالاری، قلوبلاری یانیندا کی اوشاق اوتاقلاری، یاسلی وقونسولتاتسیالار تشکیل ایتمك ایشینی دوام ایتدیروب گه‌نیشله‌ندیرمه‌لی و آذربایجان کندلرینده‌ده آرتیرمالی. هامودان آرتیق دقت آذربایجان کندلرینده آنالق و چوجوقلیق مدافعه‌سی ایشلرینك قاعده‌یه سالینماسینا ویریلمه‌لیدر؛ چونکه هله بو کبی آنالار و اوشاقلار طبیب‌سز قالیرلار؛ سانیتار شرائطینه مغایر یاشاماقدان ثولوب تلف اولورلار، لازمی مقداردا ماماچا اولمادیغی ایچون تازه دوغولمیشلارا یاقشی باقیلمادیغیندان، اجتماعی خسته‌لیکلر دهشتلی صورتده اهالینی علیل ایتمکده‌درلر. بو کیچن ییلده تجربه ایچون آذربایجان کندلرینده آچیلمش یای اوشاق یاسلیلارینی بوندان سوکراکی ییللرده‌ده دوام ایتدیرمك لازمدر که بو ایش چوق گوزه‌ل نتیجه‌لر ویرمشدر.

معیشتی یاقشیلاشدیران موسسه‌لرك تأسیسی اطرافنه اجتماعی رأیی جلب ایتمك لازمدر؛ قوئوپراسیانی، کندلی ایل یاردیم قومیته‌سینی هابیله ایشجی و کندلی قادین‌لاریدا گه‌نیش دائره‌ده جلب ایتمه‌لیدر.

سوکراکی مقصدمز - کندلی قادین‌لار آراسندا کی سوادسیزلیق ایله مبارزه آپارماقدان عبارتدر.

شهرلرده سوادسیزلیغی تسویه منطقه‌لرینده چوقلی تورك قادین‌لاریدا واردر؛ شهرلرده بیز تورك قیزلارینی عمومی مکتبلرده، عالی مکتبلرده گوریریك. کندلرده ایسه قزلار ته‌ك-ته‌ك مکتبلرده گورینورلر؛ کندلرده قادین سوادسیزلیغنی تسویه ایده‌ن منطقه‌لر نادر گوزونورلر. تورك قادین‌لارینك فابریقا و زاوودلارا ایشله‌مکه، فابریقا - زاوود مکتبلرینده تحصیله گیرمکلرینه مانعه توره‌دیر؛ وحشی موهومات، «تورك قادینینا اوقوماق لازم دگل» کیبی پوچ نظریه‌لر، شریعت عادتلری بورادادا مانع اولور، اجتماعی یئرلرده کیشلرله بیر مجلسده اولماغا قویمیور. گشیلر درس ویره‌ن خالص قادین مکتبلرینه بیله کندلی قادین‌لار چوق چتین‌لیکلرله درسه گلیرلر.

عصرلر اوزونی شرق قادینینك وحشیانه اسیرلیگینی یادا سالان چارشاف هله ایمدی‌ده آذربایجان کندلرینده دوام ایتمکده‌در.

بو اساسی و مهم مسئله‌یه‌ده اجتماعی رأیی جلب ایتمك، بو خصوصدا گنیش صورتده تبلیغات آپاروب امگچیلر آراسیندا چالیشماق لازمدر؛ سوادك، بر آناویا که اجتماعی بر ایشچی اولان تورك قادینی ایچون اك واجب و مهم بر مسئله اولدیغنی اونلارا دوشوندیرمك لازمدر.

تورك قادینی اوز جهالتی و قارانلقدا قالدیغی ایچون هله ایمدییه کیبی اوقتیابر انقلابنك اونا ویرمش اولدیغی حقوقدان تمامیله استفاده ایده بیلمه‌مشدر.

آذربایجاندا قادین‌لاری شورالارا جلب ایتمك ایشی بویومگله برابر کند شورالاریندا کندلی قادین‌لاری عملی ایشلره چیکمك هله‌ده ضعیفدر؛ بعضی ییرلرده شورا عضوی اولان کندلی قادین‌لاریك حقوقنه مانعه‌لر توره‌دیرلر. (اجلاسلارك وقتلرینی خبر ویرمیرلر، کندلی قادین‌لارك رأیلرینی نظره آلمیورلار). بو ایشده ایشجی و کندلی قادین‌لارك اجتماعی مکتبلری اولان-نماینده‌لر یغنجاقلاری نیك فعالیتلرینی گوجلندیرمك لازمدر؛ شورالارك سه‌قسیالاریندا او کندلی قادین‌لاری عملی ایشلره جلب ایتمك لازمدر.

کند شوراسی عضوی اولان- کندلی قادینی شورالارك سه‌قسیالاریندا کی آقتیو ایشلره، زاقسلاردا کی نوبتچیلیگه جلب ایتمك لازمدر؛ اونلارك آراسیندا رهبرلیك ایشینی قوه‌تلندیرمه‌لیدر.

کندلی قادینلاری قوئوپراتسیایا، کندلی أیل یاردیم قومیته‌لری و کندك باشقا اجتماعی تشکیلاتلارینا جلب ایتمك ایشیده چوق ضعیف گیدیر. بوچاغاجان بو مسئله‌یه چوق از اهمیت ویرمشلر.

قوئوپیراتسیا و أیل یاردیم قومیته‌لرینی کندلی قادینك احتیاجلارینا یاووق ایتمه‌لیدر؛ کندلی قادینك ایو زحمتلرینی آسانلاشدیران تشکیلاتلاردا کی ایشلره کندلی قادینلاریدا جلت ایتمك لازمدر.

بوندان اوتریده لازمدر که یوقاری‌دا آدلاری چیکیلمش موسسه‌لرده قونترول ایشلرینه‌ده کندلی قادین‌لاری جلب ایتسونلر.

موزدور و فقیر قادینلار آراسیندا کی فعالیته‌ده آرتیق دقت یتیرمك لازمدر. اونلاری نماینده‌لر یغنلاق‌لارینا، کندلی


AZƏRBAJCANDA KADINLAR
ARASINDA GALLJAN RƏHBƏR AKTİF İŞÇİLƏR.
Jol. Krilova.
Jol. Rahmejeva.
Jol. Syltanova
Jol. Əjemova
Jol. Gul-ara.
Jol. Mirzoeva
Jol Gadçinskaja.

قادین گوشه‌لرینه، سوادسیزلغی تسویه منطقه‌لرینه، فقرانیك عمومی یغنجاق‌لارینا، شورالار و کندیك بوتون اجتماعی ایشلرینه کلی صورتده جلب ایتمك لازمدر.

موزدور وفقیر کندلی قادین‌لارك یاشایشدا وضعیتلرینی یونگولاشدیرمك مقصدیله اونلارك چوق یغیلدیقلاری محللرده یای اوشاق یاسلیلاری واوشاق میدانچالاری تشکیل ایتمك لازمدر.

آذربایجاندا قادینی فرقه‌یه جلب ایتمك ایشیده چوق ضعیف حالدادر. (27 نجی ییلده اوقتیابرك برینده آذربایجان قوممونیست (ب) فرقه‌سینده 28،355 قوممونیست اولدیغی حالدا اونلارك 1،541ی قادین‌در.) ایشجی و کندلی موسسه‌لرده ایشجی قادینلار آراسیندا، قادین قلوبلارینداء کندلی قادین گوشه‌لرینده، کندلی قادینلار آراسیندا سیاسی معارف ایشلرینی گه‌نیش صورتده گوجلندیرمك لازمدر.



بیزیم کندلی قادینلار آراسیندا آپاردیغمز فعالیتده موزدور و فقیر قادینلار بیزیم قاباقدا گیدن صفلریمزی، ضربه‌وی (اودارنی) منطقه‌مزی تشکیل ایتمه‌لیدرلر.

ایشجی کندلی قادینلار آراسیندا آپاریلاجاق ایشلرك یوقاریدا سایدیغمز شکل‌لرندن باشقا قاباقمزدا دورمش الك اهمیتلی مسئله‌لردن بریسیده قادینلارك حربی له‌شدیرمه ایشیدر.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0392

بو حالدا ایمپه‌ریالیست دولتلر شورالار اتفاقی امکچیلرینی محاربه ایله هده‌لیوب، سوسیالیست شورا جمهوریتلرینك اتفاقنی داغیدوب، ملکدار و بورژوآزیا حکومتلرینی دیکه‌لدوب سوسیالیست شورالار جمهوریتلری اتفاقنی اوزلرینك مستملکه‌سی ایتمك خولیاسنا دوشدیکلری ایچون فرقه قومیته‌سی و شورا حکومتی قاباقکی کیبی 'وزلرینك صلح سیاستلرینه رعایت ایتمگله برابر ئولکه‌نی مدافعه ایتمك ایشینده بویوك حاضرلق ایشلری آپاریرلار.

زهرلی غازلا دان محافظه ایتمك و ویتوفقا دوتماق ایشلرینی اوگره‌نمه‌لیدرلر.

محاربه زمانتده رابطه و کشفیاتچی‌لق ایشلرینده‌ده قادیندان چوق گوزل صورتده استفاده ایتمك اولار. گرك چالشماق که ایشچی و کندلی قادینلار اوز اهر، قارداش و اوغوللارینی محاربه‌یه گوندرمك مجبوریتی قارشوسیندا اولسالار اوز روح یوکسکلیگلرینی، مردانه‌لیگلرینی ایترمه‌سونلر؛ محاربه اثاسنده جبهه آرقاسیندا کی



قازاخ قضاسنده تشکیل ایدیلمیش ایلك یاردیم درنگنده مشغولیت

ئولکه‌نك بوتون زحمت انتداری اولان اهالیسی معدافعه ایشلرینه جلب اولنورلار، ایشچی باتالیونلاری تشکیل اولنورلار، باکودا آوپاخیم، «هلال احمر» واسطه‌لریله ایشچی قادینلاردان سانیتار، نشانچی‌لار دسته‌سی، رابطه درنگلری تشکیل ایدیرلر.

بو ایشلری کند دائره‌سنده‌ده کوجلندیرمك لازمدر. ئولکه‌نی مدافعه مفکوره‌سینی بورادا یایماق لازمدر. ایشچی و کندلی قادینلار یارا باغلاماق، اوزلرینی و عائله‌لرینی بوتون چتین‌لیگلر، و ئولکه‌نی مدافعه ایشنك بوتون آغیرلیقلاری باشلیجا صورتده قادینك اوموزلارینداا اولاجاقدر.

یوقاریدا سایدیغمز ایشچی کندلی قادینلار آراسیندا آپاریلاجاق ایشلر چوق مرکب‌درلر. بو ایشلری آنجاق ماقسیموم دقتله، فرقه، همکارلار اتفاقلاری، قوئوپیراتسیا و باشقا شورا اجتماعی تشکیلاتلارك جدی رهبرلیگلری و ایشچی و کندلی قادینلارك اوزلرینگده تشبثلری ایله اجرا ایتمك اولار.

ق. ایشقووا.

پرولەتار انقلابنك اون ییلنده، همکارلار اتفاقلاری قوممونیزمك بویوك مکتبی اولمشدر.

اوقتیابر انقلابنه

10 ییللیگی دونومینه

تام اون ییل اول ایدی ایشچی قادین ؛
اسگی فابریقادا مضطرب چالیشیر؛
گیت ـ گیده زحمته همان آلیشیر؛
دوشونوردی تلاش ایده ـ اونیچین:
ـ ـ
پك چتین دور ایدی اینان اوزمان؟
أمك اهلی اولوردی اـتثمار.
ایشچیيه ظلم ایدیردی چار، اغیار..
أمك اهلینده واردی چوق هیجان.
ـ ـ
انقلاب اولدی هپ ده گیشدی جهان
گولدی آرتق فرحله ایشچی قادین؛
هرجهتدن اولور داها تأمین؛
ایمدی هرایشده وار اونا امکان؛
ـ ـ
بوگون ایشچی قادین ایدیر بابرام؛
اوکیچن دور، ظلم یوق آرتق؛
قادین اولماقدا هرایشه فائق؛
یوره گنده وار ایدی بویوك مرام؛
ـ ـ
ئولکهیه ویرسین اوز الله شفق؛
صنفنه ایسته‌یور ایده امداد؛
چونکه وار اوندا قوت استعداد؛
ایشبو قوتله حر اولور آنجاق؛

آغاحسین رسول زاده

آننه.

(قادینلیغا)

ای گوزلرینك یاشی سیلینمش بویوك آننه،
یادیگدامی چالدیغك دونکی غملی لای لای؟
قوشاردی اوزه‌ریگه غم بولوك ـ بولوك آننه
باش توکوب سویله‌یه‌ردك چوروین جانم وای‌وای

قارا گونارك واردی ساچ یولاردك یاسلاردا.
ایمدی چیقیش یاپیرسك قورقمادان اجلاسلاردا.

دردیمه چاره بودر.. بوندان باشقا یوق دییه..
چوق سورتدك یوز گوزیگی «مقدس» توپراقلار.
یالگز بوسورو کلنمك ایتدی سنه هدیه:
گوندن گونه سولماغی، اوقشایوب یاپراقلارا.

باشگك اوزه‌رینده قاناد چالیردی ئولوم.
فرقی یوقدی. قارایدی گیجه گك، گوندوزیگك
نمازدا گیتمش‌ایدی قاپاقلاری دیزیگك.
بونلاردان قورتولماقچین دییوردك «قویك ئولوم!..»

هر آجیقلی باقیشدان یوره گیك گوز ـ گوزایدی؛
سنی جاندان بیقدیران آجی ـ آجی سوز ایدی:

افقگده رقص ایدردی بیلدیریملار، شیمشکلر؛
بر یاندا ظن ایده‌ردیك عزرائیل نوبه بکلر...

اینانديغك آلله‌دی، پیغمبردی و پیردی..
وارلغك بردنبره ده گیز گبی کوپوردی؟
کوپوردی ده گیز گبی باسدی بوتون ساحلی؛
بوغدی دالغالاریله آلله‌هی، عزرائیلی.

بیر گون آچیلدی دمیر کوگسلرده لاله‌لر.
داملادی اوزه‌رینه گوز یاشندان ژاله‌لر.
او گوندن قادین، ارکك دوغری بر یولا گیردی.
او، دنیانی سارسیدان قیزیل اوقتیابردی.

سارسیتماز وارلغگی وولقان، طوفان؛ قاصیرغا،
آننا بو سوزلر اولسون قولاغلاریگدا سیرغا!

س.ر. ستم.

زاقافقاسیا سوسیالیست شورا جمهوریتلرینده ایشجی و کندلی قادینلار آراسندا آپاریلان فعالیتلرده نائیلیتلرمز.

زاقافقاسیا سوسیالیست شورا جمهوریتلرینگ ایشجی و کندلی قادینلاری عموم اتفاق‌سوسیالیست شوراجمهوریتلرینگ میلیونلارجه امگچی اوردوسیله برابر بوتون دنیاده یگانه اولان شورالار جمهوریتلرینگ نائیلیتارینه یگون وورماق شعاری آلتندا اوقتیابرگ اون یللیگنی قارشولایرلار. فعله صنفی و کندستان اهالیسی‌نی ظلم و استثمار آلتندابوغان چاریزم و قاپیتالگ حکمرانلیغی دورینده امگچی قادین ایکی - اوچ دفعه آرتیق سیقیلوب، اه‌زیلمگده ایدی؛ چونکه قاپیتالیزم ظلمی آلتندا ایکله‌ین قادین قانون موجبنجه کشی ایله هم حقوق اولمادیغی ایچون اگ آغیر اسارت شکلنی تشکیل ایدن - ایو اسارتی آلتندادا ایکله‌بیردی.

ایره‌لیکی زمانه‌ده قادینی آیریجا بیر سربست انسان سایمیوب یالیگز بیرکشی‌نگ آناسی، باجیسی و آروا- دی کبی تانیوردیلار. اوقتیابر انقلابی، یولداش لەنین دیمشکن، «قادین اسارتی و حقوقجه غیر مساویلیگنگ کوکنی، دامارلارینی‌اویله‌ده‌رین کسمشکه دنیاده بووقته‌جن هیچ بر فرقه ویا انقلاب بو ایشی باجارا بامه‌مشار».

قادینی اسارتدن قورتارماق ایشینگ برنجی قدمی، غیر مساویلیك بنوره‌سینگ اوزه‌رینه اه‌ندیریلمش اگ برینجی ضربه پرولەتار انقلابی‌نگ ایلك گونلرینده قانون اوزره قادینگ‌دا کشی ایله هم حقوق اولماسی بارەسنده شورا حکومتی طرفندن نشر ایدیلمش ده‌قرت اولمشدر.

بو ده‌قره‌تدن سوگرا آراسی کسیلمکسزین شورا حکومتی‌طرفندن اتخاذ اولونمش تدبرلر سایه‌سنده قادینگ اقتصادی جهتدن غیر مساوی‌لیگلری: امگچی قادین کتله- سینگ دوشونجه‌سینی آیدینلاشدیروب مدنی سویسه‌سینی یوکسه‌لتمك؛ اجتماعی قورولوش‌مسئله‌لرینده فرقه قومیته‌سی و شورا حکومتی قارشوسیندا دورمش ایشلری آگلا- تماق، عائله و معیشتده قادینگ چتین وضعیتی یونگو- للەشدیروب، اجتماعی فعالیتده اونی محکملندیرمك جهه- لرینده جدی ایش‌لر گوریلمگه باشلادی.

اوقتیابر انقلابی‌نگ اون یللیگی عرفه‌سنده زاقافقاسیا سوسیالیست‌شوراجمهوریتلرینگ ایشجی و کندلی‌قادینلاری، خارج اولکه‌لرده، بو گونه کبی قاپیتالگ بیداد‌لق ایتدیگی اولکه‌لرده یاشایان زحمت جیهه‌سنده کی‌قارداش وباجیلارینا دانشاجاقلاری، نقل ایده‌جگاری سوزلری آرده گلدر.

1923 نجی یلده بوتون زاقافقاسیا سوسیالیست شورا جمهوریتلری اتفاقی دائره‌سنده 4،802 نفرقادین نماینده‌لر یغنجاقلارینداولدیقی حالدا، اوقتیابر انقلابی‌نگ 10 یللیگی عرفه‌سنده همین نماینده‌لر یغنجاقلاریمز 23.351 ایشجی و کندلی قادینی احاطه ایتمشدر.

بو یل بزیم کند و شهر شورالاریمزا، اجرائیه و مرکزی اجرائیه قومیته‌لریمزه وکندلیلر طرفندن 9،961 قادین‌سه‌چیلمشدر. حالبوکه 1924 نجی یلده بوسه‌چیلمشلرگ مقداری 4،738 ایدی. دیمه‌لی بو حالدا ئولکه‌نی اداره ایتمك ایشینه اون مین نفره کبیی ایشجی و کندلی قادین جلب ایدیلمشار.

بونلاردان باشقا بویل 24 نفر کندلی تورك قادین کند شورالاری صدرلیگینه انتخاب ایدیلمشار؛ حالبوکه بوتورك قادینلاری شورالار حکومتندن ایردلیکی زماندا اوز ایولرینده آزاد صورتده بایرا چیقا بیلمه‌زدیلر؛ اولکه‌یی اداره‌ایتمك ایشی ایسه اونلارك خالینه بیله گله‌بیلمز ایدی.

بر چوق یئرلرده، شورا عضوی اولان قادین‌لارك تشبثلریله یول‌لارچیکیلر، مکتبلر تیکیلر، کتبخانه‌لر تشکیل ایدیلر، آنالیق و چوجوقلیغی محافظه ایدن موسسه‌لرگ مقداری آرتیر...

اون مینلرجه قادینلار میدانه چیقوب اجتماعی ایشارده چالشمه‌یقلاری حالدازاقافقاسیا سوسیالیست شورا جمهوریتلری اتفاقنده ینه‌ده اویله گوشه‌لر تاپیلرکه اورادا کوهنه حیاتگ تورتوکونتی‌لری دوام ایدوب، قادین‌لارك اورتولی حیات کیچرمه‌لری سایه‌سنده بیزیم قادین‌لار آراسیندا آپاردیغمز فعالیته اه‌نگه‌ل توره‌دیلر. بوکیبی یئرلرده بیز قادینلار آراسیندا چالشدیقمز زمان اونلاری هله‌لیك کشیراله‌برابر عمومی یغنجاقلارا دعوت ایتمیوریك. بوکیبی یئرلرده بیز تورك قادینلارینامخصوص قلوبلار تشکیل ایدیریك. ز.س.ش. ج.ا. بوکیبی قلوبلارگ مقداری 31در. بوقلوبلاردا 5000 نفره کیبی تورك قادینی چالشماقدادر.

بو قلوبلار کشیلر طرفندن ده تام معنی‌سیله اعتماد قازانمشلار. اوللرده بوقلوباتورك قادینی اوز امری‌طرفندن اولدیریلمك قورقوسی آلتیندا گه‌لیردیسه، اما ایمدی همین قلوبا تورك قادینلاری اوزه‌ری ایله‌بیرلیگده گلیر. قلوبلاردا

2 نجی آذربایجان ایشچی کندلی قادینلار قورولتایندان



تورك قادینی زحمه ته آلیشیراوزینك و اوشاغینگ صحته دائرمصلحتلر آلیر؛ اجتماعی حیاته جلب ایدیلیر... بونیگله برابر تورك قادینی بورادا استراحت ایدیر. باکودا کی «علی بایراموف» نامنه تورك قادین قلوبی بوتون سوسیالیست شورالار اتفاقی مقیاسنده نمونه وی بر قلوبدر. بو قلوبدا کی تیکیش آرتهلنده 100 نفر قادین چالیشیر؛ بو ایشچی قادینلارك چوجوقلاری قلوب یاننداکی یاسلی‌دا تربیه‌له‌نیرلر؛ قلوبك مام چالیق تخنیقومنده‌تورك قادینی کندلرده چالشماق ایچون اکمال تحصیل ایدیرلر؛ (بوراسینیدا بیز بیلیریك که کندلرده آزارلی قادینلار آنجاق قادین‌لارا رجوع ایدیرلر)؛ ماکینه‌چی قورصلاری خور، بالعت، درام‌دسته‌سی بو قلوبدا دوزه‌لتمشلر. (اونو تمامالی که شورالار حکومتندن قاباق تورك صحنه‌سنده برنفرده اولسون قادین تاپلمازایدی؛ قادین رول‌لارینی یالیگز قادین لباسی گه‌ینمش کشیلر ایفا ایده‌ردیلار.) تورك صحنه‌سندن اوتری تورك آقتریسا‌سینی یالیگز «علی بایراموف» قادین قلوبی حاضرلامشدر. بو کیبی فعالیتی، آنجاق کوچك بر مقیاسدا، قضا و رائیون قلوبلاریدا آپاریرلار. آجارستاندا کی آجارقادین قلوبی، ایروانداکی تورك قادین قلوبیدا همین‌فعالیتی آپارمقدادرلار. بو یللرده همکارلار اتفاقلاری اطرافینه توپلانمش قادینلارگدا مقداری آرتماقدادر. بوحالدا ز.س.ش.ج.ا. همکارلار اتفاقلارینداکی عضولرك مقداری 66.306در. (23 نجی یللده 15،7 فائض اولدیغی حالدا، ایمدی 16،2 فائض‌در). برچوق یئرلی قومیته و مختلف قومیسه‌لرده چالشماغا کلی مقداردا ایشچی قادینلار جلب ایدیلمشدر. توئوپه‌راتیف اطرافنه توپلانمش قادینلاریگدا سایی آرتیر. استهلاك قوئوپیراتیفنده‌کی قادینلار 8،1 فائض‌درلر؛ حالبوکه کیچن یللده 5،8فائض ایدیلر؛ زاوود قومیسه‌لرینده‌کی قادینلار 40،5 فائض‌در، (کیچن یللده 20،5 فائض ایدیلر) هیئت اداره‌لرده‌کی قادینلار 10فائض‌درلر. سوادسزلغی لغو جبهه‌سنده‌کی‌قادینلارگدا مقداری آرتماقدادر. او جمله‌دن آذربایجاندا بو یيل سوادسزلیقلارینی لغوایتمش قادینلارگ سایی 1،589 در؛ ارمنستاندا ـ 1،188 در ؛ آذربایجاندا اجتماعی تربیه مکتبلرینده 51،819 قیز اوقویور؛ (هربر 100 نفرمتعلم‌اردن 29 نفری قیزدر؛ بونلارك 10 ی تورك قیزیدر؛ حالبوکه شورالار قورولوشیندان ایره‌لی تورك‌قیزینك مکتبه گیتمه‌سی ادر گورینه‌ن بر ایش ایدی). گورجستان مکتبلرینده 117.1920 قیز اوقویور؛ هر 100 مکتبلی‌یه 36 قیز؛ فعله‌فاقولته‌لرینده ایسه هر 100متعلمه آذربایجاندا 10 قیز، گورجستاندا ایسه 12 قیز دوشور. همکارلار تخنیقی مکتبلرده هر 100مکتبلی‌یه آذربایجاندا 35 قیز؛ گورجستاندا ایسه 42 قیز دوشور.

عموم اتفاق ا. ك. قادینلار قورولتاینا سه‌چیلمش نماینده‌لر.

مرکزی اجرائیه قومیته‌لری یانلاریندا قادینلارك معیشتلرینی یاقشیلاشدیران قومسیه‌لر بو حالدا قادین زحمتنی استحصالاته بیرله‌شدیرمك ومعیشت شرائطی سبیلریله بوچاغه‌جان زحمت سنتژلاری و عادتلری اولمیان امگچی قادین قاته‌غوریالارینك منافعنی مدافعه ایتمگله مشغولدرلار. عمومیتله، یاشلی قادین اهالیسینك اجتماعی ایشاره اولان میلی ییل ییلدن آرتماقدادر. اجتماعی ایشده قادین آنجاق او وقت محکم وضعیت تاپاجاق که او قادین ایو و عائله قایقوسیندان خلاص ایدیلمش اولسون. بونیکچوندا قادینك یاشایش شرائطنی وارقوه‌مزله یاقشیلاتماق بیزیم قارشومزدا دوران مقصدلردن بریدر؛ اوشاق یاسلیلاری، اوشاق میدانچالاری، قلوبلار یانیندا اوشاق اوتاقلاری... بونلارك هاموسی ایشجی قادینینك معیشتنی یاقشیلاشدیران موسسه‌لردر که هر حالدا کافی مقدارداد گلدر. هابیله بیزیم اوشاق قونولتاتسیالاریمز، یاسلی، سود ئه‌مه‌ر چوجوق ایولریمزده کافی مقداردا ده گل. فرقه‌ده قادینك مقداری ضعیفده اولسا، لاکن آراسی کسیلمگسزین آرتماقدادر. بو حالدا ز.س. ش. ج. اتفاقنده فرقه‌ده کی ایشجی و کندلی قادینلارك مقداری 3،879 در؛ دیمه‌لی هر 100 نفر عضو حسابنه 6 سی قادین در؛ لاکن 1924 نجی ییلده ایسه فرقه‌ده 1197 قادین اولدیغی



حالدا هریوز نفر عضوه 4 ی قادین ایدی. 1917 نجی ییله کیبی فرقه‌ده قادینك مقداری بونداندا آز ایدی. نیجه که گوریریك نائلیتلریمز بویوگدر؛ البته هله بودا کافی ده گلدر؛ فرقه و شورا حکومتی بو کیچمش 10 ییل نائلیتنه یگون ووردیقدا بو گله‌جگده بو فعالیتی داهادا درین له‌شدیروب انکشاف ایتدیرمه‌لیدرلر. قادین زحمتنك اختصاصلاشماسی، استحصالاتدا قادین زحمتنك چوخلاشماسی، اونك قوئوپیرا تیفله‌شمه‌سی، آنالیق و چوجوقلق مدافعه‌سی ایشلرینك انکشافی، ایشجی و کندلی قادینلاری ابره‌لی چیکوب تصرفات، قوئوپیراتیف، همکارلار، شوراوانضباط ایشاره تعیین ایدیلمه‌سی وبوایره‌لی چیکیلمشلرك فعالیتنه رهبرلك مسئله‌سی، قادین آقتیولرینك یاقشیلارینك فرقه‌یه کیچریلمك ایشلری - بوتون بونلار بیزیم ایشجی و کندلی قادینلار آراسیندا آپاراجاقمز ایشلرده فرقه و شورا حکومتنك اك واجب و بیرنجی نوبه‌ده دوران مسئله‌لریمز حساب اولونورلار. عمومیتله ده‌ییلرسه بو کیچردیگمز اون ییلك عرض مدتنده شورا حکومتنك بوتون سیاستی مملکتده کشی ایله هم حقوق اولان ایشجی و کندلی قادینی چه‌ویروب کشی ایله‌هم قیمت ایتمك یولوندا چالشماقدان عبارتدر؛ یعنی وارقوه ایله چالیشمالی که ایشجی و کندلی قادین اونا

اوقتیابر انقلابنده آقتیو اشتراك ایدن قادین مبارزلردن:

باشدا، اورتادا ـ قلارا تسه‌تگین؛ صولدا ـ آرتیوخینا؛ ساغدا ـ ماریا ایلئینیچنا؛ اورتادا ـ تسه‌تلین؛ صولدا ـ قروپسقایا؛ آشاغادا، صولدان ـ قوللونتای، قوله‌سنیقووا و اینه‌سسا آرماند یولداشلار.



ایشچی و کندلی قادینلاری اوجا سسلریله ده‌ییرلر: «سوسیالیست قورولوشمیزی ده‌رین له‌شدیره‌لم!.. عموم دنیاده بوتون مظلوم ملارك حقلرینی یگانه مدافعه ایده‌ن قوممونیست فرقه‌سی اطرافنه طوپلاشالم!.. فعاله و کندلی ایله قدم به‌قدم؛ چیگن چیگینه دورارق اوقتیابرك قانلار ایچینده دوغمش اولدیغی اولادینی پرولەتار انقلابی ئولکه‌سی اولان سوسیالیست شورالار جمهوریتلری اتفاقنی مدافعه‌یه قالقیشالم!.. »

س. شاهی یردووا

اوقتیابر انقلابی طرفندن ویریلمش اولان حقوق دان تمامیله استفاده ایتسین. اوقتیابر انقلابنك اون یللیگنه قدم قویدیقدا، ایمپه‌ریالیست و حشیلرنك بیزیم صلحجویانه سوسیالیست قورو ـ لوشیمزی قیرماق خیاسینه دوشدیگاری برزماندا ز.س.ش.ج.ا.

«شرق قادینی» مجموعه‌سنك دورت ییللیگی مناسبتیله

آذربایجان قادینی‌نك یاشایش وعادتلرینی یاقیندان‌عکس ایدن وتورك قادینلارینك آزادلغی یولندا میارزه آپاران «شرق قادینی» مجموعه‌سنك برنجی دفعه چیقماغاباشلادیغی گوندن دورد ایل کیچمشدر. تورك قادینی‌نك یایشینی گوسته‌رمکله بو مجموعه همان قادینلاری یاواش - یاواش یکی حیاته دوغرو آپاروب اونلارا یکی یاشایش یوللارینی گوسته‌ریر، طبیعی‌در که بویله اولدیقدا بومجموعه یکی یاشایشا کیچمك مقصدی ایله آپاریلان ایشلره رهبرلك ایدیلمه‌سنی دخی ئوز بوینونا گوتوروب، تورك قادینی‌نك بوتون یکی ایشلره باشلاماسندا وبوتون چتینلك‌لرینده‌اونلارا کومك ایتمه‌لیدر.

بونك ایچون «شرق قادینی» مجموعه‌سی بو دوردایل عرضینده ، اجتماعی ایشارده اشتراك ایتمك وسوسیالیزم قورولوشندا چالشماق ایچون یکیجه‌اویانان تورك قادینی‌نك یاشایشیندا توره‌ین بوتون یکیلیك‌لری دقتله نظردن کیچیر مشدر. بونکله برابر بوتون اوقوجیلارك اجتماعی‌تشکیلات وموسسه‌لرك‌دقتینی تورك قادینی‌نك آزادلگی یولوندا کی چتینلك‌لره جلب ایدوب ، یری گلدیکجه بو یولدا اونا لازیمی رهبرلك‌دخی گوسته‌رمشدر. بومجموعه یالکز تورك قادینی‌نك دار عائله چرچیوه‌سی اطرافندا دایانمایوب، بلکه جان ساغلیغی، اوشاق ساقلاماق ئه‌و ایشلری وباشقا بوکبی خصوصی شعبه‌لری تورك قادینلارك بوتون آرزو واحتیاج لارینی تأمین ایتمگه‌چالیشمشدر. بومجموعه تورك قادینلا- رینك اجتماعی یاشایشلارینداندا یازمشدر. بویله که‌اونلارك شورالاردا، قادین‌قلوبلارینداً، نماینده بیغنجاقلارینداچالیشما- لارینداں واجتماعی‌قورولوش ایشلرینده اشتراك ایتمك‌ایچون بو واسطه‌لر ایله حاضرلاشدیقلارینداندا اطرافلی صورتده یازمشدر. سوك زمانلار «شرق قادینی» مجموعه‌سی آیالق وچوجوق محافظه‌سی ، مکتبدن قاباقکی تربیه ایشلری مسئله‌لرینده آرتق دقت ایدیلوب جمعیتك فکرینی بو مسئله‌لره جلب ایتمش و تورك قادینی ئه‌وده قول اولماق وضعیتندن چیقارماق ایچون حقیقی واسطه اولان اوشاق باغچالاری، یاسلی(کورپه بالالار ئه‌ولری) قونسولیاتسیا و باشقا بو کبی‌موسسه‌لرك تیکدیریلمه‌سی ایچون اجتماعی‌تشبثك اویانماسنا چالیشمشدر.

بونکله برابرمجموعه‌مز ئوزاوقوجیلارینی‌غرب وشرق قادینلارینك أمك یاشایشیله دخی‌ممکن قدر تانیش‌ایتمشدر.

عمومیتله‌دیمك اولار که مجموعه‌مزك کیچیرمش‌اولدیغی بو دورد ایللك عمری بوتون بو مدت عرضینده تورك قادینلارینك بوتون ترقیسی ایله علاقه‌داردر. شرق‌قادینیتك صحیفه‌لرینده تورك قادینلارینك اجتماعی برایشچی کبی حاضرلانماسی، سوسیالیزم‌قورولوشندا اشتراك ایتمك ایچون چالیشماسی وسیاسی‌ومدنی بیلیکینك یوکسه‌لمه‌سنی بر-بر گوزدن کیچیرمك اولار.

بیزیم مجموعه‌مزی وره‌قله‌سکز تورك قادینی‌نك نیجه ترقی ایتمه‌سی بر - بر قارشوکزدان کیچوب گیده‌جکدر.

بورادا سیز اونلارك قولوب اطرافندا چالیشمالاری ، نماینده بیغنجاقلارینداً توپلانمالاری واجتماعی تشکیلات- لاردا، شورالاردا وهمچنین سواد منطقه‌لرینده و مختلف قورس وته‌خیقوملاردا اشتراك ایتمه‌سنی گوره‌جکسکز.

مجموعه‌نك ادبیات حصه‌سی دخی سون‌زمانلارقوه‌تانوب تورك قادینینك کوهنه عادت تورتو کونتولرینه قارشی‌شدتلی مبارزه آپاردیغنی گوسته‌ریر. بویله‌لکله اورتایا چیقان یکی یاشایش طرفداری قادینلار کوهنه تیپ حقوقسیز و جاهل قادینلاری آذربایجانك شورا یاشایشیندان کناره‌صیقیشدیریرء تورك قادینی‌ترقی ایدوب آرتدیقجا تورك قادینلاری آراسیندا آپاریلان ایشلرده کی وظیفه‌لرمز دخی چوقالیر . بویله اولدیقدا ایسه آشکاردر که مطبوعات ایچه‌ریسینده کی وظیفه‌لریمزده چوقالوب گه‌نیشله‌نیر . ایندی دخی اویله بر وقت گلمشدر که قارشومزا بویله برسئوال چیقیر:

عجبا ایندیکی‌زماندا برعدد مجموعه تورك قادینلاری- نك گه‌نیش کتله‌سینی تأمین ایده بیلرمی؟

تورك قادینلارینك آذربایجاندا کی فعالیتلرینی نظره آلدیقدا بوسئواله «یوق‌جوابی!..» ویرمه‌لیك. بونا گوره بوساحه‌ده آپاریلان ایشلریمزك داهادا گه‌نیشله‌ندیریلمه‌سی ایچون لازیمی امکانلار ویریلمه‌لیدر.

آذربایجان کندلی قادینلاری ئوز سوادسیزلقلارینی لغو ایتمگه چالیشیرلار. اونلارك کند تصرفاتندا کی فعالیتلری آرتیرء کند شوراسی و کندك اجتماعی‌تشکیلاتلارینداً کی اشتراکی دخی گه‌نیشلنیر بونلارك نتیجه‌سنده‌لازم گلیر که‌تورك قادینینا اونك اجتماعی،شوراو کند تصرفاتندا چالیشماسنا دائر خصوصی‌مطبوعات واسطه‌سیله‌لازیمی معلومات ویریلسین. کندلی قادینلار آراسندا آپاریلان بوتون ایشلریمزی‌قاوراماق ایچون بو مسئله‌مطبوعات‌صحیفه‌لرینده آیدینلاشدیریلمالی وبویله‌لکله‌ده

آذربایجان ایشچی و کندلی قادینلارینا!..

بوگونلرده بیز اوقتیابر انقلابنك 10 ییللیگنی بایرام ساقییاجاغز. بواوقتیابر انقلابی یاشایشدا، اقتصادی و سیاسی جهتلردن امگچی قادینك و دوتمیش اولدیغی غیر مساوی وضیعتك کوکینی کسمشدر؛ اونك بوینوندا کی اسارت زنجیرینی قیروب آتمشدر.

بیزیم سوسیالیست قورولوشیندا کی نائیلیتلریمزك عمومی یگونلاریندا فرقه و شورا حکومتی نیك، ایشچی و کندلی قادینلارك خصوصاً شورالی شرقده أمگچی قارینلارك خلاصی یولوندا آپاردیغی فعالیت ده گورکه ملی ییر دوتاجاقدر.

بوتون بونائیلیتلر فعله صنفی ایله زحمتکش کندستان اهالینك فرقه رهبرلیگی آلتند، اوقتیابر انقلابی فتوحاتنك سایه سنده اساسلانمش سوسیالیست تصرفاتنك. مدنیت و صنایع جبهه سنده کی موفقیتلرینی گوسترمکده در.

بزیم بوندان سوگرا کی فعالیتمز؛ ایشچی و کندلی قادینلارك معیشتلرینی یاقشیلاشدیران ومدنیتلرینی یوکسه لدن موسسه لرك آرتماسی، امگچی قادینلارك عموماً اقتصادی وضیتلرینك گوزه للاشمه سی تمامیله شورالار اتفاقینك تصرفات قوه سینك ترقی سیندن آسیلیدر. بو ایشدن اوترو، یعنی تصرفات قورولوشینك گه نیشله نمه سیندن اوتری یالیگز دولت طرفدن بیراقیلان مادی و سائط کفایت ایتمه یوب اهالینك اوزینك ده توپلامش اولدیغی ذخیره لرینده بو ایشه جلب ایتمگ لازمدر.

بومقصدله ده شورا حکومتی طرفدن صنایعله شمه استقراضی بیراقیلمشدر.

استقراض وره قه سینی آلمش اولان شورالار اتفاقی نك هر بر وطنداشی تازه فابریق و زاووللارك تیکیلمه سی ایچون پول ویرمش اولور.

اوقتیابرك فتوحاتنی جان - دلدن ایسته یه ن و سوسیالیست قورولوشیندا آقتیو صورتده چالیشوب اشتراك ایتمك قصدینده اولان هر بر ایشچی وکندلی قادین وار قوه سیله چالشمالیدرکه بو استقراضك ورقه لری ساتیلوب انتشار تاپسین.

ایشچی وکندلی قادینلار، صنایعله شمه استقراضنه یازیلگز!

فعله و قوللوقچیلارك آرواد لاری!.. اوز ادریشگزی استقراض ورقه سینی آلماغا هوسلندیریگز!..

اوقتیابرك اون یللیگینه صنایعله شمه استقراضی آلماش بر ایو تاپلمالیدر!..

آذربایجان قوممونیست (ب) فرقه سی مرکزی قومیته سنك ایشچی وکندلی قادینلار آراسیندا چالیشان شعبه

آذربایجان کندلی قادینلاری ایچون خصوصی مجموعه چیقاریلماسی مسئله سی حل ایدیلمه لیدر. بومسئله براوقدرده چتینلگه راست گلمز چونکه شرق قادینی ایکی الفباجوره ایله چیقاریلیر. (بری کوهنه الفبا وبری ده یگی الفبا ایله) بوایش مجموعه نك ایشلرینی برقدر آغیرلاشدیریر. چونکه بو ژورنال کندلی وایشچی قادینلاری تامین ایتدیگی کبی ضیالی وئه و قادینلارینی واجتماعی ایشلرده چالیشان آرواد- لاری دحی تامین ایدیر. البته بویله اولدیقدا آیری- آیری اوقوجوغروپلارینی تامین ایتمك چتینلشیر. حالبوکه کندلی قادینلار ایچون خصوصی ژورنال چیقاریلماسی مسئله سی مثبت صورتده حل اولونارسا « شرق قادینی» ژورنالنك وضعیتی یونگولشروبویله لکله ده اونك ایشلرینی درینلتمك ممکن اولار.

بو بر، ایکنجی ده اودرکه کندلی قادینی ایچون آیریجا ژورنال چیقاردیقدا اونك احتیاجلارینی داهادا یقیندان ئوگره نمك ممکن اولار. چونکه اوحالدا کندلی قادینی نوزی ئوز احتیاجلاری حقنده بزه یازاجاق و آرزولارینی بیلدیره جکدر.

بویله لکله کندقادینلاری ایچون خصوصی ژورنال بوراقماق مسئله سی مطبوعاتمزك نوبتی وظیفه لریندن بری در. بومسئله دوزگون صورتده حل ایدیلیرسه اوقتیابر انقلابنك اون ایللیك دونومنده آذربایجان قادینلاری آراسندا آپاریلان ایشلرده کی بویوك موفقیتلردن سایلاجاقدر.

نماینده قادین! استقراضك انتشاری، یولوندا تبلیغات آپار، اوزیگده او استقراضی آل!..

صنایعله‌شمه استقراضنه نه‌دن اوتری یازیلماق لازمدر!

« ئولکه‌مزده حدیندن آرتیق طبیعی ثروتلر واردر. ئولکه‌مزك پرولەتاریاسی قوه‌لی و فوق‌العاده اهمیتی اولان یو کسکلیگلری الده ایتمشدر. پرولەتارلارك بویوك انقلابی صنفنك دیقتاتوراسی محکمدر. اونك کندلی اهالیسی ایله اولان اتفاقی‌ده یو کسلمش، ومحکمله‌شمشدر. لاکن بیزم دشمن اولان قاپیتالیست ئولکه‌لری طرفندن بز آرالیغا آلینمشیق. بوتون‌دنیانك ایمپه‌ریالیستلری دیشلرینی‌ئولکه‌مزه قیجیدیرلار. بیزیم بویویوب‌انکشاف ایتمه‌مز اودشمنلریمزك جانینا بویوك قورقو سالیر..

سوسیالیست شورالار اتفاقی جمهوریت مرکزی اجرائیه قومیته‌سینك اتفاقمزك بوتون فعله، امگچی، کندلی وقیزیل عسگرلرینه، بوتون دنیانك پرولەتارلارینا و بوتون مظلوم خالقلرینه رجوعاً نشر ایتمش‌اولدیغی مانیفه‌ستندن گوتورولمش بو بیر بند آیدین ومعین صورتده آکلاتیر که اتفاقمزده خلق تصرفاتنك استحصال قوه‌لرینك آرتماسی نه‌دن‌اوتری قاپیتالیست دنیاسینی خوفلاندیروب و آجیقلانمالارینا باعث اولور: اوسببدنه قاپیتالیستلرچالشیرلار که قورولوشمزك قاباغینا ئه‌نگل تورەتسونلر؛ و حتی باجاریقلاری تقدیرده اونك قاباغینی کسوب مانع اولسونلار.

بیرنیچه ییل عرضنده صلح‌شرایطی داخلنده دوام‌ایتمش قورولوشمزك نتیجه‌سنده بیزیم‌اکین‌لریمزك‌سطحی105میلیون ده‌سیاتین یئری دوتمشدر. صنایعمزدن حاصل اولان ماللارك ده گه‌ری‌محاربه‌دن‌قاباقکی‌قیمتلر ایله 8 میلیارددان یوقاریدر. شهر ایله کنددن حاصل‌اولان ماللارك ده گه‌ری ینه‌ده‌محاربه دن قاباقکی قیمت ایله 19میلیارد مقدارینه‌دار.

ایمدی باقوب گوره‌ك که بیزیم بویومه گمیز ودولتلنمه گمیز نه‌سببه‌قاپیتالیست‌ئولکه‌لرینی آجیقلاندیریر. وهیجانه‌سالیر!..

تازه فابریق و زاوودلارك سالینماسی فعله‌لرك مقدارینی آرتریر؛ ایشسیزلیگی آزالدیر، خصوصا کندلرده آرتیق قالمش ایش‌قوه‌لرینی‌ده ایشه جلب ایدیر؛ تجارت بازارینه‌دا ماللار آرتیر؛ کندستان‌اهالیسی اوزینه لازم قدر صنایع ماللارینی آلا بیلر؛ و بوناگوره‌ده گیت - گیده کندلیلر اکین یرلرینی چوغالدیرلار....

بو ایشلرك هاموسی ماناتك آلیجی قوه‌سینی یوکسلدیر؛ زحمت موزدینی آرتیریر...

تازه زاوود وفابریقالارك تیکیلمه‌سی ئولکه‌مزك مدافعه قوه‌سینی محکمله‌شدیریر.

بو ایشلره گوره‌ده ایمپه‌ریالیست ئولکه‌لربیزیم ئولکه‌مزی صنایعله‌شدیرمك مقصدیله اونلاردان ایسته‌دیگمز استقراضی ویرمه‌مگه‌برابرحتی بوبارده بیر سوز بیله‌ایشیتمك ایسته‌میورلر.

شورا حکومتی بوحالدا تازه فابریق‌وزاوودلارتیکمك ایچون صنایعله‌شدیرمه استقراضی بیراقمشدر.

آغ قواردیاچیلار و اجنبی ایمپه‌ریالیست مطبوعاتی‌بیزیم استقراضمز باره‌سینده بویوك‌دانیشیق‌لار آچوب به‌رك هوروشمه‌ده‌درلر. اونلار یازیرلار که بو استقراضمزدن بیر شی حاصل اولمیاجاقدر.

بو هوروشمه‌لرك جوابنده ایسه بیزیم فعله صنفمز و کندستان اهالیسی ایکیجه هفته ایچه‌ریسینده، استقراضك‌یاریسینی یوز میلیون مناتدان آرتیق آلوبلار.

استقراض ساتیشنك وقتی بیر آیدان سوکرا بیته‌جگدر؛ شبهه یوقدر که استقراضمز تمامیله فعله، کندلی وزحمتکشلار طرفندن آلنوب قورتاراجاقدر.

بونیدا نظرده دوتماق لازمدر که بو صنایعله‌شدیرمه استقراضنی آلانلاردان حکومت هیچ بیر فداکارلق طلب ایتمه‌یور. چونکه بو تازه استقراضك شرائطی اونی آلوب ساقلیانلار ایچون چوق آرتیق الویشلی‌در. بو استقراض‌اون ییل مدتنه بیراقیلیر وبومدتده استقراض ورقه‌لرینی ساخلیان لارك آراسیندا 734،000 اودوش(ویغریش) اونیاناجادر؛ بو اودوشلارك هاموسینك قیمتی 96،042،000 مناتدر. بیر ییل‌ده دورت دفعه ویغریش اولاجاقدر. استقراض ورقه‌سینی آلمش هر آدمك‌امیدی وار که 100 مانادان25،000 مانات‌ا کبی اودا بیلسون.

ویغریشی اودانلار تمام - کمال اوز پوللارینی آلاجاقلار. ورقه‌لرك بیری 25 مناتدادر ایسته‌یانلار لاپ‌آزی بیر ورقه‌نك بشدن بیرحصه‌سینی‌ویاکه‌نه قدر ایسته‌ه‌لر آلا بیله‌لر. آذربایجان‌امگچیلاری گه‌نیش‌صورتده حکومتك‌دعوتنه سه‌س ویروب اوز ذخیره‌لرینی فائده‌لی صورتده ساقلاماق مقصدیله‌استقراض آلوب‌واحد بیر انسان کبی اوز حکومتلرینه یاردیمدا بولنوب سوسیالیست‌تصرفاتی قورولوشیناقوشاجاقلار.

اوقیابر انقلابنك 10 ییللیگنه هر بیر امگچی صنایع‌له‌شدیرمه استقراض ورقه‌سینی آلمالیدر!

و . ق.

اوقتیابر انقلابی یولوندا آذربایجان

قادینلار آراسیندا ایشله‌دیگم خاطراتم.

قادینلار آراسیندا کی فعالیت ایله منیم برنجی تانیشلیقم 1921 نجی ییلده اولوبدر.

اوزمان شامخوردا قضا قادینلار قونفرانسی گیدیردی. دار و یاریم قارانلیق اوتاقدا خالچالار اوستنده، باردیاش قوروب اوتورمش - ایگرمی نفره قدر تورك قادینلاری یغیلوبلار... آرالیقدا خیرداجا بر ماصا دخی قویولمشدی. آروادلارك چوغی اهلی اوشاقلی‌درلر. اجلاس آچیلمشدی. نماینده قادین گوندرمك باره‌ده دانیشق گیدیردی. بو نماینده‌نك هارایا گیده‌جگی یاقشی یادیمدا قالمایوبدر. اولا ایش چوقدانکیدر، و ثانیا من اوزیمده او وقتلر قادینلار آراسیندا چالشمیوردیم. سهو ایتمیوره‌مسه نماینده قادین، گره‌ك که باکویا گوندریله‌جك ایدی.

قادین‌لار شعبه‌سی مدیره‌سی بوتا بویلی، دولی انداملی بر قادین ایدی که شامخور قضاسندن قادین نماینده‌سینك باکویا گیتمك ایشینك اهمیت و فائده‌لرینی بورایا یغیلانلارا ثبوت ایدرکن اوقدرقشقیروب دانشمشدی که یازیغك سسی دوتولوب، بوغازی قهرله‌نمشدی. بونکله بیله یغنجاغا گله‌نلر اوز دیدیگلرینده دوروب راضی اولمیوردیلار. آروادلارك بری برلریله چوق هوندوردن دانشمالارندان باشقا قوجاقدا کی اوشاقلارینك‌دا آغلاشما سسلری بونلارا قارشوب مجلسده آغز دییه‌نی قولاق ایشیتمیوردی....

قادینلار شعبه‌سی اوز دیدیگنده دورمشدی.

- آی یولداش، بیردی گوره‌ك که باکودا بیزه به‌ز ویره‌جکلر، یا یوق؟..

بوسوزی دییه‌ن قونفرانس عضوی - برکندلی قادین اوشاغنك چیر کلی‌و عفوتلی کونلگینی اله آلوب مدیره‌نك قاباغینا دوتور و سیلکه‌لییر. قادینك صفتی بوزوشوب آغلاماق حالنه گلیر.

قادینلار، هاموسی بردن قشقیرلار. بریسی پالتارسز لیغنی، بریسی آیاق یالین‌لیغنی تکرار ایدوب هره اوز ایسته گینی اورا (باکو)دان آلابیله‌جگنی قونفرانسدا آیدین‌لاشدیرماق ایسته‌ییر:

- بیزه ده‌یوبلر که بوشیلرك هاموسنی باکویا گیده‌نلره پابلایا جاقلار!

شعبه مدیره‌سی دوتغون سس ایله نماینده‌لرك باکویا «پای آلماغا» گونده‌ریلمه‌دیگلرینی، و اورادا هیچ برشی پابلانمیاجاغنی آغزیندان چیقاران کیبی، قادینلار «گورر‌ای» ویروب اجلاسدان داغیلماق ایسته‌ییرلر...

قاپی آغزیندا بونلارك اه‌رلری و برآز کناردا دخی قوشولمش آرابالار حاضر دوروبلار.

سسی باتمش شعبه مدیره‌سی اوساعت قپونی دوتور؛ وار قوه‌سی‌ایله سسنی، یوکه‌لدوب قادینلاری اوزیرلرینده اوتوردوب یه‌ده تازه‌دن بونلاری آووندیریر اوزسوزلرینی تازه‌دن باشلیور....

بو حالت بر نیچه دفعه تکرار ادر... داها قائش قارالمشدر... سولغون ایلیقتریق لانپاسی‌نك ساریمتور شعله‌سی نماینده قادینلارك ناراضی چهره‌لرینی ایشیقلاندیریردی... آروالارك چارشافلاری باشلارندان سوروشوب چیکینلرینه دوشمشدر؛ هر آنانك یانیندا بر نیچه یئرده بویوك و عفوتلی لکه‌لر توپراق ایله اورتولمشدر... بونلارك آراسیندا شعبه مدیره‌سینك‌ده یورولمش، تعرله‌مش و مأیوس چهره‌سی گورونوردی.. مدیره قطعیاً سسی‌نك دوتولماسینا باقمایوب یه‌ده، تبلیغاتدن امل چیکمیوردی.

آخر که مدیره اوز دیدیگنی‌یئرتدی. ایکیمی، اوچمی قوجا قاری‌لاری مرکزده قورولتایا نماینده سه‌چدیلر... «بیله‌ده ایش اولارمی؟..داها نه‌ایده‌ك، قوی قاری آروادلار گیتسونلر، گوره‌ك باشلارینا نه گه‌لر؟...» دیدیلر...

قونفرانس بیتدی... نماینده قادینلار هاباتا داغیلیشدیلار. اوز قلبلرینده بوتون بو تازه قاعده و قانونلارا آرتیق ناراضی قالمش کشیلر. ده‌له‌قانقالارك امر و باشقا قوهوم قارداشلاری بونلاری آرالیغا آلوب، هوندوردن دانیشا - دانیشا هره اوز آرابالرینا طرف یونه‌لدیلر...

من آرتیرمادا دوروب تماشا ایدیردیم... یوره گیم غملی ایدی... آشکارا گورووردیم که بو قالین‌لقدا جهالت و عوامليق پرده‌سی آلتیندا قالمش برخلقی آزاد و خلاص ایتمکدن اوتری فرقه‌مز و اونك آیری - آیری ایشچیاری نه درجه‌ده اولمازین زحمت و اذیتاره دوزمه‌لیدر که آخردا قالین و مظلم پرده‌نی ییرتماغا نائل اولا بیلسونلر...

***

بو فقره‌دن دورت بیل کیچدی... من قادینلار آراسیندا چالیشیردیم. 1925 نجی ییلك تویابرینده بیز سالیاندا نماینده ه

امگجی قادینلارینك مبارزه‌لری خاطراتندان.

قادینلار سه‌چگی‌سینی آپاریردیق. قادین‌لارقلوبی‌نك کوچوك ولاکن تمیزجه سالونی آروادلار ایله دولمشدی، سالوندا دوزولمش سقامیالاردا تورك قادینلارینك چارقات، یابلیق و چارشافلاری روس ایشچی قادین و ایو خوزیایقالاری‌نك قرمزی‌یابلیقلاری و برده ضیالی‌قادینلارك خیرداجا شلیاپالاری بیری برلرینه قاتیشمشدیلار.

صحنه‌دن معروضه‌نك سسی ایشیدیلنیر... اجلاس‌دا کیلار قالقوب اوزلرینی جماعته دوتوردیلار. بو حالدا سقامیالار آراسیندا تحسین ایدیجی پیچ - پیچ‌لار و یاکه آیری - آیری تنقید سوزلری ایشیدیلیردی.

سه‌چگی‌قورتاردی... اجلاس آدامللری شاد بیرصورتده صحبت ایده‌رك ایولرینه یوللانمشدیلار... یاقیندا کی کندلردن گلمش بر دسته کندلی آروادلارینی گیجه‌له‌مگدن اوتری هرهنی بر ایوه گوندردیك... اوزیمز چوقدا



ساليانداا ایشچی‌کندلی قادینلار شعبه‌سی اطرافنه یغیلمش آقتیف قادینلاردان برغروپ.

آرتیق دقله قولاق آسیرلار. گون چوقدان باتمشدی.. بایردا نارین وسویوق یاغیش سه‌پله‌یور.. هردنبرفکریمه گلیرکه اجلاسدا کی کندلی قادینلارك بر پاراسی 4 _ 5 وبرست اوزاقدا اولان یئرلرینه، باتداقلی یول‌لار ایله، گیجه‌نك بو قارنلیغندا گیده‌جکلر... شبهه یوق که یولی اوزاق اولان‌لاری بورادا کی ایشچی قادین‌لارمزك‌یانلارینداا ساقلایوب، شهرده گیجه‌له‌مك لازم گله‌جکدر.

نماینده‌لر یغنجاغی سه‌چگیسنه باشلانیلدی. یغنجاق، سانکه بر دنبره روحلاندی؛ آدامللر یئرلرینی ده گیشدیردیلر. هر نامزدی سسه قویمادان قاباق اونی دوشونجه‌لی صورتده گوتور - قوی ایدیرلر. نامزدلر سه‌چگیدن قاباق یئرلرندن یورولمشدیق... لاکن هاموسنداا روح یوکسکلیگی جوشمشدی... بیزه محول ایدیلمش ایشلری موفقیتله ایفا ایتمشدیك. . قلوب سالونیندا قلوب مدیره‌سی گل‌جهان یولداش ایله ایکیمز هامودان آخیرا یاقالدیق. شادلیقمزدان بری بریمزك یوزینه باقوب گولومسه‌یریك... بیز بوقادارینی آیدنجاسینا حس ایدیریك که بوندان سوکرا بزیمله برابر بوکبی اجلاسلارا گله‌نلرك آراسیندا اویله بیر روحانی یاووقلیق یارادیامشکه بیز بیرداها آیریلمیاجاغز... رابطه‌مز قریلمیاجاقدر. . گل‌جهان ایله برابر پالچیق‌لی یول‌لار ایله ایولریمزه قایتدیق. ساقیز کبی ساری پالچیق آیاقلاریمزا یاپیشوب هره‌سی یاریم پوت چیکیر.. آیاغلاریمزی زور ایله پالچیقدان چیکوب بری بریمزه گولومسه‌نیریك...

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0403

یوره گیمز چوق شاددر!..

گل‌جهان اوز ایوینه چاتوب «گیجه‌ك خیره قالسون!.. سوزیله صوك دفعه یوزیمه گولومسه‌یردی...

***

ایرته‌سی گونی ایدی. ساعت دوقوزی گیچمشدیسه‌ده هله‌ده اوتاقمز قارانلیق ایدی؛ قارا بولوتلار شهری احاطه ایدوب هر بیری دومان باسمشدی. آداملار «ژه‌ن آتدیل» ه بغیشمشدیلار. بوزارمش چارشافلارا بورونمش قادینلار کولگه کبی دیوارلارا سوو که‌نوب گوزله‌یورلر... بونلار قادینلارشعبه‌سینه پناه گه‌تیرمش قادینلاردر... بوتون‌بونلارك شکایتلری ئه‌رلرینه‌دن، قایین آتا وقاین آنالارداندر... بیرپارا سینك ایشینی زائسدا دوزه‌لتمك،یاخود محکمه‌ده چیقیشدا بولنوب حقوقنی مدافعه ایتمگده لازمدر...

زحمت گونی داها باشلانمشدر...

اورتا یاشلی بیرقادین استولیمك قاباغینا گلوب قطعی بیر سه‌سله : ــ ده‌له‌قات بیله‌تمی ویریگز!.. دیدی.

من دقتله یوزینه باقیرام... تانیرام؛ دوننکی اجلاسدا بودا وار ایدی. سه‌چیلمشلرك سیاهیسنه باقوب آدینی سورو شیرام. ینه‌ده‌دقتله باقوب آدینی‌بیلدیگدن صوکرا بوسیاهیده آدی یازیلمادیقنی بیان ایدیرم.

سوزلریمك یاریسینی اوزیم، ویاریسینیدا مترجم واسطه سیله دیبوب آگلاتیرام که:

ــ یولداش، سنی نماینده سه‌چمه‌یوبلر!.. اونا گوره‌ده نماینده بیله‌تی سنه ویریلمیه‌جگدر!

ــ سه‌چیلمه‌دیگمی منده‌بیلیرم؛. لاکن من‌اوزیم‌نماینده اولماق ایسته‌ییرم؛ وسیزدن بیله‌ت آلماینجا شعبه‌دن بایرا چیقمیاجاغام!..

بیز ینه‌ده مسئله‌نی باشا سالیرق،وسوکرا باشقاگه‌له‌لر ایله مشغول اولوریق.

قادین کناره چیکیلوب اوتورور.

گون اورتادان کیچمش‌دی. سحردن شعبه‌یه گه‌له‌نلرك ایشلرینی دوزه‌لدوب یولا سالیرق... تازه شکایتچیلر،باشقا ایشلری اولانلار گه‌لیرلر. قاباق گه‌له‌ن‌قادین ینه‌ده اوتوروب گوزله‌ییر... باغلاماسینی آچوب اورادان بیر قیریق‌قوری چوره‌ك چیقاروب گه‌وله‌ییر و دقتله بیزی سبر ایدیر.

ایشلریمزی بیتیروب، ینه‌دهاونا بیله‌تویره ویلمیه‌جگمزی آگلاتوب یولا دوشیریك. اودا اداره‌دن چیقوب گیدیر.

اوگونك سحری من ینه‌ده او قادینی، قاپوسی آچیلمامش قادینلار شعبه‌سینك قاباغیندا گوردیم. قاپونی آچدیق؛ اودا گلوب اوتوردی.. ودقت تمام‌ایله بیزه باقیردی. اونماینده سه‌چیلمه‌مشدر؛طبیعی اونا نماینده‌لك‌بیله‌تی‌ده‌ویریلمیه‌جگدر. . بلکه‌ده مرکزه یازوب جواب گوزله‌مك لازمدر؟.. بونك ایچوندمه آرتیق وقت ایسته‌ییر؛ یقین که بوقادین هر گون شعبه‌یه گلوب بوسیاق‌اوتوراجاقدر. آرامزدا مصلحته‌شدیك! مسئولیتی تامیله عهده‌مزه‌آلوب بونا بیله‌ت ویرمگی تحت قراره آلدیق:

ــ چوق ساق اولیك!.. ده‌یوب دوداقلارینی بوزدی، وقاپودان چیقدی.

بوگوندن باشلایوب نماینده قادین‌لار یغینجاغینی‌زیارت ایده‌ن دائمی ودقتلی نماینده‌لردن بیربسی‌ده همین کندلی قادین ایدی.

***

نماینده‌لر یغینجاغلارینك پروغرامنی کیچیردیك. هفته‌ده بیر دفعه مشغولیتمز اولوردی. نماینده قادین‌لاری عملی ایشلرده تحکیم ایتمشدیك. هردن بیر عملی ایشلرده چالیشانلار اوز فعالیتلری باره‌ده یغینجاق‌لاردا معلومات‌ویریر دیلر. اوشاق ئه‌وی وبیرده قوئوبه‌راتیف‌حقنده کی معروضه اوستنده چوق بویوك مذاکره‌لر کیچیردی.

یغینجاقدا کیلاردا آرتیق هوس ایله اشتراك ایدیردیلر. نه یاغیش ونه‌ده سالیانك آجی کوله کی گه‌له‌نلری هوسدن سالا بیلمه‌زدی.4 ــ 5ویرستده‌من یغینجاقلارا گه‌له‌نلراولوردی.

بو گه‌له‌نلره بیز نه‌آیاق‌قابی ونه‌ده لباس ویرمیوردیك؛ اونلار دوشونجه‌لی و دقتلی بیر صورتده بورادا اشتراك ایدوب اوزلرینك جمعیت ایچه‌ریسینده کی موقعلرینی معین ایدوب، عصرلر اوزونی قارالمش و کیفلنمیش دوشونجه‌لرینی ایشیقلاندیریردیلار.

***

یوزارجه گوزلر معروضه‌چینك آغزینا زیللەنمشدر. تام سکوت ایچه‌ریسینده معروضه‌یه قولاق آسیرلار. بودر، صغرانك او سارالمش صفتنده کی بیرجفت قارا گوزلرینه باقیگز!.. او، قوجاغیندا راحت‌اویقویا یاتمش یوغون‌بالدیر خیرالنسانك آناسی مسمه‌نك اوزون وقارا کیپریکلری آرا سیندان پاریلدایان گوزلرینه دقت ایدیگز!..

قارا قیشلاق کندینك نماینده قادین‌لارینی‌دا تماشاایدك!..

سوسیالیزم قورولوشنك موفقیتنه اینانمایانلار، پرولەتاریاتك قوه‌سینه اینانمایانلاردر. قوممونیست بایراغی آلتنده، سوسیالیزم غالبیتنه دوغرو!

اونلارك آراسیندا ساکت ومغرور بیرحالدا دورمش‌داداش قیزینی وبیرده اود پارچاسی کبی‌جلد وزیره‌ك دوستی‌خانیمی سیر ایدك!.. دوستی بیردقیقه اوز یئرینده ساکت‌قالابیلمیر. دوستی - قومشولاریله پچیلداشیر؛ کاهی اویان، بویانیناتماشا ایدیر هر دنبیر دیکباری منه باقوب کولومسه‌یبر وسو گرادا آقوشقادان. قارانلیقلاشمش کوچه‌یه تماشا ایدیر.

دوستی قورخیر که آخشام اولجاق ئه‌ری ئه‌وه کله‌جك وبونیدا ئه‌وده تاپمیاجاقدر ..

دوستی اوتوردیغی یئرینده اویان - بویانا چه‌وریلوب ده‌رینده‌ن آه جیکوب یئه‌ده معروضه‌یی دیکله‌یبر... دوستی ئه‌رینده‌ن‌قور خیر... تیز - تیز اونك شاپالاقلارینی دادیر...

اجلاس بتیر... قارا قیشلاق کندینك آروادلاری‌تله‌سیك آرتیرمایا چیقوب باشلارینداکی شال‌وچارشافلارینی چالین چارپازینادولیورلار: یولدا کوله‌ك باشلارینی آچماسون.. اینجه بدنلی دوستی تله‌سیك اوتاغا قایدوب منی خلوته جیکوب ده‌یبر :

- ئه‌ریم منی دوگسه، قورقمیاجاغام؛ اوساعت کلوب سنه شکایت ایده‌جگم!..

من‌صمیم‌قلبمدن اونك املینی سیقوب شیوه‌لی‌قارا وزیره‌ك کوزلرینه‌دقله باقیرام... من‌اینانیرام که اونه کله‌جگدر.. قورقمیاجاقدر!..

او کله‌جك..اونا کوره گله‌جك که اونك دوشونجه‌سی آیدینلاشمش، اوقتیابر ضیاسی اوز قیزیل شعله‌لریله اونك مظلم حیاتنی ایشیقلاندیرماغا باشلامشدر.

* *

بو کبی مختلف مضمونلی، شکل ولوحه‌لره آنجاق‌بو یلك ایچه‌ریسنده تصادف ایدیله‌ردی.

لاکن اوچ یل داها سو گرا، بیز بوتون آذربایجان مقیاسینده شورالار عضوی ایشچی‌و کندلی قادینلارك 2نجی قورولتایلارینی گوردیك. بوقورولتایدا231نفر کندشورالاری صدری اولان کندلی قادینلاریدا تانیریق..

کند شوراسی صدری سه‌چیلمش قادین - اوقادین‌در که اونك ئه‌ری، آروادی اجلاسدا اولدیغی حالدا قاپودالیندان قاراغولینی چیکیردی؛ او هیچ‌شی دوشونمه‌ین، اوز ئه‌ری جوجوغی وتوزلی - توستولی کوماسیندان‌باشقا بیرشی بیلوب تانیمیان کندلی قادیندر. بو کون اوقدین اوز کندینك ایشلرینی آپاریر؛ اورادا حاکمدر...

او قادین آذربایجانك اك اوزاق گوشه‌لرینده‌ن‌باکویا نماینده صفتیله گوندریلمش، بورادا باشقا قادین‌لار ایله بیر لیگده دردله‌شوب قادینك حقوق وعائله جهتجه وضعیتنی یونگول له‌شدیرمگه سعی وغیرت گوسته‌ریر...

کوهنه عادتلر، کوعنه مفکوره‌لر یقیلوب، داغیلوب‌محو اولورلار؛ وبیرده قایتمیاجاقلار،.. اونك عوضنده ایسه یکی حیاتك تازه شاخ - بوداقلاری، گوگه‌رمگده‌در.

یه پراودینا



فابریقا زاوود مکتبنده ایشچی قیز، یونوجو دزگاه باشیندا.

شـزرالار حکومتی، امکچی قادینی آزاد ایتمشدر. قادین بوتون قودسنی شـورا حکومتی محکمله‌شدیرمگه ویرمه‌لیدر!

کیچمیشلردن برصحیفه

(1917 نجی ییل)

باکو خه‌زریسینك یوزینی گورمه. هر کسدن آرتیق اونك حیاسزلقنی آجی‌لقنی دادانلار پاده باغیل‌حبس‌خانه‌سی یولینا دوشه‌نلر اولورلار... لاکن بزده‌روح یوکسکلیکی حددن آرتیق‌در... یولومزی گوله ـ گوله گیدیریلك، هزار منت وزحمتلرله بوگونمی، صباحمی حبس‌خانه‌دن (سیبریایه ایرقوتسقایا سورگون ایدیله‌جك یولداشلارایله گوروشمه‌گه اذن آلابیلمشدیك. سورگون ایدیله‌نلرله گوروشوب‌دانشماق و بلکه‌ده ممکن اولورسا اولارا برآز شئی ـ شومی و پول ویرمك امیدی بیزی چوق سه‌ویندیریردی.

سورگون ایدیله‌جك دسته‌ده بزیم کیلردن **قیئورقی ستروآ، پاول زه‌وین** و برده اك ایسته‌گلی رفیقه‌مز **واله‌نتینا ایوانووادر**. أولوم ـ ظولوم اوزیمزی باغیل «سراینه» چاتدیرابیلدیك. آدام الیندن آیاق باسماغا یثر یوقدر...

قازاماتك هوندورحصارینك دیبنده دوروب بوینومزی اویان ـ بویانا اوزادیریق که بلکه‌ده برسیاق پنجره‌لردن، یولداشلاردان بر پاراسینی گورمك ممکن اولدی.

آنجاق بیزیم‌بوتون زحمت‌وچالشماقمز، بش‌آچیلانیك لوله‌سینی اوزه‌ریمزه دیکله‌یوب «یانا دور، یوقسا گوللەنی دوتوزدیرارام!..» قشقیرغی و سالداتك حرصلی نظری قارشوسیندا هیچ اولوب گیدیر...

مین زحمتلردن سوکرا الیمزبوشا چیقدی؛ آخردا اوزنوبه‌مزده رسمی صورتده ایچه‌ری گیروب گوروشمه گه کفایت ایتمه‌لی ایدیك.

ایوانووا ایله اوقدر دانیشلمالی سوزلر وارایدی که هاردان باشلایاجاغمی هیچ دوشونه بیلمردیم.

ایوانووا ده‌رزیلر اتفاقنك کاتبی اولدیغی حالدا اونی حبسه آلمشدیلار. اوندان سوکرا منی، تجربه‌ده اوندان ضعیف اولدیقم حالدا، اونیك یثرینه انتخاب ایتمشدیلر. لاکن اوشرائط که بیزیم گوروشمه‌مزده وار ایدی. اوـ شرائط ایچینده چوق دانشماغا هیچده امکان یوقایدی. برطرفدن اونی مندن ایکی ده‌میر ره‌شوتقا آییرپردی، سوکرادا منیم و اونك یانلاریمزدا دوروب آغزیمزدان چیقانلارا آرتیق دقت ویره‌ن ایسته‌مه‌دیگمز شاهدلر و برده وقتك آزلیغی، (آنجاق 15 دقیقه).... هر جور اولسادا بیز بو 15 دقیقه‌نی بوش کیچرتمه‌دیك، اشاره‌لر و بارماق گوسته‌ریشلری واسطه‌سیله پولیس آختاریشیندا تاپیلمایوب بوچاغاجان گیزله‌نمش قالان بر مهم سندك یثرینی‌ایوانووادان اوگره‌نه‌بیلدیم... بیرده‌اونی بیلدیك که ستروآ و برده زه‌وین یولداشلاری دونن‌کی یاتابدا گونده‌روبلر، ایوانووانی نه‌سبه ایسه بوگونکی یاتاب دا، 8 جانیارله بریثرده سورگون ایده‌جکلر.

بویاتابك اوچ‌ساعتدن سوکراچیقاجاغنی سویلیوردیلر. بیزده قرار قویدیق که بو اوچ ساعتی گوزلیه‌ك وبولداـ شلاریدا اوزیمز یولاسالاق. لاکن مردم‌آزارلار قویماـ دیلار؛ پولیس نفراتی فکریمزی دویاـکیمی بورادا قالانلاری تامامیله فازامات اطرافندن قووالادیلار. بیزده گیتمگه مجبور اولدیق.

قازاماتك ایچه‌ریسی‌ایله علاقه‌سی اولانلار واسطه‌سیله بیز بیلدیك که نوبه‌ده‌کی یاتاب صباح ساعت 8 ده یولا دوشه‌جکدر.

معین وقتده‌هاموزده‌میر یول ستاسیونیندا حاضرایدیك.

ناگهان، گوزله‌یلمه‌ین بر ایش... بردسته آتلی و پیاده پولیس‌آداملاری واغزالا داخل اولور. 16 نفره کیبی بر دسته دوستافلار اونلارك آراسیندا گلیرلر. بوآداـ ملارك آراسیندا تکجه بر آروادـ آنجاق ایوانووادان عبارتدر.

ایش بیله اولاندا نه‌تفنك قوندا‌غی‌نك دورتمه‌لری، نه‌ده «بو ساعت گوللەنی باشیکا چاخارام!» هده‌لری بیزلری قورخودا بیلمردی. شهردن دوتوب تاوارنی‌واغزالا گیده‌نه قدر بیز اوز یولداشلاریمزله صحبت ایدیردیك. ایوانووانیك احوالی کوك ایدی، یول اوزونی بیزلره جور به جور مصاحتلر ویریردی.. هیچ وقت اوزینی ایتیرمه‌یردی. آنجاق زنك‌لر ووریلوب واغون یولادوشدـ یگده ایوانووا اوز متانتنی ایتردی. بیزیمله آخرینجی دفعه‌وداعلاشماق مقصدیله‌اوزینی بابیرا آتدی که صوك‌دفعه گوروشوب اللریمزی‌سیخاق!..بوحالدا سالداتلارتفنك قوندا‌ـ قلاری‌ایله دومسوگلیوب اونی‌زورلا واغوناسالوب قاپوسنی باغلادیلار. بو قتما ـ قاریشیق‌دا ایوانووا بو تاپشریغی ویره بیلدی:

ـ یولداشلار، ایشله‌یگز!.. یورولمایگز!. منده تیز قایدارام!..

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415 3-185055412919275-11/fragment/page=0406

ایوانووانك سوزی دوغری ایمش....

اوچ هفته کیچمه‌دی که سورگون ایدیان یولداشلار ایله ایونووادافیورال انقلابی‌نك حکمیله چارزنجیرلریندن خلاص ایدیلمش ایدیلر.

بویاتاب دسته‌سی گیدوب ایرقوتسقی‌یا چاتمامشدی!

* *
*

مارت گونلری 17 نجی ییل

او زمانکی پطروغراد وایمدیکی له‌نینغراددا ایکی گون تمام انقلابی سالدات و فعله‌لرك چار قودوزلاری ایله آتشمالاری دوام ایتدیگی گونلرده بیز باکولیلارا آنجاق بر مختصرجه معلومات ویریلمشدی: «دولت دوماسی قوغولمش و احوالدا جدی‌در؛ چوق مهم واقعه‌لر گوزله‌نیلر!». بو خبر چوقدانکی ایدی. تازه خبرلرده هیچ بر یردن آلنماییردی. بیزده قرارقویدیق که بو صوك معلوماته استنادا بورادا ایش باشلیاق...

ده‌رزیلر، چاپچیلار و برده قانطور قوللوقچیلارینك همکارلار اتفاقی نماینده‌لری، بالاخانی فعله‌لری‌نك نماینده‌لری ایله بیرلیگده یغیشوب قرار قویدیق که دولت دوماسینك قوغولماسینا پروته‌ست اولاراق عمومی سیاسی تعطیل اعلان ایدیلسین.

آنجاق بونیدا هرکس بیلردی که بو عمومی تعطیلك اساس سببی، یعنی دولت دوماسینك قوغولماسی یالیگز بهانه‌در؛ همین اجلاسدا وظیفه‌لر تقسیم اولنوب کیمك هانکی قسم فعله‌لری ایشدن چیقاراجاغی‌دا بوراداجا معین ایدیلدی. اوجمله‌دن پالتار تیکه‌نلری ایشدن گوتورمك وظیفه‌سیده منه‌محول ایدیلمشدی...

بیز ایکی نفر ایدیك.. ـ تیکیش اعمالاتخانه‌لرینی بیر ـ بیر گه‌زوب ایچه‌ری داخل‌اولوب قاباقجا عمومی سیاسی تعطیلك اساس سببنی بیلدیروب سوگرادا فعله‌لری ایشدن گوتوریردیك.

ایشجی قادینلار چوق تعجبلی بر صورتده روحلانوب بزیم دعوتمزی قبول ایده‌رك اوساعت ایش پالتارینی چیقاروب اوز لباسلارینی گه‌ین کیبی اعمالاتخانه‌دن چیقیردیلار.

گیت ـ گیده دسته‌مز بویویوردی. هرشیدن مراقلی بر احوالات بر نفر خوزیاینك اعمالاتخانه‌سنده باش ویردی.

اوزاقدان بیزی گورمش خوزیایین یومروقلارینی دوگونلیوب قاباقمیزا یوگوردی و بو سوزلرله بزی قارشولادی:

ـ من اوزیم سیزدن‌ده به‌رك سوسیال ده‌موقراتام!..

بو سوزلر خوزیاینك آغزیندان قورتاران کیمی کوچه‌یه‌چیقوب «قاراداووی!. قاراداووی!..» دیه‌باغریردی. قاراداووی‌دا که معلوم... اه‌لدن گله‌نی مضایقه ایتمیه‌جك ایدی.. بزی‌دسته‌لیوب اوچاستقایا طرف چکیردی... نیجه اولدیسه من یاخامی قورتارا بیلدیم، آنجاق یولداشیمی اوچاستقایا دارتدیلار!..

ایشچی قادینلارك بر نیچه‌سی استثنا اولاراق یرده قالانلاری تعطیله ملحق اولدیلار..

بیز ایشمیزی قورتاروب اتفاقه چاتان کیمی‌ایشتدیك که چار حکومتی دارباداغین ایدیلمش، موقتی حکومتك‌ده تشکیل ایدیلمه‌سی باره‌سنده تلغرام آلنمشدر.

شادلیقمزك پایه‌سینی یازابیلمیره‌م!.. اورادان اك برینجی میتینغه، شهر اوپراواسینا یوللاندیق. میتینغ‌دن سوگرا دسته ایله قازاماتلارا گیدوب سیاسی محبوسلاری خلاص ایتمگه باشلادیق.

* *
*

نفت معدنلرینده چالیشان فعله‌لرك تعطیلی.
(14 نجی ییل)

باکودا اوچ‌هفته تمام ایدی که نفت‌معدنلرینده چالیشان فعله‌لرك تعطیلی دوام ایدیردی.

نفت صنایعی‌نك باشقا قسملرینده چالیشان فعله‌لرده اوز بولداشلیق حسلرینی ثبوت ایچون تعطیلچیلره ملحق اولوردیلار.

ده‌رزیلر نماینده‌لرینك یغنجاقلاریندا دخی تعطیلچیلره ملحق اولماق مسئله‌سی محل مذاکره‌یه قویولمش‌ایدی.

بالاخانی‌دان گه‌لمش نماینده تعطیلك وضعیتی و نفت معدنچیلری ایله اولان دانشیقك نتیجه‌سی باره‌ده معلومات ویریردی.

بومعلومات‌دان آگلاشیلدی که خوزیاین‌لر هیچ‌بر گذشته گیتمیورلر و تعطیلچیلریگده عائله‌لری آج‌لیغا دوچار اولوبلار.

ده‌رزیلر قرار چیقاریرلار که تعطیل ایدنلره مادی و معنوی کومك‌ده بولونسونلار.

همکارلار اتفاقلاری عضولری، اوقتیابر فتوحاتنی محکملشدیرمك ایچون کوگللی اولاراق ایشجی باتالیونلارینا گیرمه‌لیدرلر.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0407

قیزیل اوقتیابر

10 ییللیگی مناسبتله

اساطیر دورینك قاره کولگه‌سینه:
گونش کیبی چیقوب قیزیل شفق صاچدك!..
ییللرجه ایکگله‌یه‌ن بو شرق ئولکه‌سینه:
گوللرله بهزه‌نمیش آزاده یول آچدك ! . .

چیچکلی قوینوندا: قیز، قادین، اوغلانلار
آزاده یاشایاراق زحمتله اوینارلار
سایه‌کده زحمته هپ آلشدی اونلار
و یاراتدك عالمده بیر قیزیل داستان ! . .

سن قدیم‌دن قالما بیر اساطیری داستان:
ده گل؛ ایکرمنجی عصره شفق ساچان
زحمت داستانی ! . . هپ قیزیل داستان ! . . اینان ـ
که یاراتدك گولوم سن تازه بیر جهان!

قارتمیش استبدادیك هپ قامتك اکدك
أگلمه‌یه‌ن تاجلی باشی اوکونده أگدك
ئولکه‌میزده زحمت تخمنی أکدك
تخملر آچدی گولار، ادب و عرفان!

فعله‌لر چیقارمیش توللی کوملکنی
چونکه بایرام ایدیر، بوگون اون ایللیگنی
چالماقدا زاووللار شنلیك دودوگنی
بهزه‌نمیش قیزیل کوللرله هر یئر، هریان!

مظلوم شرق قادینی هپ چیگه‌ردی جفا
همده زندان اولمیشدی اونلارا چادرا
سایه‌گده بولدولار دردلرینه شفا
هپ سنده‌ن بولدولار او، گولدیگك زمان!

ای اوقتیابر ! . . ای تاریخی صارصیتان:
یاقین شرقینده وار ایکگله‌یه‌ن، آغلایان
کوزوك سکا دیکیش هپ دیله‌گی عصیان
گولومسه یوزوگه تا توکیلمه‌سین قان ! . .

دوشمان پولاد گوروندی، سن اولدیك چه‌لیك
قیزیل جبهه‌ده سن مظفر سیك دیمك
قیزیل قلم سنی هپ صولمایان چیچه‌ك
تاریخه یازدی، چونکه سکا یوق خزان ! .

ش. ع. یاووز.

بونك ایچونده هر فعله اوز دونلوقیندان بر حصه تعطیلچیلرك نفعینه ویرمه‌لیدر. بو اعانه‌نی خصوصی ورقه ایله یغمالی؛ وبرده نفت‌معدنچیلرینك بوحرکتلرینه‌پروتست اولاراق بر گونلیك تعطیل ایدیلسین.

صباحی گونی بوتون نمایشه‌لر تازه‌دن بیقیامالی ایدیلر که اعانه ورقه‌لرینی پایلاسونلار وبرده هره اوز استحصالاتنك حقنده مذاکره ایتسون.

اوخرانقا یاتمامشدی... اوهیچ یاتارمی؟. او، نماینده‌لرك اوزلرینده‌ندده جدیتلی ایدی... صبح‌تیزدن اتفاقك نوبتچی‌سی قاپونی آچمامشدان اوخرانقانك قوردلاری و پولیس‌نفرلری اورایا گلوب هر گله‌نی یاقالاماقدا ایدیلر. بوگونك آخشامی واونك صباحیسی گونی پولیس طرفندن 40 دان یوخاری ایشچیلراوجمله‌دن ایکی نفرده ایشجی قادین حبسه آلنمشدیلار.

ایکی گون کیچمشدی.. بزلرده اوز قامه‌رالاریمزدا یر به یر اولوب قازامات حیاتنه آلیشیردیق. برده قالماغال ایشیدیلوب قادین‌لارامخصوص قورپوسدا برچوق آداملارك آیاق سسی ایشیدیلدی.

هاموموز مراقلاندیق. قامه‌رالارك آقوشقالارینا یوگوروشوب گه‌له‌لردن خبر اوگره‌نمك ایسته‌دیك. نادزیراتهل قیزیشدی. آقوشقالارا یاپیشانلاری قوولاماغا باشلادی. هایاتا گزمگه‌چیقمیشدیق. بورادا یولداشلاردان احوالاتی بیلدیك.

چورنی غوروددا کی ایشجی آروادلار و فعله‌لرك آروادلاری یغیشوب بر نمایش یاپمشلار. نوبه‌لك باش قانطورینك قاباغینا یغیشوب قشقروبلارکه» فعله‌لرك اقتصادی طلبلرینی قبول ایدك؛ ایدرلیمزی حبسدن آزاد ایدك»!..

آروادلارك بر پاراسی حتی قانطورك پنجره‌لرینه‌داش ـ کسه‌ك تولایوب هارایا گه‌لمش قاراداوویلاریدا هده‌ـ له‌مشلر ایمش.

بر ساعت کیچمه‌میش او نمایش‌ده کیلرك برحصه‌سی دوتیلوب بر حصه‌سیده ایولرینه قوولانمشدیلار. اوگون قادینلار قورپوسینا گلنلر همین بو دوستاقلار ایدیلر. بو نمایشده دوتولانلارك هاموسی ایمپه‌ریالیست محاربه‌سی اعلان اولونان گونه قدر قازاماتدا اوتورمشدیلار.

محاربه‌یه‌ـ‌فربرالك باشلاندیقدا محبوس فعله‌لر واونلارله برابر ایشجی قادینلاردا حبس‌دن آزاد ایدیلدیلر.

یه. قه‌نیقسبه‌رق.

کیچمشدن بیر خاطره.

مه‌نشه‌ویق‌لرله، ئه‌س‌ـ‌ئه‌رلر قرمیزیلارا خیانت ایدوب شورا ایشنی باکودا اودوزان‌دان سوکرا بوتون شهر ماتم ایچنده ظلماته غرق اولمشدی. پرولەتار مبارزلرینك او قهرمانانه نطقلری و مبارزه‌یه دعوتلری داها ایشیدیلنمه‌ـ یبردی. مبارزلر داهاسوسمشدیلار... اونلارك حال‌لارینی، باشلارینا گله بیله‌جك بلالری تصویر ایتدیکجه قان انسانك دامارلارینداا دوکوب قالیردی:

گوره‌سن گیدوب منزل باشینا چاتدیلارمی؟.. هاموسی بیربرده‌میدرلر. و یاکه آیری‌ـ آیری قارانلیق بوجاقلارا سالنمشلار؛ بوکبی تردد‌لی فکرلرله مشغول اولدیقجاانسان عقلینی شاشیریردی..... تررراق.. بش آچیلان سسی، ... گورپ.... سوکرادا بر جسمك تارپادان یخیلماسی، نه اولمش؟.. نه‌وار؟.. بوکیمدر؟..

قاپیتالیست آجنه‌لریدرکه اوزلرینی تینگه‌ده گیزله‌دوب صلح‌ایله یاشایان اهالینی گوللەباران ایدیرلر... بوگوللەلنمش اهالی‌تعین ایدیلمش وقتدن بر آز گیچ ایرلرینه‌قایدیرمشلار.. (شهرده قانون حربی اعلان ایدیلمشدی.)... بیچاره‌لر نه ایتسونلر.. هر یرده قتل، غارت... ایوده کیلر گوزله‌ـ یورلر... آتا، آنا، اوشاقلار... بوگونلرده ایوه قایتماقدا ممکن‌می؟.. هرطرفدن گوللە آچیلر: قدمیکی بر آز گیچ قالدیردك‌می؛ هوایئی گوللەیه قوربان اولاجاقسان...

دیشاریمی بری برینه سیخوب، جانیمی دیشیمه دوتوب بو قانلی و دهشتلی گونلرك بوتون آجی‌لیقلارینی صبر ایدیرم... باشقا یولداشلاردا منیمله درده شریکه‌رلر... اونلاردا منیم کیبی گیزلین فرقه فعالیتنده چالشیرلار. .اوزیمز کیلری گوزلیوریك...

اوللرده وار قوه‌سیله دهشت و وحشتنی بروزه‌ویره‌ن «مساوات» حکومتی‌نك هجومی بر نیچه آیدان سوکرا سسته‌شمشدی. قرمزیلار بیر ـ بیر؛ ایکی ـ ایکی‌قایتماقدا ایدیلر. «بیزیمکیلر ینه‌ده گورنیرلر!..» دیه یوره گمزده بر شادلق حسی اویانیردی. انقلاب روحی یوکسلمکده ایدی. قوه‌لر توپلاشوب، گیزلین فعالیت جانلاشیردی. بو آرادا عکس انقلاب دهشتی گنه‌ده هجومه باشلادی. حبسلر... سورگونلر.... اهله کیچنلری پطروسق دوستا‌ـ قخانه‌سینه گوندیرلر... اوچلیك قرار قویورکه هرجور اولسادا قازاماتدا کیلارا یاردیم اولونسون ... یولداش آناستاسی منی چاغروب ده‌یر:

باشقاسی یوقدر؛ پوشك آتدیق. سنه دوشدی؛ گره‌ك گیده‌سن!

ـ اونی گونده‌رمیك جهود قزیدر؛. هر یئرده تعقیب ایدیرلر. اهله کیچسه، اولدیره‌رلر!..

بو سوز منی چوق آجیندیردی.

ـ نیچه یانی جهود قزی؟.. اولدیرسه‌لرده گیده‌جگم! لازم اولان سندلری حاضرلادیلار؛ قاسسادان بیله‌ت آلدیم؛ کورپی‌ده‌یم...

ـ دایان؛ بودقایاکه‌چ!..

پوستدا کی قاراداووی قشقریر.

نه ایتمه‌لی؛ گوستریلن بودقایاگیریرم. یوز ـ گوزیندن زهرمار توکیله‌ن بر قادین باشدان آیاغا منی آقتاریر. یوره گیم سیخیلر؛ «گوره‌سن اهل چیکه‌جکلرمی ؟..» دوشونورم...

اهل چیکدیلر؛ اوزیمی پاراخودا سالدیم...

بئیریمه چاتمامش گنه‌ده سسله‌دیلر: بو دفعه برستراژنیق.

ـ هارایا گیدیرسن؟. نه ایشه گیدیرسن؟..

ـ آتا ـ آتامك یانینا!.. چوقدا‌ندر گورمه‌میشم!..

منیم قوق‌العاده ساکت جوابم ستراژنیقی ایناندیردی. بیر دقیقه کیچمه‌میشدی که پاراخودی آرواد و اوشاقلارك «وای، هارای؟..» سسلری باسمشدی. گیده‌نلردن بر نچه‌سینی پولیس آدامللای حبسه آلمشدیلار.

دریانك آغ لپه‌لری : دهشتلی تلاطمی و پاراخودك‌دا قاچقاسی بو آجی سفرك مدهش قارتیناسنی تکمیللشد‌ـ یریردی....

آختاردیقم یولداشی پطروسقیده‌تاپمادیم. اونسزدا بر ایش گوره بیلمه‌دیم... دوستاقخانه‌ده کیلره هیچ بر یاردیم گوسترمك ممکن اولمادی..

بورادا کی یاشایش تام جهنم عذابنی تصویر ایدیردی. آغ‌لارك جزا دسته‌لرینك بیدادلیغنی یازماقدان قلم عاجز قالیر.... بورادا کی یاشایش تام معنی‌سیله عذاب عظیم‌دن عبارت ایدی.

6_8 گوندن سوکرا گه‌ری قایتماق ممکن اولدی. بورایا گلندنصوکرا پطروسقیدا آختاردیقم‌یولداشی باکودا تاپدیم.

گونلر، آی‌لر، قارانلیق ودهشتلر ایچنده گلوب کیچردیلر. زجمت و مشقتلی اولان گیزلین فرقه فعالیتی بوبوك چتینلکلره باقمیاراق آپاریلیردی.

حکومتی «مساوات» چیلارك املیندەن آلماق ایشی حاظرلانیردی. «یقین که‌قان‌تو کمگسزین‌ممکن‌اولمیاجاقدر!.» دییردیلر. یولداش وانیا مصاحت گورمشدی که یارالی سارـ یماغا لازم اولان ماتەریال‌لاری بیز حاضرلایاق!.. منزل مسئله‌سی چتین ایدی. من، بولداش (ق) ایله خسته‌خانه‌ده چالشوب، اوراداجا یاشایبردیق... ماتەریال‌لاری تاپماق‌چتین ایش ایدی. بر نیچه مشاوره‌دن سوگرا بو قراره گلدیلر که یارا ساربیان ماتەریال‌لاری داشیماق ایچون گوندوز گیجه‌دن مصلحتدر.

یازگونلرینك برینده من و یولداشیم (ق) لازم‌اولان ماتەریال‌لاری داشیماغا باشلادیق. (ق) متانتلی و امیدلی قدملرله شهر ایچینه چیقوب بر آزدان سوگرا گلوب دیدی:

ـ گیدەك!.. بوگون ایشیمز یاقشی گیدەر: لازم اولان سرانجاملار گورولمشدر؟. ایشه باشلادیق!..

ـ او نەدر: هارایا آپاریرسگز؟.. دییه قاراداووی بیزی ساخلیر.

ـ رفیقەمزك ایو آوادانلیغیدر!. ایونه آپاریریق!.. پروپوسق گوستەروب کیچریك.

خسته‌خانەنك هایاتینا گیرەن کیبی یەدە: «دور؛ نه آپاریرسگز؟» سؤالنه «رفیقەمزك شیلریدر!» جوابنی ویروب کیچیریك.

گیجه ایدی. اوتاقدا سس‌ـسەمیر که‌سیلمشدی، ایشه باشلادیق. بیریمز بینت باغلیور؛ ایکنجی‌سی. سالفەتقا که‌سیر؛ اوچونجی‌سی مؤالدلما حموزی توکور؛ دوردونجی‌سی یود حاضرلیور.... وها بیله...

ایکی نیانیالار. (ریابووا) و (تیاپقووا)دا قاراغولدا دوروبلار. ایشیمیزده اوز قاعده‌سنجه گیدیر... هردن بر ایکی کلمه سوزله سکوتی خلدار ایدیریك.

ـ یولیا، پس بیزلری رائیوبلارا نیجه تقسیم ایدوبار؟

یولیا هر کسەنك موقعنی نشان ویریر.

(مارو) بیردن سوزینی که‌سوب شاد بر طرزده؛ بیردەن هاوایی گوللەلرك بیری گلوب «نه ده گدی، اوندا نه‌ایدەرسیگز؟..

هاموز گولوریك.

قاپو سسله‌نیر... تاپیلتی ایشیدیلیر. جانیمزا تورقو دوشور. بیری بیریمزه باقور، پیچیلداشیریق...

ـ قورقمیك؛ منم؛ (ریابووا)...

قاپونی آجدیق، ایچەری گیردی... رنگی قاچمش... تیتره‌ییر...

ـ خبر بگز وارمی؟. ده گز قیراغیندان گەلیرم؛ پارا‌ـ خودلار بیلمیرمم نه‌سیاق بایراقلارلا بەزه‌نمشلر... اوزلریده او قدردر که... بیز تعجب‌ایتدیك. شهره چخساق، قورقوسی وار... قرار قویدیق که قوی آخرینی گوزلیەك.. صبح آچیلیر... خسته‌خانه حیاتی اوز یولونا دوشور... بردەن آقتامابیل زورناسینك سسی...

ـ بوکیم اولا؟.. بو تیزلیکله خسته‌خانەیه کیم گلەجك؟..

هاموز هایاتا چیخیریق... قاباغمزدا شن و غنچه کیبی آچیلمش بر جوان‌بیزی تبریك‌ایدەرك خبرویریر:

ـ بودیونتی زرهلی‌قطار ایله جبهه‌یی یاروب کیچمشدر..

«مساوات» حکومتی بیردن سوپورولمش!. قزیل اوردو شهری اشغال ایتمشدر...

بو دانیشیغا هایاتا چیقمش باش حکیم بو معرکه‌نی گوروب اوزینی ایتیردی: گوزله‌رینی بەره‌لدوب:

ـ بو نه ایش؟... انقلاب یوواسی بورادادا وارایمش که... اونك بوسیاق اوزینی ایتیرمه‌سینه هاموز گولوشدیك. حاضرلامش اولدیقمز ماتەریال‌لاری یوك آقتابیله بیغوب شهره چیقدیق. عمومی شادلقدا اشتراك ایتدیك.

ر. خ.

آذربایجان قادینی! مدنی قورولوش یولینا یورو!
مینشەویق، داشناق ومساواتچیلاریك اویدورمالاری،
آذربایجان‌فعله‌و کندلیلرینك محکم‌اتفاقنی پوزا بیلمەز!.

آذربایجان سوسیالیست شورا جمهوریتنده تورك قادین قلوبلاری.

شورالار جمهوریتلرینده‌کی مسلمان قادینلارینك قلوبلاری یالیگز قادینلاری حقوقجا برابرله‌شدیرمك بولوندا صلحکارانه بر طرزده آپاریلان مبارزه یئری ده‌گلدر. وق، بلکه بو قلوبلار انقلابی قوه‌لرك یئنغجاق منطقه‌سی - انقلاب مکتبی‌درلر.

(قادینلار قلوبی باره‌سنده **قلارا تسه‌تکین**.)

شرق عالمنده قادین قلوبلاری ایچینده آپاریلان فعالیتك، بو حالدا شرق اولکه‌لرینده مشاهده ایتدیگمز انقلاب باشلانغجلاری ایچون بوتون دنیا میقاسنده تاریخی اهمیتلی واردر.

(قلوب مشاوره‌سنده **قلارا تسه‌تکین**‌ك نطقندن)

بویوك اوقتیابر سوسیالیست شورالار اتفاقی جمهوریتلرینده یاشایان بوتون ملتلرك مظلوم قادینلارینك بوبو - نلارینداکی اسارت زنجیرلرینی قیروب آتدی؛ لاکن زنجیرلره عادت ایتمش شرق قادینی آزادجاسینا حرکت ایده‌بیلمه‌دی آزادلیقك پارلاق نوری اونك گوزلرینی قاماشدیریردی. بر چوق زحمت و وقت لازم ایدی که تورك قادینینی کور - کورانه اطاعت‌دن ولا قیدلیگدن چیقاردوب اونا زحمت حیاتنی دادیز دیروب اوز قدرینی بیلمگه، و مردانه بر صورتده اوز حقیقی آزادلیگی یولوندا مبارزه‌یه عادت ایتسون. اوقتیابرك 10 ییل‌لیگینه مین‌لرجه تورك قادینلاری قارانلیق دنیادن چیقماقدان باشقا مملگتنك اجتماعی و تصرفات یاشایشیندا دخی آقتیو صورتده چالشماقدادرلار. تورك قادینی‌نك مدنیتجه تربیه‌لرنده و اسارت‌دن آزاد اولماغندا قادین قلوبلاریدا چوق بویوك رول اوینایوبلار. معیشت شرائطنی نظره آلدیقدا تورك قادینی آراسندا آپاریلان ایشی اویله قورماق لازم ایدیکه اونی احاطه ایده‌ن محیط طرفندن آز عکس‌الحرکه گوروب تورك قادینینك اوزینی تربیه ایتمك ایشینده‌ده اك چوق نتیجه‌لر الده ایدیلسین.

1920 نجی ییلده، آذربایجاندا شورالار قورولوشی برپا ایدیلدیگدن؛ بر نیچه آی گیچدن صوکرا بر نیچه نفر تورك قادینلاری (خاوه‌ر شعبانووا، عزیزبیکووا، بایرام اووا، سارا طالب‌اووا، لمعان دوزداروا و بر نیچه‌ده باشقا یولداشلار) بر تورك قادین قلوبی‌نك آچیلماسینی قرار قویورلار.

حکومتده بو ایشه کومك ایتدی؛ خصوصی بر ایو تعین ایدوب لازم اولان مخلفاتیدا بیراقدی .. قلوبی تشکیل ایدنلر قاپو به قاپو گه‌زوب تورك قادینلارینی قلوبا چاغی ایچمگه و اویون اویناماغا چاغیریردیلار. اوللرده تورك قادینلاری قلوبا، قورقا-قورقا گلیردیلر: «بولشه‌ویکلردن آدامك باغری یاریلیر؛ بیز اورایا نیچه گله‌ك!...» ده‌ییردیلر.

چای ضیافتنده بیزیم تورك قادین یولداشلاریمز گه‌لنلر ایله صحبت باشلاییردیلار. گیتدیگجه تورك قادینلاری بو قلوبدا بر نفرده اولسون کشی خایلاغنك...» اولمادیغنی گوروب یواش - یولداش یوره گله‌نوب قلوبا هوسله گه‌لیردیلر.

1920 نجی ییلیك آخرلاریندا «علی بایراموف» قلوبندا 100 نفر عضو قادین وار ایدی؛ و قلوب یانیندا بیرده سوادسیزلیغی لغو منطقه‌سی وار ایدی.

بو یدی ییلك عرضنده بیزیم قلوبلارا باغلادیقمز امیدیمز بوچا چیقمادی. بو قلوب تورك قادینلاری ایچون اگلنجه یئری و مکتب اولماقدان باشقا انقلابی بر اوجاق یئرینی‌ده دوتمشدر. تورك قادینی بو قلوبدا تام معنی‌سیله حاضرلاشمش، اوز حیاتنی تأمین قادر، دوشونجه‌لی بر مبارزه کیبی چیقوب سوگرادا فرقه‌یه کیچیرلر.

بو حالدا «علی بایراموف» نامنه تورك قادین قلوبی - 1600 نفر عضوه مالك اولان بویوك بر مؤسسه‌در که بورادا سوادسزلغی لغو منطقه‌سیندن باشلایوب فعله فاقولته‌سینه کیبی بوتون تدریس منطقه‌لری‌واردر.

قلوبدا همکارلار تخنیق مکتبلریده واردر. (بومکتبلر: خالچا توقوماق، تیکوب، بیچمه‌ك، جلدچیکمك و سائره‌دن عبارتدر) قلوب داخلنده ماماچالیق تخنیقومی، ماکینه‌ده یازماق، تلغرافچیلار و باشقا قورصلار دخی موجوددر. آخردا بو قلوبدا تورك قادینی‌نك اگلنجه و استراحتی و اینجه صنعت لیاقتی‌نك انکشافنی درام درنکی، خور، باله‌ت، مخبرلك، موسیقی و باشقا درنگلرده آچیلمشدر. بو قلوبدا یوز تیکیش ماگینه‌سینا مالك اولان بر تیکیش آرته‌لی‌ده واردر.

«علی بایراموف» نامنه تورك قادین قلوبی عموم دنیا مقیاسنده تاریخی بر اهمیته مالکدر. چونکه شورالار اتفاقی خارجندن باکویا گلمش ده‌له‌قاتلار هئیتلرینك هاموسی بو قلوبی ایشیدوب اونك گونده‌لك حیاتیله تانیش اولیرلار.

«علی بایراموف» نامنه قلوبك مثالینده باکو و رایئو - نلارینداو باشقا قلوبلار آچیلمشلار. بو قلوبلاردا 1،570 نفر عضو اولوب، یالیگز همکارلار تخنیقی مکتبلردن باشقا یئرده قالان قلوب فعالیتی بو رایئون قلوبلارینداو دخی آپاریلماقدادر.



بو سوك ایکی ییل عرضنده باکو ورائیون‌قلوبلاری واسطه سیله‌دونلوقلی‌ایشلری گوندریلمش تورك قادینی: 673 اجتماعی ایشلره گونده‌ریلنلرده 558 نفردرلر. او جمه‌لدن: (قوئوپیراتیفلره 52؛ قلوب هئیت‌اداره‌لرینه 113؛ شورالار سه‌قسیالارینا ـ 163؛ رائیون شورالارینا ـ 135 ، باکو شوراسینده ـ 66؛ مختلف موّسسه‌لره تحکیم‌اولونانلاردا ـ 30 نفردرلر.)

قضا مرکزلرینده‌ده بو شکل‌ده قلوبلار آچیلمشلار. بو قلوب فعالیتلری اونلارك مادی قوه‌لری داخلنده انکشاف ایدیرلر. بو قلوبلار داخلنده‌ده قلوب فعالیتنك اساسی شکللری - اینجه صنعت و استحصالات فعالیتی آپاریلماقدادر.

قضا قلوبلاری اطرافنه 1150 نفر تورك قادینی توپلانوب بوتون تورك قادینی کتله‌سینی اوز فعالیتی اطرافنه جلب ایتمشدر.

تورك قادینلاری آراسیندا آپاریلان فعالیتده صحیه و مدنی ایشلرك بویوك اهمیتی واردر. بو مقصدله‌ده قلوبلار یانیندا اوشاقلار اوتاغی، یاشلی‌لر، اوشاق باغچالاری و میدانچالاری، اوشاق قونسولتاتسیالاری و سائره تأسس ایدیلمشلر. قلوبلارك منزللری کفایت ایتدیگی حالدا یوقاریدا گوستریلمش اولان موسسه‌لر قلوب یانیندا آچیلرلار؛ لاکن منزل تاپلمادیقی حالدا بو موسسه‌لر باشقا یئرلرده آچیلوب اورالارا باشلیجا صورتده قلوب عضوی اولان امگچی قادینلارك چوجوقلاری قبول ایدیرلر. باکوداکی قلوبلارینك 3 ینك یانیندا اوشاق، اوتاقلاری و 3 ینك یانیندا یاشلی‌لار آچیلمشدر. عموم رایئون دائره‌سنده آچیلمش اوشاق قونسولتاتسیاسینا تورك قادین‌لاری آرتیق هوسله گلیرلر. بورادا تربیه‌وی ایش تورك دیلینده آپاریلیر. اوشاق باغچالاریندا دخی تربیه ایشی بویله قورولمشدر.

قضا قلوبلاری یانیندا اوشاق میدانچالاری و اوشاق قونسولتاتسیالاری چوق بویوك نفوذ قازانمشلار. بو موسسه‌لره گلن تورك قادینلارینك حق - حسابی قدردن آرتیقدر. اوشاق قونسولتاتسیالاری هامودان آرتیق گنجه، نوخا و نخچواندا یاقشی دوزه‌لمشلر. بو قونسولتاتسیالاری شهر اهالیسنیدن باشقا کندلی قادینلارادا خدمت ایدیرلر. نخچواندا-کی اوشاق قونسولتاتسیاسی واسطه قادین قلوبی کندلی قادینلار ایسه رابطه باغلیابیلیر.

ایشك اوللرینده بو کبی معیشتی دوزه‌لدن موسسه‌لره تورك قادینلاری اعتمادسیزلیقله یاناشیردیلار. اونلاری عادت ایتدیرمك ایچون چوق زحمتلر چکیلدی. بو یولدا بیزه سانیتار درنگلرینده بویوك کومگلر گوستروبلر. باکوداکی درنگلردن 646 نفر تورك قادینلاری بیراقیلمشلار. بونلاردان باشقا معیشتی یاقشیلاشدیران مسئله‌لر ایله تورك قادینی «شرق قادینی» مجموعه‌سی و باشقا غزته‌لر واسطه‌سیله‌ده تانیش اولوبلار.

بو حالدا معیشتی یاقشیلاشدیران موسسه‌لره تورك قادینی‌نك گوزه‌ل میل و رغبت گوسترمه‌سینی اوندان بیلمك اولور که تورك قادینلارینك عمومی یغنجاقلاریندا، کندلرده، نماینده‌لر یغنجاقلاریندا چیقیشدا بولونان تورك قادینلاری آرتیق جدیتله یوقاریدا گوستریلمش اولان موسسه‌لرك آچیلماسینی طلب ایدیرلر.

بیزیم کندلرده‌کی کندلی قادین گوشه‌لریمزك اهمیتی آز ده گل، بو گوشه‌لرك چوغیندا هئیت اداره‌لر ترتیب ویریلمشلر گوشه‌لرك نظارت ایدیرلر.

بیزیم کندلرده‌کی کندلی قادین گوشه‌لریمز هله‌لیك ضعیف بر حالدا ترقی ایدیرلر؛ لاکن بزیم سوادسیز و مدنیتسز کندلریمزده بو گوشه‌لر چوق بویوك اهمیتلی بر ایشدر که گله‌جگده، بزیم کند تصرفاتمز محکمله-شدیگجه بو گوشه‌لر بویویوب! آخردا قلوبلار تشکیلنه گیره‌جگلر.

م. قریلووا.

ایمپه‌ریالیستلر باکونیك نفتنی و آذربایجانیك پامبوغنی غصب ایتمکه حاظرالاشیرلار

«آیلوف» نامنه فعله قلوبی نك اوقتیابر 10 ییلیگینه نائلیتلری.

انشا آتچیلار اتفاقینك شهر دائره‌سنده «آیلوف» نامنه بر قلوبی واردر.

ظاهری باقیشدا بو قلوب کوچك قلم بلاردان بریدر؛ حتی براوقدده گوزه چارپمایور. باکونك مرکزدن اوزاق کوچه‌لرندن بیرینده بیرلشدیکی ایچون قلوبی تابماق دا چتین‌در. لاکن بو قلوبك فعالیتنه یکون ووردیغمزدا جرئتله دیمك اولارکه بو قلوبك اوبویوك موفقیتلری‌ده اوقتیابرك 10 ییللیگنده الده ایتدیکمز بویوك نائلیتلردن بیرینی حساب ایتسه‌ك سهو اولمیاجاقدر. بو رایوندا تورك قادین لاری چوقدر؛ «علی بایراموف» نامنه قادین قلوبی دخی بورادان چوق اوزاقدر. شورا حکومتی‌نك گه‌تیردیکی یکی حیات ایله تورك قادینلارینی قلوبدان باشقا نه کبی یئرلرده تانیش ایتمك اولور؟ اونا گوره‌ده «آیلوف» نامنه تورك فعله قلوبی یالکز کشیلر آراسندا دگل حتی فعله لرك آروادلارینك‌دا آراسندا فعالیت آپارماغاباشلادی.

بو ایلك‌نظرده چوق چتین وجرعت‌ایسته‌ین بر ایش ایدی. تورك قادینلاری کشیلرله‌برابر اجلاسلارا گله‌رلرمی؟ بونا امرلر، قارداشلار نه دییه‌رلر؟

لاکن عصرلر اوزونی غیرممکن سانیلمش ایشلر آذربایجاندا شورا حکومتنك بش ییل دوامندن سوکرا یالکز ممکن دگل بلکه‌ده آسان بر ایش گورونه‌ندی.

1925 نجی ییل‌ده مارتك 8 ینده بو ایشه باشلانیلدی. تیکیش آرته‌لی، امل ایشلری درنگی و بر نجه‌ده باشقا سوادسزلغی لغو، صحیه کبی درنگلر تشکیل ایدیلدیلر.

اوللرده امیدسیز گورونن بر ایش آز مدت‌ایچریسنده نظامه دوشوب آرتق فائده‌لی اولدیغی گورونه‌ندی.

بش ییل مدتنده شورا حکومتی ثوز ایشینی گوردی. درنگلر مکمل صورتده تشکیل‌ایدیلوب ایشه باشلانیلدی. قادین‌لار شعبه‌سی و اتفاق طرفندن ترتیب ویریلمش اوقو ایشلری‌ده نظامه دوشوب گوزه‌ل نتیجه‌لرویرمکه‌باشلادیلار. قاباقلاردا چارشافا بورونوب گیزله‌نن تورك قادینلاری‌ایمدی قلوب اوتاقلارینی دولدیرب آرتیق شوق و هوسله ایشه گیریشدیلر. قلوبا گلنلرك باشلارینداوللرده آنجاق چارشاف گورونوردی، لاکن وقت اوزاندیغا چارشاف آلتیندان قرمزی له‌چك‌لرده گورونمگه باشلادیلار.

قلوبك فعالیتی گیت گیده انکشاف ایدوب‌محکملنردی. ایکی ییلدن سوکرا تورك قادینلاری اوزلری دیللەندیلر. قلوبك اسکی‌حالندا، منزل دارلغی شرائطی ایچنده‌موفقیتله ایش آپارماق ممکن‌اولمادیغنی بیان‌ایتدیلر. قلوبدا کشیلرله برلیگده ایشله‌مك سوزینی‌دیله گتیرمه‌دیله‌ر. عکسینه قلوب منزلنك داریسقالیقندا قلوب ایشینی گه‌نیشلندیرمکه امکان اولمادیغندان شکایتلر یاغدی. قلوبدا چالشماق‌ایشله‌ین‌تورك قادینلارینك هاموسنی قلوبدا برلشدیرمك ممکن اولمایردی. قلوب اجلاسلارینك هاموسینی گوندەك مسئله‌لرینی‌بر گون ایچریسنده بتیرمك ممکن اولمایوردی منزل داریسقاللغی ئه‌نگه‌ل تورەدیردی. قلوب سالونیندا 75نفره یئر اولدیغی حالدا اجلاسلارا 150دن آرتیق عضولر یغیشیردیلار.

قلوبدا اوقو ایشلریده آرتمشدی. 27_26نجی ییللرده بو قلوبك مختلف درنگلرینده 146 تورك قادینی تحصیله مشغول ایدی سوادسیزلیغی لغو قورصلارینی 51 قادین، سیاسی سواد قورصنی 18، صحیه 20، قوئوپراتیف 14، موسیقی 18، بدن تربیه‌سی درنگلرینی 20 قادین عضولر بتیرمشدیلر. بوتحصیل‌ییلی‌ایچون یوقاریدا کی قورصلاردان باشقا قلوب‌دا عمومی تعلیم قورصیدا آچیلەشدر. بورادا 18 تورك قادینی عمومی تحصیلده دوام ایدیرلر.

منزل و باشقا مادی واسطه‌لر امکانی داخلنده قلوبك استحصالات ایشلریده گه‌نیشله‌نیر. قلوبدا کی تیکیش آرته‌لندن باشقا (بورادا 25قادین چالیشیر)؛ جوراب توقویان‌اعمالات خانه‌لرده 15 قادین؛ امل ایشی قورصلارینداً 15؛ و که‌سوب پیچمه قورصیندا 13 تورك قادینی چالشیر.

27_26نجی ییللرده قلوب جنبنده کی نماینده قادینلار یغنجاغندا 52 نفر نماینده قادین پروغرام اوزره حاضرلق آلمشلار؛ نماینده قادینلار یغنجاغی وقتلی وقتنده یغیشوب پروغرامی موفقیتله بتیرمشلر ونتیجه‌ده 19تورك قادینی‌عملی ایشلره‌جلب‌اولونوبلار. نماینده‌قادینلار یغنجاقلارینداً تورك‌قادینلا ری‌دفعه‌لرله چیقیشدا بولونوب‌دیمشلر که اوزحیاتلرینده، ایوده، عایله ایچریسینده آپاردیقلاری‌یکی حیات پروغرامیله‌یاشاماق لارینا اوز امرلری آثالاری مانع اولورلار. عصرلر اوزونی عادت ایتدیکلری طرزحیاتی‌ده گیشمه گه‌اونلاری‌قویمیورلار.

بو چتینلیکلر، مانعه‌لرله برابر یکی و ادراکلی‌یاشایش اصولیله اوز حیاتلارینی قورماق ایشینده بو کوهنه قانونلار تورك قادینلارینا مانع اولابیلمیه‌جکلرینی آرتیق متاثله‌اعلان ایدیرلر. هر دفعه قلوبك عمومی اجلاسلارینداً یا خود نماینده قادینلار یغینجاقلارینداً تورك قادینلارینك خلوت و اه‌گری اوگری کوچه‌لردن آرتق شوق و هوسله قلوبا یغیشوب یکی مدنی حیات یولی اوگره‌نمك ایچون بالاجا مدنیت اوجاغینا تله‌سدیکلرینی گوردیکده یوره‌ك شاداولور.

ل. ب.

آذربایجان قوممونیست (ب) فرقه‌سینده قادین.

1. قوممونیست قادینلارڭ سایجا آرتمالاری وعموما فرقه عضولرینه نسبت قادینلارڭ فائضی.

آذربایجان قوممونیست (ب) فرقه‌سینده قادینلارڭ سایی آراسی کسیلمگسیزین آرتماقدادر. 23 نجی ییل، یانوارڭ برینجدن 27نجی ییل اوقتیابر آیینا کیبی فرقه‌ده‌کی قادینلارڭ سایی 4 دفعه آرتمشدر. او زمان فرقه‌ده 383 قادین اولدیغی حالدا ایمدی 1541 قادین‌عضو واردر. لاکن‌عموماً فرقه عضولرینه نسبتاً‌قادین‌لارڭ فائضی 5،4در. فرقه‌ده اولان 1541 قادینلارڭ 1117 سی باکو تشکیلاتنده، 424ی ایسه قضالاردا کی تشکیلاتلاردادر.

23نجی ییل یانوارڭ برینجدن 27 نجی ییل اوقتیابر آیینا کیبی باکو تشکیلاتندا کی قادینلارڭ سایی تخمیناً اوچ‌یاریم دفعه آرتمیشدر. (قاباقلار 330 نفر اولدیغی حالدا ایمدی 1117 نفردر). قضالاردا ایسه قادینلارڭ سایی بره 8 دفعه آرتمیشدر. (53 نفر اولدیغی حالدا ایمدی 424 نفر اولوبدر.)

آذربایجان قوممونیست(ب) فرقه‌سنده قادینلارڭ مقداری آراسی کسیلمگسیزین آرتدیغی حالدا یئده دیمك اولار که‌فرقه‌ده‌قادین‌لارڭ‌مقداری کافی‌درجه‌ده‌کیلدر (5،4 فائض) فرقه‌مزده کی541نفر قادین‌لارڭ917 (59،5فائض)ی عضو 624 (40،5فائض)ی نامزددرلر.

مراقلی بوراسیدر باکو تشکیلاتنده عضو قادینلارڭ نامزدلره نسبت فائضلری عادی اولدیغی حالدا (عضولری 70،3 فائض؛ نامزلرده 29،7 فائض) ـ تضالرده ایسه نامزدلرڭ مقداری آرتقدر ـ (33،1 فائض عضواولوب؛ 68،9 فائض نامزدر.)

بو جهتدنده نامزد قادینلار آراسیندا فرقه‌وی تربیه ایشینی‌جانلاندیرماق لازمدر که اوز وقتینده نامزلریده عضولیگه کیچیریلسونلر. قضالرده نامزدلرڭ آرتیق اولمالاری بوندادر که کنده اجتماعی ایش جانلانمیشدر؛ نمایندلر یغینجاق‌لاری قادینلارڭ مدنی تربیه‌لرینی یوکسه‌لدوب قادینلاریدا اجتماعی ایشلره جلب ایتمشلر. بوتون بو فعالیتڭ نتیجه‌سیدر که امکچی قادین ـ ایشچی‌موزدور، کندلی‌و یوخسول‌قادینلارڭ‌دوشونجه‌لری آییلوب‌فرقه‌ده‌میللری آرتمیشدر.

II. قوممونیست قادینلارڭ اجتماعی هیئتی.

1541نفر قوممونیست‌قادین‌لارڭ 484 (31،4فائضی)ی قادین؛ 200 (31 فائض)ی کندلی قادین؛ 857 (55،6 فائضی) ی اداره‌لرده قوللوقچی و سائرلریدرلر.

باکو تشکیلاتنده ایشچی‌قادین ـ 432 (38،8فائض)؛ کندلی قادین 51 (4،5 فائض)؛ اداره‌لرده قوللوقچی و سائره ـ 634 (56،7 فائض)؛درلر.

قضا تشکیلاتلاریندا ایسه ایشچی قادین ـ 62 (12،3 فائض)؛ کندلی قادین ـ 149 (35،1 فائض) ؛ اداره‌لرده قوللوقچی و سائری‌ده 223 (52،6 فائض‌در)

بوراڭا « اداره‌لرده قوللوقچی وسائره » جدولی دقتی جلب ایدیر . بوندان سوکرا لازمدرکه برنجی نوبه‌ده فرقه‌یه ایشچی‌سکندلی، یاخود اورتاباب قادینلارڭ یاقشی حصه‌سینی گوتورمگه دقت یتیریلسون. و برده موزدور قادینلارڭ فرقه‌یه جلب ایدیلمه‌سنه آرتیق دقت ویرمك لازمدر. فرقه‌ده 5 نفر موزدور قادین واردر.

III قوممونیست قادینلارڭ صنعتجه هیئتی .

فرقه‌ده اولان ایشچی قادینلاردان دزگاه باشیندا چالیشانلار ـ 263 (17،1 فائض) ؛ کوتان باشیندا دوران کندلی قادینلار ـ 115 (7،5 فائض)؛ موزدور قادین ـ 5(0،3فائض)؛ شورا،فرقه، همکارلار و باشقا تشکیلات و موسسه‌لرده چالیشان ایشچی قادینلار 880 (57،1فائض) ؛ آخردا سائره‌لر یعنی (ایو خوزیایقالاری ، قوستارلار، تحصیلده اولانلار) 278 (18 فائضدرلر).

باکو تشکیلاتنده دزگاه باشیندا کی ایشچی قادینلار 229 (20،5فائض)؛ کندلی قادینلار 9 (0،8فائض)؛ شورا، فرقه، همکارلار وسائر تشکیلات و موسسه‌لرده چالیشانلار ـ716(64،1 فائض) وسائره‌لری ـ163 (14،6فائض)درلر.

قضا تشکیلاتلاریندا ایشچی‌قادین‌لار ـ 34 (8فائض)؛ کندلی قادینلار 106 (25 فائض) ؛ موزدور قادینلار 5 (0،2 فائض)؛ شورا، فرقه، همکارلار و سائر تشکیلات و موسسه‌لرده چالیشان‌لار ـ164 (38،7فائض)در وآخردا سائره‌لریده 115 (27،1 فائض)درلر..

نتیجه:

امکچی قادینلاری آذربایجان قوممونیست (ب) فرقه‌سینه جلب ایتمك لازمدر ؛ خصوصاً دزگاه باشیندا کی ایشچی قادین‌لاری، موزدور وکوتان باشیندا کی کندلی قادین‌لاری؛ ایلك نوبه‌ده یوخسول قادینلاری و سوگرادا اورتاباب‌لاری جلب ایتمگه دقت یتیرمه‌لی؛ تورك قادین ـ لارینڭ فرقه‌یه جلب ایدیلمك ایشینی گوجلندیرمه‌لی؛ ایره‌لیکی کیبی‌امکچی قادینلارآراسیندا فرقه‌وی تربیه‌واجتماعی ایشلری دوام ایتدیرمه‌لی..

و. ق.

*)بو مقاله‌ده‌کی رقملر بو ییل اوقتیابرڭ برینه توپلانمش معلوماتدان آلنمشدر

آذربایجان تورك قادینی‌نك حقوقجه وضعیتی.

هر ایشیك اوژینه مخصوص یوقلاماسی اولدیغی کبی بوگون بویوك اوقتیابر انقلابنك 10 ییل‌لیك یوبیله‌سنده آذربایجان تورك قادینلاریدا اوز حقوقی اختیارلاری حقنده یوقلاما ایتمه‌لیدرلر.

قادینك حقوقی اونك بشریت عضولرینه عائد اولان هر بر اجتماعی، اقتصادی و غیره بوکبی بتون ایشلرده اشتراك ایتمگه بر انسان کبی حقی وار دیمگدر . . بوندان ماسوا شورالار حکومتنده انقلابی قانونلاردا تورك قادینك حیات ومعیشتنه عائد دخی بر چوق خصوصی ماده‌لر قید ایدیلمشدر که، بورادا اسکی موهومی و ارنی عنعنه نه‌لردن اولاراق قادینك حقوقنه تجاوز ایدیلمه‌سنده شدید بر مبارزه آپارماق ایچین جانلی بر اساس اولا بیله‌رمك قولدن فعله کیجیریلیر.

مین ییل‌لرله دوام ایدن اسکی عنعناتلاریك نتیجه‌سی اولان ایکی ـ اوچ آرواد آلماق، کوچك یاشدا قزلاری اره ویرمك، قول کبی ساتماق، گوتوروب قاچماق قیز آداخلاماق، ایسته‌دیگی شخصله ایولنه بیلمه‌مك، عائله‌ده تام معناسیله اره قول و اسیر اولماق؛ انسان ایکن انسانلق حقوقندن محروم اولماق تام معناسیله تورك قادینی‌نا مخصوص بر طالع اولدیغنی دییورم.

1923 ـ نجی ییل‌لره کبی بونلار ایله مبارزه ایتمك، قادینك وارلغنی، تام معناسیله عائله حقوقنی اونا اوگرتمك بر طرفدن قادینك عواملیغی، جسارتسیزلیگی مانع اولیوردی.. فقط هر شیئك برغایه و مقصدی اولدیغی کبی تورك قادینلاری عالمنده دخی وقتیله اوزطرفلریندن بونلاریك آرادان قالدیریلماسی مسئله‌سی اولاماسنه شبهه یوق ایدی.

قوممونیست فرقه‌سنك رهبرلیگی سایه‌سنده گیت گیده قادینلار آراسندا آپاریلان ایشلریك موفقیتی اولاراق یاواش یاواش تورك قادینی دخی‌اوزحیاتی مسئله‌سنی حل ایچین قالقشدی لکن بورژوآزیاو «مساوات» حکومتلرینك دخی شرعی بر قانون اوزره تورك قادینی علمدن محروم ایتدیکلری نتیجه‌سی اولاراق حالا یه‌ده بر چوق اوزاق و قارانلقدا قالمش کند قادینلارمز بوکبی قانونلاردان او قدر استفاده‌یه قالقشماغا جسارت ایتمه‌یوبلرسه‌ده، فقط یه‌ده بونا باقمیاراق شورا تشکیلاتلارینك واسطه‌سیله بیز محکمه‌لرمزی جانلی اولاراق کندچی تورك قادینلارینا یاقینلاشدیروب اونلاریك گیزلین دردلرینی حل ایده بیلیریك و دیگر طرفدن قادینا اوز حقیقی مدافعه‌چیسی و اونك حقیقی رهبرینی اوگره‌تمکله اونلاری اوزحقوقی نقصانلاری ایله مبارزه ایشلرینده بیوك‌نائیلیتلره‌جلب‌ایتمیشیك.

باقشی گونده یامان گونی یادایتمك‌ده لازمدر. دیمك تورك قادینی بوگون‌حیات‌جبهه‌سنده بیوك رول‌اوینامقدادر.

ملکی جنایت و وطنداش قانونلاریندا تورك قادینلارینك هر بر احتیاجلارینا قارشو ماده‌لر قید ایدلمش و دیمك تمامیله او تام بر حقوقله تأمین اولنمشدر. شورا حکومتی‌نك مبارزه‌لرینden الك مهم بریسی‌ده قادین حقوقنه تجاوز ایده‌نلر ایله مبارزه آپارماق و قادینلارمزیك هیچ‌وجهله قورقماداندبتون‌اجتماعی ایشلرمزه جلب‌ایدیلمه‌سیدر.

قورولتای و قونفرانسلاردا تورك قادینیك چقیشی، اوز حقوقنی طلب ایتمه‌سی خصوصی حیاتلاری، و حکومت ایشلرینده بویوك بر جدیتله چالیشماسی، اوز متانت و اراده‌سنی غیب ایتمه‌دن بر مبارز کبی میدانه آتیلماسی، مین‌لرجه نقصانلارینی دفع ایدوب علی‌الخصوص صوك زمانلار معارفه دوغرو اولان رغبتلرینی سیر ایتمك بیوك فخرلردن الك بیوگی‌در. دنیا یوزینده هیچ اویله حکومت اولمامشدر که، او ـ تورك قادینی‌نی ایمدیکی وضعیته سالا بیله‌ایدی؛ داها دوغریسی تام حقوقله انسانلیق صیراسینا داخل ایده بیله‌یدی. تورك قادینیك صوك جبهه‌لرینden بری قالمشدرسه‌ده اودا آنجاق وآنجاق چارشاف‌مسئله‌سیدر.

گمان ایدیلیرکه، قادینا ویریلن بو قدر حق حقوق قارشوسندا «چادرادان خلاص اویکز»! شعاری قادینلاریك اوز اشتراکلری ایله اولمالیدر.

بو مبارزه اوقتیابر انقلابنك اون سنه‌لیگی مناسبتیله تورك قادینیك صوك و جدی شعاری اولمالیدر.

چادراسیز قادینلاردان عبرت آلاراق باشقا تورك قادینلاریدا گیزلنمك و مجبوریت قارشوسندا یوق؛ حال حاضردا بر موداکبی دوام ایدن چادرایی خلاص ایتمکله داها صمیمی‌داها جدی اوز مبارزه‌لرینه دوام ایتمه‌لیدرلر. شورالار حکومتنه قادین قوه‌سی چوق لازم‌در؛ چونکه شوراحکومتنده‌قادینلاردخی کشیلرله برابرول‌اوینامالیدرلار. اونلارتام‌معناسیله‌یولداش‌اولاراق‌سوسیالیزم‌قورولوشندا الك گنیش فعالیته یول آچمالیدرلار.

هایدی تورك قادینی!

سنك آزادلیقگی مدافعه ایدن بیوك اوقتیابر انقلابنی، سنی گونش نورلرندن‌محروم‌ایدن‌چادرانی‌دا آتماقله‌قارشولا!».

سوسیالیزم‌ده یوبوك رول سنك‌در.

گل‌آرا کویلی قیزی.

کندلی قادینلاریڭ شورالاردا کی رولی.

کچن ییلکی شورا سه‌چگیلرنده بوتون قضا، دائره وکند شورالارینا عمومیته 5743 قادین سه‌چیلمشدی. بو مقدار، بو ییلکی (27_نجی ییل) سه‌چگیلرده 5990 اولمشدر. بونلارڭ ایچه‌ریسیندن کچن ییلده 12 قادین کند شورا صدری و بو ییل ایسه، 23 قادین شورا صدری واردر. سایجا بو رقملر آذربایجان شرائطنده البته هلهلك آز دگلدر.

اوقتیابر انقلابنڭ قادینلارا ویرمش اولدیغی حقوق سایه سنده؛ قادینلار شورا ایشلرینه جلب ایتمکدن مقصد، شورالاردا اولان سایینی چوغالتماق دگل، آنجاق گیندیکجه اونلارڭ ده گه‌رینی آرتیروب اویله بر شرائط یاراتماقدر که، قادینلارمز، حقیقتا کنله‌نڭ حل ایده‌جکی مسئله‌لرده یاقیندان اشتراك ایتمکله او مسئله‌لرڭ حلنده اثبات وجود ایدوب دولت و حیاتی ایشلرینی ئوزلری حل ایده‌بلسونلر. بونڭ ایچون شورالاردا اولان قادینلارمزا الویریشلی شرائط یاراتماق لازمدر. چونکه بو باره‌ده ألدن گلن هله آز ایدیلمشدر.

قادینلارڭ ایشلرینی نظردن کچردیکده میدانه چیقیر که، اونلارڭ گوندهلك عملی ایشلره جلب ایدیلمه‌سنه آز اهمیت ویریلمشدر. اوگا گوره دیمك اولارکن قادین شورا عضولرنیڭ عملی اولاراق چالیشماسی ایشلری آقسایر. بو خصوصدا بر نیچه قضا مستثنا اولسالار بیله عمومیته ایشڭ ضعیف طرفی نظره چوق چارپیر. بویله که، بر کند شوراسنه سه‌چیلمش یدی ـ سکز قادیندان شوراجلاسلارینا یالڭز بر ـ ایکیسی گلیر. حتی بعض یرلرده اونلارڭدا گلمه‌سی مشاهده اولونمایر. بو خصوصدا دیمك اولور که، قادین شورا عضولری شورا اجلاسلارینا مقدارجا کیشیلر ایله برابر آنجاق قازاق و کوردستان قضالاریندا گلیرلر. کند شورالاری اجلاسلارینا قادینلارڭ آز گلمه‌سنه سبب بر طرفدن اونی گوسته‌رمك اولور که، موهومات تورتو کو تیسی نتیجه‌سی اولاراق اونلارڭ مدنی جهتدن گه‌ری ده قالماسی، سوادسزلقلاری وبو کبی بر چوق جهتلر ودیگر طرفدن ـ وقتلی وقتنده کند شورالاری اونلاری اجلاسلارا دعوت ایتمه‌مه‌سیدر. بونگله برابر، اونی‌دا اونوتمامالیدر که، قادین شورا عضولرنیڭ آراسندا فعال (آقتیو) اولاراق چالیشانلاری چوق‌دا اولماسا، آز مقداردا واردر. اویله آقتیو قادینلار، کند شوراسی اجلاسلارندا دیوار کونجنده اگله‌شه‌رك، چوبوغنی داماغنا آلوب توستوسنی کوکه پوفوردن و هیچ بر مسئله‌نڭ حلنده اشتراك ایتمه‌ین بر چوق کیشیلردن البته دفعه‌لرله ده گرجه آرتقدر. بونی دیمکدن مقصد او دگل که، فعالیتسز اولان کیشیلر دخی اولدیغی کبی قالوب، قادینلارڭ آقتیولگنی اونلارا نسبتا بو کسه‌لتمك لازمدر. گرك چالیشمالی که هم کیشیلردیری ـ باش اولسونلار هم‌ده قادینلار اونلاردان گه‌ری قالماسونلار.

بورادا ألڭ بویوك نظر دقتی جلب ایده‌جك، بر مسئله، کندلی قادین شورا صدرلرنیڭ ایشلریدر. بو خصوصدا دیمك اولور که، الده ایدیلن موفقیتلر چوقدر. بیزهر گاه کندلی قادین شورالاری صدرلرنیڭ ایشلرینی، کیشی‌شورا صدرلرنیڭ ایشلری ایله مقایسه ایده‌جك اولورساق، هیچ وقت دیمك اولمازکه، قادین شورا صدرلری اونلاردان گه‌ری قالیرلار. حتی، کوردستان، آغدام و سالیان قضالا رندا بعض قادین شورا صدرلرنیڭ ایشی، فعال کیشی‌شورا صدرلرنیڭ ایشلرینه برابر و دیگر اتفاقلاردا هله اونلاردان آرتق اولور دیمك ممکندر. بورادا نمونه اولاراق، کند لی قادین شوراسی صدرلریندن برنیڭ معروضه‌سنی قید ایتمك لازم گلیر، مثلا، کوردستان قضاسنیڭ ایشینی کند شوراسی صدری **تاوات همت اووا** یولداش، قضااجرا ئیه قومیته‌سنڭ 10 سنتیابردا چاغیرمش اولدیغی پله‌نوم اجلاسندا کند شوراسنڭ فعالیتی حقنده معروضه‌ده بولوناراق گوسته‌ریرکه:

« سیاسی وضعیتمز پك محکمدر و کند شوراسی بو خصوصدا آیق بر صورتده داورانمادادر. ملالارڭ، سیدلرڭ، و بو کبی باشقا موهوماتجیلارڭ نفوذلاری کتله آراسندا یوق درجه‌سنه وارمش و ئولمشدر. کتله، آرتق داها آییلمش و اویله فیریلداقجیلارا یاناشماقدان اوزاق دورور. کچن محرم آیی مناسبتیله نه دسته بازاق و نه‌ده خنجر ووراق میدانه چیقمشدر. شورامز منطقه‌سنده ایکی دفعه اوفاجق عادی اوغورلقلار اولمشدر. گوتوردیگمز تدبیرلر نتیجه‌سنده هر ایکیسنڭ اوستی آچیلدی. اونلاردان بریسی بویله ایدی: بر نفر کندلینڭ گیجه وقتی یاتدیقی یرده جیبیندن یتمش بش منات پاراسنی اوغورلامشلاردی. شبهه. قومشولاری اوزرینه ایدی. بیز گوتوردیگمز خطر کنگ نتیجه‌سی بیله اولدی که، صباحی گونگ گیجه‌سی اوغرو بولی متضررڭ قاپیسنا آتیر. تاسف اولسونکه، همان اوغرو بللی اولونمادی.

کندلی زراعتلرینه حیوانلاری ایله زیان ووران‌لارك هر برندن متضررك زیاتدن باشقا، بر مناته قادار جریمه آلوب ئه‌ل کومکی قومیته‌سی صندوغنه ویریریك.

دولت سغورتا ایشلرینه اهالیمز یاقشی یاناشیر. واحد کند تصرفات ویرگی ایشلرمزده گوزه‌ل درجه‌ده‌در. ممکن اولان سو آرخی یرلرمزده آرخلار چکدیروب بویله یرلرك هاموسنی پەینله‌شدیرمیشیك. کنده اولان سکز بولا غی لایق بر صورته سالماقله کند یوللارمزی‌ده تعمیر ایتد یرمیشیك. منطقه‌مزده اولان اوچ مکتبدن آنجاق بری میشنی کندنده‌در. بو مکتب، آلخاصلی کندی چوجوقلار نیگ استفاده‌سی ایچون چوق اوزاقدر. گیجه قورسندا اوقوماق ایچون 24 کندلی و12 قادین سیاهی‌یه آلینمشدر. آلخاصلی کندنده مکتب آچیلماغا اذن ویریلسه، اورادا یارار اوطه واردر. تصرفات و آبادانلق ایشلرینه فکر ویردیگمز بوندان بللی‌در که، بو ییل کند کنارلارندا اولان و زراعت ایچون استفاده ایدیلمه‌ین یرلری قوروتدو روب یول ایله کچن کوچری طائفه‌لره موقتی اولاراق دوشه‌لگه ایچون ساتدیق و حاصل اولان پارایی ئه‌ل کومکی قومیته‌سی صندوغنه ویردیك. بو پارادان یگرمی منات‌دا ویروب دورت نفر یوقسول قادینی قوئوپه‌راتیفه عضو یازدیرماغا سبب‌اولدیق. بویله منبعلردن آله گتیریلوب‌ده ئه‌ل کومکی قومیته‌سنه ویردیگمز پارا، اونگ بوتون وارداتگ 40 فائضنی تشکیل ایدیر. شورامزك تشکیلات ایشلری‌ده گوزه‌لدر. شورا عضولری اجلاسه هوسله گلیر لر. تصرفات، آبادانلق و مدنی- معارف بولمه‌لرمزه داخل اولان قادینلار متمادیا ایشله‌مگده‌درلر. دائره ایله علاقه‌مز صیقی‌در و اونگ رهبرلگی ایشلرمز اوزرینده گوجلیدر. تاسف اولسونکه‌دائره قادینلار تشکیلاتجیسی طاووس یولداش، دفعه‌لرله بنم طرفمدن اولان خواهشه باقمایاراق، بیزم شورایه ایمدی‌یه قادار آیاق باسمامشدر.

حکومت میشه‌سنی‌ده باشسز اولاراق قیریلماقدان محافظه ایتمگله لایقیجه فکر ویریریك. بو یاقینلاردا بیزم قوریه‌رمز باشسز اولاراق قیریلمش یگرمی یدی آغاجی میشه‌ده دوتمشدر. مقصرك اوزرینه لازمی آقت ترتیب ایدیله‌رك، همان آغاجلار اورمان مدیری‌اختیارینه ویریلدی. قیزیل عسکر چاغیریشنه اهالیمز یاقشی باقیر و بو ایشده ئوزلری رغبت گوسته‌ریرلر. ئوزلری‌ده ذره قادار ایمدی‌یه‌دك بو ایشده اعتناسزلق گوسته‌رمه‌مشلردر. «آویاخیم» و «هلال‌احمر» جمعیته یازیلانلارمزبك‌چوقدر. اهالیمزك زراعتی بو ییل دولودان قوراقلقدان بویوك فلاکته اوغرادی. اونگ ایچون جماعتمز ایمدیدن تاخیل آلماغا محتاج اولمشدر. بیزیم جماعتمز ایچون آریچیلیق تصرفاتی اهمیتلی بر ایشدر: اوگا گوره بونی مدنی بر اصوله سالماق لازم گلیر. توپراق ایشلری‌ده منتظم بر حالدادر. ئوزمزك توپراق قومسیونمزواردر که، مباحثه‌لی توپراق ایشلرینی حل ایدیر و آرتق یرلیلردن کسوب آز یوللره ویریر و الخ...».

کند شوراسنه لایق، پله‌نوم اجلاسندا ایشیدیلن بویله اطرافلی و دگه‌رلی بر معروضه اونی گوسته‌ریر که، حکومت ایشلرینی اداره ایده‌جك حاضرلانمش قادینلارمز واردر. لاکن بویله‌لری آز اولدیغی ایچون اونلارك ایشلرینه یاقیندان‌رهبرلك ایتمك، لازمی گوسته‌ریشارویرمك، ایشلرینی جانلاندیرماق و عملی ایشلرده اونلارا یاردیم گوسته‌رمك قضالاردا چالیشان شورا ایشجیلرنیگ اساس وظیفه‌لرندن بری‌در. اوگا گوره دیمك اولور که، شورا ایشجیلرمز قادین کند شوراسی صدرلری و عمومیتله قادین شورا عضولری ایشلرینه لازمی دقت ویرسه‌لر، اونلاردان گوزله‌دیگمز نتیجه‌لره یاقین زمانلاردا نائل اولاجاغمزا شبهه یوقدر.

شمس‌الدینسکی

له‌نین، امگچی قادینی، دولتی اداره ایتمك ایشینی اوگره‌نمکه چاغیرمشدر. یوز بیکلرله ایشچی و کندلی قادینلار، له‌نینك وصیتلرینی یرینه یتیره‌جکدر.

همکارلار اتفاقلاریندا قادینك اشتراکی.

اوقتیابر انقلابنك 10 ییلگینه آذربایجان سوسیالیست شورا جمهوریتی مقیاسنده قادینی همکارلار اتفاقی تشکیلاتنا جلب ایتمك ایشینده کی موفقیتلریمزه یگون وورماق اولار.

آذربایجاندا ایشجی قادینلارك گه‌ریده قالمش اولدیقلاینا باقمیاراق، بو حالدا ایشجی قادینلار تشکیلات آلتینا گیرمش پروله‌تاریاتك قاباق صفلرینده دورمشدر.

بو ادعامزی بو صوك ایکی ییل دورینده تشکیلات ایشلرینده کی نائلیتلریمزی رقملر اوزره ثبوت ایتمك ممکندر.

همکارلار اتفاقی					
عضوی قادینلار	1925ده	1953؛	1927ده	29165	آرتمشدر
مرکزی					
اداره‌عضوی	«	35	«	40	14فایض
دونلوقلی					
قوللوقلار اسه‌چلمشلر	«	4	«	6	50 « «
قومیته					
عضولری	«	421	«	642	52،5 « «
اونلاردان					
دونلوقلی سه‌چلمشلر	«	27	«	39	44،5 « «
تفتیش					
قومسیونی عضوی	«	129	«	228	76،8 « «
تسه‌خلرده					
نماینده قادینلار	«	790	«	962	18،6 « «
امك محافظه					
سی قومیته‌سی عضوی	«	148	«	225	72 « «
معارف					
قومسیونی عضوی	«	175	«	336	92 « «

بو صوك ییللرده ایشجی قادینك همکارلار اتفاقی تشکیلاتلاریندا آقتیو صورتده چالیشمالارینی ثبوت ایتمك ایچون بو رقملر کافی‌در.

بونیدا نظرده دوتمالیدر که آذربایجان قادین پروله‌تاریاتی مدنیتجه دالدا اولماق و عصرلرجه دوام ایدن موهومات ایچنده یاشاماق شرائطی داخلنده بو گوستریلمش نائلیتلره چوق چتین‌لیگلرله نائل اولا بیلمشدر.

بو نائلیتلره باقمیاراق بورجومزدر که گله‌جگده بو ایشی داهادا ده‌رین‌له‌شدیروب انکشافنه چالیشاق. چونکه صنایعمز بویویوب انکشاف ایتدیگجه بزیم تشکیلاته تازه ایشجی قادین قادروسی گلیر؛ بونلارك اکثری یاریم کندستان اهالیسی و یاخود کندلردن گلمش اولان مدنیتجه دالدا قالمش و بویوك حاضرلیق‌لارا محتاج اولان کندلی قادینلاریندان عبارتدرلر.

تشکیلاتلارا تازه‌جه گلمش ایشجی قادروسینی اوگره‌دوب حاضرلاماق ایچون، یعنی شورا سوسیالیست قورولوشیندا چالشماقدان اوتری قادین همکار آقتیونی بویوتمك ایچون بو تدبیرلری گورمك لازمدر.

1) همکارلا تشکیلاتلاریندا سه‌چگی‌ایله اولان ایشچی قادینلارك مقدارینی آرتیرمالی. اتفاقك مرکزی اداره‌سندن دوتمش آشاغی قومیته‌لره و قومسیه‌لرینه سه‌چگی اصولیله یکی وظیفه‌لره انتخاب ایتمك.

2) سه‌چیلمش ایشجی قادینلارا اوز وظیفه‌لرینی تاپشیرما و لازم اولان وقتلرده سه‌چیلمش قادین اوز فعالیتی باره‌سنده اونی انتخاب ایدنلره آتچوت ویرمه‌لیدر.

3) سه‌چیلمش ایشجی قادینلار ایچون اویله شرائط دوزه‌لتمه‌لی که اونلار چالیشا بیلسونلر. اوزلری حل ایتمگه عاجز اولدیقلاری مسئله‌لرده اونلارا یولداشواری کومك ایتمك، چونکه ایشجی قادین اوز تجربه‌سیزلیگی واجتماعی ایشده حاضرلیقسزلیغی مناسبتیله هله او قدر قوتلی دگلدر.

4) همکارلار اتفاقی فعالیتنك هر جوره شکلرینه رهبرلك ایتمك ایشینی قوتلندیرمه‌لی.

5) اوقو ایشلرینك هر بر نوعنه ایشجی قادینلاری جلب ایتمك ایشنی قوتلندیرملی.

فعالیتمزی بو شکلده قوردیقدا بیز قادین همکار آقتیویمزی بویودوب سوسیالیست شورا قورولوشمزدا اشتراك ایدن قادینیك سایجا وخاصیتجه یوکسه‌لمه‌سینه کومك ایده‌بیله‌ریك.

ر. قه‌نیقسبه‌رق.

یاشایش ساحه‌سنده کی موفقیتلریمز.

آذربایجان‌دا شورا حکومتی قورولاندان سوکرا تورك قادینینی اسارتدن قورتارماق مسئله‌سی جدی بر حال آلماغا باشلادی. لاکن قادینلارك حقوقسیز وقولی باغلی قالمالارینا سبب اولان شریعت قانونلاری و کوهنه‌لمش وحشی عادت‌لر شرائطنده بو مسئله‌نك حل ایدیلمه‌سی اولدیقجه چتینلشردی. تورك قادینینك حقیقی صورتده اسارتدن خلاص اولماسی ایچون قادینك کشیلر ایله برابر حقوقدا اولماسنی قید ایدن شورا قانونلارینگ تطبیقی و چوق آرواد آلماغی، وقتندن قاباق أره گیتمه‌گی فسخ ایتمکله برابر بر چوق باشقا تدبیرلرده گورولملی ایدی. بوتون بو تدبیرلر آذربایجان قادینینی باغلی حالندان آشکاره چیقاروب اونی مدنیته و معارفه یاقینلاشدیراجاقدی.

بویله‌لکله تورك قادینی‌دا فعله صنفی ایله برابر سوسیالیزم قورانلارك جرگه‌سنده دورماغا امکان تاپاجاقدی. بو زاتی ایچون بوتون کوهنه یاشایشی کوکندن ده گیشدیرمك و عصرلردن بری قادینك حقوقسز و باغلی قالماسنا سبب اولان نظریه‌نی‌ده اورتادان قالدیرماق لازمدی. بونگ ایچون یالگز قادینك ئوز حقنده عمله گلن فکری‌دگل بلکه کشینك‌ده دائما آروادا آغا اولماق کبی فکرلری اساسلی صورتده ده گیشدیروب، اونلاری وحشیلك وجهالت عالمندن چیقارماق لازم گلیردی. مانعلر ایسه تورك قادینینك اسارتدن قورتارلماسی ایشینه بویوك اه‌نگل تورمه‌دیردی.

1920 نجی ایلدن باشلامش بوتون آذربایجان‌دا بویوك تبلیغات ایشلری آپاریلماقدادر. بو تبلیغات واسطه‌سی ایله قادین حقنده اونك اسیر وقوللیقی باره‌ده بسلهنن کوهنه نظریه‌لره قارشی جدی مبارزه آپاریلیردی.

بو تبلیغات ایشلری ایله برابر قادین قولوبلاری کندلی قادین گوشه‌لری ونماینده قادینلاریغنجاغی ایله تورك قادینلاری آراسندا ده‌رین مدنی معارف ایشلری دخی آپاریلماغا باشلادی.

بو ایشلرك آپاریلماسی ایللرده بر چوق چتینلکلره راست گلیردیسه‌ده لاکن سوکرالاری بو ایشلر گیتدیگجه آسانلاشماغا باشلادی.

بو قاعده ایله قادین قولوبلاری تورك قادینلاری و تورك کتله‌سی‌نك اعتباریني قازاندی.

«علی بایراموف» آدینا تورك مرکزی امکچی قادینلار قولوبی ایلدن ایله آرتوب ئوز فعالیتنی گه‌نیشلندیریر. باکو نك صنایع دائره‌لرینده و عمومیتله آذربایجانك بوتون شهر و کندلرینده قادین قولوبلارینك سایی چوقالماغا باشلامشدر. بویله‌لکله بو قولوبلارا گلن قادین کتله‌سنك مقداری‌ده چوقالمشدر.

ایندیکی حالدا، یعنی 1927 نجی ایلده بوتون آذربایجاندا 30 قادین قولوبی و 36 کندلی قادین گوشه‌لری بولونور. بو قولوبلارا گلن تورك قادینلاری ئوز سوادسزلقلارینی لغو ایتمك ایله یاواش یاواش عمومی تحصیل قورصلارینا گیچرلر. بونلارك اك باجاریقلیسی و گنجلری ایسه قادین قولوبلاری واسطه‌سی ایله ته‌حتیقوم وایشچی فاکولته‌لرینه گیریرلر.

و قولوب ایشلرینده فعال صورتده چالیشماقلا برابر تورك قادینلاری قولوبلارك اداره هیئتلرینده، مختلف قومسیون و اجلاسلاردا دخی اشتراك ایدیرلر. بو قاعده‌ایله اونلاردا اجتماعی ایشلرده چالیشماغا عادت ایدوب، ئوز تشکیلات قابلیتلرینی میدانه چیقاریرلار.

نماینده قادین یغنجاقلاری واسطه‌سی‌ایله قولوبلارا گلن تورك قادینلاری سوسیالیست قورولوشی، فرقه و شورا ایشلرینه جلب اولونورلار. بو صورتله حقوقسز قول ئیرینده قادینلار حقنده کی کوهنه فکرلر و کوهنه یاشایش عادتلری یاواش ـ یاواش قادین قولوبلاری واسطه‌سی ایله ده گیشدیریلوب اورتادان قالدیریلیر.

بونك نتیجه‌سنده ایسه تورك قادینلاری ئوز اسیرلك وضعیتندن چیقوب، سوسیالیزم قورولوشندا چالیشماق ایچون شورا حکومتنك امکچیلرینه قوشولمشدر. بیز ایندی تورك قادینلارینك اون بیل بوندان قاباقکی وضعیتنی گوتورسه‌ك، گوره‌ریك که بوتون بو مدت عرضنده تورك قادینلاری بویوك موفقیتلره چاتمشلاردر. بویله که بر نیچه ایل بوندان قاباق حقوقسیز و جاهل حالدا بولونان تورك قادینی ایندی کند شوراسنك فعال عضولرندن بری‌در. قاباقدا اسیر و باغلی حالدا بولونان ایشچی و کندلی قادینلاری ایندی اجتماعی بر ایشچی اولوب. ئوز حقوقینی آنلایور وشورا قورولوشندا یکی حیات‌دا یرینی بیلیر.

بوتون بو ایشلرله برابر تورك قادینینك عائله وضعیتنده دخی بویوك ده گیشیکلك تورمه‌مشدر. اون ایل بوندان قاباق ئه‌وده قول کیبی ایشله‌ین و آزادلغك نه اولدیغنی بیلمه‌ین قادینلار اسارتدن قورتولوب، چوجوق موسسه‌لری واسطه‌سی ایله ئوز ئه‌و ایشلرینی یونگوللشدیرمشلردر.

ایندی بر چوق یرلرده چوجق میدانچالاری (20

بین‌الخلق قادینلار هیئتی باکودا

بو آیك آخرلارینداً یکرمی بیر نفردن عبارت بین‌الخلق قادینلار هیئتی باکویا گلمشدر. بونلار عموم‌اتفاق قادینلار قورولتایینا گلن نماینده‌لردرکه سوگرا له‌نینغرادا عموم اتفاق مرکزی اجرائیه قومیته‌سینك دورهٔ اجتماعینه گیدوب ایمدی بورا گمشلردر.

هیئت ایچه‌ریسنده بش انگلیز، بش فرانسیز، آلتی آلمانیا اوچ آوسترویا وایکی پولشا قادین نماینده‌سی‌واردر.

انگلتره هیئتنه انگلتره قوممونیست فرقه‌سی مرکزی قومیته‌سنك قادین شعبه‌سی مدیره‌سی بەرت، تورنه‌ر، معدن ایشچیسی آروادی‌در. سمیدت، ایشچی قادین، ف. دیققه‌ن، ف. ماقسه‌ن و ل. اوپه داخلدرلر. بونلار هاموسی قوممونیست‌درلر.

آلمانیا هیئتنه ایکی قوممونیست خلق معلمه‌سی م. قناپ، سته‌نوغراف ماریه‌تا آته‌ی، بیطرفلردن توقوجی ع. پاسسی، مطبعه ایشچیسی آ. غروسن، توتون ایشچیسی ف. قورمایش و قرائوزه داخلدرلر.

آوسترویا هیئتی باشجیسی توقوجی قادین قوممونیست‌در. ر. شتورم‌در. بوندان باشقا ایکی سوسیال ـ ده‌موقرات ا. نه‌یمان و ع. بیرون هیئت عضویدر.

پولشا هیئتی عضولریندن بری پولشا قوممونیست گنج‌لرینی تمثیل ایدیر. ایکنسیجی سیله‌زیا معدنلریندندر. هر ایکیسی شورالار اتفاقینه گیزلین گلمش‌لردر. بونلار قاتورغا جزاسینه‌دوچار ایدیلوب بیری‌غایبا ئولوم‌جزاسنه محکوم‌درلر.

جمعه گونی هیئت: باکو شهر قونفرانسینا گلمشدر.

دونن نهاردان سوگرا هیئت اوچ غروپه آیریلوب گزمگه گیتمشلر. آقشام‌ماینده‌لر دگزسیرندن قایدوب «علی بایراموف» قولوبندا کی مسامره‌یه گیتدیلر. بین‌الخلق قادینلار هیئتی‌علی‌بایراموف‌قولوبنا گلوب‌قولوبك بوتون‌شعبه‌لرینی نظردن گیچیرمشلردر. هیئت تورك قادینلارینك ایشلریندن ممنون قالوب دیمشلرکه: بیزیم مملکتمز مدنی ـ جهتدن ایله‌ریده‌درلرسه‌ده اورادا بو جور ایشلر یوقدر. اورادا قادینلار هله اسارتده‌درلر. هیئت عضولرینه ئوز مملکت‌لریندهکی أمکچی قادینلارا ویرمك ایچون قولوب طرفندن هدیه‌لر ویریلمشدر.

عددن 9 ی قضالرده‌در)، دائمی یاسلی‌لر (کورپه بالالار ئه‌وی) (بونلار 11 در، 10 ی باکودادر) و 8 عدده یای زمانلاریندا قضالرده دوام ایدن موقتی یاسلیلار آچیلمشدر. بوندان باشقا 21 قونسولتاسیا (مصلحت ئه‌ولری) (بونلاردان 10 ی قضالرده‌در) و 5 چوجوق اوتاقلاری آچیلمشدر (باکودا 21 عدد چوجوق باغچالاری و 14 عدد یای چوجوق میدانچالاری (باکودا) واردر.

تورك قدینینك اسارتدن قورتولماسی ایشنده بوچوچوق موسسه‌لرینك اهمیتی بویوگدر. بو موسسه‌لرك سایه‌سنده تورك قادینلاری ئوز ئه‌و ایشلرینی یونگوللشدیروب درسه و اجتماعی ایشلره مشغول اولماق ایچون وقت تاپیر. یالگز بو موسسه‌لرك سایه‌سنده تورك قادینلاری ئوز اسیرلك وضعیتندن خلاص اولوب: ئه‌و ایشلریندن آزاد اولور.

و بویله‌لکله‌ده مکتبه و سربست قازانج گتیرمگه گیده بیلیر. بویله‌لکله تورك قادینی کوهنه یاشایشنی ترك ایدیر. بو شرائط داخلنده چادرانك قانون ویرمك یولیله گوتو‌رولمه‌سی حقنده خصوصی مسئله‌قالدیریلمانك هیچ‌ده‌لزومی‌یوقدر.

و تورك قادینی قولوب، مکتب و اجتماعی ایشلرده چالیشدیقجا چادرا دخی طبیعی اولاراق ئوزی ئوزلگندن گوتوریلیر. بویئرلرده تورك قادینلاری چوقالدیقجا اونی احاطه ایدن کتله‌ده چوقالوب، کوهنه یاشایش عادتلری اونوتولور و یکی عادتلر میدانه چیقیر. دوغرودر هله کوهنه عادتلرك تورتوکونتوسی چوقدر. کوهنه عادت قلعه‌سی داغیدیلمش‌در. لاکن اونك زوربا پارچالارینی اورتادان یغوب کناره آتماق لازمدر.

تورك کتله‌سی هله تمامیله قارانلقدان چیقمامشدر. هله تورك قادینلارینك آزاده‌لگنه سبب اولان موسسه‌لرك سایی چوق آزدر. بونلار ایسه تورك قادینلارینك تمامیله آزاد اولونماسنا مانعه‌لر توره‌دیر. لاکن بو یولدا قارشومزدا دوران وظیفه‌لر آیدیندر. اك چتینی ایسه یکی‌یاشایش ایچون اساس (ئوزیل) قویماقدی. تورك قادینلارینك آزاده‌لگه چیقماسی ایچون یالگز اونلاری ئه‌و ایشلریندن یونگوللشدیرمك‌یولیله سوسیالیزم‌قورولوشی ایشلرینه‌چکمك‌لازمدر.

امکچی کندلی کتله‌سی ایله برلکده حکومت باشندا دوران ایشچی صنفی بویوك اوقتیارك 10 ایللیگی‌بایرامنا حاضرلاشارکن کله‌جگده آذربایجانك امکچی قادینی‌نك آزادلغی یولوندا آپاریلاجاق ایشلر ایچون مسئله‌یی تام جدیتله اورتالیغا قویاجاقدر.

آ. سلطانووا.

یازیق قیز!

(خاطرات دفترچه‌مدن)

(1913نجی ایلده، آتاسنك ویردیگی قوجایاکیتمك ایسته‌مدیکی ایچون بر آی قارانلق اوطاغا سالنمش مینا خانما یازیلمش).

ارشافلار آلتندا سنی چوروتدی —
موهوماتك انصافسز عاملری.
ایشیقلاردا گوزی باغلی یوروتدی —
عالم آدلی شریعت جاهللری.
ایشیقلی قیز، گوزه‌ل قیز!
بر غنچه‌تك تاپدالاندك أزیلدك،
پارلاق سیویملی یلدیز!
سمالردن توپراغا أندیریلدك،
شریعتك ظلم املی —
موللالارك اغواسیله اوجالدی،
یاقالادی بو گونی،
گلشنلردن گلخانلارا توللادی.
آللاه، قوران، دین، شریعت، روحانی،
علیهگا یابمش سنك اتفاق.
قارانلغا ظلمته سوقمش سنی،
آتاك، آناك قوهوم قارداش بو سیاق.
قانون عادت بویله‌در.
هر طرفك چولقالانمش دوشمنله —
وارلیغیك ایگله‌دیر.
ازیل، محو اول، دانشما، یالگز دیگله!
شریعتك امر ایدیر.
حقوقك یوق، شرفك تاپدالانمش،
آیاقلاریك آلتندا.
ابدی دوستاقلق مقدر اولمش،
چارشافلارك آلتندا.
ساتلق حیوان کبی سنی تجارت —
متاعی ایله‌یوب، آلوب — ساتیرلار.

أر آدلانان یوز یاشلی شهوت پرست —
وحشیلرك آغوشنه آتیرلار.
سارالیرساك، سولورساك،
الك نهایت مذهبك شریعتك —
بر قوربانی اولورساك!
آنجاق سنك یوزلرجه چکدیگك آه —
برگون آلاولاناجاق.
قارشی‌سیندا نه شریعت نه آللاه،
دایانوب دورمیاجاق.
بو گوزه‌ل گون گله‌جك،
ظلمتلری سیله‌جك.
باجیلارك زنداندان قورتولاجاق،
هامو شن — شن گوله‌جك.
بیلمم آنجاق، بونی هانکی‌اوغورلی‌قیز، گوره‌جك؟

1913

ایمدی:

مینا خانم! اوگون ایمدی چاتوبدر،
باجیلارك چادرالاری آتوبدر.
اللرده قزیل بایراق
اوستینده چکیچ اوراق
بویوك اوقیابرك 10 ایللیگنی،
ایدیرلر شانلی بایرام،
گل، سنده گور بو بایرام شه‌نلیگنی،
یوره‌گك دوتسك آرام.
چوق تأسف‌سن گورمه‌دك بو آنلی شانلی گونی!

علی محزون.

قاپیتالیست غرب اولکه‌لرینده امگچی قادین یاشایشیندان.

اوقتیابر و اجنبی ئولکه‌لرده کندلی و موزدور قادینلار آراسندا انقلابی حرکت.

سوك زماندا حددن آرتیق نالوقلار، آجلق ویوخسوللقك یاقینلاشماسی، تازه ایمپه‌ریالیست محاربه‌سی قورقوسی و همیشه معامله‌چی و آلویرجیلره بورجلی اولماق، و بو کبی بر چوق آجیناجاقلی حال‌لار خارجی ئولکه‌لرده فقیر کندلی طبقه‌سنك حدتله‌نوب آرتیق ناراضی‌یقلارینا باعث اولمشدر.

کندلی قادینلار نه قدر چالیشوب ایشله‌یرلرسه‌ده احتیاجلاری گیت گیده آرتیر، دیلنچی‌لیکه گرفتار اولورلار... بوتون بو آجی باشایشك نتیجه‌سیدر که ملکدار وقاپیتالیست لرك گیده‌جگلری یول بیر ده گل، و اونلار ایچون یگانه خلاص یولی فعله صنفی ایله بیرله‌شمك و قاپیتالیزمه قارشو مبارزه جبهه‌سی آچماقدر.

اوقتیابر انقلابی کندستان اهالیسی آراسندا انقلابی حرکتی کسگینله‌شدیردی، و کندلی قادینلاریدا انقلابی مبارزه یولونا قوشدی.

1918 نجی ایلده ایسپانیادا أنده‌لیس ناحیه‌سنده کندلیلر و کندلی قادینلار عصیان قالدیروب ملکدارلارك یئرلرینی غصب ایده‌رك اوز آرالارینده تقسیم ایتدیلر. کندلی‌قادینلار و موزدور قادینلاردا بو عصیان ایشینده جدی صورتده اشتراك ایتمشدیلر. بو عصیانی یاتیرماق ایچون حکومت بویوك قوشون دسته‌سی گوندرمگه مجبور اولمشدی. عصیان ایتمش کندلیلر قوشونادا هجوم ایتمشدی. اسلحه زوریله عصیانی یاتیرماق ممکن اولمامشدی.

یئده‌مداراجی سوسیالیستلر اورتالغا دوشدیلر. زحمتکشلرك منافعنی ساتماق کبی تاریخی خیانتلرینی بوراد دخی بروزه ویردیلر. مداراجی سوسیالیستلر میانچی‌لیغا باشلایوب کندلیلره وعده ویردیلر که صلح طریقیله اونلارا یئر پایلاناجاقدر. بویله‌لیکله‌ده عصیانی یاتیردوب کندلیلری ترك سلاح ایتمگه نائل اولدیلار.

1920ده ایتالیادا، شهرلرده پارتلامش انقلابی حرکات نتیجه‌سنده فعله‌لر فابریقا و زاوودلاری اوز اللرینه کیچرتمشدیلر. بوحرکاتك اثری کندلره‌ده تأثیر ایتمشدی. اورتا و جنوب ایتالیادا کندلیلر عصیانی نتیجه‌سنده ملکدارلارك بویوك (لاتیفوندیا) ملکلری کندلیلرك اللرینه کیچمشدی. غصب ایدیلمش محال‌لاردا کندلیلر اوز داخلی ایشلرینی اداره ایتمك ایچون یگی اصولدا انضباطی اداره‌لر تشکیل ایتمشدیلر. کندلیلرو موزدورقادینلار کتله‌وی صورتده بوعصیان ایشینده اشتراك ایدوب گوزله‌نیلمه‌ین درجه‌ده صداقت، صبر و قهرمانلیق بروز ایتمشدیلر.

سوسیالیست شورالار جمهوریتی اتفاقلاری حقنده قاپیتالیست مطبوعاتی طرفندن دریالرجه نشر ایدیلمش بهتان و افترالره باقمیاراق شورالار اولکه‌لرینده اسارتدن خلاص اولمش کندلی قادین و موزدور قادینلارك وضعیتی؛ اونلارك دولتی قورولوشدا آقتیو صورتده چالشمالاری کنده یگی حیات قورماق ایشنده کندلی قادین و موزدور قادینلارك فعال صورتده اشتراك ایتمه‌لری باره‌ده الده ایتدیگلری دوغری معلومات بو ئولکه‌لریگده کندلی قادین و موزدور قادینلاری آراسندا انقلابی حرکات روحنی اویاندیرماقدادر.

خصوصا بو خوش میل شورالی روسیه‌ده، عدیل‌بویندا آجلق یللری‌اثناسنده لازمنجه بزه ثبوت ایدیلدی.

فرانسه، چه‌خوسلاواکیا و خصوصاً بولغاریادا کندلی قادین و موزدور قادینلار طرفندن واغونلار دولوسی ارزاق توپلانوب اعانه اولاراق گوندریلرایدی.

1923 ده بولغاریادا کندلیلر و کندلی قادینلار شورالار ئولکه‌سنده کی بویوك نائلیتلری گوروب انقلاب روحیله شوقله‌نوب اوز مملکتلرینده فعله ـ کندلی حکومتی‌قورماق مبارزه‌سنده مسلح عصیاندا اشتراك ایتمشدیلر.

آلمانیادا ملکدار قنیازلارك یئرلرینی پولسز اولاراق کندلیلره پایلاماق مسئله‌سی باره‌ده سس توپلاماق ایشنده کندلی قادینلاریگدا انقلابی روحدا بولونمالاری [illegible] چیقمشدی؛ بو سس توپلاماق اتفاقینده بوتون بوتوك کندلرده قادینلار یکدل، یکجهت یئرلرك پولسیز پایلانماسی باره‌ده اوز رأیلرینی ویرمشدیلر.

کندلی موزدور قادینلارك صنفی دوشونجه‌لرینك انکشافینه اك گوزل تاثیر نفوذ ایدن عامل شهر ایشجی

دنیا پرولەتار انقلابی مبارزلرینه و قاپیتال اسارتی آلتیندا قالانلارا سلام!

قادینلاری و قوممونیستقالارك اوز کندلی باجیلاری ایله باغلامش اولدیقلاری صیقی رابطه‌در.

بو ییل یای فصلنده ایتالیادا، (به‌رچه‌لی) و (ناواررا) ناحیه‌لرینده دوگی اکین‌لرینده چالیشان موزدور قادینلارك عمومی تعطیل‌لری قالقمشدی. بو ناحیه‌ده‌کی موزدورلار و موزدور قادینلارك انقلابی روحدا تربیه‌لنمه‌لری چوقدان مشهوردر، نیچه ییللردر که بو محاللارك موزدور قادینلاری انقلابی مبارزه‌ده چالیشان ایتالیا پروله‌تاریاتنك برنجی صفلرینده اشتراك ایدیرلر.

قاباق زمانلاردا، محاللاردا باش ویرن تعطیل اثناسنده موزدور قادینلار اوشاقلاریله برابر ده‌میر یول خطلری اوزه‌رینه سه‌ریلوب تعطیلی پوزماق ایچون زاوودلاردا ایشله‌مکه گه‌له‌ن خاین فعله‌لری گتیرن قطارلارك حرکتنه مانع اولماق ایسته‌ییردیلر.

فاشیست حکومتی تعطیل باشلامش محال‌لارا قوشون، ژاندارمه‌ریا، و جزا دسته‌لری گونده‌روب تعطیلچی فعله و ایشجی قادینلار ایله اولمازین دهشتلر مبارزه آپاروب تعطیلی یاتیرماق ایسته‌ییردیلر. لاکن بوتون وحشت و دهشتلر بر نتیجه ویرمیورلر.

ملکدارلار مجبور اولدیلار که موزدورلارا گذشته گیتسونلر. روسیه‌نك عصرلر اوزونی اسارت آلتنداقالمش امگچی قادیننی اسارت زنجیریندن خلاص ایتمش اوقتیابر انقلابی او قادینی شورالار اولکه‌سی قورولوشینك هم حقوق بر مبارزی ایتمشدر. اوقتیابر انقلابی شرقك‌ده امکچی قادینی‌نك عصرلر اوزونی دوام ایتمش غفلت اویغوسیندان آییلماسینا بویوك بر عامل اولمشدر.

بو سوك ییللرده بز گوریریك که چین‌ده میلیونلارجا امگچی قادین کیتله‌سی ایمپه‌ریالیست جبهه‌سی علیهنه و اوز وطنلرینك بورژوآزیاسی علیهنه جدی مبارزه‌ده اشتراك ایدوب فعله و کندلی حکومتی، پروله‌تاریات دیقتاتوراسی قورماغا چالشیرلار. فوق‌العاده بیر جدیت و حتی شخصی حیاتنی فدا ایتمك کیبی بویوك فداکارلیقلار ایله چالیشوب محاربه جبهه‌لرینده، سانیتار دسته‌لری، عصیان ایتمش محال‌لارا دوگی و ایستی سو داشیماق طریقیله اشتراك ایدوب کندلی پارتیزان دسته‌لرینده‌ده جدی مبارزه‌ده بولنورلار.

شورالار اتفاقنداکی باجیلا ینا تقلید ایده‌رك چین کندلی قادینلاریدا یکی معیشت قورماقدا و کهنه فیئودال علاقه و نظریه‌لری محو ایتمك ایشنده جدیا اشتراك ایدیرلر. اتفاق عضوی اولان کندلی قادینلارك تشبثلریله (خونان) ناحیه‌سنده‌کی کندلی اتفاقلاری پویله بر طلبنامه تقدیم ایتمشدر: قیز ساتیشنك قدغن ایدیلمه‌سی؛ اوشاقلار ایچون مکتبلر و یاسلی‌لار آچماق، سانیتارمعارفی‌نك تشکیلی؛ یاشلی اهالی ایچون مکتبلرك آچیلماسی والخ...

اوقتیابر انقلابی باشقا مستملکه و یاریم مستملکه اولکه‌لرینده دخی گه‌نیش امگچی قادین کیتله‌سینی حرکته یترمشدر. او جمله‌دن سوریه‌ده فرانسه حکمرانلیغی علیهنه قالقمش اولان عصیان‌دا کندلی قادین و موزدور قادین‌لاردا اشتراك ایتمشدیلر.

جاوه آطه‌سنده اهالی‌نك 90 فائض یئرسیز اولوب باشقا ملکدارلارك چای، دوگی، قهوه و باشقا اکین یرلرینده موزدور صنفی ایله چالیشرلار. بو سوك وقتلرده هوللاندیا ثروتدارلاری علیهنه قالقمش اولان عصیاندا کندلی و موزدور قادینلاردا جبهه‌ده ایره‌لیده گیدن دسته‌لر آراسیندا گورونیردیلر.

شرقك زحمتکش قادینلارینك بو سوك جنبش و آییلمالاری دنیا ایمپه‌ریالیزمنك سوك قلعه‌سنی داغیدوب مستملکه و یاریم مستملکه ئولکه‌لرك اوزه‌رینده‌کی حکمرانلیقگدا سرنگون اولان گونی یاقینلاشماقدادر.

ز. بویارسقایا.

تلغرام

مینه‌رالنی‌دان

باکودا آذربایجان مرکزی اجرائیه قومیته‌سنه؛

اینگلتره، آوستریا، فرانسه، آلمانیا، پولشادان گلمش بین الخلق ایشجی قادین نماینده‌لری هئیتی باکودان سیاهتدن قایدیرکن اورادا سوسالیست قورولوشیند مشاهده ایتمش اولدیغی نفت صنایعی نائلیتلرینه، ملی عدالت یولندا آپاریلمش سیاسته آذربایجانك مهمان نواز نماینده‌لرینه «علی بایراموف» قلوبینا، و بوتون ایشجی قادینلارا آنشین سلاملاریمزی گونده‌ریریگ مارقاره تاخانه، ایئوقاننا شتورم، به‌تت تورنه‌ر، مارتا دریومو، مارتا شورسقا

اوقتیابر انقلابی و قاپیتالیست ئولکه‌لرده ایشجی قادین.

بویوك اوقتیابر انقلابی قاپیتالیست ئولکه‌لرك ایشجی قادینلاری وها بیله بوتون دنیا پروله‌تاریاتی ایچون قاپیتالیزم ایله جدی صورتده آپاریلان مبارزه جبهه‌سنده اك امیدلی برسلاح‌در.

روسیه پروله‌تاریاتنك غالبیت خبری قاپیتالیست ئولکه‌لرده کی ایشجی قادینلار ایتیشه‌ن کیبی اونلاریکدایوره گلری شادلانوب اوزلرنیك قاپیتالیزم اسارتی زنجیریندن خلاص اولاجاق گونلرنیك یاقینلاشدیغینا امید باغلادیلار؛ بورژوآ مطبوعاتنده دریالارجا نشر ایدیلمش بهتان و یالانلارا باقمیاراق شورالار ئولکه‌سی بو اون ییلك عرضینده قاپیتالیست ئولکه‌لرك پروله‌تار و امگچی قادینلاری‌نیك حسن رغبتنی قازانا بیلمیشدر.

قاپیتالیست ئولکه‌لرك و دوشونجه‌لی ایشجی قادینلاری شورالار ئولکه‌سینی اوزلرنیك حقیقی وطنلری حساب ایدیرلر. شورالار اتفاقنی چولغامش اولان هامو بدبخت لیگلری او ایشجی قادین‌لار اوز بدبختلیگلری سانیرلار. پروله‌تار قادین بونی لازمنجه دوشونور که دنیا یوزینده یگانه پروله‌تار دولتی اولان شورالار ئولکه‌سینك تصرفات ویا که باشقا جبهه‌لرده کی نقصان و مغلوبیتلری عکس انقلابیك، استثمارك شدتنی و قاپیتالیست‌لریکده فعله صنفی اوزه‌رینه هجومنی قوتلندیره‌جگدر. بو جهتدنده بوتون دنیا پروله‌تارلاری ایله برابر شورا روسیه‌سینی بوغماغا حاضرلانمش قاپتالیست دولتلرك بوتون فکر وحرکتلرینی دقتله تعقیب ایدیرلر.

1918 ینجی ییلده آلمان ایمپه‌ریالیزمی گنج شورا جمهوریتنی بوغماق ایسته‌دیگده آوستریانیك حربی لباس حاضرلایان اعمالاتخانه ایشجیلری پروته‌ست اولاراق عمومی تعطیل اعلان ایتمیشدیلر.

1920ده پولشا شورا جمهوریتی ایله محاربه باشلادیغی زمان؛ آنتانتا آوستریا توپراغیندان کیچوب اسلحه وحربی لباس داشیماغنی بیلدیردیگده فعله و ایشجی قادینلار بونا ممانعت گوستروب او قارا فکرلرك حیاته کیچریلمه‌سنه یول ویرمه‌مشدیلر.

که‌رزونك اولتیماتومی زماننده اینگلتره حکومتی اینگلتره فعله و ایشجی قادینلاری قطعی و جدی صورتده شورالار اتفاقی‌نك مدافعه‌سینه قایتدیقلارینی گوروب اوز خائنانه فکریندن واز کیچمشدی. بو گون بوتون بورژوآزیا دنیاسی شورا ئولکه‌لرینده سوسیالیست تصرفاتنك سرعتله آرتماسینی گوروب قورقویا دوشوب آرتیق جدیتله سوسیالیست شورالار اتفاقی ایله محاربه‌یه حاضرلانارکن اینگلتره، آلمانیا و فرانسه‌نك ایشجی قادینلاری بر چوق نمایش، میتینغ و اجلاس‌لار تشکیل ایده‌رك اوجادان قشقیردیلار که: «شورالی روسیه‌دن اه‌لیگی چیك!» آلمان قوممونیستقالاری اوز سوککی اجلاسلاریندا بو یله‌قرار چیقارمشلار: «صوك وقتلرده کی‌سیاسی و قوعات گوستریر که اینگلتره ایله برابر بوتون دنیانك قاپیتالیست صنفی باش قالدیروب شورالار اتفاقی علیهنه، بونگله‌برابربوتون ایشجی صنفی علیهنه متفق بر حرکت جبهه‌سی دوزه‌لتمگده‌درلر. روس فعله‌لرنیك تعقیب ایتدیگلری مقصد بزیمده حیاتی مسئله‌مزدر.»

بو سوك زماندا فعله و ایشجی قادینلارك سوسیالیست شورالار اتفاقینه نسبتا خوش علاقه و میل‌لرینك اساسی سببلری: بر طرفدن غربده ایشجی صنفنك وضعیتی‌نك صوك درجه فنالاشماسی و ایکنجی‌ده شورالی روسیه‌ده سوسیالیست تصرفاتنك بویوك قدملرله ایره‌لیله‌مه‌سیله قید اولنور.

دفعه‌لرله شورالار ئولکه‌سینی زیارت ایتمش نماینده‌لر هیئتلری اك یاقیندان تانیش اولوب گوردیلر که شورالار اتفاقنیك امگچیلری ده‌میر کیبی محکم اراده و [illegible] قوه‌لرینه اعتماد ایله، آغیر مشقت‌لره دوزه‌ره‌ك اوز سوسیالیست تصرفاتلارینی قورورلار و بونیگله‌ده دنیاانقلابنی حاضرلاییرلار.

بو نماینده‌لر آراسیندا قادینلاردا وار ایدی، کیچن ییل پایز فصلنده آلمانیا ایشجی‌قادینلاری نماینده‌لری‌هیئتلری شورالار اتفاقنه گلمش ایدی. بو هیئت عضولری آراسندا ده‌موقرات و بی‌طرف ایشجی قادینلار دخی وار ایدیلر. ایره‌لیده‌ن شورالار اتفاقی جمهوریتلرینه امیدسیز و دشمنانه بر نظرییه‌ده اولان بو قادین نماینده‌لر، اوز سیاهتلری اثناسنده نائیلیتلریمزی، خلق تصرفاتنك موفقیتلرینی، فعله صنفی‌نك مادی جهتدن وضعیتنك یاقشیلاشماسینی، و

بز، سوسیالیزم قورماق ایچون صلح ایسته‌ییرز. ایمپه‌ریالیست‌لر ایسه، بزیم‌قورولوشمزی پوزماق ایچون محاربه حاضرلاییرلار. دوشمانی دفع ایتمك ایچون حاضر اولالیم!

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0425

اتفاقمزده أمگچی قادینلارك تام معنی‌سیله اسارتدن خلاص اولمالارینی شخصا گوروب و بو نائیللره اینانمدیقدان سوگرا پرولەتار دولتك اك صادق دولتله‌ری کبی بیزدن آبریلوب اوز وطنلرینه قایتدیلار.

بوتون گوروب اینانمدیقلارینك نتیجه‌سی ایدی که، بو هیئت بزیمله و دائمه‌شارکن هامولیقله امضا ایتمش اولد یقلاری بر خطابنامه‌یه گوره بو سوزلری یازمشدیلار،

«بیز اوز منتدارلیقمزی آنجاق بونگله اظهار ایده بیله‌ریك که تام ئه‌نه‌رژیمزی صرف ایدوب آلمانیاأمگچی کتله‌سینك شورالار اتفاقی‌نك حالینه و اونك قورولوشی ایشلرینه اوزلرینك اك یاقین و دوغما بر ایشلری‌نظریله باقمالارینا نائل اولاریق؛ و هر دفعه بورژوآزیاشورالار روسیه‌سی اوزه‌رینه اوصل قالدیرماق ایسته‌دیگده بز او املی رد ایدوب دنیا قاپیتالی طرفینه چه‌ویرمگه چالشاجاغز!..»

شورالار اتفاقی‌نك فعله صنفی‌نك قهرمانجاسینا مبارزه سی باشقا قاپیتالیست ئولکه‌لرنیك أمگچی قادینلارینی روحلاندیروب استثمار و ظلم دنیاسیله قطعی مبارزه‌یه تشویق ایدیر. دنیا پرولەتاریاسنك انقلابی مبارزه‌سنده اونلارك اشتراکی گوجله‌نیر و گه‌نیش میدان آلیر.

بو سوك بیلده مبارزه‌یه گیریشمش پرولەتار صفلرینده أمگچی قادینلارا تیز ـ تیز راست گلیریك: او جمله‌دن اینگلتره کومور معدنچیلرینك عمومی تعطیللرینده؛ آمه ریقادا (یاسسایق) شهرینده کی توقویوجیلارك تعطیللرینده و بر چوق باشقا عمومی تعطیللرده... ایتالیادا کی توقویوجیلار چیقیشیندا فاشیست حکومتلرینك اك غدار و دهشتلی عکس الحرکتلرینه باقمیاراق قادینلار اك فعال و جدی صورتده اشتراك ایتمشدیلر.

شرقده دخی دونکی قول و اسیره اولان قادین فابریقالاردا، اکین زه‌میلرینده، کومور معدنلرینده عصیان قالدیروب اوز انسان حقوقلارینی مدافعه‌یه قالقمشلار.

عموم اتفاق قوممونیست فرقه‌سینك أمگچی قادینلار آراسیندا آپاردیغی یارادیجی تجربه‌ایشلرینی بیزیم‌خارجده کی قادین فرقه قومیته‌لریمزده دقتله تدقیق ایدیرلر و امگچی قادینلاری تشکیلاتلاندیرماق ایشینده دستور اولا ـ راق او اصول قبول ایدیلمشدر. بو حال‌دا آلمانیادا و باشقا قاپیتالیست ئولکه‌لرده دخی نمایندەلر یغنجاقلاری تشکیل ایدیلمیشلر.

بو سوك بیللرده قاپیتالیست ئولکه‌لرده قادین‌مطبوعاتیده گورونمگده‌در. بو مطبوعات قادین ایچون اولمایوب، بلکه‌ده حقیقی صورتده قادین مطبوعاتیدر. بو مطبوعاتدا ایشچی قادینلار اوز احتیاجلارینی بیان ایدیرلر.

بهانچی بورژوآزیا مطبوعاتنك‌نفوذیندن گه‌نیش ایشچی قادین کتله‌سینی خلاص ایتمك ایشینده، قوممونیست اینتەر ناسیونالی‌نك قزیل بایراقلاری آلتینا امگچی قادینلاری سیاسی سفربرلك ایشینده اك مهم رول اوینایان تدبیرلردن بریسده سوسیالیست شورالار اتفاقی‌نك ایشچی قادینلاری ایله قاپیتالیست ئولکه‌لرده کی امگچی قادینلارك بین‌الخلق رابطه و علاقه‌لرینی دوزەلتمگدر.

بو بین‌الخلق رابطه بوتون دنیا زحمتکشلرینك یگانه بر جبهه تشکیل ایتمه‌لرینه کومك ایده‌جگدر. ایشچی قادینلارك انقلابی اینتەرناسیونالیزم روحینده تربیه‌لنمه‌لرینه یول آچیر: بین‌الخلق بیرلیك و قارداشلیق روحنی‌محکمله دیر؛ و بوچاغاجان بعضی بیرلرده اولان کیبی گه‌نیش‌قادین کیتله‌سینی انقلاب حرکتنك قاباغینی کسه‌ن بر عامل کبی تلقی ایدیلمك نظریه‌سی‌چه‌ویریلوب انقلاب ایشینك گیدیشینه کومك ایدن مهم بر ماکینه چرخی اولدیغنی آگلا ـ شدیرماقدادر.

بویارسقایا

اوقتیابر انقلابنك اونجی بیل دونومنده شورالار اتفاقی پرولەتاریاتی؛ دنیا پرولەتاریاتینی قومونیزم بایراغی آلتنا توپلایبر و مارقس ایله ئه‌نگه‌لسك "بوتون دنیا پرولەتاریالاری برله‌شگز» جنگی شعاری یازیلی قزیل بایراغینی داها یوکسه‌ك یوجالدیر!

مدافعه ایشینده ایشجی قادین.

هر بر ایشجی و کندلی قادین بونی بیلیر که صلح شرائطی ایچینده زحمت چیکمك و سوسیالیست تصرفاتی قورماق ئولکه‌مزك اساس فکر و مقصدینی تشکیل ایدیر.

ایشجی_کندلی حکومتنك بو صلحجویانه سیاستی قطعی صورتده دورمافسزین هر گون یئریدیلمکده‌در. بیزیم حکومتمز دفعه‌لرله اوز سسینی قالدیروب قوری سوز ایله یوق _ ایش ایله بوتون ئولکه‌لری ترك سلاحه دعوت ایدوب چالشماغا قدم‌قویدیقمز بردورده **له‌نین** یولداش بوسوزلری دیمیشدی:

شورا حکومتی‌نك ایمپه‌ریالیست دولتلر ایله یان _ یانا اوزون مدت یاشاماسی غیر ممکندر، آخردا او ویا بو طرف غالب گله‌جکدر. لاکن بو ایش باش دوتاناکیبی شورا جمهوریتی ایله بورژوآ دولتلرك آراسیندا بر چوق دهشتلی توقوشمالار احتمالی یقین‌در»



بناقاضی‌ده تازه تشکیل ایدیلمش 6 نومرولی ایلك یاردیم ده‌رنگی

دائمی قوشون و حربی صنایعك محو ایدیلمه‌سینی تبلیغ ایتمشدر.

حکومتمز دائما اویله بر حیات طرفداری اولمشکه او حیات شرائطنده جمله خلقلر اوز خارج سیاستلرینی امگچیلرك قانلارینی تو کمگسزین حل ایده بیلسینلر. لاکن صلحجولق سیاستی آپارماقله برابر بونیدا اونوتمامالی که شورالار حکومتی ایمدیلیگده هر طرفدن قاپیتالیست حکومتلری ایله آرالیغا آلنمشدر.

بو عبث ده‌گل که وطنداش محاربه‌سی بیتوب صلح شرائطی ایچینده یارادیجی‌لیق، سیاسی و مدنی جبهه‌لرده بو یاووق کیچمشلرده، خصوصا حال حاضرده، گوزیمزك قاباغیندا بورژوآ مملکتلرینك خارق‌العاده سرعتله سلاحلانماغنی گوردیگمز ایچون تازه محاربه‌لر قورقوسی گیت گیده بویویور.

بو حال، البته شورالار دولتنك‌ده قارشوسیندا شورالار اتفاقی جمهوریتلرینك مدافعه‌سی مسئله‌سینی قالدیریر.

فوق‌العاده دهشتلی نتیجه‌لری، سانسیز حسابسیز انسان و مالیه خسارتلر ویره‌جگی یقین ایدیلمش بو گله‌جك محاربه ئولکه‌نك بوتون قوه‌لرینك بو یولا جلب ایدیلوب بوتون امگجی اهالینك ده‌میر کیبی محکم بر تشکیلات‌وانتظام

آلتینا آلنماسی طلب اولونور. چونکه ایمدیکی عصرك محاربه‌سینده جبهه‌نیك حالی جبهه آرقاسینداکی وضعیتدر آسیلیدر. محاربه‌نك بوتون آغیرلیقنی دولت تمامیله اوز عهده‌سینه گوتوره بیلمیه‌جگدر.

بورژوآزیانك «وطنی مدافعه» شعارلاری ایله ایشجی و کندلی کتله‌سنی‌ده اوز سیاستی دائره‌سینه جلب ایتمك تشبثنده بولوندیغنی بیز گوریریز. شورالار ئولکه‌مزده آغیر امتحانلار ییللرینده پروله‌تار اجتماعینك و هابیله‌جمله امگجیلرك آقتیو وفداکارانه بر صورتده تام امکان داخلنده دولتمزه یاردیمدا بولوناجاغینا بز امینز، بو تأمیر ایدیلمش بر مسئله‌در.

«هلال احمر» جمعیتی، اجتماعی برتشکیلات اولدیغی مناسبتیله خلق کتله‌سینك صحتی خللدار اولوب محاربه و یاخود باشقا بر طبیعی خسارت اتفاقلاریندا البته اوزینك باش مقصدی دولته یاردیم شعارینی قالدیراجاقدر.

عصری محاربه‌لرده انسانلاری تلف ایتمك واسطه‌لری او درجه بویوك و مختلف‌در که یالیگز محاربه جبهه‌سینده اولمایوب حتی جبهه‌دن اوزاق صلح دائره‌سینده یاشایان اهالی ایچونده تلف اولماق قورقوسی واردر، اونا گوره‌ده اهالی او قورقودان اوزینی مدافعه‌یه حاضر اولمالیدر.

بونگله بیله مدافعه واسطه‌لرینی دوزه‌لدوب محاربه اثناسنده صحیه ایشلرینی حاضرلاماق مقصدیله تشکیل ایدیلمش موسسه‌لر اوزلیگلرینده گنیش صورتده مدافعه ایشلرینی دوزه‌لتمگه عاجز قالاجاقلار. بو مدافعه ایشی آنجاق گه‌نیش اجتماعیتك اشتراکیله «هلال احمر» کبی بر تشکیلات واسطه‌سیله اجرا ایدیله بیله‌ر.

بو جهتدنده محاربه اتفاقنده اهالینی سانیتار جهتدن حاضرلاماق «هلال احمر»ك عمومی فعالیتی ایچریسینده ئولکه‌نی مدافعه ایشلرینه دائردر.

محاربه اثناسینده، حربی اسیرلره و قاچقین‌لارا یاردیم مسئله‌سیده «هلال احمر» جمعیتی‌نك قارشوسیندا دوراجاقدر. بونیدا اونوتمامالی که گله‌جك محاربه‌ده حربی اسیر و قاچقین‌لارك مقداری شبهه‌سیز چوق اولاجاقدر. بونلارا آقتیو یاردیم ایشنده آنجاق اجتماعیتك اوز فعالیتی و کومگی واسطه‌سیله ممکن‌در.

عصری محاربه‌نك قاراقته‌ریندن آسیلی اولاراق «هلال احمرك» ایره‌لیکی محاربه‌لرده گوسترمش اولدیقی فعالیتدن بام - باشقا اولوب بو دفعه کی محاربه‌ده ئولکه‌یی مدافعه مسئله‌سنده «هلال احمرك» نه‌شکلده اشتراك ایتمه‌سی تازه‌دن مذاکره ایدیلمه‌لیدر.

حقیقتده‌ده انقلابدار قاباق وهابیله وطنداش محاربه‌سی اثناسنده «هلال احمر»ك عملی فعالیتی، سیار خسته‌خانه‌لر، بارا باغلایان و ییمك ویره‌ن منطقه‌لر وصحیه قطارلاری تشکیل ایتمگدن، دولته مادی کومك و سائره‌دن عبارت اولدیقی حالدا بو عصرده «هلال احمر»ك ئولکه‌یی (سانیتار) صحیه جهتدن مدافعه‌یه حاضرلاشدیرماق ایشی یوقاریدا گوستریلمش شکلده اولمیاجاقدر.

صحیه و حربی سانیتار اداره‌لری دولتك طبی سانیتار ایشلرینی تشکیل ایتمگه وظیفه‌دار اولدیقلاری مناسبتله مجبوردرلر که محاربه زماننده قزیل اوردونی و اهالینی تداوی و سانیتار یاردیمی ایله تأمین ایتسونلر.

سیار خسته خانه‌لری، سانیتار قطارلاری و باشقالاری دوزه‌لتمك ایشینی عهده‌سینه آلمش اولان «هلال احمر» تشکیلاتی اولابیلسونکه بوقدر مخارجی اوده‌مگه عاجز قالسون.

ئه‌روپلانلار هر شیئی زهرله‌ین اجرالار ایله دولدورولمش بومبالار شهر و کندلریگده صلح ایله یاشایان اهالیسنه جبهه‌ده قاباق دسته‌لرده مبارزه ایدن محاربلرقدر خسارت ویره‌جگلر؛ بو جهتدنده عصری محاربه شرائطی داخلنده اهالینی سانیتار مدافعه‌سینه حاضرلاماق و بویله قورقولی حاللاردا اوزینی مدافعه ایتمك ایشینی اونا اوگره‌تمك اك بویوك و اهمیتلی مسئله‌لردن حساب ایدیلمه‌لیدر. بو مقصد، اهالینی کیتله‌وی صورتده سانیتار حاضرلیغینا اوگره‌تمك ایشی هر حالدا ایره‌لیده «هلال احمر» عهده‌سینده اولان وظیفه‌لردن بام - باشقا و یوکسك بروظیفه‌در.

اوزیگا ایلك یاردیم ایتمك و هابیله باشقا خسارتدیده‌یه کومك ایدوب اونلارا نجات ویرمك یالیگز اهالینی کیتله‌وی صورتده ئولکه‌نی (سانیتار) صحیه جهتدن مدافعه ایتمك مسئله‌سی اطرافنده تشکیل ایتمك یولیله ممکندر.

بوتون بو اهمیتلی و آرتیق مهم ایشی ایفادن اوتری بزیم اجتماعی ایشلرده چالیشان ایشجی کندلی قادینلاریمز دعوت ایدیلیرلر.

«هلال احمر»ك اك عمده اعتناسینی جلب ایدیله‌جك باشلیجا و اساس ایشی - مدافعه ایشینده طبی - سانیتار یاردیمی تشکیلی اطرافینه اجتماعی قوه‌لرك گنیش صورتده سفربرلیگه آلنماسیندان عبارتدر.

دوقتور: **کاظیم اوف.**

حربی اشدیرمه و قادین احتیاط دسته‌لری

شور اجتماعی تشکیلاتی اولان «هلال احمر»ك اساس مسئله‌سی (او جمعیتك نظامنامه‌سی اوزره) شورالار اتفاقی جمهوریتلرینك مدافعه‌یه حاضرلق ایشیندن عبارتدر.

«هلال احمر» جمعیتی اوزینك گیت ـ گیده آرتماقدا اولان عضولری واسطه‌سیله اهالینك گه‌نیش کتله‌سینك فکر و دقتنی ثولکه‌مزی مدافعه ایشینده طبی ـ سانیتار یاردیمینا جلب ایتمه‌لیدر.

گله‌جك محاربه‌نك. داها دوغریسی عصری محاربه‌نك قاراقته‌رینی و هایله بزیم «هلال احمر» جمعیتمزك مادی و مانه‌ریال احتیاطلارینی نظره آلدیقدا بونی گورورویك که بیز ممکن قدر باشلیجا دقتمزی جانلی قوه‌لر حاضرلاماغا سوق ایتمه‌لیك؛ یعنی کتله‌وی سانیتار قادین و سانیتار حاضرلاماغا باشلامالیق. «هلال احمر» جمعیتلرینك گومگیله امگچیلر کتله‌وی اولاراق سانیتار ایشلرینی اوگره‌نمش اولوب بدبخت حادثه‌لرده تعجیلی طبی یاردیم گوسترمك ایشینه آشنا اولوب شخصاً اوزلرینی‌ده زهرلی غازلاردان مدافعه ایتمك ایشینی اوگره‌نمش اولسونلار.

خصوصا قادین احتیاط دسته‌لرینی حاضرلاماق ایشی اهمیتلی حساب اولنور. ایشچی و کندلی قادینلار اوزلرینك گوندەلك ایشلریندن ال چیکمیه‌رەك، «هلال احمر» ده‌رنگلرینده، صلح شرائطنده و هاییله‌ده حرب زمانلارینداا اوزلرینه لازم اولان سانیتار معارفنی اوگره‌نه بیله‌رلر.

ایلك یاردیم درنگلری و سوگرادا سانیتار دسته‌لری دوزه‌لتمك یولیله قادینلاری «هلال احمر» فعالیتنه جلب ایتمك ایشینه الك بویوك اهمیت ویرمك لازمدر؛ چونکه بو، ثولکه‌نی مدافعه ایشینه الگور کملی یاردیمدر.

آذربایجان «هلال احمر» جمعیتی بو ییل مایك اولرینده کوگللی اولماق شرطیله، قادین ایشچیلری چوق اولان زاوود و باشقا مؤسسه‌لرده ایلك یاردیم درنگلرینك تشکیلنه باشلایوب بو ایشده نماینده قادینلار یغنجاقلاری، همکارلار اتفاقی و قاسامول اجلاسلاری، قادین‌لار شعبه‌لرینك، اتفاقلار هیئت اداره‌لرینك و صحیه سه‌قسیالارینك اجلاس و مشاوره مجلسلرندن استفاده ایدیله‌رك بورادا قادینلارك حربی‌لشدیرمه ایشینك اهمیت و مقصدلری باره‌سنده معروضه‌لر قویولمشدر.

بوراسنی‌دا دیمك لازمدر که «هلال احمر»ك قادینلاری حربی‌لشدیرمه ایشی آذربایجاندا امگچی قادینلار طرفندن آرتیق مراق ایله قارشولانوب ایشك یالگز طبی و صحیه طرفی دگل، بلکه‌ده عموماً حربی‌لشدیرمه جهتی اونلاری آرتق مراقلاندیرمشدر.

تکجه باکو شهرینده ایلك یاردیم درنگلری اطرافنه مین نفردن آرتق قادینلار توپلانمشلار.

درنگلرده کی مشغولیتك دورت آیا بیته‌جگی نظرده دوتولمشدر، بونیکله برابر ممکن اولدیغی قدر جانشمالی که خالص له‌قسیون (ه‌تودی) اصولی ایله آباریلان درسلر آزالوب عوضنده آیری ـ آیری عملی اتفاقلاردان استفاده ایدیلسین عملی ایشلری خسته‌خانه وسیار خسته‌خانه‌لرده آباروب سیاحت وتنزه‌لردنده استفاده ایتمك لازمدر.

حربی‌لشمه مفکوره‌سنی پوپولیارلاشدیرماق قصدیله دائمی سرگیلر دوزه‌لتمه‌لی.

«هلال احمر» جمعیتك نفوذ قازانماسی؛ شورا، همکارلار و اجتماعی تشکیلاتلارك کومگی؛ گون گوندن «هلال احمر» ه یاقینلاشمش کتله‌نك جدیتك بویومه‌سی؛ اهالینك صحیه معارفنه شوقی و امگچیلر طرفندن شورالار اتفاقی جمهوریتینی مدافعه ایتمك ایشینك اهمیتی دوشونیلدیگی... بونلار هپ آذربایجان «هلال احمر» جمعیتی‌نك ثولکه مدافعه‌سنده طبی ـ سانیتار یاردیمی دائره‌سنده کی تدبیرلرك حیاته کیچیریلمه‌سنی تأمین ایدیرلر.

درنگلرده مشغولیت آپارماق ایچون حکم انتخاب ایتدیگده برطرفدن اوحکیمك حاضرلق گوروب بو ایشه نه‌نظرله باقماسینا دقت یتومه‌لی و ایکنجی طرفدنده کیتله‌نك اوزینك مدنیتجه سویه‌سینی نظرده دوتماق لازمدر.

مدنیتجه و تشکیلاتجا آز حاضرلیغی اولان کیتله آراسینا رهبر اولاراق قوه‌تلی وچوق تجربه‌لی حکیمی گوندرمك لازمدر.

قورصلاری بیترمشلرك اوز صحیه سواد لارینی اونوتماقلاری ایچون لازم گلیر که بویله‌لرندن استحصالات داخلنده کوگللی سانیتار و حربی سانیتار دسته‌لری تشکیل ایتمك واوزه کیك آقیولرینی‌ده حربی‌له‌شدیرمه ایشینی تبلیغات ایچون استفاده ایتمه‌لی. حربی‌له‌شدیرمه ایشینده «هلال احمر»ك مائیتلرینی گوسترمك و گه‌نیش اهالی کیتله‌سینی بوایش ایله تانیش ایتمك دن اوتری درنك و آتریادلارك کیتله‌وی واهالی ایچون چیقشلارینی تعیین ایتمك، عملی مشغولیتلرینی، مانه‌ورلر، غازهجوملارینك مثال‌لارینی وسائره‌یی نمایش ایتدیرمك لازمدر.

بو ایشلرك هاموسی گه‌نیش خلق کیتله‌سینك نظر دقتنی جلب ایدوب ثولکه مدافعه‌سنده طبی ـ سانیتار یاردیمی ایشله‌ریله ایله مراقلاندیرار.

آ. له او نتیه وا.



حزین بر خاطره

یازانی: س. حسین.

خدیجه !... بنده سنك خواهشكلا عمل ایتمه‌دیم. ئولدیكدن صوكرا سنك ایچون آغلابوب كوز یاشی توكمه‌دیم. ذاتاً حیاتده ایكن سنك هانكی آرزو و ایسته‌گلریكلا عمل ایدیلمشدی‌كه ... ایمدی هركس سنی اونوتمشدر. بن ایسه سنی ینه خاطرلایرام.

I

سبز، بلكه، ظن ایده‌رسیكز كه بن خدیجه‌نی سه‌و- میشدیم؛ ویاخود سه‌ویشمیشدیك. بو خاطره‌ده اوندان باقی قالمیشدر. خایر، یاكیلیرسیكز...مساعه‌ه گز ایله فكریكزی تصحیح ایتمك ایسته‌رم.

خدیجه، گنجلگمك ایلك آنلاریندا، اون‌سكز، اون- دوقوز یاشلاریندا بنی بیر قدر مشغول ایتمیشدی . محیط مساعده ایتسه‌یدی بلكه‌سه‌ویشه‌ده بیله‌ردك. داها دوغروسی سه‌ویشه‌ردیك. آرامزدا كی مناسبت اولدیقجا قیسا بر زمان ایچه‌رسینده صمیمی آرقداشلقدان‌باشقا بیر شی‌اولمامشدی.

بن خدیجه‌نی 1905نجی ییلك یای موسمنده تانیدیم. او زمان او، اوزاوچ ویا اوندورت یاشیندا ایدی . بن بو ییلی چوق ایی خاطرلایرام : بنه بیر فلاكت یوز ویرمیشدی. عائله‌مزك رئیسی و یگانه حامیسی، اختیار بو- یوك بابام وفات ایتدیگی ایچون یوردیمز داغیلمیش ، هر ییل ییلداگیتمكده اولدیغیمز «لهیچ»ده‌كی خصوصی باغمزا آرتیق گیده‌مه‌ز اولمیشدیق. احتیاج، بیزی، او باغی ساتماغا مجبوراتمیشدی. كوگولسیز اولاراق، سنیق بیر یوره گله، اقرباملزدن بیرینك «شوه‌لان»دا اولان باغلارینا گیتمه‌لی، یایی اورادا كیچرمه‌لی اولمیشدیم.

بن شیوه‌لان باغلارینا ایلك دفعه گیتدیگم ایچون‌اورادا كیمسه‌نی تانیمه‌یردیم. بیر رفیق و مصاحبم اولمادیغندان ، اقرباملزدا اولسا، ئوزگه بیر آدامك ئه‌ویندە یاشاماقدان چوق داریخیردیم. كوگلوم‌هیچ آچیلمیردی. باغك ایچینده، قومشـو باغك مرـ ینده بولونان بویوك بیر قارا آغاجك قالین كولگه‌سی آلتینا چكیله‌رك، تك باشیما اورادا وقتمی كیچیره‌رك داها دوغروسی گونلریمی سایاردیم . بونگله برابر گله‌جگده عائله‌مزك معیشتینی كیم تأمین ایده‌جك، بنم مكتبده دوامم نه یولدا اولاجاق، مكتبی ترك ایتدیگده نه كیبی بیر ایشك وضعیتـ آردینجا گیتمه‌لی‌یم، بو باره‌ده بنه كیم رهبرلیك ایده‌جك كیبی فكرلر بنی آز مشغول ایتمیردی.

گنج‌لیگمك ایلك بهارینی بویله معیشت قایغولاری ایله كیچیریر. حیاتك‌اضطرابلارینی بوتون وارلیغمله حس‌ایدیر- دیم. بو اضطراب بنه سربست و بختیار یاشامانك نه قدر مشكل اولدیغینی دوشوندورور، بنده بدبینجه بیر حالت روحیه یارادیردی. بویله بیر حالدا ایكن یتم كیبی بیرعائله فلاكتنه اوغرامیش خدیجه‌یه تصادف‌ایتدیم.

خدیجه‌نك آناسی 8 – 9 آی اول وفات ایتمیشدی . اونك مصیبتی یالیكز آناسیزلیغی دگیلدی. بونا علاوه او- لاراق، ایكنجی بیر مصیبته‌ده اوغرامیشدی. بك‌سه‌ودیگی آناسینك وفاتیندان یاریم ییل كیچمه‌میش آناسی یكی بیر گنج قادینله ئه‌ولنمیشدی. او، آناسینك بو حركتنه قارشو ئه‌وده عادتاً عصیان‌ایتمیش، آناسینك یرینه گلن قادینله یولا

گیده بیلمه‌مشدی. بوحالی اونی آتاسینك گوزیندن سالدیغی ایچون حیاتینه قصد ایتمیش، ئوینی ئولدیرمك ایسته‌میش، بونك ئوزه‌رینه خالاسی اونی یانینا آلمیش، موقتی اولاراق ئه‌ولرینده اوزاقلاشدیرماقلا بنیم‌یاشادیغیم باغك قومشولیغیندا اولان بیر باغی اجاره ایتمگله اورایا گتیرمیشدی.

خدیجه‌نك بو فلاکتینی ئه‌وده باجمدان ایشیتدیگده اونا قارشو بنده بیر تمایل حسی‌اویاندی. بن ئوز مصیتمی اونودوب اونك غمیله شریك اولدیم. اونی آووتماق، اونی مشغول ایتمگله اضطرابلارینی آزالتماق، اونا یاردیم ایتمك ایسته‌دیم. بن آرا ـ سیرا اونك آغلادیغینی، خالاسینگ اونا تسللی ویردیگنی ایشیده‌ر، گورووردیم. بونیده حس ایدیردیم که او آناسینی خاطرلایور، هر بیل گیتمگده اولدیغلاری «پیرشاغی» باغلارینی، اورادا کی آرقاداشلارینی غریبسه‌یوب آغلایور.

خدیجه تمامیله بنه بیر غم شریکی و فلاکت‌بولداشی ایدی. اونگ آناسی وفات ایده‌رك آتاسی وفاسیزلیق ایتمیشدی. بنم‌ده، وقتیله (12 ایل اول) آتام وفات‌ایندیگده آنام وفاسیزلیق ایده‌رك آقیتدیغم صمیمی گوز یاشلاریما اعتنا ایتمه‌یوب یکی بیر أره گیتمگله بنی ترك ایتمیشدی. خدیجه پیرشاغیدا کی باغلارینی خاطرلایوب آغلایوردی. بن‌ده لیچ‌ده کی باغیمزی، اورادا چوجوقلق آرقاداشلاریمی غریبسه‌یوب متأثر اولوردیم. او، شوه‌لانی ئوزینه غربت و یاد بیر محیط بولدیغی ایچون داریخیر، هیچ‌بیر شئله اگلنه بیلمیردی. بن‌ده داریخوب ئوزیمی اگلندیره بیلمیردیم.

دیمك طالعجه بیز بیر ـ بیریمزه الك یاقین آرقاداشلار ایدیك. فلاکت انسانلاری داها تیز بیرلشدیره‌ر، دنیلدیگندن اینانیردیم که خدیجه‌ایله تانیش اولاجاق، اونگله بولداشلق ایده‌جگم، یوره گیمده کی بوشلغی اونگله دولدوراجاغام. بیزه غربت کیبی گورونن شوه‌لان باغلاریندا بیر بیریمزی اگلندیره‌جگز...

خیالمده، خدیجه ایله تانیش و بولداش اولمایی چوق آسان تصویر ایدیردیم. بو، بنیم دوشونجه‌م ایدی. حقیقت تمامیله بونگ عکسنه چیقدی. خدیجه بندن یاشینیردی.

بیزیم ساکن اولدیغمز باغلار بیر ـ بیرینه قومشو ایدیجی. ئه‌ولریمزك آراسی یوز آدیمدان آرتیق دگل‌ایدی. ایکی‌باغگ مرزینده بولونان بیر قاراآغاجگ کولگه‌سینده ایکی عائله استراحت ایدوب اگله‌نیردیلر. ایکی قومشو باغی‌نی بیر ـ بیریندن آیران بیر آرشین یوکسکلگنده تاختادان یاپیلما بیر چه‌په‌ر ایدی، بونا باقمیاراق خدیجه بندن یالیگز یوزینی دوتوب یاشینماقلا کفایت ایتمیر، عادتاً قاچیردی. اونگ بو حالی بنی داها آرتیق مراقلاندیریردی.

***

ایمدیکی کیبی خاطرلایرام. بیر گون ایول آینگ اورتالاریندا قومشو قادینلار «پیرچنار»زیارتینه گیتمگه قرار ویرمیشلردی. گورمه‌دیگیم‌یرلری گوره‌رم دییه بن‌ده‌اونلار ایله برابر گیتمك ایسته‌دیم. ذاتاً قادینلار آراسیندا بندن چکینوب یاشیناندا یوقدی. اون‌بش ـ اون‌آلتی نفر او ـ لاردیق. سحر ایرکن حرکت ایدیلدی. «پیر چینار»ك یاقیلغیندا، قومشولارك بیریسیله تانیش بیر کندلینگ ئه‌وینه دوشه‌جگدك. اورایا ایکی ساعت‌لیك یول واردی. بو ساحتده بنی هر شیدن آرتیق مراقلاندیران خدیجه ایدی. اوداء خالاسی ایله برابر گیدیردی. بو یول ئوزه‌رینده بن اونگله گوروشوب قونوشاجاق، اونا رفاقت ایده‌جگدیم. الك او گده بیزیم‌شیلریمزی گوتوره‌ن بیر آرابا گیدیردی. اونگ آرقاسینجا بن‌ده داخل اولدیغم حالدا چولوق ـ چوجوقلار گیدیردی.

بونلارك آراسندا خدیجه آراسندا ایکی‌قیزدا واردی که بنمله آچیق ـ آچیق دانیشوب اگلنمگدن چکینمیردیلر. خدیجه بو کره‌ده بیزه قوشولمادی. او، بیردن 40 ـ 50 آدیم بیر فاصله ایله گلن یاشلی قادینلارا قوشولمیشدی. اونلارك صحبتی خدیجه‌نی اگلندیرمیه‌جگدی. یانیمدا کی قیزلار اونی سسله‌یوب چاغیریردیلار. بن اونك بیزه نیجه گلوب قاریشاجاغنی فکرلشوب دوشونورکن بردن، هیچ‌ده تصویر ایتمه‌دیگیم بیر حال قارشوسیندا بولوندوم. خدیجه نه یاپسه‌یدی یاخشی‌اولاردی؟ بیرده گوردوم‌باجیم بنی گری چاغیردی. یانیما یاقلاشاراق دیدی:

ـ خدیجه سنده‌ن یاشینیر، سن بیر قدرایلریده گیت، آرابایا، اوتور، یاخود آرقایا قالوب بیزه قوشول، خدیجه ئوز یولداشلاری قیزلار وچوجوقلار ایله بیر یرده گیتمك ایسته‌یور.

بنی حیرت آلدی.

ـ بونیجه تکلیف، دیدیم، بن‌خدیجه‌نی دوتوب بیه‌جك ده گیلم که... گلسین‌ده بیزه قوشولسون.

ممکن اولمادی. خدیجه هر ایسته‌دیگینی یاپدیرمایا عادت ایتمش، ارکوئون بویومش بیر قیزدی. باجیم بنی قاندیریردی.

ـ خسته‌در، آناسی یوقدر، شیلتاقچی‌در. اونك یوره گینی قیرماق اولماز دییردی.

بن‌چیقیلماز بیر وضعیتده قالمیشدیم. تمامیله گری قایتماق ایسته‌دیم. غریبه بوراسیدی که خدیجه بنم گری قایتمامادا راضی اولمایبردی. نهایت گذشته گیتدیم. دسته‌دن آرالانوب آراباجی ایله یولداش اولدیم.

خدیجه‌نك بنه قارشو یاپدیغی بو معامله‌سنه خبر اولمیا بیلمه‌زدیم. گری قایتمادیغمادا پیشمان اولمیشدیم. بوحال‌ایله گلوب اولجه‌دن قرارلاشدیریلان ئه‌وه چاتدیق. بو کره بن بیر قدر احتیاطلی داوراندیم. ایکنجی‌دفعه خدیجه‌نك تحقیرینه اوغرامایم دیه اونلارك دوشوب استراحت ایده‌جکلری ئه‌وك تالواریندان 70–80 آدیم اوزاقدا بولونان بیر سوگوت آغاجینك کولگه‌سینه بیر پالاسی سالدیروب راحتلندیم. بیر قدر سوگرا اونلاردا گلوب تالوار دایره‌لشدیلر. قورقدیغم تحقیره ینه اوغرادیم. خدیجه بنه امر ایدیردی کی سوگوت آغاجینك کولگه‌سیندن قالقوب تمامیله کناره بولونان بیر انجیر آغاجینك آلتینا گیتدیم.

خدیجه‌نك بو حرکتی بنی آچقدان — آچیغا تحقیر ایدی. او بو حرکتی ایله بنیم عزت نفسیمه توقونوردی. بوتون قادین‌لار، خالاسی‌ده، اونی مذمت ایدیردی. او ایسه ئوز سوزینده عناد ایدوب دوریردی. عصبی‌لشدیم. عادتاً عصیان ایتدیم. آیاغا قالقاراق، هوانك پك ایسـتی اولماسینا باقمیاراق گه‌ری قایتدیم. ایمدی بنده خدیجه‌یه قارشو مدهش بیر کین وخصومت واردی.

***

آرادان بیرآیدان آرتیق بیر زمان کچدی. بن‌خدیجه ایله آرقاداشلق ایتمك فکرینی آرتیق باشمدان چیقارمشدیم هر نه قدر اونا قارشو یوره‌گیمده بیر کین بسله‌ییر — دیمسه‌ده اوزاقدان بیله اولسون اونا باخماقدار، اونك نیچه بیر قیز اولدیغنی او گرنمکدن ئوزومی آلابیلمیردیم. او، گوزل ده گیلدی. چیر کین‌ده ده گیلدی. رنگی بیر قدر قارایا مایل ضعیف وجودلی بیر قیزایدی. اونك نظردقتی جلب ایده‌ن بیر شئی واردیسه اودا حدیندن فضله، گور، کستانه رنکلی ساچلاری‌ایدی.

بیر گون، گون‌اورتا یمکندن سوگرا، استراحت‌ایتمك مقصدیله قاراآغاجك کولگه‌سینده اوزاناراق کتاب مطالعه ایدیردیم،

خدیجه‌نی تمامیله باشی آچیق اولدیغی حالدا ئه‌ودن چیقوب تاختا چه‌په‌رك اوته کی‌طرفینه، قاراآغاجك کولگه‌سینه گلدیکنی گوردیم. او، بنم اورادا بولوندیغمی بیلیردی. فقط ئوزینی بیلمه‌مزلیکه قویمشدی. بیر ماهنو اوقوبوردی.

سـوك گونلرده خدیجه‌نك حالیندا بیر ده کیشیگلیك حس‌ایدیردیم. بن نه‌قدر که ئوزومی اوندان کناره چکیر، اونا قارشو اعتناسیز داورانیردیم، عکسنه اولاراق، او بنه بیر اوقدر آرتیق تمایل گوستریر، بعضاً یوزی آچیق گلوب یانیمدان ئوتەرەك کیچردی. ایمدی ایسه ماهنودا اوقویوب سسینی بنه ایشیتدیریردی. بنه اعتنا ایتمه‌دیم. یانی اوسته چه‌وریله‌ره‌ك آرقامی اونا طرف چه‌ویردیم او ایسه ئوزوم ده‌رمك ایچون مه‌نه‌لیگه دوغرگیتدی، بیر قدر زمان کیچمه‌مشدی که بیردن خدیجه‌نك قشقریقنی ایشیتدیم:

— «ای‌وای.. یيلان!...» دییوب چغریردی.

یوره‌گیمده بسله‌دیگیم کدورتی اونوتدیم. تیز آیاغا قالقدیم. تاختا چپه‌ری آشدیم. ئوزینی قوجاغیما آتدی. اونی ئوزیمدن کنار ایتدیم.

— هانی‌یيلان؟ دییوب‌سوردیم

— اورادا، اورادا — دییوب بیر یری گوستریردی. سیسینه خالاسیدا، باشـقا قومشولاردا چیقمیشدیلار. یيلان ایچون نه قدر آرادیقسادا تاپا بیلمه‌دیك.

— احتمال سنی قارا باـمشدر،

دییوب هر کس بیرطرفه داغیلدی، بنده ئوز یئریمه قایتدیم.

***

خدیجه‌نك واقعاً بیر یيلان کوبوب گورمه‌دیکنی تعیین ایده بیلمیردیم. بو بنی بیر قدر مراقلاندیرمایبردی‌ده... آقشام باجمدان ایشیتدیم که‌خدیجه قورقدیغندان خستلنمش‌در.

او گونك سحری خدیجه‌نك خالاسی بیزه گلدی. بنه ئوزینك راضیلیغنی بیلدیردی. علاوه خواهش ایتدی که اونلارا گیدیم. خدیجه شخصاً بنه تشکر ایتمك‌ایسته‌ییرمش. رد ایتمك مناسب‌اولمازدی. «یاخشی، گله‌رم» دیدیم. آقشام اوستی قالقوب اونلارك حیاطنه کیچدیم. خدیجه یاتاقدا او زانمیشدی. بنی گوردیکده اول گولومسه‌دی. سوگرا نه دنسه باشینی یان‌طرفه چه‌ویره‌رك گوزلری یاشاردی. او، بو حالنی بندن گیزله‌مك ایسته‌ییردی. موفق اولا بیلمه‌دی. آغلاماغا باشلادی او، بیر چوجوق کیبی آغلاییردی.

— نیه آغلاییرسیگز سیزه نه اولدی؟

دیه سوردیم.

— بنی باغشلا، دیدی، بن سنه فنالیق ایتمیشم. بن‌ظن ایدیردیم که یانیما گلمه‌زسك!

بر آز سوگرا خدیجه‌نك خسته‌لیغی تمامیله اونوتولدی. سنلی، بنلی قونوشور، هر طرفدن صحبت ایدیر، بنی اگلندیرمگه چالیشیردی.

قالقوب ئەوه قایدار کن بنی قارا آغاجك آلتنەدك مشایعت ایتدی.

– بن، دیدی، سنك بو یاخشیلیغكی هیچ بیر زمان اونوتمیاجاغام. بونكله برابر سندن بیر رجا ایدەجگم كه سنه قارشو ایتدیگیم فنالیقلری اونوداسیكز!

– اونودارم، دیدیم.

بیر قدر دوشوندیگدن سوكرا.

– یوق، اونوتماییكز، دیدی. فنالغیلەده اولسا بیر آدامك خاطرلانماسی تمامیله اونودیلماسیندان داها یاقشیدر. ده گیلمی؟..

***

بو تاریخدان باشلیاراق خدیجه ایله باریشدیم یالیكز باریشماقلا قالمیوب صمیمی بیر آرقاداش اولدیق. هر گون معلوم قارا آغاجك آلتندا گوروشور، اوزون – اوزادییه قونوشوردیق. خدیجه سوادسیز بیر قیز ایدی. بعضاً سویلەدیگی بیر سوزك ئوزەرینده عناد ایدەرجەسینه دورار، هر كسی ئوزیله حسابلاشماغا مجبور ایدەردی. بونا باقمیاراق او، اولدیقجا خوش صحبت، ایی طبیعتلی، گنیش قلبلی بیر قیز ایدی. چوق وقت گیجەلرده، خالاسیله برابر بیزه صحبته گلەردی.

بن خدیجه ایله چوق خوش ساعتلر كیچردیم. فقط بیزیم بو آرقاداشلغمز اوزاق دوام ایتمەدی. یالیكز ایكی هفته قدر اولدی. باغ موسمنك آخری اولدیغی ایچون اونلار كوچمگه قرار ویرمیشلردی. او آقشام ینه بیزه گلدیلر. خالاسی تلەسیردی. سحر كوجكلری ایچون ئەوده یغیشوب، حاضرلانماق لازم ایدی. تیز قالقوب گیتدی. خدیجه گیجه یارییەدەك بیزده قالدی. سوكرا قالقدی. آیك قارانلیق بیر گیجەسی اولدیغی ایچون اونی ئەولرینەدك اوتورمك لازم گلدی. بنده آیاغا قالقدیم. قارا آغاجك آلتینا گلدیك یاریم ساعتەدك آیاغ اوسته ینه اوتەدن – بریدن فونوشدیق. نەدنسه بویله صحبت هر ایكیمزه خوش ایدی. بیر – بیریمزدن آیریلماق ایستەدیك. نهایت الیمی سیقدی. تاختا چپەری آتلادی:

– بن سنی اونوتمیاجاغام، سنده بنی اونوتما، دیدی. بندن اوزاقلاشدی.

بن ایكی اللریمی تاختا چپەرك ئوزەرینه سوكەیوب اونك آرقاسنجه باقیردیم. بیردن دایاندی. یوزینی بنەطرف چەویردی. اون بش – ییكرمی آدیم قدر آرامزدا بیر مسافه واردی. بن بیرسوز سویلەمیردیم. هرحالدا خدیجەنك سویلیەجك بیر سوزی واردی. بو حالدا اونك بنه طرف یوگوردیگنی گوردیم برابریمه یتیشنجه چپەرك آرقاسیندان ایكی قوللاربله بوینمی قوجاقلایمب دوداغلارینی دوداغلاریمه دوقوندیردی. و قاچاراق گوزدن غیب اولدی. بن یریمده قورویوب قالدیم. اونك تكرار گورونمەسینی ایستەییردیم. فقط او، بیرداها گورونمەدی. ئەوه قایتدیم.

هر كس یاتمشدی. اعتراف ایدیرم كه او گیجەیی سحرەدك یوقوم گلمەدی. بینمه بیر چوق قاریشیق خیاللار هجوم ایدیردی. نهایت هوا ایشیقلاندی.

هر نیجه اولورسا اولسون بن خدیجەنی بیر كرەده گورمك ایستەییردیم. آیاغا قالقدیم بیر باشا «بنداوستی» آدلانان كوچەیه گیتدیم خدیجه گیلك فایطونلاری اورادان كیجەجگدی.

بكلەدیم، بكلەدیم. نهایت اونلارك فایتونی گلوب اوكمدن بیر ییلدیریم سرعتیله اوتوب كیچدی. خدیجەنك گوزلری گوزلریمه ساتاشدی. النده دوتدیغی بیر قرنفل چیچگنی بنه طرف آتدی. او، آرتیق بندن اوزاقلاشدی. چیچگی یردن آلدیم. ئەوه قایتدیم. فقط نەدنسه او گون احوالم هپ پریشانلق ایچینده كچدی.

بو، خدیجه ایله بنیم بیرینجی گوروشیم ایدی.

***

بو حادثەدن تام اوچ ییل كیچدی. بو اوچ ییل ایچەریسینده خدیجەیه بیر یرده تصادف ایتمەدیگیم كیبی اونك بارەسینده بیر سوزده ایشیتمەمشدیم. حیات و معیشت قایغوسی خدیجەنی بنه اونوتدیرمیشدی.

1908 نجی ییلك باغ موسمینده بیر جمعه تعطیلیندن استفاده ایدەرك، قوناق صفتیله «پیرشاغی» باغلارینا گیتمیشدیم. آقشام ئوزەری بیر پارچه گزمك مقصدیله دكز ساحلنه چیقدیم. بو حالدا قارشوما بیر دسته قادین چیقدی. باشیمی سالاراق اوتوب كچمك ایستەییردیم. یانلاریندان كیچركن باشیمی قالدیردیم. هپسی یاشلی ایدی. یالیكز بیریسی گنج ایدی.

اوبیریلری بنه قارشو یوزلرینی اورتدیلر. گنج قادین ایسه بندن یاشینمایور، دیك – دیك گوزلریمك ایچینه باقیردی. بیردن بیره بنی حیرت آلدی: قارشومدا كی قادین خدیجه ایدی. اوتوب كیچدی.

خدیجه بویجا چوق بویومیشدی. رنگی بیرقدر آغارمیش، گوزەللیگی ده او نسبتده آرتمیشدی. باشیندا آچیق رنگلی ایپك چادراسی. اونك آلتندا آلافرانقا البسەسی واردی.

بیر نیچه آدیم اوزاقلاشدیقدان سوکرا اختیارسیز آیاق ساقلایوب گه‌ری‌یه باقدیم. بو حالدا خدیجه‌نك‌ده باشینی چه‌ویروب بنه طرف باقدیغینی گوردیم. هیچ بیر سوز سویله‌مه‌دن یولیمزا دوام ایتدیك،

بودا بنیم خدیجه ایله ایکنجی گوروشوم ایدی.

***

خدیجه ایله اوچونجی گوروشوم 1912 نجی ییلده اولدی. بو زمانلاردا بن‌تك باشیما اولاراق «قومونیست» کوچه‌سینده واقع «حاجی‌حاج آغا» کاروانسراسیندا یاشییردیم. بوراسی اوچ‌قاتلی، اولدیقجا بویوك بیر بنادر. محرملیك مناسبتیله قاراباغلیلارك آغالاری، بو کاروانسرانك حیاطنی تکیه حالنه سالوب تعزیه ساقلاییردیلار. مشهور خانده‌لرك اوقودیقلاری مرثیه‌لر بیر چوقلارینی بورایا توپلامشدی. « تاسوعا » گیجه‌سی ایدی. آقشام ساعت 9 راده‌لرینده مشغله‌دن منزلیمه قایدیردیم. کاروانسرانك بویوك آلافاپوسی آغزینه‌دك تماشاچیلار ایله دولی ایدی. بیرگون اول کاروانسرانك ایکنجی مرتبه‌سی بالقونا توپلانان تماشاچی قادین‌لار آراسیندا، یئر اوسته دالاشما اولدیغی بیر ایکی قادینی ایچه‌ری براقماق ایسته‌میردیلر. بن اونلارك یانیندان اوتوب کیچه‌رکن او قادین‌لاردان بریسی:

– آی قارداش، دیدی، بیز داواکار ده‌گیلز، بیزی ایچه‌ری براقدیر.

– بو، بنه عائد اولان پیر ایش ده‌گیل باجی دیدیم.

قادین‌لاردان بیر باشقاسی:

– بلکه ، بن سیزدن بو باره‌ده خواهش ایتدیم !، اوندا نیچه؟ – دیدی.

دونوب باقدیم. بو، خدیجه ایدی.

– آرقامجا گلیگز، دیدیم.

اونلار اوچ نفر ایدیلر. منزلیمدن ساندالیا آلوب مناسب بیر محلده اونلار ایچون یر حاضرلادیم.

خدیجه‌نك حالیندا بیر ده‌گیشیکلیك واردی. بش یيل اول بن اونی زنگین بیر البسه‌ده گورمیشدیم. ایمدی ساده بیر لباس گیمیشدی. بو، اونك کاسب بیر عائله‌ده یاشادیغینی بیلدیریردی.

منزلیمه قایتدیم. تمامیله یالیگز ایدیم. قومشولاریمك هپسی تعزیه مجلسینه گیتمیشلردی. اوتاغك ایچینده گزیشیر، خدیجه‌نی دوشونوردیم. یدی یيل اول اونگله کیچردیگم ساعتلر تمامیله خیالمده جانلانمیشدی. هله اونك بدن آیریلارکن ایلك وسوك اوپوشی... اونك حرارتی هله‌ده حس ایدیردیم. بردن خاطریمه بیر شی گلدی. اسکی کتابلاری آراشدیروب قوجامان بیر کتاب آلدیم. بو «تفسیر صافی» آدلی فارسجه منظوم یازیلمیش بیر تفسیر ایدی. ورقله‌مگه باشلادیم. ایسته‌دیگیمی بولدوم.

بو خدیجه‌نك ایلك‌دفعه بدن آیریلارکن بنه براقدیغی قرنفل چیچه‌گی ایدی. بو چیچه‌ك تمامیله سولوب خزان اولمیشدی. کتابك قالینجا ورقلری اونی او قدر سیقوب تضییق ایتمشدی که نه قوقوسی، نه‌ده رنگی قالمشدی.

ئه‌وت، وقتیله طراوتلی و تازه اولان بو چیچگك بوتون روحی اوچوب گیتمیش، اسکی کتاب اونك ئوزینك کوفلنمش قوقوسیله بورومبش وجودینی چوروتمیشدی.

باقدیم، باقدیم: آجی، آجی دوشوندوم. – اسکی کتابك تأثیری دیدیم.

تعزیه مجلسی بیتدیکدن سوکرا خدیجه‌نی یولداشلاری ایله برابر منزلیمك قاپوسیندا گوردیم. اونلارا، یول آچیلان قادار بگله‌مك لازم ایدی. آیاق اوستی، خدیجه ایله او– ته‌دن – بریدن قونوشماغا باشلادیم. مصاحبه‌مزك موضوعی بیر–بیریمزك حالینی سورماق ایدی. اوگرەندیم که خدیجه بش‌یيل اول قیزیل به‌زه‌ك شیلری ساتان زنگین بر زرگره آره گیتمشدر. فقط اونی سه‌وه یازمه‌میشدر. اوچ‌یيل سوکرا اوندان یوشانمشدر. بیر یيل یاریم آتاسی ئه‌وینده یاشامیش، کندیسنی آلماق ایسته‌ین کیشیلری رد ایتمشسه‌ده نهایت حیات اونی ایکنجی بیر کیشی‌یه وارماغا مجبور ایتمیشدر. آلتی آی اول بازاردا آلیش – ویریشله مشغول اولان بریسیله ئه‌ولنمشدر.

خدیجه‌نك دورت یيل اول کوچه‌ده تصادف ایتمکله مشاهده ایتدیگیم گوزه‌للگندن آز بیر شی قالمیشدی.

تکیه تمامیله بوشالمیش، یول آچیلمیشدی. خدیجه‌نك یولداشلاری اونی تلسدیریردیلر. «ساق‌اول» دییوب الیمی سیقدی. بدن آیریلارکن دیدی که:

– حیاتمدان هیچده ممنون ده‌گیلم...

آرادان بیر آلتی یيلده گچدی. بو آلتی یيلك ایچه– ریسینده بیر چوق حادثه‌لر باش‌ویرمشدی. جهان محاربه‌سی فیورال‌و اوقنیابر انقلابلاری سوکرا زافاقفازیادا باش‌ویرن اختلال و قاریشیقلیقلار، خصوصیله آذربایجاندا و زحمتکش خالقی و عصرلردن بری جهالت و اسارت زنجیری آلتیندا ایکله‌ین شرق قادین‌لارینی اوقنیابر انقلابینك فیوضاتیندان محروم ایتمك ایچون ارتجاع و عکس‌انقلاب تشبثلری... بو زمانلاردا بن باکودا ده‌گیدیم. نهایت 1918 نجی یيلده « سنتیابر حادثه‌سی » ندن سوکرا باکویه قایتدیم یکیجه گلمیشدیم. سابق میخایلوفسکی کوچه‌ده اولدیقجا بویوك

بیر بناده منزلیم واردی. کوچه قاپوسیندان گیره‌رکن اوزون یاریم قارانلیق بیر دالانی کیچوب ئوز اوتاغیمه گیده‌ردیم. یولیمك ئوزه‌رینده ، او بنادا یاشیان بیر تاجرك اودون آمباری واردی. بیر گون او آمبارك اوکیندن کیچه‌رکه ئه‌و قوللوقچیسی بیر قادینك اورادان اودون آلوب چیقدیغنی گوردیم.

اعتناسز ئوتوب کیچدیگده بو قادین بنی گوردی. تیز یوزینی دیواره چه‌وبره‌رك یوزینی بندن گیزله‌دی . نه‌دنسه بی‌اختیار خدیجه‌یی خاطرلادیم. چونکه بو قادینك بویی خدیجه‌نك بوینا بگزه‌ییردی. باشینا قایقاجی سالدیغی چادراسینك آلتندان کستانه رنگلی اوزون و گور ساچلاری نظر دقتی جلب ایدیردی.

او گون هپ خدیجه‌نی دوشوندیم. حیاتدا هر بیرشی ممکن ایدی. فقط ارکه‌ئون بویویه‌ن ، کیمسه‌یه بویون اگمك ایسته‌مه‌ین خدیجه‌نك باشقالارینك ئه‌وینده قوللوقچیلیق ایده‌جگینه اینانماغم گلمیردی. بونا باقمیاراق او گون چوق ناراحت اولدیم. بو فکری ئوزیمدن اوزاقلاشدیرا بیلمه‌دیم آقشام دالانداری چاغروب گوردیگیم قادین باره‌سینده اوندان معلومات ایسته‌دیم .....لارك قوللوقچیسی‌در، یکی گلمیشدر.» دیدی آدینی بیلمیردی. ئه‌و دفترینی اوندان طلب ایتدیم. باشدان آیاغه‌دك ورقله‌دیم. آرادیغمی بولدم. بو قوللوقچینك آدی خدیجه ایدی.

بن یاکیلمیردیم، دالاندارایله اونا خبر گوندردیم. بنی بیر گورسون، دیدم.

او گون کیچدی. ایرته‌سی گونك کیجه‌سی خدیجه بنم منزلیمه گلدی. حالی اولدیقجا پریشان ایدی. اگننده اسکی یامالی بیر پالتار واردی. دانیشارکن آرا-سیرا او گسور دیگی خسته‌لیگنی بیلدیریردی. اونك بو حالیندان پك متاثر اولدیم.

خدیجه‌نك آگلاتدیغیندان او گرندیم که ایکنجی اریندن ده بوشانمشدر. بش یاشلی بیر قیز چوجوغی وار ایمش. آتاسی تکرار اه‌ره ویرمك ایسته‌مشسه‌ده قبول ایتمه‌میش. قیزینی بویوتمك، ئوزحیاتینی تامین ایچون ئه‌ولرده قوللوق چیلیق ایتمه‌یی اه‌ره گیتمه‌یه ترجیح ایله‌مشدر.

اونا مادی جهتدن یاردیم ایدوب ال دوتماق ایسته‌دیم. قبول ایتمه‌دی. بیرچوق اصراردان سوکرا دیدی که:

- قوی هله‌لیك سزده قالسون، بنیم ایچون ساقلاییکر، لازم اولدیغی وقت گلوب سندن ایسته‌رم.

قالقوب گیتدی. او گونك صباحی خدیجه‌نی بر داها گورمه‌دیم. دالانداردان او گره‌ندیم که حسابنی آلوب گیتمشدر.

بودا بنم خدیجه ایله دوردنجی گوروشم ایدی.

***

خدیجه ایله بنم سوك گوروشوم اون آی سوکرا، 1919نجی یلیك آوغوستندا اولدی. بیر تصادف بنی ایکنجی کره اولاراق ینه شوه‌لاندا کی اقربامزك معلوم باغینا چکمیشدی. بن اورایا، استراحت ایتمك مقصدیله بیر هفته‌لیگه قوناق اولاراق گیتمشدیم باجیمدان او گرندیم که خدیجه خسته یاتیر، حالی ایی دگل، خالاسی اونی قومشولغمزدا کی قارا آغاجلی باغا گتیرمیش. ئوزی‌ده هر گون بنی سوروشور.

آیاغا قالقدیم تخته چپه‌ری آشدیم خالاسی قارشوما چیقدی، بنی اونك یاتاغی یانینه گوتوردی.

خدیجه آرقاسی اوسته اوزانمشدی. اونك وجودیندن یالگز ایکی شی نظری جلب ایدیردی. ایری قارا گوزلری، کستانه رنگلی آچیق، داغنیق ساچلاری...بنی گورونجه قالقماق ایسته‌دی. بونا قوه‌سی یوقدی. مانع اولدیم. الیمی دوتدی. اول بوزیمه گولومسه‌دی. سوکرا باشینی یان طرفه چه‌ویره‌رك گوزلری یاشاردی. او، بو حالنی بندن گیزله‌مك ایسته‌ییردی.

خدیجه‌نك بو حالی بنه چوق توقوندی. متاثر اولدیم. اون دورت ییل اولکی حادثه‌لر خیالمدا جانلاندی. بن ایلك کره خدیجه‌نی همین باغدا، عینی یاتدیغی یرده گورمشدیم. او زمانکی حسته‌لیغی ایله ایمدیکی خسته‌لغی آراسندا بویوك بیر فرق واردی.

یانندا اوتوردیم سویله‌مگه بیرسوز بولامادیم، «نیجه‌سگز» دییوب سورماغا احتیاج یوقدی. او، ئولوم دوشکینده‌ایدی. و آچیقدان آچیقا حس اولونوردی.

یالگز:

- سیز خسته‌سیگز؟ - دییه بیلدیم.

جواب ویردی:

- ئولمك ئورره‌یم،

آرالیقدا بیر سکوت عمله گلدی بو سکوتی ینه خدیجه‌نك ضعیف سسی پوزدی. اوئولوم حالنده‌بنی مشغول ایتمك ایچون صحبت موضوعی بولماغا چالیشیردی. بونی بولماقدا گوجلك چکمه‌دی.

- هیچ باغا گله‌جك حالدا دگیلدیك، زواللی خالام بنی باغ هواسیله تداوی ایتمك ایسته‌دی. اونا دیدیم که اگر بنی اون دورت ییل اول گیتدیگمز شوه‌لاندا کی باغا آپارساك گیده‌رم. نه‌دنسه بو باغی بن هیچ اونودا-بیلمه‌میشم. بن بورانی چوق سه‌ویرم. بنه اویله گلیردی که بورایا گلمگله یاخشیلاشارام. فقط یاخشیلاشا بیلمه‌دیم.

خدیجه‌نك تكرار گوزلری باشاردی، بوغازی دوتولدی. اوگسورمكه باشلادی. بیر قدردن سوكرا علاوه ایتدی:

– بورایا گلدیكم گوندن هپ سنی دوشوندیم. هر گون سنك نه زمان گله‌جكنی سوروشوردم. قورقوردیم كه سنی گوره‌یلمه‌دن ئولەرم. بیر نیچه دفعه ئولوم بنه چوق یاقینلاشدی. بونی آچیقدان آچیغا حس ایدبردیم. سانكه جانم بوغازیمدان چیقماق ایسته‌یردی. بنی بویله گلیردی كی گوجله‌اونی دوتوب ساقلامیشم. بن حیاتك قدرینی آنجاق ایمدی بیلیرم.

خدیجه ینه سكوت ایدی. او، چوق ضعیف ایدی. حركتسیز گوزلرینی بیر نقطه‌یه دیره‌یوب باقیردی. فكری اوزاقلاردا، پك اوزاقلاردا ایدی.

نه‌لر دوشوندیكینی بیلمیردیم. بیرده گوردیم كه ایكی قطره یاش ئولوم رەنگلی ساری چهره‌سنه دوغرو آقوب یانلارینی ایسلاتدی.

اختیارسز اولاراق:

– سیز آغلامیرسكز. دیدیم.

گوزلری یاشلی حالدا گولومسه‌دی؛

– یوق، آغلامیرام، دیدی. سنك بویله گلوب بنی یوقلاماكدان چوق سه‌وندیم. چونكه بن بونی خسته یاتدیغم گوندن ایسته‌ییریم دیرم كه هر ایسته‌دیگمه نائل اولابیلسیدیم...

***

اوگونك آقشامی ینه خدیجه‌نك یانه گیتدیم. گونش یكیجه غروب ایمتشدی. كیچیك بیرلامپانك ساری ضیاسی ئه‌وه ئولگون بیرایشیق نشر ایدیردی. بیرطرفده‌خدیجه‌نك گوزلریندن تمامیله ئوزینه بكزه‌ین آلتی یاشلی قیزی‌اوینا مقله مشغول‌ایدی. خالاسی، باشینا قایغاجی اورتدیكی‌چادرا سیله یوزینی بندن گیزله‌دیكی‌حالدا اورتادا گزوب دولاشیر دی. خالاسینك اهری‌ده بنه بیر احترام اولماق‌ایچون گلوب بیر طرفده اوتورمیش، اوته‌دن–بویدن بنمله قونوشوردی. خدیجه آرقاسی اوسته حالسیزجه اوزانوب تیز–تیز نفسنی آلوب ویریردی. بیردن: «خالاجان!» دییوب چاغردی. «سن‌ده گل اگلش!» دیدی. خالاسی‌ده گلوب اگلشدی.

خدیجه باشلادی:

– بنم وصیتلریمی ایشیدیكز، بن ئولدیكدن سوكرا اونا عمل ایده‌جكگزه سوز ویریكز.

خالاسی:

– بو نیجه سوزدر، قیزیم، سویله‌یرسك! اللهه شكر سنه نه اولمشدر كه... انشاء الله یاخشی اولارسك، دیدی

– خالاجان بنی ناحق‌یره نیچین آلداتماغاچالیشیرسك! بونا احتیاج یوقدر.

خالاسی اهری:

– سویله‌قیزیم، عمل‌ایده‌رز، دییوب اونا جواب ویردی.

خدیجه:

– بن، دیدی، آخرزمانلاردا قیزیمك آدینی ده گیشوب اونا ئوز آدیمی قویدیم. بن ئولدیكدن سوكرا اونی «خدیجه» آدیله چاغرارسیكز! بو بنم برنجی وصیتمدر.

ایكنجی وصیتم بودر كه ئولدیكدن سوكرا بنیم‌ایچون نه صلات‌چكدیریكز، نه‌ده ملاچاغیروب احسان‌ویریكز.. بن بونلارك‌هیچ برینی ایسته‌میرم ایسته‌رسیكز هیچ یاس‌دا ساقلامیكز، اویله تصور ایدیكز كه خدیجه ئولمه‌میشدر. قیزیم خدیجه بنم عوضیمه یاشیاجاقدر.

خدیجه‌نك و سوزی ئوزه‌رینه‌خالاسی، ئوز اهری‌نك یوزینه باقدی. اودا اونا اشارت ایتدی كه بیر سوز سویله‌مه‌سین.

خدیجه علاوه ایتدی:

– اوچونجی‌وصیتم بودر كه بنی قبرستاندا باسدیرمیكز ایكی باغك مرزینده كی بویوك قاراآغاجك آلتندا دفن ایدیكز. بن بونی سیزدن سوك‌نفسمده خواهش ایدیرم.

یوزینی بنه‌طرف چه‌ویردی گوزلریمك ایچینه باقدی. سوكرا گوز قاپاقلارینی اندیردی. بیرقدر سوكراتكرار گوزلرینی آچدی.

– قویكز، دیدی، بیر–وزده سویله‌یم. یللردن‌بری یوره گیمده ساقلادیغم بیر سوزی..

ینه گوزلرینی بنه‌طرف چه‌ویردی:

– بو سویله‌جك سوزیم، سنه عائددر، دیدی.

– سویله‌یكز، دیدیم.

– بلیرمیسك، بن قاراآغاجك آلتندا دفن ایدیلمه‌می نیه ایسته‌ییرم؟

– ...

چونكه بن سئی اوندا سه‌ویردیم. ایمدی ده سه‌ویرم. بو سوزلری متعاقب قوری، گمیك الیله الیمی دوتوب دردلی سینه‌سنك ئوزه‌رینه قویدی. اونك اعترافی حزین، حزین اولدیغی قدر فجیع ایدی.

اورادا ده‌رین بیرسكوت عمله گلدی. خالاسی اهرینك قاشلاری چاتیلدی. سول الینی گوزینك قارشوسینا دوتدی. بو حالدا خالاسینك سسی سكوتی پوزدی.

– خدیجه! دیدی، نه دانیشیرسك؟ سنك ایچون عیب ده گیلمی؟ خلق سنه نه دییه‌ر...

خدیجه آجی ـ آجی گولدی.

ـ یئه‌ده «عیب!..»، یئه‌ده «خلق نه‌دییه‌ر!.»

اللرینی یره دیره‌دی. قالقوب اوتورماق ایسته‌ییردی. یاردیم ایتدیم. آرقاسینا بیر ـ ایکی بالیش قویدیم اونلارا سوکندی. دانشماق ایسته‌یبردی. دیدی:

ـ حالا! بنی ایلك دفعه اهره ویرنده دولتلودر، پولی قیزیلی چوقدر، یاخشی ئه‌وی و ملکی وار، تاجردر.» دییردیگز بن‌بونك جوابنده یالیگز بیر سوز سویله‌بیردیم: او آدامی سه‌ومیرم!» اوندا سن بنه دییردك که «خدیجه، سنك ایچون‌عیب ده گیلمی، خلق ییزه نه دییه‌ر!.»بنم‌ایچون عیب اولماسین، خلق سیزه بیرسوز دیمه‌سین، دییه حیاتمك اوچ ـ دورت ییلنی زهرله‌دیم، آخردا بوشاندیم. ینه سربست‌ایدیم. بو کره‌بنی ایکنجی اهره ویرمك ایسته‌دیگز ینه بنه بیرچوق سوزلر سویله‌بیردیگز. سیزه دیدیگده که: «اونی سه‌ومیرم، سه‌وه‌یلمیه‌جگم! .» جوابده: «خدیجه، سنك ایچون عیب ده گیلمی، خلق نه دییه‌ر ؟» دیدیگز. حیاتمك بیر قسمنی‌ده بویله زهرله‌دوب نهایت بنی ئولوم یاتاغینا یاتیردیگز. . ایمدی که بن ئولورم، آرتیق یاشامیا جاغام، تام اون دورت ییلدن بری یوره گمك اك گیزلین بیر یرینده، ساقلادیغم بیر سوزی. «سه‌ویرم!» کلمه‌سینی، سوك نفسمده آغزیما آلوب سویله‌دیگده. سن خالامدان ینه کهنه سوزلری ایشیدیرم. یئه‌ده «عیب ده گیلمی؟» یئه‌ده «خلق نه دییه‌ر!»... اوف!. امان بو کهنه سوزلردن... نه‌وقته کبی. . بو «عیب»ك بیر نهایتی اولمیاجاقمی؟

خدیجه گیتدیگجه عصبی‌لشیردی. سوك سوزلرینی هیجانله دییردی بونی متعاقب شدتلی بیر اوسکوره گه دوتولدی. اخرداحالسیز دوشدی. ایمدی اونك گوزلریندن ساکنجه آقان یاشلار یاناقلارینی ایسلادیر، متمادیاآقیر بیر درلو بیتمك بیلمیردی.

دوام ایده‌بیلمه‌دیم.

ـ آغلامیگز، خدیجه‌یه، دیدیم.

ـ قوی آغلیایم، دیدی. بنیم بو آغلاماغم ئوز حالم ایچون ده گیلدر. بن بیلیرم که بنی ئه‌زوب محو ایده‌ن بیر مقدرات، قیزیمی‌دابنم کیبی ئه‌زه‌جك، محو ایده‌جگدر. بن بو زوللی قیزیمك گله‌جگده کی طالعینه آغلاییرام.

خدیجه حقلی‌ایدی. خدیجه‌نی ئولدیره‌ن اونك مقدرات و طالع آد ویردیگی محیطی‌ایدی. بو محیط اونك یاورو سنی‌ده «عیب ده گیلمی ؟»، «خلق سنه نه دییه‌ر» افیونیله زهرلیه‌جك، ئوزینك وجودی کیبی قارا توپراقلارا گومه‌جگدر.

***

گیجه یاریدان اوتمیشدی. یوقوم تمامیله قاچمیشدی. بونا خدیجه‌نك «سنی سه‌ویردیم» اعترافی سبب اولمیشدی. بیلمه‌م نیجه بیر حسله آیاغا قالقدیم، بوتون شوه‌لان درین بیر اویقو ایچینده‌ایدی. معلوم قارا آغاجك قالین قارانلغه بورونن آلتینا گیتدیم. بوتون اسکی خاطره‌لریم خدیجه ایله کیچیردیگیم ساعتلر، گونلر بیرر ـ بیرر، بیر کینوله‌نتا سی کیبی خیالیمدان کیچردی. تام‌اون دورت ییل بوندان اول‌ایدی. خدیجه بورادا، بو آغاجك آلتندا یو گوره‌رك بونیمی‌قوجاقلایوب دوداغلارینی دوداغلاریما دوقوندورماقله بنی سه‌ودیگینی بیلدیرمشدی. او گیجه‌ده بنم یوقوم گلمه‌میشدی. چونکه بن‌ده خدیجه‌نی نه گیزلته‌یم، صمیمی بیر محبتله سه‌ویردیم. فقط زمان و محیطیزه سه‌ویشمگه امکان ویرمه‌میشدی. هر ایکیمیز «عیب»دن، «خلق»دن قورقمیش ئوز حسیاتمزی یوره گمزك اك‌درین بیر یرینه کوممشدیك.

بن بویله‌آجی دوشونجه‌لر ایچینده اولدیغم‌حالدا بیردن خدیجه گیلدن بیر آغلاشما سسی قوپدی. خدیجه‌نك‌خالاسی آغی دییوب اونی اوقشاییردی. کیمسه‌دن بیر ایضاحات ایسته‌مگه و معلومات آماغا احتیاج بوقدی. خدیجه‌ئوزینك حسرت گوزلرینی بیرداها آچماماق ایچون محیطه‌یومشدی.

ایشچی و کندلی قادینلار، سواد و اختصاصگزی یوکسلدیك، سوسیالیزم قورولوشندا چالیشیك اوز آزادلقلاری یولندا مبارزه ایدن شرق قادینلارینا سلام، آتیك چادرالاری، کوهنه موهوماتلاری محو ایدیك!

اوقتیابر انقلابی.

اون ایل بوندان اولدی
«اوقتیابر» آیندا،
«له‌نینغراد» بویندا،
بایراغمز یوکسه‌لدی.

انقلابك ضیاسی
افقلره یایلدی..
«قارا» قوشلار بایلدی
آلاولاندی یوواسی.

حیات ویردی، حق ویردی
قادینلارا قیزلره
-تورکمه‌ن و قیرغیزلره-
اساراتی ده‌ویردی.

هر طرفدن، اوزاقدان
عصیان سسی یوجالدی
یوقسوللار قوت آلدی.
شانلی قیزیل بایراقدان.

ظلمت بیتدی.. بوغولدی،
بکزاده‌لر و خانلار.
مروتدن سایانلار
ئولکه‌مزده‌ن قوغولدی.

موزدور، کندلی عمله
قادینلارلا ایشجیلر
سه‌وینیج ایله ویردیلر
بیر بیریله أل أله

به‌زه‌نمیشدر تارلامز
تراقتورلارلا بوگون
ای آنه آرتق اوگون
سعادتله یاشارز!..

«استحصال اوجاقلاری»
هرطرفده یوکسه‌لیر.
صنایع تنویر ایدیر
قارانلق بوجاقلاری.

«زاغه‌س» گونش رولندا
قافقاس ئه‌لك نورلاتیر.
شورا بیزی یاشاتیر
سوسیالزما یولوندا.

اون ایلدر که توپراغم
امکمله نورلانیر...
اوستنده دالغالانیر
سن، شرفلی بایراغیم!..

ع. فاروق

او گیجه‌نك سحری خدیجه‌نك آقشامکی وصیتلرینه عمل‌ایدیلمه‌دی. اونك آدینه صلات چکیلوب قرآن‌اوقوندیغی کیبی ایسته‌دیگی یرده، قارا آغاجك آلتندا دفن ایدیلمه‌مه‌سنه‌ده امکان ویریلمه‌دی. بنم‌بو باره‌ده کی مراجعتمه‌خدیجه‌نك حیاتینی زهرله‌ین او منحوس کلمه‌نی‌ایشیتدیم:

- «سوگرا خلق بیزه نه‌دییه‌ر؟».

***

ایمدی بو فاجعه‌دن تام‌سگز ییلدر که کیچیر. هر کس خدیجه‌نی اونوتمشدر. اعتراف‌ایدیرم که بن ده اونوتمشم. فقط بیر مناسبته بن اونی خاطرلادیم. بو مناسبت «اوقتیابر انقلابی»نك اون ییللگی‌در. چونکه بو انقلاب آذربایجان قادینلغنك بوتون وارلیغنی گمیره‌ن بیر چوق زنجیرلری قیروب آرتمشدر. خدیجه بو انقلابك فیوضاتیندان استفاده ایده‌بیلمه‌دی. او، سوك نفسینده، یرینده براقدیغی آلتی، یاشلی خدیجه‌سی ایچون آجی-آجی گوز یاشلاری آقیتدی. اوزمان بن اونی حقلی بیلمشدیم. فقط یاکیلمشدیم. ایمدی ایکنی خدیجه‌نك نره‌ده اولدیغینی بیلمیرم. احتمال او قیز مکتبلرینك بیرینده اوقویور. بلکه‌ده ایکی درجه‌لی‌مکتبی بتیرمك ئوزره‌در. بو حالدا بنم ایناندیغیم بر شی وارسا اودا بودر که ایکنجی خدیجه آناسی کیبی اولمیاجاق، او «عیب ده گلمی؟» سوالندن «خلق نه دییه‌ر!» سوزیندن قورقمیاجاق «سه‌ومیرم» و «سه‌ویرم» کلمه‌لرینی هر کسه‌قارشو آچیقدان-آچیقا دیمکدن چکنمه‌یه‌جك و اوتانمیاجاقدر.

قوی بویوك و شرفلی بایرام مناسبتیله یورگمزك صمیمیتله بیر آرزوده بسله‌یه‌لم:

شورالارا تفاقی خارجینده یاشایان «خدیجه»لرك آزادلیغنی.

سوك.

شرق قادینی:

مؤلفك، ایمدیگی زماندا هارادا اولدیغینی بیلمه‌دیگی و یالیگز احتمال ایله مکتبلرك بیرینده اوقویاجاغینی گوستردیکی خدیجه‌نی ادارەمز تانیور. او، بیزیم اوقوجیمز و مخبریمزدر. آرا-سیرا مکتب حیاتیندان خبرلر یازیر. ئوزی‌ده بیرلشمیش ایکی درجه‌لی مکتبلرك پەداغوژی تمایللی قسمینده اوقویور. قومسومولقادر. عینی زماندا علی بایراموف قادینلار قولوبیندا کی درنکلرده چالیشیر. اوقیتابر انقلابی اونا آناسی کیبی فاجعه‌لی بیر حیات کیچرمکه ایمکان ویرمیه‌جکدر. او مکتبی بتیردیکدن سوگرا اجتماعی مبارزه جبهه‌سینه قوشاجاق، ازیلمگده، آناسی کیبی ورم یاتاغیندا ایگله‌مگده اولان باجیلارینك خلاصینه قوشاجاقدر. بو، اونك اوز فکریدر.

نماینده یغنجاغی.

اون یللیگی اوقتیابریك
نه ویرمیش‌در، باقیك گوریك:
باکودا بیر یغنجاق وار؛
گلمیش اورا چوق، آروادلار.
اونلار کیمدر؟ کیم ایدیلر
یاقین گیدوب، باقان بیلر:
آشباز قیزی چیل ـ گلبری؛
اوقته‌بدن چوق ایره‌لی
بك ایونده آتاجیغی
قبول ایتمیش آشبازلغی.
چالیشاردی قیش، یاز، پاییز،
قاب یوباردی او یازیق قیز،
سینی دیبی یالاردیلار،
چوق وقت آج‌دا قالاردیلار.
پلووی یاخشی بیشیردیسه،
خوش ساعته دوشیردیسه،
قوری «ساغ اول» دییردیلر؛
اما قیزی دوگوردیلر،
قابیك بری سینسا اگر.
سویله‌نه‌ردی خانم گوهر.
دالاندارایك قیزجیغازی،
آناسندان یتیم نازی،
نماینده اولوب اودا . . .
باق! اوقتبر چاتدی دادا:
یوقسا یامان گونده ایدی؛
قورتارمازدی او، ابدی
احتیاجیك چنگالیندان،
سویله‌یردی اوز حالیندان:

(ایندیه‌دن یوق کیچمیشلاردن
کیچمیشلری چوقدر بیله‌ن)
دروازه‌نیك یانیندا اجا
دامخاجیغاز، وار بالاجا،
ایچه‌ریسی دار، رطوبت،
یوق ایشیغی قارا ظلمت!
همان پرده بز اولوردیق.
چیچك کبی لاپ سولوردیق.
داشیساق‌دا انسان آدی،
اونك بزده هیچ بر زادی ـ
نه اختیار، نه بر حقوق،
نه باشقا شئی یوق ایدی، یوق.

مینباشینك قارا باشی،
قارا باشیك قانلی یاشی
سئیل اولدیغی چوقدان بیله‌لی،
خانم دوگور ایکی اللی
گناهلی‌دا گناهسیز‌دا.
اوز ـ گوز قالمیر یازیق قیزدا:
چیکیر، جیریر، دیدیر، توکیر،
باشندا ترس کوتان اکیر.
بیله ایدی اون ایل قاباق:
قارا باشا دینجلیك، یاتماق
گیجه، گوندوز هیچ اولمازدی
زحمتینه او آلمازدی
چوروك بر قوزسادا عوض.
کیچمیشلر گوری‌دیك‌غرض...
داها بر چوق آروادلاری
(یادیمدا یوقدر آدلاری)
نماینده گوردیم اوگون،

اونلار جفاگورمیش بوتون:
استبدادی ئوز چیگننده
یوقلامیشلار کیچه‌ن گونده؛
جانلاری‌دا یوز بین جفا
چکمیش؛ آنجاق هیچ بر صفا
اوگونلرده سورمه‌میشلر،
بر راحتلیك گورمه‌میشلر.

ایندی ؟ . . . ایندی داها
گونلر اولوب تمام باشقا،
زاقافقازیك هر یرینده‌ن:
داغدان، دوزدن، لاپ‌ده‌رینده‌ن،
آذربایجان کندلرینده‌ن،
حتا تیفلیس شهرینده‌ن
کیچمیشده کی قول قاراباش،
یولی آلوب أله بر باش،
بو باکی‌یه یغیلمیشلار
چادرالاری داغیتمیشلار.
یوقدر داها باغلی گوزلر،
دانیشیلیر آچیق سوزلر،
چوبان ـ قادین سیاسته‌ن،
محکوم خلقده‌ن، قول ملتدن،
هنددن، چینده‌ن، انقلابدان،
یوژه‌دن، هر حسابدان
چیقوب کورسی اوسته دییر،
بورژویلاری او برك سویور:
«خام‌خیالی بوتون اونوت!
برده داها قارا بولوت
شورا ئه‌لین دوتا بیلمه‌ز!
بو انقلاب هیچ‌وقت ئولمه‌ز»!

ثانیلی.

فَإِنْ طَلَّقَهَا فَلَا تَحِلُّ لَهُ مِنْ بَعْدُ حَتَّىٰ تَنْكِحَ زَوْجًا غَيْرَهُ فَإِنْ طَلَّقَهَا فَلَا جُنَاحَ عَلَيْهِمَا

بواحوالات که آشاغیدا روایت اولنور، شاید، کهنلمیش و چیکنتمیش مسئله‌لر قبیلندن نظره گله، زیرا نکاح و طلاق صحبتلری، خواه حکایه‌لرده‌وخواه مقاله‌لر واسطه‌سیله بیزیم تورك مطبوعاتنده دفعه‌لر ایله یازیلوب. اوخونوب و ایشیدیلوبدر. ولاکن او احوالات، که اونك باره‌سینده من صحبت آچماق ایستیورم ـ ظن ایدیرم ـ آز آز اتفاق دوشنن و بهر حال خیلی مراقلی و ایشیتمه‌لی‌در، اودرجه‌یه کیمی که ایمدی، اوقتیابر انقلابی‌نك اون بیل‌لیگی‌نك مقابیلینده؛ بیله بیر حادثه خارق‌العاده و عقله سغیشمیان بر «ناغیل» حساب اولونا گلمك.

ولاکن ـ حقیقت‌در، و بو حقیقتك شاهدی ـ چقیر اوزی‌در. ـ

(حکایه)

او شهر که بو احوالات اورادا واقع اولوب، آراس چاپینا یاووق، آذربایجان شهرلرینك بیری‌در ـ و نیجه که دیندار ایران توپراقینك قونشی‌سی بو شهرك اهالی‌سی‌ده ایمان اهل‌لریندن بر ذره قدرینجه گیری قالان دگل‌لر: دیمك اولار که اهالی‌نك کلی‌سی الله‌تعالی تعیین ایتدیکی عبادتینده و ریاخلقنده برقرار، نماز یومیه اوز وقتنده، حتی نافله نمازلاری، و سایر سنتی نمازلارینی جابجا ایدن مقدس بر جماعت‌در. هابیله رمضان آیی‌نك شرایطنی تفصیلاتی ایله برینه یتورمك، حج، و زیارت شهداء، و ماه محرم الحرامده کربلا مصیبتی لایقنجه یاد ایتمك‌ده بیرینجیلیگی قازانان بر مسلمان‌درلار.

ـــ

همین بو دیندار اهالی‌نك وطنینده ـ تقریبا، اوقتیابر انقلابی‌نك قباقلارینداء، یعنی اون ـ اون‌ایکی یيل بوندان قباق، بر الله بنده‌سی یاشیوردی که اونك اسمی حاجی رمضان ایدی.

حاجی رمضان «ایدی» دیمك‌ده من اونا اشاره ایتمك ایستیورم که بو بنده، خدا ایندی داخی حال حیات‌ده‌دگل، بیر نیچه ایل بوندان مقدم ایشیتدیم که وفات ایدوبدر.

حاجی‌نك صنعتی حمام‌چی‌لق ایدی. یعنی حیدر آغانك حمامینی اجاره‌یه گوتوره‌میشدی، ایله یادیمدادر که ایلك مدتینده همان اجاره ایتدیکی حمام‌دن آلتی‌یوزمنات‌صاحبنه ویره‌ردی وبر اوقدرده بلکه اوزینه زحمت حقی‌قالایدی.

چون حاجی رمضان بیزیم قونشی‌مز ایدی. اوتچون‌دا اونك نه اینکه حمام اجاره‌سنیك تفصیلاتی، بلکه ایو ایشیگنك خیردا پارا ایشلری‌ده گوز قاباقندا ایدی، و من محترم اوقوجی‌لاریمی اینانديريرام که حاجی رمضان‌عورتی شهره‌بانونی چوق ایسته‌ردی، اوقدر ایسته‌ردی که عورتینك یولیندا حاجی‌رمضانك خلوتجه آغلاماقینی من ایکی دفعه گورموشم.

بیر دفعه عورتینه هیچ بر شئی اوستینده آجیقی‌توتوب اونا طلاق ویرندن سورا... و ایکنجی دفعه‌ده حاجی‌نك آغلاماقینی او وقت گوردوم که عورتی ایله باریشاندان سورا و ایکینجی دفعه گینه آجیقا دوشوب بوشویاندان سورا بی‌چاره کیشی کلدی منم آتامك یانینا و اونا باشلادی یالوارماقا:

ـ مشهدی علی‌اصغر عمواوغلی، آند ویریرم سنی او غریب امام‌رضایه که من‌ده غریب بر آدام کیمی ایویمده اوتوروب غرباتك آه ناله ایدیرم، گل زحمت چیك گیت حاجی اسد گیله و او کیشی‌یه دی که حاجی رمضان بر غلط‌دی ایلیوبدر.

دیمك ـ حاجی اسد ـ حاجی رمضانك عورتی شهره‌بانونك آتاسی‌در، و حاجی رمضان عورتی ایکنجی دفعه بوشو ـ یاندان سورا او قدر پشیمان اولوب؛ او قدر غم و غصه ایدیر که تك‌لیگه تاب گتوره بیلمیوب، گلوب اوره گینك دردینی منم آتاما آچیر، و اوندان، و ساطط و معاونت تمنا ایدیر.

ـــ

حاجی رمضان ـ قرخ‌بیش اللی یاشیندا اوجا بوی بر کیشی ایدی.

عورتی شهره بانو اوتوزبش یا بر آز آرتیق یاشیندا کویچك بر آرواد ایدی. بونلارك اولادی یوخ ایدی و اولمدن هیچ‌ده اولمامیشدی.

ظاهرا ـ یاخشی یولا گیده‌ردیلر، و کیشی‌نك عورته

اولان محبتی، نیجه که عرض اولوندی ـ کافی درجه‌ده ایدی. اما سبب نه اولدی‌سه، ایکی‌ایلك مدتینده آرالا ـ رینده نه واقع اولدی‌سه، حاجی رمضان عورتی شهره‌بانویا ایکی ایلك مدتینده ایکی‌دفعه طلاق ویردی، وایکنجی طلاق‌دن سورا کنه‌نهایت‌پشیمان اولمیشدی، واونچون‌ده آتامك یانینا التماسه کلمیشدی.

ازبسکه بیزبم حاجی‌اسده برنوع اوزاق‌قوملیقمز چاتیردی. ـ وحاجی اسه هر حالده آتامك سوزینی یره سالمازدی ـ هر اویخون‌ده حاجی رمضان آتاما پناه گتورمیشدی.

خلاصه،ـ بو دفعه‌ده ایش یاخشی‌لقله دوزه‌لدی وچونکه بو دفعه‌ده شره‌بانویه ویریلن طلاق ـ طلاق رجعی‌حساب اولینوردی. ـ وشهربانونك عهده‌سی تمام اولمامیش‌دی، ـ خالام گیل گیتدیلر عورتی گتوردیلر اری حاجی رمضانه تاپشیردیلار؛ و بو دفعه اوندان خواهش ایتدیلر که داخی بوندان سورا مهربان دولانسونلار که داخی‌بیرده‌اوزلرینی‌ده و اوزگه‌لری‌ده زحمته سالماسونلار.

ـ ـ

بو احوالات‌دان بیر ایل کیچمه‌میشدی که دیدیلرحاجی رمضان عورتی شهره‌بانو ایله سوزه گلوبلر. و سوکرا ایشیتدیك که حاجی گینه عورتینك طلاقینی ویروبدر.

بو دفعه داخی بونلارك مابینته گیرن اولمادی، هر کس که بو خبری ایشیدیردی، کوسمك‌دن باشقا غیر بیر جواب تاپا بیلمیردی ویرسون، و دەلی دیوانه‌دن سوایی حاجی رمضان ایله عورتینه بر غیر آد تاپا بیلمیردی قویسون.

اما آخیردا أمر و آرواد گینه باریشدیلار، چونکه بونلارك بیری بیرینه هیچ بیر عداوتی یوخ ایدی ـ آنجاق بیری بیری ایله دالاشوب بوشانماغا محض عادت کرده اولمیشدیلار.

ـ اما بو دفعه، بونلارك باشینا بورادا ایله بیر قضا و قدر گلدی که بیری بیری ایله یولا گیتمه‌مکاری‌نك و تیز تیز آیریلماق‌لارینك نتیجه‌سینده ایل ایچینده آب‌رولرك گیتمك‌دن سوایی، آشیخ‌لارك دیلینه و حکایه یازانلارك قلبنه دوشوب رسوای جهان اولدی‌لار.

بیله که شهریمزك ملالارینك جمله‌سی بو رأیه‌کلدیلر که موافق شرع‌شریف، شهره‌بانونی دوباره أمری حاجی‌رمضانه



قایتاروب عقد ایتمك ممکن دگل، تا او وقته‌ده‌ك که شهره‌بانو بر غیر شخصه آره گیده اوناموافق قاعده‌آروادلق ایده و سورا موافق شریعت اوندان بوشانا، وعده‌سی چیقا و محض اوندان سورا یاد بیر عورت کیمی گینه ایره‌لیکی امری حاجی رمضانه قاییدوب عورت اولا بیله‌ر.

اول‌لر بنده بو سوزه اینانمادیم، و قونشی‌لیقمزدا حاجی ملاعلی‌دن بو مسئله‌نی سوروشدیقدا دوغیردان بیلدیم که قرانده همین فقره معین صورت‌ده قیداولینوبدر. حاجی ملاعلی حتی قرآنی آچدی ویلمیرم هانسی‌بیرینه بیر بیله آیه‌ده گتوردی گویا اگر بیر مسلمان بنده‌عورتینه ایکی دفعه طلاق ویرندن سورا گینه اوچنجی دفعه اونی بوشیا، او وقت داخی او عورت اوکیشیه حلال اولا بیلمز، فلا تحیل له ین بعد حتی تنیکح زوجه غیره. یعنی اوزگه بیر أره گتمیونجه داخی قباقکی أرینه حلال اولا بیلمز.

ـ ـ

من ایله قانیرام که او یرده که بر ایشك، بیر چیتن مسئله‌نك بر اوزگه حلی، غیر بیر چاره‌سی یوخدرسه، داخی او یرده چوخ‌دا آتیلوب دوشمك، یا چوخ فکر ـ لشمك لازم دگل، زیرا، زمانی که سنك قباقیکا قرآن آیه‌سی کیمی بیر جل‌المتیس قویوب ثبوته یتوریرلر که سن فلان یول ایله یوق، فلان یول ایله گیتمه‌لی‌سن. ـ داخی بورادا بیر اوزگه چاره یوخدر،ـ گرك همان یول ایله‌ده گیده‌سن، خوش‌سادا ـ گیده‌سن ـ ناخوش‌سادا گیده‌سن.

و هر چند حاجی رمضان ایچون قرآن شریف اورتالیغا قویدوقی تفسیر هیچ‌ده الویریشلی دگل ایدی.

اما اهل ایمان حاجی رمضان ایچون بوندان باشقا بیر تفسیر اولا بیلمزدی،ـ دیمك، گرك ایله‌ده اولسون، گرك شهره‌بانو موقتی صورتده غیر بیر أره، گیتسون.

پس کیمه گیتسون؟

بو مسئله ظن ایدیرم، دنیاده یاشیان جمع عورت صاحبی أرلر ایچون مشکل بر مسئله گرك اولا.

نه طور اولسون که حاجی رمضانك گوزی باخا باخا ایستگلی عورتی بر اوزگه کیشی‌یه أره گیتسون؟ آخر او عورت‌دن حاجی رمضان که أول چکمیوبدر؟! هله نه اینکه أول چکمیوبدر، حتی بلکه گیجه‌لرده اوندان اوتری بی‌قرار اولوب یوخی‌دا یوخلیا بیلمیر.

آها؟ حاجی رمضان داداشیمزك فکرینه بر شیئی گلدی و درین اوره‌ك‌دن بر آه چکدی و همیر آه ایله بیر شفا بخش بر آه‌ایدی که حاجی‌نك اوره گینده هر نه قدر کدورت، و عهده‌سینده هر نه قدر آغیرلق‌دا آغیر یوك وار ایدی- فوری اونلارك هامیسینی یونگو للشدیروب، اونا بر نجات یولی گوستردی:

حاجی رمضان خیالیندا قویدی که شهربانونك‌صیغه‌سینی اوخوتسون اوز حمامینك تولامبارچی‌سی کابلا امامعلی‌یه.

بو کیشی چوخ بیر فقیر، آلتمیش یاشیندا پژمرده حال، بیر چیرکلی-میرکلی ایرانلی‌در. و سحردن آقشامه تك پیشه‌سی کاروانسرالاردان حمامه تازه پهین داشیماق. اونی حمامك دامنیك اوستنده قوروتماق، و قوری‌پهینی کورك‌لیوب حمام کوره‌سینه توکوب یاندیرماق‌در.

کابلا امامعلی سوبای بیر کیشی‌در، وایوی‌ایشیکی اولمادیغیندان حمامك دالانیندا یاتیردی، و خیلی کاسب اولدوغی جهتدن حاجی رمضانه برك اطاعت ایلیوردی گیجه و گوندوز پهین ایله چالیشیردی که اورادان اونا جاتان بیر تیکه یاوان چورك‌دن الی اوزولمه‌سون.

هر چند بو ایش ظاهرده حاجی رمضان ایچون چوق آسان وجه ایله دوزه‌لن ایشه اوخشیوردی. اما آخیردا ایله‌ده اولمادی.

حاجی گمان ایدیرمیش که، بلی، شهربانونك صیغه‌سی ظاهرا، و رسماً، اوقونانا، و شرعا کابلا امامعلی‌یه عورت اولار، نه عیبی وار، کابلایی کیشی اوز تولامبارچی- لیقینده پهین قوروتماقیندا، شهره‌بانوده اوز قارداشی‌حاجی اسدك ایوندن بیر نیچه گوندن‌سورا، صیغه گری اوقونار، یعنی رسماً کابلایی شهره‌بانونك طلاقینی ویره‌ر، و اوز وقتینده‌ده شهره‌بانونك گینه صیغه‌سی حاجی رمضانه‌اوقونار و بیله‌لك‌له ایش قورتاروب گیده‌ر.



هیهات! نیجه خام خیال:

شهرك جمیع شریعت‌مدار و حقوق‌شناس‌لاری بو رای‌ده متفق اولدیلار که کابلا امامعلی شرعی عورتی شهره‌بانویه یاووق دوشمیونجه، اونگله موافق شریعت جیفت اولوب مقاومت ایله مینجه ـ داخی شهره‌بانو بو کیشی‌یه اره گیتمش حساب اولونمیاجاق، و بیله‌لك‌ده حاجی رمضانك نیتی دوزه‌لمیه‌جك.

دانیشیردیلار که حاجی داداش بورادا خیلی زحمته دوشدی: او ملایه یاناشدی، بو فاضل‌دن‌مسئله‌ایلتدیردی، حیله، شرعی بول‌لارینی آختاردی ـ بو یولدا چوخ خرج قویدی، حتی چاره‌سیز قالوب کابلا امامعلی‌یه‌ده‌پناه آباردی، اونگله‌ده نه‌سه خلوت‌ده چوق‌وقت دانیشاردی.

ایله باشا دوشرمم که چارداله گتوره بیلمه‌دی: چونکه مزده بر وقت گوردوم و قونشی‌لاریمزدا بونا شاهد اولدوق که حاجی رمضان کابلا امامعلی‌یه اوزمحله‌سینده موقتی بیر منزل کرایه ایله‌دی، اورادا کیشی‌یه بر اوتاق دوشدیردی؛ کابلایی کیشی‌نك اوست باشینی تازه‌له‌دی، و بر نیچه گوندن‌ده سورا شهره‌بانونی همان کابلای امامعلی‌نك منزلینه گتوردیلر. و بوندان سورا محله اوشاقلاری، کاه‌دان بیر کابلا امامعلی‌نی تازه منزلینه گیدن گورنده او قدر گولوشه‌ردیلر و اونك دالینجا او قدر فشقراق آتاردیلار کی کیشی حرصله‌نه‌ردی و یئردن‌داشی گوتوروب کوچه اوشاقلارنیك‌اوستینه آتاردی. اماهامیسیندان گولونج بو ایدی که حاجی رمضان عمو هر چند گیجه‌لر شهره‌بانونك یانیندا قالمازدی، و قلا بیلمزدی، اما گوندوزلر قدیم‌دن عادت ایتدیگی کیمی بازاردان ات وچورك آلوب الینده باغلاما آپاردی وقاپودان شهره‌بانونی چاغیروب

ویره‌ردی، آروادا یاد آرواد کیمی، باشیندا چارقات، اوزی اورتولی، گلوب اتی آلوب آپاراردی. قونشی‌لارك دیمگینه گوره ـ حاجی شهربانویه بیرجه بونی دییه‌ردی:



آی قیز کیفك نیجه‌دی!...

--

قاباقجا حاجی کابلا امامعلی‌یه شرط قویمشدی که شهره‌بانونك طلاقینی تیز بیر وقت‌ده ویرسون. امابیلمه‌دیك سبب نه اولدی که بو ایش تاخیره دوشدی، و بر نیچه آی چکدی. دیدیلر که کابلا امامعلی شهره‌بانونی داخی بوشاماق ایسته‌میر. سورا دیدیلر که کابلا امامعلی حاجی رمضاندان بر نیچه یوز منات ایستیور، بر اوقات صویلیور دیلر که بو ایکی امرك آراسیندا شهره‌بانونك اوستینده بیوك نزاع عمله گلیر.

امانتیجه‌ده ایشلر پیس کیچمه‌دی: بیر گون دانیشدیلار که کابلا امامعلی شهره‌بانونك طلاقینی ویروب و برنیچه وقت کیچندن سورا حاجی رمضان شهره‌بانونی نکاح ایدوب ایوینه گنوردی.

--

بو حکایه‌نی ایمدی قلمه گو تورمکدن منم مقصدیم بودر:

من ایستیورم بونی قید ایدم که بیر بیله ایشلر، یعنی کیشی‌لر طرفندن عورته اوچ دفعه طلاق ویرندن سورا ار عورتی غیر بیر کیشی‌یه نکاح ایتمك مجوریتی تازه بیر صحبت ده گل: معلوم‌در که دیندار مسلمان آراسیندا بیله احوالاتلار همیشه اتفاق دوشوبدر، و بونا گیچمیش وقتلرده بر کس نه تعجب، و نه اعتراض ایدوبدر.

اما، حال حاضرده، اگر بو سطرلرك ایندیکی اوخوجی‌لاری بوراده یازیلان کیفیتی و بو حکایه‌ده آدلاری‌چکیلن ملا و مشهدی‌لری گولونج حساب ایتسه‌لر، بواوندان اوتری‌در که بیز ایمدی اوقتیابر انقلابی‌نك اونونجی ایلینه گلوب چاتمیشیق.

و بودا معلوم‌در که ایندیکی عصرمز ایله بیر عصردر که أر ایله آرواد تیز تیز، دالاشیردا وتیز تیز باریشیردا، و نه شریعتك نکاحی و طلاقی و نه کابلا امامعلی‌نك وساطتی اونلارالازم اولمور سبب بو که ایمدی داخی آزاد انسانلار آزادیاشاماغله اوزلری ایچون آزادیول تاپوبدرلار.

جلیل محمدقلی زاده (ملانصرالدین)

کورد قادینی کیچمشده و ایمدی.



سوال

کورد قادینی! نره‌یه عزم ایدیرسن؟
یوقسا ینه «هایاـوایا» گیدیرسك؟
بلکه ینه دوشوب «جیندارا» ایشیك؟
«ایکنجی‌سین» آلماق ایسته‌یور کیشك؟
بلکه ینه صاحب اولمیش بثلیگی
گوسته‌روبسن نامحرمه الیگی؟
سبب اولمش غیظگا بو حکایت
گیدیرسن آتاگا دیمك شکایت؟
اولمویا یادیگا دوشوب گلصنم
اولادسزلیق اولوب یوره گه وه‌رمم؟
گیدیرسنمی کسدیره‌سن «هم زاد»ك؟
وار ویره‌گه میر محسنه ماناتك؟
یوقسا گلمیش قومشو کنده ناغل باز،
مرثیه‌خان، درویش، عاشق الده ساز؟
بیلمیشم «آغا» گز یقین چاغیروب:
خانیما بر قادار خمیر یوغوروب،
صوگرا سو گتیردوب، قلبیرلیه‌سن،
بهره تاخیلینی اون ایلیه‌سن.
یوقسا اوزاق باغا دوتوبسان یوزك،
زارلاناسان خلوت آغلاسین گوزك؟
دردیگی بیلمه‌سین ـ نه دوست، نه‌دوشمان،
سارالنسون گل یوزك محنتك پنهان؟

جواب:

یوق، وطنداش ده‌لی ده‌لی دانشما!
عقلیگی بیغ باشیگا سوزیگده چاشما!
داها کیچمیش سن دیدیگك زمانلار،
اویماز برده بگا اویله گمانلار،
اینجیده‌مه‌ز بنی نه أمر نه قارداش
ایمدی من اونلارا مساوی بولداش؛
تحقیر ایتمه‌ز بنی داها بر آدام،
حقوقه مالکم یوره گده‌ن شادام؛
باشیمدان چادرانی داها آتمیشام،
گیزیرم آزادا کاما چاتمشام؛
تانیمارام ملا کسه‌ن کبینی،
قول ده گلم داها ساتالار منی؛



سه‌وه‌رم، سه‌چه‌رم عمر یولداشیم،
سورندیرمز کیمسه نوختادا باشیم؛
بیلمیشم جیندارى، سید، ملانى!
قوى ایتسین گوزیمدن فلان فلانى!..
گلصنملر کیمدى، محسن نه‌ایتدى؛
هپسى قاباقیمدان سیلیندى گیتدى؛
مفته‌خور لوطیلار، مرثیه خانلار؛
یالان سوزله برده منى آغلادار؛
یوق. اینانما بیرده درویشه ویرەم!
چووالدا کى اونى ده‌نى سوپورەم!
بك آغا ظلمندن اولمیشام خلاص
ایتمه‌رەم خانیما داها التماس
اوقته‌بیر گله‌نى اویله‌لر ایتوب!
اەزیلوب، داغیلوب، ایشلرى بیتوب!
رنجیمدن کیمسه‌یه بهره ویرمیرەم!
حکمران کتله مدوراوز گه گورمیرم
آچیلوب گوزلریم اویانوب فکریم،
باشقا شعارلاردى دیلیمده‌ذکریم؛
سواد قورصلاریدور ایمدى مکانیم؛
اجتماعى یغینلاردا زبانیم
یکى حیات قورولوشینك عضوى‌ام
داها دیمه کیچمیش کبى جزوى‌ام؛
اجتماعى یا سیاسى تشکیلات؛
خالى بندن برده اولارمى؟ هیهات؛
یوز قویمیشام ایمدى گیدەم شهره؛
سس ویرەجم نماینده گوهره؛
دیکله‌یەرم اوردا معروضه، حساب؛
ویرەجم سوالار، آلاجام جواب!
خطابت کرسى‌سى اولاجاق یئریم،
اجلاسدا منیمله یان یانا اەریم:
تقدیره، تنقیده آچاجام دیلیم؛
گور نه رتبه تاپوب بو باجاق بگیم
(میشنى)شوراسنا، باقگیلان **تاوات**؛
اویله بر صدر اولوب قالیر آدام‌مات!
زحمت کش قادینلار ایدیر افتخار؛
بیزده‌ده واریمیش قدرت آشکار؛
ها بودور زحمت کش‌قوران حکومت؛
ایده‌مز قادینا کیمسه خصومت؛
قاپاسین یئر یوزین یاشاسین شورا
سعادت اونگله یوز ویروب بگا!

اسماعیل کافی

(لاچین)

آزادلیق ایچون جنایت.

محکمه قارشوسندا بیر چوق آدام یغیلمشدی. اوزلرینی پای گونینك ایستی شعاعندن محافظه ایچون آداملار کولگه‌لیکلرده دوریردیلار. بعضی‌سی دورماقدان یورولوب دیوار دیبینده چومبه‌لوب اوتورمیشدی.

بو گون کیشیلردن چوق آرواد وار ایدی. آروادلار کیشیلره قاریشماماق ایچون اوزلرینی بر یانا چکدیلر.

آرواد نه‌در — بویله ازدحاملی یئر نه‌در؟ لاکن بو گونلرده آروادلاری ایوده ساقلاماق ممکن دگل ایدی. عاشورا گونی شبیه‌ه باقماغا گیده‌ن کیبی بو گونده آروادلار محکمه اطرافنه توپلانمشدیلار. کولگه یئرلر کیشیلر طرفدن «اشغال» اولدیقندان آروادلار آل گونك آلتندا گوزله‌مك مجبوریتنده ایدیلر.

اما دیه‌ك اونلار گونك باش آغریتان ایستی‌لگنی هیچده حس ایتمه‌یوردیلر: اونلارك بوتون دقتلری محکمه‌یه حصر اولونمشدی. بلکه یوز واندامالرینی کیشیلرك نامحرم گوزلرندن محافظه ایدن چارشاف اونلاری گونشك باش ده‌شه‌ن شعاعلارندان ساقلیوردی؟... هرحالدا گونك ایستی لیگنی دویمایوردیلار؛ چادرالارینا بورونوب قیرسه‌گی اوزه‌رنده اوتورمیش و گوزلرینی محکمه قاپوسینا تیکمشدیلر.

بو ازدحامك محکمه قارشوسینا توپلانماسینا سبب محکمه‌ده باقیلان ایشیك مراقلی اولماسی ایدی.

بو اوز — اوزندن آشکار اولیردی. هر کسك یولی محکمه یانیندان دوشسه ایدی، آ گلیاجاق که محکمه‌ده بویوك و مراقلی بر ایشه باقیلور.

حقیقت حالدا دورت گون دوام ایدن محکمه آز — آز تصادف اولونان اما اساس یاشایشمزك درینلیکلرینه کوك آپاران بر ایشه باقیردی.

بو ایش — چوقدا مشهور اولمایان تاجر مشهدی غلامك ئولدورولمه‌سی حقنده ایدی. بزده آدام ئولدیرمه عادی بر حادثه کبی تلقی ایدیلدیگندن مشهدی غلامك ئولدیریلمه‌سی هیچ کسك دقتنی جلب ایتمه‌مه‌لی ایدی. لاکن بو ازدحامی بورایا جلب ایدن، بو چارشافلی آروادلاری مشغول ایدن مشهدی غلامك قتلی دگل ایدی.

محکمه قارشوسینا توپلانانلار بو ایشك باش قهرمانی ایله مراقلانیردیلار. ایشك قهرمانی ایسه آروادلارك یاقشی تانیدیقلاری جواهر خانم ایدی.

جواهر خانمی آدم ئولدیرمك کبی بویوك بر جنایته وادار ایدن نه ایدی؟ بونی بیلمك ایچون قیصاجا جواهر خانمك حیاتیله آشنا اولمالیدر.

جواهر خانم نعل‌بند مشهدی قلی‌نك بش قزیندن بری ایدی.

نعل بند مشهدی قلی‌نك ایکی آروادی وار ایدی. برنجی آروادیندان مشهدی قلی‌نك دورت قزی‌اولمشدی. اونلاردان بری چوجوقکن عمرینی آتا — آناسینا باغیش‌لامشدی. جواهر الك کوچگی ایدی.. نعل‌بند مشهدی قلی پراقتیق کیشی ایدیغی ایچون آروادینه دیوردی:

— بز قوجالاندا بزم قولمزدان دوتماق ایچون بزه اوغول لازم‌در.

ئه‌رینك دیله‌گنی وجوده گتیرمگی اوزینه مقدس وظیفه عد ایدن آرواد — ئه‌رینه بر اوغلان بخش ایتمك ایسته‌مش و بوتون دعا یازان موللالاره ایشتدیگی و بیلدیگی یرلره مراجعت ایتمشدی. آنجاق نه موللالارك یازدیقلاری دعالردن و نه‌ده یرلره ویریلن نذرلردن برشی حاصل اولمامشدی.

دعا و نیازدان بیر نتیجه چیقمادیغنی گوره‌ن مشهدی قلی ایکنجی آرواد آلماق سوداسینه دوشمش و برنجی آروادینك یاقیندان اشتراکیله ایکنجی دفعه اولاراق ایولنمشدی.

لاکن اوغلان دوغولماسی ایچون آلنمش بوآروادا مشهدی قلی‌نی راضی سالابیلمه‌مشدی. بودا دال به‌دال قیز دوغوردی. ایسته‌دیگنه نائل اولابیلمه‌ین مشهدی قلی ئوز بختیندن شکایت ایده‌ره‌ك دیووردی.

— نه ایده‌ك؟ بن دولت آختاریرام — دولت بندن قاچیر؛ گوریرم دنیا بنیمله وفا ایتمیور.

آروادلارا گلدیکده — اوغلان دوغمادیقلارینا گوره هر ایکیسی ئوزلرینی مقصر حساب‌ایدیر و مشهدی‌قلی‌دن خجالت چه کیردیلر.

مشهدی قلی‌نك بویومکده اولان قیزلاری آراسندا جواهر الك گوزه‌ل ایدی: اوزون کیپریکلی قارا گوزلری بوغدایی یوزینك آل یاناقلاری، بالاجا آغزینك مروارى دیشلری — اونك وجیهه اولدیغنی گوسترمکده ایدی.

قیزلار بویودیکجه ایلچیلر مشهدی قلی‌نك قاپوسنی تانیدیلار؛ بر برینك آردینجا گلن ایلچیلرك چوخی جواهر

خانمی سه‌چیردیلر. لاکن مشهدی قلی ده‌ده ـ بابا قویان یولدان چیقماق ایسته‌میوردی. اودا اولجه قیزك یاشجا بویوگنی سوگرا نوبه ایله کچیکلرینی ئه‌ره ویرمك عادتیدر.

مشهدی قلی کهنه بوقاعده‌یه رعایت ایده‌نلردن اولدیغی ایچون جواهری ایسته‌ینلره آروادی واسطه‌سیله:

ـ او قیزیم کوچوکدر، اولجه بویوگنی کوچیرمك ایستیورم!... جوابنی ویریردی.

ئیلچیلر ـ مشهدی قلی‌نك بو راینه تابع اولاراق بویوگنی‌ده «آلیردیلار». اما بزم مشهدی غلامك ئیلچیلری بو احوالی بیلندن سوگرا مشهدی غلامه خبر ویردیکده او بو باره‌ده چوق درشونمه‌یوب دیمشدی، که جواهری گوزلمگه راضی و حاضردر...

مشهدی غلام تله‌سمیوردی. جواهرك یاشی آز اولدیغی بیلیوردی. اوچ ایلدن سوگرا جواهرك یاشی اون آلتی اولاجاقدی.

مشهدی غلام گوزله‌دی، آخردادا جواهری آلدی.

آتاسی ایوینده گونیلیك یاشایشینك شاهدی اولان جواهری طویدان سوگرا خوشبخت حیات گوزله‌میوردی.

ایکی دفعه ایوله‌نوب آروادینی بوشامش، قرق یاشلی ئه‌ر ایوینده گنج جواهرك حیاتی مستثنا اولمیاجاقدی. مشقت و ذلت گونلری بورادان باشلاندی.

مشهدی غلام ایو داخلنده چوق تده‌جاز ایدی. بر چوق پیس عادتلریندن بریده آرواد دوگمك ایدی. بوندان اوتری اساسلی بر سبب‌ده آختارمازدی. آروادك بالاجا بر خطاسی ـ دوگمك ایچون بهانه اولابیلردی.

چای گئج اولدیمی ـ خوره‌ك چوق ایستی ویریلدیمی، بوزباش شور اولدیمی، حتی ئوزی گیزله‌دوب، یرینی اونوتدیغی بر شیئی تاپمایاندا آرواد دوگیله‌جکدی. خصوصا صباح ـ صباح مشهدی غلام ال ـ یوزینی یویاندا ـ چوق وقت ایش جواهرك دوگیلمه‌سیله قورتاریردی. اونیکدا سببی بو ایدی:

مشهدی غلام قیش گونلرینده هر گون ال ـ یوزینی ایستی سو ایله یویاردی. بو سویی جواهر سحردن حاضرلامالیدی.

لاکن بر دفعه‌ده الینه توکیلن ایستی سو مشهدی غلامی راضی سالمیور، قانع ایتمیوردی. کاه سویوق وکاه ایستی اولدیغندان ناراضی اولاراق یاش اللریله جواهرك باشینی اولچه‌ردی....

جواهرده نه‌قدر صبر وار ایمیش که بویله دقیقه‌لرده هیچ بر سوز دیمه‌یور، آنجاق دولمش گوزلرینك یاشینی باش یاییلغنك اوجلاریله قورقا ـ قورقا سیلردی.

اوچ ایل جواهر ئه‌ر ایوینده کی ظلمه تابع اولدی. بعضا تنگه گلوب ئه‌ریندن چیقماق فکرینه دوشیردی. لاکن ئه‌ریندن چیقدیقدا نه ایده‌جکدر؟ آتاسی ایوینه‌می قایداجاق؟ اورادا کی فاجعه‌لی یاشایشی بردفعه کچیرمشدی. اورادا ـ آتا قیزلارینداں بیزار... آنا و آنالق آراسندا گونیلگدن دوغما دائمی ناراضیلق.... قبول ایدیلمیه‌جك شرطلر تورەدیردی. آتا ایوینك یاشایشی جا بایده‌میه‌جکدی.

مشهدی غلامك طلاق مسئله‌سینی آرالغا قویماماسی و حتی او باره‌ده ایشیتمك ایسته‌مه‌مه‌سی جواهرك گیتمه‌سینی آرتق چتینلشدیریردی. جواهر بونلارك هاموسینی بالاجا یاشیندا دوشونیردی. نتیجه‌ده ئه‌رینك ظلمینه تحمل ایده‌رك قالیردیسه‌ده لاکن قالدیقجا صبر کاسه‌سی دولیردی.

بر فقره جواهرك صبرینه انتها ویره‌رك ئه‌ر ایوینده کی حیاتنك آخرنجی پرده‌سینی یاقینلاشدیردی.

آقشام زمانی ایدی. پاییزك رطوبتلی هوالاری باشلانمش اولدیقندان سویوقلق حس اولونوردی.

یاپراقلاری توکیلمش آغاجلارك بوداغلاریندا اوتورمش قارغالارك چیغیر ـ باغیری اطرافی سس و کوی ایله دولدیرماقدا ایدی.

بوگون مشهدی غلام همیشه کی وقتدن بر آز تیز قایتمش و جواهری ایوده تاپمادیغندان آرتق آجقلانمشدی.

ـ آقشام وقتیده کوچه‌لردن ال چکمیور ـ دیه دینیردی...

جواهر بویوك باجیسینك یانینا گیتمشدی و اورادا تانیدیغی بر نیچه آروادلارا راست گلمش و صحبتلری اوزانمش اولدیغندان گجیکمشدی.

مشهدی غلام بیلیردیکه آز ـ آز ایودن چقیر. آنجاق بونی بیله ـ بیله آرتیق آجیقلانماسنیك بویوك سببی یاندا قوناغی اولماسی ایدی. بو قوناق اون بش اون آلتی یاشیندا براوغلان ایدی. شرق عالمنده مشهدی غلام کبی مسلمان کیشیلرك جوان اوغلانلارلا «دلخوشلق» ایلمه‌سینی گوسترمك تمامیله آرتقدر... کیم بوراسنی بیلمه‌یور؟

حرصلنمش و غضب آتینا بینمش مشهدی غلام جواهرك قایتدیغنی گورجك چغیرماغا باشلادی:

ـ بو وقته‌ده‌ك هارادا دولانیرسان؛ سنه کیم اختیار ویروب که ایوی باشلی باشینا بوراقاسان. نامردم اگر سنی هلاك ایتمه‌سم، آتاگی یاندیراجاغم!..

ـ بن هله...

ـ هله بیله بیلمرم ـ دیه مشهدی غلام معلومات ویرمك ایسته‌ین جواهرك سوزینی کسوب «دوشه‌مگه» باشلادی. دینلدیکی کبی آز دوگدیسه «شیرین» دوگدی. آخردا یورولوب دوردی و یره بیقلمش جواهرك قارا هوروکلرینی الینه دولایوب بیهوش آروادی قاپویا دوغرو سورودی.

بر آز دوروب باقاندان سوگرا آلتینك ته‌رینی آچیلمش قورشاغنك اوجیله سیلوب یاتداکی اوغلانلا برابر اوتاغا کیچدی. هیچ برشی اولمامیش کبی اورادا خصوصی صحبته مشغول اولدیلار.

جواهر آیلاندان سوگرا اوتاقدان ته‌رینك سسینی ایشیتدی: شیرین صحبت و مزاق دوام ایدیردی... ئوزینی یورغون و ناخوش حس ایدن جواهر بورذ الته دوزه بیلمیه‌جکدی. صبر کاسه‌سی دولوب داشیردی.

ـ نه‌می دوام ایده‌جك؟ ـ بوسوال جواهردن جواب طلب ایدیردی...

چوق فکر ایله‌مه‌دی. آیاغا قالقدی تیتره‌ر اللریله دو گون چیقینینی آختاروب کوچك برقولوغ ایچینده غزیته کاغذینه بوکیلمش برشی چیقارتدی، سوگرا همان غزیته پارچاسینا بوکیلمش شیئی جیبنه قویدی...

ظن ایدیردیکه اونك بوتون یاشایش مسئله‌سنی، کیچر مگده اولدیقی ذلت و اذیت‌لری بیترمك مسئله‌سینی جیبنه قویدیقی بوغزیته کاغذینه بوکیلمش وکیرشانه بکزر زهر حل ایده‌جکدر... قارشوسندا ایکی‌یول وارایدی. بری‌ئوز عمرینی تمام ایلمك و بوقاعده ایله بر دفعه بوتون ظلم و قباردن خلاص اولماق... بوئیول آسان ایدی. گونده قبول ایتمك و ایچمك مجبوریتنده اولدیقی زهرك گوریلمه‌ین آنجاق حس ایدیلن اوفاق دوزاسی عوضنه، اونك قطعی نتیجه ویره‌جك قدرینی بردفعه‌لیك ایچمك چتین دگل‌ایدی. مشهدی غلامك ایچیردیکی زهری قبول ایتمك داها آغیر ایدی... لاکن بو ـ جواهردن اوتری آرتق یاشاماق وکیچرمش اولدیقی ظلمك عوضنی ویرمك دیمك ایدی.

ایکنجی یول ایسه ـ مشهدی غلامك اونا ویرمش اولدیغی زهرك عوضنی ادا ایلمك، و مشهدی غلامك وحشیلگنی بتیرمك ایدی. بو چتین ایدی. بونا دها آرتق قوه، داها بویوك جرئت لازم‌ایدی. جواهرایمدی دوشونه بیلمه‌یوردی. اتهاسز آچیق، درین حرص اونی دوشونمك و فکرله‌شمگدن عاجز ایتمشدی. یالکز اونك گوزی قار شوسندا بوتون‌حقوقنی تاپدامش مشهدی غلام پرتیجی‌حیوان شکلنده تجسم ایدیردی. اونا دوشمنجه‌سینه مناسبتدن باشقا آیری بر مناسبت اولامازدی.

نیجه اولدی ـ معلوم دگل، آنجاق جواهر ایکنجی یولی سه‌چمك قرارینه گلدی.

ـ عمریمی زهرله‌میش‌در، قوی ایمدی مکافاتنی آلسون دیه‌جواهرخانم‌تیتره‌یه‌جینه قویدیقی‌همان‌غزیته کاغذینه بوکیلمش زهری یارین مشهدی غلامك چایینا توکدی... مشهدی چایینی ایچندن سوگرا قارنینی دوتوب یره‌یقیلدی:

مشهدی غلامك «قوناغی» احوالاتی بویله گورنده تیز حکیم آردینجا گیتدی. اما گلن حکیم کیشی‌نك ئولدیگنی خبر ویردی.

جواهرئوزینی آزاد حس‌ایلمگله برابر تقصیرینی دخی دوشونیوردی.

مشهدی غلام اولندن صوگرا جواهر بولیسه گلوب احوالاتی نقل ایلدی.

ـ تاب ایده بیلمه‌دیم. اوچ ایل بنی زهرله‌مشدر، بنده ایمدی عوضنی ویردم، ـ دیه جواهر مشهدی غلامی ئولد یرمه‌سینی بونینا آلدی. همان گوندن جواهری مستنطقك طلبی موجبنجه حبس ایتدیلر.

شهرده باشقا دانیشیق یوق‌ایدی. بوتون صحبتلرجواهرك ئه‌رینی زهرله‌مه‌سی باره‌ده‌ایدی. هر کس باجاردیقی کبی بوایشی تحلیل ایدوب رأینی سویلیوردی.

ـ یقین، باشقا ئه‌ره گیتمك ایسته‌یورمش ـ مشهدی طلاق ویرمه‌یوب اودا اونی زهرله‌یوب‌در.

ـ بس اوندا نیه گیدوب دیوانه معلوم ایدوبدر؟

ـ اونی قان دوتوب‌در...

بعضی باشقا معنی ویریردی:

ـ یقین مشهدی غلامك «اوشاق قوناق» گتورمه‌سی خوشینا گلمه‌یوبدر.

ـ خیر، دیورلرکه مشهدی اونی چوق دوگیرمش، چوق اذیت ویریرمش.

ـ بو دگل، آرواد دوگیلمه‌یه بیلمز. بونی هر بر آرواد بیلیرکه دوگیله‌جك. بوندان بویله نتیجه چیقماز... باشقا جور دانیشانلاردا وار ایدی. یالکز آروادلار اونی قانیر، و اونك غیرتنی بگه‌نیردیلر.

ـ قوی کیشیلر بیلسونلرکه بز آروادلار همیشه قول اولوب اونلارك اسیری اولمیاجایق.

ـ دوگرسن، اذیت ایدرسك... جاندر، تنگه گلر...

ـ آفرین اولسون... یازیق‌در. نذر دیمیشم که ایشی آواند اولسون...

بو صحبتلر محکمه گوتنه‌دك دوام ایتدی. محکمه باشلاندیقدان سوگرا بوایشله مرافلاناناللر صباحدان محکمه قاپوسنی کسّوب اوتوردیلار. اولجه محکمه اجلاسلارینك آچیق اولاجاغی ظن اولنوردیسه ـ سوگرادان وکیللرك توقعنه گوره باغلی کیچیردی اوناگ ره‌ده قادین واکك‌لر محکمه قارشوسندا ایدیلر.

محکمه‌نك قاپوسی آچیلوب اورتیلوردی. قولتوقلارینداکاغذ قولوقی و یا پورتفیل اولان چینونیگلر گیروب‌چقیردیلار. هردن بر محکمه میرزالارینداو دیلمانچلاردان گورینن کبی محکمه قارشوسندا دوران کشیلردن بر نیچه‌سی یاناشوب احوال سوریردیلر. لاکن محکمه صالونندان چیقان کسیك، قیریق خبرلر اصلا تامین ایتمیوردیلر.

آقشام چاغی معلوم اولدیکه جواهری بنه دیندیردیلر و جواهرده دیمشدرکه: ئه‌ره گیدن گوندن بری‌مشهدی غلام بنم بوتون عمریمی زهرله‌مگه باشلادی، بنده اونك زهرلرینك عوضنی بر دفعه‌لیك ئوزینه ویردم. بنم تقصیرم بودرکه اونك کبی دوگمگه قومم یوقدر، دانیشماغا اختیارم‌یوقدر... بندن باشقا نه‌قدرآروادلاری گونده‌دوگیرلر سوگیرلر، اختیارلاری آلینیر، یاشایشلاری زهرله‌نیر. وه‌رمله‌یرلر.. بس نه ایچون بو محکمه او آروادلاری دوگنلری زهرله‌یه‌نلری تقصیرلندیرمه‌یور.

ساده لوح آروادلار جواهرك بوجوابنی ایشیدندن سوگرا گمان ایدیردیلرکه جواهرك تقصیرینی‌باغشلایوب تمامیله آزاد ایدرلر...

لاکن محکمه قادینلارك حقوقنی مدافعه اساسنی رد ایدوب جواهری مقصر حساب ایتدی و اونا سگز ایل ایش کسدی..

چار حکومتی بیقیلاندان سوگرا جواهرحبس‌خانه‌دن چیقدی. بویله صحبت ایدیرلرکه حبسخانه‌لری تحقیق‌ایدن قومیسیون جواهردن:

ـ سیزی نه ایشه گوره حبس ایتمشلردی ـ دیه سوردیقدا جواهر آغارمش ساچلارینك یوزینه توکیلن تللرینی الیله قولاغنك دالنه چیکوب سویله‌مشدر:

ـ پیس ـ پیس عادتلر صاحبی، ظالم و غدار کیشی‌یه زهر ویروب ئوزیمی آزاد ایتمك ایسته‌دیم، محکمه سگز ایل ایش ویردی.

بوراداجا جواهر حبسخانه‌دن آزاد ایدیلوب یگیدن یاشاماغا باشلامشدر.

اوقتیابر انقلابندان سوگرا جواهر قادینلار آراسندا چالیشماق ایچون ایسته‌دیگی زمینه‌نی تاپدی.

اوگوندن بری جواهر قادینلار تشکیلاتلارینداشرق قادینینك آزادلیغی یولندا چالیشور.

قادینلار اونی سه‌ویر آردینجا گیدیرلر.

اونك قادین آزادلغی باره‌سنده سویله‌دیگی یانیقلی نطقلرینی آروادلار محبتله دیگله‌یورلر.

جواهر مبارزه‌یه حاضرلاماقدا اولدینی گنج قادینلارا اوزینك کیچمش حیاتندن سویله‌دیگده همیشه:

ـ سیز خوشبخت‌سگزکه ایمدی شوراحکومتی کبی سیزك حقوگزی مدافعه ایدن واردر، دیور و سوگرادا علاوه ایدیر:

بو حقوق وآزادلغی سیزه اوقتیابر انقلابی ویرمشدر، بونی همیشه خاطرگزده ساقلامالیسگز.

سیمرغ

یولداش له‌نین دیمشدرکه، ایشجی قادینلاریك آزادلقلاری اوزلریندن آسیلیدر. ایشجی وکندلی قاینلار، اوشاق باغچالاری، میدانچالاری‌وقولوبلاری تشکیل ایتمگه حکومته کومك ایدیك. اونلار سیزیك گله‌جك امیدگزدرلر.

اعتقادیم ...

شانلو اوقتیار انقلابینك اون بیللیگی مناسبتیله.

یازیلسون تاریخك بوگوندەن سەنیك
أی ایشجی صنفی محکم بدەنیك
بوتون عالم سەنیك، سەنیك وطنیك
غفلت اویغو بیرده آلان گورولمەز.

زحمتك قدری گەلەرمی سایه
فابریقاچیلره سەندیك سرمایه
چاتدیردیك اونلری «هامی» ایله «وایه»
اوموزوگا تایلار چاتان گورولمەز.

او خائن قلبلردەن گورولمەز أثر
یاشا! أی انقلاب شانلو، مظفر
دیللرده اولمیساك سووینجله ئەزبەر
بدبین دویقولارلا باقان گورولمەز.

بو بایرام حریت بایراغین آچدی
بوتون دنیالره ایشیقلر صاچدی
قالین قفاللر اطرافه قاچدی
ئولکەمیزه آیاق باسان گورولمەز.

فال آچان موللالار دعا یازانلار
بیر یگیت ئولمەدەن مزار قازانلار
حریت یولینی شاشوب آزانلار
او، بدبخت طالعی چالان گورولمەز.

غم دریالرینی داشدیرار فلك
سعادت بیلدیزین اوچدورار فلك
هر بیر کس شاد اولوب سەوەر اونی بلك
باشینی ماتمه سالان گورولمەز.

ئولکەمیزده واردی، خائن انسانلار
میشەلرده ناصیل یاشار حیوانلار
یوزده بیزله، قلبده دوشمن اولانلار
شیطان دەك ماسقالار تاخان گورولمەز.

فریاد قوپاران دردلی شعرا
گئجه پیس رویالر گورەن أدبا
یوق اولمیش دییەسەن، یوق اولمیش أصلا
ألمله اودلانوب یانان گورولمەز.

بعضی محترملر یوللارین شاشمیش
سیسلی مفکورەسی کناره آشمیش..
قوپراتسیا ئولکەده دونیانی باسمیش
سوسیالیزما یوردین دانان گورولمەز.

بیر یولدیر گیدیریز سوسیالیزما دوز
سوزیمی تصدیقه ویرەر باقان گوز...
ایشجی، جیفتچی، موزدور؛ هر کس گولر یوز
یۆره ناحق قانی آقان گورولمەز.

بیر زمان قادینلار قارا گلیقلارده
گیزلەنیردی أزەل یوزینده پرده
معارف پارلادی.. اوگوندەن بیرده
قارا چارشاف آلتدا، قالان گورولمەز.

عصرمز مدنی قومەز جهان
دنیا فعللری بیرلەشەر اینان
مدنی یۆزلرەن گیریده قالان
بی‌خبر شرق کیبی یاتان گورولمەز.

قدرت علوی.

چارو مساواتیك ارثی اولان سوادسیزلغی قطعی اولاراق آرادان قالدیرالم!

لیلا .

1 ـ حصه.

آخشام چاغی، قاش قارالمشدی؛ شاملاری چوقدان یاندیرمشدیلار .. لیلا بالاجا لامپانی یاندیردی... لامپاایشیغی، بر دسته هه‌سیر اوستنده آیاقلارینی آلتینا بیغوب اوتورمش، خیردا اوشاقلارك صفتلرینی ایشیقلانمیردی. اوشاقلاردان بر آز کناردا خسته بر قیزجغازدا اوزانمشدی.

لامپا یانان کیبی قیز جیغازدا گوزلرینی آچدی... ضعیف سسله:

ـ آنام گلدیمی؟..

لیلا باشینی باجیسینا طرف چه‌ویروب:

ـ بلکه آجیمیسك؟

ـ یوق، بر آز سو ویر!..

خسته چیگینلرینندن نفس آلاراق به‌رك اوکسوردی. لیلا باجی‌سینك قاباغیندا ایکی دیز اوسته چوکوب، باشنی یاسدیقدان قالدیردی... سوگرا، اونا سو ویردی.

لیلانك یوره‌گی سیقیلیردی... خسته باجیسی سکینه‌نك صفته باقوب دوشوندی: « خیلی قیزدیرماسی وار. بدنی اودکیبی یانیر!» خسته‌نی راحتلیوب اوزاندیراندان سوگرا لیلا یه‌ده خیردا قارداش و باجیلارینك یانینا گیتدی. اوشاق لار ـ بیرلرینه سیقیشوب ساکت اوزانمشدیلار. اوتاقك توپراق‌دوشه‌مه‌سینه سه‌ریلمش کوچك هه‌سیرك اوستنده اوتورمش اوشاقلار. لیلانك ایکی باجی وایکیده قارداشلاری ایدی. لیلا خفیف سس ایله اوز کیچیك باجی‌وقارداشلارینا شیرین شیرین نقل دانشیردی که آنالاری گه‌له‌نه کیبی آج ـ آجینا یوقویا گیتمه‌سینلر... آنا ایشه گیتمش، بوتیز زماندا قایداجاق وچوجوقلارینا یئمه‌ك گه‌تیره‌جکدر.

ـ گوره‌سن آنامك باشینا نه گه‌لمش که بر بوقدر گیجیکدی؟..

لیلا تشویشده ایدی. ایچه‌ری شهرده اهالی چوق‌تیزدن ایولرینه قایدیرلار. قاش قارالان کیبی هر کس اوزایونه تله‌سیر. گیجه قارانلیقندا کوچه‌لرده آز آز آدامارا راست گلمك اولور. ایچه‌ری شهرك دار، چالین ـ چاپراز و قارانلیق کوچه‌لرینده هیچ کس گورونمه‌ز. شهرك«ایچه‌ری شهر» حصه‌سنده یاشایانلارك معیشتی« بایر شهرده » یاشایانلارا هیچ وقت اوقشامیور. اورادا کی حیات قازان کیبی قایناشیر. کیجه یاریسیندان کیچه‌نه کیبی کوچه‌لرده گیدیش ـ گلیش واردر.

لیلا هیجان ایچینده ایدی. او چوق نگران ایدی. اوفاجق بر سس اونی تشویشه سالیردی.

ـ قابی دوگولدی، باق، آنام ده گلمی؟

ـ یوق؛ گه‌له‌ن قونشومز پاپاقچی‌در.

لیلانك آناسی صابره چوق اتفاق دوشوردی که ایوه بر قدر گیئچ قایتسون. صابره همیشه صبح تیزدن ایودن چیقوب پالنار یوماغا، باشقا ایو ایشلرینی گورمگه دولتلیلرك ایولرینه قوللوقچی‌لیغا گیده‌ر. ایولرده صابره‌یه زحمت حقی اولاراق پول ویاکه ارزاق ویره‌رلر.

بیر ییل تمامدر که صابره‌نك اوشاقلاری یتیم قالمشلار. آنالاری ئولندن سوگرا صابره اوشاقلارینی آاوب بالاخانا دان شهره، اوزاق برقوهوملارینك یانینا کوچمشدر. صابره:

ـ نه طور اولسادا هایانمز اولارلار، لاپدا یالقوز قالماریق!.. دیمشدی.

آجیلیقدان صوك قوتلری کهسیلمش اوشاقلار گوزله‌مه‌دن یورولوب هره بر طرفه بویوخوب مورگوله‌مگه باشلا مشدیلار.

ـ علی‌جان، یاتما!.. آنامز ایمدیجه گه‌له‌ر؛ سن که هیچ زاد ییمه‌میشسه‌ك!..

اوچ یاشلی علی کیپریگلرینی آرالیوب باشینی اویان بو بویانا چه‌ویرب یه‌ده گوزلرینی یومدی، باجیسی علینی قوجاقلادی.

ـ ایسته‌ییرسن سنك سه‌ودیگك پشیك ناغلینی سنه دانیشیم؟

لاکن علی باشینی اوز باجیسینك دیزلرینه سوکه‌یوب شیرین ـ شیرین مورگوله‌مگده ایدی:

ـ آنام هانی؟.. آنام؟.. دیه زاریلدایوب خسته قیز چیغاز آغلاماغا باشلامشدی.

داها لیلا نقل دانیشا بیلمه‌یوردی. اوشاقلاردا متحیر بر حالدا گوزلرینی بره‌لدوب خسته باجیلارینك صفته باقیردیلار. لیلانك گوزلریده یاشارمشدی. اودقونا ـ اودقونا گوز یاشلارینی قورودوب آزارلینی آووندیرماق ایسته‌ییردی.

بر ییل تمامدر که بو عائله همین رطوبتلی، قارانلیق وداریسقال اوتاقدا یاشاماقدادر. آنالاری اوزون گونی سحردن آقشاما کیبی ایشله‌مگه گیدوب برسوری خیرداجا باالاری لیلانك امیدینه بیراقیر.

اوشاقلارك پالتارلارینی یوماق، بیرتیق سیاماقلارینی ساهمانلا ماق، ایوده بر آز آذوقه تاپیلدیغی زمان اونلاری یه‌دیز دیروب راحتله‌مك... آخر که هاموایشلرلیلانك عهده‌سینه‌در. بوگون ایوده نهاریشیرمگه برشئی تاپیلمامشدی؛ اوشاقلاردا به‌رك آجیمیشدیلار؛ گوزلرینی آنالارینك یولینا زیلله‌یوب بوتون امیدلرینی اونا باغلامشدیلار که او گله‌جك و یئمه‌ك گتیره‌جکدر.

صابره چوق گیئج گه‌لدی... بو زمان اوشاقلاری به‌رك یوقو باسمشدی. صابره‌ده حدسیز یورغون ایدی... اوزون گونی ایشله‌یوب دلدن دوشمشدی... بونیله بیله قاپیدان ایچه‌ری گیره‌ن کیبی چادراسینی ایوك بر کونجینه توللایوب قولتوغیندا کی پندیر و بیرنیچه چوره گلری بولوشدیروب بالالارینا پایلابیردی.

ـ بالالاریم، یه‌یگز!.. سحردن آج قالمیسگز!... سوگرا یاتارسیگز!.. پالتار یویوب قورتاراندان سوگرا ایولرینی‌ده یغیشدیرماغا کومك ایدیردیم. بوگیئجه خانم گیلده بویوك قوناقلیق واردر... اونگچون گیئجیکدیم...

یازیق علی آج ـ آچینا یاتمشدی. صابره اونك اوستنی اورتوب، باسدیراندا آهسته‌جه دودا قلارینی آلتینا یاپشدیروب اوپدی. صابره خوزیاین لرك سفره‌سندن قالمش و ناخوش قیزی ایچون گه‌تیردیگی بر کاسه خامراشینی قیزدیرب تکلیف ایتدی.

ـ یئی، ایکی گوزوم... یئی... چوق ضعیفله‌شمیسه‌ك!.. چوغی آجلقدان بو قدر دوشگونسه‌ك!..

ـ بیئه بیلمیرم. . اشتهام یوقدر!.. ناخوش زاریلدا ییردی.

ـ آنا گی بدبخت ایتمه!.. برآز بیئی... قوته گله‌رسن، بیئی!..

سکینه تیتره‌ك اللریله بر نیچه قاشیق خامر آشی ایچوب باشینی تیره‌تدی و یاتاغینا اوزانوب باشی ایله اوشاقلارا اشاره ایده‌رك دیدی:

ـ اونلارا ویر... قوی یسونلر!..

اوشاقلار یه‌یوب قورتاردیلار... صابره بویوك دوشه گی دیوار دیبنه سالوب یاسدیقلاریدا دوزدی... سوگرا خردا اوشاقلارك هاموسینی یاناشا سالدی و اوستلرینی‌ده بویوك بر یورغان ایله باسدیردی.

صابره ایله لیلادا یاتماغا حاضرلانیردیلار.. بو حالدا قومشولاری کشوه‌ر خالا قاپونی آچوب داخل اولدی:

ـ دیدیم، اوشاقك گوزی قالار، سکینه ایچون بر آز دولما گتیرمیشم.

ـ آی خالا، اویازیق دیلینه هیچ زاد وورمیور؛ بیزدن آنجاق سود ایسته‌یبر، اودا که تاپلمایبر؛.. من چوره‌ك پولیمزی تاپمایورام اونا سودی هارادان آلیم...

ـ البته... سود، یومورتا، امت تاپیلسا ایدی، سکینه‌ده چوقدان آیاغا دورمشدی. اودرهه‌ی... کاظم بیگك قزی‌ده سکینه کیبی اوزون آزارا دوتولمشدی. . حکیملر گلوب دردینی تاپان کیبی باغا گونده‌ردیلر؛ عمللی ـ باشلی یئمه‌ك ـ ایچمه‌ك ویردیلر... آخردادا ساغالوب، آیاغا قالقدی..

ـ اولارك واری وار... بس بیز نه‌یبك؟.. بو بیزیم ایویمز، اودا زنده گانلیقمز... سحردن آخشاما کیبی آیاق دوگیرمم؛ قاپولاردا قوللوقچیلیق ایدیرم... بالالاریما بر قارین چوره گی گوج ـ بالا ایله حاضرلیورام...

گشوه‌ر خالا دقتله صابره‌یه باقوب اونك یورولمش سولغون و غصه‌لی صفتنی نظردن کیچیروب سوگرا گوزلرینی ایوك رطوبتلی سوکولمش دیوارلارینا، بیرتیخ هه‌سیرلرینه، جیندیر یورغان دوشه گلرینه دیکدی. اوطاقك بر کونجینده چه‌ره‌سی موم کیبی سارالمش خسته بیرقیز یاتاقدا اوزانمشر؛ ایکینجی طرفده‌ده بر سوری چولما ـ چوجوقلار بری برلرینك قولتوقلارینا گیروب یاتمشدیلار...

صابره‌نك حالی، معیشتی دوغروداندا چوق مشکل ایدی.

ـ بس سنك په‌نسیا باره‌سنده ویردیگك عریضه‌دن نه خبر چیقدی؟ دییه یوره گی یانقلی گشوه‌ر خالا صابره‌دن سوروشدی.

ـ نه چیقاجاق، هیچ شی! ـ پشیمان و مضطرب سسیله صابره جواب ویردی. ـ من نه قدر عریضه‌لر ویردیم، اوعریضه‌لری یازدیرماغا نه قدر پول‌لار خرجله‌دیم... هر دفعه عریضه ویره‌نده جواب اولمیور... گیدوب سوروشورام، ده‌ییرلر که او عریضه ایتمشدر، تازه‌دن یازدیر. بودردورت آیدر که منی گیت ـ گه‌له سالوبلار... من که الله یولینا ایسته‌میرم... اونلارك اوز ایشلرینك اوستنه أمریم تلف اولوب اه‌لیمدن گیئتمیشدر... قاباقلاردا ده‌ییردیك که بواوروس پادشاهیدر.... اوز ملتی ایچون نه قابیریر که اوز گه‌ملتلرك ده قایدینا قالسون!... اما، ایمدی داها اوروس پادشاهی یوقدر، اوز مسلمانلاریمز ایش باشیندا اوتوروبلار، «مساوات» چیلار حکومتیدر... داها نه دیمك اولار... منده بوگون دیمیشم که سیز منه بر چاره قیلماسیگز، منه یول ویرك لاپ باش حکومته گیدوب شکایت ایده‌جگم. امریم بو حکومتك اوز ایشینده بلایه گرفتار اولوب عمرینی بوچ ایله‌دی. آلتی نفر اوشاق ایله دول قالمیشام؛ بیرده آزارلی

یتیم قیز اوستیمه دوشوبدر... ده‌یرم که قویکز گیدوب دردیمی‌دیل به دیل ده‌یم. منه ده‌ییرلر که آقالارك باشلاری قاریشیقدر، واجبلی ایشلره باخیرلار.

تیچه گون بوندان قاباق بر آدامك منه یازیغی گلوب اوگره‌تدی که بویوك آدامللردان یریسینی دیوان‌خانه‌سینك قاباغیندا گوزله، آفتامبیل‌دن دوشن کیبی قاباغینی کسوب دردیکی اونا سویله... منده قولاق آسدیم. گیتدیم ساعتلرله قاپودا دوروب گوزله‌دیم. آفتامبیل گورهاـ گور ایله گلوب دایاندی. برده گوردوم که چوق عظمتلی بر آقا بایرا چیقدی. منه گوسته‌ردیلر، تله‌سیك قاباغینا گیدوب ایکی‌قات اه گیلوب سلام ویردیم، ده‌ردیمی دیمگه باشلادیم. سوزیم آغزیمدا پاریمچیق قالوب، منه قیناجی باقوب یه‌ل کیبی یانیمدان کیچدی. من اونیله اوز دیلیمزده دانشیر دیم. او منه آنجاق بیله باخیردی که گویا او من دانیشان دیلی باشا دوشمه‌ییر... من یئریمده دوگوب‌قالمشدیم؛ آجیغیمدان یوره گیمك لاپ ده‌رین یرندن منی بر سانجی دوتدی. یئریمده میت کیمی قالمشدیم... او گوندن من داها دیوان‌خانه قاپوسینا گیتمه گی توبه ایله‌میشم... ویردیگیم عریضه‌لریگیده بوش وناحق اولدیقلارینی قانمیشام.

ایمدی منیم حالیمی بیر دوشونك! آلتی اوشاقلاریم آج آجینا قالوبلار... آزارلی قیزیم گوزیمك قاباغیندا جان ویریر... مولا آذانیندان گیجه یاریسینا کیبی مین جوره زحمت ومشقتله‌دوزوب قوللوق ایدیرم.. بونیگله بیله گنه‌ده بو بالاجا سکینه‌مه برقارین یئمه‌ك تاپا بیلسه‌یدیم، دردیم اوقدر طغیان ایتمه‌زدی...

بوسوزلری دانیشان صابره‌نك گوزلری یاشاروب‌بوغازی قهرله‌نمشدی... آغلاماق اونی بوغوردی...

بو حالدا لیلا اوزینی ساخلیا بیلمه‌یوب بیردن پارتلادی.

ـ آنام!.. آنام!.. آغلادیغك بسدر؛ اوزیگه یازیقك گه‌لسون؛ سکینه‌نی یوقودان اویاتما...

صابره آرتیق غملی و محزون لیلاسینی سینه‌سینه سیقوب ملول ـ ملول یوزینه باقارکن ایچقیرا ـ ایچقیرا آغلایوردی...

**
*

ایکینجی حصه.

لیلا ساحلده ده گزر دالغالارینی سیر ایدیردی. آراسی کسیلمگسزین هجوم ایدن دالغالارك بعضیسی راحت‌ـفراغت کوپو گله‌نه‌ـ کوپو گله‌نه ساحله چاتوب سه‌په‌له‌ندیکی‌حالدا برپارالاریداهوندور قایالاراچاتان کیبی پارچالانوب، داغیلوب آغ کوپو کلرینی‌اطرافه سه‌په‌له‌ییردی. بو دالغالارك غیر منتظم هجوم ورجعتلرندن حاصل اولان موسیقی واری جوشقون برصدا لیلایه‌نك کیچمش، آجی ومنفور یاشایشنی‌اونوتدیریردی.



قاغری دا قیش ساناتوریاسیدر.

اوچ هفته تمام‌در که لیلا قاغری‌ده ساناتوریادامعالجه‌ده در. بورانك نه‌گوزه‌ل طبیعتی وار... لیلا بوتون گونی اطرافی سیر ایدوب بو یئرلرك‌طبیعی گوزه‌للیکلرینی تماشا ایتمگده‌در. بودر، الك اوجالارا قالقمش سانکه ماوی آسمانه تماس ایده‌ن کیپاریس‌لر طبیعتك اوز قدرت و عظمتی ایله یان ـ یانا دوزه‌لوب خارق‌العاده گویچه‌ك بر منظره تشکیل ایتمگده‌در. چوق اوجا بویلی ویوغون کوتوکلی ماقتولی آغاجلارینك خیابانی، او آغاجلارك قشنك وآغ پنبه گول له‌ری، واه‌تلی یاپراقلارینك چوق اوزاقلارا پایلادینی مست ایدیجی عطری اطرافی بورومشدی.

یاراشیقلی (پالما) خورما آغاجلارینگدا چوق سه‌رین کولگه‌لری واردر. بو طرفده کی چای آغاجلارینا باق، گور نه‌اینجه وظریف قوقولی غنچه‌لرله بزه‌نمشدر. ایراقلار داکی‌داغلار یام‌ـیاشیل، هوندور آغاجلارایله بزه‌نوب یوره‌ك آچان برمنظره تشکیل‌ایدیرلر. بوراسی‌نه گوزه‌ل، نه‌عجایب بیئرلر ایمش؛ بو اون‌لارجا مرتبه‌لی ایولر دخی اوزاقدان قروژه‌وا چه‌شنیلرینی خاطرلایورلار، سانکه بو ایولری‌باشقه بیر محل‌ده تیکوب سوگرابوراییا گوك‌چمنلیگلرایچنده کی اوجا قایالارك تپه‌لرینه نقل ایتمشلر.

بوتون بو گوزه‌ل‌لیگلر اوزه‌رینده جانلی و کسگین شعاعلی گونش دخی بو طبیعته حیراندر. قاغری‌نك سیجاق گونشی حزنلی وساریمتور سیمالاری سه‌ومه‌ییر. اونك هرشیئه جان ویره‌ن وروح اوقشایان شعله‌لری انسانه باشقا بر تأثیر بیراقیر. . انسانلارك حزن و غمی-شادلق ومسرتلره مبدل اولوب سولغون وخسته بگزلری دخی ساغلام و بوغدایی رنك آلیرلار.

یاشاماق وقاغری گونشینك جان ویره‌ن ضیاسندن دویماق شوقی اویانیر... هریرده گونش... گونش... گونش...

خوش ونرم هوا، گوزه‌ل وساغلام طبیعته سوسامشلار ساعتلرله ساحلده ایستی گونشك زره‌لری آلتیندا اوزلرینی بسله‌ییرلر.

گون قاباغیندا قارالوب، بدنلری محکمله‌شمش، ساغلام انسانلار گیت-گیده بو گوزه‌ل و روح اوقشایان طبیعتك بزه‌گی اولورلار.



لیلا، پارق‌دا، سقامیا اوستنده اوتوروب بوتون بو خارق‌العاده گوزه‌ل‌لیگلره اویوب، مبهوت‌در. بو آن‌ده، یاقیندا، گوك اوتلار اوستینه آغ دوشه‌مه‌سینی سه‌روب اوزه‌رینده بارداش قوروب اوتورمش یاشلی بر تورك ایله اونیك قومشوسی بر روس فعله‌سنك قارداشجاسینا صحبتلرینی لیلا دیگله‌ییردی.

صحبتیك ایلك جمله‌لریندن تورکك باکودان و روس فعله‌سنیك‌ده له‌نینغراددان قاغری‌یا معالجه‌یه گلمش اولدیقلارینی لیلا آگلامشدی.

تورك سینیق - سالخاق روس دیلنده قونوشاراق یولداشینا بیله ده‌ییردی.

- بیزیم موللالاریمز بیزه دیمشلردی که مسلمانلار او دنیاده بهشته گیده‌جگلر؛ واورادا بزه چوق راحتلیگلر، گوزه‌ل شیئلر وعده ویرمشدیلر... اما من بودر اولمه‌مشدن بو دنیاده بهشته گلوب چیقمیشام؛ اوزیمده اك بویوك آداملار کیبی بورادا کیف چیکیره‌م!...

بو سوزلری دییه‌ن تورك فعله‌سی آرتیق خوشحال و صمیمی بر طرزده گولوب میروارید کیبی دیشلری ایشیلدادی.

له‌نینغراد ایشجیسی ماتوه‌یه‌ف، مصاحبنك چیگنینی سیلکه‌یوب بیله جواب ویردی:

- قارداشم، هله بر آزدا صبر لازمدر... بر بش ایلده گوزله... زحمت چیکوب چالیشماق لازمدر؛ او وقت گوره‌رسن که‌نه‌لره مالك اولاریق... اك گوزه‌ل و آسوده یاشایش آنجاق او زمان ممکن اولاجاقدر.

- نه قدر ایسته‌سك سنه نفت ویرمك بیزدن...

ماتوه‌یف صمیم قلبدن گولدی و مصاحبنك اه‌لینی سیقدی...

***

لیلا ساناتوریادا ایکی باشقا ایشجی قادینلار ایله‌ده دوست لاشمدی. بونلارك بریسی ماسقوا لی قاتیا و ایکنجیسیده ولادیمر شهریندن گلمیش فروسیادر

قاتیا دانشیردی که قایاق زمانلاردا بو یئرلره آنجاق بورژوی‌لار یغیشوب بورالاردا طاتلی - طاتلی حیات سوروب کیف چیکیردیلر؛ استراحت ایدیردیلر... لاکن ایشجیلر وایشجی قادینلار ایسه بوتون عمرلری اوزونی قابریقا وزاوودلاردا چالیشوب چاخوتقادان وباشقا خسته‌لیگلردن یوزلر، مین‌لرجه تلف اولوردیلار.

فروسیا داخی روسیه حیاتندن وروسلاردان چوق مراقلی احوالات دانشیردی.

قاتیا آرتیق صمیمیتله گولوب ده‌ییردی:

- بیز قاباقلاردا سیز قافقازلیلار باره‌سنده بام باشقا فکرده ایدیك. بیز ده‌ییردیك که قافقاز آداملاری آنجاق باشی پوزوقلاردان عبارتدرلر. بورادا بر چوق گورجیلر، ارمنیلر، تورکلر وار که اونلار او، گمان ایتدیگمز وحشی لردن اولماماقله برابر اوزلریده چوق گوزه‌ل انسان ایمشلر... بیزلری شمالدان بورالارا معالجه‌یه گوندرنلر بیزه نه قدر فائده‌لر ویرمیشلر... بورالاردا بیرچوق تانیمادیغمز، ایشیتمه‌دیگمز ملتلر، طائفه‌لرله تانیشوب، بیلیشیریك. ایره‌لی‌ده بز آبخازلار حقنده بر سوز بیله ایشتمه‌مشدیك؛ بورادا اونلا

ریدا ثانیوب بیلدیك؛ یاشایش شرطلرینی ده اوگره ندیك. بونلاردان باشقا جان ساقلیقمزی دا قازاندیق...

لیلانك تازه دوستلاری اونیله وعده لشدیلر که ماسقوایا گه لسین، اونلارلا تانیشسین...

لیلا فکره گیتمشدی... نیچه یللردر که او سونوك. رنگسیز و آغر یاشایشدان آیریلمیشیق.. تام سکزییل در. بو سکز ییل ده، نه قدر ده گیشیگلیگلر، نه چوق یکی لیگلر...

مظلوم سکینه مزاره گومولدی ... بوتون بو تازه حیاتدان بی نصیب اولدی... بودنیادان مأیوس گیتدی. لاکن اودا بو ساناتوریایا گوندریلمش اولسا ایدی؛ بوخسته خانه لری گورسه ایدی یقین که ئولمه ز ایدی..



آنامز!.. او یازیق، زحمتکش آنامز!.. صبح تیزدن آیاقا قالقوب گیجه یاریا کیبی مین مشقتلره قاتلاشوب، مین حقارت و رزیللیگلره تابلاشوب زحمت چیکه ن آنامز نه قدر چالشدیسادا اوشاقلارینی هیچ وقت تأمین ایده مه دی ... آتامیز ساق ایکن گذرانمز آغیر ایدی. اوباجاریقلی و چالشقان بر فعله ایدی. بونگله بیله یه نه ده عائله سینی دویوز دپراجاق قومسی یوق ایدی. یاشایاجاق منزلی همان رطوبتلی، مظلم پادوال... معیشتده یاریم آج ومحتاج .. قیشدا هیچ وقت سوبا یاندیریلماز... همیشه مانقال باشیندا قیزینوب چوق وقت بخاردان خسته له نه رلردی.

ایمدی...

بوگون لیلا باجیسی کلثوم ایله برابر «له نین نامنه» فابریقا دا جدیتله چالشیرلار. ایکی بویوك وایشیق اوتاقلی منزلی واردر. هپسی توخ و گه ینمش، بالاجا قارداش وباجیلاری مکتبده تعلیمده درلر. فابریقادا سکزساعت چالشیرلار.. بایرام استراحتلریده اوز بیرینده... ایمدیده ساناتوریایا معالجه و استراحته گه لمشلر... صابره نك صوك وصیتنی ده لیلا اونوتما میشدی.

صابره جان ویررکن لیلانی چاغیروب الك کوچك اوغلی علی نی اونا تاپشیرمشدی. لیلا خیانت ایتمه دی... ایمدی علی پیونیردر... پیونیرلر قوللهقتیوی ایله لاگه رده استراحتده در.

بوتون بونلار لیلایی اوقدر مشغول ایتمشدی که ناکهان یانیندا دوشمش کوچك برداش قرینتیسی اونی دیکسیندیردی. لیلا باشینی قالدیروب یانیندا کی ایشجی حسینی گوردی:

– بولداش لیلا بو گوزه ل دریا منظره سینه سیزیگله برابر تماشا ایتمگه اذن ویریرسیگزمی؟

لیلا گولومسه دی:

البته ...

بدنی میس کیبی قوتلی و گوزه ل حسین ساناتوریادا هر کسك خوشنا گیدیردی. تمام استراحت وقتلرینی لیلا ایله برلیگده گیچیریردی... ایکی گوندن سوگرا حسین استراحت وقتنی بیتیروب بوراداں گیده جك ایدی. بو ایکی گونده لیلا ایله صحبتنی بتیروب قطعی جواب آلاجاغینی قرار ویرمشدی.

– منیم بو تیزلیگده گیده جگمی یقین بیلرسیگز؟.

– بلی بیلرم!..

– سیزه مکتوب یازسام جواب ویره رسیگزمی؟ مندن سوگرا بر آی تمام بو گوزه ل وصفالی بیرلرده قالوب استراحت ایده جگسگز؟...

لیلا سکوته ایدی... اوچ هفته تمامدر که اوحسین ایله تانیشمشدر. اونیك فراستلی، شن و گوزه ل برانسان اولدیغنی لیلا دویمشدی. حسین همیشه آرتیق حرمت و نزاکتله اونیله رفتار ایدیردی.

بو صوك گونلرده لیلانیگده قلبنده بر حس اویانماغا باشلامشدی. اوللرده آرتیق احتیاط ایله لیلا بونی اعتراف ایدیردی. لاکن آخر گونلر حسین دن خوشلاندیغنی گیزله ده بیلمیوردی.

حسین دیدی:

– بیرده اونی سوروشماق ایسته ردیم که من ... لا لاردان شهره استراحته گلدیگم زمان سیزه قوناق گله بیله رمممی؟

– سیزك قوناق گلمه گه وقتگز چاتارمی؟.. سیز، فرقه وی اولدیقگز ایچون اوقدر مشغله گز وار که بزه گلمه گه هیچ وقتگز تاپیلماز!..

– بوراسی دوغریدر؛ لاکن گنه ده سیزه گلمه گه وقت

تاپارام. گلوب سیزیگله بیرلیگده کتاب اوخویاریق؛ غزته‌لره باقاریق... گره‌ك که‌سیزده فرقه‌یه داخل اولماق فکرینده سیگز!..

– البته... بو منیم اڭ بویوك آرزولریمدن بیریسیدر.

لیلانك چهره‌سی آچیلدی. حسین شاد برنظرله لیلایه باقوب قطعی بر سسله دیدی:

– دیمه‌لی بو گوندن قرار قویدیق که بیزیم تانشلیقمز موقتی اولمایوب اوزون مدت‌دوام ایده‌جکدر: اویله‌می؟..

آلا گوزلر سه‌وینجدن یاشاردیلار... لیلا محجوب بر حالدا باشی ایله اشاره ایتدی...

بو آن‌ده: «لیلا... لیلا!..» دییه‌سسله‌ر اونی چاغیردیلار. لیلا گه‌ریه دوندی. باشینی چیگنیندن چه‌ویروب صقتنده سه‌وینج اشاره‌سی گورونیردی. بو قاتیا ایله فروسیا ایدی. لیلانی چاغیروب گونش واتاسی آلماق ایچون آپاردیلار.

لیلامیس کبی دوتغون رنگلی ایله‌اشاره ایتدی؛ یئرینندن قالقوب رفیقه‌لرینی قارشولادی.

حسین ساحلده اوتوروب اوزون معشوقانه نظرله اونی یولا سالیردی.

اسد قیزی.



قاغری دا یولداش ووروسکی نامنه قیش ساناتوریاسنك ظاهری گورکه‌می‌در.



آنالیق و چوجوقلق محافظه‌سی

آنالیق و چوجوقلق محافظه‌سی یولوندا شورالار حکومتی نیجه چالیشیر.

بوگون دنیا یوزینده اویله بر ئولکه تاپیلماز که اورادا آنالق و چوجوقلق محافظه‌سی ایشی بیزیم شورالار ئولکه‌سینده قورولدیغی کبی دوزگون و مکمل ترتیب ویریلمش اولسون.

بو ادعامزی ثبوت ایچون بوگون شورالار ئولکه‌سینده آنالیق و چوجوقلغی محافظه ایچون ویریلمش اساس قانونلارك هاموسینی بیر به بیر گوسترمك مجبوریتنده‌یك.

بو قانونلاری زحمتکش قادین البته اوگره‌نوب و گله‌جکده آنا اولدیغی زمان او قانونلاردان تمامیله استفاده ایتمه‌گه چالیشمالیدر.

آنالیق و چوجوقلیغی محافظه ایتنده قانون لایحه‌سی بو ماده‌لری قبول ایتمشدر:

1) حامله قادین اوز ایشیندن آزاد ایدیلمکدن باشقا، فزیقی ایشده چالیشانلار 8 هفته، فکری زحمت ایله مشغول اولانلاردا 6 هفته دوغومدان قاباق و بر اوقدر زماندا دوغومدان سوگرا هرقسم زحمت مکلفیتندن آزاد ایدیله‌جکلر.

2) حامله قادینلار قطعیا زحمت مکلفیته (یعنی فزیقی زحمته) جلب ایدیلمه‌مه‌لیدرلر.

3) فابریقا، زاوود و بوتون موسسه‌لرده چالیشان حامله قادینلار زحمت مدیریتی (اینسپه‌قسیاسی) و آنالق و چوجوقلغی محافظه ایدن محلی موسسه‌لرك قرارلاریله آغر زحمتلردن چیقاریلوب یونگول ایشلره تعیین اولنورلار.

4) صحیه‌موسسه‌لرینده (خسته خانه‌لرده)، هابیله فابریقا و زاوودلاردا چالیشان حامله قادین‌لار، حامله‌نك دورلرینك ایکنجی یاریسی باشلانماندان سوگرا گیجه نوبتجی‌لیگلرینده آزاد اولوب گوندوز نوبتچیلیگلرینه کیچریله‌جکلر.

5) قزیل عسکر عائله‌لرینك اکین ئرلرینی أیل‌لیگله اه‌کوب_پیچه‌ن زمان ایلك نوبه‌ده حامله اولان عائله‌لرك ئرلری ایشله‌نه‌جکدر.

6) اوشاق ئه‌میزدیره‌ن قادینك ایش مدتی آلتی ساعتدن آرتیق اولمامالیدر. نهار ایچون و اوشاغا سود ویرمك ایچون قویولمش تنفس‌لر بورایا حساب ایدیلمه‌یه‌جکدر.

7) حامله ایشجی و قوللوقچی قادینلارك اوز راضی لیگلری اولمادیغی تقدیرده یاشادیغی محلدن باشقا بریره گوندەرمك ویاکه بوایشدن چیقاریلوب باشقا بر وظیفه باشینا قویماق ممنوعدر.

8) 5 ینجی آینی باشلامش حامله قادینا و هابیله سود ویره‌ن فزیقی زحمتده چالیشان ایشجی قادینا هر قسم عادی ایشدن خارج (Сверхурочный) ایشله‌مك ممنوعدر.

9) اوز خواهشیله اولمایوب ویاکه شورا خسته خانه‌لرینده حکیملر کومگیله اوشاق سالدیرمش ایشجی قادینلارا، طبی قونترول قومسیونینك وثیقه‌سنی تقدیم ایتدیگدن سوگرا، فزیقی زحمتده کیلره 3 هفته، فکری و قانطور ایشلرینده چالیشانلارا 2 هفته ماذونیت ویریلمه‌لیدر. بو ماذونیتی آلانلارك دونلوق و باشقا قسم آلاجاقلاربدا تمامیله ویریله‌جکدر.

10) حامله‌لك مناسبتیله قانونی ماذونیتده اولان قادین هیچ وجهیله ایشدن چیقاریلاماز (اختصار وباشقا بوکبی سببلره گوره).

11) قادینلاری ایشدن چیقاردیقدا اونلارك حامله‌لیگنی هیچ وقت سبب گوسترمك اولماز.

12) ایشسیز قادین حامله اولدیغی حالدا، یوقاریدا گوستریلمش مدتده اجتماعی تقاعد قاسساسی طرفدن نقدی یاردیم آلیر.

بونیدا نظرده دوتمالی که یوقاریدا ذکر ایدیلمیش دهقرمتده قادین زحمتنی آنالیق و چوجوقلیغی مدافعه بارهسنده شورا قانونلاری لایحهسینده گوستریلمش مادهلرك هاموسی گوستریلمهمشدر؛ یوقاریدا گوستریلمش مادهلر یالیکز اساس قانونلاردر که بونلاری اوقویوجی قادینلار همیشه نظرده دوتمالیدرلار.

شورا حکومتی یوقاریدا کی قانونلاری یازماق ایله اکتفا ایتمهیوب بر چوق خصوصی موسسهلر تشکیل ایتمکله آنالیق و چوجوقلیق محافظهسی ایشینی عملی صورتده حیاته تطبیق ایتمکدهدر. بو ترکیبده اولان موسسهلردن آنجاق آنا و چوجوغی و برده سود ویرهن آنانی مدافعه ایتمك فکریله ترتیب ویریلمش موسسهلر بارهسینده سوز آچوب حامله قادین و سود ویرهن آنایی اونلار ایله تانیش ایتمك ایستهییرم: بو کیبی موسسهلرك تیپلری بولاردان عبارتدر:

1) اوشاقلارا قوللوق ایتمك و سود امهمن چوجوقلاری یهدیزدیرمك اصولنی آنالارا تعلیم ایچون قونسولتاسیا.

2) سود ویرهن مطبخلر؛

3) سود امهمر اوشاقلار ایچون پاترونلار.

ایمدی اوقویوجیلاریمزی بو موسسهلرك وظیفهلری ایله تانیش ایتمك لازمدر.

قونسولتاسیالارك وظیفهلری: اوشاقلارك نشوونماسنه دقت یتیرمك؛ اوشاق خستهلیکلرینك قاباغینی آلماق؛ اونلارك غداسینه دقت ویروب، خستهلندیکلری حالدا آمبولانتوریا معالجهسینی تأمین ایتمك؛ تازه دوغمش اوشاقلار ایلك اوچ دورت آیك عرضنده، هفتهده بر دفعه اولماق شرطیله قونسولتاسیانی زیارت ایتمهلیدرلر، اوندان سوگرا 6 آینا کیبی و هفتهده بیر و 2 یاشینا کیبیده آیدا بیر زیارت دوام ایتدیریلمهلیدر.

بو منوال اوشاقلارك بر چوق خستهلیکلره دوتولا بیلهجکلری بیر دورده چوجوقلار 40 دفعه قونسولتاسیانی زیارت ایتمیش اولورلار. قونسولتاسیادا پاترونلر باجی قاباقجا چوجوغی ترازوده چکیر، بدننی گوزدن کیچیریر و سوگرادا اطرافلی صورتده حکیم طرفندن معاینه ایدیلیر. آنایا لازم اولان مصلحتلری ویریر، اوشاغا نیجه غدا ویرمك و نیجه یاتیزدیروب قوللوق ایتمك گوستریشلرینی عملی صورتده تعلیم ایدیر و خسته چوجوقلارا نه طور معالجه ایتمکیده گوستریر.

بو منوال ایله قونسولتاسیا حکیمی چوجوغی و اونك آناسینی تدقیق ایدوب اونلارك اورغانیزملرینی لازمنجه اوگرهنیر: هر دفعه چوجوق ویا که آناسی بر خستهلیکه دوتولدیقلاری حالدا معالجهسینیده آسانلیقلا تاپا بیلر.

بو ایضاحاتدان آکلاشیلر که قونسولتاسیالارك آنالار ایچون و خصوصاً جوان آنالار ایچون نه درجه اهمیتلی و فائدهلی بر موسسه اولدیغی آیدین و آشکاردر.

سود مطبخلری: بورادا محتاج چوجوقلارا سود ویریلیر. سود مطبخلری، قونسولتاسیانك تحت نظارتنده اولان بر موسسهدر. مطبخلردن بوراقیلان سود صحیه نقطه نظریله تمیزلهنمش، قاینامش و سوزولمش سوددر که بویوك شهرلرده بو کیبی تمیز و ضررسیز سودلری تاپماق گوجدر.

سود امهمن اوشاقلار ایچون پاترونلار: بونلارك مقصدی گنیش کیتله ایچینده سود امهمر اوشاقلارك ایچ داخلنده حفظهالصحه شرائطنی تشویق ایتمکدن عبارتدر. پاترونلار اوشاقلارا دوزگون قوللوق ایتمه گی، وقتلی وقتنده یهدیزدیرمکی آنالارا اوگرهدیرلر.

یاسلیلر: ایشجی قادینلار ایش زمانده اوز سود امهمن اوشاقلارینی امیدلی بر نظارت آلتیندا ساقلاماق قصدیله یاسلیلر تشکیل ایدیلمشلر. سود امهمر چوجوقلارا لازم اولان قوللوق بو یاسلیلاردا حاظردیر.

چوق وقت یاسلیلار فابریقالار و زاوودلار یانیندا تشکیل ایدیلوب اورادا چالیشان ایشجی قادینلارك سود امهمر بالالاری بورایا قبول ایدیلرلر. ایش زمانی ایشجی قادینلار بورایا گلوب اوز اوشاقنی امیزدیرهجکلر، ایشدن سوگرا آنالار اوشاقلارینی اوزلریله آپاروب ایرتهسی گون ایش وقتنه قدر اوز یانلارینده ساقلابیرلار.

اوشاق امهمیزدیرهن آنالار بالالارینا یاردیم ایدهجك موسسهلرك مقداری گیت گیده آرتماقدادر. بونی هر کس مشاهده ایده بیلهر. دوغریدر، بو کیبی موسسهلری قاباقجا بویوك شهرلرده، تشکیل ایدیرلرسهده، لاکن حکومتمزك امکانی داخلنده کندلرده لازم گورولدیکی یرلرده مقداری آرتیریلر.

بو جهتدنده شهرلرده ایشجی قادینلاردان باشقا کندلی قادینلار دخی بو موسسهلرك وظیفه و ماهیتلری ایله تانیش اولمالیدرلار که گلهجکده بو کیبی موسسهلرك کندلی قادین ایچون نه درجهده اهمیتلی برموسسه اولوب گلهجك نسلك ساغلاملیغی رهنی اولا بیلهجك موسسهلرك وارلیغنی دوشونوب بیلسونلر.

دوقتور: **آ. اصلانوف.**

قادین حیات تناسلیه‌سنك و آی باشیلارینك سونمه‌سی

یومورتالقلار قادین حیاتنده اونك اخلاق روحیه‌سنده و عمومیتجه بوتون معیشتنده اولدوقجا بویوك بر رول اویناماقدادر. قادنك تام معناسیله قادین اولماسینا (استیمول) حرکت ویره‌ن، اوندا آی باشیلاری، دوغوم و حیات تناسلیه استعدادی کبی طبیعی حادثه‌لره میدان ویره‌ن یومورتالقلاردر. یومورتالقلار قادین اعضاسینه‌لازم اولان بر پرا کیمیه‌وی ماده‌لر بیراقیرلار. یومورتالقلاردان محروم قالان بر قادین (ایسته‌ر بو اوپه‌راسیا واسطه‌سیله و ایستر ایسه بعض خسته‌لیکلر نیتجه‌سنده اولموش اولسون) یواش ـ یواش قادینلیغا عائد بوتون خاصیتلرینی غیب ایدوب آرتیك لیکه مخصوص علامتلر بروزه ویرمکه باشلار. مشهور وپانه پروفیسسوری شتیناخ (steinach) اوز تجربه‌لرینده بونی آیدین بر صورتده ثبوت ایتمیشدر هر بر جانلی عضویتده اولدوغی کبی انسانلاردادا مروزمانله آیری ـ آیری عضولر حره کتده‌ن دوشوب آتروفیایا باشلار (أوله‌ر) اوکا بناء اونلارك تدریجاً مختلف استعدادلارینی ایتیروب قوجالماغا باشلاماسی طبیعی بر حادثه‌در. بزی بورادا مراقلاندیران آنجاق قادین جنسی‌در.

حیات تناسلیه‌نك مرکز نقطه‌سینی تشکیل ایده‌ن یومورتالقلار تقریباً 45 یاشندان 57 یاشینا قدر بوروشوب صفده‌ن چیخار. بو وقتده‌ن اعتباراً یکی نسلیك دنیایه گلمه‌سی ایچین لازم اولان یومورتاجقلاری قادین تناسل جهازلری ایتیرمه‌ك استعدادینی غیب ایدیر. و هابیله‌جه بو یاشا جاتمیش قادینلار آی باشیلارینی و حیات تناسلیه هوسینی بری برینك دالنجا ایتیرمر. آرکك‌لریك حیات تناسلیه‌سی قادینلاردان کیچ سورور. مثلا؛ 60 ر 65 یاشندان یوخاری بر آرکه‌گیك تناسلیه قوه‌سینه مالك‌اولماسی معلومدر.

بعض قادینلاردا Klimakterium دورینده بو سایدیغمز حادثه‌لرده‌ن باشقا روح پوزغونلوغی و سیکیر ضعیفلکی علامتلریده گورونور مثلا: باشا قان وورما، قلب دوگونمه‌سی، ته‌رله‌مه‌ك؛ ایستی‌لیك دور دوغو یرده قیزارماق، اویقوسوزلوق کبی حادثه‌لرده مشاهده ایدیلیر. بوندان باشقا قادینلار عصبیله‌شیر، سبب‌سیز حرصله‌نوب باشقالاریله داوا دوتماغا باشلار. بعضیلری ایسه دینمه‌ز سویله‌مه‌ز بر یرده اوتوروب‌هیچ‌بر کس‌ایله‌دانشماز ومحیطنده گوردوگو بوتون شیلره قارشی بر عطالت گوسته‌ره‌بر. دیمه‌ك بر سوز ایله سویله‌مجك اولورساق قادین Depressino اسمیله مشهور ناخوشلوغا دوتولور، دیمه‌لی حیات تناسلیه‌نك سونمه‌سی بعض قادینلاردا روح پوزغونلوغو ـ پسیخوز عمله گه‌تیریر. روحیاتچیلاریك گوسته‌ره‌مه‌سینه گوره قادینلارا یوز ویرمه‌دن پسیخوزیك 3.5% نه سبب Klimakterium (حیات تناسلیه‌نك سونمه‌سی‌در). بوتون بو علامتلر 6 آیدان 4 ایله قدر دوام ایدوب قادینا اولمازین زحمتلر ویره‌بیله‌ر. بونلاریك معالجه‌سینه گلدیکده یوره‌گی و قان دامارلارینی تخریش ایدن (قدرینده‌ن آرتیق چالیشماغا مجبور ایدن) یه‌یجی و ایچی‌جی شیلرده‌ن أول گوتورمه‌لیدر. أندن، آلکوهولدان (شراب، قونیاق و بوکبی شیلر) قهوه و توند چایدان پرهیز ساقلامالی. باشا قان وورماق علامتلرینده‌ن: قزارماق، باش هرله‌مه‌سی و قولاق گویولده‌مه‌سندن خلاص اولماق ایچون قانی بده‌نك یوقاری حصه‌لرینده‌ن (باش طره‌فده‌ن) داخلی عضولره و باغرساقلارا دوغرو گیترمه‌گه چالیشمالیدر. بونو ایسه جور به جور ایشله‌تمه درمانلاری بیمك و تداوی سولاردا وانا گوتورمك ایله ممکن ایتمك اولور. تمیز هواده جیمناستیق یاپوب پیاده گه‌زمك کبی بناگذارلقلار سیکرلری محکمله‌دوب خسته‌لیکی سوندوره‌ن حادثه‌لردندر. قادینك بو خسته‌لیکه دوتولماسینا برنجی سبب یومورتالقلار فعالیتنك سونمه‌سی اولدوغی ایچین اونلار قادین اعضاسینه بوراقدیغی کیمیه‌وی ماده‌لره موافق درمانلار قایریلمیشدر که. ovarin قادین بونو ایچدیکده غیب ایتمیش اولدوغی ماده‌لری بر نوع عوض ایدیر. و اوزینی‌ده یاخشی حس ایتمه‌گه باشلار. مقاله‌مزی قورتاماقدان قاباق بر مسئله حقنده‌ده دایانماغی لازم گورورم. حیات تناسلیه‌نك سونمه‌سی دورینه (Klimakterium) تصادف ایده‌ن یاشلار قادیندا خرچنك عمله گلمه‌سی ایچین چوق قورقولودر. دوغرودر که بو خسته‌لیك جوان قادینلار دادا مشاهده ایدیله‌بیلر؛ آنجاق ستاتستیق معلوماتنك گوسته‌ره‌مه‌سینه گوره چوغی 40یاشیك اورتالارینا دوشور. اوزینه مغایات اولان بر آرواز بر آز دقتلی اولسا خرچنك علامتلرینك بروزه ویرمه‌سینی وقتلی وقتنده گوروب متخصصه مراجعت ایده‌ر و بویله‌لیکله اوزینی خلاص ایده‌بیلر. بو یاشلاردا آی باشیلارنك غیر منتظم اولماسی، گوجلی گلمه‌سی و علاقه زمانی قادیندان قان گورونمه خرچنك خسته‌لیگینك ایلك علامتلرینده‌ن اولابیلر. تاسف‌لر اولسونکه بر چوقلاری بو علامتلره فکر ویرمه‌یوب اونك اطراف عضولره قول بوداق آتماسینا یول ویریرلر. عادتاً بر چوق عضولره سرایت ایتمش خرچنك اوپه‌راسیا ایله‌ده معالجه ایدیله‌مه‌ز

دوقتور: ع. آتایف.

ساغلام‌لق و خسته‌لیك

انسان؛ وجودینده بیراکسیکلیك دویماز ایسه، بدنینك ایشلمه‌سی دوغروگیدیرسه، ئوزینی ساغلام سایبر. وجود بو قاعده‌دن چیقیرسه «خسته» اولور. انسان ساغلام اولدوقجا ساغلاملیغیٔ قیمتنی بیلمیر؛ خسته‌لندیکدن سوکرا آکلاماغا، دوشونمکه باشلایبر.

خسته‌لیک نه‌دن اولور؟ خسته‌لیکی نه‌لر توره‌دیرلر؟ یونلارا، چوق درینه گیتمه‌یوب قیساجا جواب ویره‌لم.

حکیم اولمیانلار، خلق ئوزی تجربه‌سی ایله بیلیرکه خسته‌لیکی توره‌دنلر بیر چوق سببلردر. کنده ایکی قومشو برابر بیر شرائطده یاشایر. بو قومشولاریٔ اوشاقلاری‌دا واردر. بیر اوشاغیٔ آتا ـ آناسی ساغلام، او بیریسینك ایسه خسته، ضعیف‌در. هرکس، آز چوق تجربه و مشاهده‌سی وار ایسه، بیلیر که چوق وقت ضعیف، خسته آتا ـ آنانٔ اوشاغی داها تیز مختلف خسته‌لیکلره دوتولا بیلرلر. سوکرا چوق وقت ایشیدیرسیکز که ده‌یرلر «ایله اولاردا بوخسته‌لیک اولور؛ اولارك نسلینده واردر.» بورا‌سینادا دقت ویرسکز گوره‌رسکز که بعض خسته‌لیکلر قادینلاردا داها چوق، ارککلرده آز اولور. ایله خسته‌لیکلرده واردر که ارککلرده قادینلاردان چوقدر. بیر چوق مشاهده‌لر گوستریر که بعض خسته‌لیکلر بعض ملتلرده چوق اولور. بوسایدیغمز سببلر هاموسی، گوریرسکز که وجودك ئوز قورولوشینك، یاپیلماسیندان آسیلیدر. بونا گوره بو سببلرك هاموسینا داخلی سببلر دییرلر.

داخلی سببلردن باشقا خسته‌لیکی توره‌دن بیرده خارجی سببلر واردر. خارجی سببلر داها چوقدر. اك اول خارجی سببلردن بیر یرك «آب و هواسی» گوسترمه‌لم. داغ یری ایله آران بیر اولماز. سیز چوق وقت ایشیتمیسکز که دییرلر «فلان یرك آب و هواسی چوق ساغلامدر ویا فلان یر قیزدیرمالیدر، خسته‌لیدر». انسان منزلده یاشایور. منزللرك اولدیغی یئر، تیکیلمشی بیر چوق خسته‌لیکلره باعث اولور. انسان بیمکه ایشله‌تدیکی شیئلر، بونلارك حاضرلانماسی خسته‌لیکلرده بویوك اهمیتی واردر. انسان، بیر چوق حیوانلار کبی تك باشینا، جوللرده یاشایر. انسان جمعیت اوزره یاشایبر. بو جمعیتك قورولوشی، جمعیتی تشکیل ایدن صنفلرك یاشایشی وضعیتی خسته‌لیکلرك توره‌نمه‌سینه، یاپیلماسینا تأثیر ایدن سببلردندر. ساغلاملیغا تأثیر ایدن سببلردن بیرده صنعت‌در. بعض صنعتلر بعض خسته‌لیکلرك یاپیلماسیندا توره‌مه‌سینده بیوك رول اوینایورلار. مثلا مطبعه‌لرده چالیشانلار آراسیندا وه‌رم چوق اولور. بتون بونلار خارجی سببلردر. بورایا بیرده میقروبلاردان عمله گلن خسته‌لیکلری آرتیرمالی‌یز. بو خارجی سببلر اوزرینده گله‌جك مصاحبه‌لرمزده تفصیلات ایله دایاناجاغیز. آنجاق بوراسنی قید ایتمك لازمدر که« خسته‌لیك اجتماعی حادثه‌لردندر.»

خسته اولان انسانك بیر تك اوز نفسینه ضرری یوقدر؛ خسته‌لیك اجتماعی بیر حادثه اولدیغی ایچون هر خسته عین وقتده بتون مملکت تصرفاتینه ضرردر. اك اول خسته آدم ایشدن قالیر. سوکرا بونا سفورطه اداره‌لریمیز خرج ویرملیدرلر. خسته‌لری ساقلاماق، بونلاری تداوی ایتمك ایچون مملکت ایلده خسته‌خانه‌لر، آمبولاتوریالار، ودیگر معالجه مؤسسه‌لرینی ساقلاماق ایچون میلیونلار ایله پارالار صرف ایدیر. سوکرا بعض خسته‌لیکلر وجودی شکست ایتدیکیندن شکست‌لری ساقلاماق لازم گلیر.

اوبیری طرفدن بعض تدبیرلر ایله خسته‌لیکلرك قاباغنی آلماق اولاردی. عمومیتله بوگون صحیه اداره‌لریمزك مقصدی خسته‌لیك‌لری قاباقلاماق، ایله تدبیرلر گورمکدر که خسته‌لیک آز اولسین. بو تدبیرلرك آراسیندا اك اهمیتلیلرینـدن اجتماعی ـ اقتصادی ترقی ایله برابر اهالینك صحیه سوادینك آرتیرلماسی اولمالیدر. جماعت، ساده بیر صورتده ده اولمش اولسا ساغلاملیغا عائد اك لازملی اولان شیلری بیلملیدر. بو اك چوق آنالاریمزا، باجیلاریمزا عائددر. گله‌جك نسلی یتیشدیرن، ایو شرائطمزی یولینا قویان آنالاریمزدر. بونلارك صحیه‌جه سوادلی اولمالاری وئوگره‌ندیگرینه عمل ایتمه‌لری مملکته بیلده یوزبیك مناتلار ایله منفعت ویره بیلر. صحیه‌جه آذربایجاندا ایشلر نه یرده‌در؟

صحیه پوزوغلیغی جهتجه آذربایجان، شورالار جمهوریتی اتفاقنده بیرنجی یرلرك بیرینی دوتوب اوبیری طرفدن بو گون شورالار جمهوریتی صحیه‌جه آوروپا مملکتلرینـدن هله‌لیك چوق گریده‌در.

بیر چوق خسته‌لیکلر آذربایجاندا محکم‌یر دوتوب. بونلار خلقیك ساغلاملیغنی و بونك ایله بیرلیکده خلق تصرفاتنی گمیرمکده‌در. ایصیتمه (مالاریا)، سیفیلیس، وه‌رم، تراخوما ،باغر ساق قوردلاری خسته‌لیکلری بو مملکنده

گنیش بیر صورتده انتشار تاپوبدر. اوبیری طرفدن خلق دها مدنی، صحیه‌جه دها سوادلی اولسا ایدی بوخسته‌لیگلرك قاباغنی تمامیله‌ده اولماسا بیوگ دائره‌ده آلماق اولاردی.

صحیه‌یه عائد تدبیرلردن بحث ایتدیگده چوق وقت ده‌ییرلر: «جانم بونلار کاسب ایشی ده گلدر!» بو یا کلیش بیر فکردر. بیر طرفدن دولت خلق تصرفاتنی یوکسلتمگه و بونك ایله برابر یاشایش شرائطنی یاخشیلاشدیرماغنا چالشیر. اوبیری طرفدن بوتك دولتك ایشی اولا بیلمز. خلق ئوزی، کتله کومگه گلملیدر. بودا سیاسی‌سوادی آرتیرماق ایله اولار. بیزیم‌ده مقصدمز بونا یاردیم گوسترمگدر.

دوقتور: محمدامین افندی‌یف.

سقارلاتینا (بوغاز آغریسی).

بو گون مملکتمزده اولدوقجا چوق سرایت ایتمش اولان سقارلاتینا خسته‌لیقی 19نجی عصردن بەری آوروپادا معلوم بر خسته‌لیقدر. بو خسته‌لیق بعضی آوروپانیك مختلف یئرلرینده آرتوب سوگرا برپارا معالجه‌لر و بعضی تعجیلی تدبیرلره گوره آزالیردی.

اوشاقلاری یاقالایان خسته‌لیکلردن دیمك اولار که سقارلاتینا الگ سرایت ایدیجی و قورقولی‌سی‌در. سقارلاتینا خسته‌لیگینیك عاملی بو وقته کبی یاخشی معلوم دگل‌در. آنجاق چوق خسته‌لرك بوغازلاریندان چیرك گوتوروب میقروسقوپدا باقاندا میقروبلار گورونور که‌اوگادا سقارلاتینا ستریپتوقوقی(Sfuptococeus hocmoliticus) دییورلر.

بر چوق عالملر تجربه‌لری سایه‌سنده بویله بر اعتقاده گلمیشلر که همین بو ستریپتوقوقدان باشقا بر میقروبدا واردر که اونی بو گون کشف ایتمك ممکن دگل‌در. دیمك همین میقروبلار هر ایکیسی برلیگده سقارلاتینانك عاملی‌درلر و اونك یولوقماسینا سبب اولورلار. خسته‌لك چوق یولوخوجی اولدیغی ایچون خسته اوشاغادا بر چوق واسطه‌لر ایله کیچیر.

سقارلاتینانك یولوخوجی دوری خسته‌نك برك بوغازی آغریان وقت و اونك دریسی سویولان زماندر. آزارلی چوجوغك بوغازیندان گلن چرك پالتارا، مهربایه، الله بولاشا بیله‌ن وبوشیلرواسطه‌سیله اوشاقلاراخسته‌لیك کیچرور.

آزارلی اوشاقك‌اوطاغندا اولان سودی غیر بیر اوشاق ایچرسه خسته‌له‌نه‌ر. باشقا بیمه‌لی شیلرده ها بیله آزارگ یولوخماسینا سبب اولابیله‌ر. سقارلاتینا عمومیتله چوجوق خسته‌لیقی‌در. آنجق بویوك آداملاردا آزارلیا بیلر. ایگرمی یاشندان یوقاری سقارلاتینا ایله خسته‌لنن آداملار چوق آز اتفاق دوشور.

5_1 یاشینا کبی اولان اوشاقلار الگ چوق بوخسته‌لیقه مبتلا اولورلار.

فصیل‌لردن الگ چوق سقارلاتینا پایزدا اولور.

سقارلاتینا خسته‌لیقی بردن باشلانیر. چوجوقلك اشتهاسی قاچیر، ناراحت اولور بعضاً دیتره‌دیر.

صگرا بردن قیزدیرماسی 39ویاخود قرخه کبی قالقیر.

اوشاقلك قیزدیرماسی‌قالقاندان صگرا قوسماغا باشلایور. بوغازی ایچه‌ریدن قیزارير وبرنیچه ساعتدن صگرا بدننده سپمه عمله گلیر.

سپمه قیپ‌قرمزی خرده سپکی‌دن عبارت‌در والگ اول وشاقلك اللرندا و بالدیرلاریك ایچ طرفنده سپکی عمله گلیر صگرادا بتون بدنینه یاییلیر.

سپمه اوشاقلك بتون‌اوزینه یاییلیرآنجق بورندا واوست دوداقندا اولمایور.

و بویله قیپ‌قرمزی سپمیش چوجوقلك اوزنده بورنی آغ کبی گورونور.

خسته چوجوقلك بوغاز شیشمه‌سی و قیزارماسندان‌باشقه دیلی‌ده قیپ‌قرمزی موروغ رنگنده اولور.

اوچ دورت گون خسته چوجوقیك قیزدیرماسی چوق چوق اولور صگرا برآز دوشه‌رگه باشلایور و بدننده که سپمه‌نك قیزارتی‌سی‌چکیلمه گه باشلایور.

10 _ 9نجی گون خسته‌نیك آغریسی اولمایور و قیزدیرماسی دوشور. بو وقت سپمه اولان یرلرده خسته‌نیك دریسی کپکلشمه گه سویولماغا باشلایور.

بعضی سقارلاتینایه مبتلا اولان خسته‌لریك هیچ سپمه‌سی اولمایور البته اوندا خسته‌لیقی معین ایتمك چوق چتین اولور. بعضاً سقارلاتینا بویله‌جه 4 _ 5 هفته‌نك مدتنده قورتاریر.

چوق اتفاق‌اولور که‌خسته‌لیق آغیرلاشیر. خسته‌چوجوقلك بوگره کی آغریمایه‌باشلایور. قولاغی آغراولور چیرك گلیر.

بعضاً قولاغنك چیرکی‌دیشاری‌یه چیقمایوب بینینه گیدیر والبته بویله‌خسته‌لرخسته‌لیقه دوام ایده بیلمه‌یوب‌فوت‌ایدیرلر.

چوجوقلار ایچون سقارلاتینا الك آغیر خسته‌لیق لردن بریسی در.

سقارلاتینادان اولن چوجوقلارك فائضی اوندان قیرقا کبی در.

هر گاه خسته‌لیق 4 یاشدان یوقاری اولان اوشاقلارا مبتلا اولوبدرسه او قدر قورقولی دگل در.

سقارلاتینایا نه جور معالجه ایتمك لازیم در؟ سقارلاتینانك الك اول معالجه‌سی بوندان عبارت در که: خسته چوجوقه یاخشی باقماق وساقلاماق لازیمدر. یاتدیغی اوطه‌غك هواسی تمیز، چوق ایستی اولماسیدا مناسیب ده گل در.

خسته چوجوقی هفته‌ده بر و یا ایکی دفعه چیمدیرمك لازیم در. بوغازینی بورنی کیسلوتا (Борная кислота) ایله قارقارا ایتمه‌لیدر. قیزدیرماسی چوق اولاندا قیزدیرما سالان درمان ویرمه‌لیدر. درمانلارك او قدر اهمیتی یوقدر. الك واجب آنجق اوشاغا یاخشی قوللوق ایتمك وتمیز ساقلاماق در.

اوشاق اون-اون ایکی گون کرك آنجاق سود ایچسون وغیر بونگول سولی خوراك ییسون. صگرالار آز آز آزادت سویی و چوره‌ك ویرمك اولار.

خسته چوجوق بیش آلتی هفته خسته‌خانه‌ده قالمالی در. ویاخود ایوده یاتیرسا بوستون ایو آداملارندان آیرماق بوندان علاوه خسته‌لیق چوق آغیر اولورسه اوانجی گونلر سقارلاتینانك عاملی علیهنه حاضر اولنمیش ایگنه ووررماق لازیمدر.

بونی‌دا یالگز دوقتور ایده‌بیلر.

سقارلاتینا خسته‌لیغینك قارشوسنی آلماقدان اوتری نه لازیم‌در: چوجوقلارك آراسندا سقارلاتینانك یاپیلماسی ایچون خسته چوجوقی بوسبتون آیرمق ویاخود خسته‌خانه‌یه گوندرمك لازیمدر.

خسته‌اولان ایوشیلرینی دیزینفیقسیا (Дизенфекция) ایتمك لازمدر.

خسته ایله علاقه‌سی اولان چوجوقلاری خسته‌دن آیریلدیقدار صگرا ینه‌ده اون بر گون مکتبه براقماماق لازیم‌در.

سوك وقتلرده مشهور آمریقا عالملرینی دوقتور Диск و اونك آروادی چوجوقلری سقارلاتینادان محافظه ایتمکدن اوتری واقسین (Вакцина) کشف ایتمشدرلر و بونیك ایله چوجوقلری پیوند ایدیرلر.

هر بر چوجوغی سقارلاتینادان محافظه ایتمك ایسته‌ین آنا اونی معین خسته‌خانه‌لره اداره‌لره مراجعت ایده‌رك چوجوقلرینی پیوند ایتمه‌لی درلر.

آنجق بویله‌لیك ایله گنیش مقیاسدا سقارلاتینا ایله مبارزه آپارلراق یوزلرجه قوت ایدن اوشاقلاریمزی بو قورقولی خسته‌لیقدان خلاص ایتمش اولورز.

دوقتور ا. موسی بگلی اسماعیل‌زاده

پوچطه قوتوسی

قارا باغی‌یه ـ کوردستان حیاتدن یازدیغگز شعر ضعیف اولدیغی ایچون گیتمه‌دی. «تنقید و بیبلیئوغرافیا» مقاله‌گزی «پیونه‌ر» مجموعه‌سی ادا. سینه گوندردیك.

آغابالا شیخی‌زاده‌یه «گله‌جك چوجوغك ساغلام دیشلرینی نیجه‌یتشدیرمك لازمدر!» مقاله‌گزده هیچ بیر عملی گوستریشلر اولمادیغندان گیتمه‌دی.

محمد علی محرمی‌یه ـ «کندلی قزی» گیتمه‌دی.

عاقل ه ـ کار تکذبان گیتمه‌دی. ضعیف ایدی.

محمد هابیله ـ «آمال‌ك آلمی» حکایه‌گز صنعتجه گوزه‌لدر. لاکن تعقیب ایتدیگگز مقصدی آگلامادیق. حکایه‌ده بر نتیجه گورونمه‌یر.

محمد آغا آخوند زاده‌یه ـ «یازیق قیز» شعریگز مألجه ضعیف‌در. «نیازك سرگذشتی» حکایه‌گز گیتمه‌دی.

آللهویردی حاجی‌یوفه ـ «بر قاضی‌نك قوربانی» نه حکایه‌در، نه خرونیق، گیتمه‌دی.

ابراهیم نریمان زاده‌یه ـ «موهومات قوربانی» گیتمه‌دی.

محمد آغا آخوندزاده‌یه ـ «قتل» شعری صنعتجه یاقشیدر. مضمونجه کوهنه‌لمشدر. «مساوات» دوریزده‌کی زیر-زیبیل‌لری تکراره احتیاج یوقدر.

ح. کاظیملی‌یه ـ عواملیغك نتیجه‌سی گیتمه‌دی. حکایه سبکی ایله یازیلمامشدر. خرونیق سیاقنده اوزون بر فقره یازمشسگز. جمله‌لرگزك قورولوشیدا فارس مکتبی نفوذی آلتیندادر. «روزگار درخت باشیندا کی یاپراقلاری خاك زمینه اه‌ندیرمگده ایدی. طبیعتك موجود قانونی اوزره یاپراقلار خزان اولماغا باشلامشدی». یازیگزك تورکجه‌لشمه سینه چالیشیگز.

علی زبونه ـ «آغلایان گوله‌ر» حکایه‌گز ضعیف ایدی.

رحمان سلطانوف ـ «اونلار نه‌وقت قوشولاجاقلار» گیتمه‌دی. باشقا یازیلاریگز وقتیله گیده‌جك‌در.

محمد علی محرمی‌یه ـ حکایه‌ده کی «بر تورك قادینی‌نك کندی آرادلیغی اوغروندا صرف ایتدیگی امگلاردن، هیچ بر نمونه گوره بیلمه‌دیك، ضعیف‌در؛ گیتمه‌دی.

سید صبری نخچوانلی‌یه ـ «اوقتیابر انقلابنك شرقه تأثیری» گیتمه‌دی.

اسدالله فیضی‌یه ـ «شرق قادینی‌نا» شعریگز گیتمه‌دی.

شاغانی‌یه ـ «کندلی» غزته‌نده‌کی برنیچه خرونیقی توپلایوب برده تکرار ایتمگه نه حاجت. حالبوکه مدعی عمومی‌لیك او احوالانی «کندلی غزیه‌سنده‌ده اوقومشدر.

ئه‌للردرمانی‌نه ـ «شرق قادینی‌نا تحاف» شعریگز گیتمه‌دی.

م. اصلان زاده ـ «22 نجی گنج له‌نینچیلر تشکیلاتنده» خبری «پیونه‌ر» مجموعه‌سینه گوندردیك.

صادق الایام ء ـ اوقتیابر گیتمه‌دی.

مسئول مدیره: آینه سلطانووا.

Fai 22013 4°
(1926)

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0465

Tar 22015 40 (39)

1924

ƏƏRK KADLNL

Azərbajcan Kommynist (b) Firkəsi Mərqəzi kadınlar ƨə'bəsinin naƨiri əfqarıdır.



...var 1927
...ji 1 (39)

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-11920154153-185055412919275-11/fragment/page=0467